**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

**ƏLİZADƏ ƏSGƏRLİ**

# MİLLİ İDEAL MÜCAHİDİ

**BAKI-"ELM"-2005**

Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutu Elmi Şurasının 12 dekabr 2005-ci il tarixli (protokol №7) qərarı ilə çap olunur

Ön söz müəllifi: akademik **B.Ə.Nəbiyev**

Elmi redaktor: professor **T.Ə.Əhmədov**

Rəyçilər: Azərbaycan MEA-nın müxbir üzvü,
professor **N.Q.Cəfərov**
f.e.d. **N.Ə.Qəhrəmanlı**

Əlizadə Əsgərli. Milli ideal mücahidi, Bakı, "Elm", 2005, səh. 419
İSBN 5-8066-1780-7

Kitab müəllifin uzun illər "XX əsr Azərbaycan ədəbi-bədii fikrində milli ideal və xalq taleyi problemi (Xəlil Rza Ulutürkün yaradıcılığı əsasında)" mövzusunda apardığı tədqiqatların əsasında hazırlanmış monoqrafiyadır.

Əsərin birinci fəslində X.R.Ulutürkün milli özünüdərkinin şüur və məfkurə qaynaqları tarixi ədəbi proseslə birlikdə ideoloji-bədii olaraq aydınlaşdırılmışdır. Bu fəsildə X.R.Ulutürkün milli mənlik şüurunun xüsusiyyətləri, İstiqlalçılıq, Türkçülük, Vətənçilik, Xalqçılıq və geniş surətdə Azərbaycançılıq baxışları tədqiq olunmuşdur.

İkinci fəsildə X.R.Ulutürkün ictimai-siyasi lirikasının təkamülü və onun fərdi müəyyənlik xüsusiyyətləri, poemalarının tarixə baxış keyfiyyətləri, tarixi gerçəklik zəminində sənətkarın milli xarakterinin təkamülü (lirik "Mən", lirik qəhrəman, lirik şəxsiyyət, milli xarakter) izlənilmişdir.

Üçüncü fəsildə sənətkarın ədəbi-tənqid, bədii tərcümə, publisistika və elmi-tarixi memuarlarının millilik və bəşərilik xüsusiyyətləri ehtiva olunmuşdur.

Monoqrafiyada ümumən Azərbaycan ədəbiyyatının milli ideal və xalq taleyi təcrübəsi ümumtürk ictimai-ədəbi fikri zəminində bir sənətkarın yaradıcılığı əsasında ümumiləşdirilmişdir.

Kitab xalqımız, millətimiz və ədəbiyyatşünaslıq elmi fikrimiz üçün nəzərdə tutulmuşdur. Monoqrafiyadan tələbələr, aspirantlar və dissertantlar ciddi surətdə faydalana bilər.

$$Ə\frac{4603000000}{65(07)-2005}$$

*O illər - 60-70-ci illərdə Azərbaycanda dissident axtarsaydıq, onlar çox idi... Xəlil Rza da ən böyük dissidentlərdən biri idi. Çünki onun əsərləri həqiqəti deyirdi. Amma bu həqiqət o vaxtkı kommunist ideologiyasına zidd idi və buna görə də onlar dissident idilər. Ancaq biz Xəlil Rzanı da qoruduq, saxladıq.*

*...Xəlil Rzanı da həbs etmək məsələsini qoymuşdular. Onu da mən qoymadım, xilas etdim. Neçə-neçə belələrini xilas etdim.*

***Heydər Əliyev***

# ULU MİLLƏTİMİN ADINA BAĞIŞLAYIRAM

Vətən nə Türkiyədir türklərə, nə Türküstan,
Vətən böyük və müəbbəd bir ölkədir: Turan!

**ZİYA GÖYALP**

Turana qılıncdan daha kəskin, ulu qüvvət –
Yalnız Mədəniyyət, Mədəniyyət, Mədəniyyət!

**HÜSEYN CAVİD**

Biz Türkləriz... Vətənimiz - başdan-başa Yer kürəsi.
Bayrağımız al günəşdir, çadırımız göy qübbəsi!

**XƏLİL RZA ULUTÜRK**

## İSTİQLAL ŞAİRİ VƏ ONUN HAQQINDA YENİ TƏDQİQAT ƏSƏRİ

Xəlil Rza Ulutürk keçən əsrin 50-ci illərində yaradıcılığa başlamış, 60-70-ci illərdə bir sənətkar kimi püxtələşmiş, 80-90-cı illərdə Azərbaycanın azadlığı və istiqlaliyyəti uğrunda mübarizəni yaradıcılıq və vətəndaşlıq amalına çevirmiş görkəmli xalq şairidir. X.Rzanın yaradıcılığı ilk illərindən ədəbi ictimaiyyətin diqqətini cəlb etmiş, Məmməd Arif, Məmmədcəfər Cəfərov, Yaşar Qarayev, Əkbər Ağayev, Qulu Xəlilov, Şamil Salmanov, bu sətirlərin müəllifi və digər alimlər, onun əsərləri haqqında əsasən təqdiredici elmi qənaətlərini söyləmişlər. M.A.Dadaşzadə hələ 1954-cü ildə nəşr olunmuş "Yeni nəsil" adlı məqaləsində Xəlili "ciddi gənc şairlərdən" biri kimi təqdir etmiş, onun "Tarla yolunda" adlı şerini "səmimi hisslərin ifadəsi" kimi qiymətləndirmişdi. F.e.n. Mail Dəmirli "Xəlil Rzanın poeziyası" (1996), akad. B.Nəbiyev "İstiqlal şairi" (2001) adlı monoqrafiyalar yazmış, prof. Yavuz Axundlu isə "İstiqlal şairləri" (2002) adlı kitabında X.R.Ulutürk yaradıcılığından geniş bəhs etmişdir.

Xəlil Rza oğlu Xəlilov 1933-cü il, oktyabr ayının 21-də Salyan bölgəsinin Pirəbbə kəndində anadan olmuşdur. Babası Xəlil kişi 1933-cü ildə "tovariş"lər tərəfindən qara maşına basılıb gedər-gəlməzə göndərilmişdir. Ailənin ağır məişət qayğıları o zaman şairin atası Rza kişinin çiyinlərinə düşmüşdür. Əkin yeri əlindən çıxan ailə güzəran ardınca Salyana köçmüşdür. Xəlil 2 nömrəli şəhər orta məktəbinin birinci sinifinə qəbul edilmişdir. İkinci Dünya müharibəsi başlayanda atası Rza kişi orduya çağırılmışdır. O, 1941-1942-ci illərdə Moskva ətrafındakı döyüşlərdə fədakarlıq göstərmişdir.

Xəlilin üzünü görmədiyi babası Rüstəm kişi "əkin üstə" bolşeviklər tərəfindən güllələnmişdir. 20-ci illərin sonu, 30-cu illərin əvvəllərində Azərbaycan torpaqları

pambıqçılığın meydanına çevriləndə Xəlilgilin babadan qalmış bağları da əllərindən alınmış, şumlanıb yerinə çiyid səpilmişdir.

X.Rza 1949-cu ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika şobəsinə daxil olmuşdur. Tələbəlik illərində o, əvvəlcə prof. Cəfər Xəndanın, sonra isə şair Bəxtiyar Vahabzadənin başçılıq etdikləri ədəbiyyat dərnəyinin ən fəal üzvlərindən olmuşdur. Şerləri dövrü mətbuatda müntəzəm çap olunan gənc şair 1954-cü ildə Azərbaycan Yazıçılar İttifaqına üzv qəbul edilmişdir, elə həmin ildə X.Rza ali məktəbi yüksək qiymətlərlə bitirmişdir. O, "Azərbaycan qadını" jurnalının redaksiyasına ədəbi işçi götürülmüş, iki il orada çalışmış, jurnalın səhifələrində öz şerlərini də dərc etdirmişdir.

1957-1958-ci dərs ilində Xəlil Rza Azərbaycan Yazıçılar İttifaqının tövsiyəsi ilə Moskvaya, M.Qorki adına Ədəbiyyat İnstitutu nəzdində fəaliyyət göstərən Ali Ədəbiyyat kurslarına göndərilmişdir. N.Xəzri, Ə.Kürçaylı, Qabil, M.Araz, S.Tahir, Ə.Əylisli, Fikrət Qoca, A.Mustafazadə, S.Məmmədzadə və başqaları da həmin təhsil ocağında oxumuşlar. Bu kurslarda müxtəlif illərdə Çingiz Aytmatov, Rəsul Həmzətov, Yevgeni Yevtuşenko, David Kuqultinov və başqaları da təhsil almış, görkəmli yazıçılar Pablo Neruda, Romen Rollan, Nazim Hikmət və başqaları ilə kursun müdavimlərinin maraqlı görüşləri keçirilmişdir. X.Rza Pavel Antokolskinin sinfində oxumuşdur.

1959-cu ildə təhsilini bitirib Bakıya qayıdan şair bir müddət Azərbaycan Dövlət Pedaqogi İnstitutunda çalışmış, oranın aspirantı olmuş, 1963-cü ildə namizədlik dissertasiyası müdafiə etmişdir. Şair elə o vaxtdan nitqində yersiz olaraq əcnəbi (rus) sözü işlədənləri hər yabançı kəlmə üçün 5 qəpik cərimə edir, danışığından məmnun qaldığı soydaşlarını isə bir manat məbləğində mükafatlandırırdı. X.Rzaya qarşı başlamış təqib kompaniyasının bir səbəbi də bununla bağlı olmuşdur. Onun Yazıçılar İttifaqı xəttilə ke-

çirilən görüşləri məhdudlaşdırılmış, institutdakı dərs saatları azaldılmışdır.

Türkiyədə nəşr olunmuş “Ana dili” şerindən sonra Yazıçılar İttifaqının rəhbərliyində də şairə qarşı soyuqluq, etimadsızlıq yaranmışdır. Onun M.P.Vaqifin 250 illik yubileyinə gəlmiş qonaqlarla öz şerlərini Türkiyəyə göndərmək təşəbbüsü də boşa çıxmışdı. Bütün bunlar İnstitut partiya təşkilatında müzakirə edilib pislənmiş, şair məlum təzyiqlər nəticəsində işdən azad olunmuşdur. O, “Bilik” cəmiyyəti xəttilə rayonlara gedib mühazirələr oxumaqla ailəsini dolandıranda da “dinc durmamış”, vətənpərvərlik, azərbaycanlılıq təbliğatını davam etdirmiş, bu səbəbə görə “Bilik” cəmiyyətindən uzaqlaşdırılmışdır.

Uzun get-gəldən sonra Xəlil Rza Nizami adına Ədəbiyyat İnstitutuna baş elmi işçi vəzifəsinə qəbul edilmişdir. O, Mirzağa Quluzadə, Əziz Mirəhmədov kimi görkəmli alimlərin, demokratik fikirli ziyalıların direktor olduğu həmin İnstitutda çalışarkən yaradıcılığını davam etdirmiş, doktorluq dissertasiyası yazmağa başlamış, tərcüməçiliklə məşğul olmuşdur. 1984-cü ildə X.Rzanın “Ömürdən uzun gecələr” və “Qardaşlıq çələngi” kitabları Azərbaycan SSR Dövlət mükafatı almaq üçün irəli sürülsə də məlum səbəblərə görə mükafat məsələsi baş tutmamışdır. 1985-ci ildə X.Rza “Məqsud Şeyxzadənin bədii yaradıcılığı və Azərbaycan-özbək ədəbi əlaqələrinin aktual problemləri” mövzusunda doktorluq dissertasiyasını uğurla müdafiə etmişdir. 1988-ci ildə Azərbaycan milli azadlıq hərəkatı başlayanda X.Rza da öz ictimai-siyasi fəaliyyətini genişləndirmişdir. O, respublikanın bir çox bölgələrində siyasi təbliğat işi aparmış, “Azadlıq” radiosuna intervülər vermiş, 20 Yanvar hadisələri haqqında həqiqətləri dünya ictimaiyyətinə bəyan etmiş, “Qanlı cəllad Mixail Sergeyeviç Qorbaçova” şeri ilə Qorbaçov və mənfur imperiyanın törətdiyi dəhşətli cinayətləri, onların mahiyyətini xalqa çatdırmışdır.

26 yanvar 1990-cı ildə Xəlir Rza hebs edilmişdir. Guya milli ədavəti qızışdırdığına görə Azərbaycan SSR cinayət məcəlləsinə əsasən ona cinayət işi açılmışdır. Şair 1990-cı ilin 26 yanvarından 4 oktyabrına qədər Moskvanın Lefortovo zindanında saxlanılmışdır. Azadlığa buraxıldıqdan sonra 1991-ci il aprel ayının 15-də Rəfiq Zəka Xəndanla birlikdə Türkiyəyə getmişdir. Ömrünün son illərində şair müalicə məqsədilə Türkiyə, Almaniya və Fransada olmuş, 21 iyun 1994-cü ildə şəkər xəstəliyindən vəfat etmişdir. O, Bakıdakı Fəxrı Xiyabanda dəfn olunmuş, qəbri üstündə əzəmətli heykəli ucaldılmışdır. Şair 1995-ci ildə (ölümündən sonra) ümummilli liderimiz Heydər Əliyev tərəfindən Azərbaycan Respublikasının "İstiqlal" ordeni ilə təltif edilmişdir.

***

Xəlil Rza Ulutürk də qələm yoldaşları kimi gənc sovet şairi olaraq fəaliyyətə başlamış, bir müddət kommunist ideallarının tərənnümçüsü olmuşdur. "Bahar gəlir" adlı birinci kitabındakı (1957) bəzi şerləri nəzərə alınmazsa, əsərləri, o zamanın ən çox dəbdə olan mövzularına həsr edilmişdi. Məlumdur ki, Oktyabr, Lenin, 26-lar, o vaxt təkcə Azərbaycanda yox, bütün sovetlər ölkəsində tanınmış qələm sahiblərinin yarış mövzularından idi.

Xəlil Rzanın yaradıcılığında ilk məzmun dəyişiklikləri 1960-cı illərdən başlamış, sonra getdikcə güclənmişdir. Həmin dəyişiklikləri təmin edən başlıca cəhətlər özünə və ictimai həyata tənqidi münasibətinin güclənməsi, lirik qəhrəmanın inadkarlığının artması, şairin həqiqəti tapmaq uğrunda qızğın idrakı fəaliyyəti və bunların nəticəsində sovet ehkamlarından qurtulması ilə bağlı olmuşdur. Hələ "Sevən gözlər" (1959) lirik şerlər məcmuəsinin əsasını şairin daxili yaşantıları, şəxsi fikir və duyğuları təşkil etmişdir. "Şairin cavabı", "Üç yarpaq", "Tamam doğmayan

günəş”, “Təbəssüm”, “Ağ saçlı, cavan Xəzər”, “O qızın dedikləri” və digər əsərlərdə təsvir olunan hadisə və insanlara incə, lirik münasibət, fərdi duyum üstün kefiyyət olmuşdur. Onun 60-cı illər şerlərinin başlıca mövzularını təbiət lövhələri təşkil etmiş, təbiət hadisələri əsasında şair milli duyğu və düşüncələrini ifadə etməyə çalışmışdır.

Xəlil Rzanı kifayət qədər oxumayanlar, şairin əsərlərinə dərindən bələd olmayanlar bəzən onun millilik, türkçülük, azərbaycançılıq haqqında şerlərində yanlış notlar axtarmış, şairi şovinizmdə günahlandırmışlar. X.Rza isə orijinal bədii əsərləri, elmi-tənqidçilik fəaliyyəti, publisist çıxışları, xüsusən, bədii tərcümələrilə Azərbaycanı ürəkdən sevən, həm də beynəlmiləlçi xalq ziyalısı olduğunu dönə-dönə sübut etmişdir.

“Mən günəş ürəkli Xəlil Rzayam, Yer boyda, göy boyda təbiətim var. Reyhan yarpağından qarışqayacan yurdumda hər kəsə məhəbbətim var”

- misraları şair üçün sadəcə deklarasiya, şüar olmamışdır. O, Azərbaycanda məskunlaşmış azsaylı qardaşlarımıza bəslədiyi səmimi məhəbbəti həmişə ürəkdən tərənnüm edirdi.

Lahıc da, ləzgi də, tat da, talış da,
Kürd, udin, rutul da var-dövlətimdir.
Azərbaycanımın qucaqladığı,
Bağrına basdığı can sərvətimdir.
Fəxrim, qol-qanadım, şan-şöhrətimdir!

SSRİ-də yeridilən antitürk, antiazərbaycan siyasətinə züy tutan o zamankı Bolqarıstanda türklər əleyhinə aparılan şovinist siyasət də bu baxımdan şairin nəzərini cəlb etmiş və o, “Sən alçaqsan!” adlı şerində bu antihumanist siyasətə qarşı kəskin etirazını bildirmişdi.

X.Rzanın poetik manifesti olan “Azadlıq” şeri ilk dəfə “Ədəbiyyat və incəsənət” qəzetinin 24 dekabr 1960-cı il tarixli nömrəsində məlum senzor basqını nəticəsində “Afrikanın səsi” adı ilə dərc edilmişdir. 70-ci illərin sonları, 80-ci illərin əvvəllərində onun sovet mövzularından uza-

qlaşmaq meylləri daha da qüvvətlənmişdir. "Bir cüt göyərçin kimi", "Ömrüm", "Tufanda", "Mində bir", "Qasırğa", "Şəhriyarım", "Gül yastıq", "Min yaşlı çinarlar" və başqa şerləri fikir və duyğular sərbəstliyinin, qurub-yaratmaq əzminin, əxlaqi-mənəvi dəyərlərimizin, təbiətin fəal vətəndaş mövqelərindən tərənnümü baxımından fərqlənirdi. Onun siyasi cəhətdən "arzu olunmaz" şerlərinin kütləvi ədəbi məclislərdə, yubiley gecələrində oxunmasına icazə verilməmişdir. Şair "Söz kürsüsü" şerində bu barədə yazır:

*Sənə söz kürsüsü verilməyəndə,*
*Bəzən qərq olursan qəmə, qüssəyə.*
*Mənsə özgəyəm.*
*...Avtobus. Çimərlik. Təyyarə. Qatar.*
*Gör mənim nə qədər kürsülərim var...*

Xəlil Rza Azərbaycanın Rusiya və İran tərəfindən parçalanması faciəsini ürək ağrısı ilə qələmə almışdır:

*Bir yanda şahənşah, hir yanda da çar,*
*Qan ilə yazdılar sülh qərarını.*
*Tikanlı məftillə sarıdı onlar,*
*Böyük bir millətin yaralarını.*

Rəsmi təbliğat o vaxt bar-bar bağırırdı ki, guya Azərbaycan vaxtilə Rusiya imperiyasının tərkibinə könüllü daxil olmuşdur. X.Rzanın böyük xidmətlərindən biri bu tarixi ədalətsizliyi poetik sözün gücü ilə xalqa çatdırıb, onun vətəndaşlıq duyğularını oyatmasında idi:

*Gürşad tökdü, tufan oldu,*
*Araz daşdı, ümman oldu.*
*Qayaları al qan oldu,*
*O sahildə, bu sahildə.*
*Ölkə yandı, vətən yandı,*
*Qızıl pul tək xırdalandı.*
*Dövlət getdi, var talandı,*
*O sahildə, bu sahildə.*

Xəlil Rzanın "Taparam səni" (1980) kitabının başlıca ideya-məzmunu vətənsevərliyin, humanizmin və şair mən-

liyinin daha parlaq, emosional biçimdə təsdiqindən, meşşanlığa qarşı mübarizənin daha qətiyyətlə ifadəsindən ibarətdir. Kitabın başlıca pafosu insan uğrunda mübarizədir. Bu baxımdan Xəlil Rza klassik poeziyamızın enənələrini ləyaqətlə davam etdirmiş, antihumanizmin ən kiçik təzahürlərinə belə dözməmiş, bu sahədə heç kimə güzəştə getmədən qələm çalmışdır. “Gedəcəksən baharda” adlı lirik poemasındakı “Yalnız özüm üçün yaşasam əgər, bu gündən qazılsın məzarım mənim” beyti şairin bütün yaradıcılıq qayəsini yaxşı səciyyələndirirdi.

Vətənsevərlik, humanizm, tərəqqi uğrunda ardıcıl mübarizə, fəal vətəndaşlıq mövqeyi Xəlil Rzanın 80-ci illər poeziyasında xüsusi bir qüvvətlə, zəngin boyalarda meydana çıxmışdır. Yaradıcı insanın gərgin mənəvi axtarışları, özünə inamı, öz mənliyinə güvənməsi, Araz problemi, Cənub həsrəti, ümumən Azərbaycanın milli-mənəvi bütövlüyünün təsdiqi “Ömürdən uzun gecələr” kitabındakı şerlərin başlıca pafosunu təşkil edir.

Xəlil Rza dramatik poeziya ustasıdır. O, buna həyatın sərt həqiqətlərini, ziddiyyət və münaqişələrini dərindən öyrənməklə, onlan çəkinmədən şerə gətirməklə, can yanğısı sərf etməklə, ilham odu, daxili enerji xərcləməklə nail olmuşdur. Şairin lirik qəhrəmanı böyük və cəsur insandır. O, həyatı sadəcə olaraq seyr etmir, yenidən yaradır. Şair cəsarəti həyatı yaxşı bilməklə, dürüst ideya, məfkurə mövqeyi seçməklə, tərəqqi uğrunda mübarizənin ön cərgəsində getməklə, nəhayət, öz bədii istedadına güvənməklə şərtlənir.

Xəlil Rza tribun olmuşdur. Onun köksü geniş, ürəyi alovlu idi. İctimai ideallarını aşkarlayan şerlerinin çoxu yollarda yaranmış, mübarizənin gedişində yetişmişdir. Hələ “Bilik” cəmiyyəti xətti ilə rayonları gəzən, görüşlər keçirən, mühazirələr oxuyan şairin özünün dolğun bədii surətini işıqlandıran “Mənə bənzər!” şeri bu cəhətdən tipik idi. “Bir cüt limon” şeri insan uğrunda, kamil azərbaycanlı

uğrunda mübarizənin qayəsini düzgün nişan verir: “Mən çağırdım yüz-yüz, min-min sütül gənci Elbrusdan uca duran bir amala!”. Bu amalın adı Azərbaycanın milli-mənəvi bütövlüyü uğrunda mübarizədir. Təbriz radiosunun farsca bir verilişini dinləyən şairin həyəcanları, fikir təlatümləri “Səsin gəlsin, Təbrizim!” şerində məhz böyük amal səviyyəsində bədii ifadəsini tapmışdır. “O qədər doğmasan ki, hətta, yadlar dilində doğmalığın bilinir. Radionu az qala söykəyirəm köksümə. Dinlədikcə səsini, işıq gəlir gözümə. Nəfəsindən güc alır qolum, qanadım, dizim. Bəs niyə özgə dildə, canım, gözüm, Təbrizim?!” Şer yanıqlıdır. Ümumən, Xəlil Rza poeziyası üçün səciyyəvidir.

Sənətkar öz lirik qəhrəmanının qüvvəsinə inanmışdır. İnanmışdır ki, bir fərd öz xalqının mədəniyyət tarixinə işıq sala bilər, cəmiyyətə yaşayıb-yaratmağın yeni etalonunu təqdim edə bilər. Buna görə o, təklənməkdən, yalqız qalmaqdan qorxurdu. “Birsən... yüz min olmalısan. Fərdsən... Vətən olmalısan! Gülsən... bahar olmalısan. Kəsafəti alt-üst edən təzə rüzgar olmalısan” “Ömürdən uzun gecələr” kitabı müəllifin poetik nəfəsinin dərinləşməsindən, genişlənməsindən, bədii dil sənətkarlıq cəhətdən xeyli püxtələşməsindən, zənginləşməsindən xəbər verirdi. Bu zənginlik məhəbbət şerlərində xüsusilə parlaq biçimdə ortaya çıxırdı. Xəlil Rzanın məhəbbət şerləri də təravətlidir, yenidir. Bu şerlərdə həyatın mənasını sevməkdə, özünü başqasına həsr etməkdə görən lirik qəhrəmanın mənəvi həyatı verilir. Sevgi şerlərinin hər iki qütbü: aşiq də, məşuq da fəaldır, yaradıcı insandır, tərəqqi uğrunda mübarizdir. Ən başlıcası - xarakter sahibidir.

“Hara gedir bu dünya?..” kitabı X.Rzanın yaradıcılıq intibahının sanballı göstəricisi olmuşdur. Bu toplu o vaxta qədər heç bir Azərbaycan şairinin kitabında olmadığı dərəcədə milli istiqlal, cəsurluq, qəhrəmanlıq yükü ilə yüklənmişdi. 80-ci illərin ortalarına qədər şairlərin rəsmi ideologiya çərçivələrini dağıdan, milli müstəqillik ehtirası

ilə aşılanmış əsərlərini nəşr etdirməsi müşkül məsələ idi. Ona görə də X.Rza bəzi hallarda istiqlal ruhlu əsərlərini çətinliklə də olsa, ya əyalət mətbuatında (bəzi rayon qəzetlərində) buraxdırmaq, ya da xaricə göndərməyə təşəbbüs etməklə təskinlik tapmış, hər iki halda rəsmi inzibati orqanlar tərəfindən cəzalandırılmış, daha ağır qadağalara məruz qalmışdır.

"Davam edir 37..." (1992) kitabı X.Rzanın ən sanballı kitablarındandır. Burada şairin qiymətli siyasi lirika nümunələri toplanmışdır. Onun siyasi lirikası məzmunca yeni olmaqla yanaşı, öz hərarəti, gərgin dramatik özəyi, münaqişə ruhu, odu-alovu, daxili yanğısı etibarilə seçilirdi. 70-ci illərin sonlarında başlayan, 80-ci illərdə vüsətlənən, 90-cı illərin əvvəllərində kulminasiya nöqtəsinə çatan Azərbaycan azadlıq hərəkatında X.Rzanın fəal iştirakı, siyasi şerləri, publisistikası çağdaş gəncliyin milli ideologiyanı başa düşüb qavraması, onunla silahlanması və milli özünüdərkində bir məktəb olmuşdur. Kitabın adına çevrilmiş "Davam edir 37..." X.R.Ulutürkün proqram şerlərindən biri və ən qüvvətlisidir. Şerdəki bu qüvvət vətəndaş şairin daxili aləmindən, onun sarsılmaz iradəsindən, inam və cəsarətindən mayalanmışdır. Azərbaycanın qırmızı imperiya tərəfindən işğalından bu şerin yazılmasına qədər keçən az qala yetmiş il ərzində sovet hakimiyyəti, onun antixalq, antibəşər, totalitar siyasəti, ölkəni bürümüş həbs düşərgələrinin dəhşətləri, Azərbaycanda xüsusi canşəfanlıqla həyata keçirilən antiazərbaycan, antitürk, antiislam tədbirləri, doğma dilimizin inzibati idarələrin qapıları dalında boynu bükük vəziyyətdə qalması heç bir şairin əsərində bu qədər kəskin və amansızlıqla yüksək bədii səviyyədə ifşa edilməmişdir.

Şeir yaddaş mövzusu ətrafında şairin poetik gəzişmələri ilə başlanır. Tarixi yaddaş motivini 30-cu illərin sovet repressiyasına bədii surətdə bağlayan şair xalq yaddaşını ayıq-sayıq olmağa çağırır.

*Yox, unuda bilmərik biz xeyir cildi geyən şəri,*
*Yüzminləri qanunsuz və məhkəməsiz*
*gülləbaran edənləri.*

Miz üstündə yetim qalmış qələmə, kağıza istinadən, repressiya olunmuş ədib və şairlərimizin pak ruhunu dindirmək üçün şair bu poetik vasitədən istifadə edərək yazmışdır:

*Xəyanətə qurban getdi tər bənövşə, bahar Müşfiq,*
*Hələ də bu cinayətə zirvələrdən baxar Müşfiq.*
*Xəyanətə qurban getdi neçə igid,*
*Pensneli, zər əsalı, nur heykəli ulu Cavid.*

*Qurban getdi dağ bülluru Yusif Vəzir,*
*Yalçın qaya - Əhməd Cavad,*
*Qoç Koroğlu - Sanı oğlu Hacı Kərim,*
*Ulduzları salxım kimi göydən dərən*
*Çobanzadə Bəkirimiz,*
*Güllələndi təpərimiz, kəsərimiz, hünərimiz.*

Müəllif ölkənin bütün qeyrətli vətəndaşlarını azadlıq mübarizəsinə qoşulmağa çağırır, rəsmi dövlət siyasətinə qarşı öz iradlarını bildirmək üçün onları meydanlara səsləyir. Qarabağdakı xəyanətin, Sumqayıtdakı fəlakətin əsl səbəbkarlarını sərrast ifadələrlə ifşa edən sənətkar Azərbaycanın azadlığı uğrunda mübarizənin həm tarixinə, həm də coğrafiyasına müxtəsər poetik ekskurs etmişdir. “Davam edir 37...” şeri siyasi lirikanın çox əhəmiyyətli nümunələrindəndir.

80-ci illər ədəbiyyatının nadir poetik hadisəsi olan “Silahları!” (1988) əsəri də Xəlil Rzanın ən kəskin siyasi şerlərindəndir. Ermənilər gen-bol silahlanıb torpaq iddiasilə hərbi müdaxiləyə hazırlaşanda, soydaşlarımızın isə ov tüfəngləri də əllərindən almanda Xəlil Rza xalqa müraciətlə “Silahları!” demişdi. Hökumət dairələri, rəsmi təbliğat, dövrü mətbuat, televiziya və radionun düşmən tərəfini saxladığı bir vaxtda tribun şair cəsarətlə deyirdi:

*Nə qəm, kinlə silahlan,*
*Topdan, tüfəngdən üstün,*
*Tankdan, raketdən güclü*
*Qeyrətinlə silahlan!*
*Dəyənəklə, kürəklə, daş-kəsəklə silahlan,*
*Nuş et ildırımları, sən şimşəklə silahlan!*

O zaman silahlanmaq üçün imkanı olmayan Azərbaycan xalqını huşyar olmağa, "laylalara yatmamağa" çağıran bu qüdrətli səs hər bir vətəndaşı silkələyir, daha çətin sınaqlara sesləyir, məşəqqətli günlər qarşısmda mənəvi birliyə çağırırdı. "Davam edir 37...", "Yaşasın Xalq Cəbhəsi", "Silahları!", "Qorxaqlıq, cəsurluq", "Səlahiyyət istəyirəm" kimi şerlərin mayasında xalqın taleyi, onun faciəli, məşəqqətli həyatı dururdu.

"Səlahiyyət istəyirəm!" şeri şairin mücadilə ruhlu əsərlərinin ən yaxşı nümunələrindən biridir. X.Rza Azərbaycanın istiqlaliyyəti uğrunda güclü, təsiredici sözü, şeri, yorulmaq bilməyən ictimai-siyasi fəaliyyətilə ardıcıl mübarizə aparmış vətəndaş qələm sahibi, 90-cı illərin əvvəllərində isə əqidəsi yolunda imperiya məhbəsində can çürütmüş ilk və yeganə Azərbaycan şairi olmuşdur. Onun üçün Azərbaycanın istiqlaliyyətindən, həmvətənlərin azadlığından, ölkəmizin dövlət müstəqilliyindən əziz və qiymətli heç nə olmamışdır. Xəlil Rza Ulutürk də M.Hadi, Ə.Cavad kimi istiqlal şairimizdir. Bu bir həqiqətdir ki, yaradıcılığının son illərində (1988-1994) X.Rzanın baş mövzusu Azərbaycanın istiqlaliyyəti və onun taleyi məsələsi olmuşdur.

"Hara qaçırsan, dayan!" əsəri qaldırdığı problemin vacibliyi, əhatə dairəsinin genişliyi və kəskin ideya-məzmunu baxımından lirik poema təsiri bağışlayır. Bəzi gənclərin doğma torpağını, xalqının taleyini çətin vəziyyətdə qoyub, Azərbaycanın istiqlaliyyətini qorumaq əvəzinə fərarilik etməsi, ordu sıralarından qaçması dözülməz idi. Bu səbəbdən də şair xitablar, suallar edir: "Yaxşı, tutaq ki,

sən qaçdın. Bəs sabah arvad-uşağının üzünə necə baxacaqsan? Bəs Məzahir Rüstəm, Seymur Məmmədli, Təbriz Xəlilbəyli kimi şəhid qardaşlarının, fədakarlıqla həlak olmuş milli qəhrəmanlarımızın xatirəsi qarşısında nə cavab verəcəksən?" Vətənin taleyi üçün ömrünü şam kimi əridən, ağır xəstəliklərə düçar olan, imperiya zindanlarının küncündə əzablara qatlaşan, sinəsinə çalın-çarpaz oğul dağı çəkilən Xəlil Rza poemada məhz bu səlahiyyətlərinə görə vətən adından amiranə danışır:

*Nə qədər ki, gec deyil, qayıt bu yoldan, qafil,*
*Ləyaqətlə ölməyi ömrün hünər tacı bil!*

X.Rzanın çox şerləri ilk növbədə kütlə qarşısında oxunmaq, adamları böyük ideallar üçün səfərbərliyə almaq məqsədilə qələmə alınmış, buna görə də publisistik ruhda olub və cidd ictimai-siyasi pafosu özündə əks etdirmişdir. Vətəni Ana timsalı kimi cilvələndirən şair ona müraciətlə demişdir:

*Ordan-burdan pay ummaq, yurdum, yaraşmır sənə.*
*Yumruğunu bərk sıxıb hökmünü bildirsənə!*
*Zirvədədir bayrağın, bayrağı şərəf, ad san.*
*Son öz istiqlalım qorumağı bacarsan,*
*Ehtiyac zəncirini həlqə-həlqə qoparıb*
*Tamam qıra bilərsən!*

Şairin lirik qəhrəmanının səciyyəvi xüsusiyyəti özünü ötüb-keçmək, bunu gündəlik mübarizə amalma çevirməkdir. Onun lirik qəhrəmanının dili ilə ürəyi arasında məsafə yoxdur. Şairin poeziyasında "lirik qəhrəman" sözün əsl mənasında milli qəhrəman, milli xarakterdir.

X.Rzanın lirik qəhrəmanı öz antipodları ilə mübarizədə bütün əzəmətilə canlanır. Bəzən bu qəhrəman öz antipodunu istintaq edən amansız müstəntiqə çevrilir, tərəf müqabilinin mürtəce mahiyyətini yerli-yataqlı, "konkret faktlar" əsasında açıb ifşa edir. "Nə cür baxacaqsan gözlərimə sən?!" şerinin ifşa hədəfi, respublikamızın 90-cı illərin əvvəllərindəki rəhbərləri olmuşdur. Şerdə X.Rza Azərbaycan

xalqının başına gətirilən böyük müsibətləri canlandırır, soydaşlarımızın doğma torpaqlarından qovulub çıxarılmasından, qocaların, körpələrin qarlı dağ aşırımlarında həlak olmasından, Bakı küçələrinə sovet tanklarının od-alov yağdırmasından, günahsız həmvətənlərimizin kütləvi qırğınından bəhs edir. Bəzi rəhbərlər vəzifəsini, titullarını, deputatlığını, avtomobilini itirmək qorxusunu vətənin başına gətirilən faciələrlərdən ağır hesab edir. Şerdə meydana qoyulan həqiqətlərin fonunda “Cınqırın çıxdımı barı bircə yol?!” ittihamı çox tutarlı səslənir və ifşa hədəfi olan namərd, nakəs, xain başçıları biabır, rüsvay edirdi.

X.Rzanın həbsiyyə şerləri “Xüsusi təyyarədə” (28 yanvar 1990-cı il) ilə başlayıb “Poeziya hökmdarı” adlı şeri ilə (sentyabr 1990-cı il) tamamlanır. Şair “Davam edir 37...” kitabındakı bu qəbildən olan əsərləri “Qıfılı o üzdən qapılar” başlığı ilə çap etdirmişdir.

“Həbsiyyə”yə daxil olan şerlərdəki fikir və qənaətlərin konturlarına, ilk cizgilərinə X.Rzanın həbsxana gündəliklərinin ayrı-ayrı qeydlərində rast gəlirik. “Yox, mən qaça bilməzdim”, “Dustaq”,

“Təbrik, Nelson Mandela”, “Salam, Boris Pasternak!”, “Bakıdan gələn bağlama” və onlarca digər şeri göstərir ki, X.Rza onu mütəəssir edən hadisə, əhvalat, fakt, görüş, söhbət və xatirəni dərhal gündəliyində qeyd etmiş, sonra şerlərinin yazılmasında onlardan faydalanmışdır. “Həbsiyyə” şerlərinin ümumi mövzusu azadlıq, istiqlaliyyət olsa da onların həyat materialı çox genişdir. Bu əsərlərdə cənublu qardaşlarımızın azadlıq savaşma, fransız müqavimət hərəkatına, Vyetnamın ABŞ-a qarşı azadlıq mübarizəsinə dair maraqlı hadisə və insanlarla da qarşılaşırıq. Şair bütün bunları özünün zindan həyatı, məhbus duyğuları ilə üzvi surətdə birləşdirib oxucuya təqdim etmişdir. “Qara hədəfə atəş” silsiləsi ictimai satiranın Mirzə Ələkbər Sabir, Rəsul Rza ənənələrinə söykənən poetik nümunələridir. Xəlil Rzanı bu ustad şairlər ilə bağlayan başlıca cəhət satiranın

ictimai məzmunudur, məfkurəsinin xalq mənafeyinə tabe tutulmasıdır. Şer atəşinə məruz qalan qara hədəflər Xəlil Rzanın ictimai düşmənləridir. "Qara hədəfə atəş" silsiləsində gərgin döyüş gedir. Bu döyüş tərəqqi ilə irtica, düzlük ilə yalan, cəsurluq ilə qorxaqlıq, yurdsevərlik ilə milli satqınlıq, zəka ilə nadanlıq arasındadır.

"Məndən başlanır vətən" (1988) kitabındakı satirik şerlərə X.Rza "Ələkbər Sabir işığında" adı vermişdir. Satirik ruh, zəmanədən şikayət, cəmiyyətdəki neqativ hadisələrə kəskin tənqidi münasibət və bunların satirik vasitələrlə təqdimatı həmin kitabdakı şerlər üçün səciyyəvidir. "İftiraçıya", "Heç bir ehtiyat!", "Verin mənim haqqımı!", "Sənin ölümünü gözləyənlər var", "Toxunmadım ilana" kimi əsərlər satirik boyalarının həyatiliyi ilə diqqəti daha çox cəlb edir.

Keçən əsrin 90-cı illərində X.R.Ulutürkün "Ayla Günəş arasında" (1992), "Uzun sürən gənclik" (1994), "Mən Şərqəm" (1994), "Azadlıq" (1998) və başqa şer kitabları çap olunmuşdur. Sədaqətli zövcəsi Firəngiz xanım Ulutürk şair dünyasını dəyişəndən sonra onun irsini səhmana salmış, ondan artıq şer, poema və tərcümə kitablarını, bəzi elmi əsərlərini, gündəliklərindən nümunələri nəşr etdirmişdir.

Uyarlı dövlət sərəncamlarına əsasən X.R.Ulutürkün iki cildlik və beş cildlik seçilmiş əsərləri nəşrə hazırlanmışdır.

* * *

X.R.Ulutürk onlarla irili-xırdalı poemanın müəllifidir. O, poemanı poeziyanın seçmə janrı hesab edirdi. Belinskinin: "Poema həyatı onun ən mühüm məqamlarında ehtiva edir" - fikrini izah edərək, yazırdı ki, həyatdakı hər şey poema üçün mövzu və bədii material ola bilməz. "Poema mütləq qəhrəmanlıq, nəciblik, ləyaqət, vətənpərvərlik, fədakarlıq ruhu ilə dolu olmalıdır. Hətta, poemada müsbət qəhrəman olmasa belə, müsbət ideal mütləq olmalıdır".

X.Rzanın poemaları epik vüsətə malikdir. Brest qalası qəhrəmanı Əliheydər İbrahimovun şücaətlərinə, onun sevgilisi Asya xanımın fədakarlığına həsr olunmuş "Məhəbbət dastanı", ataların mübarizə və hümanizm estafetini davam etdirən oğullara dair "Atalar-oğullar" poeması, Söhrab Tahirə xitabən yazılmış "Az ömürlü ağ günlər", Xəzər qasırğalarında vəzifə başında həlak olmuş qəhrəmanların xatirəsini əbədiləşdirən "Tufandan güclülər" - geniş epik təsvir və təhkiyəsi ilə seçilən bədii nümunələrdir. Şairin ilk sanballı poemalarından biri "Hara gedir bu dünya?"dır. Bu əsər Azərbaycanı ikiyə bölən, bəşər mədəniyyətinə dahilər vermiş bir xalqı əslindən-kökündən, ənənələrindən, mənəviyyatından qoparmağa çalışan qara qüvvələrə qarşı poema-pamfletdir. Əsər ekspozisiya və doqquz bölməsindən ibarətdir. "İki qardaşın söhbəti" adlı bölmə tariximizin parlaq və şərəfli səhifələrindən biri olan Cənubi Azərbaycanda milli demokratik hökumətin bərqərar olması mövzunun və ideyanın predmetinə çevrilmişdir. Cənubda azadlıq uğrunda mübarizə tarixinin ən mühüm mərhələləri, həmin mübarizənin Firudin İbrahimi kimi tanınmış öndərləri, təmənnasız qəhrəmanları, cəsur fədailəri, milli hökumətin qurulması, torpağın kəndlilərə paylanması, ana dilində məktəblərin açılması, ilk Ana dili dərsliyinin işıq üzü görməsi ideal qardaşları olan Söhrab Tahirlə şairin söhbətində ifadə edilmişdir.

*Qalx ayağa, Vətənim!*
*Bu xoşbəxt ölümümlə nümunəyəm mən sənə.*
*Səs ver mənim səsimə Xəzərin ciyərilə.*
*Bütün Babəklərinin, bütün Kərəmlərinin,*
*Bütün Nəbilərinin birləşmiş hünərilə!*
*Bu gün mənim ölməyim, mənim qanlı köynəyim*
*Sənin mübarizənin başlanğıcıdır hələ.*
*Hələ dağ başındadır işıqlı mərhələ.*
*O işığın uğrunda mən ölümə gedirəm.*
*Al, sənə bəxş edirəm,*

*Qızıl bayrağın olsun*
*Gülldən deşik-deşik al qırmızı bədənim!*
*Qalx ayağa, Vətənim!*
*Qalx ayağa Vətənim!*

Qəhrəmanlığın fəcilik ilə vəhdəti və qələbəsi poemanın bu misralarında çox zəngin boyalarla canlandırılmışdır. Şairin SSRİ rejiminə qarşı ağır ittihamnamə kimi səslənən ən təsirli poemalarından biri "Sumqayıt dastanı"dır. Əsəri oxuyarkən bir daha görürsən ki, 1988-ci il fevral ayının 28-də və 29-da ağır iqtisadi, siyasi, ictimai, mənəvi vəziyyətlərinə etiraz əlaməti olaraq küçələrə çıxmış sumqayıtlıların geniş miqyaslı aksiyasından sui-istifadə edən daşnaklar milli münaqişə zəminində iblisanə təxribatlar törətmişdilər. "Adımız, soyadımız" poemasında şair çox aktual, ictimai əhəmiyyətə malik olan bir problem üzərində də düşüncələrini ifadə etmişdir. Məsələ qaldırmışdır ki, Azərbaycan adlarının çoxu ərəb adlarıdır, soyadımızın ifadə forması isə ov/ova kimi rus şəkilçiləri ilə əmələ gəlmişdir. O, əcnəbi kəlmələri doğma sözlərimizlə əvəz etməyi məsləhət gorürdü. Bu baxımdan ədəbi dilə yeni, milli sözlərin daxil olmasında Xəlil Rzanın tarixi xidmətləri həqiqətən böyük olmuşdur.

"Əlvida, Azərbaycan!" ponoram-poeması mövzusu, motivləri, həyat materialı etibarilə X.Rzanın "Qanım bayrağımdadır!" poemasının başlanğıcıdır. Əsərdə 20 Yanvar faciəsinin yüzlərlə dəhşətli epizodlarından birinin fonunda sovet imperiyasının Azorbaycan xalqına qarşı törətdiyi genosid aktının ifşası verilmişdir. Şairin oğlu Təbriz Xəlilbəylinin Qarabağ döyüşlərində böyük fədakarlıq göstərərək həlak olması, ölümündən sonra ona Azərbaycan Respublikasının Milli Qəhrəmanı adının verilməsi, Azərbaycan Respublikasının müstəqillik əldə etməsi, şairin zindan həyatının təsirli epizodları bu panoram poemanın əsas materialını təşkil edir. Əsər zindanın təsvirilə başlanmış, ondakı bütün hadisələrə də elə bu daş qəfəsdən baxılmışdır:

*Kameraya sığınıram, kameramız kiçik, dar,*
*Qıy vursam qəzəbimdən yer də, göy də dağılar.*
*Addımlarım altında taxta, qırmızı taxta,*
*Bəlkə donub, bərkiyib qızıl qan laxta-laxta.*

Şair əsərdə al qanları küçə və meydanlara axıdılmış igid oğul və qızlarımızı ağuşuna alan Şəhidlər xiyabanının poetik mənzərəsini yaratmağa çalışmış, sanki hər bir şəhidin obraz-xatirəsini canlandırmaq istəmişdir. Nəfəs genişliyi - poetik cümlənin sanballı, əhatə dairesinin vüsəti X.Rza yaradıcılığı üçün səciyyəvidir. Şairliyin atributlarından olan özünü ötüb keçmək və bunu daimi, gündəlik mübarizə aktına çevirmək həmişə Xəlil Rza istedadının, onun lirik qəhrəmanının başlıca əlaməti olmuşdur.

***

X.Rzanın əsərləri təkcə onların əks etdirdikləri fikir və ideyalar, məqsəd və arzularla deyil, sənətkarlıq baxımından da çox zəngin və qiymətlidir.

Şair Azərbaycan folklorunu yaxşı bilmiş, "Kitabi-Dədə Qorqud"dan "Qaçaq Nəbi"yə qədər dastanlarımızı, Xaqanidən, Nizamidən, Nəsimidən başlamış S.Vurğuna, M.Müşfiqə və R.Rzayadək klassik şerimizə dərindən bələd olmuşdur. Onun bədii yaradıcılığı zəngin milli və bəşəri qaynaqlara malikdir. "Yox, mən qaça bilməzdim" şerində sevgilisi şəhid olmuş gəlinin ərinin xatirəsinə müraciətlə dediyi sözlər "Kitabi-Dədə Qorqud" dastanında Dəli Domrulun halalının ona dediklərini xatırladır:

*Qarşı yatan şiş dağları*
*Səndən sonra mən neylərəm?*
*Yaylarsam, qəbrim olsun.*
*Soyuq-soyuq bulaqları*
*Səndən sonra mən neylərəm?*
*İçərsəm zəhərim olsun!*
*Tövlə-tövlə köhlənləri*
*Səndən sonra mən neylərəm?*

*Minərsəm tabutum olsun!*
*Sonuncu sükutum olsun!*

X.Rza klassik irsə yaradıcı münasibəti ilə fərqlənən sənətkarlardandır. M.Füzulinin “Məni candan usandırdı, cəfadan yar usanmazmı?” mətləli qəzəli ilə onun “Apardı sellər Saranı” şeri arasındakı səsləşmə bu baxımından çox maraqlıdır. Çar Rusiyası ilə İran monarxiyası arasında bağlanmış bədnam “Gülüstan müqaviləsi” (1828) nəticəsində Azərbaycan xalqının başına gəlmiş ağır tarixi faciənin şiddətini ifadə etmək məqsədilə X.Rza heca vəznində yazdığı şerə Füzuli eruzunun ahənginə uyuğun olaraq, səkkiz hecalı dördlüklər peyvənd etmişdir:

*“Şəbi-hicran yanar canım,*
*Tökər qan çeşmi-giryanım,*
*Oyadar xəlqi əfqanım”*
*O sahildə, bu sahildə.*
*...Nə həsrət, nə hicran olsun,*
*Vahid Azərbaycan olsun!*
*Qoy birləşsin, bir can olsun*
*O sahil də, bu sahil də!*

Bu baxımdan digər bir nümunə S.Vurğunun “Azərbaycan” şerilə ilgilidir:

*“El bilir ki, sən mənimsən,*
*Yurdum-yuvam məskənimsən”*
*Bəs nə üçün namərdlərə*
*Yer verirsən qoynunda sən?!*

X.Rza real bədii təsvirə, obrazlı düşüncəyə, ifadə vasitələrinin təravətinə həmişə üstünlük verirdi. Sözün qüdrətilə mənzərə yaratmaq, bədii surətin portretini çəkmək onun şerləri üçün səciyyəvidir.

*Ey ovcu qabarlı, başı vüqarlı,*
*Alnı muncuq tərli həmvətənlərim,*
*Sevincli, ümidli, qəmli, qüdrətli,*
*Mantyor paltarlı Prometeylərim!*

“Aşıq Talıb”  şerində X.Rza 100 yaşlı Aşıq Talıbın

(Aşıq Ələsgərin oğlunun) canlı portretini yaratmışdır:

*Qırış-qırış sifəti*
*Doğma torpağa bənzər.*
*Dağ başına dırmaşıb*
*Çiynindəki nəvələr*
*Əlləri- kotan ağzı,*
*Boyu çinardan uca*
*Götürəndə sazını*
*Cavanlaşır bu qoca.*

X.Rza irsinin başlıca poetik keyfiyyətlərindən biri bədii forma əlvanlığına malik olmasıdır. Məlumdur ki, heca vəzninin onbirlik bölgüsü Azərbaycan şerinin geniş imkanlı ölçülərindəndir. Lakin şair bununla bərabər, heca vəzninin başqa bölgülərindən və əruzdan da ustalıqla faydalanmışdır.

Onun poeziyasında vəzn baxımından maraqlı hadisələr müşahidə olunur. Şair sərbəst vəznə də biganə deyil. Lakin yeri gələndə, buna xüsusi bədii ehtiyac olduqda, eyni mətn daxilində bunların üçündən də istifadə etməyi bacarır. “Hara gedir bu dünya?...” poemasının “İki qardaşın söhbəti” bölməsində Milli Hökumətin yaradılması münasibətilə çağırılmış qurultayın təsvirini verən hissədə belə bir parça var:

*Açılır ilk qurultay! Açılır səhər.*
*Açılır arzuların yolu.*
*Açılır arzulardan dügünlər.*
*Açılır*
*Min il nisgilli qalan könüllər.*
*Açılır*
*Bağlarda, çəmənlərdə, könüllərdəki güllər.*
*Güllər və könüllər,*
*Könlümdəki sellər.*
*Buludu yarıb çıxan al qırmızı günəş tək*
*İşıqladır salonu bir kəlmə söz:-Azadlıq!*

Burada sərbəstdən (ilk altı misra) əruza (onların ardınca

gələn üç misra) və əruzdan hecaya (son iki misra uğurlu) vəzn keçidləri vardır.

X.Rzanın dördlükləri arasında istər mövzusu, qaldırdığı problem, istərsə də problemin poetik həlli baxımından klassik rübailərimiz səviyyəsində duran nümunələr var:

*İlbiz işıldayır, nur yaya bilməz,*
*Rütbə düşgünləri parlaya bilməz.*
*Yalnız stolunu qoruyan gəda*
*Xalqın şərəfini qoruya bilməz.*
*Neçin ağacları çox istəyirəm?*
*Ağac əllərimə bənzəyir onlar.*
*Bütün sərvətini bəsəriyyətə*
*Təmənnasız verən ürəkləri var.*

Sənətkar təkcə şerlərində deyil, bəzi poemalarında da ədəbi təcrübədə nisbətən az işlənən beş misralıq bəndlərdən istifadə etmişdir. "Türkel balam" poeması başdan-başa beşlik formasında yazılmışdır. 52 bənddən ibarət bu əsərin qafiyə quruluşu aaabb şəklindədir:

*Səsin, ünün qayaları tərpədir.*
*Kim deyir ki, mənim balam körpədir?*
*O, Sabahkı qasırğadan ləpədir,*
*Qasırğamsan, tufanımsan Türkelim,*
*Ehkamları yıxanımsan, Türkelim!*

Onun şerlərindo a b v b b şəklində qafiyələnən beşliyin - Vurğun bəndlərinin də maraqlı nümunələri vardır:

*Başımın altında Savalan, Sayan:*
*Fikir ver qanımda qaynar axına.*
*Yerindən qaldırıb Qoşqar dağını*
*Qoşmaq istəyirəm Ural dağına,*
*Fikir ver qanımda qaynar axına!*

Hecanın on beşliyi ilə əruzun uyarlı bəhrinin hüdudlarına gəlib çıxan belə şerləri də az deyil:

*Yenə qarşıda mənəm, bircəciyim, tək gözəlim,*
*Mən ata, sən ana bülbül, sarıköynək gözəlim.*

*Öz əlim, öz darağım qoy darasın saçlarını*
*Oxşayım busəm ilə kirpiyini, qaşlarını.*

"Ay aman!" şerini isə şair təzad formasında qələmə almışdır. Bu az işlənən forma əsrarəngiz məhəbbət duyğularının bəkarətini, paklığını əks etdirməkdə şairə yaxşıca kömək etmişdir:

*Biz ikimiz çıxdıq dəniz seyrinə,*
*Axdıqca axdıq.*
*Suda gümüş ayın qızıl şövqünə*
*Baxdıqca baxdıq.*

*.. Göz gözü oxşadı, göz gözü duydu.*
*Sözsüz sorğusuz.*
*Başımı çiynindən köksünə qoydum,*
*Dinmədi o qız.*

*Dözmədim... alışdı təryanaqları,*
*Elə bax, bu an*
*Bircə yol açıldı gül dodaqları,*
*Dedi: -ay aman!*

*Bu səs məhəbbətin ürəyə dolan*
*Öz səsiydimi?*
*Yoxsa ilk busədən qəfil məst olan*
*Qız səsiydimi?...*

Möhtərəm oxucu fərqinə varmamış deyil ki, bu miniatür müstəzadı xələldar etməmək üçün onun tam mətnini verməli olduq.

X.Rzanın poeziyasında son dərəcə əlvan qafiyə sistemi mövcuddur. "Gəlir böyük Azərbaycan" şerindəki qafiyə bolluğu diqqəti xüsusilə cəlb edir:

*Zirvələrdən üzü bəri*
*Gəlir məğrur Azarbaycan!*
*Gəlir cəsur Azərbaycan!*
*Nur və büllur Azərbaycan!*

Aşağıdakı bənddə misraların dördü də həmqafiyə sözlərlə müzəyyəndir:

*Gəl gəzə-gəzə*
*Qalxaq Kəpəzə,*
*Dünya təptəzə,*
*Dünya möcüzə!*

Məna ardıcıllığı və təbiiliklə yanaşı qafiyənin gözəlliyi və “z” səsinin yaratdığı ailiterasiya da burada misraların ahəngdarlığını təmin etmək üçün öz işini görmüşdür.

“Azərbaycan” şerində şair misrabaşı qafiyələndirmədən çox məharətlə istifadə etmişdir:

*Xəlil Rza atılsa da*
*Bucağına zindanların,*
*Azərbaycan sığa bilməz*
*Qucağına zindanların.*
*Aman dostlar, siz gəlməyin*
*Ayağına zindanların,*
*Lənət deyin qan-qırmızı*
*Bayrağına zindanların*

Altı misralıq bəndlərdən ibarət “Dünya gözəli” şerində bəndləri təşkil edən altı misranın hamısı həmqafiyədir:

*Hansı on beş yaşlı qız çata bilər də, sənə?*
*Həqiqəti car çəkib özün ərzə desənəl*
*Yüz ilimi verərəm bircə şirin busənə,*
*Bənzətmərəm hüsnünü nə gülə, nə süsənə,*
*Çünki camalla birgə kamaldır qismət sənə.*
*Bu iki gözüm qurban məndən umub-küsənə.*

Azərbaycan şerinin məcazlar sistemində təşbeh geniş yer tutur. Orijinal təşbehlər sistemi X.Rza şerinə də xüsusi rövnəq və bədiilik vermişdir.

*Qarabağ - ürəyimdir, Şuşa - gözüm giləsi,*
*Gözlərimə tuşlanıb bu gün düşmən gülləsi.*

X.Rzanın təşbeh yaratmaq üsulları son dərəcə əlvan və zəngindir. Bəzən o, real həyat hadisələrini əks etdirən misralarla yanaşı, onların fonunda elə misra-təşbeh işlədir

ki, bu da öz növbəsində obrazlı ifadənin təsir qüvvəsini qat-qat artırır. Qobustan qayalarından bəhs edən “Yaşamaq üçün” şerində əcdadlarımızın həyat problemlərindən, məişət çətinliklərindən söz açan şair yazır ki, onlar:

*Halal bir ruzu üçün*
*Yer qazıb, dağ yarıblar.*
*Daşdan çörək çıxarıb,*
*Daşdan od çıxarıblar.*

***

Xəlil Rza Ulutürk tanınmış ədəbiyyatşünas-alim kimi sənətə dair məsələlərlə də ciddi məşğul olmuşdur. Şairin folklor, aşıq yaradıcılığı, klassik və müasir ədəbiyyat, lirika, nəsr, dramaturgiya və teatra dair maraqlı məqalələri vardır. O, S.Vurğun, M.Müşfiq, R.Rza, B.Vahabzadə, Rəfiq Zəka haqqında elmi kitabların, H.Cavid, R.Rza, M.Şəhriyar, Ə.Kərim, M.Araz, S.Tahir, Ə.Tudə, Ə.Vahid, M.Şeyxzadə, Ə.Cəfərzadə, İ.Şıxlı, N.Həsənzadə, Qabil, C.Novruz, H.Arif, Q.Qasımzadə və başqalarının yaradıcılığı haqqında ədəbi-tənqidi məqalələrin müəllifidir.

“Bədii sözün tanrısı” (1987) X.Rzanın ədəbiyyatşünaslıq sahəsində nəşr edilmiş ən bitkin əsərlərindən biridir. Məqalə Nizami Gəncəvinin 100 cildlik “Dünya ədəbiyyatı kitabxanası” düzümündən 1988-ci ildə “Yazıçı” nəşriyyatı tərəfindən buraxılmış bircildliyə müqəddimə kimi yazılmışdır. Bu cilde Nizaminin lirikası, “Sirlər xəzinəsi” və “Şərəfnamə”əsərləri daxil edilmişdir. Həmin məqalədə Nizaminin lirik şerlərinin təhlili xüsusi yer tutur. X.Rza göstərir ki, Mütəfəkkir sənətkarın lirikasında sevgi dünyanı idrak vasitəsidir, sevgisiz həyat mənasızdır. Ən böyük fədakarlığın, qəhrəmanlığın əsasında məhz məhəbbət durur. İnsanlığı sevmək fərdi sevməkdən başlanır. Fərdi sevə bilməyən milləti, bəşəri də sevə bilməz. Nizami lirikası gözələ eyb gətirən cəhətləri, yaramaz ictimai münasibət-

lərin doğurduğu eybəcərlikləri, alçaq ehtirasları insan varlığından qoparıb atmaq, könülləri saflaşdırmaq uğrunda mübarizə vasitəsidir.

X.Rza “Sirlər xəzinəsi”ndə mərkəzi problemin insan problemi olduğunu etiraf edirdi. Nizamiyə görə pl anetləri kəşf edib ucalara qalxmaq iqtidarında olan insan məğmun olmamalıdır. O, məğrur, azad, qüdrətli ikən, miskin, aciz və müti hala salınmışdır. Bunun bir səbəbi ictimai quruluşla insan nəfsinin birliyindədir. İctimai quruluşun yaramazlıqları haqqında fikirlərini Nizami fələk, çərx, qəza, tale, div, şeytan, iblis məcazları ilə xatırlatdığı kimi, insanın qüsurlarını da onun nəfsində, tamahında, sərvət və şöhrət düşgünlüyündə görmüşdür.

“Xəmsə”də X.Rzanı daha çox düşündürən əsər “İskəndərnamə” olmuşdur. Nizami ideallarının daşıyıcısı olan İskəndəri çox bəyənən X.Rza hesab edirdi ki, başda Ərəstu olmaqla alimlərlə dostluq edən, məzlum misirliləri zahm zəngibarların əsarətindən qurtaran, ciddi ixtilafları qızıl, söz, elm, nəhayət, peyğəmbərlik və tanrıya yalvarış gücünə həll etməyə çalışan, yeri gələndə silah işlətməyə məcbur olan, qalib gələndə öyünməyən, vuruşa-vuruşa düşünən, düşünə-düşünə vuruşan İskəndər ədalət və zəka timsalıdır. O, Nizaminin bu dünya ölkələrində görmək istədiyi hökmdar idealıdır!

X.Rzanın təqdimində və şərhində Bəxtiyar Vahabzadənin lirikası dramatik özəyə malikdir... O bütün həyat hadisələrinə fəal şair münasibətini bildirən, yanan, yaradan sənətkar, milli ənənələrə söykənən novator şairdir. Bu keyfiyyət onun həm dilində, həm yazı və düşüncə tərzində, həm də əsərlərinin məzmununda aydın gözə çarpan məziyyətlərdir. X.Rzaya görə B.Vahabzadə öz əsərlərində bədii-fəlsəfi mühakiməyə üstünlük verən fikir şairidir... Şərq şerinin, klassik Azərbaycan poeziyasının ən dərin qatlarından süzülüb gələn bu keyfiyyət Bəxtiyar yaradıcılığında yeni keyfiyyətlə də üzə çıxır.

X.Rza 60-cı illərin əvvəllərindən başlayaraq ədəbi tənqid-

lə də müntəzəm məşğul olmuş, “Müharibədən sonrakı Azərbaycan sovet ədəbiyyatında poema janrı (1945-1950)” mövzusunda namizədlik dissertasiyası yazıb müvəffəqiyyətlə müdafiə etmişdir. Bu əsərində alim poema janrının inkişafı üçün təməl olan mənbələri göstərmiş, Xaqani Şirvani, Nizami Gəncəvi, Arif Ərdəbili, Füzuli, Saib Təbrizi poemalarının zəngin yaradıcılıq xəzinəsi olduğundan bəhs açmış, bu sahədə “Abbas və Gülgəz”, “Şəhriyar” və “Qaçaq Nəbi” dastanlarının rolunu xüsusi qeyd etmişdir. Tədqiqatda XX əsrin Azərbaycan poeziyasında ilk poema nümunələrinin meydana gəlməsi və inkişafı araşdırılmış, Cəfər Cabbarlının “Qız qalası”, Hacı Kərim Sanılının “Köç”, Hüseyn Cavidin “Azər” ponmaları, xüsusən M.Müşfiqin “Qaya”, “Səhər”, “Sındırılan saz” əsərləri əsaslı surətdə bədii təhlilinin predmetinə çevrilmiş, janrın inkişafında onların rolu obyektiv qiymətləndirilmişdir. X.Rza poemada lirik qəhrəman problemini qaldırmış, S.Vurğunun “Muğan”, “Bakının dastanı” poemalarını diqqət mərkəzində saxlayaraq, onların orijinal bədii forma xüsusiyyətləri, ideya-məzmunu və milli koloritindən danışmışdır.

X.Rza “Məqsud Şeyxzadə poeziyası və Azərbaycan-özbək ədəbi əlaqələrinin aktual problemləri” adlı doktorluq əsərində, habelə, 1980-ci ildə “Elm” nəşriyyatı tərəfindən buraxılmış “Məqsud Şeyxzadənin bədii yaradıcılığı” və daha əvvəl nəşr etdirdiyi “Məqsud Şeyxzadə” (1978) kitablarında, habelə, bir sıra məqalələrində iki xalqın övladı, görkəmli sənətkar-alimin çoxcəhətli yaradıcılığı, xüsusilə, onun ədəbi əlaqələr sahəsindəki müstəsna rolunu geniş elmi tədqiqat obyektinə çevrmişdir.

1970-1980-ci illərdə X.Rza ruhən özünə yaxın sənətkarların bədii yaradıcılığını ciddi təhlildən keçirmiş və Əli Kərim, Qabil, Fikrət Sadıq, Hüseyn Arif, Məstan Günər, Nəriman Həsənzadə, Cabir Novruz və başqaları haqqında təravətli ədəbi-tənqidi məqalə və resenziyalar yazmışdır. Onun 2003-cü ildə çap edilmiş “Ədəbi tənqid” kitabında folklor, klassik irs, müasir ədəbiyyat (lirika, nəsr, dramaturgiya), teatr və nəzəriyyəyə

aid məqalələri toplanmışdır.

* * *

X.R.Ulutürk çox məhsuldar tərcüməçi idi. Keçən əsrdə Azərbaycanda milli ədəbi tərcümə məktəbinin formalaşmasında onun tarixi xidmətləri vardır. X.Rza tərcümənin elmi-nəzəri problemlərinə də diqqət yetirmiş, bu sahəyə aid "Şairlik və bədii tərcümə", "Bədii tərcümə milli mədəniyyətin ayrılmaz hissəsi kimi", "Bədii tərcümə bədii kəşf olmalıdır", "Tərcümə və bədii dil", "Poetik tərcümədə şairliyin elmi filoloji əməyə arxalanması zərurəti" və başqa qiymətli məqalələrini yazmışdır. Tərcüməçilik X.Rzanın oxumaq, öyrənmək, biliklərini zənginləşdirmək, bədii zövqünü dünya ədəbiyyatının yüksək səviyyəli nümunələri əsasında tərbiyə etmək zərurətindən doğmuşdur desək yanılmarıq. 1970-ci illərdən başlayaraq dövrü mətbuat səhifələrində səpələnmiş tərcümələrin əbədi ictimaiyyətdə oyatdığı uğurlu təəssürat nəticəsidir ki, onun 1982-ci ildə "Qardaşlıq çələngi", 1984-cü ildə "Dünyaya pəncərə", 1992-ci ildə "Turan çələngi", 1994-cü ildə "Qutadqu-bilik", 2000-ci ildə "Yeddi gözəl", 2002-ci ildə isə "İsgəndərnamə" poeması kimi sanballı tərcümə kitabları nəşr edilmişdir.

"Qardaşlıq çələngi"ndə şairin keçmiş SSRİ xalqlarının poeziya xəzinəsindən dilimizə çevirdiyi nümunələr toplanmışdır. Tərcüməçi Rusiya, Ukrayna, Belarus, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Gürcüstan, Moldova, Tacikistan, Türkmənistan, Estoniya, Latviya, Litva xalqlarının yüzdən çox şairinin əsərlərini ana dilimizdə səsləndirmişdir. "Dünyaya pəncərə" adlı tərcümə kitabında isə yunan, macar, bolqar, çex, alman, fransız, ingilis, italyan, əfqan, hind, yapon, zair və başqa xalqların (28 xalqın) poeziya dünyasından seçmələr tərcümə edilmişdir. Madaqaskar, Mozambik, Filippin, Fil Dişi Sahili kimi ölkələrin şer gülüstanı ilə Azərbaycan oxucuları ilk dəfə X.Rzanın tərcümələrində tanış olmuşlar.

X.Rzanın tərcümə kitabları arasında ən sanballısı “Turan çələngi”dir. 1992). O, həmin kitabı 90-cı illdərin başlanğıcında, milli azadlıq uğrunda mübarizənin genişləndiyi bir vaxtda tərtib edib Azərbaycan Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutu xəttilə nəşr etdirmişdir. 800 səhifəlik kitabın adı onun mahiyyətini dürüst ifadə edir. Şair türk dünyasının min ildən artıq zaman vüsətində yaranmış qiymətli poeziya nümunələrindən həqiqətən də gözəl bir çələng hazılayıb oxuculara təqdim etmişdir. Həmin şerlərin bir qismini X.Rza türkcə, özbəkcə, qazaxca və tatarcadan dilimizə uyğunlaşdırmışdır. Əfzələddin Xaqani, Nizami Gəncəvi, Nəsirəddin Tusi, Saib Təbrizinin əsərlərini farscadan, Mirzə Şəfi Vazehin şerlərini isə ruscadan birbaşa tərcümə etmişdi. “Turan çələ-ngi”ndə təmsil olunan şairlər arasında türk xalqları ədəbiyyatlarının sütunları olan Yusif Xac Hacib, Əlişir Nəvai, Babarəhim Məşrəb, Çolpan, Məqsud Şeyxzadə, Qafur Qulam, Zülfıyyə, Abdulla Arif, Əsəd Muxtar, Oljas Süleymenov, Abdulla Tukay, Yəhya Kamal, Məhməd Akif Ərsoy, Qətran Təbrizi və Şəhriyar kimi sənətkarlar da vardır.

X.Rzanın rus dilindən tərcümələrində çox ciddi yaradıcılıq zəhməti, ardıcıl fikir, bədii axtarış, mütərcimin həmin axtarışlara qanad verən məqsəd ucalığı və böyük məhəbbəti vardır. Onun ən yaxşı tərcümələrində orijinala sədaqət canlı fikir üçün buxova çevrilmədiyi kimi yaradıcılıq sərbəstliyi də mütərcim özbaşnalığından uzaq olmuşdur. Şairin Puşkin, Lermontov, Nekrasov, Blok, Luqovskoy, Yevtuşenko, Voznesenski, Rojdestvenskidən tərcümələri xüsusilə uğurludur və ədəbiyyatımızın qarşılıqlı əlaqələrinin xəritəsini əlvan boyalarla zənginləşdirmişdir.

X.R.Ulutürkün ədəbi irsinin geniş bir hissəsi hələ də çap olunmamışdır. Onun zəngin arxivindəki 200-dən artıq qovluqda qiymətli publisist əsərləri - gündəlikləri öz araşdırıcısını və nəşrini gözləyir.

Görkəmli şair, mütəfəkkir, şəxsiyyət, istiqlal mücahidi və ictimai- siyasi xadim olan Xəlil Rza Ulutürkün xalqımızın və

ədəbiyyatımızın tarixində çox mühüm yeri vardır.

* * *

Xəlil Rza Ulutürkün zəngin yaradıcılıq irsi elmi ictimaiyyətimizi yaxından düşündürməkdə, sistemli tədqiqat obyektinə çevrilməkdədir. Hazırda şairin ədəbi irsi elmi-pedaqoji sahədə çalışanların da güclü maraq dairəsindədir.

Təbii ki, X.R.Ulutürk haqqında ardıcıl elmi məqalələr yazılmaqda, monoqrafıyalar nəşr edilməkdədir. Yuxarıda qeyd edildiyi kimi bu sahədə ilkin olaraq bu sətirlərin müəllifinin "İstiqlal şairi", prof. M.Dəmirlinin "Xəlil Rza Ulutürkün poeziyası" monoqrafiyaları qeyd oluna bilər.

Azərbaycan MEA Nizami adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya elmləri namizədi Əlizadə Bayram oğlu Əsgərlinin "Milli ideal mücahidi" adlı monoqrafiyası Xəlil Rza irsinin öyrənilməsində uğurlu addımdır. Bu monoqrafiya onun "XX əsr Azərbaycan ədəbi-bədii fikrində milli ideal və xalq taleyi problemi (Xəlil Rza Ulutürkün yaradıcılığı əsasında)" mövzusunda yazdığı doktorluq dissertasiyası əsasında hazırlanmışdır. Ə.Əsgərli tədqiqatla bağlı olaraq dövri mətbuatla, arxiv sənədləri, özəlliklə də şairin gündəlikləri ilə yaxından tanış olmuş, X.Rzanın yaradıcılığını dərindən öyrənmiş və özünün bu sanballı tədqiqat əsərini ortaya qoymuşdur. Onun monoqrafiyasının aktuallığı, elmi yeniliyi həm də ondadır ki, tədqiqatçı Xəlil Rza Ulutürk irsinə mövcud ənənəvi, sosioloji təhlil üsulu ilə deyil, bir qədər başqa cür, yəni ideoloji-nəzəri təhlil səviyyəsində problemi araşdırmağa nail olmuşdur. Əlbəttə, belə bir təhlil yönü problemin mövzusundan irəli gəlmişdir.

Ə.Əsgərlinin əsəri azərbaycançılıq ideologiyasının zənginləşməsi sahəsində qiymətli mənbədir. İstiqlalçılıq, Türkçülük, Azərbaycançılıq, Dövlətçilik məfkurəmizin möhkəmləndirilməsində, gəncliyimizin, vətəndaşlarımızın milli şüur və məf-

kurəcə yetişməsində bu tədqiqatın əhəmiyyəti şübhəsizdir.

Əlizadə Əsgərli monoqrafiyada ideoloji məsələlərlə bərabər, ədəbi-bədii problemlərin izahında da orijinal elmi-təhlil bacarığı ilə seçilir. O, X.R.Ulutürkün ictimai-siyasi lirikasının təkamülünü milli ideal və xalq taleyi zəminində yeni bədii təhlil sferasında oxuculara çatdırır.

"Milli ideal mücahidi" adlı monoqrafiya sistemli tədqiqat əsəridir. Ə.Əsgərli həm də X.R.Ulutürkün ədəbi irsinin tənqid, tərcümə, publisistika, memuar yaradıcılığını milli və bəşəri keyfiyyətlər baxımından tədqiqata cəlb etmişdir.

Ə.Əsgərli X.R.Ulutürkün onlarla kitablarına redaktorluq etmiş, şair haqqında ön sözlər yazmışdır.

Biz inanırıq ki, "Milli ideal mücahidi" kitabı ədəbiyyatımız, Ulutürkşünaslığımız üçün qiymətli töhfə olacaq, milli ideologiyamız, şüur və məfkurəmizin zənginləşməsinə kömək edəcək və müəllifinə yeni yaradıcılıq uğurları gətirəcəkdir.

**BƏKİR NƏBİYEV,**
*Azərbaycan MEA-nın həqiqi üzvü, akademik*

# GİRİŞ

Xəlil Rza Ulutürk XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, filosof, mütəfəkkir şəxsiyyət, ictimai-siyasi xadim, milli-demokratik hərəkatımızın usanmaz mücahididir. O, Azərbaycan poeziyasında orijinal ədəbi simadır. X.R.Ulutürk ədəbiyyatda turançılıq, vətənçilik, azərbaycançılıq və istiqlalçılıq məfkurəsinin davamçısıdır. Onun poeziyası milli ideallarla aşılanmış, xalq məfkurəsi və taleyini daha ciddi əks etdirmişdir.

Sənətkarın yaradıcılığı ilə bağlı M.Arif, M.Cəfər, İ.Şıxlı, Ə.Ağayev, B.Nəbiyev, Y.Qarayev, B.Vahabzadə, Qabil, M.Araz, Q.Qasımzadə, Q.Xəlilov, Ş.Salmanov, S.Tahir, H.Orucov, G.Fəzli, S.Əliyev, R.Duyğun, A.Hacıyev, C.Abdullayev, A.Hüseynov, Y.Uxundlu, T.Əbülhəsənli, C.Novruz, T.Əlişanoğlu, R.Əliyev, M.Məmmədov, S.Altaylı, Ə.Mustafayev və başqaları məqalə yazmışdır.

Şairin poeziyasına münasibət bildirən alimlər sırasında akad. M.Arifin adı xüsusi qeyd olunmalıdır. Poetik nümunələri mətbuatda təzəcə dərc olunan şairə ilk dəfə münasibəti o bildirmişdir. Alim "Yeni nəsil" (1954) məqaləsində X.Rzanın da adını çəkmiş, ona münasibətini bildirmişdir. "Tarla yolunda" şeirinə iradını bildirməklə, Xəlil Xəlilovun "ciddi gənc şair", "yazdıqları şeirlərin çoxu səmimi hisslərinin ifadəsi" olduğu qeyd edilir və "sünilikdən", "ifrat şəxsi subyektiv hisslərdən", "mücərrəd və ümumilikdən" uzaq olması, "ictimai mənaya daha çox diqqət yetirməsi məsləhət görülürdü" [10, s.304].

M.Arif "Azərbaycan sovet şeiri" [13, I c, s.543 - 544] məqaləsində Əli Kərim, Məmməd İbrahimov, Sərdar Əsəd, Cabir Novruzov, Famil Mehdiyev, Rüfət Axundov, Tofiq Mehdiyev və Xəlil Xəlilovu "son beş - altı ilin istedadlı gənc şairi" kimi qiymətləndmişdir. "Poeziya və keyfiyyət" məqaləsində isə o, X.Rzaya məsləhət görürdü ki, "obrazları gurultulu, təmtəraqlı, mübaliğəli söz və ifa-

dələrdən” qorusun. Alim X.Rzanın “pələng”, “şir”, “qartal”, “ildırım”, “bəşəriyyət”, “ilham”, “od-ataş”, “ümman” kimi sözləri tez-tez işlətdiyinə etiraz edir, sözün təsir gücünü artırmaq üçün “ciddi hazırlıq işləri aparmağı” tövsiyə edirdi [15, I c, s.597]. Bütün bunlar X.Rzanın poetik özünüdərkinin yetişməsində rol oynamış, şairin poetik sözə ciddi münasibətini gücləndirmişdir.

Akad. B.Nəbiyevin X.Rzanın “Taparam səni” kitabına yazdığı ön sözdə şairin heca və əruz şeiri imkanlarından istifadə bacarığını, şeir və poemalarının epik vüsətini, bədii forması, vətənpərvərlik və humanizm keyfiyyətindən danışmışdır.

Alim X.Rzaya bir sıra məqalə həsr etmiş, haqqında monoqrafiya yazmışdır.

Monoqrafiyada şairin həyatı, mübarizəsi və yaradıcılıq irsini izləmiş ədəbiyyatşünas əsas diqqəti onun vətəndaş məramına, poeziyasının inkişafına, poemalarındakı epik vüsətə, şairin ədəbi prosesdəki yerinə, tərcüməçilik yaradıcılığına və bədii sənətkarlığına doğru yönəltmişdir. Akademik Xəlil Rza yaradıcılığının özünüdərk, türkçülük, azərbaycançılıq, istiqlalçılıq ideyalarına toxunmuş, lakin həmin məfkurələr haqqında danışmağa lüzum görməmişdir.

Tənqidçi Y.Qarayevin “Mərdlik alovu” məqaləsi X.Rzanın “müstəqil üslub və sənətkar mövqeyi”, “həyat hadisələrinə fəal müdaxilə, daxili narahatlıq, vətəndaş cəsarəti, ictimai-siyasi siqlətinə görə seçilir”.

Məqalədə Şəhriyarın “Əziz rəssam”, İlya Selvinskinin “Babək” əsərləri, habelə, Abdulla Tukay, Musa Cəlil, Qaysın Quliyev, K.Simonov, E.Mejelaytis, Y.Yevtuşenko, R.Rojdcstvenski, Qafur Qulam, M.Şeyxzadədən edilmiş çevirmələrin yüksək keyfiyyəti göstərilir.

Xalq yazıçısı İsmayıl Şıxlının “Zindandan keçən azadlıq yolu” məqaləsində X.R.Ulutürkün məsləki, böyük poeziya yoluna gəlişi, siyasi şüur oyanışının əsasları, şairin

azadlıq idealı uğrunda mübarizəsi həm publisistik-xatirat, həm də ədəbi-tənqidi ruhda təqdim olunur.

B.Vahabzadə "Poeziya alovu" məqaləsində şairin sözdən istedadla istifadə etmək bacarığı qiymətləndirir. "Adilər və dahilər" şeirinin poetik məziyyətlərindən danışan, obrazlardakı təbiiliyi, ictimai məna və məzmunu yüksək dəyərləndirən B.Vahabzadə Xəlil Rzanın Vətən, tarix və xalq qarşısında ictimai borcundan söz açmışdır.

Tənqidçi-ədəbiyyatşünas Ə.Ağayev "1961-ci ildəki poeziyaya bir nəzər" məqaləsində X.Rzan yaradıcılığının təşbehlər silsiləsini, "beynəlxaq mövzuda yazdığı siyasi məzmunlu şeirlərində mübariz çağırış ruhunu" qiymətləndirmişdir.

"Yenilik duyğusu və poeziya" məqaləsində tənqidçi şairin lirikasındakı müasirlik və novatorluq keyfiyyətindən danışmışdır.

Ş.Salmanov "Poeziya və tənqid" məqaləsində R.Rza, N.Xəzri, B.Vahabzadə, B.Azəroğlu, Ə.Tudə, M.Gülgün, S.Tahir, C.Novruz, N.Həsənzadə, F.Mehdi və X.Rzanın Cənub mövzusuna təkcə siyasi planda yox, həm də fəlsəfi-sosial və tarixi planda müraciət olunduğunu xüsusi xatırladır. S.Rüstəm, N.Xəzri, Q.Qasımzadə, N.Həsənzadə, X.Rza və başqalarının şeirlərindəki "fəal, nəcib tarixi yaddaş keyfiyyətini, onun poetik fərdiliklərini yüksək qiymətləndirir".

Ş.Salmanov "Poeziya və tənqid" (Tənqid - 77)" məqaləsində diqqəti X.R.Ulutürkün tərcüməçilik yaradıcılığına yönəldir. O, X.Rzaya "Dost sözü" adlı ədəbi-publisistik, "Qəhrəmanlıq poeziyası" adlı ədəbi-tənqidi məqalə də həsr etmişdir.

Filologiya elmləri namizədi M.Dəmirli "Xəlil Rza Ulutürkün poeziyası" haqqında elmi iş yazmış və kitab çap etdirmişdir [45].

O, monoqrafiyada X.R.Ulutürkün yaradıcılıq axtarışlarından, onun fərdi üslub yetkinliyindən, istiqlalçılıq məf-

kurəsindən danışmışdır. Professor M.Dəmirli X.Rzanın vətəndaş mövqeyi, lirikasının siyasi təfəkkür xüsusiyyətləri və ictimai məzmun genişliyindən bəhs etsə də, X.Rza yaradıcılığının milli özünüdərk mənbələri və ideya-məfkurə məsələlərini tədqiqata cəlb etməmişdir.

Tənqidçi-ədəbiyyatşünas Q.Qasımzadə və S.Əliyevin X.Rza haqqında fikirləri də qiymətlidir. Q.Qasımzadənin "Yazılacaq səhifələr intizarında" məqaləsi 1993-cü ildə qələmə alınmışdır. Alim "Afrikanın səsi" və başqa şeirlərin "Ədəbiyyat və incəsənət" qəzetində dərc edildiyi vaxtlarda (1960) ədəbi-siyasi gorginlikdən, X.Rzanın 20 Yanvar faciəsi günlərində həbsindən yazır, şairə olan ögey münasibəti xatırladırdı. S.Əliyev isə "Ulutürk ömrü" məqaləsində publisistika-xatirat janrına üstünlük verərək, Xəlil Rzanın ömür yolunu ümumiləşdirmişdir.

X.R.Ulutürk XX əsr Azərbaycan ədəbiyyatının görkəmli simalarından biridir. Onun müasirlərindən fərqlənən bənzərsiz şair taleyi vardır. Belə bənzərsizlik Xəlil Rzanın ruhu və mənəvi aləmini göstərməklə bərabər, onun bir sənətkar kimi baxışlar sistemini də ifadə etməkdədir. Xəlil Rza yaradıcılığının öyrənilməsini aktual edən qaynaqları, onun ədəbiyyat tarixində yerini, mövqeyini göstərmək üçün şairin yazdığı tərcümeyi-halı zəngin material verir. X.Rza tərümeyi-halını üç dəfə (hələ ki, məlum olan fakt belədir), 1969, 1973 və 1977-ci illərdə yazmışdır. Biz ikinci tərcümeyi-halını arxivindən əldə edib ilk dəfə "Müasirləri Xəlil Rza Ulutürk haqqında" kitabında (B., Çinar-Çap, 2004) çap etdirmişik. Dissertasiyada onun bioqrafiyasından danışmaqdan çox, şairin "Kimliyim" adlı öz tərcümeyi-halının verilməsini lazım bilirik: "Mən Xəlil Rza oğlu Xəlilbəyov 1933-cü ildə oktyabrın 21-də Salyan rayonunun Pirəbbə kəndində anadan olmuşam. 1939-cu ildə Salyan şəhərinə köçmüşük. Həmin ildəcə dərsə getmişəm və Salyanın 2 saylı şəhər məktəbini 1949-cü ildə bitirmişəm. Dərcə latın əlifbasını öyrənməklə başlamışdıq ki, üç-dörd ay keçməmiş əlifbanın dəyişməsi xəbəri gəldi. Xeyli sonralar anladım ki,

əlifbanın tez-tez dəyişdirilməsi xalq üçün böyük fəlakətdır, milli-mədəni estafetin qırılması demekdir. Orxon-Yenisey əlifbasından ərəb, ondan latın əlifbasına, ondan da rus qrafikası üzrə əlifbaya və daha sonra bunun əsasında ən yeni əlifbaya keçilməsi elmi və mədəni inkişafımıza ağır zərbələr endirmişdi.

Bunun nəticəsində biz həm də türkmənlərdən, özbəklərdən, qırğızlardan, qazaxlardan, başqırdlardan, qaqauzlardan, qəraimlərdən, tatarlardan, kumıklardan, altaylardan, uyğurlardan və başqa qardaş xalqlardan xeyli uzaqlaşdrrılmışdıq ki, bu da əslində sosialist millətlərinin getdikcə bir-birinə yaxınlaşması qanununa ziddir.

Atam Rza Xəlil oğlu illər boyu sayar (mühasib), müfəttiş, döyüşçü olmuş, son müharibədə Berlinədək irəliləmiş, 17 yerdən yaralanmış və uzun illər boyunca sağalmayan bu yaralar nəticəsində 1957-ci ildə, oktyabrın 17-də vəfat etmişdir. Atam mənim üçün hələ də tükənməz bir xəzinədir. O, mənə yer şumlamağı, bağbanlıq etməyi, torpağı sevməyi, becərməyi, taxıl və ot biçməyi, əqrəb öldürməyi, ilandan qoruna bilməyi öyrətmişdir.

*Əqrəb öldürməyi öyrətdin mənə,*
*Öyrətdin öldürüb basdırmağı da.*
*O vaxtdan nə qədər əqrəblər gördüm,*
*Solumda, sağımda, göz qabağımda.*

* * *

*Ancaq heç birinə güzəşt etmədim,*
*Neçə gürzələrin dişini qırdım.*
*Qıra bilməyəndə yenə hayqırdım,*
*Qoymadım kinimi ləkələnməyə!*

Füzuli, Raci, Dəxil, Dilsuz, Sabir, Tofiq Fikrət, Nəvai, Rustaveli, Əli bəy Hüseynzadə, Ziya Göyalp, Qumru, Yunuf İmrə kimi şairlərin adını mən ilk dəfə atamın dilindən eşitmişəm. Bu şairləri çox yanıqlı, çox təsirli səslə oxuyan, bəzən göz yaşlarını silən atam 47 yaşında vəfat etsə də, mənim göz-

ümdə qocaman, piranə keçmişin rəmzidir.

*Zülmün topu var, gülləsi var, qələsi varsa,*
*Haqqın da bükülməz qolu, dönməz üzü vardır.*
*Göz yumma günəşdən, nə qədər nuru qararsa,*
*Sönməz ədəbi, hər gecənin gündüzü vardır.*

Tofiq Fikrətin bu gözəl misralarını o qədər təkrar etmişdi ki, mən hələ dərsə getməmiş bunu əzbər bilirdim. Sən demə, pedaqoji tərbiyədə təriflənməyin də əhəmiyyəti böyükmüş. Evimizə qonaq gələnlərin yanında bəzən atam məni tərifləyirdi:

-Mənim oğlum xəritədə Azərbaycanı göstərə bilir! Bu cümləni eşidən kimi mən çubuq götürüb evimizin bir divarını tutan geniş xəritənin yanında dayanar, atamın öyrətdiyi kimi, Qüzey və Güney Azərbaycanı bütünlüklə, tam göstərərdim.

*Biryanı Türkiyə, bir yanı Xəzər,*
*Bir ucu Qaflanku, bir ucu Dərbənd.*
*Bir ucu Borçalı - bizim məmləkət,*
*Bakını, Təbrizi xəyalım gəzər.*

Bu şeir parçası atamındır. Yurdsevərlik badəsini onun əlindən alıb içmişəm. “Mənim şerim” adlı yazımda bu ruhu aydın sezmək olur:

*Sənin qüdrətinlə mən*
*Min düşmən bayrağını*
*Torpağa saldıraram.*
*Sənin qüdrətinlə mən*
*Dərbənddən Təbrizəcən*
*Bütün Azərbaycanı*
*Ayağa qaldıraram!*
*Həyatımı verərəm*
*Bircə sənin yolunda,*
*Sənin özünü isə*
*Bu vətənin yolunda.*

Atamın fikrincə Azərbaycan mədəniyyəti tarixində ən qüdrətli böyük şəxsiyyətlərdən biri Əli bəy Hüseynzadə ol-

muşdur. "İdrakdır müstibətə mizan əvət, əvət. İdraksızın ola bilməz müsibəti". Sabirin, dahi Sabirin bu beytini misal gətirən atam deyərdi ki, Əli bəy kimi mütəfəkkirlərin faciəsi onların idrakının böyüklüyündən doğmuşdur. Dövrə sığmaq - kiçiklik, dövrə sığmamaq isə - böyüklük çalarıdır. Dövrə sığışmayanlar bəzən bütöv bir xalq tarixinə işıq sala bilir!

Atam vəsiyyət etmişdi ki, məni müsəlman qaydasınca, "ər-rəhman" ilə yerdən götürün. Tutuq ki, 500 adamın bir cənazə arxasınca addımlaması, eyni dildə düşünməsi, eyni ruhla yaşaması milli birlik vasitələrindən biridir. Biz atamızın bu vəsiyyətinə əməl etdik.

Xanım anam evdar qadındır. Beş oğul böyütmüş, evləndirmiş, 3 qız köçürmüş bacarıqlı, zirək, gözüaçıq və çox əməksevər bir anadır. Azərbaycan dilinin sonsuz zənginlikləri, tükənməz incəlikləri, tanrısal şeiriyyəti, ovsunlu musiqisi onun dili və südü ilə qanımıza hopub. Köksü nağıllar, bayatılar, laylalar, bilməcələr xəzinəsidir:

*Laylamın adı qardaş,*
*Ağzımın dadı qardaş.*
*Mənə qardaş olmasan,*
*Götürrəm yadı qardaş.*

Elə bilirəm ki, anam bu bayatını çağırarkən Araz qırağında durub o taya baxır.

*...Az adamda,*
*Qulam da, azadam da.*
*Dövlət çox adamda var,*
*Adamlıq az adamda.*

Xeyli sonralar bu bayatını Aşıq Ələsgərin əvvəlki nəvəsi, gözəl Azərbaycan oğlu Haqverdi Göyçəlinin saz təranələri altında eşidəndə anamın böyüklüyünə bəbək qaldım. Azərbaycan bayatıları, xoyratları, maniləri Kərkükdən Dərbəndə, Qızılözəl çayından Göyçə basalağınadək böyük bir ərazidə qanad çalır.

*Əzizim, bəxtiyarım,*
*Bəxtimin təxti yarım.*
*Üzündə göz izi var,*
*Sənə kim baxdı, yarım?*

Artıq buna şeir demək azdır, bu, möcüzədir. Yalnız min illər ərzində qurulmuş, pardaxlanmış, parlamış dil və təfəkkür bu cür poeziya möcüzələri doğura bilər. Bəlkə özü də bilmədən bu eşqi iliklərimə yeritmiş anama baş əyirəm! Bu yaxınlarda "Nauka i jizn" dərgisinin birinci sanında oxudum ki, İraqın Yarımtəpə şəhər yaxınlığında arxeoloji qazıntı aparılmış, eradan qabaqkı səkkizinci minilliyə aid mədəniyyət yadigarı üzə çıxarılmışdır ki, bunlar da sovet Azərbaycanının həmin dövr mədəniyyəti ilə eynidir. Anladım ki, Bağdad, İraq, Yarımtəpə sözləri elə azərbaycancadır və keçmiş Azərbaycan xəritəsi hüdudları barədə bizim bugünkü təsəvvürümüz dardır. Nəsimi də, Füzuli də İraq və Suriya türkmənləri içərisində yetişmiş şairlərimizdir. Əgər bunları yalnız Kərkük türkmənləri öz inhisarına götürsə, yaxud yalnız sovet türkmənistanlıları təkcə özününkü saysa, məhdudluq olar. Bu cür şairlər bizim ortaq sərvətimizdir.

1949-cu ildə, Bakıda Universitetin filoloji fakültəsinə daxil olmuş və jurnalistlik şöbəsini 1954-cü ildə bitirmişəm. Həmin ildən Azərbaycan Sovet Yazıçılar Birliyinin üzvüyəm. 1955-56-cı illərdə "Azərbaycan qadını" dərgisində əməkdaşlıq etmişəm, 1957-59-da Moskvada Qorki adına Ədəbiyyat İnstitutu nəzdində yazıçılar üçün təşkil edilmiş Ali Ədəbiyyat Kurslarında dinləyici olmuşam.

Şeir üzrə seminar başçımız, şair Yaroslav Smelyakov, onun həmişə yanında gətirdiyi tənqidçi Vladimir Oqnev, bəzən bu iki adamı əvəz edən şair Mixail Svetlov, bizə Şekspir üzrə mühazirələr oxuyan Anikst, həmçinin Tolstoy, Ostrovski, Şoloxov üzrə ixtisas kursları aparan gözəl müəllimlərimiz, institutda Şoloxov və Nazim Hikmətlə görüşlərimiz, o zaman xəstə yatan, ancaq bizi qıvraq, şad qarşılayan Samuil Marşak kişinin evinə baş çəkməyimiz, böyük balkar şairi Qaysın Quliyevin və

görkəmli özbək sənətkarı Məqsud Şeyxzadənin yataqxanamıza gəlişləri, mərdlik və səxavətləri unudulmaz. Nobel mükafatı almış Pasternakı sovet yazıçıları sırasından xaric etmək üçün imza toplanırkən mən yataqxanaya siyahı gətirənlərin xahişini yerinə yetirməkdən boyun qaçırmışam. Mənim gözümdə Pasternak təbiətin özü qədər qüdrətli bir sənətkardır. Ondan tərcümə etdiyim şeirlərin dadı hələ də damağındadır.

Moskvadan qayıdıb Bakıda V.İ.Lenin adına APİ-nin aspiranturasına ayaq basmışam, 1963-cü ildə Azərbaycan sovet şeirində poema janrının inkişaf yolları (1945-1950)" mövzusunda dissertasi himayə qılmışam. Burada ştatlı müəllim saxlandığım üçün "Göyərçin" dərgisində əməkdaşlıqdan əl çəkmişəm. APİ-də müəllimlik etdiyim on il (1959-1969) ərzində bu sənətdən aldığım zövqü heç nəyə dəyişmərəm. Müəllimlik mənim anadangəlmə sənətimdir, rus demişkən, stixiyamdır. Yaxşı tələbəyə can qurban! Ancaq pis tələbəni yaxşılaşdırmaq uğrunda mübarizə, ürəyinə yurdsevərlik toxumunu atmaqla onu içəridən işıqlandırmaq mənə misilsiz zövq verir. Tələbəni tanıya bilmək üçün suallar tərtib etmişəm: l.Uşaqlıq və orta məktəb ilə bağlı hansı əziz xatirələrin var? 2.Ən çox sevdiyin müəllimin kim olub? 3.Hansı şairi, bəstəçini, rəssamı, mütəfəkkiri sevirsən? 4.Dəqiqənin qədrini bilirsənmi? 5.İlk məhəbbətin necə olub? (Qızlar bu sorğuya cavab yazmaya da bilər!) 6.Səncə Azərbaycanın səadət yolları haralardan keçib gedir? 7.Sən yurduna və insanlığa necə xidmət etmək fikrindəsən? 8.Ən çox sevdiyin və ən çox nifrət bəslədiyin adam kimdir?

Bu kimi sorğulara aldığım cavab bəzən bütöv bir dəftərdən ibarət olmuş və tələbənin savad dairəsini, mənəvi qüdrət dərəcəsini öyrənməyimə imkan yaratmışdır. Məncə, hər hansı tərbiyənin özülündə milli şüur işığı dayanmalıdır. Özünün kim olduğunu, xalqının varlığını dərk etmiş tələbə pis oxuya bilməz. Vətənsevərlik elə bir oddur ki, orta səviyyəli, babat bir adamı az qala dahiləşdirə bilir! Bu uğurda hər bir sorğu idrakı hərəkətə gətirir. Məsələn: Səncə azərbaycanlıların soyad (fa-

miliya) sonluğu necə olmalıdır: “Lı” şəkilçinin dörd biçimi, yoxsa “ov”, “ibn”, “ski”, “yan”, “pur”, “zadə”, “i”. Məsələn, deyin görüm, Cabbarlı deyilsə yaxşıdır, yoxsa Cabbarski, Cabbaryan, Cabbarpur, Cabbarzadə, Cabbarov, ibn Cabbar?!

Bu cür sorğuların yaratdığı təmayül üstündə institutdan çıxarılmışam. İş yerim dəyişdirilib. 1969-cu il, iyulun on beşindən etibarən Nizami adına Ədəbiyyat İnstitutunun baş elmi işçisiyəm. Buna baxmayaraq, tələbələrimizdən heç vaxt mənən ayrılmamışam.

*Gedin... gedişinizlə*
*Təbiət gəlsin cana.*
*Sizi gül toxumu tək*
*öz əlimlə səpirəm*
*Arzu yağışlarında*
*çimən Azərbaycana.*

Altı ay işsizliyim və mətbuatsızlığım çağlarında evdə azuqə tükənmiş və bu halda həyat yoldaşım Firəngiz xanım işə girişməyə vadar olmuş, Neft və Kimya İnstitutunun elmi kommunizm kafedrasında müəllimliyə başlayaraq öz səadətini tapmışdır. Mən öz səadətim və ən çətin gündə qaralmayan içəri işığım üçün bu gözəl, mərd, pak, qüdrətli Azərbaycan qızına borcluyam.

*Evdə yavan çörək, bir atımlıq çay*
*Varmıdır, yoxmudur, deyə bilmərəm.*
*Ancaq varlığımda haray qoparan*
*Neçə dağ çayını dinləyirəm mən.*

Bu ruh coşğunluğunu daim qoruya bildiyim üçün Firəngizimə minnətdaram. Hər iki balamızı - Təbrizi və Rzanı rus bağçasına, Azərbaycan məktəbinə verməyi lap əvvəlcədən qərarlaşdırmışdıq. Təbriz ikinci sinif yavrusudur. Rza da bu il Azərbaycan məktəbinə ayaq basacaq. Çıxmış kitablarım bunlardrr:

1. Bahar gəlir. Bakı, Uşaqgəncnəşr, 1957.
2. Sevən gözlər. Bakı, Azərnəşr, 1959.
3. Məhəbbət dastanı. Uşaqgəncnəşr, 1961.

4. Qollarını geniş aç! Azərnəşr, 1965.
5. Krasnadon qartalları. Bakı, Gənclik, 1967.
6. Yeni zirvələrə. Bakı, Azərnəşr, 1971.
7. Şedrıy den. Moskva, Molodaya qvardiya, 1959.
8. Nastoyaşaya lyubov. Moskva, Sovetskaya pisatel, 1963.

Bundan başqa Q.Xəlilovla ortaq yazdığım "Yaşamaq istəyirəm" povesti "Azərbaycan" dərgisinin 1962-ci il, 10,11 və 12-ci saylarında çap olunub. Azərnəşrin direktoru olmuş Qılman İlkinin himayədarlığından istifadə edib bu əsəri Q.Xəlilovun yalnız öz adına nəşr etdirə bilməsini yoldaşlığa xəyanət sayıram.

1965-ci ildən Sov.İKP sıralarındayam. Bəzi şeirlərimi "Od" və "Odsevər" ayaması ilə çap etdirmişəm. Sonralar məndən asılı olmayan səbəblərə görə bu, yasaq edilib. Məncə, doğma adları, soyadları, ayamaları diriltmək də borcumuzdur. Od Rza oğlu Xəlilbəyli, yaxud sadəcə olaraq: Xəlil Rza Od - ədəbiyyat tarixinə adım bu biçimdə düşsə yaxşı olar. Adın bu hala salınması Azərbaycan dilini bundan sonra da təmizləmək, durulamaq ehtiyacına işarədir. Biz çalışmalıyıq ki, qədim, zəngin Azərbaycan dili və ruhu bundan sonra da çiçəklənsin və özümlüyünü qoruyub saxlaya bilsin.

Xəlil Rza Od, Bakı, 10 mart, 1973".

X.R.Ulutürk 1985-ci ildə filologiya elmləri doktoru alimlik dərəcəsi, 1986-cı ildə Əməkdar İncəsənət xadimi, 1990-cı ildo "Davam edir – 37" şeirinə görə M.F.Axundov mükafatı laureatı adına layiq görülmüşdür.

O, Azərbaycan Milli hərəkatının fəal xadimi olduğuna görə Bakını işğal etmiş rus hərbçiləri tərəfindən 26 yanvar 1990-cı ildə həbsə alınmış, Bakı, Moskva, Rostov, Voronej zindanlarında 8 ay 13 gün yatmışdır.

X.R.Ulutürk 1991-ci ildə Azərbaycan Ali Sovetinə seçkilərdə iştirak etmiş, 87 faiz səs çoxluğu ilə millət vəkili seçilsə də, o vaxtkı hakimiyyət "kvorum yoxdur" bəhanəsi ilə onu deputatlıqdan məhrum etmişdir. Şair 1991-ci ildə "Türk milləti" mükafatı laureatı, 1992-ci ildə

Azərbaycan Respublikasının “Xalq şairi”  fəxri adlarını almışdır.

Böyük sənətkar 22 iyun 1994-cü ildə vəfat etmişdir qəbri fəxri xiyabandadır. Qəbrinin üstündə heykəli ucaldılmışdır. O, vəfatından sonra, 1995-ci ildə “İstiqlal ordeni” və Türkiyə Respublikasının milli şairi adına layiq görülmüşdur. 2002-cı ildə şairin xatirəsinin əbədiləşdirilməsi haqqında Respublika Rrezidenti sərancam vermiş, 2004-cü ildə H.Əliyev adına Sarayda 70 illik yubileyi keçirilmişdir.

“XX əsr Azərbaycan ədəbi-bədii fikrində milli ideal və xalq taleyi problemi (Xəlil Rza Ulutürkün yaradıcılığı əsasında)” ədəbiyyatda millilik və xəlqiliyi bir şairin yaradıcılığı əsasında əks etdirən elmi tədqiqat əsəridir. Milli ideal və xalq taleyi problemi ədəbiyyatşünaslıq tarixində ədəbi-bədii materiallar əsasında tədqiqata cəlb olunmuş və X.R.Ulutürk yaradıcılığı əsas tədqiqat - araşdırma obyekti götürülmüşdür.

# I FƏSİL

# XƏLİL RZA ÜLUTÜRKÜN YARADICILIĞINDA MİLLİ ÖZÜNÜDƏRKİN MƏNBƏ VƏ QAYNAQLARI

## 1.1. Şairin milli mənlik şüur və məfkurəsi

Milli özünüdərk tarixən mövcud olmuş mənbələr: ictimai-siyasi reallıq, dil, din, etnoqrafiya, arxeologiya və başqaları ilə əlaqəlidir. Yeni tarixi şərait XX əsrin 80-ci illərindən başlayaraq milli köklərimizə qayıdışı sürətləndirmişdir. Milli özünüdərk milliliyin (qismən bəşəriliyin) sintez olunmuş qavrayışıdır. Müasir dünyada Azərbaycanın yeri və rolu yeni tarixi dəyər kəsb etməkdə, milliliyi və bəşəriliyi zənginləşdirməkdədir. H.Əliyev özünüdərkin ideya-nəzəri əsaslarından danışarkən demişdir: "Biz tarixi köklərimizdən heç vaxt ayrıla bilmərik. Biz tarixi köklərimizi həmişə iftixar hissi ilə qiymətləndirməliyik və tarixi köklərimizin mənasını dünyaya bəyan etməliyik, yaymalıyıq, təbliğ etməliyik, onunla fəxr etməliyik. Eyni zamanda öz milli-mənəvi dəyərlərimizi ümumbəşəri dəyərlərlə birləşdirib, zənginləşdirib Azərbaycan xalqının ümumi dəyərlərini, mənəvi dəyərlərini yaratmalıyıq. Yenə də deyirəm, bunun içərisində həm demokratiya, həm hüquq normaları, həm dünyəvi dövlət, həm insan azadlığı, insan haqlarının qorunması, plüralizm, sərbəst ticarət, insan sərbəstliyi, sərbəst bazar ticarəti, sərbəst bazar iqtisadiyyatı var - bunlar hamısı ümumbəşəri dəyərlərin bizim milli-mənəvi dəyərlərlə vəhdətindən meydana gələn müddəalardır. Bunlar bizim milli ideologiyanın böyük bir hissəsini təşkil edir" [55].

Milli istiqlal uğrunda mübarizə üçün tarixi şərait yetişdikcə milli özünüdərk hissi də məntiqi olaraq güclənmişdir. "Bu gün milli özünüdərk problemi həm də ona

görə aktualdır ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra, xalqımız öz milli-mənəvi köklərinə qayıtmağa, öz milli mentalitetinə adekvat olan həyat tərzi qurmağa çalışır. Lakin buna nail olmaq üçün ilk növbədə əsrlərdən və nəsillərdən bizə miras qalmış milli sərvətimizi qoruyub saxlamağı və onları dəyərləndirməyi bacarmalıyıq” [105, s.104].

H.Əliyev Dünya Azərbaycanlılarının 9-10 noyabr 2001-ci il tarixli I qurultayında demişdir: “Millətin gücünü təkcə onun birliyi və monolitliyi deyil, həm də milli özünüdərki və mentallığı yenidən yaratmaq və qorumaq səyləri müəyyən edir” [55].

Milli özünüdərkin yığcam müasir nəzəri təfsirindən sonra qeyd edək ki, onun yetişməsi və dərinləşməsində mədəniyyət xadimləri mühüm rol oynayır, tarixən yaradılan mənəvi sərvət, xüsusilə, milli ruhun, milli mənlik şüurunun yetişməsi və inkişafında güclü təsir göstərir. “İnsanın özünü seçib ayırması, özünə müəyyən münasibət bəsləməsi, öz imkanlarını obyektivcəsinə qiymətləndirməyi bacarması insan xarakteristikasının spesifik formasını təşkil edib mənlik şüuru və ya özünüdərk adlanır” [85, s. 193-194]. Lakin hər bir yaradıcı sənətkar güclü fərd olaraq meydana çıxsa da, milli ideallar, ideya və baxışlar sistemi, milli xarakter keyfiyyətləri və geniş mənada mövcud milli “Mən” onların hamısına müyəssər olmur.

Müasir zəmanəmizdə istər ədəbiyyat, istərsə də ictimai-siyasi həyatda milli və milli mənlik şüurunun güclənməsində X.R.UIutürkün tarixi rolu böyükdür.

Ümummilli lider Heydər Əlirza oğlu Əliyev təsadüfi deməmişdir: “XX əsrdə Azərbaycanın görkəmli simalarından biri - şair, yazıçı, filosof, alim, xalq azadlığı uğrunda fədakar mübariz, böyük vətəndaş Xəlil Rzanı itirmişik. Xəlil Rzanın Azərbaycan xalqı qarşısında xidmətləri əvəzsizdir. Xəlil Rza xalqımıza böyük ədəbi irs qoymuş, mədəniyyətimizi, ədəbiyyatımızı zənginləşdirmişdir.

Xəlil Rza Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsinin ön cərgəsində getmiş, bu mübarizəyə qalxmış gənclərimizə həm alim, həm şair kimi, həm də hörmətli bir insan kimi örnək olmuşdur. O, daim Azərbaycanın müstəqilliyi duyğuları ilə yaşamış, həyatının şüurlu hissəsini buna nail olmağa sərf etmiş, böyük xidmətlər göstərmişdir.

Xəlil Rza bir vətəndaş, bir insan kimi bütün xüsusiyyətləri ilə həmişə sevilmişdir. Mən daim onun yaradıcılığına, insanlığına, vətəndaşlığına, ən çox cəsurluğuna, əyilməzliyinə, öz ideyalarından dönməzliyinə hörmət et-mişəm, onu yüksək qiymətləndirmişəm. Güman edirəm ki, Xəlil Rzanın parlaq həyatı, onun böyük vətəndaşlığı, milli azadlıq uğrunda mübarizliyi bütün azərbaycanlılar üçün nümunə olacaqdır" [53, s.218-219].

Xəlil Rza Ulutürk özünüdərkinə, onun mənlik şüurunun yetişməsinə təsir göstərmiş mühüm amillər əsasən aşağıdakılarla izah olunmalıdır:

l.Xəlil Rzanın babası Rüstəm kişi 1918-ci ildə geniş əkin sahələri üstündə bolşeviklər tərəfindən güllələnmişdi. 20-30-cu illərdə babasından qalma torpaqlar əllərindən alınıb pambıq sahələri üçün verilmişdir (Məlumat nənəsinin xatırlamalarındandır. Mənbə: "Nənəm Güllər" şeirinin ideya-məzmunu. Xəlil Rzanın dostu akad.B.Nəbiyevə söylədikləri. Bax:B.Nəbiyev "İstiqlal şairi" monoqrafiyası. B., Elm, 2001, s.18).

2.Ata babası Xəlil kişi 1933-cu ildə həbs edilib öldürülmüşdür. Əkin yerləri, öküz və kotanları əllərindən alınmışdır (Mənbə: "Türkan məktubları", "Eldənizə ikinci cavabım" poemasından. Bax: akad.B.Nəbiyev. "İstiqlal şairi" monoqrafiyası. Yenə orada, s. 17).

3.Xəlil Rzanın atası Rza kişi 1941-1942-ci illərdə Böyük Vətən müharibəsində, Moskvaaltı döyüşlərdə iştirak etmiş, 17 yara almış, 47 yaşında vəfat etmişdir (Mənbə. Bax: "Kimliyim" adlı avtobioqrafiyası. Arxiv əlyaz-

ması. B., 10 mart 1973; "Müasirləri Xəlil Rza Ulutürk haqqında" kitabında. Çinar-Çap, 2004, s. 12-18).

4.X.Rza müxtəlif ədəbi dərnəklərdə iştirak etmişdir. Salyan rayonundakı "Sosializm yolu" qəzeti redaksiyası nəzdindəki poeziya dərnəyi (Mənbə: Oqtay Rzanın "Amalları yaşayacaq Ulutürkün" xatirə məqaləsi. Ədəbiyyat qəzeti, 15 oktyabr 1999).

Mirzə İbrahimovun 1948-ci ildə təşkil etdiyi "Gənclər günündə" dərnəyi (Mənbə: Qabilin "Şair vüsəti" məqaləsindən. "İlk Allahım, son Allahım mübarizə" kitabında. B., 1999, s.79).

Cəfər Xəndanın, Bəxtiyar Vahabzadənin dərnəkləri (Mənbə: Ədəbiyyat qəzeti, 26 noyabr 1949).

5.Xəlil Rza N.Xozri, M.Araz, Qabil, S.Tahir, Ə.Əylisli, Ə.Kürçaylı, F.Qoca və başqaları kimi M.Qorki adına Ədəbiyyat İnstitutu nəzdində fəliyyət göstərən Ali Ədəbiyyat kurslarında dinləyici olmuşdur. Y.Smelyakov, V.Oqnev, M.Svetlov, Anikst, P.Antakolskidən mühazirələr dinləmiş, M.Şoloxov və N.Hikmətlə görüşmüş, Ç.Aytmatov, R.Həmzətov, Y.Yevtuşenko, B.Kuqiltinov tələbə dostları olmuşdur (Məndə: Bax: "Kimliyim" adlı avtobioqrafiası. Arxiv əlyazması. B., 10 mart, 1973; "Müasirləri Xəlil Rza Ulutürk haqqında" kitabında, Çinar-Çap, 2004, s.12-18).

6.Xəlil Rza "Doktor Jivaqo" əsərinə görə V.Pasternakın SSRİ Ədəbiyyat Fondu üzvlüyündən çıxarılması məqsədilə əleyhinə təşkil edilmiş imzaatma komissiyasına etiraz etmişdir (Mənbə: "Kimliyim" adlı avtobioqrafiyası. Yenə orada).

7.Atası, ailə üzvləri Füzuli, Raci, Dəxil, Dilsuz, Sabir, Tofiq Fikrət, Nəvai, Rustaveli, Əlibəy Hüseynzadə, Ziya Göyalp, Qumru, Yunis İmrəni oxumuş, onların Xəlillə söhbətləri getmişdir, banlar şairin mənliyinə, psixologiyasına təsir etmişdir (Mənbə: "Kimliyim" adlı avtobioqrafiyası. Yenə orada).

8.Universitet illəri (1949-1954) (Mənbə: "Kimliyim" adlı avtobioqrafiyası. Yenə orada).

Bütün bu deyilənlər Xəlil Rzanın fərdi "Mən"inin oyanması və formalaşmasını şərtləndirmişdir. Şairin mənlik şüuru gücləndikcə onunla birlikdə məfkurəsi müəyyənləşmiş və fəaliyyəti ilə bərabər poeziyasında da inikas etmişdir.

X.R.Ulutürkün şüur və məfkurəsinin millilik məzmununa dolmasının obyektiv və subyektiv səbəbləri vardır.

Obyektiv səbəb ondan ibarətdir ki, XX əsrin 60-cı illəri ümumən Azərbaycan ictimai fikrində də oyanışlar dövrüdür.

1. 60-cı illər dünya sivilizasiyasında baş verən təbəddülatla, Asiya, Afrika, Avropa, Latın Amerikası ölkələrindəki azadlıq hərəkatlarının ümummilli poeziyalara gətirdiyi bəşəri-milli dəyərlərlə səciyyəvidir. Ədəbiyyatda baş verən bədii-estetik keyfiyyət poeziyada lirik "Mən"i mövcud milli "Mən"ə dövrü ideya-məzmun və poetik xüsusiyyətləri ilə birlikdə daha çox genişləndirmişdi. Poetik, ritorik pafos ədəbiyyatdan, poeziyadan sıyrılmağa başlamış, yerini dolğunluq, yetkinlik, bədii keyfiyyət tutmuşdur. Azərbaycan sənətkarları sivil səviyyədən millilik: milli şüur, məfkurə, milli ideal, xalq taleyi, millət, ana dili, xalqçılıq, vətənçilik, türkçülük, vətəndaşlıq, hümanizm, beynəlmiləllik dəyərləri haqqında ciddi-cəhdlə düşünməyə başlamış və milli özünüdərkdə türkçülük, vətənçilik, xalqçılıq, azadlıq, dövlətçilik ideyaları yeni bədii keyfiyyət doğurmuşdu. Xəlil Rza Ulutürk "Afrikanın səsini" ifadə etməklə, əslində milli olanla bəşəri azadlığın "səma, günəş və cahan boyda olan" səsini təcəssüm etdirmişdir. Bəşəri mövzulardan yazmaq milli şüur və məfkurəni inikas üçün vasitə yox, dərk edilmiş bəşəri gerçəklik olmuşdur.

Sənətkarın milli şüur və məfkurəsinin doğuşu 60-cı illər poeziyasından başlanğıc götürmüşdür.

2. X.Rza fərdiyyəti 60-cı illər dünya ədəbi-bədii fikrindən sərf-nəzər deyildir. Ümumən, 60-cı illər ədəbiyyatında gedən təbəddülat,

"60-cılardan" olan Okurjava, Visotski, S.Zalıgin, V.Astafyev, Şukşin, Tvardovski, Y.Yevtuşenko, R.Rojdestvenski (Rusiya), İ.Şıxlı, İ.Hüseynov, R.Rza, Anar, Y.Səmədoğlu, Maqsud və Rüstəm İbrahim-bəyovlar, Ç.Hüseynov (Azərbaycan), N.Dumbadze, Ç.Əmirecibi, O.İoseliani (Gürcüstan), V.Bıkov, İ.Melej, A.Adamoviç, İ.Şelyagin (Belarusiya), O.Qonçar, P.Zaqrebelni (Ukrayna), E.Mejelaytis, İ.Avijyus, Y.Marıinkyaviçyus (Litva), P.Kuusberq, E.Vstemaa (Estoniya), Ç.Aytma-tov (Qırğızıstan) və başqalarının yaradıcılığı, fəaliyyəti Xəlil Rzanın milli şüuruna, milli məfkurəsinə təsir göstərmişdi [315, s.66].

3.X.Rza Moskvada, Rusiyada dissident gənclər nəsli ətrafında oxumuşdur. Lev Ozerov, Pavel Antokolski kimi müəllimləri olmuşdur. K.Simonovun "Novıy mir" jurnalından qovulması, B.Tvardovskinin təqib olunması, Boris Pasternakın SSRİ Ədəbiyyat Fondu üzvülüyündən çıxarılması, Soljenitsının dissidentliyi... "gözləri qarşısında" baş vermişdi. Xarici ölkələrin görkəmli yazıçıları Pablo Neruda, Romen Rollan, Nazim Hikmət və başqalan ilə görüşlər... Dünyanın bir çox incəsənət xadimlərinin çıxışları... Moskva mədəni-ədəbi mühiti... Çingiz Aytmatov, Rəsul Həmzətov, Yevgeni Yevtuşenko, David Kuqultinov kimi tələbə dostların əhatəsi... Bütün bunlar X.Rzanın dünyagörüşünə ciddi təsir etmişdi.

4.X.Rzanın mühazirələri... İsmayıl Şıxlının dediklərindən: "O, Azərbaycan sovet ədəbiyyatından dərs deyirdi. Amma nə proqramı vardı, nə də planı. Hansı şairin, yazıçının haqqında nə qədər, neçə saat mühazirə oxuyacağını unudurdu. Bu sinədəftər müəllimi şair yelkəni qanadına alıb apardı. Çılğın Xəlil sevdiyi şairlərdən çılğınlıqla danışırdı. Öz şeirlərini Füzuliyə qatdı, Füzulini Sabirə, Sabiri Səməd Vurğuna... Onun bu hərəkəti gözünü

konspektdən çəkməyib hıqqana-hıqqana mühazirə oxuyan, zəng çalınana qədər qan-tərə batan, hər dəqiqəsi ilə dönən "alimləri" yaman çaşdırdı. Onlar elmi şuralarda, kafedra yığıncaqlarında üsyan etdilər ki, belə mühazirə oxumaq olmaz, heç kim qayda-qanunu poza bilməz, belə özbaşınalıq pedaqoji ustalıq və müəllimlik istedadının olmamasından irəli gəlir. Bizim sakit və ətalətli pedaqoji dünyamızda belə hallara yol vermək olmaz. Söndürmək lazımdır bu qığılcımı!

Xəlil isə mühazirələrinə davam edir, dərslərini təlatümlü şeir dünyasına çevrir, mürgüləyən şüurlan oyadır, cavanları titrədib ayağa qaldırır, ürək sözlərini bir-birinə pıçıltı ilə deməyə belə cəsarəti çatmayanlar mühitinə meydan oxuyurdu. Mən başa düşürdüm ki, Xəlil auditoriyalara, institut çərçivəsinə, proqramlar, dərsliklər həcminə sığınır. "Mən hər dəfə onunla rastlaşanda "Məndə sığar iki cahan, mən bu cahana sığmazam" misralarını xatırlayırdım. Şair Xəlil, müəllim Xəlil bu iki cahanı bir cahanda birləşdirən Xəlil bu məhdud, qapalı cahana sığmırdı...

Yayın isti günlərindən birində mühazirəni yenicə başlamaq istəyirdim ki, qapı açaldı və Xəlil Rza astanada dayandı.

-Ustad, qərara aldım ki, bu gün özümüz dərs keçməyək, sizin mühazirənizi dinləyək.

Xoşbəxtlikdən auditoriya çox böyük idi. Yüz əlli tələbə mənim idi, Xəlilin dəstəsi də yüzdən çox olardı. Birləşdik. Mövzumuz "Səfillər" idi. Viktor Hüqonun "Səfəillər"i. Əsər imkan verirdi ki, vicdandan, mərhəmətdən, zülmə qarşı səfalət törədən ictimai mühitə qarşı qəzəb və nifrətdən danışaq. XIX əsri bəhanə edib öz dünyamızın ictimai bəlalarını qılınclayaq... Zəngə xeyli qalmış dayandım. "Kimin sualı var?" deyə tələbələrə müraciət etdim. Onlardan biri ayağa qalxdı.

-Müəllim, belə fürsət ələ düşməyəcək. İstərdik Xəlil

Rzanı da dinləyək. Əl çaldılar. Xəlil kürsüyə yaxınlaşdı. Onun səsindən divarlar cingildədi:

*“Şəbi-hicran yanar canım,*
*Tökər qan çeşmi-giryanım,*
*Oyadar xəlqi əfğanım”*
*O sahildə, bu sahildə!*
*Ürək dustaq, vətən məhbəs,*
*Hanı Babək, Cavanşir bəs?*
*Həyat bu cür qala bilməz,*
*O sahildə, bu sahildə”!*

Bu üsyan idi. İki yerə parçalanmış ana yurdun, parçalanmış torpağın, bir-birindən zorla ayrılmış insanların həzin naləsinə, qəzəb və intiqam çağırışına çevrilmiş poetik misralar idi. Bu misralar dillərə düşdü. Açıq, gizli toplanışlarda kürsülərdən guruldadı. Xəlili izləməyə başladılar” (Mənbə: İsmayıl Şıxlı. “Zindandan keçən azadlıq yolu”, “Müasirləri Xəlil Rza Ulutürk haqqında” kitabında. B., Çinar-Çap, 2004, s.87-89).

X.R.Ulutürk 1961-1975-ci ilə qədər fasiləsiz təqib olunmuş, ədəbi mühitdən mümkün qədər uzaq saxlanılmışdır (1961-1963-cü illər haqqında bax: monoqrafiya, s.52-56; s.163-168). Faktlara müraciət edək:

Xəlil Rzanın Azərbaycan KP MK-nın təbliğat, təşviqat şöbəsinin müdiri şair Teymur Elçin (Əliyev) yoldaşa yoldaşlıq məktubundan: “Təxminən on bir aya yaxındır ki, mənim ədəbi inkişafım sizin iradənizlə mətbuatda dayandırılmışdır. Mən bu hadisənin nə dərəcədə obyektiv və süni səbəblərdən doğduğunu bir yana qoyub yalnız özümə aid cəhətləri barədə izahat verməyi lazım bilirəm. Bəlkə də sizə az-çox məlumdur ki, biz öz yazılarımızın bir çoxunu illər boyu çap etdirə bilmirik. Xüsusilə ictimai yaraları açıb göstərən, nöqsanlarımızı qamçılayan və cəmiyyətin inkişafına xidmət məqsədini güdən yanğılı, dərdli və cəsarətli yazılarımız redaksiya və senzura idarələrindəki bəzi filisterlərin əlində bəndə düşür. Məsələn,

1961-ci ildən bəri yazdığım əsərlərdən ən güclülərini: “Məftillə sarınmış yaralar”, “İki qardaşın söhbəti”, “Gələcəksən baharda”, “Adımız, soyadımız”, Firudin İbrahimiyə dair “Qalx ayağa, Vətənim” poemalarımın heç birini və şeirlərimin ən yaxşılarını çap etdirə bilməmişəm, bəzilərini hətta üzə çıxarmamışam... Mənim dosta inamımdan və ani bir səhvimdən sui-istifadə edən və şərikli yazdığımız “Yaşamaq istəyirəm” povestini təkcə öz adına çap etdirmək üçün dəridən-qabıqdan çıxmış Qulu Xəlilova və ona havadarlıq edən Qılman İlkinə qarşı apardığım haqlı mübarizənin bəzi mərhələləri də yəqin ki, yadınızdadır... Keçən il “Kommanist” qəzetinin titullar barədə açdığı müzakirə də unudulmayıb. Mən bu mənasız müzakirəyə öz kiçik töhfəmi verməyə çalışdım: hər xalqın öz soyad sonluğu var, bizimki də “lı” şəkilçisinin dörd biçimidir. Məsələn, Cəfər Cabbarski, yaxud Cabbarov, Cabbari, Cabbarpur, Cabbarzadə deyil, məhz Cəfər Cabbarlı yazsaq daha yaxşıdır. Bu münasibətlə bəzi başabəla ziyalıların, özünü ayıq-sayıq qələmə vermək istəyənlərin qaldırdığı vaveyla, “cahad” səsləri, əlbəttə ki, Yazıçılar Birliyindəki iclasda, Əli Vəliyevin dediyi kimi, mənimlə DTK maraqlanmağa başladı, mənim işdən çıxarılmağımı Sizən tələb etdilər.

Bu çağlarda aldığım dalbadal zərbələrin “dadı” damağımdadır. Yazıçı İsmayıl Şıxlının “Kommunist” qəzetinin sifarişi ilə filarmoniyada çıxışımız barədə yazdığı məqalə mətbəədə saxlandı, mənim yeni il ərəfəsində Natavan klubunda keçirdiyim “Poeziya gecəsi”nə dair Yazıçılar İttifaqında və APİ-də vurulmuş afişalar divarlardan qoparıldı və gecə baş tutmadı, işdən çıxarılmağımı redaktor Şövqi Ağayevdən üçüncü kərə təkid ilə tələb etdilər. Əslində mənə çox hörmət bəsləyən, bəzən dinlədiyi dərslərimdən razı qaldığmı bildirən, üç aydan bəri məni qoruyan redaktor çox çətin vəziyyətdə qaldı: “Xəlil, bəlkə sən ikiillik elmi ezamiyyətə çıxasan, doktorluq işi yaza-

san, öz ərizənlə...”.

O vaxt təhlükənin bu dərəcədə qatı olduğunu anlamadığım üçün bu humanist təklifi qəbul etmədim, məni axıra qədər qorumağa redaktorun mərdliyi çatmadı və bu il yanvarın 3-də verməyə məcbur olduğu saxta ömrlə mənim guya “məşğələlərə vaxtında gəlmədiyimi” “əsas” tutdu, işdən azad etdi. Kafedradan, həmkarlar və partiya təşkilatından, tələbələrdən xəbərsiz bir növ gizli verilən bu “saxta” əmrə etiraz ərizəmi partiya özəyinə təqdim etdikdən sonra mən təmkin və səbr yolunu seçdim. Sizinlə anlaşmağa çalışdım və ailəmi dolandırmaq üçün “Bi-lik” toplumu xətti ilə mühazirələr oxumağa başladım...”.

Bundan sonra martın 12-də Yazıçılar Birliyinin V.İ.Leninə həsr olunmuş açıq plenum iclasında mənim barəmdə dediyiniz üstüörtülü tənqidi bir cümlə öz karyerası üstündə əsim-əsim əsənləri təşvişə saldı. Mənim APİ partiya təşkilatına yanvarın 9-da verdiyim ərizəni yalnız martın 18-də “müzakirə etməyə” başladılar, buna uyğun olaraq Yazıçılar İttifaqında da martın 25-də mənim “məsələm” ilə bağlı iclas keçirildi. Əslində “mənim məsələm” deyilən iş yox idi. Bu qondarma məsələ və gərəksiz iclaslar yalnız mənim barəmdə sizin tənqidi cümlənizdən sonra başlamışdı.

Buna etiraz olaraq mən işsizlik günlərimdə Dövlət Təhlükəsizlik Komitəsinə ərizə verməyə məcbur oldum. Ərizədən üç ay sonra məni qəbul edən DTK başçıları, Ramiz Məmmədzadə və Maqsud Məmmədov yoldaşlar məni inandırmağa çalışdılar ki, şübhəniz əbəsdir, DTK sizinlə maraqlanmayıb, əgər belə olsaydı siz keçən il Türkiyə səfərinə buraxılmazdınız.

Əlbəttə, bu nəzakətli cümlələr məni az inandırsa da bircə şeyə əminəm ki, əgər doğrudan da Ə.Vəliyevin dediyi kimi DTK mənimlə maraqlanıbsa, bu maraq fıs çıxıb, başqa cür ola da bilməz. Ancaq bu maraqlanma mənə baha başa gəlib, yeddi ay işsiz qalmışam, həyatda ən böyük

zövqdən - dərs deməkdən, tələbə-müəllim təmasının verdiyi səadətdən məhrum edilmişəm, on ildən bəri nəfəsini, qayğısını duyduğum institut kollektivindən, mənim üçün son dərəcə əziz, doğma insanlardan ayrı salınmışam. Mənə vurulan zərbə əslində məndən daha çox tələbə-gənclərin inamına, onların ədalət, humanist və düzlük haqqında qənaətlərinə vurulmuş zərbə idi...

...Hələ mətbuat dərdləri.... "Ədəbiyyat" qəzetinin redaktoru bəhanə gətirir ki, senzor sənin şeirlərini buraxmaz, MK-dan izn almalısan. Sizə üz tuturam. Bildirirsiniz ki, Yazıçılar İttifaqına müraciət et. Əlbəttə, mən Mirzə İbrahimov kimi adamlara ağız açmağın faydasız olduğunu bilməyəcək qədər təcrübəsiz deyiləm. İki il bundan qabaq verdiyim adicə bir yaradıcılıq ezamiyyəti ərizəsinə hələ də cavab ala bilmədiyim halda, sözünüzü yerə salmamaq üçün onun stolu qarşısında dayanmağa vadar oldum.

-Bala (?!), sənin şeirlərini İmran Qasımov da oxuyub, bəyənib, məndən soruşsalar, öz müsbət rəyimi deyərəm, ancaq senzuranın, MK-nın işinə qarışa bilmərəm...

...Müxtəlif xalqlara və müxtəlif əsrlərə mənsub bu sənətkarlardan etdiyim tərcümələrin bir qismi mətbuatdan sizə tanışdır. Az-çox tərcümə dəyərini, ədəbi əhəmiyyətini hələ bir kənara qoysaq, axı bu qədər çevirmələr hər hansı tərcüməçi, tədqiqatçı və oxucu üçün hər şeydən öncə böyük bir beynəlmiləlçilik məktəbidir. Belə bir ağır, şərəfli zəhməti boynuna götürən, gecəsini gündüzə qatan, səadətini gözlərinin işığından, ürəyinin alovundan qoparan bu şairin gözdən salınması, yaxud izlənməsi nə dərəcədə insaflıdır və ya gülünc deyilmi?..

Mən hələ 1962-ci ildə "Ana dili" şeirim üstündə Vəli Axundov yoldaş tərəfindən milli məhdudluqda, lovğalıqda ittiham olunduğum üçün bu tənqidin obyektiv olmadığını bir daha yada salmaq üçün MK-ya məhz həmin kitabı göndərməyi lazım bilmişdim. Rus, belarus, ukraynalı anaların dərdlərini öz dərdi bilən, onların göz yaşlarını

ovcuna toplayan bir şairin ürəyində cılız duyğular axtarmayın - demək istəmişdim. Sözümün canı budur ki, Azərbaycandakı milli geriliyə, qayğısızlığa, milli simasını itirmişlərə qarşı apardığımız mübarizə, yaxud ana dilinin hüdudlarını genişləndirmək, təmizliyini qorumaq, zənginliyini təmin etmək uğrunda cəhdlərimiz əslində partiyamıza, ideallarımıza məhəbbətdən, sədaqətdən irəli gəlir. Hətta, bu yolda qüsurlarımız da inamımızın dərinliyi, idealımızın ucalığı ilə mövcud yaramazlıqlar arasındakı uçurumdan doğur (Şairin arxivindən. 14 sentyabr 1969) [318].

Xəlil Rza 30 iyun 1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi Vəli Axundov yoldaşa ərizə ilə müraciət etmişdir: "Yeddinci aydır işsizəm. Sanki qəsdən, bilə-bilə mənim ailəmi, uşaqlarımı aclıq halqasında boğmağa çalışırlar. İş o yerə çatıb ki, ev kirayəsi, uşaq bağçası haqqı vermək, çörək və duz almaq belə mənim üçün ciddi problemə çevrilmişdir. Belə getsə mənim özüm aclıq elan etmək məcburiyyətində qalacağam. Mən qətiyyən inana bilmirəm ki, Az.KP MK - bu yüksək partiya aparatı bu dərəcədə süst, biganə, qayğısız, bürokrat əllərə tapşırılmış olsun...

...Vaxtilə bizim Qulu Xəlilov ilə şərikli yazdığımız və "Azərbaycan" jurnalında çap etdirdiyimiz "Yaşamaq istəyirəm" povestinin yalnız Q.Xəlilovun adına kitab halında buraxılmasına Cəfər Cəfərov yoldaşın razılıq verməsi məndə oğurluğa qarşı böyük üsyankar ruh doğurmuşdur. Ümumi milli gerilik, qənimətçilik, rüşvətxorluq şəbəkəsinin bu dərəcədə güclü olması da, əlbəttə, bu ruhu alovlandırmaya bilməz. Nöqsanım, səbirsizliyim bəlkə də bundan doğur..." (Şairin arxivindən. 30 iyun 1969) [318].

5.X.Rza "elə faktlara, elə mətləblərə üstünlük vermişdir ki, həmin fakt və mətləblər axır nəticədə söhbəti milli özünüdərk probleminə, Azərbaycan mədəniyyətinin, onun ümumtürk qaynaqlarının qədimliyinə və özünəxas

təkrarsızlığına, Azərbaycan dilinin saflığını qorumağın zəruriliyinə... gətirib çıxarmışdır" (Mənbə: Bax., B.Nəbiyev. "İstiqlal şairi", B., Elm, 2001, s.25).

Şairin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin I katibi Heydər Əliyev yoldaşa 9 oktyabr 1969-cu il tarixli məktubundan: "Azərbaycan dilinin təsir dairəsini genişləndirmək, milli simasını itirmişlərə qarşı amansız olmaq, qənimətçilərə, rüşvətxorlara qarşı mübarizədə əsla güzəştə getmədən döyüşmək... Sizinlə birlikdə mənim də məramımdır" (Şairin arxivindən. 9 oktyabr 1969) [318].

Millilik Xəlil Rza Ulutürk yaradıcılığının ruhudur, varlığıdır. Onun insanların şüur və mənəviyyatına təsir göstərən əsərlərini, ana dili, vətən məhəbbəti, vətənpərvərliklə bağlı "Ata borcu", "Ehkamçıya", "Səttar Bəhlulzadəyə", "Vətən", "Xiyabani yurdunda", "Yurdum sənin sağlığına", "Laylam mənim, nərəm mənim", "Qoca arxeoloq", "Mən nəyəm ki, ey Vətən", "Yetkinləş, Xəlil", xalqı mübarizəyə çağırış ruhu ilə aşılanmış "Ayağa qalx, Azərbaycan", "Bahar kibi", "Xalqımın səsi", folklor qaynaqlarına bağlı olan "Beşik türküsü", "Apardı Sellər Saranı", "Gedər", "Əlindən gələni edərsə hər kəs", ilkinliyə, soykökü söykənən "Qalx ayağa, Azərbaycan", "Sən mənim vüqarımsan", "Saz" əsərlərini qeyd etmək olar. Onlarca belə əsərlərdə milli şüuru, milli vicdanı oyadan ideya qaynaqları güclüdür. Həmin ədəbi nümunələrdə müxtəlif tarixi şərait, sosial mühit müəyyən cəhətləri ilə bədii əksini tapmaqla yanaşı, xalq psixologiyasını, mənəviyyatını, milli dil və ənənə xüsusiyyətlərini də qabarıq təzahür etdirir.

Zəngin folklordan, klassik poeziyadan, "Əkinçi", "Kəşkül", "Molla Nəsrəddin"dən üzü bəri dil məsələsi həmişə vacib problemlərdən olmuşdur. C.Məmmədquluzadənin məşhur "Azərbaycan", "Meymunlar", Əliqulu Qəmküsarın "Qatış-bulaş", Ö.F.Nemanzadənin "Dərya-

dan qətrə", "Yazımız, dilimiz, ikinci ilimiz", Y.V.Çəmənzəminlinin "Milli və mədəni işlərimiz", "Kiyevdə "Müsavat şöbəsi" kimi məqalə və felyetonları doğma ana dili və vətənçiliklə bağlı ideyaları canlı inikas etdirmişdir. Ölməz klassiklər ana dilini yaşamaq vasitəsi yox, namus dili, milli varlıq, həyat dili hesab etmişlər. B.Vahabzadə yazır: "Nədir ana dili? Anamın dili, atamın dili, ulu əcdadımın dili, Dədəm Qorqudun boy boylayıb, soy söylədiyi dil! Məni Nəsimimə, Füzulimə, Sabirimə bağlayan, ulu keçmişimi bu günümə, sabahıma calayan min illik mədəniyyətimizin xəzinəsi, Babəkimin, Koroğlumun, Səttarxanımın üsyan səsi, Ana Kürümün, Xan Arazımın nəğməsi, mənim milli varlığım, bəxtiyarlığım, sərvətim, qeyrətim, Anadilim!"[311,s.89].

Xəlil Rzanın milli mənlik şüur və məfkurəsinin ilkin təzahürü ana dilinə ciddi münasibətlə bağlıdır. Dil məsələsi gah kənardan dolayısı ilə, gah da daxilən, iç mahiyyətlə ifadə olunmuşdur. Dil ulu əcdad, Vətən bütövlüyünün, milli varlıq və qeyrət müəyyənliyinin əsası kimi təbliğ olunmuş, mənəvi-milli simasızlığa, özülsüzlüyə ciddi etiraz edilmişdir.

Şəhriyar ("Hədyani-dil", "Türkün dili", "Heydər baba..."), B.Vahabzadə ("Latın dili", "Anamın kitabı", "Yollar və oğullar", "Təzadlar"), S.Rüstəm ("Təbriz", "Ürəyimi verərəm"), S.Tahir ("Ana dili"), F.Qoca ("Azəriyəm"), S.Rüstəmxanlı ("Sağ ol, ana dilim") və başqalarının əsərlərində dil milli varlıq, ruhun və əqlin birliyi, tarixi mahiyyət, müasirlik və özünüdərk kimi təcəssüm olunmuşdur.

"1954-cü ildə görkəmli şair M.Şəhriyar "Heydərbabaya salam" poemasının birinci hissəsini Azərbaycan dilində çap etdirmişdir. Bu əsər bir tərəfdən azərbaycanlıların öz dili, ədəbiyyatı, mədəniyyəti, vətənimizə olan münasibətinin poetik inikası idisə, digər tərəfdən etnik birlik hissini əks etdirməklə bu hissin daha da dərinləşməsinə səbəb olmuş-

dur. Məhz həmin əsərin təsiri ilə Azərbaycan dilində yazmaq meyli güclənmiş, poemaya yazılmış nəzirə, cavablardan başqa Azərbaycan dilində bir sıra kitablar nəşr edilmişdir" [146,s.178].

Cənubi Azərbaycan şairlərindən Ə.Fitrət, İ.Zakir, M.Niknam, M.Səfvət, B.Azəroğlu, F.Məhzun, Ə.Tudə, M.Çavuşi, H.Nasiri, M.Gülgün, A.Pənahi, H.Billuri, A.H.Cavad, F.X.Xoşginabi, İ.Cəfərpur, S.Tahir, Q.Cahani və başqaları da milli azadlıq və demokratik ruhlu şeirlər yazmışlar.

60-cı illərdə ümumazərbaycan ədəbiyyatının inkişafında yeni mərhələ olduğu kimi, Cənubi Azərbaycan ictimai-bədii fikrində də milli özünəqayıdış, milli özünüdərk və folklor ənənələri güclənmişdir. "H.Məcidzadənin (Savalanın) "Türkcə təranələr" (1962), S.Cavidin "Azərbaycan dili bilgisindən yazı qaydaları" (1964), "Azərbaycan folklor nümunələri" (1955), B.Q.Səhəndin "Sazımın sözü", M.Fərzanənin "Bayatılar" (1965), S.Behrəngilə B.Dehqaninin "Azərbaycan əfsanələri" (1965) və başqalarının kitabları həmin dövrün məhsullarıdır. B.Q.Səhəndin 1965-ci ildə çapdan çıxmış "Sazımın sözü" poeması "Azərbaycan xalqının milli şüurunun inkişafında əhəmiyyətli rol oynamışdır... Səhənd İranda ilk dəfə olaraq, bədii formada türk (Azərbaycan) dili ilə türk (Azərbaycan) etnosunun tarixi-irsi birliyi problemini bərpa və həll etməyə çalışmışdır" [142, s. 179-180].

Ana dilinə münasibətin poetik ifadəsi yalnız milli mahiyyətdən, milli hüquqdan qaynaq, güc almamış, o ümumən, bəşəri sənətkarın dil haqqında poetik qaynaqlarını öz içinə çəkmiş, ana dilinin ölməz, əyilməz və bütöv ruhunu dərk olunmuş həqiqət kimi idraki qavrayışda poetikləşdirmişdir.

Z.Göyalp türk dilini dil birliyi kimi ifadə edərək demişdir:

*Turanın vicdanı bir,*
*Dini bir, vatanı bir,*
*Fəqət həpsi ayrılır,*
*Olmasa lisanı bir.*

Vaxtilə dilə etinasızlığı Sabir və Abbas Səhhət əsərlərində poetik qüvvətlə səsləndirmişlər. M.Ə.Sabir istehza ilə: "Türk qəzeti versə də əqlə ziya, Mən onu almam əlimə mütləqa", A Səhhət isə: "Türk dilini sevməyir, nə "Həqiqət", nə də "Günəş" oxuyur, Yalandan Homer, Kant, Marks, Bualo deyir" - deyə yazmışdır. Xalq şairi S.Vurğun İran irticasının dilə olan etinasızlığına qarşı belə demişdi:

*"Söylə, səni xor baxırsan mənim ana dilimə?*
*Dahilərə süd vermişdir Azərbaycan gözəli.*
*Sənmi türkə "xər" deyirsən, ulusuma, elimə*
*Qoca Şərqin şöhrətidir Füzulinin qəzəli".*

Ana dilini bilməyənlər, bəyənməyənlər, işlətməyənlər və ona hücum edənlərə qarşı Ə.Kərim, B.Vahabzadə, S.Tahir, N.Həsənzadə də kəskin mövqedə dayanmışdır. S.Rüstəmin: "Mən sənin dilinə dəymirəm, cəllad, gəl sən də bu ana dilimə dəymə" misraları təhdid xarakteri daşıyırdı. B.Vahabzadə yabançılara: "Özgəyə dilini öyrən deyirsən, özünsə, bu dili bəyənməyirsən" – deyə lağ edirdi. S.Tahirin etirazı da kəskin idi: "Mən istərəm: güllələrlə, nidalarla dola dilim, başqasının əlində yox, öz ağzımda ola dilim". O, doğma ana dilində qılınc tiyəsi kimi itilik, layla nəğməsi qədər həzinlik, zəriflik hiss etmişdir. İnqilabın qapısını tay-tay açan dilim mənim. O qılıncın tiyəsinə, o laylanın nəğməsinə bələklənib gələn dildir". N.Həsənzadənin də ana dili haqqında fikirləri, onu milli sərvət kimi dəyərləndirməsi də əhəmiyyətlidir: "Dil xalqın verdiyi ən böyük əsər, onun qoynu isti, qanı təmizdir. Adicə vurğular, ya işarələr min illik mənəvi sərvətimizdir".

Şəhriyar dilə etinasızlara Arazın o tayından belə çağı-

rış, xitab etmişdir: “Türkün dili tək sevgili, ehzazlı dil olmaz”.

X.Rza 60-cı illərdə “Ana dili” (“Laylam mənim, nərəm mənim”) “Dəlidağ”, “Məftillə sarınmış yaralar” kimi əsərlərinə görə ictimai-bədii mühitdən mümkün qədər təcrid edilmiş, o isə mövqeyindən dönməyərək, dissident olmaq dərəcəsinə gəlmişdir. Faktlara müraciət edək:

“Məni hər addım başı təhlükə gözləyir - dərrakəsi, Vətən eşqi, partiya əqidəsi olmayan miskin adamlar tərəfindən olan təhlükə. Lakin bundan ötəri bütöv bir ailəni məgər üç gün qan-yaş içində qoymağın faydası varmı?

Axı mən Lənkəranda, Astarada, Masallıda elə bir söz deməmişdim ki, bundan ötəri məsələm müzakirə olunsun. Bəlkə sən (bədxahları, əleyhdarları nəzərdə tutulur -Ə.Ə.) mənimlə Naxçıvan, Ordubad, Şahbuz görüşlərinə getmiş olaydın? Mən o yerlərdəki çıxışlarımda ehkamçılara, dargözlərə, partiya deyə-deyə partiyaya zərbə vurmağa hazır olanlara qarşı nifrətimi gur səslə elan etmişəm. Mən hələ də o yerlərdən məktublar almaqdayam. O məktublar belə bəd ayaqda mənə qüvvət verir. Tutduğum yolun doğruluğuna məni inandırır. Mən bəzən belə bir axmaq fikrə düşürəm ki, bir halda ki, Azərbaycanda qüdrətli adamların sayı bu qədər azdır, baş götürüb Özbəkistana, yaxud qeyri yerə getməliyəm. Məni bundan sonra da sıxışdırsalar, çap imkanı verməsələr başqa çarəm qalmayacaqdır” (Şairin arxivindən. Xəlil R. 2 mart 1962. B.,)[318]

Əlbəttə, Xəlil Rza öz xalqının vətənpərvəri olmuş, öz ömrünü xarici ölkələrdə yaşamaqda, dissident olmaqda yox, Lefortovolara gedilən yolda görmüş və bundan saqınmamış, usanmamışdır.

Sənətkar ana dilinə münasibətini bir sıra əsərində ifadə etmişdir. “Ata borcu” şeirində şair “Mən”i ata ocağından güc alır, hər cür sərvətdən imtina edir. Onun poetik baxışında ana dili bala ruhuna ana südü kimi içirilməlidir.

Lirik "Mən" öz dilini yaşatmaq üçün başqa dillərin öyrənilməsini də gərəkli bilir. Ona görə Təbər, Xəzər, Quzğun, Urqut, Heydər Baba, Elbrus və Qoşqar doğma ana dilinin şöhrət zirvələridir. Şair "Mən"i ikinci dünyası bildiyi ana dilinin sabahından da nigarandır. "Xiyabani yurdunda" şeirində fil olub, belində tülküləri daşıyan xalqının, Nəsimiləri dünyaya sığmayan millətinin cənubda dörd sinifli anadilli bir məktəbi olmadığına belə dözə bilmir. Buna görə də Təbriz valisinə xəbərdarlıq edir ki: "Dilimə xor baxanın qopardaram dilini", "Laylam mənim, nərəm mənim" şeirində layla, bayatı həlimliyində bildiyi ana dilini həm də zamandan-zamana, əsrdən-əsrə vuruşa-vuruşa yol gələn davamlı bir dil bilir, ona Babək qılıncının davamı, o sahili bu sahilə birləşdirən polad körpü, qılınc və günəş kimi baxır və iftixar hissi keçirir.

X.R.Ulutürkün poeziyasında dil əxlaqda, mənəviyyatda özüldür. Milli dilə verilən qiymət yalnız milli düşüncənin şüurdakı səviyyəsini əks etdirmir, o, həm də məfkurədir, özəli və əbədi olan varlıqdır:

*Mənim dilim Göygöyl, Xəzər,*
*Mənim dilim Şahdağımdır!*
*Qoy dilçilər öcəşsinlər,*
*yoxdur bəhsə meylim mənim.*
*Heç bir dildən əskik deyil,*
*Bəsərin dil ağacının*
*Şah budağı dilim mənim!*

*("Laylam mənim, nərəm mənim")*

XX əsr Azərbaycan poeziyasının milli dəyərləri özünü, əsasən, 60-cı illərdən qabarıq təzahür etdirmişdir. Lakin bu, o demək deyil ki, milli cizgilər ədəbiyyata həmin illərdə gəlmişdir. Bütün dövrlərdə Azərbaycan sənətkarlarının bədii təfəkküründə folklora, milli ənənələrə söykənmə keyfiyyətləri güclü olmuşdur. Bu, S.Vurğun və O.Sarıvəlli yaradıcılığının xəlqiliyini şərtləndirmişdir. Ümumtürk bədii təfəkküründə C.Məmmədquluzadənin

“Anamın kitabı”, X.Ə.Adıvarın “Yeni Turan”, Ç.Aytmatovun “Əsrdən uzun gün”, “Dəniz kənarıyla qaçan Alabaş”, “Ağ gəmi”, M.D.Aybəkin “Nəvai”, M.D.Auezovun “Yeni nəsil”, Y.Səmədoğlunun “Qətl günü”, Anarın “Dədə Qorqud”, M.Şeyxzadənin “Cəlaləddin Mənquberdi”, Erkin Vahid, Abdulla Arif, Rauf Pərfi, Həlimə Xudayberdi, Gülçöhrə Nurulla və başqalarının əsərləri milli kökə, yaddaşa, folklora qayıdış kimi qüvvətli ənənə yaratmışdı.

İkinci Dünya müharibəsindən sonra dünyada milli azadlıq hərəkatı vüsət aldığından o, ədəbiyyat və incəsənətdə keyfiyyət dəyişikliyinə səbəb olmuş, xalqlar və sənətkarlar öz “Mən”lərinə daha yaxından baxmışlar: “Müasir dövrdə milli-azadlıq hərəkatının qüvvətlənməsi, müstəmləkəçilik sisteminin məhvə məruz qalması da milli şüurun beynəlxalq miqyasda vüsətli intibahına təkan verən başlıca amillərdəndir. Siyasi müstəqillik əldə etmiş Asiya, Afrika və Latın Amerikası ölkələrində milli müəyyənlik yazıçılar, incəsənət xadimləri üçün ən vacib məsələlərdəndir” [97, s.66].

Xəlil Rza Ulutürkün poeziyasında kökə, ənənəyə bağlılığın fərdi keyfiyyətləri başqalarından onunla fərqlənir ki, onun şeirlərində ictimai-fərdi fəallıq, üsyankarlıq, ciddi etiraz, mənfini inkar, yenini təsdiq, milli fikir və qayəyə ciddi meyl, milli “Mən” fəallığı güclü olmuşdur.

Şairin “Beşik türküsü”, “Aşıq Novruz”, “Aşıq Alı”, “Apardı sellər Saranı”, “Gedər”, “Masallı xatirələri”, “Əlindən gələni edərsə hər kəs” və başqa şeirlərində folklora, xəlqiliyə orijinal baxış; “Qalx ayağa, Azərbaycan”, “Sən mənim vüqarımsan”, “Saz” şeirlərində ilkinliyə, soykökə bağlılıq, milli ruh, milli şüur və məfkurə, tarixi-müasir yaddaş; “Özünüdərketmə”, “Anlamaq səadəti”, “Sevdiyim sənətkara”, “Heç kəs məndən inciməsin”, “Xırdalar”, “Sarsılma, cəsur ol” şeirlərində ümumi İnsan surəti, özünəqayıdış, özünüinikas, “Çayla-

rımız", "Dördlüklər", "Ürəyindən istə mükafatını", "Dincəliş", "Qorxu", "Məmməd Araza" şeirlərində fəal həyat mövqeyi, milli ideallara sədaqət, haqsızlıqlara, ədalətsizliklərə etiraz ruhu fərdiləşir.

Xəlil Rza Ulutürkün poeziyasında milli mənlik şüuru yalnız müasirliklə aşılanmır. O, özünü əsrlərin dərinliklərindən, tarixin, millətin yaddaşından - ənənəvi olandan gətirir. Keçmiş tarixi mədəniyyət ənənəsi hər bir millətin varlığıdır. Şairə görə folklor, milli müəyyənlik olduğu kimi, qədim türk mədəniyyəti, abidələri də onun milli şüur göstəricisidir:

*Eraların özülündə*
*Ey əbədiyanar ocaq!*
*Şumerəcən, Oderəcən*
*Ey şöləsi göynən uçan!*
*Qalx ayağa, Azərbaycan!*

Qədim mədəniyyətə baxış sadəcə şair təəssüratları olmayıb, bu, Xəlil Rza Ulutürkdə intellektual səciyyə daşıyır, şair elmi yanaşmadan da bəhrələnərək, mədəniyyət abidələrinə qiymət verir, onları əsaslı surətdə poetikləşdirir. "Sən mənim vüqarımsan" şeirində Əbubəkr oğlu Əcəminin yaratdığı Möminə xatın məqbərəsinin təsviri, tərənnümü və müəllif münasibəti əsasında o, həm də Naxçıvan memarlıq məktəbini yanlış olaraq, İran memarlıq məktəbinə bağlayan burjua alimlərinə elmi-məntiqi cavabdır. Belə münasibətdə oxucu ruhu iti, yaddaşı oyaq, milli varlığı güclü qalır, bu tarixi ənənədə gələnəkdə bir sonsuzluq, kəsilməzlik yaşayır:

*Alqış!*
*Əcdadımın ruhuna alqış,*
*Elimə, obama kömək yarandı.*
*Sən özün dünyada heç yaranmamış,*
*Səni qorumağa Babək yarandı.*
*Yağlı tikə üçün gələn yağılar*
*Diş qıcıb,*

*dövrənə çox dolanıbdır.*
*Burda yüz fatehin havalı başı*
*Misri qılınc ilə ağıllanıbdır.*
*Gəlsin bir də baxsın Yakobstal, Zarre.*

*("Sən mənim vüqarımsan")*

Xəlil Rza Ulutürkü kənardan özünəbaxma, özünüdərketmə çox düşündürmüşdür. O, tarixi keçmişimizə, milli-bəşəri sərvətlərimizə, müasirliyimizə, istila və fatehliyə baxa-baxa, onu mənən özü üçün araşdıra-araşdıra, öz "Mən"inə qayıtmış və din-dil qardaşlarına, vətəndaşlara, insanlara anlatmaq, öyrətmək istəmişdir. Xəlil Rzanın özünüdərkində zəngin bir mənəviyyat, vətəndaşlıq yanğısı, milli tale və aqibət, müqəddəs ideallar və məfkurə aydınlığı vardır. Ümumi mənada "İnsan" və Vətəndaş mövzusu Xəlil Rza Ulutürk yaradıcılığında zəngin və orijinaldır. Bu şeirlərdə şairin poetik "Mən"i çox fəal və mübariz olduğu qədər safdir, əngindir:

*Özünü dərk etmək böyük qüdrətdir,*
*Büllur tək saflaşır, təmizləşirsən.*
*Bulaq, çay bilirsən bir qurtum suyu,*
*Çayları içdikcə, dənizləşirsən.*

*( "Özünüdərketmə" )*

Milli məfkurə Xəlil Rzanın özünüdərkindən, milli "Mən"indən başlayır. Milli özünüdərk bəşəri dərkə mənəvi keçiddir. "Dağlara qalxıram" (1965), "Sevdiyim sənətkara" (1974) şeirlərində belədir:

*Mənlikdən başlanır ilk meyar, ölçü*
*İlhamın gövhəri tapılmır asan.*
*Dünyanı, bəşəri tanımaq üçün*
*Ən əvvəl özünü tanımalısan.*

*("Dağlara qalxıram")*

Milli "Mən" ilk əvvəl şair varlığı, özünüdərki ilə obrazlaşır və xalqı, Vətəni dərk etməklə doğulur:

*Anadan bir kərə doğulmaq azdır,*
*Yetişib xalq üçün doğulmaq gərək*

*Ərzin bağrındadır şeirin kökləri*
*Şair baxışından od-alov törər.*
*Addımı yerləri, əli göyləri,*
*İdrakı Vətəni genişləndirər.*
*("Sevdiyim sənətkara")*

Mövcud milli "Mən" özünün böyüməsini, inkişafını, çəkişib-bərkiməsini Vətənə yaxınlaşmağında görür:

*Nəyisə, kimisə qocaldır illər,*
*Mənsə çaylar kimi aşıb daşıram.*
*Nə qədər çəkişib-bərkiyirəmsə*
*Vətənə o qədər yaxınlaşıram.*
*("Vətən")*

Xəlil Rza Ulutürkün mənlik şüuru, məslək və əqidə yaşantıları 60-cı illərin şeirlərindən başlamışdır ("Vurulmuşam mən sənə" (1965), "Vətən", "Saçlarıma dən düşür" və başqaları). Şairə görə məsləkə, məfkurəyə yetəndə Vətən doğulur, milli özünüdərkə çevrilir:

*Məslək vuruşunda, səngər başında*
*Kişi qeyrətindən doğulan Vətən!...*

* * *

*Vətən - özümüzü dərk etməyimiz,*
*Daim fikrimizin yeniləsməsi.*

Milli "Mən" yalnız Vətəni özünüdərklə hüdudlanmır. O, özünə geniş mənada "Mən Şərqəm" fəlsəfi bütövlüyündə yanaşır. Qərbi də özündə birləşdirməklə dünyanı, bəşəri dərkə can atır. Onun fikir tutumunda Günəş - Tanrı kainatın, həyatın yaradıcısıdırsa, Şərq də mədəniyyətlərin və nemətlərin beşiyidir. Çünki Günəş elmi anlayışda həm də Şərqdən doğandır. Şərq və Şərq mədəniyyətləri isə "Güqamış"dan ("Bılqamıs") üzü bəri bütün elmin və incəsənətin beyişidir. Qərbin özü bu mənada Şərqdən baş almış, Qərbin mədəni-elmi inkişafı da Şərqdən başlanğıc

götürmüşdür:

*Bu gün Şərq inqilablar, təlatümlər vətəni,*
*Mənsiz təsəvvür etmə bəşər səadətini*
*Şərqəm, elə Şərqəm ki, qərblilər də mənimdir*
*Hamlet öz doğma balam, Şekspir də mənimdir.*

*("Mən Şərqəm")*

Xəlil Rza Ulutürkün anlamında mənlik şüuru - onu bəşəri məhəbbətə, qurub-yaratmağa aparan başlanğıcdır. O, dərk olunanda insan özünü tapa bilir:

*Sən ey Mənliyini dərk edən İnsan,*
*Özünü dünyanın bəxtəvəri san.*
*Qanında məhəbbət atəşi varsa,*
*Aləmin ikinci yaradanısan.*

*("Dördlüklər")*

Milli mənlik şüurunun təzahürü vətəndaşlıqdır. X.R.Ulutürkdə Vətəndaş ideyasının da mənbəyi Vətən və xalqdır. Bu ideya milli ideal, məfkurə və xalq taleyinin daşıyıcısı kimi qərarlaşır. X.R.Ulutürk yaradıcılığında milli-azadlıq hərəkatının doğuşunda həmin ideyanın tarixi rolu olmuşdur. Şair Azərbaycanı vətəndaş oğullarına görə sevir:

*Vətəndaş olmasa, boş şeydir Vətən!*
*Beş günlük, on günlük güney qarıdır.*
*Vətən məfhumunun özəyindəki*
*Vətənin vüqarlı oğullarıdır!*

*("Tamam doğmayan günəş")*

İnsanın dəyər və meyarı mənlikdir. Əxlaqi keyfiyyət olan mənlik şair düşüncələrində xislət deyil, şüur formasıdır, millətə mənsub olan müəyyənlikdir. Mənlik şairin humanizmində bəşəri mahiyyətdə, dünyəvi dərkdədir:

*Mənliyi olmasa fırlanarmı Yer,*
*Yaşada bilərmi bəşəriyyəti.*
*Ulu kainata sən bir fikir ver,*
*Mənlikdən yaranmış onun qüdrəti!*

*("Mənlik")*

X.R.Ulutürkün milli mənlik şüuru həm öyüd-nəsihət, di-

daktika, həm də təbliği, səfərbəredici ruhdadır. Bunlar çox zaman ortaq başlanğıcda təzahür edir:

*Bəli, nə poladdır, nə pambıq, nə neft,*
*Vətən - susdurulmaz kişi ruhudur.*
*Sən öz mənliyini döyüşdə kəşf et,*
*Mənliyi yoxdursa, şir də ahudur.*

Lirik qəhrəman Vətən əxlaqı və şəxsiyyətin bütövlüyündə - vətəndaş kimi reallaşır. O, tədricən milli xarakter olaraq yetkinləşir, həyat və mövcudatla nəfəs alır, xarakterləşir, bədii keyfiyyətə çevrilir:

*Kişi mənliyindən başlanır Vətən,*
*Vətən susdurulmaz kişi ruhudur.*

Lirik qəhrəman özünün mənəvi dəyərlərini: nifrət və sevgisini ifadə edəndə milli mənsubiyyətə görə müəyyənləşmir, məhdud səciyyə daşımır. O, dünyəvi mahiyyətdə duyulur, dərk olunur, ona görə şairin milli xarakterində bəşəri dəyərlər müəyyənləşir. X. R. Ulutürkün lirik qəhrəmanı milli xarakterə, oradan da bəşəri olana doğru üz tutur:

*Möhtacı deyiləm hələ heç kimin,*
*Mənim nifrətimin, mənim eşqimin*
*Kökləri dünyanın mərkəzindədir.*
*("Mənim keçmişimi tərifəyirsən")*

Xəlil Rzanın baş qəhrəmam Azərbaycandır. Şairin "Mən"i və mənliyi də ona görə müəyyənləşir. Azərbaycan - Vətən ideyalarının əsasında milli ideal, xalq taleyi dayanır:

*Sən elə bilmə ki, baxıb Araza,*
*Ayna qabağında dayanır Vətən.*
*Yaşı milyardsa da... mərd bir oğlunu*
*Taparkən... yenidən yaranır Vətən!*

Sənətkar Azərbaycan, xalq, millət haqqında düşünəndə təbii olaraq doğma ana dili haqqında da düşünür - 60-cı illərin əvvəlindən alıb gəldiyi ideyam vətəndaşlıq mövqeyini daha ciddi əks etdirir. "30 il öncə şairin ana dilinin saflığı, təmizliyi uğrunda mübarizəsi – "Ana dili" şeirinə edilən haqsız hücumlara görəsən Xəlil Rza necə dözüb? "Məndən başlanır Vətən"

şair təkrarən ana dilinin saflığını, müqəddəsliyini bütün millətlərin mədəni tərəqqisində başlıca meyl hesab edir; bəşəri problemlər qaldırır. Tariximizin, xalqın milli varlığının, soyunun, kökünün kəşfiyyatçısına çevrilir" [55].

Məsul vəzifələrdə, dövlət idarələrində çalışanların hər şeyə tutuquşu tək "hə, hə" deməlırinə, nəfslərinin qulu olmalarına etiraz edən şair antihumanist xislətləri lənətləyir.

Mənlik - cəsurluqdur, qorxaqlara, qorxaqlığa döyüş elan etməkdir, - çünki qorxaqlıq olan yerdə millət özü də mənliyindən məhrum olur:

*Gözüqıpıq yurdun, ağciyər elin,*
*Yeməyi olsa da, mənliyi olmaz.*
*( "Qorxaqlar, cəsurlar")*

Mənlik ləyaqəti - X.R.Ulutürk poeziyasında milli müəyyənliyi göstərən başlıca göstəricidir:

*Vətənini deyirsən, elmi deyirsən?*
*Kişi mənliyindən başlanır Vətən.*
*Mənlik ləyaqəti yetişməyibsə*
*Millət yox, qarşında tayfa görərsən.*

XIX əsrin 50-ci illərindən başlayaraq, ilk rüşeymləri görünən, 70-80-cı illərdə inkişaf edən milli şüur həm də özündə milli məfkurə və idealı yetişdirməyə başlamışdır. Həmin məfkurə erməni-rus şovinizmi, separatizm və nihilizminə qarşı mübarizə şəraitində məqsəd aydınlığına çevrilmişdir. XX əsrin əvvəllərindən istiqlal məfkurəsinin ideya daşıyıcıları, ideoloqları, siyasi təsisatları, milli mətbuat və ədəbi məktəbləri sülh, demokratiya və milli azadlıq uğrunda mübarizənin subyektlərinə çevrilmişlər. M.Ə.Rəsulzadənin yazdığı kimi, "Azərbaycanın bu qədər fəlakətlər nəticəsində əldə etdiyi bir qazancı varsa, o da bu istiqlal fikrinin rüsuxi" [153, s.95] olmuşdur.

İkinci Dünya müharibəsindən sonra da Azərbaycanda müstəqillik, azadlıq mümkün olmamış, onun ərazi bütövlüyünə qəsdlər edilmişdir.

Azərbaycan hər dəfə millətçi damğası ilə damğalanmışdır. Doğma dil, millət və dini dəyərlər sıxışdırılmış, Azərbaycandan ərazi qoparılması, Naxçıvan, Dağlıq Qarabağ muxtariyyətinin Ermənistana birləşdirilməsi üçün cəhdlər olmuşdur.

X.Rzanın arxivindən:

“Xatırlayıram ki, təxminən altı il bundan qabaq Akademiyanın böyük salonunda Səməd Vurğun gecəsində Abbas Zaman müəllimin qopardığı tufanda az-çox mən də “taqsırkaram”. Öz çıxışı ərəfəsində dərin mənəvi həyəcan keçirən Abbas müəllim onda lap qabaqda, bəlkə də birinci cərgədə mənimlə yanaşı əyləşmişdi.

-Xəlil, bu gecə sənə Vurğun haqqında xatirə söyləyəcəm. Axırda Naxçıvan məsələsinə də toxunacam. Məsləhət bilirsən?

-Əlbəttə, - deyə mən sevimli müəllimimizi alqışladım. Onda 28-29 yaşlı bir gənc olan Xəlil, onsuz da fitrətinə görə qızğın olan bu gənc alışmaq üçün bir cınqıya bənd idi. Abbas müəllimin sözü ürəyimi dağa döndərdi.

-Əgər bu məsələ şayiə deyilsə, əgər bu məsələnin ciddiliyinə tam əmin-arxayınsınızsa, əgər doğrudan da, erməni qardaşlarımızın arasında belə şərəfsiz niyyətə düşənlər, təhlükə törədənlər varsa, onda deyin...

Abbas Zaman müəllim o gecə öz sözünü dedi. Söz veriləndə xitabət kürsüsünə qalxmadı. Əlini kürsüyə söykəyib dərya kimi ləngər vuran salona üz tutdu. Səməd Vurğun barədə gözəl, səmimi bir xatirə söylədikdən sonra əsil mətləbə keçdiyi zaman Abbas müəllimin necə gərgin dəqiqələr keçirdiyini, onun alovlu, mərd sözlərinin salonda necə təlatüm qopardığını unutmaq mümkün deyil. Sədrlik edən Məmməd Arif dözmədi. Onun sözünü yarımçıq kəsməyə çalışdı. Ancaq Abbas müəllim axıra kimi mərd dayana bildi.

-Mənə elə gəlir ki, - dedi, - S.Vurğun sağ olsaydı bu gün Naxçıvan məsələsi barədə şərəfsiz söhbətləri eşit-

səydi, məhz bu cür deyərdi: Naxçıvan Azərbaycan torpağının müqəddəs bir parçasıdır. Onu qara niyyətli dargözlərə, millətçilik, şovinizm mərəzinə tutulmuşlara tərk etməyə bizim heç bir mənəvi haqqımız yoxdur. Naxçıvandan əl çəkmək hər şeydən əvvəl bizim çoxmillətli Qafqazda dostlara böyük beynəlmiləlçilik ənənələrinə endirilən zərbə ola bilər. Hər şeydən əvvəl erməni-azəri dostluğunu qıra bilər. Bizim üçün dostlardan, xalqların Lenin qardaşlığından müqəddəs heç nə yoxdur. Ona görə də mən təklif edirəm ki, erməni və azəri xalqlarının bütün ağıllı hissəsi bu məsələdə yekdil, ayıq, mərd olmalı, bir ovuc daşnak tör-töküntülərini alovlandırmağı bacarmalıdır.

Ancaq, heyhat! Biz dağılışandan sonra da ürəklərin odu keçmədi. Abbas Zaman min-min könüldəki milli ləyaqət duyğusunu silkələmişdi. Mürgüləyən qüvvələri oyatmışdı. Əlbəttə, onun dalınca deyinən, dargözlük edən, Abbas Zamanı milli lovğalıqda, şöhrətpərəstlikdə ittiham edənlər də yox deyildi... Çox keçmədən eşitdik ki, Abbas Zamanı universitetdən, müəllimlikdən azad ediblər. Abbas Zaman yoldaşı milli məhdudluqda ittiham edən Vəli Axundovun məruzələrindən sonra onun, hətta partiya üzvlüyündən çıxarılması faktı da acı bir xatirə kimi yadımdadır. Maraqlıdır, bu dövrdə mən Abbas müəllimi heç vaxt sarsılmış, sustalmış görməmişdim...” (Şairin arxivindən. 15 oktyabr 1967-ci il) [318].

60-cı illər dünyada Şərqdən Qərbə qapıların açılması, bəşəri-qlobal münasibətlərin yaranması, Avropa, Asiya və Afrika ölkələrinin əldə etdikləri istiqlalla əlaqədar olaraq başlayan səfərlər, millətin öz daxilinə mənəvi-yaradıcı baxışı, milli ideal və məfkurəni gücləndirmişdir.

Milli ruh 50-60-cı illərdə B.Vahabzadənin “Gülüstan” poeması, “Ana dili” şeiri X.R.Ulutürkün “Ana dili”, “Dilim mənim, nərəm mənim”, S.Tahirin “Ana dili”, M.Şəhriyarın “Heydər baba”, H.Savalanın “Türkcə təranələr”

və başqalarında xüsusilə seçilmişdir.

X.R.Ulutürk yaradıcılığında məfkurəvilik 60-cı illərin poetik nümunələrindən duyulmuşdur. Həmin şeirlərin məzmununda, əsasən, türkçülük, istiqlalçılıq, vətənçilik, xalqçılıq, Azərbaycanın ərazi bütövlüyü, Azərbaycan ideyasının gerçəkləşməsi, milli dövlətçilik və onun dünyada tanınması ideyası durmuşdur.

Sənət və ədəbiyyatın tarixi roluna böyük inam X.R.Uluturkün milli özünüdərkində daxili enerjidir. 60-cı illərin şeirlərində ("Nifrətim var" (1960), "Meyar" (1962), "Böyük sənətkar" (1962) və başqaları) bədii "Mən"in şüurunda ictimai məzmun və kəsər özünü güclü göstərirdi. Bu cəhətdən Xəlil Rza M.F.Axundzadənin şüur və məfkurə mücəssəmi kimi tarixi xidmətlərini yüksək qiymətləndirirdi:

*Kim deyir, kim deyir döyüşə bilməz*
*Sənətkar zamanla, istibdad ilə?*
*Zülmün dağlarını dağıtmısan ki,*
*Adi bir qələmlə, istedad ilə!*
*("Böyük sənətkar")*

Bu daxili inam, potensiya enerjisi X.R.Ulutürkü də məqsəd aydınlığına doğru aparmışdır. Hələ 1962-ci ildə yazdığı "Bahar" şeirində demişdi:

*Döyüşlərdə ağartsa da saçlarımı qış qar kimi,*
*Mən gəlmişəm bahar kimi, gedəcəyəm bahar kimi.*

50-80-ci illərin əsərlərində milli məfkurənin doğuşu və inkişafını müşahidə etmək çətin deyildir. İstiqlal məfkurəsi X.R.Ulutürk özünüdərkinin mənbələrindən biridir. "Afrikanın səsi" (1960), "Gözün aydın, Azərbaycan" (1968), "Yetkinləş, Xəlil" (1968) və başqa əsərlərdə həm milli, həm də bəşəri səviyyədə azadlıq fikir və motivləri ilə bərabər Quzeylə Güneyin birləşdirilməsi - bütöv Azərbaycan ideyası əksini tapmışdır. "Quzeylə Güneyi birləşdirməyə fəxr elə, ey Vətən, Şəhriyar gəlir", - deyən şair ayrılıq sədlərinin lay-lay söküldüyündən sevinir, yur-

dunun yarısının ona dar gəldiyindən" darılır, kədərlənir.

Xəlil Rzanın 50-60-cı illərdən başlanğıc götürən istiqlal fikir və məfkurəsi həm də Azərbaycanın ərazi-mənəvi bütövlüyü ideyasıdır (Bu barədə ətraflı bax., monoqrafiya: s.106-116). Cənuba üz tutmaq X.R.Ulutürkün 60-cı illər şeirindən həm bilavasitə, həm də sətiraltı anlamlarda görünmüşdür. "Qatar gedər" və "Gedər" şeirlərində "Araz", "Təbriz" obrazları çox şairlərdə olduğu kimi Xəlil Rza kədərinin, məqsədinin ideya daşıyıcılarıdır:

*Kirpiyimi uzadıb göz qoyaram Araza*
*Azərbaycanı görər, kim gözümü arasa*
*İçim deyə bir ovuc ləpələnən axından,*
*Əyilərəm, Araza baxaram lapyaxından...*

*("Qatar gedər")*

*Hələ yer görməyib mənim dizlərim*
*Əsrlər dalından gəlir izlərim.*
*Təbriz, Təbriz! - deyə gülsə gözlərim,*
*Göy-göl gözlərimin yaşında gedər.*

*("Gedər")*

70-ci illərdə yazdığı şeirlərində X.R.Ulutürkün istiqlal motivləri güclənmişdir. "Səməndər quşu kimi" (1970), "And içirəm" (1974), "Millət mücahidləri", "Dincəl, əllərim dincəl" (1974), "Səlahiyyət istəyirəm" (1979), "Məsləklə yaşayanda" (1979), "Saçlara dən düşür" (1979), "Mən Azərbaycanam" (1979), "Heç ola bilməz ki..." (1979) və başqa şeirlərdə milli istiqlalı bəsləyən şair siyasi məfkurə duyğusunun doğurduğu ehtizazları, mübarizlik ruhunu qabarıq əks etdirir.

Xəlil Rza Ulutürkün "Kəşf", "Gözəl yaşamaq", "Hər şeyin yaxşısı" (1970) kimi şeirlərində istiqlal məfkurəsi insanın gözəllik idealından doğur:

*Görünür yaşamaq qanunları var,*
*Beşikdən qəbrəcən yol gedirik biz.*
*Dünyada ən böyük gözəllikləri*

*Ömür bahasına kəşfedirik biz.*
*("Kəşf")*

"Bağda xəzan düşüncələri" (1959), "Sonsuz qüvvət" (1962), "Göyçayda payız səhəri" (1963), "Dağlara qalxıram" (1965), "Aç qoynunu ana torpaq" (1968), "Hər şeyin yaxşısı" şeirlərində təlqin olunan ideya, məfkurə mənəvi gözəlliyə yetmək, onun naminə fəaliyyət göstərmək və mübarizə aparmaqdır. X.R.Ulutürk yaradıcılığında gözəlliyə qovuşmaq elə həyatın mənasını tapmaqdır:

*Sevsən...*
*Biləcəksən nədir bu cahan.*
*Dolanmaq, sürünmək, yaşamaq nədir?*
*Ən gözəl yaşamaq əslinə baxsan*
*Gözəllik uğrunda mübarizədir!*

Şairin mənlik şüurunda ülviyyəti dərk etmək idraka doğru gedilən yoldur, seyrçi təfəkkür deyildir. Şairə görə gözəllik idealını dəyərləndirmək yalnız sevinc emosiyasına görə yox, həm də müqəddəs Vətən, millət kədərinə yiyələnmək, onun məna və mahiyyətini dərk etmək. Vətən ruhunda tərbiyə olunmaqdır:

*Gözəllik aləmin genişlənəcək,*
*Almasdan bahalı şeh görəcəksən*
*Sevincdən qiymətli İnsan kədəri,*
*Qılıncdan kəsərli ah görəcəksən.*

Xəlil Rzanı "Göy-göl" şeirində Ə.Cavad, S.Vurğun və başqalarının poetik ənənəsi yeni yozumda davam etdirilir:

*Şair Söhrab Tahir qoşulub mənə,*
*Dalıb, əsir düşüb gözəlliyinə.*
*Bacın Urmiyədən salam var sənə*
*Gözləyir ən gözəl xəbəri, Göy-göl!*
*("Göy-göl")*

Şair məsləkinin doğuşu da insanın azadlıq qüdrətindən, məfkurəsindən vüsət alır. "Kəşf", "Məsləklə yaşayanda" şeirlərində olduğu kimi:

*Bir məslək ardınca çıxdım yollara,*
*Getdik Səmərqəndə, Ankaraya da.*
*Gördüm beş dənizə, iki qitəyə*
*Sığışmır sinəmdə əl boyda ürək.*

Haqsızlıq və ədalətsizliklər güc-qüdrət kimi Xəlil Rzanın damarlarına sıxılmış, onun ruhunu, emosiyasını gərgin saxlamış və mübarizələrə hazırlamışdır.

Sənətkar ruhunda və məmləkətində gördüyü azadlığı körpə yaşlarından vətən övladlarına da öyrətmək istəmişdir. Bunu mücərrəd yox, həyat, təbiət hadisələri əsasında predmetli təlqin etmiş, azadlıq ruhunu onlara geydirmək istəmişdir:

*- Gətir xərəyi, oğlum,*
*- Gətir qayçını da, gətir beli də.*
*Gətirdi saçında ətirli külək*
*- Ala, neyləyək?*
*Oğlum, bu yazığa azadlıq verək:*
*Əncir ağacının əsarətində*
*Qalmasın tənək.*

*("Müstəqillik")*

Şair əyani, predmetli olanı hazırlayıb sonra ideya, məqamı şəklində oxucuya çatdırır:

*Müstəqillik-bağımsızlıq,*
*Yəni əlin, qolun bağlı olmasın.*
*Qucağa, qoltuğa qısılmayasan*
*Kiminsə boynundan asılmayasan.*
*Oğlum, yadda saxla, bu sözüm haqdır:*
*Qoltuqda yaşamaq - yaşamamaqdır.*

Şairin azadlıq haqqında fikirləri yalnız müasirlik mənasında müəyyənlik tapmamış qədim, tarixi, əfsanəvi hadisələrdə belə təcəssüm etdirilmişdir. Spartak, Babək, Koroğlu cəngisi, Nəbi nərəsi, Misri qılınc X.Rza idealının hərəkətverici qüvvəsidir. "Babək", "Gedər", "Əbədi məşəl" (1963-64) "Məşəl silahlar" (1977) və başqa şeirlərdə azadlıq ideyası tarixi motivlər əsasında ümumiləşdi-

rilir. Həmin şeirlərdə milli şüur və mənəvi məfkurəni oyadan rəmzlər Cavanşir, Babək, Misri qılnıc, Nəsimi, Sabir, Od, Təbriz xalısı, Dədə Qorquddur:

*Romadan Kapuya şəhərinədək*
*Çaparlar uçdular, atlı çaparlar.*
*Çaparlar bilmədi:*
*bir azca öndə*
*Azadlıq havalı bir köhlən də var.*
*("Əbədi məşəl")*

Məlumdur ki, e.ə.74-71-ci illərdə Spartakın başçılığı ilə qullar Kapuya şəhərindəki qladiator məktəbində qiyam qaldırmış, 74 nəfər azad olmuş, sonra bunların sayı çoxalmış, onlar romalılara qarşı azadlıq mübarizəsi aparmış, Vezuvi dağının zirvəsində düşərgə salmış, cır üzüm tənəklərindən uzun nərdivanlar hörüb gccə ikən aşağı enərək, Roma qoşunlarının üzərinə atılmışlar. Romalılarla 3 il silahlı mübarizə getmişdir. Xəlil Rza həmin hadisələri əsas tutaraq mühakimələr irəli sürür:

*Qışqırdı on bir min qladiator:*
*- Silah!!!*
*Silahsızlıq - hər şeyin sonu*
*... Yanır qaranlıqda bir məşəl, odur,*
*bəlkə nişan verir nicat yolunu?!*
*- Varmı məşəlimiz? - sordu Spartak –*
*Bu yağlı kəndirdən tapmaq olarmı?*
*- Olarl*
*- Tez yandırın!*
*Mumlu, qətranlı*
*Məşəl silahlara sarıldı hamı.*
*("Məşəl silahlar")*

Sənətkar tarixin dərinliklərindən üzü bəri gələn azadlıq məfkurəsinə müasir baxışını belə ifadə edir:

*Mənimsə beynimdə bir fikir gəzir*
*Əgər qeyrət olsa, silah tapılar.*
*("Əbədi məşəl")*

Xəlil Rzada belə bir məfkurə hələ mücərrəd məna daşıyır, həyat hadisəsindən gəlmir, faktlaşmır; sadəcə, təfəkkür, məzmunu daşıyır, kişiləri məsləkə, əqidəyə hazırlayır. "Əbədi məşəl", "Kişilər" şeirlərində olduğu kimi:

*Kişilər başını əyməmiş yada,*
*Xosrova göstərmiş fərhadlığını.*
*Qolları zəncirli dustaq olsa da,*
*Qorumuş təfəkkür azadlığını.*

*("Kişilər")*

*Yaxud:*
*Ustadın Cəziri, ustadın Qoran!*
*Xalqın biləyindən qandallar qıran,*
*Bir yandan dağıdan, bir yandan quran*
*Memar düşüncəndə ahəgdi şeirin.*

*("Kürd şairinə məktub")*

Sənətkar milli azadlıq, əsarətdən qurtuluş düşüncələrini 70-ci illərin şeirlərində, milli hüdudlarda ifadə etməmişdir; o, beynəlxalq, qlobal mövzuda yazdığı şeirlərində belə özünün milli ruhunu əks etdirmişdir; bəşəridə milli, millidə bəşəri ideal axtarmışdır:

*Bu gün qəzəb vahəsidir, Şirvanım da, Muğanım da,*
*Təndirdənmi, ya bağrımdan qopub gəlir səda, nida,*
*Gühar olsun, raketlərə yurd olmasın Qrenada!*

*("Qrenada, Qrenada" )*

X.R.Ulutürkün istiqlal məfkurəsi öz başlanğıcını onu milli "Mən"ə, məfkurəyə doğru aparan müqəddəs mənəvi-bəşəri dəyərlərdən götürür: düzlük kimi saflıq da milli məfkurəyə (istiqlala) doğru aparan psixoloji od, işıq və enerjidir. O, insanı düşündürür, onun milli-fərdi ehtiyatını hərəkətə gətirir ("Ürək qızıl gülə bənzər" (1962), "Saflıq", "Təmizlik uğrunda" (1973), "Düzlük" (1976), "Yaşamaq" (1977) və başqaları):

*Mən saflıq uğrunda döyüşə çıxdım,*
*Elə ki, nakəsə süləmi sıxdım,*

*Sandım ki, hardasa artdı bir çiçək,*
*Bir bənövşə bitdi - ətirli, göyçək.*
*İpək yatağından qopardı məni,*
*Qalx - dedi - dağların yoxuşlarına*
*Saflıq aldı məni, apardı məni,*
*Çəkdi ölüm-dirim vuruşlarına.*
*Hər gün tələb edir: - Yuxudan tez dur!*
*Qılınc qurşamalı, qandal qırmalı!*
*Yalnız özün üçün saf olmaq azdır,*
*Bütün kainatı saflaşdırmalı.*
*(“Saflıq”)*

Ulutürkün milli istiqlal məfkurəsinin daxili tutumu, onun hüdudları genişdir. Hər bir xalqın təcrübəsi, azadlıq idealı onun üçün sadəcə şüar, anlayış deyildir, mənəvi zənginlik, ləyaqət və bəşəri dəyərdir; düzlük, mərdlik, həqiqət, cəsarət, cəsurluq onun daxili təkanları, hərəkətverici qüvvələri, milli xarakterin davamlı mənəvi keyfiyyətlərindəndir. Onda qətiyyət, dözüm, mərdlik, barışmazlıq və mübarizlik vardır. “Əyilmə” (1962), “Şəlalə kimi” (1962), “Təmizlik uğrunda” (1970), “Sarsılma” (1970), “Kəsə yol” (1982), “Min bir dərdin dərmanı” (1982), “Düzlük” şeirlərində mübarizə pafosu mənəvi-əxlaqi düşüncələrdən ayrılmazdır:

*Görünür dünyada təmiz yaşamaq*
*Çörəyim, suyumdur, havamdır mənim.*
*Paxır götürməyən düzlük, açıqlıq*
*Sarsılmaz qalamdır, yuvamdır mənim.*
*Dəniz ləngərilə, çiçək ətrilə*
*Qartal uçuşuyla yaşadığı tək*
*İnsanı tanıdır, alışıb yanan*
*Ciyərlərindəki haqqın nəfəsi.*
*Həqiqət uğrunda təsadüfü yox,*
*Gündəlik, güzəştsiz mübarizəsi.*
*(“Düzlük” )*

60-70-ci illərin şeirlərində milli istiqlal məfkurəsi ilə bağlı düşüncələr, ideyalar candan sızmalar şəklində özünü göstərirdisə, 70-ci illərin axırları, 80-ci illərin əvvəllərinə aid olan şeirlərdə etirafa, elana çevrilir, şair "Mən"i milli məramından söz açır; milli məram fərd, sonra isə məmləkət və millət hüdudlarına qədər müəyyənlik tapır:

*Dinləyin, dinləyin, mən bir kamanam,*
*Dağ-daşı yandıran aham, amanam.*
*Bir vaxi Albaniya dedilər mənə,*
*Dağlardan vüqarlı alpam, alpanam.*
*Neçə Keyxosrovun açıq döyüşdə*
*Brilyant tacını bomboş qoyanam.*
*Rüstəm-Zal öldürdü öz Söhrabını*
*Söhrabam, mən onu bağışlayanam.*
*Təkcə öz dibinə işıq salmayan,*
*Hamıya nur verən şamam, şamdanam,*
*Dinlə qoca dünya, ey mənim anam:*
*Min yol öldürülən, yenə ölməyən*
*Əzəli, əbədi Azərbaycanam!*

"Oğlum Təbrizə" (1964), "Təbrizli şairin düşüncələri" (1970), "Xiyabani yurdunda" (1975) "Mən Azərbaycanam" (1979) və başqa əsərlərində istiqlal məfkurəsi Güney və ya Quzey azadlığı demək deyildir; şair Azərbaycanı bütöv dərk edir, onun təqdimatı belədir:

*Ey bala Təbrizim, gün o gün olsun,*
*Ana Təbrizimə mən azad deyim.*
*Baban Şəhriyara kürəkən ol sən,*
*Qovuşsun Təbrizə Şəhrizad deyim.*
*("Oğlum Təbrizə")*

80-ci illərdə Xəlil Rza Ulutürk bir ideoloq, azadlıq mücahidi, istiqlal məfkurəsinin əzabkeşi olaraq poetik proqramını elan etmişdir. Şair milli ideallarında mübarizəni, əqidə və məsləki əsas götürmüş, milli bütövlüyü təcəssüm etdirmişdir. 60-70-ci illərin əsərlərində milli mənlik şüur və məfkurəsinin təzahürü sətiraltı fikir qatla-

rında ifadə olunmuşdursa, 80-90-cı illərin yaradıcılığında bu, birbaşa özünü göstərmişdir. Həmin məfkurənin təcəssümü, əsasən, imperiyanın kəskin ifşası, yəni mübarizə ideologiyası, Azərbaycan xalqının müstəqilliyi, suverenliyi, yəni milli istiqlaliyyəti ilə bağlı olan tarixi, bədii-estetik axtarışlarla bağlıdır.

80-ci illərin şeirlərində qüdrətli çağırış ruhu fərdi xüsusiyyətdir. Çağırış, səfərbərlik ruhu 40-50-ci illər poeziyasının poetik ruhu deyildir. Bu dövrün çağırış ruhu milli qayə, meram və ideallarla aşılanmış qətiyyətli sənətkar mövqeyidir:

*İlk Allahım, son Allahım - Mübarizə! Mənə bənzə!*
*Doğransam da xıncım-xıncım, zərrə-zərrə, rizə-rizə,*
*Məramımdır Mübarizə! Mənə bənzə!*

*("Mənə bənzə")*

Mübarizə şairin həyat idealı olmuşdur. Həmin məqsəd və məram birdən-birə hasil olmamışdır, milli "Mən" bunun üçün gərgin hazırlıq illəri keçmişdir. Şairi mübarizəyə qaldıran mənəvi-daxili təkan geniş mənada müqəddəs milli kədərdir. O, 70-ci illərin şeirlərində yazmışdır:

*Kiminsə sevinci bir az bulaşıq,*
*Kiminsə qəlbində büllur bir qəm var.*
*Kimsə dinc... mənimsə damarlarımda*
*Hələ də qışqıran mübarizəm var!*

*("Geri qaldım")*

İstiqlal yolunda tərəddüdlər, büdrəmələr də şair varlığına yad olmamışdır. Onun millilik uğrunda mübarizəsi əvvəl özündən, "Bir mən vardır məndə məndən içəri" deyən təsəvvüf şairi Yunus İmrə kimi iç "Mən"indən başlamışdır. "Əyilmək qorxusu" (1973), "Gücüm, gücsüzlüyüm" (1978), "Çılğınlıqdan dözümə keçid" (1984), "Dözümlü ol, dəli könül" (1984) şeirlərində olduğu kimi:

*Döyüş amansızdır, yoxdur orta yol:*
*Ya cəsur olmalı, ya da ağciyər*
*Ya mərd yaşamalı, ya da bir təhər.*

*Ya baş girləməli, ya baş olmalı!*
*Cahana arkadaş, qardaş olmalı!*
*Döyüş amansızdır, yoxdur orta yol,*
*Bir azca kişi ol, ürəyim, mərd ol!*
*("Mərdləş, ürəyim")*

Şairin milli istiqlal məfkurəsində hələ qorxu ilə qorxusuzluq məsafəsi vardır. Milli "Mən" həmin qorxu məsafəsini qət etmək, qorxusuzluq mövqeyində dayanmaq istəyir:

*Mən qorxuyla qorxusuzluq arasında yaşayıram,*
*Sanki bəbir bəbəyində, şir ağzında yaşayıram.*

Mövcud "Mən"in qorxuları "Azərbaycan çörəyinə, onun dadına, duzuna layiq ola bilməmək qorxusudur". Belə təzaddan sənətkar fikrinin, idealının psixoloji, hissi-məntiqi halları başlayır. Şair oxucusuna, vətəndaşlara ibrət dərsləri verir:

*Qorxu hər mikrobdan təhlükəlidir,*
*Söndürür idrakı, korşaldır beyni.*
*Ac qal, yalavac qal, daş ye, dəmir ye,*
*Yedirmə qorxuya şir ürəyini!*
*("Qorx, qorxma")*

Naqis, yarımçıq olan mövcud psixologiyanı şüurdan uzaqlaşdırmaq asan deyildir. Sənətkar milli istiqlalı psixoloji-mənəvi olaraq yenidən doğmaq, tərbiyə etmək üçün ciddi məqamlar üzərində dayanır:

*Qorxma qiymətini ala bilməsən,*
*Ömrünü məşəl tək tulla zülmətə.*
*Qorx - haram şöhrətə başın qarışa,*
*Tamarzı qalasan halal şöhrətə.*
*Qorxma hörmətini itirməyindən,*
*Lap səni söysə də nakəs, naqabil.*
*Alçaqlar yanında hörmətsiz olmaq*
*Ülvilər yanında hörmətindi, bil!*

Qorxaqlıq, gözüqıpıqlıq şair nəzərində qarasudur, tra-

xomadır. Nə qədər ki, milli heysiyyətimizdə, canımızda qorxu yaşayır, o qədər özümüzdən əvvəl mənliyimizi, mərdliyimizi, insanlığımızı öldürürük. No qədər ki, qəzəbimizi, qeyzimizi uduruq, bir o qodər nifrətimizi öldürürük; biganələşirik, arxayınlaşırıq, adiləşirik. Sənətkar həqiqət sərvətini oxucusuna təzad şəklində təqdim edir. Bu təzad əslində şərəfli həyatla şərəfsizliyin barışmazlığıdır:

*Qorxma, təzək üstdə görəndə bəzək,*
*Qranit deyil ki, iradən sına.*
*Qorx ki, cah-cəlah ayaq topu tək*
*Vura bilməyəsən yad qapısına.*
*...Qorxma vəzifəni itirməyindən,*
*Ucalıq uğrunda enməkdən qorxma!*

*("Qorx, qorxma")*

Şairin milli "Mən"i idealı yolunda ölümdən qorxmur. Buna görə də məfkurə mövqeyi onda obyektiv həsəd qayğısı doğurur: "Müşfiqdənmi artığam, ya Şandor Petefidən?!". Əlbəttə, onu ölüm yox, ideal təşnəsi düşündürür:

*Min gözəl nigar gedib,*
*Əbədi yaşamağa qadir oğullar gedib!*
*Günəş kimi işıqlı, parlaq ağıllar gedib!*
*Vaxtsız gedib... çox erkən...*
*Hansından artığam mən?*
*Pulemyot mağzalını sinəsilə qapayan*
*ərlər gedib könüllü!*
*Həqiqəti bağrında dustaq edə bilməyən*
*mərdlər gedib könüllü!*

*("Müşfiqdənmi artığam, ya Şandor Petefidən")*

Mövcud "Mən"in istiqlalçılıq şüuru çox güclüdür. 80-ci illərin ədəbi məhsulu olan "Məndən başlanır Vətən" şeirlər kitabının səhifələri həyat eşqi, vətənpərvərlik və mübarizlik, vətəndaşlıq və ziyalılıq baxışları ilə zəngindir. Həyat eşqi, vətənpərvərlik elə bir qüvvədir ki, insan təbiətindəki qorxu hissi onu nə qədər izləyirsə də, həmin səddi keçə bilmir; şair "Mən"i inkarı inkar etmək əzmin-

də, qətiyyətində qalır. “Məndən başlanır Vətən” (1983), “Gözəl yaşamaqdan əl çəkmək olmaz” (1984) şeirlərində belədir:

*Hər insan varlığında*
*uyuyur iki xislət*
*Göz-gözədir elə bil*
*qorxaqlıqla cəsarət*
*Acizliklə dəyanət.*
*Xəsisliklə səxavət.*
*Tərəddüdlə qətiyyət.*
*Qalx ayağa, özünü kəşfet bir do təzədən*
*Əl çəkə bilməzsən mübarizədən.*
*Atılar üstünə bir qırpımdaca*
*Boynunda qalstuk gəzdirən əfi.*
*Süstlük - həyatın kəfi.*
*Odur, yanır dan yeri...*
*Addımla Günəşlə tən.*
*Torpaqdan başlanmır yox,*
*Kişi qanındakı qeyrət selindən,*
*Səndən haşlanır Vətən,*
*Məndən başlanır Vətən!*
*(“Məndən başlanır Vətən”)*

“Məndən başlanır Vətən”, “Heç bir ehtiyat” (1986), “Heç olmasa bircə nəfər” (1986) şeirlərində tərəddüdlər yox olur; şair “Mən”i qətiyyətli hökmü, andı ilə məqamlaşır. Sənətkarın həyat mövqeyində səbatın, qətiyyətin rəhni özünün dərk etdiyi kimi xalqın gücüdür (“Xalq qüdrəti” /1986/), yalnız həqiqəti dayaq sayan, haqq üçün döyüşlərdə bağrı yanan, hər biri bir dağ, bir ordu, bir Boz qurd olan Kişilərdir (“Kişilərə arxalanaq” /1982/).

80-ci illərin şeirlərində şair “Mən”inin mənəvi-psixoloji məqamları ilk əvvəl daxilə, mövcud mühitə tənqidi, ifşaçı baxışdan müəyyənlik alırsa, həmin tənqid və ifşa bir çox hallarda həcvləşir, daha nifrətli şair mövqeyi ilə reallaşırsa ( “Bilmirsən, deyim öyrən” (1980), “Açıq

konuşma" (1984), "Barı tanıya bil" (1984), "Bədxaha açıq məktub" (1984), "Mənim işim səndən keçir" (1984), "Sənin ölümünü gözləyənlər var" (1986), "Toxunmadım ilana" (1986), "Son inanma məddahlara" (1986), "Türk sözündən qorxan gəda" (1986), "Lənət" (1986), "Hər şey gəldi-gedərdi...", "Təslimçi" (1986), "Bəs niyə susdun" (1986), "Yunsaqqal" (1986), "Sən alçaqsan", "Sağlıq dilərəm sənə" (1987), "Mən sənə güvənirdim" (1987), "Məddah" (1987), "Başkəsən" (1987), "Haçan, hansı yerdə?" (1987) və s.), 80-ci illərin axırlarına doğru Azərbaycanın milli heyatında mürəkkəb ictimai-siyasi hadisələrin baş verməsi ilə əlaqədar olaraq, milli "Mən" bilavasitə, istiqlalçı, yəni sovet imperiyasına qarşı mübariz kimi konkretlik alır. Bu illərin poeziyasında şairin "Mən"i təlatümlü, qaynar lirik polifoniyadan çıxaraq, onlarla birlikdə üsyankar, patetik-publisistik özünəməxsusluğu doğurur. Sənətkarın milli "Mən"i sərt, ağır günlərdə Ali Baş Komandan olsa da, olmasa da, Azərbaycan adından əmr edir: Silahlan! Fərsiz rəhbərliklərin göstərişləri nəticəsində ov tüfəngləri belə əllərindən alınmış xalqına qərar verir: "Topdan, tüfəngdən üstün, tankdan, raketdən güclü qeyrətinlə silahlan!".

Qərar verir ki, "Xiyabani ruhunu nəfəsinlə alışdıran cürətinlə, düşmənə nifrətinlə silahlan! Çünki o, "36-da batmış, 46-da vurulmuş nəsillərdən güclüdür!". İstiqlalçı şair bu səbəbdən də dünyaya məhəbbəti ilə silahlanan xalqını "hayqıra-hayqıra" səsləyir. Səsləyir ki, "sən tək deyilsən, yer də, göy də sənindir. Bayraq elə özünsən. Qalx döyüşə silahlan! Sən qalib gələcəksən!" Beləliklə, Xəlil Rza Ulutürkün, qəhrəmanın idealından, kişi bağrından Vətənin mənəvi övladları doğulur. Şairdən Azərbaycan başlayır!

Xəlil Rza Ulutürk yaradıcılığında milli özünüdərkin mənbələrindən biri də **türkçülük məfkurəsidir**. Türk milli mənlik şüuruna qayıdış zaman-zaman imperiya siya-

sətçilərini, xristianlığı narahat etmiş, onlar həmin ideyalara görə Azərbaycan ziyalılarını pantürkist, panislamist kimi qələmə verərək, nəzəriyyələr uydurmuş, müsəlman Şərqini xristianlığa qarşı qoymuş, ümumən, türkləşmək ideologiyasını, dövlət və millət müəyyənliyini inkar etməyə çalışmışlar.

Turan dedikdə türk ellərinin Adriatik dənizi sahillərindən tutmuş Çin dənizinə qədər böyük tarixi Vətəni başa düşülür. Bu tarixi ərazi hələ fərdi vətənçilikdən və azərbaycançılıqdan irəli olandır. Türkçülüyün böyük ideoloqu Ziya Göyalpın da yazdığı kimi "Turan türklərin oturduğu, türkcənin qonuşulduğu bütün ölkelərin toplamıdır" [90, s.63]. Z.Göyalp türkçülüyün son məqsədini də Turançılıq kimi sonuclamışdır: Türkçülüyün uzaq ülgüsü Turan adı altında birləşən oğuzları, özbəkləri, yakutları dildə, ədəbiyyatda, kültürdə birləşdirməkdir" [90, s.63]. Turançılığı biz həm də ümumtürk, ümumislam mədəniyyəti, mənəviyyatı kimi qavrayırıq.

Vətənçilik və azərbaycançılıq şüuru böyük ümumtürk genindən, dilindən və dinindən nəşət almışdır. Ümumtürk vəhdətində mövcud milli "Mən" özünü dərk etdikcə Türkçülük və İslamçılıq baxışları da dərinləşmişdir.

M.Ə.Rəsulzadə 1930-cu ildə Parisdə çap etdirdiyi "Panturanizm haqqında" (Qafqaz problemi ilə əlaqədar) ciddi məqaləsində türkçülüyün ideya-nəzəri əsaslarına əhəmiyyətli münasibət bildirmişdir.

Rusiyanın kölələrindən biri, erməni jurnalisti A.Xondkaryan "panturanizm"i təhrif etməyə çahşaraq, məsləkdaşı Zarevandın "Türkiyə və panturanizm" kitabından istifadə edir. Kitabın ideyasına görə guya türk-tatar separatistləri güzəranlarını yaxşılaşdırmaq yox, Rusiyadan ayrılaraq, Türkiyəyə birləşmək istəyirlər. Həmin təhriflərə ciddi etiraz edən M.Ə.Rəsulzadə yazmışdır: "Bizim rus xalqına qarşı heç bir ədavətimiz yoxdur, əksinə, bizim qəlbimiz ona qarşı ən xoş niyyətləriə doludur. Lakin bununla yana-

şı, biz həqiqətən zor və qəsbkarlıq yolu ilə bizi də öz arabasına qoşaraq həyatımızı və mədəniyyətimizi istədiyimiz formada inkişaf etdirməyimizə mane olan rus imperializminin düşməniyik” [154, s.106].

M.Ə.Rəsulzadə qeyd edir ki, slavyan xalqlarında olduğu kimi, türk xalqlarında da milli birlik ideyası yaranmışdır və o, romantik səciyyə daşıyır. Həmin birləşmədə Türkiyə mühüm rol oynamışdır. Türk mütəfəkkirləri və ictimai-siyasi xadimləri də bunu öz siyasətlərində müdafiə etmişlər. Konsepsiyaya görə “türk millətçiliyi” tek-milləşdirilmişdir. Məşhur tarixçi Mükrimin Xəlil bəy başda olmaqla təbliğ etdikləri ideyaya əsasən “türklük” bir millət deyil, “irsi” mənada anlaşılmışdır. “Anadolular” belə hesab edirdilər ki, vahid türk milləti deyil, ayrı-ayrı türk millətləri vardır.

Böyük öndərə görə Türkiyədəki müasir millətçilik də “panturanizm” və pantürkçülük” deyil, sadəcə “türkçülükdür”. Azərbaycanda da həmin ideya belə qəbul olunur və dərk edilir. Rəsulzadə yazır: “Türklərin birləşməsi ideyasının Azərbaycanın müstəqilliyinin təşəkkül tapmasına müəyyən dərəcədə təsir göstərdiyini inkar etmədən biz israr edirik ki, siyasətdə realist olan Azərbaycan millətləri üçün bu ideyanın yalnız mədəni məsələlər sahəsində əhəmiyyəti olduğu gün kimi aydındır: buna görə də biz müstəqil Qafqaz federasiyasını zəruri sayır və tam səmimiyyətlə bu tezisi müdafiə edirik” [154, s.106] “Xodkaryan kimi Rusiyanın dərdini çəkənlər belə bir halı indi də Türkiyəyə birləşmək kimi qələmə verirlər. Rusiyaya sədaqətlə Qafqazın müstəqilliyi bir araya sığa bilməz”[154, s.107].

M.Ə.Rəsulzadə milli hərəkatları milli özünüdərkin nəticəsi hesab edir. Bu səbəbdən də özünü demokrat, radikal sosialist adlandıran Kerenski və onun nəzəri baxışlarına irad tutur. Kerenski Rusiyanın bölüşdürülməsi haqqında yazmışdır: “Qafqaz gürcülərə, dağlılara və azər-

baycanlılara, Malorossiya ukraynalılara, Sibir yakut, buryat və digər başqa xalqların nümayəndələrinə verilir. Volqanın o tayında olan Rusiya - Orenburqdan Sibirə və Türküstandan Pamirə qədər bütün ərazi - pantürkçülərə, yəni Qafqaz tatarları ilə kamalçıların ittifaqına verilir" [154, s.107]. Kerenski dünya müharibələrini, imperiyaların dağılmasını, rus çarizminin məğlubiyyətini sanki görməmişdir. Buna görə də milli hərəkatları xariclə əlaqələndirən "separatçılıq" hesab etmişdir. Onun işlətdiyi "panturanizm" termini də həmin siyasəti əsaslandırmaq zərurətindən irəli gəlmişdir.

Müəllifə görə xalqın müasir mədəni idealı - xalqların öz müqəddəratını teyin etmək hüququdur. Həmin səbəbdən də ölkəsini yadelli işğaldan azad etməyə və müstəqilliyini bərpa etməyə yönəldilmiş hərəkatı "separatçılıq" adlandırmaq doğru deyildir. Rus işğalının əleyhinə yönəldilmiş Azərbaycan, gürcü, yaxud Ukrayna hərəkatlarını da "separatçılıq" adlandırmaq olmaz. Müəllif davam edir: "Biz başa düşə bilmirik ki, nə üçün bu xalqların öz təbii hüquqlarını əldə etməyə can atmaları, öz əraziləri üzərində tam hüquqlu sahib olmağa və müstəqillik əldə etməyə çalışmaları Rusiyanın parçalanmasına təşəbbüs kimi qiymətləndirilir" [154, s.113]. Rəsulzadə qeyd edir ki, "bizim bugünkü idealımız yalnız oğuzların mədəni birliyi ilə kifayətlənir, Türkçülüyün ən yaxın vəzifəsi bu ərazidə (yəni, Oğuzustan ərazisində) yalnız bir mədəniyyətin hakim olmasına nail olmaqdır" [154, s.114].

M.Ə.Rəsulzadə panturanizmin hazırkı mənzərəsinə də diqqəti cəlb etmişdir. O, Zarevandın fikirlərinə münasibət bildirdikdən sonra "Türkçülük" nədir sualına türkçülüyün məşhur ideoloqu Ziya bəy Göyalpın 1925-ci ildə Ankarada çap olunmuş "Türkçülüyün əsasları" kitabından sitat gətirərək cavab verir: "Türkçülük siyasi hərəkat deyil. Bu, elmi-fəlsəfi-estetik məktəbdir. Başqa sözlə, mədəni birlik uğrunda mübarizə üsuludur... Bu səbəbdən də

türkçülük indiyə qədər təşkilati cəhətdən siyasi partiya şəklini almamışdır. Şübhəsiz, gələcəkdə də bu yolu tutacaq. Bununla belə, türkçülük siyasi ideallara da yad deyil. O, onlardan (bu ideallardan - M.Ə.Rəsulzadə) yayına bilməz. Mədəni ideallarla yanaşı, onun həm də siyasi idealları da var. Məsələn, türkçülük heç vaxt və heç vəchlə klerikalizm, teokratiya və irtica ilə banşa bilməz. Türkçülük müasir hərəkatdır. O, yalnız müasir ideya cərəyanları ilə barışa və harmonik şəkildə uyğunlaşa bilər. Biz siyasətdə xalqçı, mədəniyyətdə türkçüyük" [154, s.97].

Ziya bəy Göyalp "Turan" dedikdə Türkiyəni nəzərdə tutmamışdur. Deməli, "Turan" həm də "türk Azərbaycanı", türk Türküstanı deməkdir.

Rəsulzadə: "Hətta bütün dünyanın türklərini əhatə etməli olan bir dövlətin yaradılması ideyası da boş bir xülyadır". Xalqımızın güclü olması, xoşbəxt və firavan yaşaması üçün dövlətin tamamilə milli siyasət yürütməsi lazımdır", - deyə yazmışdır [154].

Aydındır ki, türkçülüyü ümmətçilikdən, müsəlmançılıqdan, islamçılıqdan ayrı təsəvvür etmək olmaz. İslamçılıq türkçülük və azərbaycançılıq məfkurəsi, tarixi-estetik təfəkkür üçün müəyyənlik mənbəyidir.

Böyük öndər panturanizmin keçmişindən danışanda təbii olaraq panislamizm probleminə də toxunmuşdur. Fakta söykənək: "Orta əsrlər mühitində doğulan milli ideya klerikalizm ideyası ilə aşılanmaya bilməzdi. Müsəlman aləmində panislamçılıq ideologiyasını meydana gətirən Şərqdə millətçiliyin ilk dövrlərdə dini xarakter daşıması da bununla izah olunur". "Türk xalqları bir dövr panislamçılıqdan ilham almışlar. İslam mütəfəkkirləri nəinki dinin ehkamlarını möhkəmlətmək, habelə, bütün müsəlmanları birləşdirmək istəmişlər. Liberal-islahatçıların tərəfdarı olan Cəmaləddin Əfqani ilk dəfə milli özünüdərkə üstünlük verərək yazmışdır: "Azad, müstəqil və mədəni həyat sürmək üçün bütün müsəlman xalqları milli-özünü-

dərk şəraitində yaşamalıdırlar” [154, s.97].

Panislamist baxışlara etiraz edən Ziya bəy Göyalp əsaslandırmışdır ki, əslində panislamçılar xalqlarda milli özünüdərkin oyanmasının qarşısını alır, onların tərəqqisini yubandırır, bununla da müstəqil millətlər olmasına mane olurlar. “Milli özünüdərkin oyanmasının qarşısını almaq, elə xalqlara müstəqil dövlətlər yaratmaqda mane olmaq deməkdir”. Buna görə də “bütün müsəlman ölkələrində milli özünüdərk prosesini gücləndirmək lazımdır, çünki hər hansı bir tərəqqinin, həmçinin milli müstəqilliyin əsası yalnız dərk olunmuş milli “Mən”in mövcudluğudur”.

XIX əsrin birinci yarısında Türkiyə vətəndaşlarının hüquq bərabərliyi elan olunmuşdur. Bütün bunlar Sultan Əbdüləzizin “Gülxana Xətti Hümayuni” fərmanında əks olunmuşdu. Məqsəd xristian xalqlarının bir sıra meyllərini türk dövləti quruluşu ilə uzlaşdırmaqdan ibarət idi. Lakin 1848-ci il inqilabının ideyalarından ruhlanan xristian xalqları fərmanla kifayətlənməmiş və milli hərəkatlara başlamışlar. Sultan Əbdülhəmidin başçıhğı altında “osmançılıq” məğlub olmuş, islamçılıq öz yerini millətçilik ideyalarına, ilk növbədə türkçülüyə vermişdi.

Azərbaycanda İslamçılıq, əsasən, XX əsrin əvvəllərində formalaşmağa başlamışdır. Dinlə bağlı siyasi partiya və təsisatlar isə Demokratik Respublika yarandığı ərəfəyə təsadüf edir. Bu baxımdan “İttihadi-islam” və “Əhrar” partiyalarını qeyd etmək olar. Bunlar əslində islamın birliyini, ittihadçılığı təbliğ edirdilər. Lakin həm də onların fəaliyyətində Azərbaycanın müstəqilliyi, milli dövlətçilik ideyaları mühüm yer tutmuşdu. Təsadüfi deyildir ki, həmin partiyalar “Müsavat” Partiyası ilə eyni mövqedən çıxış etmişlər. S.M.Qənizadə, M.Y.Mehdiyev, M.Şahtaxtinski, Ş.Pişnamazzadə və başqaları islamı milli yox, dünyəvi zəmində qəbul etmişlər.

1905-1906 və 1918-ci illərin siyasi-ictimai hadisələri,

erməni-müsəlman qırğınları, sünni-şiə münasibətləri xalqın dini müsəlmançılıq düşüncəsini türkçülük - Azərbaycançılıq düşüncəsinə doğru gücləndirirdi. Xalq başa düşürdü ki, qurtuluş yolu islamçılıqda yox, türkçülükdə, Azərbaycançılıqdadır. Bunun aydın dərki 1918-ci ildə türk qoşunlarının Azərbaycana daxil olması, onları sünnilərlə bərabər şiələrin də qəbul etməsi məzhəbçiliyə böyük zərbə idi. Əslində bu, türkçülüyün islamçılıqdan ön plana keçməsi demək idi. Bu isə Azərbaycanı müəyyən mənada dini dövlət deyil, dünyəvi dövlət quruluşuna doğru yönəltmişdi. Keçmişdə olduğu kimi bu gün də din, islam Azərbaycanda hakimiyyət forması yox, əqidə müəyyənliyidir.

Beləliklə, uzun tarixi təcrübədən sonra türkçülük ideologiyası siyasi sistem kimi ön plana çıxmışdı. Türkçülüyün mədəni-fəlsəfi dünyagörüş kimi ilkin əlamətləri qədim türk mədəniyyətinə gedib çıxır. Milli türk sənətkarları Məhəmməd Əli Yurdaqulun şeirləri, Yaqub Qədri və Orxan Seyfinin hekayələri, Xalidə Ədibin romanları milli özünüdərkin nümunələrindən olmuşdur. Türkologiya və ideologiya sahəsində isə M.F.Köprülüzadə və Z.Göyalpı xüsusilə qeyd etmək olar.

Milli mətbuatda "müsəlman" sözü "türk" sözü ilə əvəz olunmağa başlamışdır. "Açıq söz" qəzeti Rusiya müsəlmanlarını türklər adlandırırdı. Qazan və Volqaboyu tatarları da türkçülüyü elm və mətbuat səviyyəsində təbliğ etmişlər. Hətta Zəki Vəlidi "Türklərin tarixi" kimi sanballı elmi kitab da yazmışdı.

Azərbaycanda milli türk özünüdərki M.F.Axundzadədən, onun komediyalarından kök almışdı. H.Zərdabi "Əkinçi" qəzetini təsis etməklə həmin ideyaları yaymışdı. İsmayıl bəy Qasprinski Bağçasarayda (Krım) doğma türk dilində tədris aparmışdır.

Milli intibahın oyanışı, türkçülüyün, islamçılığın təbliği sahəsində böyük xidmətləri olan C.Əfqani, Əhməd

bəy Ağaoğlu, Əli bəy Hüseynzadə Azərbaycanda, Türkiyədə, Qərbi Avropada, Peterburq, Moskva və Tiflisdə bir neçə dildə əsərlərini çap etdirmişdilər.

XX əsrin əvvəlindən başlayaraq C.Məmmədquluzadə, M.Ə.Sabir, Ü.Hacıbəyli, N.Vəzirov, F.Köçərli, Ə.Haqverdiyev, Ə.Hüseynzadə, Ö.Faiq və Y.V.Çəmənzəminlinin fəaliyyətində türkçülüyün təbliği yeni bir vüsət kəsb etmişdir. Xüsusilə "Həyat", "İrşad", "Tazə həyat", "Kaspi" Əlibəy Hüseynzadə, Əhməd Ağayev, Əlimərdan bəy Topçubaşov tərəfindən nəşr olunan millətçi qəzet və jurnallar olmuşdur. (27, s.174). Ümumiyyətlə, 1910-1918-ci illərdə "Yeni Füyuzat", "Şəlalə", "Açıq söz", "Dirilik" qəzetləri də aydın milli məfkurəli mətbuat kimi fəaliyyət göstərmişdilər.

Romantik poeziya sahəsində M.Hadi, Ə.Cavad, A.Səhhət, A.Şaiq, C.Cabbarlı və başqaları türkçülük ideyalarına üstünlük vermişlər.

Azərbaycanda türkçülüyün və istiqlalçılığın tarixində Əhməd Cavadın xüsusi yeri vardır. O, ADR dövrünün nəğməkarı olmuşdur. Azərbaycançılığın, vətənçiliyin, türkçülüyün ənənələrini XX əsrin 80-90- cı illərində həyatda və poeziyada əks etdirən isə Xəlil Rza Ulutürkdür.

Türkçülük Xəlil Rza Ulutürk yaradıcılığında milli özünüdərkin mənbəyi, davamlı ideya, fikir qaynağı, ideologiya, məfkurə müəyyənliyidir. Aydındır ki, türkçülüyə, turançılığa qayıdış imperiya siyasətçilərini, xristianlığı zaman-zaman narahat etmişdir. Onlar həmin məfkurəyə görə Şərqi, Azərbaycanı pantürkist, panislamist kimi qələmə verərək, onu xristianlığa, russofilliyə qarşı qoymuş, ümumən türkləşmək ideyasının dövlət və millət müəyyənliyini inkar etməyə çalışmışlar.

Keçən əsrin axırlarmdan başlayaraq H.Zərdabi,n Ə.Hüseynzadə, Ə.Ağayev, N.Nərimanov, C.Məmmədquluzadə, F.Nemanzadə, M.Hadi, H.Cavid, A.Şaiqin M.Ə.Sabir, Ü.Hacıbəyov, H.Z.Tağıyev, Ə.Topçubaşov,

S.Mənsur, M.Hacınski, M.Ə.Rəsulzadə, C.Cabbarlı, Ə.Cavad və başqa tarixi-ədəbi şəxsiyyətlər “Əkinçi”, “Ziya”, “Kəşkül”, “Həyat”, “İrşad”, “Füyuzat”, “Molla Nəsrəddin” kimi mətbuat orqanlarında, bu və ya digər münasibətlərdə türkçülüyə: türk mənşəyi, türkləşmək, islamlaşmaq, müasirləşmək, millətin adı, dili, ərazisi ilə bağlı milli-tarixi məsələlərə toxunmuş, həmin məfkurəni təbliğ etmişlər, yaymışlar.

Oktyabr fütuhatından sonra həmin məfkurə yasaq olunsa da, Azərbaycan şairləri müəyyən məqamlarda ona qayıtmış, sətiraltı, mətnarası anlamlarda həmin ideyaları yaşatmışlar. 80-ci illərdə milli-demokratik hərəkatın başlanması, Azərbaycan dövlətçiliyinin bərpasından (1991-ci il) sonra türkçülük məfkurəsinə yenidən qayıdış olmuş və bu Xəlil Rza Ulutürk yaradıcılığında daha poetik qüvvətlə üzə çıxmışdır.

Böyük şairin yaradıcılığında türkçülük milli məfkurə qaynağıdır. “Qalx ayağa, Azərbaycan”, “Yalnız pasportunda”, “Sən alçaqsan”, “Boz qurda öygü” şeirlərində türkçülük milli müəyyənlik kimi dərk olunur. Şairin milli “mən”i “Qalx ayağa, Azərbaycan” şeirində öz ideyalarını həm Qərbin burjua ideoloqlarının fikirlərinə qarşı qoyur, həm də Rəsulzadənin nəzəri fikirlərini bədii şəkildə təcəssüm etdirir:

Bu sahildə odlar yurdu,
O sahildə Türküstansan,
Müsəlmanlıq sədlərinə,
Sığışmayan müsəlmansan.
Xaçpərəst də, buddaçı da,
Uzündəki nura heyran,
Sevir türkü altı qitə
Sevməyənlər türkə qurban.

Xəlil Rza millilik, dil mənsubiyyəti baxımından “azərbaycanlı” sözünə etiraz edir. Şairə görə, “azərbaycanlı” türk dil qrupunun tərkib hissəsi, kökdə gövdədir. “Mən günəş ürəkli Xəlil Rzayam” şeirində respublikanın ərazi birliyinə toxunan sənətkar lahıc, ləzgi, talış, tat, udin, rutul və kürdü türkə

qarşı qoymur, onları ana torpaqda - Azərbaycanda ayrı-ayrı etnoslar bilir:

*Lahıc da, ləzgi də, talış da, tat da,*
*Kürd, udin, rutul da var-dövlətimdir.*
*Azərbaycanımın qucaqladığı,*
*Bağrına basdığı can sərvətimdir.*
*Fəxrim, qol-qanadım, şan-şöhrətimdir.*

Milli "Mən" türklüyünü, doğma ana dilini dananları "təslimçi fərarilər" adlandırır:

*Nizami bayramında*
*Qarahüseyni dinlədim,*
*Qorxusundan türkcə yox,*
*başqa dildə danışdı.*
*İlk və son məktubuna*
*başqa cavab vermədim,*
*Təslimçi fərarilər mənə*
*çoxdan tanışdı.*

X.R.Ulutürk türkə qarşı olanları: imperiyapərəstləri, "komunnist cildli faşistləri", "dost" qiyafəli məddahları, müasir mənada "sadvalçıları", ermənipərəstləri kəskin ifşa edir:

*Simasını itirmiş yaddan*
*heç nə ummuram,*
*Ancaq səni dartıram*
*"ölüm" kürsüsünə mən.*
*Dinlə, gör nələr deyir*
*bağrımdakı bu yaram:*
*Bəşərin düşmənidir*
*türkə düşmən kəsilən.*

Xəlil Rza Ulutürk turançılıq idealında Türkiyəni "Yaşasın odyurdu, qardaş Türkiyə", "Nə yaxşı ki...", "Xəlil, bir az səbr elə" şeirlərində "sal daşlı, qayalı arxa, dayaq, köksümüzə səngər" bilir. Şair "Mən"i türk qövmlərini sa-

dalayır, tarixə etiraz edərək, onların pərən-pərən salındığını, adlarının belə dəyişdirildiyini xatırladır və Türkiyə, Azərbaycan. Özbəkistan, Türkmənistan, Qazaxıstan, Qırğızıstan, Tatarıstan, Başqırdıstan, Altay, Sibir, Uyğurustan, Bolqarıstan, Kərkük, İraq, Bağdad, Hələb türklərini seçib ayırır və onların varlığı ilə fəxr edir. Xəlil Rza Ulutürkün nəzərində türkçülük, turançılıq fatehlik, menemlik, işğalçılıq mahiyyətindən çox uzaqdır. O, türk birliyinin gücünü ona görə tərənnüm edir ki, türk kiçik olanın, zəifin xilaskarıdır. Həm də türk birliyində: udin, ləzgi, nen kimi ulusların adı və payı vardır. "Azadlıq meydanı", "Azərbaycan-türk salamı" şeirlərində də türk birliyi Türküstan, Turan anlamından qavranılıb dəyərləndirilir.

"Türkazər" şeirində şair "Mən"i millətinə özünüdərk zirvəsindən baxır. M.Ə.Rəsulzadənin "milli müstəqilliyin əsası yalnız dərk olunmuş milli "Mən"in mövcudluğudur" hökmünü bədii şəkildə təsdiqləyir:

*Azərbaycan türküyəm!*
*Bəlkə də bu cümlə*
*heç çıxmayıb ürəyindən!*
*Səslənməyib dilində,*
*Varlığında bəslənib,*
*bəslənməyib dilində.*

"Yıxın, sökün, dağıdın" və "Türk" şeirlərində fərdi ideya istiqamətlərindən biri budur ki, türkçülüyün, turançılığın mərkəzində milli "Mən"i təzahür etdirən, Azadlıq meydanında həmin ideya ruhunda nitq söyləyən və türk dünyasını mübarizəyə, həmrəyliyə çağıran şair, həm də yəhudi, buddaçı, atəşpərəst və xaçpərəstin belə yerini görür; ifrat islamçılıq təbliğ etmir. O, panislamizmin əley-hinədir. Bu da doğrudur ki, şair "Mən"i yalnız türk ellərinin azadlığından, müstəqilliyindən söz açmır, bütün bəşəriyyətin və xalqların həqiqəti tapmasından danışır:

*Ləngərlənən meydana*
*birdən yeni can gəlir,*
*Azərbaycan, Türküstan,*
*ardınca Turan gəlir...*
*Meydanın sonu yoxdur,*
*yüz-yüz nəğmə, min-min səs.*
*İudaçı, buddaçı,*
*atəşpərəst, xaçpərəst...*
*Həqiqətə təşnədir,*
*Bağrı bəşəriyyətin,*
*Bu qüdrətdən, bu ruhdan*
*qopmaq, ayrılmaq çətin.*

"Azərbaycan türkcəsi" şeirində dilləri vahid bir ağac hesab edən şair onun kök və gövdəsində türk dillərinin dayandığını, onların arasında Azərbaycan türkcəsi "Misri qılıncın səsini" xatırlatdığını poetik şəkildə mənalandırır.

Mənalandırır ki, Azərbaycan türkcəsini, "nə qaranlıq divarlar, nə tikanlı hasarlar, nə gözü dar, beyni dar, niandertal ağalar"... bizdən ala bilməz:

*Min il hundan sonra da*
*yaşayacaq dünyada*
*Füzulinin nəfəsi,*
*Şəhriyarın nəfəsi.*

Şairin poetik dərkində Azərbaycan türkcəsi "Bilqamıs" türk abidəsini özündə yaşadan qədim dil kimi həm də müasirdir, əbədidir:

*Təkcə babamsanmı? Yox ...*
*...həm də oğlum, qızımsan.*
*Zindan pəncərəsindən*
*bir az solğun*
*görünən baharımsan,*
*yazımsan.*

"Odur ruhum, ana dilim" misralı şeirdə də türk dilinə məhəbbət ifadə olunmuşdur.

Xəlil Rza Ulutürk poeziyasında yalnız Azərbaycan türk dili

fərdiləşdirilmir: belə olsaydı bu dil türk dillərinə qarşı qoyulardı. Şair türk dilləri birliyindən eyni ehtirasla danışır: Türk, özbək, qırğız dillərinə də poetik nümunələr hesr edir.

X.R.Ulutürk türkçülüyün güclü təbliğatçısı olmuşdur. O, türk xalqlarını iqtisadi-mənəvi birliyə çağırmışdır. Onun türk qövmlərinə aid şeirləri, onlardan poetik tərcümələri vardır. Şair elmi-tarixi memuarlarında da türk özümlüyündən bəhs etmişdir. X.R.Ulutürk yaradıcılığında Özbəkistan mövzusu geniş yer tutur. Məlumdur ki, həmin respublika ilə onun həm poetik, həm də elmi əlaqələri daha dərin olmuşdur.

X.R.Ulutürk "Məqsud Şeyxzadənin bədii yaradıcılığı və Azərbaycan-özbək ədəbi əlaqələrinin aktual problemləri" mövzusunda doktorluq dissertasiyası yazmışdır [203]. Onun M.Şeyxzadə haqqında "Məqsud Şeyxzadə" (B., Elm, 1978), "Məqsud Şeyxzadənin bədii yaradıcılığı" (B., Elm, 1982) adlı monoqrafiyaları vardır. X.Rzanın arxivində "Türküstan divanı", "Özbəkistan poeziyası", "Şeyxzadə dəftəri" adlı əlyazma qovluqları saxlanılmaqdadır. O, özbək şeiri antologiyasını tərtib etmiş, lakin çapını mümkün edə bilməmişdir. X.Rza 50-dən çox özbək şeirini, eləcə də M.Şeyxzadənin şeirlərini, "Mirzə Uluğ-bəy" və "Cəlaləddin Mənquberdi" pyeslərini dilimizə çevirib çap etdirmişdi. Həmin əsərlər 1 992-ci ildə "Turan çələngi" kitabında, latın qrafikası ilə eyni adla redaktorluğumuzla 2005-ci ildə çap olunmuşdur (Bax: B., Çinar-Çap, 2005). Kitabda Yusif Xas Hacib, Səkkakı, Əlişir Nəvai, Babarəhim Məşrəb, Həmzə Həkimzadə Niyazi, Çolpan, Osman Nasir, Qafur Qulam, Aybək Həmid Alımcan, Zülfiyyə, Mirmöhsün, Həmid Qulam, Əsqəd Muxtar, Şükrulla, Cüməniyaz Cabarlı, Erkin Vahid, Abdulla Arif, Yusif Şahmənsur, Həlimə Xudayberdi, Gülçöhrə Çurayeva, Abdulla Şır, Rəzzaq Əbdürrəşid, Feyzi Şahismayıl, Rəhim Bəyiryaz, Məqsud Şeyxzadə, Cəmal Kəmal, Tahir Qəhhar, Dilək Cürə və başqalarının əsərlə-

ri dilimizə uyğunlaşdırılaraq təqdim edilmişdir. X.R.Ulutürk özbək ədəbiyyatına dair "Sənət və istedadın qələbəsi" (26 dekabr, 1974), "Sənətkar şöhrətinin sirri", "Böyük sənət xəzinəsi" (11 sentyabr, 1978), "Özbək qadın şairləri", "Dostluq nədən başlanır" (23 sentyabr, 1975), "Cəmal Kəmal poeziyası" (19 ocaq, 1986), "İlk möhtəşəm abidəmiz" (22 mayıs, 1994), "Poeziya - ən böyük milli sərvət", "Mədəniyyət iftixarı", "Poeziya xalqın nəfəsidir", "İki xalqın oğlu" və başqa məqalələrin müəllifidir. O, 1969-cu ildən başlayaraq, Özbəkistanla, özbək poeziyası ilə bağlı olmuşdur. Akademiyanın müxbir üzvü, professor Yaşar Qarayev doğru səciyyələndirir ki, X.R.Ulutürkün "Qardaş özbək xalqına, özbək təbiətinə, onun tarixinin zənginliklərinə həsr olunmuş şeirlər silsiləsi poeziyamızda yeni hadisədir. "Bakı-Daşkənd səma yolu", "Özbəklər", "Səmərqənddən keçərkən" və s. şeirlərində Xəlil Rza sadəcə olaraq dostluğu, qardaşlığı tərənnüm etməklə kifayətlənmir, bu dostluğun dərinliklərini üzə çıxarır, şair ürəyinin alovu ilə qızınmış isti, canlı, unudulmaz lövhələr yaradır" [115, s.28-29].

Azərbaycan-özbək ədəbi əlaqələrinin tarixi qədimdir. X.Rza özü "Poeziya - ən böyük milli sərvət" məqaləsində həmin əlaqələrin ədəbi mənzərəsini canlandırmışdır. X.R.Ulutürk belə əlaqələrin ümumiliyinə Turan müəyyənliyindən, ortaq məkan və ədəbi zəmin birliyindən baxmışdır. Etnik qohumluq, dil yaxınlığı, tarixi-mədəni inkişaf eyniliyi, oxşar ənənələr, janr, forma bənzərliyi, obrazlı təfəkkür birliyi doğurmuşdur. İbn Sina, Əbu Reyhan Biruni, Kaşqarlı Mahmud, Balasaqunlu Yusifin əsərləri bəşər mədəni fikrinin xəzinəsinə daxil olmaqla bərabər, Azərbaycan və Özbəkistanın mənəvi yüksəlişi üçün zəmin olmuşdur.

Özbək şairi Qütbi Nizaminin "Xosrov və Şirin" poemasını dilimizə uyğunlaşdırmış, özbək ədəbi dilini zənginləşdirmişdir. Nəvai və Füzuli ənənələri iki şair arasında

ideya-məzmun, forma, rədif, qafiyə, vəzn, bəhr bənzeyişləri doğurmuşdur.

Milli ədəbiyyatda realizmin güclənməsi baxımından M.F.Axundzadə, Mirzə Cəlil, Ələkbər Sabirlə Babarəhim Məşrəb, Durdu, Müqimi, Zövqi, Nadirə, Fürqət yaradıcılığı arasında fikir, qayə, xəlqilik, milli şüur, məfkurə, antihumanizmin tənqidi, dil və üslub baxımından paralellər aparmaq da mümkündür.

XX əsrin əvvəllərinə qədər (1924) əski Türkmənistanın, Turanın ümumi bədii sözü olmuş cığatay ədəbiyyatı milli özümlüyə parçalanmış, sovet siyasi rejimi ayırmalar doğurmuş, bu səbəbdən də Türküstan məfkurəsini qoruyub saxlamaq üçün Əbdülrauf Fitrət "Cığatay gürüngü" (söhbətləri) adlı ədəbi mərkəz təşkil etmiş və Münəvvər Qarı, Əbdülhəmid Süleyman, Çolpan, Qazi Yusif, Elbək, Batu, Abdulla Əvlani, Zərif Bəşiri, Rafiq Mömin, Ziya Səid, Abdulla Qədiri və başqaları həmin təşkilat ətrafında birləşmişdilər. Lakin onlar Stalin rejiminin qurbanı olaraq, millətçi kimi öldürülmüşlər. Azərbaycana aid olan repressiya eyni qaydada Özbəkistanda, Türkmənistanda da tətbiq olunmuşdur.

20-30-cu illərdə Türkmənistanda hürriyyət tərəfdə durmuş H.H.Niyazi, Sədrəddin Ayni, Saken Seyfullin, Sufizadə, Aybək, Qafur Qulam kimi sənətkarlar (bizdə olduğu kimi) milli qaynaqlardan uzaqlaşaraq "qırmızı axına" qoşulmağa məcbur olmuşlar. Aybək, Mirtemur, Abdulla Qəhhar, Məqsud Şeyxzadə, Qafur Qulam, Həmid Alımcan, əsasən, sovet quruluşu mövzusunda əsərlər yazmışlar. S.Rüstəm, O.Sarıvəlli, M.Rahim, S.Vurğun, M.Dilbazi kimi, əlbəttə, onların da tarixi mövzuda əsərlər yazması istisna deyildi (Aybək "Nəvai", Səməd Vurğun "Vaqif", M.Şeyxzadə "Cəlaləddin Mənquberdi", "Mirzə Uluğbəy", H.Alımcan "Muğanna"...).

İkinci Dünya müharibəsindən 60-cı illərə qədərki dövr ümumsovet ədəbiyyatında hərbi, kolxoz və sovxoz, vul-

qar sosiologizmin təbliği ilə bağlı olmuşdur. Azərbaycanda da, Özbəkistanda da bu dövrün çoxlu ədəbi nümunələrini qeyd etmək olar.

Lakin 60-80-ci illər Özbəkistan ədəbiyyatında da milli şüur və məfkurə, özünüdərk ədəbiyyatının tanınmış nümayəndələri kimi Erkin Vahid, Abdulla Arif, Rauf Pərfi, Süleyman Rəhman, Abdulla Şir, Həlimə Xudayberdi, Məhəmməd Əli, Gülçöhrə Nurulla, Aman Mətcan, 80-ci illərdə Məhəmməd Saleh, Tahir Qəhhar, Xurşud Devran, Əzim Suyun, Şövkət Rəhman, Osman Əzim, Mirzə Kencəbar, Törə Mirzə, İkram Atamurad kimi yaradıcılar yetişmişdir. Həlimə Xudayberdiyeva, Zülfiyyə, Gülçöhrə Nurullayeva, Etibar Axundov, Gülçöhrə Curayeva, Cəmal Kərnal, Yustf Şahmənsur, Hüsnəddin Şərif, Rəzzaq Əbdürrəşid, Nərmurad Nərzulla, Cüməniyaz Cabbar və başqaları ədəbi əlaqələrin qüvvətlənməsində daha ciddi rol oynamışlar.

X.R.Ulutürkün tərəfimizdən işlənməkdə olan poetikasında onun özbək ədəbiyyatı ilə əlaqələrini geniş surətdə tədqiqita cəlb etmişik.

Xəlil Rza 1977-ci ildə “Doğmalıq” kitabını çap etdirmişdir. Həmin kitabda Azərbaycan-Özbəkistan dostluq əlaqələrinin poetik nümunələri olan bir sıra şeirlər çap olunmuşdur. “Qardaşlıq dünyasında” silsiləsinə “Özbəklər” (1970), “Çətindir ayrılmaq” (1970), “Daşkəndin qışı” (1970), “Bakı-Daşkənd səma yolu” (1974), “Səmərqəndim” (1974), “Məktublar – qol-qanadım” (1976), “İncəsənət sarayında” (1976), “Sizdən əziz kimim var” (1979) şeirləri daxildir.

Xəlil Rza türkçülüyü qüdrət rəmzi kimi mənalandırır. Ceyhunu, Seyhunu qoşalaşdırıb ürəyinə doğru çəkən lirik “Mən” bir-birini tamamlayan dağlar silsiləsini vüqar, qürur, məhəbbət rəmzi bilir:

*Arxamda dayanmış Savalan, Qoşqar*
*Urqut dağlarına calanıb gedər.*

*( "Özbəklər" )*

Şeirlərdə özbəklər türk qövmlərindən biri kimi fərdiləşdirilir. Belə fərdilik əsasən özbək dili, adət-ənənəsi, onun yaşayış tərzi, psixologiya, tarix və etnoqrafiyası, habelə, təbiətə aid olan realist romantik təsvirldərlə bağlıdır. Poetik nümunələrdə özbək milli xüsusiyyətləri etnoqrafik fərdiliklərdə geniş təsvirdə yox, məqamdan-məqama təqdim olunur. Özbəklərin çay içmək adətlərinə aid:

*Qızılzeh fincanda az-az içdiyin*
*Dəmli çay bir kiçik laləzər kimi*

*("Özbəklər")*

Qonağı qarşılamaq adəti:

*Özbəklər qonağı qonaq edərlər*
*Üstü qırmızı kök, yağlı plova*
*Manti, şiş kababı, mastava ilə*
*Bir gələn şüşədə yağlı alova*

*("Özbəklər")*

Qonağı yola salmaq adəti:

*Tələsmə getməyə, çıxıb qarşına*
*Səni gətirərlər Fərqanəyədək*

*("Özbəklər")*

Başlarına araxçın qoymaq vərdişi:

*Başına tutalı araxçın qoymuş*
*Çapanlı, təpərli kişilərə bax.*

*("Səmərqəndim")*

Yaxud:

*Dövlət quşu kimi qonar başına*
*Dördbucaq araxçın - o düppi çələng.*

*("Özbəklər")*

Özbəklərin çörək növlərinə aid:

*Çörəyin nə nədər növü olarmış,*
*Üstündə zəfəran, küncüt, sedanə,*

*Lavaş, şirmayı nan, bazar nan, külçə*
*Verib öz ətrini gülə, reyhana,*
*Üstündə zəfəran, küncüt, sedanə.*
*("Çətindir ayrılmaq")*

Xəlil Rza "Səmərqəndim" şeirində Özbəkistanın, Səmərqəndin tarixi, etnoqrafik varlığından eskizlər verir:

*Dəhlizi-kəhkəşan, tağı- asiman,*
*Qapısı - tarixin darvazaları.*
*Ayla gün asılsın qoy yaxasından*
*Günə şölə versin mərmər kənarı.*
*("Səmərqəndim" ).*

Şair Səmərqəndim etimologiyasını belə poetikləşdirir:

*Kaşqarlı Mahmudun aç lüğətini*
*Səmərqənd - Semiz kənd - barlı, varlı kənd.*
*Göylərdə axtarma yer cənnətini*
*Hər kövsər bulağın suyu şəkər, qənd.*
*("Səmərqəndim" ).*
*Şəhərin altında başqa bir şəhər*
*Qədim Əfrasiyab mürgülər, yatar.*
*Əfrasiyab - Alp,ər, Alplar, ərənlər*
*Burda min illəri baş-başa çatar.*
*("Səmərqəndim" ).*

Xəlil Rza şeirdə "Sərbedarlar" sözü də işlətmişdir. Sərbedarilər (dara çəkilənlər) tarixən İran və Mərkəzi Asiyada monqol əsatirinə qarşı xalq azadlıq hərəkatının iştirakçıları olmuşlar. Həmin hadisələrə eyham edən şair yazır:

*Burda sərbedarlar nişanəsi var:*
*Başını versə də dar ağacına,*
*Eşqi, əqidəsi sarsılmayanlar*
*Qoymadı toz qona mərdlik tacına*
*( "Səmərqəndim" ).*

Makedoniyalı İsgəndər e.ə.334-cü ildə Şərqə yürüşlər etmişdir. Mərkəzi Asiyada (indiki anlamla) çətin döyüşlər

keçirilmişdir. Bu səbəbdən də X.Rza yazmışdır:

*Qərbi də, Şərqi də tutan İsgəndər*
*Özünü bu yerdə salmış çətinə.*
*Götürüb başından tacı mükəddər*
*Baş əymiş şəhərin dəyanətinə.*
*( "Səmərqəndim")*

X.Rzanın Özbəkistanın maddi mədəniyyət nümunələri ilə bağlı işlətdiyi maraqlı misraları çoxdur. XVI əsrin ən məşhur memarı özbək-Sinan Xoca olmuşdur. O, 1540-cı ildə Osmanlı imperatorluğunda baş memar vəzifəsinə təyin edilmişdi. Onun inşa etdiyi Şahzadə, Süleymaniyyə və Səlimiyyə camesi kimi memarlıq abidələrinə onun müəllifinə işarə edərək belə yazmışdır:

*Kimindir bu sözlər, hansı memarın?*
*Xəyallar içində addımlayıram.*
*Mən kiməm?Bir yarpaq, ya qar dənəsi.*
*Xeyir Mən özümü yer-göy sayıram.*
*Çünki Səmərqənddə addımlayıram.*
*( "Səmərqəndim").*

Teymuri hökmdarı böyük alim Uluqbəy Tarakay Səmərqənd, Buxara və Giduvanda mədrəsələr tikdirmişdir. X.Rza bunları ümumiləşdirərək yazmışdır:

*Yanaşıb Uluqboy mədrəsəsinə*
*Onu seyr edirəm, qışda yaz kimi.*
*("Səmərqəndim").*

Şair Rumi məqbərəsi, Şirdar, Registan məqbələrini yada salaraq demişdir:

*Rumi məqbərəsi, Şirdaar, Registan*
*Bəşər dürdanəsi, dünya gövhəri*
*("Səmərqəndim").*

Muzeyləri haqqında:

*Muzey salonları hələ biryana,*
*Qəbristanlıq özü ən qədim muzey*
*Ucalan hər gümbəz kiçik bir səma*

*Sənət şöləsinə qərq olub hər şey*

*( "Səmərqəndim").*

Vaxtilə Teymurləng öz qadını Bibixanımın şərəfinə məscid tikdirmişdi. X.Rza həmin məscidə işarə etmişdir:

*Budur Bibixanım - səma çırağı,*
*Doyarmı göz-könül bu yadigardan.*

*( "Səmərqəndim" ).*

Sənətkar şeirlərdə Özbəkistanın məşhur şəxsiyyətlərinin adlarını: Biruni, İbn Sina, Ferabi, M.Kaşqari, Ə.Nəvai, M.Uluqbəy, Ə.Cabbarlı, H.Tufan, Q.Qulam və başqalarını hörmətlə xatırlamışdır:

*Bu yolun hər şaxəsi mənə aşkar görünür,*
*Ulduz bağı Səmərqənd, ulu Kaşğar görünür.*
*Bu yol hardasa tozlu karvanlarla birləşir,*
*Füzulihi gözləyir orda ustad Əlişir.*

*("Bakı Daşkənd səma yolu")*

"Çətindir ayrılmaq" şeirində oxucu Özbəkistanın nəbatat aləmi ilə yaxından tanış olur. Şair öz məhəbbətini təsirli ifadə etmək üçün S.Vurğun formasından, sintaktik təkrirlərdən geniş istifadə etmişdir:

*Bağlar meyvə dolu: ərik, badam, nar,*
*Almadan, meyvədən nuş elə bir-bir.*
*Bağlara sığmayan nemətlər ki, var,*
*Özbək varlığının bərəkətidir.*
*Almadan, heyvadan nuş elə bir-bir.*

*("Çətindir ayrılmaq")*

X.Rza Osman Sarıvəlli kimi özbək nemətlərindən olan üzümün bir çox növünü şeirdə canlandırır:

*Özbək şeiri kimi üzümlər növ-növ,*
*Hüseyni, buki, çiləki, pişraz.*
*Saxlasan, qırmızgə qışa qalarmış*
*Xatın barmağından göz-könül doymaz.*
*Yaqut parçasıdır hər gilə pişraz.*

*("Çətindir ayrılmaq")*

Şair Özbəkistan təbiətinin ağacları haqqında yazanda

təsvirin ümumiləşmə keyfiyyətini qabardır, intonasiya çalarlarından kontekst daxilində məharətlə istifadə edir:

*Hava ətirlənib, su gülablaşıb,*
*Atəş müqəddəsdir, torpaq təbərrik*
*Yasəmən gözəllər Çəpərdən aşıb,*
*Dilbər sərvlərin önündə diz çök.*

*("Səmərqəndim")*

Oxucu Özbəkistan şeirlərinde bu qədim türk məkanının oykonim, hidronim və oronimleri ilə də tanış olur:

Çay adı:

*Şaxtanın şiddəti yandırır suyu*
*Ənhar dumanlanır - Bozsu buğlanır.*

*("Daşkəndin qışı")*

Dağ adı:

*O Urqut, bu Kuhək, bu ulu dağlar*
*Yarandı mərdlərin sümüklərindən*

*("Səmərqəndim" )*

Yer adı:

*Dinlə mənə nələr deyir canımdakı şəlalə qan:*
*Qızılqala, Canbaz qala, Kiçik təpə, Sarı kurqan.*

X.Rza türk, özbək, qırğız, türkmən dil birliyinə də poetik nümunələr həsr etmişdir.

"İncəsənət sarayında" şeiri X.Rzanın Qazaxıstan mövzusunda yazdığı tərənnüm şeiridir. Əsərdə Qazax dili, türk dil qohumluğu, Qazax həyatı, vətənçilik təfəkkürü emosionallıqla ifadə olunmuşdur:

*Dedi: - Dillərimiz necə yaxınmış*
*Dedim: - Qəlblərimiz ondan da yaxın.*
*Güldü... gülüşüylə yaza döndü qış,*
*Qanımda qaynadı od axın-axın.*

*("İncəsənət sarayında")*

"Özbək dili" şeiri şairin geniş poetik təfəkküründən həm də onunla fərdilik tapır ki. Özbəkistan bir məmləkət kimi bütün dəyərləri ilə mənalandırılır, dil xalqın varlığı,

mənəvi yaddaşı kimi qiymətləndirilir:

*Cövhərini səndən aldı*
*Neçə yaqut, neçə kaşı,*
*Ey iki min beş yüz illik*
*Səmərqəndin özül daşı!*
*Dinlə, mənə nələr deyir*
*Canımdakı şəlalə qan!*
*Qızıl qala, Canbaz qala,*
*Kiçik təpə, Sarı kurqan.*
*Daşkənd, Bozad, Göyçə,*
*Şorgöl, Bori qazqan,*
*Tənir qazqan.*
*Varlığıma qüvvət gəlir*
*Adlardakı doğmalıqdan.*

X.R.Ulutürkün türk qövmləri haqqında şeirləri, onlardan qiymətli tərcümələri həm estetik, həm də ideoloji olaraq sənətkarın türkçülük məfkurəsini canlı və təravətli əks etdirir.

**Vətənçilik.** Türkçülük, xalqçılıq və vətənçilik əslində biri digəri ilə qarşılıqlı və asılı münasibətlərdə olan məfkurələr sistemidir. Türkçülük və xalqçılıqdan əvvəl vətənçilik müəyyənliyi vardır. Vətənçilik əslində fərdin türkçülük və xalqçılıqdan əvvəl seçmədiyi, lakin tale, tanrı yazısı kimi qəbul etdiyi məkanı, yurd-ocağıdır. Vətənçilik geniş anlamda türk dünyasına - türk yurdları və ellə-rinə, turançılığa nəsib olmuş ortaq başlanğıc və sonucdur. Lakin Vətənçilik təkcə tanrı, tale yazısı ilə müəyyən ərazi daxilində yaşamaq yox, ictimai-tarixi və xəlqi normalar daxilində şüurlu, məqsədyönlü fəaliyyət məfkurəsidir. Şübhəsiz, Vətənçilik anlamı könüllü məkan seçimi demək deyildir. Vətənçilik ruhu və düşüncəsini fərdin vətən əxlaqı və təfəkkürü hazırlayır. Vətən əxlaqı daha geniş ölçüdə mahiyyət və məzmun daşıyır. Bunu sistemli surətdə ifadə etmiş olsaq, buraya borc, məsuliyyət, ədalət, həqiqət, sədaqət, əxlaqi münasibət, şüur, mərhəmət, vəzifə,

məhəbbət, alicənablıq, adət-ənənə, davranış, həyat normaları, hüquqi, dini və siyasi vərdişlər, xeyirxahlıq, xeyir-şər, haqq, bəşərilik, sinfilik, millilik, milli mənlik şüuru, tərbiyə, təhsil, kamillik, psixoloji-mənəvi münasibətlər daxildir. Vətən əxlaqı tərbiyə və idrak prosesində gündəlik yığılan psixoloji-mənəvi və sosial münasibətlərin məcmusudur.

Vətənçilik və ya vətən əxlaqının hazırlanması bədii şüur və təfəkkür sahəsində xalq yaradıcılığından, bayatılarımızdan tutmuş N.Gəncəvinin "Xəmsə" əsərləri, N.Tusinin "Əxlaqi Nasiri", Nəsimi və Xətainin "Nəsihətnamə"ləri, A.Bakıxanovun "Təhzibül-əxlaq", "Kitabi-nəsayeh", "Riyazül-qüds", "Eynül-mizan" əsərləri, Q.Zakir və S.Ə.Şirvaninin mənzum əxlaqi hekayələri, B.Vahabzadənin didaktik şeirlərinə qədər və çağdaş ədəbiyyatımızda yaranmaqda olan əsərləri qeyd etmək olar. Vətənçilik əxlaqının formalaşmasında bədii şüur sahibi olan ziyalılar əhəmiyyətli rol oynayırlar.

Vətən əxlaqı geniş mənada dünyəvi xarakterdə olsa da, əslində nə qədər ki siniflər, ictimai mülkiyyətlər, münasibətlər, istehsal üsulu, iqtisadi-sosial quruluşlar mövcuddur, o qədər vətən əxlaqı, vətənçilik sinfi, milli səciyyə daşıyır; o, milli həyatın səciyyəvi xüsusiyyəti kimi meydana çıxaraq, milli əxlaq və özünüdərkdə təcəssüm olunur. Bu baxımdan dünyəvi-milli şairlərin təlqin etdikləri vətənçilik ideyaları və ruhu təbii olaraq, sinfi, milli və siyasi xarakter daşıyır. Bu baxımdan vətənçilik məfhumu nisbətən məhdud mənada türkçülük, turançılıq məfhumudur. Türkçülüyün böyük vətəni əslində Turandır, turançılıqdır. Vətənçilik milli-spesifik səciyyə daşıdığından əslində elə o, həm də azərbaycançılıqdır. Çünki azərbaycançılıq geniş mənada türkçülükdür. Azərbaycançılıq milli mahiyyətdə olduğu qədər xalqçılıqdır.

Vətənçilikdə müəyyən mənada azərbaycançılıq ehtiva olunduğuna görə o, həm də siyasi məqsədlər izləyir, yəni

mənəvi-milli azadlıq, müstəqillik, milli mənlik şüuru, ictimai-tarixi borc və vəzifə, bəşəriyyətin tarixində layiqli yer tutmaq, milli özünüdərk və dövlətçilik təfəkkürü, özünütəsdiq və cəhd idealları, məsləki daşıyır. Azərbaycançılıq geniş mənada türkçülük, islamçılıq və ümmətçilik olduğu üçün həm də xalqçılıqdır. Deməli, Vətənçilik də xalqçılıqdır.

Xəlil Rza Ulutürk yaradıcılığında vətənçilik, xalqçılıq və türkçülük önəmli görünən məfkurədir. Şairin türkçülük və Vətən əxlaqı məsələləri ilə bağlı bədii şüur və ideyalar sistemi araşdırıldığından burada yalnız Vətənin bütövlüyü probleminin bədii qoyuluşunu araşdırmaq məqsədini izləyəcəyik.

Vətən taleyi Xəlil Rza Ulutürkün şəxsiyyət və yaradıcılığında ciddiyyəti ilə görünən fikir qaynağıdır. Vətənin bütövlüyü yalnız əxlaqi-estetik keyfiyyət deyildir, o, hər şeydən əvvəl milli tarixi vicdanı oyatmaq və özünəqayıdışdır. Ciddi, ağır istiqlalçılıq borc və vəzifəsi dünya-bəşər tarixində şərəfli yer tutmaq, yaşamaq haqqı və əzmidir. Buna görə də bu kəsik məmləkətin "vəhdəti-vücudu" zaman-zaman şair ruhunu əzmişdir. Cənubi Azərbaycan (Güney) mövzusu X.R.Ulutürk yaradıcılığında aparıcı mövzulardan olmuşdur.

Azərbaycan Rusiya tərəfindən işğal olunduqdan sonra ölkənin Cənubu İran ərazisinə qatılmışdır. İstiqlalçı yazıçı Y.V.Çəmənzəminlinin yazdığı kimi, "biz türklər rus qılıncı zoru ilə Rusiyaya tabe olmuşuq. Amma bu yüz ildə bəzi barədən istiqlaliyyətimizi əsla unutmadıq" [42, s.30].

Zaman keçdikcə İran hökuməti Cənubi Azərbaycan əhalisi və ərazisi olmasın deyə onu ostanlara ayırmış və azərbaycanlıları farslar içərisində əritmək siyasəti yeritmişdir. M.İbrahimov demişkən, "Azərbaycanın bütün hakim və məmurları farslardan təyin edilir. Azərbaycan xalqı milli zülm altında saxlanılır. Bütün bunlar Azərbaycan xalqında mürtəcelərə və hakim fars şovinistlərinə qarşı

böyük nifrət doğurur. Azərbaycan xalqında milli azadlıq hissləri oyanır. Bundan bərk xofa düşən Tehran mürtəceləri İrandakı azərbaycanlıları gəlişigözəl yağlı sözlərlə dilə tutaraq, "vahid İran millətindən" danışır, azərbaycanlıların milli tarix və dilini danırlar" [108, VII c, s.50]. Lakin Azərbaycan xalqının Cənub tərəfi məsləkindən, idealından, taleyindən dönməmiş, özünün milli hüquqları, azadlıqları uğrunda mübarizəyə qalxmış, Şimali Azərbaycana (Quzey) birləşmək şüuruna, ideyasına yiyələnmişlər.

Azərbaycan şairlərinin böyük əksəriyyəti Cənubi Azərbaycan mövzusunda əsərlər yazmışlar. S.Vurğun, S.Rüstəm, O.Sanvəlli, R.Rza, M.Rahim, Ə.Cəmil, M.Araz, B.Vahabzadə, İ.Qabil, C.Novruz, S.Tahir, Ə.Tudə, B.Azəroğlu, N.Həsənzadə, R.Behrudi və başqalarının yaradıcılığı səciyyəvi sayıla bilər. Hətta, 1941-ci ildə S.Rüstəm, O.Sarıvəlli, M.İbrahimov, C.Xəndan, Ə.Məmmədxanlı, M.Rahim və başqaları İrana gələrək, orada hərbi müxbir sifətilə işləmiş və "Vətən uğrunda" cəbhə qəzetini buraxmışlar.

Müharibədən sonra da yaşlı nəsillə bərabər, gənc sənətkarlar eyni mövzular, ənənəvi problemlər səviyyəsindən Arazın o tayına baxmış, güclü bədii əsərlər yaratmışlar. M.Arazın "Dünyadan bir Araz axır", "Astaraçay", "Haçadağ", "Yenə Arazı gördüm", "Araz yadıma düşüb" (1960), "Arazın işıqları" (1968), C.Novruzun "İran qadınlarına heyrət məktubu", "Yuxumda o taya keçdim bu gecə", "Mən sərhəd görmüşəm" (1961), B.Vahabzadənin "Neytral zona" (1970), "Qəribədir" (1970), "İki yol" (1972), N.Həsənzadənin "İran şahına məktub", Məmməd İsmayılın "Nə döyüb döşünə Vətən deyirsən" (1981), "Savalanda yatan igid" (1983), S.Rüstəmxanlının "Tarixi yaradanlar" (1983), H.Arifin "Bakıdan Təbrizəcən", "Araz sahilində" (1959), "Təbrizim" və başqaları belə əsərlər sırasındadır.

Xəlil Rza Ulutürkün Cənubi Azərbaycan (Güney) mövzusunda yazdığı əsərləri də bədii siqləti ilə seçilən nümunələrdir. Şair 60-cı illərdən başlayaraq Cənub (Güney) mövzusuna gah bilavasitə, gah da bilvasitə müraciət etmişdir. “Sağlıq, yaxud vəsiyyət” şeirində (1962) Cənuba münasibət sətiraltı, mətnarası anlamda deyildir, birbaşa vətənin bütövlüyünə münasibət əsasında yazılmış əsərdir. Sənətkar böyük kədərini açıq-aydın ifadə etməkdən çəkinməmişdir. Şairin həsrət, hicran yarası vardır. Bu yara Vətənin birliyi dərdi, qəmidir. Şair “Mən”i müqəddəs torpağın sağlığına badə qaldırmışdır. Bu badə məst olmaq badəsi deyildir, şair “doğma Azərbaycanı, qanlı Arazı unutmamaq, yadda daha yaxşı saxlamaq naminə badə qaldırmışdır”. Şair Arazboyu haradasa saralıb düşmüş bircə yarpağın naminə sağlıq deyir. O, Araza doğru uzanıb gedən cığırın - o taya doğru uzanan qolların sağlığına badə qaldırmışdır. Vəsiyyət edir ki, əgər Ölsəm, məzarıma gülab, ətir səpməyin, vəslə yetmiş Vətəndə Arazdan bircə ovuc su götürüb üstümə çiləyin. O vaxtacan Arazın suları durulmasa, heç olmasa doğma ana dilində mənə rəhmət deyin, rəhmət diləyin.

“Oğlum Təbrizə” (1964) hissiyyatlı, ehtizazlı şeirdir. Ata-şairlə bala-Təbriz Azərbaycanın cüt qanadları - o tay, bu tay hesab olunur. Qanad - uçuş deməkdir. Şair Azərbaycanın inkişafını ilk öncə özündə, oğlunda görür, sonra ətrafa baxır. “Mən nəyəm ki, ey Vətən” (1964) şeirində “Vətən ölməzdir” hökmü “ümman”, “Gülüstan”, “Füzuli”, “Sabir”, “ay”, “ulduz”, “qılınc”, “kaşı”, “kainat”, “Ərk qalası” kimi poetik obrazlarla mənalandırılır. “Qardaşım oğlu Babəkə” (1965) əsərində isə deyilir ki, “hər cocuq bir parça Vətən deməkdir”. Şairə görə Vətənin doğuşu - insanın doğuşudur. İnsan və Vətən eyni vaxtda qanad tapır. Nəsillər Vətəndə yetişməklə bərabər, həm də onun dadına yetənlərdir. Xalqın taleyi də maddi və mənəvi birlikdə qüdrət kəsb edir:

*Bunu ela bilin ki, yalnız və yalnız*
*Birlik qüdrətində yaşayır Vətən.*
*("Qardaşım oğlu Babəkə")*

"Təbrizim mənim" (1965-75) şeirində Təbrizi özünə işıq, pərvanə bilənləri, həsrətindən divanə olanları xatırlayan şair ona əl yellədən biganələri də unutmur, diqqətdən yayındırmır, oğlu Təbrizə üz tutaraq Vətəni evi, cibi boyda bilənləri yada saldıqdan sonra bildirir ki, Təbrizə gedən yollar sərhəddən yox, həm də gözdən-könüldən keçir. Ellə nəfəs-nəfəsə boy atdıqca varlığında kədər də, dərd də rişələnəcək, Vətən məhəbbətindən bəbəklərində şimşəklər yanacaq. Onda Vətəni xəritələrdə deyil, öz könlündəki cəsarətdə, hünərdə axtar:

*Soruş, cavab verim mən, hardan başlanır Vətən:*
*vicdanın öz səsindən.*
*Zülmətdə bir cüt gözün ildırım qüvvəsindən!*
*Min haqsıza baş əyməz bir haqlının əzmindən!*
*("Təbrizim mənim")*

Şair oğluna - Vətən övladına öyüdlər verir. Bu öyüdlər sadəcə söz deyil, həyat təcrübəsindən, ömür yaşantılarından doğmuş müdrik, pirani öyüdlərdir:

*Nə meyxanə bucağı, nə mey tasıdır Vətən.*
*Milyon-milyon idrakın*
*Eyni amal uğrunda çarpışmasıdır Vətən!*
*Ayrılsan bu dənizdən, damcı tək itəcəksən.*
*Qovuşsan bu dənizə,*
*özündə milyard tonluq qüvvət kəşf*
*edəcəksən.*
*("Təbrizim mənim")*

Şair Təbrizi özü üçün susmaz mübariz bilir. Bu mübariz Ərani, Xiyabani, Səttarxan ruhundan doğulub. Buna görə də onun əzmində və inadında da vətən müqəddəsləri yaşamalıdır. Bu, mübariz torpağın min-min itkilərinin yerinə tapılmış dürdür. O, yalnız alilik, ülvilik üçün doğulmuşdur:

*Nəfsin ləkəsi düşsə təmiz ürək güzgünə,*
*Öz atalıq haqqımı haram bilərəm sənə*
*Rütbə, sərvət önündə səcdə qılsan, əyilsən,*
*Mənim oğlum deyilsən!*

*("Təbrizim mənim")*

Şair özü ilə oğlu arasında vəhdəti Güneylə Quzeyin birliyi kimi mənalandırır:

*Hələlik qolunu dola boynuma,*
*Eşidim Arazın, Kürün səsini*
*Səni qucmaq ilə bitişdirim qoy*
*Yurdumun yaralı xəritəsini!*

*("Təbrizim mənim")*

"Anam layla çalır" (1966) şeiri Təbriz milli hökumətinin həyatından götürülmüşdür. Şeirdə Cənuba (Güneyə) münasibət hissiyyatlı, obrazlı, bədii vasitələrlə ifadə olunmuşdur. Yanıqlı bayatılarla ayrılıq dərdini ifadə edən şair bələklə Xudafərin arasında oxşar assosiasiyalar tapır;

*Xudafərini yeni obrazda təqdim etməyə çalışır:*
*Saçılır göz yaşı ulduzlar təki,*
*Ümidlər, arzular pərən-pərəndir*
*Bəlkə bələk deyil, qarşısındakı*
*Qapısı çırpılmış Xudafərindir.*

*("Anarın layla çalır")*

Təbriz Milli hökuməti devrilmiş, şair-xalq qəhrəmanı Yüzbəndi isə İran irticaçıları tərəfindən vəhşicəsinə öldürülmüş, başı ayaqlar altına atılmışdır. "Sevinci dustaq, kədəri isə azad olan" Nəsibə ana başı bədənindən ayrılmış balasına laylalar deyir:

*Laylalar qoşulur əsən küləyə,*
*- Çəkilsin yollardan qırov, qar deyir.*
*Ana ümidini büküb bələyə,*
*Ümidin üstündə laylalar deyir.*

*("Anam layla çalır")*

M.H. Şəhriyarın bu taya, Quzeyə gələcəyi xəbəri çı-

xanda yazılmış “Gözün aydın, Azərbaycan” (1969) şeiri tərənnüm səciyyəli əsərdir. Şeirin leytmotivində ayrılıq, birlik əhvali-ruhiyyəsi, Vətənin bütövlüyü, taleyi dayanır:

*Sığmır yatağına nə Araz, nə Kür,*
*Xəzərə qəlbimdən Xəzər tökülür.*
*Ayrılıq sədləri lay-lay sökülür.*
*Yurdumun yarısı mənə dar gəlir.*

*(“Gözün aydın, Azərbaycan”)*

Şairin poetik nəzərində ulu Şəhriyarın qədəmləri uğurlu, düşündürücü mənalıdır.

Xəlil Rza Şəhriyarın timsalında vətən yanğısı, məhəbbət və həsrətini ifadə etmək üçün təsirli poetik vasitələr tapa bilmişdir:

*Bir az gecikmisən, möhtərəm ustad!*
*Vahid çox gözlədi, görmədi, heyhat!*
*Mən elə bilirəm: bura bu saat*
*Sökülüb tökülən bir məzar gəlir.*

*(“Gözün aydın, Azərbaycan”)*

Birləşmək ideyasını təzahür etdirən bədii vasitələr də yenidir; şairin ideallarını, xalq taleyini, milli özünüdərki orijinal təcəssüm etdirir:

*Mətin, əqidəli, mərd, etiqadlı,*
*Tərlan arzuları, Təbriz qanadlı,*
*Koroğlu qılınclı, Babək inadlı,*
*Savalan kökslü sənətkar gəlir.*

*Can atır çayları Kürləşdirməyə,*
*Xırda duyğuları irəliləşdirməyə.*
*Quzeyi Güneylə birləşdirməyə*
*Fəxr eylə, ey Vətən, Şəhriyar gəlir.*

*(“Gözün aydın, Azərbaycan”)*

“Xiyabani yurdunda” (1975) şeiri milli dilə verilən poetik qiymətlə səciyyəvidir. Şair milli dilə münasibətlə əlaqədar olaraq, “Ata borcu” (1979), “Laylam mənim, nərəm mənim”, “Türk sözündən qorxan gəda” (1986),

“Ürəyimdə qalan tikan”, “Azərbaycan türkcəsi” və başqa əsərlərini yazmışdır. Ulutürk milli dilimizə münasibətdə “azərbaycanlı” sözünə etiraz edərək, “türk dili” anlayışını məqbul saymışdır. Türk dilinə o, Quzeylə Güneyi birləşdirən Körpü, Qılınc və Günəş anlamlarında yanaşmışdır.

“Qatar gedər” şeirində epik təsvirə meydan yoxdur; lirik mühakimələr, məntiqi məna ilə aşılanmış təhkiyə və intonasiya güclüdür. Şair gördüyü, müşahidə etdiyi mənzərələrdə bir məna arayır, obyektiv mövcud vəziyyəti duyğu və düşüncələrinə uyğunlaşdırmaq istəyir, çünki zəhnini məşğul edən həmin duyğu və hissiyyatlardır. Bu səbəbdən də əsərdə bədii hökm və mühakimələr, suallar, qənaətlər üstünlük təşkil edir:

*Kirpiyimi uzadıb göz qoyaram Araza,*
*Azərbaycanı görər, kim gözümü arasa.*
*İçim deyə bir ovuc ləpələnən axından,*
*Əyilərəm, Araza baxaram lapyaxından...*

*Qəzəbini-qeyzini çırparaq daşdan-daşa,*
*Relslərin qırağından,*
*Təkərlərin dibindən,*
*Məftillərin altından axıb gedər birbaşa!*
*Əynimdə sonsuz gecə - od və zülmət qarışıq*
*Qatar axara qarşı, axar qatara qarşı,*
*.. Mən Arazı az qala gözlərimlə içərəm,*
*O dirəyin üstündən alov kimi keçərəm...*

*(“Qatar gedər”)*

Əsərdə “qatap”, “külək”, “ildırım”, “Şimşək” assosiasiya-metaforalarından tez-tez istifadə olunmuş, şair intizarları obyektə münasibət əsasında ifadə edilmişdir.

“Səsin gəlsin, Təbrizim” (1980) əsəri “Qatar gedər” şeirinin ideya, məzmun davamıdır. Şair efirdə, radioda Təbrizi axtarır, onun səsini eşitmək istəyir. Radionun mili sanki “kirpiyin ucu boyda ümidinin telidir”.

Ümid alışanda, tutuşub yananda şair doğma səsi, dili deyil, "ruhu candan aparan yad dilli bir marş dinləyir: "...Ey şəhid, ey şəhid. Xuni tu iftixar..."; öz dərdləri ilə Təbrizi danışdırır.

Sənətkarın üsyankar ruhu, Vətəni bütöv görmək təşnəliyi qəlbi riqqətə gətirir və damarda qanı coşdurur:

*Fəxr edim ki, o tayda həm güclüyəm, həm mətin,*
*Mən də bir övladıyam üzü ağ bir millətin!*
*Səsin gəlsin, Təbrizim, öz avazın, öz səsin!*
*Yandırsın daş qəfəsi, söksün beton məhbəsi.*
*Haqq, ədalət uğrunda alov - tutan nəfəsin!*
*Bərkdən danış, əzizim, səsinin möhtacıyam.*
*Yurdu vahid görməyin, yurdu xoşbəxt görməyin*
*təşnəsiyəm, acıyam!*
*("Səsin gəlsin, Təbrizim")*

"Xudafərin körpüsü" (1980) əsərinin mövzusu iki sahili birləşdirən tarixi körpünün rəmzi mənası ilə bağlıdır. Əslində Xudafərin şeirdə bütövlüyün təcəssümü, şair ideyasını əks etdirən vasitədir. Körpü xəyalları uzaq zamanlara, tarixi keçmişlərə uçurmuşdur. Sənətkar xatırlayır ki, "bu körpü Naxçıvanı Təbrizə bağlayıb". Xatırlayır ki:

*Bu körpünün üstündən dövranlar gəlib keçib,*
*Su axtaran marallar, ceyranlar gəlib keçib.*
*Zınqırovlu, ovsarlı karvanlar gəlib keçib.*
*("Xudafərin körpüsü")*

Şair ona görə qəzəblidir ki, "Qıfıllanmış qapısı, körpünün yolu bağlıdır". Müəllif ideyanı, ümid və inamını ifadə etmək üçün eyhama, mənaya əl atır və məramını vurğulayır:

*Cahanda hər abidə gözəl bir iş üçündür.*
*Körpülər çay üstündə gediş-gəliş üçündür.*
*("Xudafərin körpüsü")*

X.R.Ulutürk Azərbaycanın milli birliyini, ərazi bütövlüyünü yorulmadan, usanmadan təbliğ etmişdir. Həmin

təbliğat və səfərbərlik lirik təsvirdə, lirik-epik təhkiyədə görünür. Şair adi lirik mövzulara yanaşanda belə xalq taleyini, milli idealı əsas tutur, nikbin tərənnümlə oxucuya həyat eşqi, mübarizə ruhu, gələcəyə inam aşılayır, inam təlqin edir:

*Böyük vəhdətdədir şairin canı,*
*Şad günə xəstəhal gəlməyəcəyəm.*
*Birləşdirməyincə Azərbaycanı,*
*Yüz il yaşasam da ölməyəcəyəm!*
*("Yaşasın həyat")*

Xəlil Rza Ulutürkün Cənub (Güney) şeirləri, milli ideallarla, Vətən taleyi ilə aşılanmış alovlu nəğmələrdir. Həmin əsərlərin qanı, vicdanı, oyadış ruhu çox güclüdür. Bu ruh vətəndaş qəlbini həmişə narahat etmiş və onu milli mübarizələrə səfərbərliyə doğru daha çox səsləmişdir.

Xalqçılıq da X.Rzanın yaradıcılıq məfkurəsidir. X.R.Ulutürkün xalqçılıq baxışlarından danışmaq XIX əsr rus inqilabçı-xalqçılığından və ya Avropada mövcud olmuş xalqçılıq tipindən danışmaq demək deyil.

Rus xalqçılıq tipi Azərbaycanda bilavasitə olmamışdır. Qərb və Şərq mədəniyyətlərinin sintezi olan xalq maarifçiliyi olmuşdur ki, bu da XIX əsrin 30-cu illəri və sonrakı dövrə aiddir. A.Bakıxanov, M.Ş.Vazeh, İ.Qutqaşınlı, H.Zərdabi, N.Vəzirov, M.F.Axundzadə, S.Ə.Şirvani, N.Nərimanov və başqaları xalq içərisinə inqilabçılığı yox, maarifçiliyi aparmışlar.

Xəlil Rzanın xalqçılığı azərbaycançılığın, vətənçiliyin tərkib hissəsidir. Yəni Azərbaycan Vətəni yalnız azərbaycanlıların yox, həm də onlarla birgə qeyri-azərbaycanlılarındır.

Sənətkarın ideya və baxışlarında Azərbaycan ərazisində yaşayan başqa etnik qruplara, azsaylı xalqlara hörmətlə yanaşılmış, xalqın bütövlüyünə zərbə vuran sadvalçılıq, talışçılıq, ləzgiçilik kimi "xətti-hərəkatlar" ciddi surətdə pislənmişdir. Şairin vətənçiliyində yalnız Azərbaycanın mənəvi birliyi ifadə olunmuşdur. Respublikada rus-erməni şovinizminin təsiri ilə

"Ləzgistan" problemi qaldırılanda onun əleyhinə səsini ilkin qaldıranlardan biri X.R.Ulutürk idi. Talış-Muğan Respublikasının yaradılması - 1918-ci ildə əsası qoyulmuş bu mənfur ideyanın (siyasətin) 1988-ci ildə yenidən dirçəldilməsi əleyhinə səsini ilkin qaldıranlardan biri yenə də Xəlil Rza olmuşdur.

X.R.Ulutürk separatizm, şovinizm və nihilizmin amansız düşməni idi. Böyük sənətkar əsərlərində tarixi xidmətlərinə görə M.Ə.Rəsulzadənin, müasir zəmanəmizdə isə cənab H.Ə.Əliyevin ideya-nəzəri baxışlarını poetik surətdə təcəssüm etdirmişdir. Onun zəngin bədii yaradıcılığında xalqlar, millətlər arasında iqtisadi-mədəni birlik, qarşılıqlı əlaqə və münasibətlər zəminində xalqçılıq, azərbaycançılıq, türkçülük və vətənçilik ideyaları canlı ifadə olunmuşdur. Ölməz sənətkarın əsərlərində xalq obrazının canlı inikası vardır.

XX əsrin 80-90-cı illərinə aid olan əsərlərdə prototipə, fərdi obraza qarşı tənqid, ifşa pafosu gücləndikcə onların ideya-məfkurə mərkəzində xalq obrazı getdikcə konkret şəkil almışdır. Şairin "Göylərdən gələn kişi" (1980), "Bizim Zeynal" (1980), "Şeirim" (1980), "Şeirimizin Babəki" "Mənə bənzə" (1981), "Məmməd Araza" (1982), "Sənin cavabın" (1984), "Məndən başlanır Vətən" (1983), "Şair ömrü" (1985), "Məzar keşikçisi" (1985), "Hər şey gəldi-gedərdi" (1986), "Sağlıq dilərəm sənə" (1987), "Zürafə ölümü" (1987), "Məddah" (1987), "Haçan, hansı yerdə" (1987), "Qəzəbliyəm" (1987), "Azərbaycan" (1988), "Yaşasın Xalq Cəbhəsi" (1989), "Milli satqın" (1986-91), "Gəlir böyük Azərbaycan" (1986-90) əsərlərində Vətənçilik, vətəndaşlıq və xalqçıldıq baxışları ilə yanaşı, başlıca bədii obraz xalqdır.

Xəlil Rza Ulutürkün xalqı səfərbərlik ruhu və təbliği "Şeirim" (1980), "Məndən başlanı Vətən" (1983) əsərlərindən başlamışdır. "Şeirim", "Bizim Zeynal", "Göylərdən gələn kişi" əsərlərində xalqın, millətin ləyaqət və şərəfindən, qeyrət və qüdrətindən, mənəvi-psioloji və insani keyfiyyətlərdən söz açılır. Mübariz sənətkar harada cəsarətsizlik və ləyaqətsizlik görürsə, oraya "döyüş" elan edir. Şair inamı qüdrətli və

ləyaqətlidir. Çünki “nəfəs haqdan gələndə sal qayanı da dəlir”:

*Döyüş gedir cahanda, şərəf naminə döyüş,*
*Silah düşsə əlindən dişlə, dırnaqla döyüş!*
*Dırnaqların üzülsə, kirpiklərinlə döyüş*
*Kirpiyin külə dönsə, yan, ciyərinlə döyüş!*
*Sənin ki, od nəfəsin bir az dərindən gəlir*
*Alov, ataş yurdunun öz təndirindən gəlir.*
*Nəfəs haqdan gələndə sal qayanı da dəlir!*

“Bizim Zeynal” şeirində xalq doğruya, düzlüyə olan bağlılığın bədii təcəssümü kimi canlanır. Şəxsiyyətlər həyatı, əməlləri və nurlu taleləri ilə xalqı aldatmayıblar. Şeirin də müasirlik məziyyəti budur ki, hakimiyyətlə xalq arasında birlik, tənasüblük olmalı, hakimiyyəti təmsil edənlər xalqı aldatmamalıdırlar. Ucalığın meyarı düzlük və təmizlik olmalıdır:

*Xalq içində hörmətlilər doğruluğu tanrı sayıb,*
*Heç vaxt xalqı aldatmayıb, heç vaxt yalan danışmayıb.*

Şairin hakimiyyət və sənətkar qarşısında qoyduğu tələb budur:

*Çəkməçidən nazirədək dərk eləsin hamı bunu -*
*El gözündə ucalanın neçin uca olduğunu.*

Şah İsmayıl Xətaiyə həsr olunmuş “Göylərdən gələn kişi” əsərində xalqa məxsus olan müəyyənlik vüqar və iqtidar, qılınc və qələm, birlik və vəhdət, haqq və vicdandır! Xalqın milli qürurunu, azadlıq və mənliyini tərbiyə edənlər tarixi qəhrəmanlar, yanar zəkalardır! Onların timsalında təcəssüm olunan milli özünüdərk və əbədiyaşarlıqdır!

Sənətkar, naqis olana qarşı milli idealı qoyur. Dövrün psixoloji təzadlarını milli vətəndaşa çatdırmaqla həqiqəti, ideal olanı dərk etdirmək istəyir. İstəyir ki:

*Xalqın yaman günündə, qan qaraldan günündə,*
*Məhəbbət qıtlaşanda, sədaqət qıtlaşanda,*
*Hiyləgərlik, tülkülük öz həddini aşanda,*
*Bazarda balla şorun qiyməti bir olanda,*
*Məhkəmədə canivlə hakim əlbir olanda,*

*Alimi susduranda bir nadanın öyüdü,*
*Qorxaq ələ salanda qəhrəmanı, igidi,*
*Qara ağdan, namərdlər mərddən seçilməyəndə,*
*Mənliyi olmayanlar, "mənəm-mənəm" deyəndə,*
*Namus qızıl taxtından, qeyrət gözdən düşəndə,*
*Odu, közü hər yetən öz önünə eşəndə*
*Qızılgülün yerində qaratikan bitəndə,*
*Sözün, şeirin meyarı ilim-ilim itəndə,*
*Lapdan çıxır ortaya, gəlişi möcüzəli,*
*Şah İsmayıl Xətai, ya Məhəmməd Füzuli!*

Xətai və Füzuli, Qılınc və Qələm - bu birlikdəki vəhdət zamanı silkələyəndir! Xalqa, millətə "Dur! Qalx! Ya da öl!" - deyəndir. Fəqət:

*Gözü götürməyənlər, iman gətirməyənlər,*
*Başı gora əsənlər, yıgmağa tələsənlər,*
*Tanqahının üstündə əsim-əsim əsənlər,*
*Ziyankar cücü kimi sucaqda yaşayanlar*
*Qoltuqda girlənənlər, qucaqda yaşayanlar,*
*Qoyma! Məlundur- deyə haray-həşir təpərlər,*
*Zəncir çeynər, tələsik od üstə su səpərlər.*
*Fəqət sönməz, qaralmaz xalqın, haqqın vicdanı -*
*Şah İsmayıl Xətai, Xiyabani, Ərani.*

Sənətkarın qənaəti budur: xalq ləkə götürmür. Xalq işi haqq işidir! Xalqın birliyinə, yüksəlişinə mane olanlar "zəqqumlar, kor qaranlıqlardır"!

80-ci illərin əsərlərində Xəlil Rza Ulutürk ifşaçı, cəmiyyətə müxalif şair mövqeyi ilə fərdiləşdiyinə, milli ideoloq və məfkurə carçısı olduğuna görə həmin əsərlərin fitrətində də "Xalqın, haqqın vicdanı" - mövcud milli "Mən" - ideal dayanır.

Mütəfəkkir şair ideoloq, mücahid kimi milli idealını, şüur və məfkurəsini təcəssüm etdirir. Onun milli "Mən"ində xalq məfhumu və mənasının ifadəsi qüvvətlidir. "Mənə bənzə" (1981) əsərində müəllif xalq adından proqramını, məramnaməsini obrazlı surətdə elan edir:

*Ömrüm, günüm, mən hardayam gör bu gün də*
*Qətran buludlara qarşı ildırımlar yürüşündə!*
*Ciyərimi bac istəyən ölüm-dirim döyüşündə. ...*
*...İlkallahım, son allahım, mübarizə!Mənə bənzə!*
*Doğransam da xıncım-xıncım, zərrə-zərrə, rizə-rizə,*
*Məramımdır mübarizə! Mənə bənzə!*

Xəlil Rza antipodların simasızlığını, ləyaqətsizliyini göstərərkən, vətəndən, xalqdan, stuldan xeyirləri üçün istifadə edən hiyləgərlərin obrazını yaradarkən, mənfinin əməllərini müxtəlif psixoloji məqamlarda ifadə edir, qəti mövqeyini bildirir. Onun qələmində mənfi tip "vətənin cəsur oğullarını şikəst etmək üçün tələ quranlardır, dünən güllə ilə vurulanların nəslini indi sözlə vurmağa hazır olanlardır", mənəvi cılızlar, xəbislər, miskinvə dargözlərdir:

*O dar gözlərini aç, məni tanı,*
*Mikayıl Müşfiq yox, Xəlil Rzayam.*
*Otuz yeddidə yox, səksən yeddidə*
*Açan qanlı güləm, eşqəm, arzuyam.*
*("Haçan, hansı yerdə")*

Vətən və xalq sənətkar dünyabaxışında tanıdır, bütövdür, bu səbəbdən də ona özünü bütövlükdə həsr edir:

*Haçan, hansı yerdə bu məmləkəti*
*Özümə ən yüksək bayraq seçmədim?*
*Sərvəti, şöhrəti, eyşi-işrəti*
*Çürük xəzəl kimi basıb keçmədim?*
*("Haçan, hansı yerdə")*

Sənətkar özünü xalqın həyatına, xidmətinə verdiyinə görə onun adından danışmağı da haqlı, səlahiyyətli bilir:

*Vətənmi? Silsilə dağlardır vətən,*
*Bəlkə də ən yüksək zirvəsi mənəm.*
*Nəsihət verməsin mənə hər yetən*
*Mən özüm az qala xalqam, vətənəm.*
*("Haçan, hansı yerdə")*

İfşaçı şair 80-ci illərdə (1985-1987) yazdığı şeirlərində düzgün qiymətləndirir ki, xalqı geri qoyanlar, onun adını hör-

mətsiz edənlər, “bu müti qullar, kənizlər, fər önünə sədd çəkən fərsizlər, gözü aclar, acizlər, ləin, yava, baş kəsənlərdir” (“Açıq konuşma”, 1985). “Diz qoyuban ədlin, haqqın boğazına çökənlər” (“Məzar keşikçisi”, 1985) olsa da, “xalqı azdı-ranlara xalqın tüpürməyi də var” (“Sağlıq dilərəm sənə”, 1987). Şair qəti bildirir, “nə qədər ki, diriyəm, canım var hələ canda xalq qarşısına sədd çəkənləri bütün Azərbaycanda rüsvay edəcəyəm” (“Vəzifə ölüsü”, 1987). Çünki onlar “Vətəni dərdlər, qəmlər kələfinə döndərənlərdir” (“Qəzəbliyəm”).

Böyük sənətkar xalqı, Vətəni dərdlər, qəmlər kələfi hesab edir. O, “Şair ömrü” (1985) şeirində dərd fəlsəfi dərkinin siyasi, mənəvi-psixoloji əsaslarına bədii münasibət bildirir, bütün bunları orijinal üslub xüsusiyyətləri ilə oxucunun nəzərinə çatdırır. Şairin baxışlarında vətən dərdlər kələfidir ona görə ki, vətənbazlar hərisliklə “Azərbaycan” qışqırmağa güc verirlər. Vətən dərdlər kələfidir ona görə ki, ruhu qısır, qəlbi yoxsul olub, maddi zənginlər dağ başına qaldırılır, sadəlövhlərin çiçək və alqışlarına qərq edilir. Vətən dərdlər kələfidir ona görə ki, nur zülmətlə pəncələşdiyi məqamlarda neçə-neçə mikromühitlər “qorxu” yaşadırlar.

Xəlil Rza fikirlərini, psixoloji düşüncələrini təzadlar üzərində inkişaf etdirir. Göstərir ki, saysız-hesabsız cib kəsənlər, iş kəsənlər milyon-milyon manatlarla rüşvət udduqları, caniləri, cinayətkarları “bəslədikləri”, azadlığa buraxdıqları, xalq mahnı, mülkiyyətini talan etdikləri halda, özləri “balıq tutan bir kəndçiyə” iş kəsirlər. Şair sosial təbəqələrin hamısına diqqət yetirir, yalnız idarəetmə orqanlarında yox, həm də ziyalı, alim mühitində belə özünü göstərən naqisliklərə də işıq tutur:

*Vətən-dərdlər kələfidir,*
*yarı satqın, yarı nadan*
*Alimlərə öyüd verir*
*utanmadan tribunadan*
*Vətən döyüş meydanıdır,*
*bacarırsan köksünü gər.*

*Medallanmış bir ağciyər*
*macal versən igidlikdən*
*Sənə əxlaq dərsi deyər.*
*("Şair ömrü")*

Əsərdə sosial münasibətlər, təzadlar içərisindən sənətkar obrazı da canlanır, onun sosial-siyasi mövqeyi fərdiləşir. Şair hakim orqanlar qarşısında bəzən aciz olduğunu, şəxsiyyət və ziyalının hakimiyyətdən, zordan aşağı dayandığını etiraf edir:

*Vətən dərdlər kələfidir,*
*Şair Vətən dağlarını*
*Sağ çiynindən sol çiyninə alan qeyrət!*
*Uçurumdan zirvələrə*
*dartıb çəkə bilməyəndə*
*bir azca pərt.*

X.R.Ulutürkün 80-ci illərdəki əsərləri içərisində "Xalq qüdrəti" (1986), "Silahlan" (1988), "Gəlir böyük Azərbaycan" (1986-90), "Yaşasın Xalq Cəbhəsi" (1989), "Davam edir 37" şeirləri özünün ideya-məzmun və tərənnüm ladlarına görə diqqəti daha çox cəlb edir. "Xalq qüdrəti" şeirində sənətkar xalqın mənəvi tərcümanı kimi görünür. Onun qüdrəti şair qüruru ilə dəyərləndirilir:

*Mən həmin gün inandım qüdrətinə xalqımın,*
*Xalq qasırğa, önündə çör-çöp dayana bilməz.*
*Heyran qaldım yenilməz vəhdətinə xalqımın,*
*Ehkamları kül eylər bu ehtiras, bu nəfəs.*
*("Xalq qüdrəti")*

Xələl Rza xalq qüdrətinin bütün təsisatlardan əzmli, dəyanətli olduğunun psixoloji-mənəvi əsasını siqətli əks etdirir:

*Xalq-qasırğa. Önündə heç nə dayana bilməz,*
*Hökumət də özüdür, partiya da, dövlət də.*
*İçəridən nurlusa, baş heç kəsə əyilməz,*
*Ümmanlardan ləngərli qeyrət yaşar fitrətdə.*
*("Xalq qüdrəti")*

"Xalq iradəsi" şeirində həmin ideya-məzmunu davam etdi-

rən sənətkar həm də xalq, millət varlığının tarixi-psixoloji kökldərinə qürurlu, təntənəli, intonasiyalı münasibət bildirir. Əsərdə xalq sonsuz güc, qüdrət mənbəyidir; yer gücü qasırğasa, sel gücü qaynar ümmansa, el gücü qasırğa və okeandan da güclüdür. Xalq ağı qaradan, haqqı nahaqdan, həqiqəti yalandan seçə bilir, "kəsafəti söküb-tökə bilirsə", gözəlliyi də qurub-yaradır. Hər bir insan taleyi və arzusunun gətirdiyi ahkədər, əslində xalq əlində bir qılınc misalıdır. Göz yaşına tab etməyən xalq əslində hakimiyyət qərarlarına, boş şüarlara, təbliğatbazlara təslim olmur.

Xəlil Rza əsrin 80-ci illərini, bu illərin xalq qüdrətini bəşər tarixində işıqlı mərhələ hesab edir. O, bədii fikri siyasi baxışlarına doğru yönəldir. Bu baxışda üç yüz min Azəri türkünü pərən-pərən salmış kor xəyanətlər - imperiya siyasətləri pislənir və onun ideoloqları hədələnir. "Satqınların arxasından təpəcəkdir qəzəb seli coşan millət" - deyib fikirlərinə N.Hikmət ideyalarını dəstək tutur. Özünü xalq, millət içərisində "köləliyi alt-üst edən bir azadlıq məşəli" bilən tribun sənətkar yeri gəldikcə xalq və millətə münasibətdə özünə də işıq tutur; göz yaşlarını boğa-boğa fərəhli, nəşəli olan sənətkarın lirik ricətli, əzəmətli, müraciətli, münasibətli nidalarında "xalq" ifadəsi xüsusi, emfatik vurğularda, təsirli və obrazlı görünür, epiforaların yaratdığı danışıq intonasiyasında xalq məfhumunun qüdrəti, məna və mahiyyəti məqam və məramlı təsir bağışlayır:

*Yaşa, var ol, ey Kazbekdən, Savalandan uca Xalqım!*
*Bənövdə tək daim cavan, dağlar qədər qoca Xalqım!*
*Rəzillərin, qatillərin axırına çıxan Xalqım!*
*Hətta düsmən balasını ürəyinə sıxan Xalqım!*
*Yaşa, var ol!*
*Bəxtiyar ol!*
*Ehkamlara, meydanlara sığışmayan mənim Xalqım!*
*Rəzalətə, əsarətə, hər zillətə qənim Xalqım!*

*("Xalq iradəsi")*

Xalqın psixoloji-mənəvi və tarixi yaddaşı na "Davam edir 37" əsərindən daha gur işıq düşür. Xəlil Rza "otun, suyun, torpağın da, söndürülmüş ocağın da" yaddaşını oyadır, fikrimizi geriyə - tarixin keçib-gəldiyi yola qaytarır, "haqq" bağırıb boğazlara qurquşun tökdürən markaryanlar, qriqoryanlar, topuridzelər və cincəfərlərin əməllərini xatirimizə gətirir, yaddaşımızı oyaq saxlayır:

*Yox, unuda bilmərik biz iş başında omba duran*
*gürzələri.*
*Naxçıvanda DTK-da çirrnək qollu dilavəri,*
*Alnı kərpic, gözləri tum... mirzələri.*
*Əllərində daşdan keçən casusnamə ərizələri,*
*Tribunadan "Vətən" deyə, "Millət" deyə vəz*
*eləyən hərzələri.*

Şair vətən taleyini, xalqa dəyən maddi-mənəvi zərbələri ümumiləşdirmək üçün sosial-siyasi hadisə və faktlara fərdi münasibət bildirir. Onun fərdiləşdirmələrində "bircə üskük şöhrət, göz dikdiyi sərvət üçün mənliyini satanlar, "daloy-muğam, tar, saz, hətta, papaq deyib ...lığa batan"lar, "xəyanətə qurban gedən tər bənövşə, bahar Müşfiq"lər inikas etdirilir:

*Xəyanətə qurban getdi neçə igid,*
*Pensnelli, zər əsalı, nur heykəlli ulu Cavid.*
*Qurban getdi dağ büllurlu Yusif Vəzir*
*Yalçın qaya Əhməd Cavad*
*Qoç Koroğlu Sanı oğlu Hacı Kərim*
*Ulduzları salxım kimi göydən dərən Çobanzadə*
*Bəkirimiz.*
*Güllələndi təpərimiz, kəsərimiz, hünərimiz.*
*("Davam edir 37")*

Təpəri, kəsəri, hünəri güllələnmiş xalq tarixi keçmişindən ibrət dərsləri götürür, taleyi və idealları haqqında düşünür. Düşünür ki, bəlkə "o dəhşətli yanğınlar" bitdi. Fəqət bitdimi? Elə bilmə o dəhşətli yanğm bitdi, bitdi, getdi. Hələ durur, davam cdir 37.

Şair qəlbi Xalqından, Vətənindən nigarandır, onun bu

günündən arxayın deyildir. Çünki:

*Nə qədər ki, bir milləti yetmiş yerə*
*bölənlər var*
*Nə qədər ki, rütbə üçün, şöhrət üçün ölənlər var.*
*Nə qədər ki, kabineti, vəzifəni*
*Gözlərinə təpənlər var,*
*Nə qədər ki,*
*Demokrati!*
*Aşkarlama! - deyə-deyə boğaz yırtır*
*bu züyçülər, zurnaçılar, şeypurçular,*
*Nəqədər ki, cəzasızdır*
*Xankəndində evlər yıxan, ürək yıxan yırtıcılar,*
*Davam edir 37-*
*Daha kəskin, daha ciddi!*

Sənətkar ruhu qırılmayan, haqsızlığa üsyan qaldıran xalqını ayıq-sayıq olmağa, haqsızlıqlara boyun əyməməyə, siyasi səbata, əzmə və mübarizəyə çağırır:

*Diqqət! Diqqət!*
*Qapamasın gözlərini haray-həşir, çığır-bağır.*
*Qəzetləri lal eləmək xalqı lal etməkdən ağır...*
*Ruhun hələ ölməmişsə hayqır-bağır:*
*Nə qədər ki, sıxıb məni limon kimi sümürən var,*
*Sümüyümü gəmirən var,*

*Nə qədər ki, Ovçarenko dəstəkləyir Balayanı,*
*Milli gəda Boroviki, Ağanbekyan min ilanı,*
*Nə qədər ki, canımızda qan sorucu min gənə var,*
*Mənim isti sözlərimə soyuq baxan biganə var,*
*O xəyanət sanma bitd*
*Davam edir 37.*

Xəlil Rza Ulutürk xalqı ideoloji-siyasi cəbhədə birliyə çağırır. Onu azadlığına, tarixi ideallarına qovuşdurmaq üçün yenidən hazırlamağın zəruri olduğunu dərk edir, ideologiya cəbhəsinə keçir, "Kişi bətni" əsərində sosial-siyasi həyatın, hakimiyyət strukturlarının oynadığı oyunlara ümumiləşdirici

nəzər yetirən şair "qananlara qurdu ulayan qanmazlar, alçaqlar, xalqı öz əli ilə susduran kütlər, qəbrini özünə qazdırmaq üçün irəli çəkdirdiyi vəzifəbaz, xalq üçün düşməndən də qorxulu olan milli simasını itirmişlər, pul basıb satqınlar şəbəkəsini bərkidənlər, qan ləkələrini ört-basdır etmək üçün döşünə medallar basanlar" arasına tarixi ziddiyyətləri görür, onların mahiyyətinə, səbəb və nəticələrinə varır, qəti hökm çıxarır ki:

*Ürəyim qışqırır! Ağlım deyir: - Sus!*
*Bu qədər soyğunçu, bu qədər casus.*
*Bu qədər qəlbi kar, ürəyi çopur,*
*Bunca ikiüzlü, üçüzlü, hətta*
*Yüzsifət, minsifət varsa həyatda,*
*Demək, bu dağılmış dağılmalıdır!*
*Yeni bir, cəmiyyət doğulmalıdır!*

Şair qəti əmindir ki, "gediş böylə gedə bilməz, belə gediş tez-gec boğulmalıdır":

*İşlər böylə getsə... böylə getməsin!*
*Getsə bu gedişi boğacağam mən.*
*Bütün Azərbaycan övladlarını*
*Öz kişi bətnimdən boğacağam mən!*

80-ci illərin əsərləri içərisində "Yaşasın Xalq Cəbhəsi" (1989), "Gəlir böyük Azərbaycan" (1986-90) şeirləri Ulutürk idealını, xalq taleyi, vətənçilik və xalqçılığın ifadəsi olan şerlər kimi xüsusi yer tıtur. Həmin əsərlərdə çağdaş zamanın -80-ci illər milli azadlıq hərəkatının siyasi-psixoloji doğuşu po-etikləşdirilir.

"Gəlir böyük Azərbaycan" əsərində xalqın istiqlal məfkurəsi, mövqelər, cəbhələr, ideologiyalar müəyyənləşir. Tarixin həqiqətləri təzadlarda, antoqonist ziddiyyətlərdə, əksliklərin mübarizəsi və vəhdətində üzə çıxdığına görə şair də təzadlara üstünlük verərək, xalqın gücünü, səbatını, sarsılmazlığını, əyilməzliyini təcəssüm etdirir. Özü isə xalq, azadlıq, müstəqillik məfkurəsini yaşatmaq və uğrunda mübarizə aparmaq məqamında müəyyənləşir.

Xalqçı şair inanır ki, xalqla milli "Mən"i arasında qalan,

“dolu cibli boşboğazlar, peysəri kal, beyni cazlar, azkən çoxlar, xosunlaşan sürü-sürü yerlibazlar, dartmanlar, sürünənlər, sülənənlər, ölkələrə tank yeridən həşəratlar, qan üstünə maska çəkən deputatlar” aramızdan çıxacaqdır. Şair yalnız demokratik dünyamn doğuşunda xalqla şəxsiyyət, sənətkarla xalq arasında vəhdət və eyniyyət təsəvvür edir.

Xəlil Rza Ulutürkün poetik təfəkküründə milli özünüdərklə bağlı zəngin ideya-fikir qaynaqları güclüdür, qüdrətlidir.

## 1.2. Milli idealda Azərbaycançılıq

Azərbaycançılıq Azərbaycan Respublikasının müstəqil dövlətçiliyi ilə möhkəm bağlıdır. Bu barədə nəzəri ideoloji olaraq R.Mehdiyev, S.Xəlilov, Ə.Daşdəmirov, N.Cəforov, N.Şəmsizadə, M.Yusifov, R.Aslanova, Ə.Abbasov, T.Quliyev, Y.Türkel, S.Hüseynov, İ.Məmmədzadə və başqaları fikir söyləmişlər. “Azərbaycan dövlətinin milli ideologiyasının özəyini, əsasını təşkil edən azərbaycançılıqdır. Dövlətçilik, milli-mənəvi dəyərlər, ümumbəşəri dəyərlər - bunlar hamısı azərbaycançılıq anlayışının tərkib hissələridir” [55]. Azərbaycançılıq müstəqil Azərbaycan Dövlətinin əsas ideyasıdır. Azərbaycançılıq bir ideologiya, təlim, fikir və məfkurə olub elmi-nəzəri və ideoloji sistemə malikdir. Hazırda həmin sistemin nəzəri müddəalarını H.Əliyevin ideyaları təşkil edir. Milli özünüdərk Azərbaycan Respublikasının demokratik prinsipləri, insan hüquqları və azadlıqlarını rəhbər tutan dövlət birliyinə yaxınlaşdırmaqda, onu Avropa Şurasına, Millətlər Məclisinə öz siması ilə daxil etmekdədir. Bu səbəbdən də Azərbaycanın azərbaycançılıq məfkurəsi tarixi reallıq daşımaqdadır. H.Əliyev demişdir: “Bu məfkurə təkcə Azərbaycan Respublikasında yaşayan azərbaycanlıların, təkcə Azərbaycan dövlətinin maraqlarını deyil, həm də bütün dünyada yaşayan azərbaycanlıların milli-mənəvi maraqlarını ifadə edir [55].

Azərbaycançılıq tarixən keçən əsrin əvvəllərində Ə.Hüseynzadənin "türkçülük, islamçılıq və çağdaşlıq" prinsiplərindən nəşət alsa da, müasir tarixi şəraitdə siyasi-ideoloji məzmun keyfiyyəti qazanaraq daha konkret şəkil almış və genişlənmişdir. "Azərbaycançılıq milli mündəricədən kənara çıxan, millilik və ümumbəşəriliyin vəhdətindən çıxış edən bir məfkurədir" [55].

"Azərbaycançılıq" termini ölkənin siyasi həyatında yaxın illərdən başlayaraq, istifadə olunur. Lap əvvəldən o, ölkədə yaşayan bütün etnik qrupları və xalqları ümum-dövlət mənafeləri əsasında real surətdə birləşdirmək ideyası, xüsusilə, 1992-1993-cü illərdə geniş yayılmağa başlayan şovinist-millətçilik və separatçılıq əhvali-ruhiyyələri ilə mübarizəyə yönəldilmiş ideya kimi irəli sürülmüşdür [137, s.27

Azərbaycançılığın təməlində, strukturunda, müasirliyində duran başlıca müəyyənliklər milli-etnik gerçəkliyin özü, dil (Azərbaycan dili), din (İslam dini), etnoqrafiya, milli etnik mənşə, toponimika, insanların məskən saldıqları, yaşadıqları yerlərə qoyduqları adlar və maddi-mənəvi mədəniyyətdir.

Məlumdur ki, milli ideologiyanın əsasında ilk növbədə dövlətçilik dayanır. H.Əliyev onun siyasi konturlarını ifadə etmiş, kəsb etdiyi müasir anlamı, vətəndaş və cəmiyyətin əsas vəzifəsini ifadə edərək, demişdir ki, "Dövlətçilik Azərbaycanın müstəqilliyini, ərazi butövlüyünü qoruyub saxlamaqdır, Azərbaycanın müstəqilliyini möhkəmləndirməkdir. Dövlətçilik hər bir vətəndaşın qəlbində olmalıdır. Ona görə hər bir vətəndaş vətənpərvərlik hissləri ilə yaşamalıdır və bizim partiyamız, bütün dövlət orqanları, bütün təbliğatımız Azərbaycanda dövlətçiliyi inkişaf etdirmək üçün hər bir vətəndaşda milli vətənpərvərlik hisslərini yaratmalıdır. Milli vətənpərvərlik hissləri hər bir vətəndaşda o qədər güclü olmalıdır ki, hər bir vətəndaş milli mənafeyi öz şəxsi mənafeyindən, öz şəxsi

yaşayışından, öz şəxsi həyatından - hər şeydən üstün tutsun" [55]. Deməli, milli dövlətçiliyin hissi idrak mənbəyi milli vətənpərvərlik, milli qürurdur. Cəmiyyətin bu baxımdan tərbiyəsi tarixi vəzifədir. Cəmiyyəti təşkil edən insan amili həm də vətəndaş amilidir. O, milli ideologiyanın əsas hərəkətverici qüvvəsidir.

Milli dövlətçilik və ideologiyanın mənəvi potensiyası onun fasiləsiz mədəni irsi ilə müəyyənləşir. Onun qavranılıb dəyərləndirilməsində xalqımızın milli-mənəvi sərvətləri tükənməz mənəvi qaynaqdır. H.Əliyev demişdir: "Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin ən əsası bizim müqəddəs kitabımız Qurani-Şərifdə öz əksini tapıbdır. Ancaq bununla yanaşı, Azərbaycanın mütəfəkkir insanları, mütərəqqi insanları, Azərbaycanın böyük şəxsiyyətləri, Azərbaycanın hörmətli siyasi və dövlət xadimləri, böyük elm, mədəniyyət xadimləri, Azərbaycan xalqının milli-mənəvi dəyərlərini yaradıblar. Bu, bizim adət ənənəmizdir. Bu, bizim milli-əxlaqi mentalitetimizdir" [105].

Azərbaycançıhğm əsasmda Azərbaycan dili dayanır. Azərbaycan dili şifahi xalq ədəbiyyatmın poetik növ və janrları, etnik düşüncə və siyasi təfəkkürü də özünə bağlayır, ümumtürk ədəbiyyatı və mədəniyyəti eyni bə-dii-estetik abidələrlə, mənəviyyatla qovuşur ("Dədə Qorqud", "Koroğlu", "Alpamış", "Manas", "Bilqamış", aşıq ədəbiyyatı və başqaları). Azərbaycan dili ümumtürk dili və mədəniyyətinin tərkib hissəsidir. H.Əliyev demişdir: "Azərbaycan dili türk dilləri qrupuna daxil olan bir dildir. Türk dilləri qrupunun bir qolu Anadolu türklərinin, bir qolu azərbaycanlıların dilidir, biri özbəklərin, biri qaqauzların, biri qazaxların və başqalarınındır. Ona görə də bu ümumi kökləri həmişə qorumaq lazımdır. Çünki kökümüz, dilimiz, dinimiz, milli adət-ənənəmiz bizi bir-birimizə bağlayır və bağlamalıdır. Bunun əsasında da biz bir olmalıyıq" [55, s.37].

Milli birliyin təmin edilməsində dillə bərabər, ictimai şüur səviyyəsi, adət-ənənə, dini etiqad, həyat tərzi, mədəni-mənəvi abidələr, yazılı ədəbiyyat, fəlsəfi fikir, siyasi və iqtisadi təfəkkür mədəniyyəti mühüm rol oynayır. Millilik "kültür və mədəniyyət ümumiliyinə əsaslanmalıdır" (Z.Göyalp). Bu baxımdan "Azərbaycanın yerli sakinləri olan etnik qruplar (talışlar, kürdlər, tatarlar, lahıclar və s.) belə ikileşmə faktı ilə qarşılaşmışlar. Onların milli-siyasi vəhdeti -ilə doğma vətəni, mədəni-mənəvi məkanları arasında heç bir fərq yoxdur. Onlar həm coğrafi məkan baxımından, həm tarixi, həm milli-siyasi, həm də milli-mənəvi baxımdan azərbaycanlıdırlar" [105, s.41]. Milli birliyin çağdaş səciyyəsi şübhəsiz ki, milləti daha güclü və zəngin edir. Siyasi plüralizm, fikir plüralizmi olduğu kimi, milli-etnik plüralizm də vahid mədəniyyətin, vahid dövlət dilinin ziyanına olmamalıdır. Bu baxımdan millət anlayışı da çağdaş siyasi həyatımızda yeni keyfiyyət qazanmaqdıdır. Millətin etnosdan fərqləndirilən əlamətlərdən biri milli-etnik təfəkkürlə milli-siyasi təfəkkürün vəhdətindən doğan milli-fəlsəfi fikrin forma-laşmasıdır" [105, s.47]. Hazırda milli inkişafda ilkin olaraq ədəbi-bədii fikir - obrazlı düşüncə rassional elmi fikirdən çox rol oynamaqda - fəlsəfi fikrə, təfəkkürə gedilən yolun bədii ədəbiyyatdan keçməsidir. Bu baxımdan milli dövlət quruculuğu dövlətçilik ənənələrinin formalaşdırılmasında da siyasətçilər yox, həm də alimlər, şairlər, ziyalılar mühüm rol oynamalıdırlar.

Milli ruhun qorunması və inkişafında milli dövlətçilik mühüm rol oynayır. Milli dövlət yalnız ərazini, maddi sərvətləri deyil, həm də milli-mənəvi dəyərləri qoruyur, "milli-mənəvi dəyərlərimiz bizim ana dilimizdir, Azərbaycan dilidir, bizim dilimizdir, bizim adət-ənənəmizdir. Bir də təkrar edirəm, bizim mənəvi-əxlaqi mentalitetimizdir... Bizim xalqın mənəvi-əxlaqi mentaliteti onun ən böyük sərvətidir, xalqımızın milli-mənəvi dəyərləri onun

milli sərvətidir” [55].

Millidə bəşəri, bəşəridə millilik dərki vardır. Bu baxımdan milli ideologiya çağdaş zəmanəmizdə daha geniş önəm kəsb edir: “Bizim milli-mənəvi dəyərlərimiz, bizim tarixi milli köklərimiz, bizim dilimiz və dinimiz - hamısı bizim milli ideologiyamızın böyük bir hissəsidir, böyük bir qoludur... Ümumbəşəri dəyərlərlə milli-mənəvi dəyərlərin vəhdəti, sintezi bizim milli ideologiyamızın bu günü və gələcəyidir” [55].

Hazırda ümumbəşəri dəyərlər Azərbaycanı dünya ilə qovuşdurur. Həmin deyərlər milli qanunçuluğumuzun nəzəri bazasında da təsbit olunmuşdur. H.Əliyev demişdir: “Ümumbəşəri dəyərlər birinci növbədə bizim yaratdığımız konstitusiyada əsas məqsəddir. Biz dünyəvi dövlət qururuq. Biz hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesi aparırıq. Bax bu cümlədə ümumbəşəri dəyərlərin ifadəsi öz əksini tapıbdır” [55].

Azərbaycançılıq “milli ideyanın” əsas forması kimi təsəvvür edilir və ona “inteqrativ ideya” kimi yanaşmaq lazımdır. Bu ideyanın əsasında sivil Avrasiya birliyinin bir hissəsi - özünəxas milli özgünlüyə, ənənəyə, milli eyniyyətə və mentalitetə malik Azərbaycan haqqında təsəvvür dayanır” [137, s.32].

Azərbaycançılıq məfkurəsinin müasir dərkində “milli” anlayışı da yeni keyfiyyət qazanmışdır. O, məzmun və mahiyyətinə görə tarixən olanı nə qədər qoruyub özündə saxlayırsa, bir o qədər də yenidən təsəvvür və dərk olunaraq spesifik keyfiyyət qazanır. Bu da ondan ibarətdir ki, milllik öncə “fərdi mən”, sonra “milli mən”, daha sonra isə “ümumbəşəri mən” deməkdir. Və bunlar müasir sivil dünyada biri digəri ilə koordinasiya olunan xüsusiyyətlərdir. Yeni dünya onun - milliliyin məzmununa daxil olduğundan o, yeni məna qazanaraq “mənlər” arası sürətli və dəyişkən keçidi, birinin digəri üçün əsas olma mahiyyətini dərinləşdirir. Elə burada da həm də milli fəlsəfi

fikir - milli mənlə dünya arasında münasibətin yeni formasını ifadə edir. "Fərdi mən" isə ümumbəşəri və milli "mənləri" ehtiva etmək imkanına malik olduğundan daha zəngindir" [105, s.40].

Azərbaycançılığın, dövlətçiliyin möhkəmləndirilməsi və mənəvi dərkində milli mənəviyyatın zənginliyi mühüm rol oynayır. Milli azadlıqda milli ruhun canlandırılması vacibdir. Şərhə və izaha geniş yer vermədən xatırladırıq ki, "azərbaycançılıq həyat tərzimizdə, əxlaqda, mənəviyyatda, dildə, din və ədəbiyyatda - mənəvi mədəniyyətin bütün sahəsində əsas istiqamətləndirici məfkurə olmalıdır. Şifahi xalq ədəbiyyatı, el sənəti, milli musiqi, millətin mədəni-mənəvi mövcudluğunun bütün təzahürü bu gün vahid bir ideya ətrafında sıx surətdə birləşməlidir. Əsrlərdən bizə miras qalmış milli-mənəvi dəyərlər nəinki təkcə muasir milli mövcudluğumuzun, həm də siyasi mövcudluğumuzun, dövlətçiliyimizin qarantına çevrilmişdir. Və əksinə, milli-mənəvi varlığımızın qorunub saxlanması da dövlətin ən əsas funksiyalarından biri olmalıdır. Azərbaycançılıq Azərbaycan dövlətinin milli siyasi məfkurəsinə çevrilməlidir" [105, s. 13 7].

Yazıçı Anar azərbaycançılıq haqqında düşüncələrini əsasən - beş təməl prinsipi üzərində davam etdirmişdir və göstərmişdir ki, azərbaycançılığın əsasında - Azadlıq, Müstəqillik, Bərabərlik, Qadaşlıq, Dostluq ideyaları dayanır və həmin prinsiplərin mahiyyətində də konseptual fikir və ideyalar dayandığından bunların təfsirinə varmadan biz də Anarla həmrəyik ki, "Tarixi araşdırmalar, dil, ədəbiyyat tədqiqatları baxımından son dərəcə önəmli olan bir sahə - türkçülük məkanı bizi azərbaycançılıq məkanından ayıra bilməz. Azərbaycan türk dünyasının bir parçasıdır, amma Azərbaycanın içində ayrıca bir Azərbaycan dünyası da vardır ki, bu dünyada türk olmayan azərbaycanlılar da layiqli, şərəfli yerə malikdir" [10].

Xalq imperiyaların işğalına məruz qalanda başqa əqi-

dələrin rəsmi təsir dairəsinə düşəndə milli ruhu öz şəxsi həyatı bahasına, diri-diri yandırılması, dərisinin soyulması hesabına da olsa, yaşadan və bir əmanət kimi nəsillərə ötürən həmin böyük ziyalılar estafeti öz əllerinə almalı olurlar [105, s.70]. Öz idealı uğrunda ayağa qalxan ziyalılar ordusu içərisində Xəlil Xza Ulutürk istiqlal şairləri -Məhəmməd Hadi, Əhməd Cavad kimi tarixi önəm kəsb etmişdir. Bu üç böyük istiqlal şairi fəaliyyətləri ilə milli idealda sonucu - tarixi Vətənçiliyi, Turançılığı, yaxın məqsəd kimi Azərbaycan müstəqilliyini, azərbaycançılığı təcəssüm etdirmişlər.

X.R.Ulutürkün milli idealında azərbaycançılıq - Azərbaycanın taleyi və idealları ilə möhkəm bağlıdır. Vətənin, xalqın taleyi ilə bağlı problemlər tarixlə, cəmiyyətin inkişafı ilə müvazi inikas olunmuşdur. Sənətkarın poeziyasında vətənin, xalqın ümumiləşmiş obrazı zəngin mənbələrlə, qaynaqlarla müşayət olunmuşdur. Bu, əslində fonetik qabıqdan tutmuş söz-ad, ideya, məqsəd, məzmun və məna, arzu, istək, məslək və əqidə, məfkurə kimi müxtəlifdəki birliyi çevrələyir. Bunlardan qabarıq inikas etdirilənlər, dil, tarix, ənəne, psixologiya və mənəviyyat problemləri ilə bağlıdır.

Azərbaycan, vetən, xalq anlayışlarının bədii ifadəsi Xəlil Rzanın 50-ci illər şeirlərindən görünməyə başlamışdır. 60-cı illərin şeirlerində ideya-estetik məzmun genişləndirilmişdir. 70-ci illərin əsərlərində lirik polifoniya, ideya-bədii mündəricə daha da zənginləşmişdir. Həmin tarixi-estetik anlayışlar (dil, tarixi reallıq, ənənə, psixologiya, mənəviyyat) 80-ci illərin şeirlərində vüsətli bədii siqlətilə seçilmişdir. Həmin illərdən başlayaraq, lirik “Mən” milli “Mən”ə doğru təkamüldə olmuş, 80-90-cı illərin əsərlərində milli xarakter, tarixi-bədii şəxsiyyət müəyyənliyi kəsb etmişdir.

50-ci illərdə yazılmış “Bizim doğma təbiət” (1959) şeirində “Azərbaycan”, “Vətən” və “Xalq” sözləri təbiə-

tə münasibətdə şairin fərdi şüurunu ülfət, istək, niyyət duyğuları ilə qidalandırmışdır. Xəlil Rzanın arzuları poetik obrazlarda, ritorik halda ifadə olunmuşlar:

*Mənə ildırım ver qələm yerinə,*
*Dəftərim Muğanın sinəsi olsun.*
*Bəşər dəryasında Azərbaycanın*
*Ən güclü səadət ləpəsi olsun.*
*("Bizim doğma təbiət")*

60-cı illərin əsərləri "Afrikanın səsi" (1960) şeiri ilə başlayır. Əsər Azərbaycan gerçəkliyi üçün epiqraf, proloq təsiri bağışlayır. Şeir "Afrikanın səsi" adlandırılsa da, əslində mövcud "Mən" özünüdərkinin ümumi ifadəsidir. Bədii nümunədə "azadlıq" ideyası patetik intonasiyada bəşəri dəyər,və məzmunda inkişaf etdirilmişdir. Əsərdə konkret milli "Mən" və azadlıq məramı yoxdur, mücərrəd, bəşəri azadlığın ifadəsi vardır. Təsadüfi deyil ki, şair sonrakı kitablarında bu şeiri "Mənim səsim", "Şairin səsi" kimi təqdim etmişdir.

"Mənim tələbələrim" (1964) şeirində Xəlil Rza tələbələrinə müraciətində Azərbaycana, varlığa yaxınlaşır; o, vətənə xidmətlərini hələ ki, arzularında, diləklərində görür, Azərbaycan ümumi, mücərrəd, ritorik tərənnümdə duyulur:

*Gedin... gedişin izlə*
*təbiət gəlsin cana*
*Sizi gül toxumu tək*
*öz əlimlə səpirəm*
*Arzu yağışlarında çimən Azərbaycana.*

"Meyar" (1962), "Əyilmə" (1967) şeirlerində Azərbaycan (Vətən və xalq) anlayışları fərdi şüurda ona sevgi kimi təzahür edir:

*Tutaq ki, var istedadın,*
*İlhamın da,*
*Biliyin də.*
*Rədd oll İtil gözlərimdən*

*Əgər yoxsa Vətən eşqi*
*Sümüyündə, iliyində.*
*("Vətən eşqi")*

60-cı illərin şeirlərində (1960-64) vətən düşüncələri, xalq, vətən müəyyənliyi yalnız poetik obrazlarda: müqayisələrdə, təşbeh və metaforalarda, təsvir və tərənnüm lirikasında təzahür etmişdir. Bu şeirlərdə xalqın aydın, konkret, birbaşa bədii doğuşu, həyat və mənəviyyat aləmi, estetik idealı hələ görünmür. Xalqın, vətənin ifadəsi mecazlar şəklində müəyyənləşir:

*Bir Muğam zilidir - ox çinarların,*
*Mehdəyən budaqlar - incə kamanım*
*Sən - Zərdüşt zəkalı,*
*Babək baxışlı,*
*Üzeyir nəfəsli Azərbaycanım!*
*("Vətən düşüncələri")*

Yaxud:

*Kəpəzin vulkanı sönmüşdür demə,*
*Külünün altında közlər yaşadır.*
*Kəpəz - Vətənimin bir dağ üzüyü*
*Maralgölü - onun zümrüd qaşıdır.*
*("Vətən düşüncələri")*

Azərbaycan - vətən və xalq təsvirlərdə, psixologiya və mənəviyyat rənglərində predmetli əksini tapmır, motiv, duyğu halında görünür:

*Təkcə pardaqlanmış qızılgülün yox,*
*Toxumun, tərlanın, boz çınqılın da*
*Nəbzimdən nəbzimə od, alov gərək.*
*Azərbaycanıma məhəbbətimdir*
*Hər bir hüceyrəmdə çırpınan ürək!*

50-80-ci illərin əsərlərində Azərbaycan ideyası (dil və reallıq) tərənnüm, vəsf, etiraf, qənaət halında üzə çıxır. "Tamam doğmayan günəş" (1962), "Vətən" şeirlərində milli-mənəvi dəyər torpağa vətəndaş kimi yiyə, sahib olmaqdır. Vətəndaşı yetişməyən məmləkətdə vətənçilikdən

danışmaq olmaz.

"Yanardağ" (1975), "Yaxşı ki bu yurdun balasıyam mən" (1978), "Mən bu gecə oyağam" (1978), "Mən Azərbaycanam" (1979), "Yurdum sənin sağlığına" (1979), "Yaxşı ki" (1980) şeirlərində vətənə qiymət tərənnüm və vəsf halındadır:

*Mən bu gün Vətənlə eyniləşmişəm,*
*Dinlənir könlümdə tarım, kamanım.*
*Palıdlar, qaynaqlar, ocaqlar içrə*
*Ərzin od yuvası Azərbaycanım!*

*("Yanardağ")*

Azərbaycan (Vətən) məfhumu qürur və qəm dəyərləri üzərində də təqdim olunur. Almas İldırımdan təsdis (başqa bir şairin əsərindən istifadə yolu ilə yazılmış müsəddəs) etdiyi "Azərbaycan" şeirində də belədir:

*Azərbaycan, can vermişik adına,*
*Canımızdır adındakı can sənin.*
*Soyuq qəlblər yana bilməz oduna,*
*Namus sənin, şərəf sənin, şan sənin.*
*"Azərbaycan, mənim taxtım, tacım oy.*
*Oyanmazmı kor olası baxtım oy!"*

*("Azərbaycan")*

"Mən nəyəm ki, ey Vətən!" (1964), "Mən bu gecə oyağam" (1978), "Mayakovski ilə söhbət" (1982) şeirlərində ifadə olunan milli məzmunda bəşəri xüsusiyyətlər vardır. Belə nümunələrdə Vətən, xalq məfhumları şairin milli şüurunda bəşəri dəyər kəsb edir:

*Sən Aya, ulduza tən!*
*Sən Füzulim, Sabirim...*
*Yüz dahiyə aşiyan.*
*Qılınclarda, səslərdə*
*Kaşılarda yaşayan zəhmət, şöhrətim, şanım,*
*ləlim, dürrüm, mərcanım.*
*Mən bir ovuc torpağam,*
*Sənsə kainat qədər*

*Sonsuz, Azərbaycanım!*
*("Mən nəyəm ki, ey Vətən")*

"Səməndər quşu kimi" (1970), "Şeirimizin Babəki" (1978-80), "Məmməd Araza" (1982), "Xudu müəllim" (1983), "Məndən başlanır Vətən" (1983), "Sənin cavabın" (1984) və başqa əsərlərdə xalq haqqında birbaşa yox, dolayısı ilə söz açılır; Sənətkar və xalq vəhdəti R.Rza, B.Vahabzadə, M.Araz, X.Məmmədov, X.Rza şəxsiyyətində milli-mənəvi dəyər kimi ifadə olunur. Tarixi şəxsiyyətlər xalq psixologiyası və mənəviyyatının təcəssümü kimi dərk edilir:

\- *Oddur - dedim - bu nəfəs*
*Zəlzələ dağı yerdən bəlkə qopara bilər,*
*Sənətkarı xalqından heç nə ayıra bilməz.*

Belə əsərlərin ideyasında xalqla sənətkarın, kütlə ilə şəxsiyyətin birliyi əsas
xüsusiyyətdir.

Şair təsvir və təhlil vermir, mühakimə yürütmür, tarixi şəxsiyyətlərin həyat yolunu xatırladır, onların vətənə, xalqa gərəkli olmaq amalını, tərbiyəvi-idraki rolunu yada salır. Vətən, xalq tarix və yaddaş mənasında dəyərləndirilir. Araz, Xudafərin, Vaqif, Qobustan, Babək, Sabir, Füzuli, Şəhriyar, Savalan, Xiyabani, Xətai, Təbriz, Zəncan bədii nümunələrdə sadəcə tarix deyil, həm də müasir adamın qan və idrak yaddaşının qaynağıdır.

Xəlil Rzanın poeziyasında xalqın həyat və məişəti (reallıq), psixologiya və mənəviyyatı bəzən epik təsvir və tehkiyədən çox, psixoloji-mənəvi məqamların bədii ifadəsində daha çox aydınlıq və konkretlik kəsb edir. Tarixi gerçəkliyə münasibətdə milli və qeyri-milli həqiqətlərin qarşılaşdırılması, təzadlar üzərində aşkarlanması, psixoloji-mənəvi xüsusiyyətlərin daha canlı və təsirli əksi də diqqətəlayiqdir.

Gerçəklik, psixoloji həyat və düşüncə tərzi, əxlaqi-estetik keyfiyyət azərbaycançılığın ifadəsi kimi konkretdir.

"Tamam doğmayan günəş" psixoloji düşüncələr şeiri, şairin özü ilə həsb-halıdır. Başlıca estetik fikir belədir ki, yalnız dövlət deyil, həm də "söz" və "ilham" xalq sərvətidir. Söz xalqın keşiyində durduğu kimi, xalq da sənətkarın qulluğunda olmalıdır.

Şeirdə poetik cəhətdən zəif görünən misralar da vardır. "Mən bəlkə sevməzdim Azərbaycanı, Sənin tək oğullar yetirməsəydi" kimi ideya cəhətdən gücsüz sətirlər X.R.Ulutürk yaradıcılığından aşağı səviyyədə durur.

60-cı illərin ortalarına qədərki şeirlərdə Azərbaycanla bağlı olan ideya və düşüncələrin inkişafı bədii təsdiq, nəqli sintaksis, adi intonasiya, lirik mühakimə halındadır. Bu əsərlərdə, əsasən, daxili-psixoloji düşüncələr, fikir və hissiyyatlar ifadə olunmuşdur. Şairin mövzuya süjetli müraciəti yoxdur.

"Biz gəldi-gedərik" əsərində Azərbaycanın, Vətənin əbədiliyi ideyası mənfi emosiyalarla təzadda inikas etdirilmişdir. Vətənə heç nə vermədən ondan umanlar şairi narahat edir:

*Oğullar müxtəlif, anasa eyni,*
*Ayıqlar, sərxoşlar, yatanlar da var,*
*Ötərki ömrünü xalqın, Vətənin*
*Əbədi ömrünə qatanlar da var.*

"Bədgüman nankor" (1967), "Sən inanma məddahlara" (1968), "Mən Şərqəm" (1968) və başqa əsərlərdə vətənbaz, millətpərəst boşboğazlar ifşa olunur. Vətənin varlığı və müdafiəsi - dövlətçiliyin qorunması ehtizazlı bədii təsdiq məzmunu kəsb etmişdir:

- *Bəs yoxdursa Vətən, xalq*
*Nə cür yoğunlatmısan, bu dönməyən boynunu? ...*
*Vətən üçün, xalq üçün neyləmisən sən özün?*
*Bəli, şəxsən, sən özün?!*

*("Bədgüman nankor")*

Dil Xəlil Rza Ulutürk yaradıcılığında qüdrətli bir silahdır. Xalqın varlığı, müəyyənliyi ondadır. Sənətkar

doğma ana dilinə yüksək qiymət verir, milli dili, heysiyyəti olmayanları qırmanclayır. Milli şərəfi olmayan “alim” belə şairin azərbaycançılıq təfəkküründə dilsiz və dinsiz hesab olunur:

Balaların həsrətdir Azərbaycan dilinə, Azərbaycan dilinə yas saxlayan yekəbaş! Milləti istəyənlər qol çirməyir, iş görür. Millətbazlar sənin tək özgələri köçürür. “Mən Şərqəm” (1968) əsəri bütünlüklə azərbaycançılıq, vətənçilik əhvali-ruhiyyəsini əks etdirir. Əsərdə elmi məziyyət, poetik obrazlılıq, tarixi-etnoqrafik xüsusiyyət üstünlük təşkil edir. Hər bir bədii keyfiyyətin ifadəsində şair ruhu, düşüncələri, mənəvi siqlət, arzu, istək və hissiyyatlar durur.

Əsərdə “Günəş”, “Od” obrazları, vətənin təbii sərvətlərinin təcəssümü olan

assosiasiyalardır. Günəş “Şərq” anlamı, şairin idealları üçün fikir daşıyıcısıdır:

*Baxıram əynimdəki ağ köynəkli səhərə,*
*İstəyirəm qışqıram bütün planetlərə:*
*- Mən Şərqəm.*
*Şöhrətimdə, şanımda al günəşlə şərikəm.*

Sənətkar Azərbaycanı dananları inkar etmək üçün milli mənsubiyyətinə, Şərqin mədəniyyətinə, tarixinə üz tutur; özünün təbii sərvətlərini: düşmənə gərək olmuş kömür, neft, gülöyşə narı, taxıl və başqa sərvətləri, Səmərqəndin altında yatan Səmərqəndi, “Avesta”nı - Zərdüşt İbrahimi, atəşin sirrini bəşərə verənləri, İsgəndər Kəbiri, fateh Napoleonları, Sezarları, onların köksümüzdə yüksələn mədəniyyətimizi didib, gəmirdiyini xatırlayır. Elmdə Rudəki, sənətdə Firdovsi, “Gilqamış” gövhəri, Xaqani, Nizami, Əttar, Sənai, Ənvəri, Fələki, Məhsəti, Əbül-üla, Xəyyam və Nəsirəddin Tusini mənəvi servət kimi qiymətləndirir.

Şair həssas bir məqama toxunur. Xatırladır ki, əsrlər boyu sərvət içində yaşadığımız halda, qismətimiz, taleyi-

miz zülmət olmuşdur; işığımızı gözlərimizin giləsindən belə qoparmışlar, Ərdəbili, Tac-mahalı karvan-karvan aparmışlar. Şair millətləri özünə övlad, dünyanı vətən bilir, məhəbbətində, istəyində hüdudlar tanımır. Qonaqpərvərliyi, səxavəti özü üçün mənəvi ləyaqət, insani dəyər hesab edir. Dünya isə bunu - milli heysiyyətləri, keyfiyyətləri geri qalmaq kimi yozanda şair qəlbi qeyzlənir, NATO, SENTO kimi hərbi təşkilatların yaranmasına, özünü ali irq bilib neftinə, pambığına yerikləyənlərə etiraz edir. Müəllif nə Qərbi "ali irq" hesab edir, nə də özünü "cılız bir ulus". Ümumən Şərqi inqilablar, təlatümlər vətəni kimi qiymətləndirir, bəşər səadətini Şərqdə, Vətəndə, özündə görür. Şair Şərqi idealizə etmir, ifrat mübaliğələrə yol vermir, sadəcə olaraq Günəş Şərqdən dünyanı işıqlandırdığı kimi, Qərbin də Şərqdən nurlandığını dəyərləndirir. Onun təfəkküründə Şərqə fəlsəfi baxış belədir:

*Şərqəm, elə Şərqəm ki, qərblilər də mənimdir.*
*Hamlet öz doğma balam, Şekspir də mənimdir.*
*Qoy təzədən qaldırsın*
*Təbriz rəsədxanası səma xəritəsini*
*Uluqbəyin qəbrinə qoyaq çiçək yerinə*
*ulduzlar dəstəsini.*

"Çıraqqala" (1977), "Mənim şeirim" (1977) əsərlərində maddi və mənəvi mədəniyyət - maddi olanla mənəvi-ideal olanın vəhdəti poetikləşdirilmişdir. "Çıraqqala"da Vətən abidələri, maddiləşmiş yaddaş dəyərləndirilir, yəni maddi olan mənəvi olanın daşıyıcısına çevrilir. Babək, Çıraqqala və Ərk qalaları Vətənin polad sipəri, güclü səngərləri, çıraqlar isə onun görən gözləridir. Şeirdə "bayquş" obrazı mənfi emosiyanın daşıyıcısıdır, müsbət emosiyanı təsirli aşılatmaq üçün əkslikləri qarşılaşdıran məcazdır:

*Yurdun qalasına bayquşlar qonar,*
*Üstündə olmasa yurd oğulları.*

“Mənim şeirim” əsərində söz, şeir müsbət idealın qaynaqlarından olub, xalq, vətən varlığının poetik yaşantıları, əbədi ideya-fikir qaynağı kimi dəyərləndirilir. Sənətkar şeirdə “Dərbənddən Təbrizəcən bütün Azərbaycanı ayağa qaldıran” qüdrət görür. Özünü sənətin həyatına qurban verməyə hazır olduğunu bildirir. Çünki bunda əbədilik, ölümsüzlük vardır. Maddi ölüm şair nəzərində mənəvi ölümsüzlükdür. Onun poeziyası azərbaycançılıq üçün “vüsalı, istiqlalı alqışlayan tərənnüm, iftixar və şərəfdir”.

“Yaxşı ki, bu yurdun balasıyam mən” (1978) əsərində X.R.Ulutürk Vətən, xalq haqqında o qədər düşünür ki, başından Bayron olmaq havası keçir. Bir zaman Bayron Ellada torpağını özünə məskən elədiyi kimi, şair ruhu da Azərbaycanı özünə yurd-yuva bilir. O, başqa diyarlar həvəsində deyil. “Qanadlı çinarlar kimi ömrün çovğunuyla vuruşlarda” olan şair “yaxşı ki, bəxtimə düşdü bu ölkə, yaxşı ki, uzaqda mən doğulmadım”, - deyə düşünür. Sənətkar fikirlərini təzadlar, bənzətmələr üzərində qurur, təzadlar içərisindən Azərbaycanı görür:

*Səni tərk eyləmək fərarilikdir,*
*Döyüş meydanımsan Azərbaycanım.*
*Qara tikanın da gül ətri verir,*
*Sənin daşlarındır ləlim, mərcanım.*
*(“Yaxşı ki, buyurdum balasıyam mən”)*

Azərbaycançılığın, dövlətçiliyin aliliyini təsirli, siqlətli ifadə etmək üçün sənətkar orijinal bənzətmələr yaratmışdır:

*Vətən dağ kimidir, övlad-şəlalə,*
*Bu birlik, bu vəhdət əkiz doğulur.*
*Nə qədər ucasa, möhtəşəmsə dağ,*
*Şəlalə o qədər vüsətli olur.*

“Mən Azərbaycanam” (1979) şeirində psixoloji məqam doğma Təbriz radiosundan başlanğıc götürür. Vətən və Xalq epik təsvir və təhkiyə yönündən deyil, güclü lirik

hissiyyatlarla gələn ideyalar şəklində təcəssüm olunur. Burada sənətkar ruhunun ehtirasları, sarsıntı və sevinc emosiyaları poetikləşdirilir. Şair dərdinin, kədərinin səciyyəsi fərdi deyil, Vətənə məxsus olan müqəddəs ictimai kədərdir. Biz şairin obrazlar silsiləsində qədim Albaniya, Turan müharibələri, Dumanlı Təbriz, Çənli Zəncan, Xiyabani, Doktor Ərani, İsfahan, Beyləqanı və Naxçıvan abidələrini - tarixi keçmişi ideya şəklində xəyal edirik. Milli Azərbaycan kədəri tarixi nikbinlik işığında əzəmətli təsir bağışlayır:

*Ey cahan, bir daha sən məni dinlə,*
*Göz, könül dolusu hələ gülməyən,*
*Min yol öldürülən, yenə ölməyən*
*Əzəli, əbədi Azərbaycanam!*

"Sən hansı cəbhədənsən" (1979) şeirində xalqın müəyyənliyi psixoloji-mənəvi məqamlarda görünür. Adamlarda özünü göstərən mənəvi naqislik nəticə etibarilə xalqa dəyir. İnsan yalan danışırsa, susmaq vacib olanda hay-haray qoparırsa, danışmaq lazım gələndə lal-kar olursa, xalqı üçün haqqına olanı demirsə, şair bunu mənəvi "qısırlıq", "cəbhəsizlik" hesab edir. Müəllifə görə xalqına, torpağına yad baxanlarda milli hissiyyatlar, mənəvi dəyərlər korşalanda xalq unudulur.

"Qayalar şahid olsun" (1979) əsərində qayalar aləmini seyrə dalan, oxucu ilə həsb-hal edən sənətkar mühakimələr yürüdür, vətənçiliklə vətənsizliyi qarşılaşdırır:

*Hesabla gör nə qədər*
*Sözdə "Vətən" söyləyən*
*Vətən dəyyusları var.*
*Qoparaq dargözləri,*
*Ataq ürəksizləri*
*Silək məsləksizləri,*
*Ölkənin ayağından,*
*görək nə qalır onda,*

Xəlil Rza buqələmun tək rəng alanları, hörümçək kimi

tor qurub qan soranları, yalnız kürsülərdən el dərdinə qalanları, təfəkkürü qotur olanları, "baş" sayılan başsızları, müasir müaviyələri, şöhrət üçün vəzifə üstündə əsənləri, rüşvətlə can bəsləyib pambıqla baş kəsənləri, xalqın sinə-sində xərçəng olanları, Vətən, millət adından kürsüyə dartmanları xalq içərisindən ayırıb oxucuya təqdim edir, "yurddaşın" mürəkkəb aləmini, naqis xislətini damğalayır. Beləl追rini "vətənbaz hərzələr, insanvari gürzələr" adlandırır.

Bütün bunlara qarşı şair Azərbaycan, Vətən idealını qoyur, xalqın mürəkkəb, ziddiyyətli psixoloji xüsusiyyətlərini emosional təzahür etdirir:

*Azərbaycan!*
*Köksümdə arzuların Xəzəri!*
*Mənim gözümün zəri, ürəyimin atəşi,*
*Gecəli-gündüzüm, yuxum!*
*Həyəcanım və qorxum!*
*Məhəbbətim və nifrətim!*
*Görünməz yarasından*
*Araz uzunluğunda qan axsa da,*
*Sarğısı açılmayan Vətənim!*
*Hələ mərdi namərddən*
*seçilməyən Vətənim!*

80-ci illərin əsərləri içərisində "Məndən başlanır vətən" (1983), "Azərbaycan" (1988), "Gəlir Böyük Azərbaycan" (1986-90) əsərləri azərbaycançılıq idealı, xalq taieyi, vətənçilik və xalqçılığın poetik ifadəsi olan əsərlər kimi xüsusi yer tutur.

"Gəlir böyük Azərbaycan" əsəri Azərbaycanın müstəqil dövlətçilik ideologiyası, xalqın gücü və səbatının poetik təcəssümüdür. Bu qəbildən olan əsərlərdə şair xalq, tarix, azadlıq, müstəqillik məfkurəsini yaşatmaq və uğrunda mübarizə aparmaq məramında müəyyənləşir:

*...Sən deyirsən: Gəmiriblər, sümürüblər*
*Çox didilib, çox talanıb*

*Dönə-dönə şaqqalanıb,*
*Neçə yerə parçalanıb,*
*Mən deyirəm: - Kül altında qalan qordu,*
*Gözlərimdə yanan nurdu*
*Yalnız Araz, ya Kür deyil,*
*Ərzi qucan ekvatordu*
*məmləkətim.*
*...Sən deyirsən: - Havalanma!*
*Kəmnəfəsdir, o kəmnəfəs*
*Məndeyirəm: neçə-neçə uluslara*
*öz qanını bağışlayan*
*dahi millət ölə bilməz!*
*("Gəlir böyük Azərbaycan")*

Xəlil Rzanin lirik-epiks) hissi-romantik təsvirlərində mənəvi birlik ideyası bütün millətə, hər vətəndaşa ünvanlanır, milli şüura, məfkurəyə doğru yönəlir, bütün insanları mənəvi axtarışlara səsləyir:

*Mən yardıma səsləyirəm!*
*Hər nəfəri, hər milləti,*
*Hər fitnəni yuvasında haqlamalı!*
*Yalnız mətbu sözləri yox,*
*ürəkləri, şüurları,*
*şüuraltı düşüncəni yoxlamalı!*
*Millətləri udmaq üçün gizli nəşə çəkənləri*
*rüsvayçılıq divarına,*
*boş məzara mıxlamalı!*

Xəlil Rza Azərbaycanı başqa ruhda təsəvvür edir. Azerbaycarı Məsləki onun İdealıdır. O, əmindir ki, cəsurluğu və qəhrəmanlığı ilə Azərbaycan Dövlət müstəqilliyini əldə edəcək və dünya meridianlarına qovuşacaqdır:

*Bu məsləkin havasıyla*
*yaşa dolur Azərbaycan!*
*Zirvələrdən üzü bəri*
*gəlir məğrur Azərbaycan!*
*gəlir cəsur Azərbaycan!*

*Nur və büllur Azərbaycan!*
*Dar: gözlərin görmədiyi*
*Tamam yeni Azərbaycan!*
*Varlığımda od yerinə*
*gəzən qanım Azərbaycan!*
*Acgözlərə, zalimlərə*
*yağı, qənim Azərbaycan!*
*Ey yol kəsən, çəkil, rədd o l!*
*Açır yolu Azərbaycan!*
*Böyük, ulu Azərbaycan!*
*Mənim canım kibi dəli,*
*Dəli-dolu Azərbaycan!*
*Köhlənimə çata bilər kimin atı*
*Gözlərimdə ulduzlanır Azərbaycan*
*kainatı!*

Şair yeni zəmanənin, təzə dünyanın doğuşunda xalqla şəxsiyyət, sənətkarla xalq arasında tamliq, vəhdet təsəvvür edir:

*Qupquru zoğlar içindən*
*qalxır cavan Azərbaycan!*
*yaşıl fidan Azərbaycan!*
*Sən mənə bax, ora baxma, ey yarımcan!*
*Mən özüməm yeni era,*
*tamam yeni Azərbaycan!*

Xəlil Rza Ulutürkün poetik təfəkküründə milli özünüdərklə bağlı ideya-fikir qaynaqları zəngindir. Biz bütün bunların təfərrüatlarına varmadıq, önəmli görünən xüsusiyyətlər üzərində dayandıq. Məqsəd şairin yaradıcılığındakı milli şüur, məfkurə, türkçülük, azərbaycançılıq, xalqçılıq, vətənçilik ideyalarını aşkarlamaq və onların tarixi əhəmiyyətini göstərmək olmuşdur.

Xəlil Rza Ulutürkün adı Azərbaycanın milli azadlıq hərəkatı tarixi ilə möhkəm bağlıdır. Həmin hərəkatın bədii ifadəsi onun yaradıcılığında da güclüdür. Xəlil Rza poeziyası birdən-birə kamala dolmamış, çətin təkamül yolu keçmişdir.

Bu səbəblən də sənətkarın yaradıcılığında ictimai-siyasi lirikanın keçib gəldiyi yola və poetik xüsusiyyətlərə diqqət yetirmək zərurəti vardır.

# II FƏSİL
# SAİRİN POEZİYASINDA MİLLİ AZADLIQ HƏRƏKATININ ƏKSİ

## 2.1. İctimai-siyasi lirikasının təkamülü və fərdi müəyyənlik xüsüsiyyətləri

Xəlil Rza bədii yaradıcılığa XX əsrin 40-cı illərinin sonlarından başlamışdır. Şairin arxiv sənədlərində ilk mətbu əsəri 1948-ci il, “Kitab” şeiri (“Pioner>” qəzeti) göstərilir; Lakin həmin ildə “Pioner” qəzetində şairin “Abşeron” şeiri dərc edilrnişdir. Şair 50-ci illərdə “Qatar gedir” (1951), “Budapeştdə heykəl” (1951), “Müqəddəs yol” (1952), “Böyük günlər bayramı” (1953), “Radionu dinlərkən” (1954), “Həyat düşüncələri” (1954) şeirlərini yazmışdir. Həmin nümunələrdə patetik intonasiya (xitablar, emfatik vurğular) güclü olub, obrazlılıq, obyektə psixoloji münasibət azlıq təşkil edir. “Şərqin gozləri” (1956), “Şairin cavabı” (1956), “Bəzənin, a qızlar”(1961), “Böyük günlər bayramı” kimi ictimai-siyasi şeirlərdə ənənəvi motivler, emfatik-məntiqi vurğular, III şexslə bağlı olan münasibətli, məsnəvi üzərində qurulan epik-lirik tehkiyə görünən xüsüsiyyətlərdir.

60-cı illərdə dünyada baş verən ictimai-siyasi hadisələr, azadlıq hərəkatları milli ədəbiyyatlara xəlqi-bəşəri dəyərlər gətirmiş, poeziyada bədii keyfiyyət dəyişiklikləri doğurmuşdu. “Altmışıncı illərin şeirlərində üslub polifonizmi xüsusilə diqqəti cəlb edirdi. Fərdi üslublar get-gedə püxtələşir, poeziyada rəngarənglik yaradırdı... Zamanın yeni inkişaf meyllərini, onun aparıcı tendensiyalarını da altmışıncı illərdə yazıb-yaradan şairlər eyni üsulla qəbul edə bilməzdilər” [317, s,6]. Xəlil Rzanın “Mən”i daha tez”«özümləşdi”; Xəlil Rza Afrika, Amerika, Avropa hadisələrinə üz tutanda daha çox milli “Mən”ini, şüur və məfkurəsini düşünmüşdür. Günün adilikləri mövzüsünda

yazılmış şeirlərdə belə ictimai (siyasi) məzmun və məna özünü ciddi təzahür etdirmişdir, 60-cı illərdə yazılmış "Mərmi" (M.Araz), "Soyuq olun, insanlar", "Hind masalı" (R.Rza), "Bizim əsr", "Qorunun" (C.Novruz), "Raketlər keçir" (N.Həsənzadə), "Şim-sim, qapını aç" (S.Rüstəmxanlı), "Tapılmaz" (M.İsmayıl), "Daşa düşər" (F.Qoca), "Fikir qanadlarım" (B.Vahabzadə) və başqalarında ictimai-şiyasi ideya-məzmun qabarıq əks olunmuşdur.

60-çı illərin poetik axtarışları X.Rza idealının mənbələrini əsasən aydınlaşdırmış, türkçülük, Vətənçilik, azadlıq, istiqlalçılıq ideyalarını təzahür etdirmişdir. "Atrikanın səsi" (1960) (sonralar "Şairin şəsi", "Azərbaycanın səsi", "Xalqımın səsi", "Mənim səsim") şeirində azadlıq ideyasının məna, tutumu, onun poetik intonasiyası, ifadə vasitələri, bəşəri "Mən" güclü inikas olunmuşdur,

*Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram,*
*Qolumdakı zəncirləri qıram gərək,*
*Qıraml*
*Qıram!*
*Azadlığı istəmirəm bir həb kimi, dərman kimi*
*İstəyirəm Səma kimi,*
*Günəs kimi,*
*Cahan kimi!*
*Çəkil!*
*Çəkil, ey qəsbkar!*
*Mən bu əsrin gur səsiyəm!*
*Gərək deyil sısqa bulaq!*
*Mən ümmanlar təşnəsiyəm!*

Lirik qəhrəman əzmi, qətiyyəti, inam və mübarizəsi, dünya, günəş, şəma boyda olan Azadlıq idealı ilə Xəlil Rza poeziyasına bəşəri məzmun gətirmişdir. B.Vahabzadə təsadüfi yazmırdı ki, "Afrikanın şəsi" adlı yığcam bir şeirdə yalnız Afrika xalqlarının deyil, öz azadlığı və istiqlalı uğrunda ayağa qalxan və müştəmləkəçiliy fa-

şizmin hər cür təzahürünə qarşı barışmaz mövqe tutan, imperializmin buxovlarını qıran bir sıra ölkələrin rnübarizə əzmi, üsyankar ruhu çox sərrast və qüvvətli ifadə olunmuşdur" [310, s.3]. Həmin illərdə B.Vahabzadə "Sökün çəpərləri" (1965), R.Rza "Lüban oğlu Şəkib (1967), "Vyana xatirələri", C.Novruz "Zamanın səsi", Ə.Cəmil "Kuba vətənpərvərlərinə", N.Həsənzadə "Fələstin nəğmələri" şeirlərini yazmışdı.

60-cı illərde Xəlil Rza yüzlərlə əsər yazmış, üç kitab çap etdirmişdir ("Məhəbbət dastanı", "Mənim günəşim", "Qollarını geniş aç").

60-cı illərin poeziyasında motiv əlvanlığı güclü olmuş, başlıca mövzular dostluq, təbiət, ana, ata, ocaq, torpaq, xəzər, vəten, vətəndaşlıq, beynəlxalq Cənubi Azərbaycan və müharibə ilə bağlı olmuşdur. Ümumən "Müasir şairlərin lirikasında özünəxas, orijinal yazı manerası, üslubu, deyim tərzi, hadisəyə, fakta, obyektə münasibət, estetik duyum, zövq və idrak baxımı mövcuddur... Lirik şeirin gözəl hər cəhətdən mükəmməl nümunələrində yeni ruh, yeni fikir, məna və məzmun, forma yeniliyi, bədii tamlıq, emosionallıq müşahidə olunur, müasir insanın istək və arzuları: onları düşündürən ictimai-fəlsəfi, etik-əxlaqi məsələlər ön plana çəkilərək məhəlli, məhdud tərzdə deyil, ümumiləşdirici, bəşəri bir əhatə və vüsətlə bədiiləşdirilir" [22, s.333].

Xəlil Rza fərdi şüuru oyatmağa və fəallaşdırmağa psixoloji məqamlardan başlamışdır. 70-80-ci illərin poeziyasında aparıcı bədii keyfiyyət olan psixoloji-mənəvi məqamların poeziyası mənbəyini əslində 60-cı illərin ilk nümunələrindən tapmışdır. Bu baxımdan "Nifrətim var" (1960), "And içirəm" (1962), "Şəlalə kimi" (1962), "Ermitaj və Avrora", "Ürək qızıl gülə bənzər" (1962), Əyilmə" (1962), "Qonaq cağırıram bəşəriyyəti" (1963), "Vəzifə" (1967), "Mən Şərqəm" (1968), "Bir dostun öyüdü" (1968) şeirləri səciyyəvidir. Nümunələrdə mövc-

ud mühitə qarşı etiraz motivləri aşkarlanmağa başlamışdır. Onun müharibələrə etirazı həm də məhkum millətin istismarçı imperiyaya qarşı etirazları anlamındadır:

*Qalsan belə susuz, ac,*
*Yavan çörəyə möhtac,*
*Boğazına ilan tək,*
*Sarılsa da ehtiyac,*
*Ehtiyac ürəyini*
*Köksündən qoparsa da,*
*Odu, suyu, havanı,*
*Evindən aparsa da,*
*Ağız açma namərdə!*
*Ürəyində dərd, yaşa.*
*Sən insansan! Əyilmə!*
*Yoxsul yasa.*
*Mərd yaşa.*
*("Əyilmə")*

"Vətən, ya ölüm" (1960 - 1962) şeirinin mövzusu Kuba xalqının azadlıq mübarizəsindən, "Kürd şairinə məktub" (1963) şeirinin movzusu isə kürd xalqının həyatından alınmışdır. Kuba rəhbəri F.Kastronun eyni adlı fikrini (Vətən, ya ölüm!) şeirə başlıq verən şair beynəlxalq mövzu və motivlərə keçid etmiş, həyat və bədii təzadı əsas götürərək, azadlıq ideyasını, əslində milli olanı - öz inam və idealını fərdiləşdirmişdir:

*Basılarmı, söylə heç*
*Qız-gəlini, anası,*
*Hər mahnısı, laylası silahlanmış bir Vətən?!*
*Dinlə, qəlbimdən qopan bu alovlu sözləri:*
*Haqqa güvənənlərin yerə gəlməz dizləri!*
*- Vətən, ya ölüm dedin. Budur məramın!*
*Ancaq*
*Ölüm - düşmənimizin, Vətən - sizin olacaq!*

Xəlil Rzanm poetik "Mən"i lirik qəhrəmana keçidini də 60-cı illərdən: "Mənim şeirim" (1962) və "Əbədi mə-

şəl"dən (1963-1964) alır. Sənətkarın yaradıcılığında sakit, təmkinli görünən lirik "Mən" tərənnümə, vüqar və əzəmətə uyğun olaraq "böyüyür", "qəhrəmanlaşır". Akademik M.Arif demişkən, "Mən, biz, bütün dünya bir adamın sinəsində çarpazlaşır və bəşəriyyətin səadəti naminə qüvvətli, coşğun, ehtiraslı bir ürək kimi vurur. Arxayınlıq, ictimai laqeydlik, meşşan istirahəti demək olar ki, lirikamızın qəhrəmanına yaddır. Bu qəhrəman narahatdır. Onu "dünyanın dərdi, torpağın ağrısı yatmağa qoymur" (R.Rza), o "tək özü üçün yaşamaq istəmir" (C.Novruz), o, ən böyük səadəti - ömrünü xalqa verməkdə, bəşər səadətində görə bilməkdə, zəhməti ilə ölkəsini sevindirməkdə axtarır. X.Rza deyir:

*Bu dünyaya,*
*Bu xalqa verə bilsəm ömrümü,*
*Bəşər səadətində görə bilsəm ömrümü*
*Zəhmətimlə sevinsə vurulduğum məmləkət,*
*Mənimçin ola bilməz*
*Bundan böyük səadət. [12, s. 77]*

Lirik qəhrəmanın cəbhəsi, məramın səngəri əslində, amalı, idealı hazırlayır, bu amalda Vətən eşqi, əxlaqı və istiqlalı bəklənir. Vüsal şair poeziyasının istiqlalıdır:

*Həyatımı verərəm*
*Bircə sənin yolunda,*
*Sənin özünü isə*
*Bu Vətənin yolunda!*
*Ürəyimin aynası,*
*Qəlbimin amalısan.*
*Mən öləndən sonra da*
*Məni yaşatmalısan!*
*Mənim şerim vüsalı,*
*İstiqlalı alqışlar.*
*Şerimin davamıdır,*
*Salondakı alqışlar!*

*("Mənim serim")*

“Mənim gözlərimdədir paytaxtımın vüqarı” deyən lirik qəhrəman Azərbaycandan güc alır, vüqarlanır. O, keçmişimizlə, tariximizlə vəhdətləşir, mənəvi təzad və varislik onu azadlıq hərəkatına doğru hazırlayır:

*Ürəyimin kədəri,*
*ürəyimin qüruru –*
*Al günəşin doğması,*
*al günəşin qürubu.*
*Qürurum, iftixarım*
*boğur kədərimi.*
*Mənə nişan verərək*
*əsrlər dalındakı*
*qızıl səhərlərimi,*
*Boğur kədərimi!*

*(“Əbədi məşəl”)*

Lirik qəhrəmanı yetişdirən ictimai-siyasi mühitdir: “Lənət dedim dövrana, nifrət dedim dövrə mən!”. O, həqiqətlə yalanı, ədalətlə ədalətsizliyi, haqla haqsızlığı özü 'üçün dərk etməyə çalışıx - təbiətdən öyrənir. Ondakı ahəngi, harmoniyanı cəmiyyətdə görmür - təzadlar təbii olaraq, lirik qəhrəmanda etiraz, inkar mövqeyi formalaşdırır. Prof. T.Hacıyevin qeyd etdiyi kimi, “şeriyyəti duymaq, təbiəti və cəmiyyəti poetik mənalandırmaq üçün şair ürəyi ilə gördüyü kimi, ürəyi ilə eşidir də. Sərrast görmə qavrayışı və eşitmə rezonansları onun poeziya dünyasının rənglərini və melodiyasını torpaq günəş şüalarını və suyu udan kimi özündə cəmləşdirir. Onların bərəkət məhsulu dil materiyasından və şeir şəklində oxucuya təqdim olunur. Bu təqdim olunan poeziyada oxucu və bədiilik adlandırılan psixoloji hadisə - tərənnümün sərəncamında olur” [92, s.65].

Lirik qəhrəmanda inam və qətiyyətin başlanğıc götürdüyü mənbə əbədiyyətdir:

*Sən elə bilmə ki, köçdüyüm zaman*
*Dünyadan bir yolluq köçəcəyəm mən.*

*Bir dəfə ölüncə,*
*bəlkə min dəfə*
*Ölümü tapdayıb keçəcəyəm mən!*
*("Həyat düşüncələri")*

Sülh, demokratiya, milli-azadlıq uğrunda mübarizə hərəkatı şairlərə əhəmiyyətli mövzular verirdi. Həmin mövzularda milli istiqlalın, demokratik nailiyyətlərin qorunub-saxlanılması və beynəlxalq imperializmin ifşası əsas ideya idi. "Mübariz çağırış ruhu R.Rza, B.Vahabzadə, B.Azəroğlu, S.Tahir, Ə.Tudə, Ə.Kərim, N.Həsənzadə və başqa şairlərimizin poeziyasında diqqəti cəlb edir. Bey-nəlxalq mövzularda yazılan şeirlərin mübarizlik ruhunu və təsir qüvvəsini artıran cəhət odur ki, şairlərimiz bu mövzunu çox geniş mənada başa düşür, bütün dünyada milli azadhq hərəkatı məsələlərinə nəzər salır, hər hansı bir ölkədə azadlıq uğrunda imperializmə qarşı aparılan mübarizəni bütün mütərəqqi bəşəriyyətin gələcək taleyi üçün mühüm hadisə kimi qiymətləndirir, xalqların azadlığı üçün canlarından keçən qəhrəmanları tərənnüm edir, onların bədii obrazlarını yaradırlar" [4, s.87].

S.Vurğunun "Zəncinin arzuları", "Avropa xatirələri" şeirlər silsiləsinin ənənələri ilə başlayan beynəlxalq mövzu O.Sarıvəllinin "Sadəcə suallar", "Ana", "İqlimdən-iqlimə" silsiləsi, "Misirli qardaşlar", R.Rzanın "Zənci balası Villi haqqında ballada", "Si-Au", "İnqalesyo", M.Dilbazinin "Əlcəzairli qız", B.Vahabzadənin "Vyetnam balladası", B.Azəroğlunun "Berlin", "Sərhəd»", "Eşidin dünyanın səsini", "Elə oğul istəyir Vətən", Ə.Cəmilin "Kuba vətənpərvərlərinə", M.Arazın "Nobel mükafatı", S.Tahirin "Yer kürəsi", "Cavab versin tarix mənə", C.Novruzun "Qərbi Berlin", "Yox, Hitler ölməyib", F.Qocanın "Salam, Vyetnam", "Xose Risal, T.Bayramın "Los-Anceles matəmi", P.Qəlbinurun "Ərəb qardaş", "İçimin işığı", Sabir Rüstəmxanlının "Bütövlük" və

başqalarının əsərləri Vyetnam, Kuba, Qrenada, Fələstin, Koreya xalqlarının həyatı ilə bağlı olsa da, milli şüuru ehtiva edən xüsusiyyətlərlə güclü idi. Həmin silsilədən Xəlil Rza Ulutürkün "Vətən, ya ölüm" (1960-62), "Afrikanın səsi" (1960), "Vyetnam", "Vətən, ya ölüm", "Prezident kabinəsi", "Qrenada, Qrenada", "Rədd olun Vyetnamdan, ey qəsbkarlar" (1966-68), "Sofiyada festifal", "Qəzəb marşı" əsərləri də diqqəti cəlb edirdi. O.Sarıvəllinin "Sadəcə suallar" əsərində koreyalıların istiqlaliyyətini qoruyub saxlamaq mübarizəsi ifadə olunurdusa, X.R.Ulutürkün "Qəzəb marşı"nda Vyetnam xalqının beynəlxalq imperializmə qarşı mübarizəsi və onu ifşa başlıca bədii keyfiyyət idi.

Asiya, Afrika xalqları oyanmışdır. Milli şüur və özünüdərk onları məfkurə uğrunda mübarizəyə qaldırmışdır. Dünyanın azadlıq şairləri müstəmləkəçiliyə, beynəlxalq imperializmin işğalçılıq siyasətinə qəti etiraz edirlər. Amerikanın sənət adamları Koren Lindsey, Georqakas, - Robert Blay, Olqa Kibrek, Davud Reyn və başqaları xalqlara qarşı yönəlmiş cinayətlərə etiraz edir, müstəmləkəçiliyi pisləyirlər. Amerikanın Uoll-strit küçəsini etiraz dalğaları bürüyür, tələbələr hərbi nazirlikdə biletlərini cırır, oğulları Vyetnamda həlak olmuş analar, rahatlıq is-təyən sadə amerikalılar "Ağ Evin qapılarını lərzəyə gətirir, Pentaqona tüpürürlər. Bu qəzəbin qarşısında Vaşinqton dayana bilmir, buna görə də "polislərin ilanvari dəyənəyi, gürzə gözlü süngüləri, qazı və zəhərləri" işə düşür. Fatehlər və qəsbkarlar hər cür azadlığı yerində boğmağa çalışırlar.

Vyetnamda gedən döyüşlər neçə-neçə amerikan əsgərini ölümə aparır, "hər tabut öz anasını taparaq, onların ağ geyimli libaslarını qaraya döndərir". Hər bir Vyetnam əsgəri məsləkindən dönmür, illərlə mübarizə aparıb, azadlıq tələb edir. X.R.Ulutürk "Vyetnam", "Vyetnam qızı Xanoy bala" şeirlərində eyni ideya motivlərini oriji-

nal poetik formalarda davam etdirərək Vyetnamın birliyinə, ərazi bütövlüyünə əminlik ifadə edir. Şair bu əsərlərdə sətiraltı, mətnarası olaraq öz millətinin, torpağının da taleyini düşünür. Şairin inamı belədir, "Vyetnamdan böyük Vyetnam torpağın altındadır":

*Nə napalm bombası, nə kərtənkələ tanklar,*
*Heç nə qıra bilmədi Vyetnam iradəsini.*
*Onlar yer altında da vahid yurdu qucaqlar*
*Öpərlər məmləkətin bütöv xəritəsini.*
*("Vyetnam")*

60-cı illərin Afrika ölkəlerində gedən siyasi hadisələrə də ciddi münasibət bildirilmişdir. X.R.Ulutürk "Afrikanın səsi", "Afrika" şeirlərində həmin hadisələrə öz içindən baxır, şairin milli özünüdərkində bəşərilik, dünyəvilik mahiyyəti poetik tapıntılarla inikas etdirilir. Sənətkar Afrika həyatının ictimai-siyasi mənzərəsini, mübarizlik əhval-ruhiyyəsini orijinal mənalandırır:

*Afrika qitəsi - nəhəng bir ürək,*
*Min il Avropaya qan axıtdı, qan.*
*Böyük səhradakı yad tələsini*
*Bu gün parçalayır qaradöş aslan!*
*("Afrika")*

*"Qəsbkarlar" (1966) şeirində şair mühakimələr*
*yürüdür və məntiqi qənaətlərə gəlir:*

*Dağlar bəlkə yaranmış xalqın sinə dağından,*
*Torpağın zülm əlində naçar sıxılmağından!*
*Görən neçin ucalmış hu bahadır qayalar?*
*Bəlkə əcdadımızın qalxanıdır qayalar!*

Xlil Rzanın təsvirlərində mühakimələr, qənaətlər Qobustan qayalarma həkk olunmuş yazılardan - eramızın birinci əsrində Roma imperiyasının XII legionundan, imperator Domisian, Sezar, Avqust, Germaniskin dövründən, Lutsi, Yuli və Maksimdən baş alıb gəlir. Şair Romanın fatehlik ehtiraslarınan etiraz edəndən sonra ərəblərin, Avropa və Amerikanın Azərbaycan neftinə olan

iştahalarından söz açır, Vişşau, Denstervil və başqalarının mənfur adlarını xatırlayır:

*XXəsrdə bir az başqalaşıbdır*
*fatehliyin növləri,*
*İndi fatehlər ancaq sərvət,*
*sovqat aparmır.*
*Mənəviyyat aparır.*
*Vətən nemətimiz bir,*
*Vətən duyğusunu da*
*Şüurlardan qoparır!*
*Ürəklərdən qoparır!*
*Müstəmləkə xərçəngi*
*kök atır vicdana da*
*Virus kimi işləyir*
*iliyə də, qana da.*
*("Qəsbkarlar")*

Şairin ümumiləşdirmələri əhatəlidir. O, Formoza, Qana, Kanada, Konqo, Ərəbistanda qəsbkarların törətdikləri qırğınları yada salır. XX əsrin qəsbkarlığına bir qədər mədəniyyət və modern gətirildiyini təsvirdən yayındırmır, saxta təbəssümləri və milli satqınları da təsvir edərək hökm çıxarır:

Nə yamandır şüurda, idrakda müstəmləkə
Başına sığal çəkə, sərvətinə süpürgə.

"İmperialistlər illərlə əsarətdə saxladıqları Asiya və Afrika xalqlarını "mədəniləşdirməyə", "müasirləşdirməyə" çalışmışlar. Müstəmləkəçilər həmin xalqların milli mənliyini, orijinal simasını məhv etməyə, onların içərisindən kölələr yetişdirməyə, ədəbiyyat və incəsənətlərinin milli cizgilərini yoxa çıxarmağa can atmışlar. Bunun nəticəsidir ki, "hazırda Afrika xalqlarının əksəriyyətinin ədəbiyyatı öz ana dillərində yox, əsasən yeddi Avropa dilində təşəkkül tapmış və inkişaf etmişdir. Yalnız indi-indi Afrika yazıçılarının bəziləri ana dillərində də yazıb-yaratmağa, öz dillərini də inkişaf etdirməyə çalışırlar"

[97, s.69]. Şair Koreya, Almaniya, Vyetnam kimi məmləkətlərdəki parçalanmanı, assimilyasiya siyasətini ifşadan sonra məramını poetik şəkildə açıqlayır:

*Bu dərdlər dünyasında*
*öz qübarını var mənim:*
*Azərbaycan dilində*
*Hələ təzə dil açan Şəhriyarım var mənim.*

Şairin qənaəti belədir: XX əsr başqalaşmışdır, qəsbkarlar əsri deyildir, "Beş milyard insanlığın yumruqları sıxılır". Həmin qənaətin bədii ifadəsi "İki ərəb, iki yol" (1977) şeirində də davam etdirilmişdir. Şeir ərəb xalqının İsrail ilə olan mübarizəsinə həsr olunmuşdur. Bir ərəb başçısı "Mersedes"inə əyləşib Təl-Əvivə yollanır. Oradan da "Misir-eyr" təyyarəsinə minib xalqını, torpağını tərk edir. Sanki o, "pəncərədən dirsəyini göstərir öz xalqının tələbinə". Trapa ayaq qoyan kimi "şimşəklər şaqqıldadı, göylər topa tutuldu, buludlar leysan tökdü, yer, göy silkələndi. Dörd motor var səsiylə getmə - dedi, ciyəri kabab olan böyük şəhər getmə - dedi, günbəzindən göz yaşları sel-sel olan göy məscidlər, ahu-fəğan sükututək göyə qalxmış minarələr, yatağında qəzəbindən ləngər vuran qocaman Nil, həyat işığını yenicə nuş etmiş palmalar, bananlar, Sina vadisində yad təyyarə od tökəndə balasını qapıb qaçan analar, tarix qədər qoca Xeops, Əbülhövl eh-ramları da ... getmə, - dedi:

*Getdi.*
*Dal çevirdi doğmalara, yadlar onu pişvaz etdi*
*üzəvari bir hörmətlə.*
*Bilmədi ki, bu görüşlər, əlsıxmalar*
*yalançı bir nəzakətdir.*
*Özünkündən uzaqlaşma, özgələrə yaxınlaşma*
*fəlakətdir.*

Şair milli mövqeyini büruzə vermək üçün satqın ərəb başçısma qarşı yeni dövlət başçısmı, zirehli yumruğunda şığıyan bir bayrağm iradəsi, inadı olan qətiyyətli və ləya-

qətli Yasir Ərəfatı qoyur, millətçilərə ibrət dərsi götürməyi təlqin edir. “Qrenada, Qrenada” şeirində isə 80-ci illərdə qəsbkarların dünyanı yenidən silkələmək cəhdlərini pisləyir. Etiraz edir ki, dünyanı tutan, dişlərindən qan daman yırtıcıların quduz tamahları, iştahaları sönmür, onlar kiçik uzaq adaya belə “təyyarə və tanklarla dəstə-dəstə gələrək bombalarını uşaq bağçalarına belə salmaqdan çəkinmirlər”. Qrenadanın torpağından keçən ağrı şairin də ürəyindən keçir, onun duyğu və düşüncələrini hərəkətə gətirir: milli başlanğıcdan bəşəri, dünyəvi ma-hiyyət, İnsan taleyi, millətlərin taleyi nəşət alır:

*Əriyirsən varlığının qəzəbində, qürurunda*
*Dəniz içrə qan gölünə çevrilməsin Qrenada.*
*Arxayın ol, ey xalqların boğazına keçən caynaq,*
*Götürdüyüm qanlı çanaq öz başında çatlayacaq.*
*Qoca tarix çox görübdür millətləri qıranı da,*
*Sizi nifrət divarına mıxlayacaq Qrenada.*

Xəlil Rza Ulutürk milli mövzular çərçivəsindən qlobal, bəşəri hadisələrə baxır, beynəlxalq hadisələrdən yazanda isə milliliyə üz tutur. Buna görə də şair 15 noyabr 1962-ci il gündəliyində yazırdı: “Milli xüsusiyyətin meyarı Vətəndir, ana dilidir. Hansı xüsusiyyət ki, Vətənin tərəqqisinə, ana dilinin gözəlləşməsinə, çiçəklənməsinə yardım edir, o əsl milli xüsusiyyətdir, yaşamaq haqqına malikdir”[318].

X.Rzanın lirik qəhrəmanı narazılıqlarını ifadə edəndə, özünü axtaranda müsbət idealı bəkləyir. O, mənfiliklərə etiraz yönündən “iç” həqiqətlərini: arzu və amalını, estetik idealını təzahür etdirir:

*Bu gün mənim sözümə*
*gələcək bir yaşlı göz*
*Bu gün mənim silləmdən*
*od tutacaq boz bir üz.*
*Bu gün cəbrin cəbhəsi*
*yarılacaq hardasa,*

*Bir əsarət zənciri*
*qırılacaq hardasa.*
*("Ən gözəl gün")*

X.R.Ulutürkün milli ideala, xalq taleyinə, milli azadlıq hərəkatına gəlişi, bir az "kənardan", dolayısı ilədir. Şair bəhanələr, vasitələr araya-araya, mətnarası və sətiraltı məqamlar güdə-güdə birbaşa milli ideala doğru yol gəlmişdir. Avropa, Asiya və Afrika xalqlarının azadlıq hərəkatlarına nəzər yetirən, hadisələr ətrafında təfərrüatlara varan, süjetə meyl edən və ideyaları çözən sənətkarlar, həm də konkret xalqların: Vyetnam, Kuba, Qrenada, Fələstinin istiqlal tarixinə fərdi yanaşmış, onlan bədii cəhətdən ümumiləşdirmişlər. Fövqəl dövlətlərin müstəmlə-kəçilik siyasətini pisləyən, bəşəriyyətin taleyindən nigaran qalan şair sətiraltı eyhamlarla öz xalqının taleyindən də ciddi narahatdır:

*Buludlarda batdı Ay...*
*mənsə yata bilmirəm.*
*Lülədə güllə kimi*
*ürəyimdə qəzəb, qəm.*
*Qırmızı çay od olub*
*axır mənim qanımda*
*Hərraca qoyulubdur*
*bir millətin taleyi*
*Qudurğan bir dövlətin*
*siyasət meydanında.*
*("Rədd olun Vyetnamdan")*

Dünyaya üz tutub milli idealına işarələr vuran lirik qəhrəman deyir:

*Azadlıq eşqilə çırpınır torpaq,*
*Çaylar dənizlərə qaynar qan verir.*
*XX əsrin önündə hər xalq,*
*Azadlıq fənnindən imtahan verir.*
*("Rədd olun Vyetnamdan")*

Amerikanın istismar dünyasını ifşa edən "Qəzəb mar-

şı” (1967) əsərində lirik qəhrəman hadisə və təfərrüatlar haqqında məlumat verir, təsvir və təhkiyəyə yeri gəldikcə müdaxilə edilir; bəzən şair müdaxilələri ilə təhkiyə əvəzlənir.

Xalq taleyi, xalq birliyi ideyasının toxumları, rişələri də 60-cı illərin əsərlərindədir. “Oğlum Təbrizə” (1964), “Anam layla çalır” (1966) əsərlərində real həyat lövhələrinə, təfərrüatlara varan şair müdrik, yığcam xalq bayatılarında da öz idealını, xalq taleyini mətnarası, sətiraltı anlamlarda ifadə edir. Ana yanıqlı laylalar çağırır:

*Aşıq haradan gəldi,*
*Səni yaradan gəldi.*
*Nə duman var, nə çiskin*
*Bu sel haradan gəldi.*

*Qar yağıbdır dizəcən,*
*Bakıdan Təbrizəcən.*
*Yolunu gözləyərəm*
*Mən gələn Novruzacan.*

*Laylamın adı qardaş,*
*Ağzımın dadı qardaş.*
*Mənə qardaş oimasan*
*Götürrəm yadı qardas.*

60-cı illərin poetik nümunələrini gözdən keçirərkən, bir qənaət aydın görünür: Xəlil Rza Ulutürk təbiətə aludə şairdir. Onun təbiət şeirləri həm obyektiv, həm də mühakiməli, analitik məzmunda, təsvirlərdədir. “Bahar” (1960), “Yeni pəncərələr” (1960), “Göygöldə sübh açılır” (1961), “Mən Dneprə vurulmuşam” (1961), “Riqa körfəzində günəşin qürubu” “Günəşin yarısı görünür ancaq” (1961), “Bir dəstə çiçək” (1961), “Bakı bağları” (1961), “Bahar kimi” (1962), “Qızıl balıq və şəlalə” (1962), “Sonsuz qüvvət” (1962), “Ömrümdə Kür çayını bu rəngdə görməmişdim” (1962), “Göyçayda payız

səhəri” (1963), “Dəlidağ” (1963), “Uşaq bağçası dənizdə” (1964), “Quba bağları” (1960 - 68), “Güldəstə toplayıram” (1965), “Aç qoynunu, ana torpaq” (1965), “Gül bağında düşüncələr” (1966), “Qobustan qayaları” (1966), “Bütün fəsillərdə bahar yaşayır” (1967), “Gəncənin çinarları” (1967), “Dəniz səni çağırır” (1967), “Dəniz kimi yaşamaq” (1967), “Xəzərdən ayrıla bilmirəm” (1967), “Qar altında bahar” (1968), “Çağırır Göyçay məni”, “Daşın ətri” (1968), “Sən mənə bənzəyirsən” (1969), “Babalar yatan yerdə” (1969), “Baharda (1969), “Həftədə bir kərə, ayda bir kərə” (1969) şeirlərində həm idilliya, bədii dekor, həm də təbiətə müdaxiləli ve münasibətli baxış güclüdür.

“Mən Dneprə vurulmuşam” (1960-61) şeiri Dneprin, “Riqa körfəzində günəşin qürubu” (1961) şeiri günəşin, “Göygöldə sübh açılır” (1961) şeiri Göygölün gözəlliyinə həsr olunmuşdur. Nümunələrdə gözəlliyin mənalandırıl-ması səciyyəvi xüsusiyyətdir. Məsnəvi təhkiyəsi üzərində qurulmuş əsərlərdə Göygölə, Dneprə əyanilik görümü verən təsvir vasitələri əsasən təşbeh və metaforalardır:

*Sübhün gur şəfəqləri ağ bir alov nəhridir,*
*Dilim-dilim doğrayıb qaranlığı qəhr edir!*
*Odur, aşdı təpədən, töküldü gülə-gülə*
*Tül pərdəli Göygölə.*
*Göygöl çıxır pərdədən gəlin gedən qız kimi,*
*Bütün yer kürəsinə deyilməli söz kimi!*

*(“Göygöldə sübh açılır”)*

Mikayıl Müşfiqin “Küləklər” şeiri kimi, 3 - 3 - 3 - 3 bölgüsündə yazılmış “Bahar” (1961) ehtizazlı tərənnüm şeiridir. Lirik qəhrəman yaz gözəlliklərini buya-duya, yaşaya-yaşaya onu dəyərləndirir:

*Sən mənim qismətim, sən mənim ömrümsən,*
*Durulan Göy gölüm, bulanan Kürümsən.*
*Omründə nə qədər dövranlar görmüsən,*
*Olubmu belə bir xoş çağın, ay bahar?*

*Gedirəm, əlimdə bayrağın, ay bahar!*

*("Bahar")*

Təbiət gözəllikləri, lirik qəhrəmanı ehtizaza gətirir. O, zəriflikdən yoğrulur, duyğu və düşüncələri Azərbaycanın təbii gözəlliklərinə köklənir. "Şəlalə", "Ürək qızıl gülə bənzər", "Mənim tələbələrim", "Dağlara qalxıram", "Bağda xəzan düşüncələri", "Ömrümdə Kür çayını bu rəngdə görməmişdim" (1962) və başqa təbiət şeirləri eyni zamanda şair idealı üçün öyrənmək, görüb-götürməkdir:

*Süzülür qar suyu qarın altından,*
*Dupduru, tərtəmiz o sulara bax.*
*Tərlan çolpasını qanadlandırıb*
*Yuvadan çıxaran arzulara bax.*

*("Dağlara qalxıram")*

Lirik qəhrəman zərifliyi təbiətdən öyrəndiyi kimi sərtliyi də ondan öyrənir:

*Mənəm bu dağların ilk hökmdarı,*
*Yansın ildırımlar.*
*Od tutub yansın.*
*Suya çəkmək üçün od qılıncları*
*Bulaqlar yanımda hazır dayansın.*

*("Dağlara qalxıram")*

Şairin lirik qəhrəmanı təbiət hadisələrinə estetik münasibət bildirir. Bu, əsasən, hissi idrakda, duyğu, davrayış, təsəvvür qaynağındadır. Doğrudan da, "lirik şeir insan aləminin, insan ehtirasının və fəaliyyətinin miniatür mənzərəsidir. Ən adi təsvir şeirleri, peyzaj lirikası belə menzərənin bədii inikasıdır" [62, s.13]:

*Nədir bu təlatüm, nədir bu tufan?*
*Dağlarda iğtişaş qoparan mənəm.*
*Babəki, Nəbini, qoç Koroğlunu*
*Özüylə sabaha aparan mənəm.*

*("Dağlara qalxıram")*

Lirik qəhrəmanın mənəvi-psixoloji hallarının kökü tə-

biətdədir ("Ən böyük səadət", (1964); "Dağlara qalxıram", 1965).

*Mən ki kainatla qucaqlaşmışam,*
*Deyin dağlarmıdır məni coşduran?*
*Yoxsa, mənim arzum - diləklərimdir*
*Bu qoca dağları cavanlaşdıran?*

*("Dağlara qalxıram")*

Şairin lirik qəhrəmanı bəzən təbiət gözəlliklərini mətn boyunca mənalandırma yolu ilə gedir:

*Sən şəfəqlər şairi, rənglər bəstəkarısan,*
*Fırçan büibüldür sənin, bahar nəğməkarısan*
*Gözəlliyi pozulan bu qat-qarış dünyada*
*gözəllik meyarısan*

*("Səttar Bəhlulzadəyə")*

Lirik qəhrəman, ideyaları ilə torpağın bar-bərəkəti arasında oxşarlıqlar arayır, sövti-təbii olaraq torpağı fikirlərinə tutalqa bilir:

*Nə gözəldir yağışın*
*daş-kəsəyi deşməsi.*
*Torpaq yağış təşnəsi,*
*torpaq - günəş təşnəsi!*
*Sən bir yağışdan sonra*
*göyərən güllərə bax.*
*Çinarlar göyə qalxar,*
*buludları yararaq.*

*("Mənim tələbələrim")*

Şairə, lirik qəhrəmana görə yağışların, güllərin qiyas edilmiş obrazı canlı heyatdır, insandır:

*Məsləkimin məşəli!*
*Məramımın mayağı!*
*Bu gün yağışlar yağır...*
*Yaz nəfəsli yağışlar*
*Yağışlar bu dünyaya*
*Yeni həyat bağışlar.*

*("Mənim tələbələrim")*

60-cı illərin şeirlərində lirik qəhrəman onu əhatə edən ictimai mühitdən, təbiətdən öyrənir, onun varlığı və estetik məzmunu təzadlarda müəyyənlik tapır. 70-ci illərin əsərlərində lirik qəhrəman ictimai etiraz mövqeyində durur, əksliklərdən güc alır, bərkişir, mətinləşir. O, ictimai-siyasi təzadlar içərisindən məqam və məramına doğru yol götürür. 80-ci illərin poeziyasında lirik qəhrəman milli xarakter, şəxsiyyət səviyyəsində yetkinləşir; yəni məqam və məram onu lirik-estetik qəhrəman səciyyəsindən çıxarıb milli öndər səviyyəcinə qaldırır. Buna görə də 80-ci illərin əsərləri məqam və məramın poeziyasıdır.

60-cı illərin əvvəllərindən başlayaraq Xəlil Rzanın yaradıcılığında vətəndaşlıq, vətənpərvərlik ideyaları gücləndikcə onunla hakim ideologiya, üstqurum arasında təzadlar da güclənmişdir. Mərkəzi Komitə Xəlil Rzanı "nişangaha" almış, nəzarətə götürmüşdür. Şair müsahibələrinin birində demişdir: "Lefortovo zindanı əslində mənim üçün 1969-cu ilin 3 ocaq (yanvar) günü başlanıb. Həmən gün APİ-yə, iş yerimə gələndə gördüm ki, işdən azad edilməyim haqqında əmr verilib. Anladım ki, işdən azad edilməyim... mənim fəaliyyətimi çoxdan bəri izləyən DTK-nın tələsidir. Tələbələrimə çox bağlı idim, onların hər birinin şəxsində Azərbaycanı düşdüyümüz fəlakətlərdən xilas edə biləcək qəhrəman görmək istəyirdim. Başlıca məqsədim onlara milli şüur enerjisi aşılamaqdır. DTK-ın maraqlandıran, həm də mənim bəzən tələbələri Yazarlar birliyinə, Natəvan klubuna, disputlara, yazıçılar ilə görüşə, filarmoniyaya, teatra aparmağım idi" [20].

X.Rza ona edilən haqsızlıqla əlaqədar olaraq 3 yanvar 1969-cu ildə Azərbaycan KP MK-nın katibi Cəfər Cəfərova ərizə ilə müraciət etmişdir. Həmin ərizəni olduğu kimi təqdim edirik:

"Sizə çoxdan məlumdur ki, Lenin adına APİ-nin rektoru uzun zamandan bəri MK-dan dönə-dönə, təkidlə edilən zənglərə görə, məni nəhayət, bu il yanvarın 3-də iş-

dən azad etməyə məcbur olmuşdur. Əmr məşğələlərə guya vaxtında gəlmədiyim üçün verilmişdir. Munist yoldaşlardan bir çoxu bu hadisəyə irtica və siyasi dələduzluq kimi baxırlar. Şəxsən mən özüm bu fikrə o qədər də şərik deyiləm. Görünür, müəyyən nöqsanlarım olub və bunlar sizin gözünüzdən yayınmayıb. Ancaq öz xalqım, partiyam və vicdanım qarşısında üzü ağ olmağım, on ildən bəri tələbələrimə candan bağlılığım, qarşılıqlı məhəbbətimiz, rüşvətxorlara, nadanlara, milli simasını itirmişlərə qarşı bircə santi belə güzəştə getmədən apardığımız mübarizə və bundan doğan şəxsi ləyaqət duyğusu mənə böyük qüvvət verir. Yazı-pozu ilə məşğul olduğum üçün ruhdan düşməyə əsla vaxtım yoxdur. Hər cür mənəvi, iqtisadi blokadaya dözürəm. İnanın ki, qaz pulu, işıq pulu, ev kirayəsi vermək zərurəti olmasaydı, balalarım gündəlik ruzuya, duza, çörəyə, bir atımlıq çaya möhtac olmasaydı bu gün ağız açıb sizdən iş istəməzdim, son altı ayda dözdüyüm kimi yenə dözərdim.

Mənim nöqsanlarımı yalnız təbiətimdə aramayın. Ümummilli gerilik həyatda, redaksiya və nəşriyyatlarda rast gəldiyimiz karyerizm, namərdlik, bürokratlıq, canavarcasına qənimətçilik, kommunist bileti ilə maskalanmış quldarlıq münasibətləri ilə ideallarımızın təbiəti arasındakı kəskin təzadlar qaynar təbiətli saf adamların səbr kasasını doldura bilər. İnstitutda müəllim, professor heyəti, partiya təşkilatı və tələbələrin mənə bəslədiyi etimadı qırmağa çalışmayın. Yenə dərs ilində işə başlamağım üçün günü bu gün qayğınızı əsirgəməyin. İnanın ki, mənim üçün tələbələrə dərs deməkdən böyük səadət yoxdur” (Şairin arxivindən. 3 yanvar 1969-cu il) [318].

Xəlil Rza 60-cı illərdə “Ana dili” (“Laylam mənim nərəm mənim”), “ Məftillə sarınmış yaralar” (“ Apardı sellər Saranı”), “Dəlidağ” kimi əsərlərini yazmaqla ideoloji məsələlərə bədii üsullarla müdaxilə etmiş, KP MK plenumları, Yazıçılar İttifaqı Rəyasət Heyətinin tənqid ob-

yektinə çevrilmişdir. O, dissident olmaq həddinə gəlmiş, mövqeyindən çəkinməmişdir[1]. Şairin elmi-tarixi memuarlarında (gündəliklərində) həmin hadisələr olduğu kimi ifadəsini tapmışdır. Obyektivlik naminə 7 yanvar 1963-cü ildə MK-da təşkil olunmuş görüşdən fraqmentləri olduğu kimi veririk. Görüşdə xalq yazıçısı M.Hüseyn çıxış etmişdir. O demişdir:

- Bəzi tənqidçilər həddən artıq sərt yazırlar. Əsərlə bırlikdə müəllifi də qırmaclayırlar. Yaxşı ki, Nəzərli yoldaş buradadır, elə onun yanında deyirəm. Hüseyn Abbaszadənin əsəri barədə buraxılan məqalə çox kobud idi. Düzdür, o əsəri tənqid eləmək lazımdır, ancaq elə yox. Tənqid həlim, mehriban, prinsipial olmalıdır. Tənqid gərək müəllifə kömək eləsin, onu şikəst eləməsin.

Mehdi Hüseynin bu cümlələrindən sonra Axundov yoldaşın atdığı bir replika məni tərlətdi.

V.Axundov: Əgər müəllif tənqiddən nəticə çıxarmırsa, bizim dediklərimizi saya salmırsa, Xəlil Rza kimi baş aparıb "Dəlidağ" şeirini yazırsa, öz fikrinə qoşulub, "Yaşamaq istəyirəm" povestini çap etdirirsə, onda nə olsun?

Etiraf edim ki, qabaqlar, xüsusən də keçən ilin aprel günlərində haqqımdakı tənqidlərin gücləndiyi dövrdə adımın hər dəfə çəkilməyi ürəyimdən bir tel qırardı. Qorxardım. Bu dəfə nədənsə heç bir qorxu hissi duymadım. Lakin deyəsən, alnım və gözlərimin altı tərləmişdi.

M.İbrahimov, A.Gəraybəyli, Ə.Kürçaylı həmin görüşdə çıxış etmiş, X.Rza şeirinə mənfi münasibət ifadə olunmuşdur. O da fasilə zamanı salonda V.Axundovla görüşmüş və ona söz verməsini xahiş etmişdir. Katib X.Rzanı görəndə sözü belə olmuşdur: İgidin adını eşit, üzünü görmə...

Xəlil Rzanın çıxışından: - Yoldaşlar, bir zamanlar vardı ki, - deyə sözə başladım, - burada oturanları bu divarlar sıxardı. Divarların zəhmindən insan tər tökərdi. İndi isə məclisimizdə xoş bir hava var. Bizi tənqid edirlər. Həm

---

[1] H.Ə.Əliyevm R.İbrahimbəyovun 60 illik yubileyinə həsr olunmuş tədbirdəki çaxışından. "Ədəbiyyat qəzeti", 12 fevral 1999, N 6 (3131), MTN-nin yubiley tədbirindəki rəsmi çıxışından. "Xalq qəzeti", 6 iyul 1997. N 146 (22542)

də tənqiddən qorunmaq imkanı, öz qəlbimizdəkiləri demək imkanı verirlər. Mən bu imkan üçün, salondakı təmiz hava üçün bu yeni ruhu yaradanlara təşəkkür edirəm. Siz bilirsiniz ki, "Ana dili" şeiri ilə əlaqədar olaraq, 8 aydan çoxdur ki, mənim ətrafımda tənqid davam edir. Mən bu barədə fikrimi Yazıçılar İttifaqında açıq partiya iclasında bildirmişəm. Bir daha təkrar edirəm ki, mənim nəinki "Ana dili" şeirim, habelə, digər yazılarımda, hətta söhbətlərim və hərəkətlərimdə kamala yetməmiş cəhətlər çoxdur. Mən "Ana dili" şeirinin qüsurlu çıxdığını etiraf etdim. Niyə görə belə etdim. Ona görəmi ki, özümü qorumaq üçün heç bir vasitəm yox idi? Mən deyə bilməzdimmi ki, bu şeirim hələ neçe il bundan qabaq rus dilində çıxıb. Mən deyə bilməzdimmi ki, şeiri yazanda birinci növbədə Lenin milli siyasətindən ilham almışam. Deyə bilməzdimmi ki, məndən hələ xeyli qabaq xalq şairi S.Vurğun "Yandırılan kitablar" şeirində Azərbaycan dili haqqında daha qüvvətli, daha kəsərli sözlər demişdir:

*Söylə sənmi xor baxırsan mənim ana dilimə?*
*Dahilərə süd vermişdir Azərbaycan gözəli.*
*Sənmi "türkə" "xər" deyirsən, ulusuma, elimə*
*Qoca Şərqin şöhrətidir Füzulinin qəzəli.*

Dahilərə süd vermişdir Azərbaycan gözəli! Mən bu şeiri deyə bilməzdimmi?

- Elə deyirsən ki. - Axundov yoldaşın bu replikası hamını güldürdü.

Davam etdim:

- Mən bu sözləri birinci dəfə burada deyirəm. Amma o vaxt demədim. Ona görə demədim ki, biz ana dili məsələsinə və o cümlədən, hər hansı milli məsələyə yalnız Azərbaycan xalqının mənafeyi nöqteyi-nəzərindən, yalnız Azərbaycan miqyasinda olan bir məsələ kimi baxmamalıyıq. Nəzərdən qaçırmamalıyıq ki, dünyada iki system mövcuddur və bunların arasında mənəvi mübarizə gedir. Azərbaycan şairinin ağzından çıxan hər bir sözü İran din-

ləyir, Türkiyə dinləyir, Birləşmiş Ştatlar dinləyir. Siyasi düşmənlərimiz SSRİ-nin üzərinə çirkab atmaq üçün hər cür alçaq vasitələrdən istifadə etməyə can atırlar. Onların əlinə heç bir kirli təbliğat vasitəsi verməmək üçün, məhz bunun üçün mən “Ana dili” şeiri ətrafındakı söhbətlərin mümkün qədər tez yatmasını istəyirəm. Əslində ana dili haqqında danışmaq ixtiyarını Lenin vermişdir, Lenin partiyası vermişdir. Bundan da böyük səadət olarmı ki, Azərbaycanda ana dilində istənilən qədər ali məktəb, orta məktəb, ibtidai məktəb, texnikum var. Bizim doğma dildə akademiyamız var. Siz bunu Arazdan üççə addım o yana, doğma torpağımızın böyük parçası ilə müqayisə edin. Orada İran faşistlərinin Azərbaycan dilini məhv etmək yolunda necə dəridən-qabıqdan çıxdıqlarını təsəvvür edin. Məgər mən bunları görmürəmmi? Məgər mən görmürəmmi ki, Azərbaycana dair şəhər, kənd, çay, çəmən adlarını dəyişdirənlər Acı çayı - Təlxrud, Qara çəməni - Siyahçəmən, Salması - Şahpur, Xiyovu - Şeşkinşəhr, Urmiyəni - Rizaiyyə adlandıranlar və bu təhqirlərə dözməyənləri cəzalandıranlar nə qədər qatı irqçilik qanı ilə zəhərlənmişlər” (Şairin arxivindən, 13 yanvar 1963-cü il tarixli gündəlikdən) [318].

X.Rza “Dəlidağ” şeirinə görə də tənqidin hücumlarına məruz qalmışdır. Həmin şeirə münasibətini o, MK-da belə ifadə etmişdir: “ - Fitnəkarlar “Dəlidağ” şeirini Sizə gətirmiş və pis yozmuşdur. İzn verin, həmin şeirin bəzi parçalarını oxuyum. Məqsədimi aydınlaşdırım. Şeirimi oxudum. Bu şeiri sizə təqdim edən fitnəkar mənasını yəqin belə yozur ki, Xəlil burada özünü tərənnüm edir. Tənqid şimşəklərinin, tufanlarının altında Dəlidağ kimidayandığını iddia edir. Lakin bu fikir nə qədər yoxsuldur, kiçik və miskindir. Şeirin əsl ideyası genişdir... Əgər im-perialistlər bizim vətənimizə qarşı əl qaldırmağa cəsarət etsələr, onda biz öz böyük ideallarımızın, böyük baharımızın yolunda Dəlidağ kimi vüqarla dayanacağıq. Onda

biz öz yurdumuzun ləyaqətini, şərəfini Babək, Koroğlu, Nəsimi kimi, M.Hüseynzadə kimi qoruyacağıq. Döyüşməyi və elə şərəflə ölməyi bacaracağıq" (Yenə orada, 13 yanvar 1963, s.184-185) [318].

Şairin qardaşı Məhəmməd Rza Xəlilbəyli həmin illəri xatırlayaraq yazmışdır: "1962-ci ildə böyük Sabirin 100 illik yubileyində Bakıda heykəlinin açılışı münasibətilə çıxışına görə ömrünün sonuna kimi təqib edildi (Bu da bir səbəb idi, lakin birinci deyildi - Ə.Ə.). 1969-cu ildə institut müəllimliyindən kənarlaşdırılaraq partiya qurultaylarında və plenumlarında həmişə "milli məhdudluqda", "obıvatellikdə" günahlandırılırdı. Azadlığı zərrə-zərrə, qram-qram istəmədiyi üçün əzablara, hədələrə, şantajlara məruz qaldı" [102].

Xalq yazıçısı İ.Şıxlı yazmışdır: "Bütün bunlar Xəlil Rza məsləkinin, Xəlil Rza amalının poetik ifadəsinə görədir. Bütün bunlar Xəlil Rzanı böyük poeziya yoluna gətirib çıxarmışdır. Onun estetik qənaətini dəqiqləşdirmişdir. Böyük poeziyanı mütləq və mütləq xarakter sahibləri yarada bilərlər. Böyük xarakterlər isə birdən-birə göydən düşmür, insan fitrətindəki saflığın, qüdrətin və haqsevərlik duyğusunun zaman keçdikcə cəmiyyətdə öz antipodları ilə toqquşması və təslim edilməsi sayəsində başa gəlir. Bəli, məhz təslim edilməsi!" [285, s.6].

X.Rzanın təbiətində yaranan sərtlik və etirazlar ilkin olaraq, təbiətdən ruhuna işləyir, onu düşündürürdü. Lirik qəhrəman təbiətdən öyrənə-öyrənə, görüb götürə-götürə böyüyür. "Bir dəstə çiçək" (1961), "Şəlalə kimi" (1962), "Ürək qızıl gülə bənzər" (1962) şeirlərində olduğu kimi:

*Şəlalə - dağların mərd övladıdır.*
*Qır bütün sədləri!*
*Şəlalə tək qır!*
*İldırım - buludun,*
*tufan dənizin,*

*Cəsarət - ürəyin istedadıdır!*

*("Şəlalə kimi")*

Lirik qəhrəman qürur və əzəməti də təbiət gözəlliklərindən alır ("Ən böyük səadət". "Dağlara qalxıram", "Bir dəstə çiçək", "Sonsuz qüvvət", "Çətin gün"):

*Fikrim - dağ qartalı,*
*hissim - asiman.*
*Elə bil dünyaya hökmdaram mən.*
*İstəsəm, yapışıb bir sal qayadan*
*Dağları ovcumda qaldırıram mən.*

*("Dağlara qalxıram")*

Lirik qəhrəman öz müəyyənliyini hələ ki mücərrəd, ümumi ideyaların, etirazların ifadəsində görür. Özünü axtarışdan özünütəsdiqə doğru yol götürür:

*Bu dünyaya,*
*bu xalqa verə bilsəm ömrümü,*
*Bəşər səadətində görə bilsəm ömrümü,*
*Zəhmətimlə sevinsə*
*vurulduğum məmləkət,*
*mənimçün ola bilməz*
*bundan böyük səadət!*

*("Ən böyük səadət")*

Şairin məhəbbət, qəhrəmanlıq və azadlıq ruhunun qaynağı da ata yurdu, ata ocağıdır. "Doğma ev" (1960), "Analar" (1960-61), "Mənim övladlarım" (1962), "Oğlum Təbrizə" (1964), "Anam ocaq qalayır" (1965), "Oğullar gərəkdir Azərbaycana" (1966), "Anam layla çalır" (1966), "Oyatmağa qıymaram" (1967), "Oğullarıma" (1967), "Atanın şer dəftərindən" (1968), "Yatır gül balalarım" (1968), "Üzü nurlu anam mənim" (1969), "Qollarım üstündə" (1969), "Sərvətim" (1969) "Balalarım" (1970), "Gizli iftixar", "Səadətim" (1970), "Rzam üçün", "Ata ev tikir", "Biz gəldi-gedərik, Vətən əbədi" və başqaları həmin mövzudadır. Məhəbbət, qəhrəmanlıq və azadlıq ruhunun qaynaqları 50-ci illərin şeirlərindədir

“Mənim ata yurdum, ata məskənim” (1957-58), “Ata işdən gələndə” (1958), “Zəfər çələngi” (1958), “Ata əlləri” (1959), “Sırıqlı” (1959), “Miras” (1959), “Ay ana, yanımda olaydın mənim” (1959). Nümunələrdə əsas ideya yurd sevgisi, valideyn-övlad məhəbbəti, Azərbaycana və dünyaya olan eşqdir.

“Doğma ev” şeirində (1960) “təndirinin yanar daşına belə bağlanmış” lirik qəhrəman ata ocağından atəş alır, könlü mehr-məhəbbətdən isinir, onun ürəyi daşında, torpağındadır, vətən hissinin qaynağı da oradadır. Lirik qəhrəmana görə dünyaya gedən bütün yollar öz başlanğıcını ata ocağından götürür:

*Dünyada heç səni anmayan varmı,*
*Dolansın deyirəm boynuna qollar.*
*Sənin astanandan başlanmayırmı*
*Böyük dahilərin açdığı yollar?*

*(“Doğma ev”)*

Lirik qəhrəman doğma evi tərənnüm etmir; onu ağ-qara, yaxşı-pis, xeyir-şər, sevinc-kədər “rənglərində” tapır. İctimai təzadların mənbəyini də doğma yurdda görür:

*Sən çox dinləmisən şerin səsini,*
*Nəsibin gah sevinc, gah da ah olub.*
*Sənin pəncərənin ağ pərdəsini*
*Titrədən “Şur” olub, Çahargah olub.*

*(“Doğma ev”)*

Lirik qəhrəmanın nəzərində məskunlaşdığı ev yer kürəsinə qədər böyüyür; belə “böyümə” onun azadəlik ruhundan irəli gəlir:

*Lifti hey səslənən saraylar kimi,*
*Nə olar deyilsən yüz mərtəbəli.*
*Bu yer kürəsinin özü deyilmi,*
*Sənin daş bünövrən, polad təməlin.*

*(“Doğma ev”)*

“Analar”, “Anam layla çalır”, “Anam ocaq qalayır”, “Üzü nurlu anam mənim” şeirlərində lirik qəhrəman təf-

silata varır, analar əhval-ruhiyyələrinə qədər bədiiləşdirilir (inqilabçı, vətənpərvər, azadxah anası və s.), "ata ocağında təkcə odun yox, həm də anaların od kimi yan-maları" mənalandırılır. Şair, lirik qəhrəman həmin anaları övlad istəyi ilə tərənnüm edir; "dərdlərinin atəşi soyumadığından" da mütəəssir olur. Lakin həm də "sevinci dustaq olan" belə analar "kədərindəki azadlıqdan" təskinlik tapır. Şair müqəddəs ana kədərindən, Vətən dərdindən söz açа-aça, təzadlar aləmindən öz idealına, milli azadlığına boylamr.

Lirik qəhrəmanın övladları da ata yurdundan, ata ocağından güc alır. "Oğlum Təbrizə", "Mənim övladlarım" (1962), "Oğullarıma" əsərlərində övlada ata-ana məhəbbəti təsirli, yanğılı ifadə olunur ("Yatır gül balalarım", "Oğullar gərəkdir Azərbaycana" (1966), "Oyatmağa qıymaram", "Qollarımın üstündə" (1969), "Gizli iftixar"(1970):

*Körpə qığıldayır, körpə ağlayır,*
*Ana layla deyir lap asta-asta.*
*Sanki göy Xəzəri o varaqlayır*
*Yellədir beşiyi dalğalar üstə.*

*("Oğullar gərəkdir Azərbaycana")*

*Özüm də bilmirəm sən necə gəldin?*
*Yerdənmi, göydənmi tapmışam səni.*
*Bəlkə də səni heç tale verməmiş,*
*Taleyin əlindən qapmışam səni.*

*("Oğlum Təbrizə")*

Şairin qəhrəmanı oğlundan ərənlik istəyir. "Arzusu, amalı üçün böyütdüyü övladına "səni döyüş üçün yaratmışam mən", - deyir.- Təsadüfi deyil ki, ata arzuları ruhunda tərbiyə olunmuş oğul - Təbriz Xəlilbəyli Qarabağ uğruda döyüşlərdə qəhrəmanlıqla həlak olmuş, vətənini yaşatmaq üçün şəhid zirvəsinə ucalmışdır! [Bu barədə bax: 106] Belə şeirlərində Xəlil Rza bütünlükdə özünü yaşayır, o, mənzil şəraitinin çətinliklərindən söz açır, övlad-

larından səbr, toxtaqlıq istəyir:

*Sizsiniz qaynağı hər səadətin,*
*Sevinciniz min bir, qayğınız min bir.*
*Sizinlə bir evdə yaşamaq çətin,*
*Sizsiz yaşamaqsa daha çətindir!*

*( "Oğullarıma" )*

Övladlarının gündəlik qayğılarını, onların uşaq dünyasını təsvir edən şair dünya uşaqlarının taleyini də unutmur; Vyetnam, ərəb, yapon körpələrinin dərdlərindən yazır, rahatlıq tapa bilmir. "Dünyanın o başında balalar dardadırsa, dünyanın bu başında analar yata bilməz, atalar yata bilməz" - deyir.

Vətənin keçmişi, bu günü haqqında danışanda lirik qəhrəman qoca arxeoloqla vəhdətləşir. Onların təfəkküründə - "tarixi yaddaşında yüz məmləkətdə belə daşlarda gül açan qüssələr" yaddan çıxmır; tarixi keçmiş obyektə subyektiv baxış əsasında ibrət dərslərini açıqlayır; keçmişin ifadəsində oxucu Tac-mahalı, onu yaradan memarı, talanıb Londona daşınan Vətən xəzinələrini təsəvvürünə gətirir, Vətənə məhəbbətindən məmnun qalır:

*İnsan gəldi-gedər, Vətən əbədi.*
*Vətən ömrümüzün ilk, son məbədi!*

*("Qoca arxeoloq")*

Xəlil Rza Xəzərlə, Türkanın əmək həyatı ilə bağlı mövzulardan yazanda, lirik qəhrəmanı ilə eyniləşir. "Babalar yatan yerdə", "Mən bağbanam", "İstedad, bərəkət", "Əlcəklərim", "Türkan sahillərində" və başqa şeirlərində belədir.

X.R.Ulutürk 80-ci illərin şeirlərində Türkan mövzusunu da davam etdirmiş, bu silsilədən "İlham qaynağım" (1984), "Neçin ağacları çox istəyirəm" (1985), "Türkan sağaltdı məni" (1986), "Xızır peyğəmbər kimi" (1986), "Qurumuş ağacları bağdan çıxarmaq gərək" (1986), "Bel və qələm" (1986), "Diz çökürəm qarşısında" (1986), "İnqilab ağacı" (1986), "Əbədi gəncliyin sirri" (1986), "Sən

mənə qüdrət ver" (1986), "Yazağzı" (1987) əsərləri qeyd oluna bilər. Ümumiyyətlə, "Xəlil Rza zəhmət adamlarının düzlüyünə, saflığına, mərdliyinə, qüdrətinə, böyüklüyünə çox inanır. Bu cəhətdən onlara həsr edilən şeirlər də səmimidir. Bu adamlar, qorxmaz, iradəli, sadə, işgüzar, mətin adamlardır. Şairin bu zəhmət adamlarına bəslədiyi hüsn-rəğbət hər misrada duyulur. Torpağı qayğı ilə, səbrlə, həvəslə becərən, əkən, biçən, gülüstana çevirən insanlar da onun üçün eyni derəcədə əzizdir. Odur ki, daşlı-çınqıllı, susuz bir yerdə bağ salmağı, cənnətə çevirməyi böyük hünər sayır. Bu cəhətdən "Türkanım" başlığı altında verilmiş şeirlər daha səciyyəvidir" [128].

X.R.Ulutürkün məhəbbət şeirləri sevən qəlbin mənəvi zənginliklərini, bəşəri xisləti özündə təcəssüm etdirir. Bu baxımdan onuı məhəbbəti də idealları kimi böyükdür, qüdrətlidir. Şairin məhəbbəti həm də Azərbaycan məhəbbətidir:

*"Bayatı-Şiraz" üstə*
*Ötəcəyik bu axşam*
*Duyğular dünyasında*
*İtəcəyik bu axşam.*
*Qanadlanım bu axşam,*
*Uçum səninlə birgə,*
*Bütün Azərbaycanı*
*Qucum səninlə birgə!*

X.R.Ulutürkün 80-ci illər şeirlərinin də bir qismi məhəbbətin tərənnümünə həsr olunmuşdur. Məhəbbətin, lirik duyğu və düşüncələrin yuvası da vətəndir, vətənpərvərlik və humanizmdir. Xəlil Rzanın məhəbbət lirikası bəşəri, humanist lirikadır. Onun sevgi şeirləri əsasən bir ünvandan - həyat yoldaşı Firəngiz xanımdan başlanğıc götürür. Şair həyat yoldaşını dərin məhəbbətlə sevir və eşqinə həmişə sadiq qalır. Xəlil Rzanın lirik qəhrəmanı ilə şəxsiyyəti vəhdətləşir. "X.Rzanın ictimai-siyasi məzmunlu şeirlərində kəskinlik, tribunluq hakimdirsə, lirik

şeirləri üçün incəlik, zeriflik, məhəbbət, gözəllik qayğıları səciyyəvidir. “Bir gözlə yüz şer” bölməsində “Səslə məni”, “Sən məhəbbət yolçususan”, “Neçin çəkinərsən”, “Gözəlsən”, “Gözdən öpmə, ayrılıqdır”, “Üzümü danlama...”, “Ömürdən uzun gecələr”, “Unudulmaz o gecə” və s. şeirlərdə incə məhəbbət duyğuları, gözəlliyə vurğunluq, diqqət, qayğı, həssaslıq kimi insanın mənəvi zənginlikləri və ləyaqəti tərənnüm olunur” [103].

X.R.Ulutürk valideyn-övlad məhəbbətindən yazanda da 80-ci illərin şeirlərində bütün bunların yeni çalarları görünür. Yəni X.R.Ulutürk ümumən məhəbbətində sakitlik, dinclik aramır, özünə tufan ömrü arzulayır:

*Sən oğluna rahatlıq, dinclik arzulayırsan,*
*Tufan nəbzi arzula!*
*Mənəsə dağları yıxmaq əzmi arzula,*
*Namərdlərin içindən alnıaçıq, üzüağ*
*çıxmaq əzmi arzula!*
*Dinclik arzulayırsan, mənim dincliyim özgə...*
*(“Gül yastıq”)*

“Yorulmaz” (1985), “Son mənim səsimi eşidirmisən?” (1985), “Ayrılıq türküsü” (1985), “Türkay balama laylay” (1987) və başqa şeirlərdə də şair milli idealından, azad Vətən və onun layiqli vətəndaşı olmaq, ona şərəflə xidmət etmək amalından danışır.

Sənətkarın müharibəyə bədii münasibəti 50-ci illərin axırlarından başlamışdır. “Nə gözəl yerləri qorumuşdur o” (1958), “Sizin mavzoleyiniz” (1958), “Hayıf, ata, sən görmədin” (1958), “Mən dava görməmişəm” (1967), “Atanın şer dəftərindən” (1968), “Ən qiymətli əklil” (1969) əsərləri döyüşçü ataya xatirat kimi yazılmışdır. Bu əsərlərdə süjetli, epik təsvir və təəssürat üstünlük təşkil edir. Müharibə hadisələri lirik qəhrəmanın atasına, onun döyüşlərinə münasibəti əsasında açılır. “Mən dava görməmişəm” (1967) şeirində müharibənin törətdiyi çətin gün-güzəran, qocaların, gəlinlərin ağır iş şəraiti, ataların

doyüş anları, dövrün dərdli yaşantıları xatırlama üsulu ilə oxucuya çatdırılır. “Atanın şer dəftərindən” alınan epik təəssürat genişdir, təsvirlər döyüş səhnələri haqqında əyanilik yaradır. Poçtalyon Krasnodondan bir məktub gətirmiş, içərisindən saralmış bir dəftər çıxmışdır. Ata oğluna müharibənin başlandığından, “gözəl günlərin üzərinə kölgə düşdüyündən”, oğlunun onu döyüşə yola saldığından yazır: Oğul da ataya məktublar yazır. Birdən məktubların arası kəsilir. Məlum olur ki, oğul ölmüşdür. Bütün bunlan şairə cəbhə yolu keçmiş bir qoca - şaxtaçı danışır və şair bunu şeir şəklində əks etdirir və belə süjet xətti O.Sarıvəllinin “Qocanın nağılları” poemasını xatırladır.

60-cı illərin lirik şeirləri sırasında “Mən torpağam” (R.Rza), “Ana torpaq” (M.Araz), “Yerdədir” (B.Vahabzadə), “Torpaq eşqi” (H.Arif), “Yaralı torpaq” (M.Dilbazi) seçilir. Bu illərdə X.Rza isə “Aç qoynunu, ana torpaq” (1968), “Babalar yatan yerdə” (1969), “Daşın ətri” (1969), “Mən bağbanam”, “İstedad, bərəkət” (1970), “Ana torpaq”, “Torpaqla həmnəfəs yaşayıram mən”, “Torpaq” şeirlərini yazmışdır. “Elə bil bu şeirlər bir doğulub və həmişə gördüyümüz naqisliklərlə, ədalətsizliklərlə vuruşmaq üçün birgə “döyüş meydanına” atılıblar” [94, № 10, s.184]. “Aç qoynunu, ana torpaq”, “Sonsuz qüvvət”, “Gürcü torpağı”, “Ana torpaq”, “Torpaq” əsərləri torpağa müraciətlə yazılmışdır.

X.R.Ulutürk poeziyasında sovet quruluşunun birbaşa tərənnümü demək olar ki, yoxdur. “Fişənglər atılanda” (1950-1960), “Böyük günlər bayrağı” (1953), “Mənim günəşim” (1962), “Bəşəriyyət və Lenin” (1963), “Lenin və bahar” (1967), “Yaşa, mənim partiyam”, “Yestakaya partiya” (1954-64), “Ucal, yüksəl, respublikam” şeirlərini nəzərə almasaq, o, bilavasitə, sovet həyat tərzini idealizə etməmişdir. Çünki X.R.Ulutürk həmişə müsbət olanda belə onun mənfi tərəflərindən obyektə diqqət yetirmiş,

siyasi gerçəkliyə müxalif olmuşdur. Şairin etiraz və narazılıqları onu hər şeyə tənqidi surətdə yanaşmaya vadar etmişdir. Həm də buna görə şeirlərin üslubi xüsusiyyətləri başqalarından fərqlənmişdir. X.Rzada tərənnüm pafosu azlıq təşkil edir. Şairin yaradıcılıq fərdiyyəti daha çox mənfiliklərə etiraz əsasında estetik idealı canlandırır. Bu səbəbdən onun 70-ci illər poeziyasında, əsasən, təzadların rəngarəngliyi, mövzu zənginliyi, adi hadisələrin poetik dünyasından həyata baxış tədricən yığılır, ideya-bədii mətn-struktur, mənəvi-psixoloji təzad və məqamları öz içinə alır. 60-cı illərin poeziyasında lirik qəhrəman mövzu və mündəricə baxımından daha duyumlu görünürsə, 70-ci illər poeziyasında lirik qəhrəman mənəvi-psixoloji müəyyənlikdən milli həyata və dünyaya nüfuz edir. Tənqidçi Y.Qarayevin qeyd etdiyi kimi, "fərdin mənəvi-əxlaqi mövqeyində ictimai fəallığın güclənməsi, real, gerçək humanizm problemlərinə azalmayan maraq, insan, zaman və xalq fərdi, şəxsi cavabdehlik və borc mövzusu -ilin poeziya məhsulunun vətəndaşlıq məzmunu üçün məhz bu əlamətlər çox səciyyəvidir. Özü də vətəndaşlıq, cavabdehlik duyğusunu şeir ayrılıqda, hər kəs, hər fərdiyyət qarşısında mənəvi məsuliyyət kimi konkretləşdirir və predmetləşdirir. Konkretləşmə və fərdiləşmə lirik "Mən"in öz məzmununda da baş verir: indi şeir ən ümumi, ictimai problemlər haqqında da "hamının", "biz"in adından yox, bilavasitə "Mən"in, "Öz"ün adından daha tez-tez danışmağa başlayır. Lakin bu, poeziyada bədii-fəlsəfi aspektin vüsət və miqyas ölçülərinin daralması kimi başa düşülməməlidir. Əksinə, konkret fərdilik və millilik, mənəvi tamlıq və bütövlük axtarışlarında, lirik "Mən", hər şeydən əvvəl, yaşadığı dünya ilə əlaqələrinin, zamanla, tarixlə ünsiyyətinin sərhədlərini böyütməyə çalışır"[117, s.32].

"Yeni zirvələrə" (1971), "Ucalıq" (1973), "Doğmalıq" (1977) kitabları 70-ci illərdə çap olunmuşdur. Bu il-

lərin əsərləri ideya-məzmun tutumu və bədii xüsusiyyətləri ilə daha kamil, müdrik nümunələrdir. Obyektiv hadisələri mənalandırma, onlara bədii qiymət və dəyər vermək meyarı, obyektə fəlsəfi, idraki və didaktik baxış 70-ci illər poeziyası üçün xarakterikdir. Bu baxımdan 70-ci illərin "Dünya" (B.Vahabzadə), "Hüseyn Cavid" (N.Həsənzadə), "Müdriklik" (M.Dilbazi), "Azərbaycan - dünyam mənim" (M.Araz), "Yaddaş" (F.Qoca), "Kök və budaq" (H.Arif) kimi ədəbi nümunələrində fəlsəfi dəyərləndirmə və məntiqi mühakimə təhlili bədii xüsusiyyətlərdəndir. X.R.Ulutürk lirik-epik üslubu ilə tarixin, zamanın hadisələrinə diqqət kəsilir, onları lirik-psixoloji və analitik olaraq çözməyə xüsusi səy edir.

Xəlil Rzanın beynəlmiləl əlaqələrə münasibətinin kökləri də 70-ci illərin poeziyasındadır. "Şairlərimiz bir çox şeir və poemaları ilə qardaş respublikamızın həyatı ilə də oxucularını tanış etməyə ciddi səy göstərmişlər. Başqa sözlə desək, şeirin coğrafi mühiti genişlənmiş, onda Rusiya, Ukrayna, Gürcüstan, Özbəkistan, Türkmənistan, Dağıstan, Kabarda-Balkar, Latviya, Litva, Eston həyatı mövzuları da xüsusi bir mövzu - qardaş xalqlar həyatı mövzusu, arzusu, əməli bir olan xalqların həyatı mövzusu kimi mühüm yer tutmuşdur" [33, s.127]. Azərbaycan - özbək ədəbi əlaqələri hər şeydən əvvəl X.R.Ulutürkün elmi-tədqiqat axtarışlarının predmetindən, ədəbi əlaqələrin qaynaqlarından doğmuşdur. Bu problemin öyrənilməsi ilə bağlı olaraq filologiya elmləri doktoru, prof. C.Nağıyeva "Azərbaycanda Nəvai" mövzusunda monoqrafiya çap etdirmişdir [145], filologiya elmləri doktoru X.R.Ulutürk isə, repressiya illərində Azərbaycandan Özbəkistana sürgün edilmiş görkəmli ədəbiyyatşünas, şair-dramaturq və ictimai xadim Məqsud Şeyxzadənin həyat və yaradıcılığından bəhs edən dissertasiya yazmışdır [203].

"İki mütəfəkkir sənətkar milli ədəbiyyatların vətən-

daşlıq, vətənpərvərlik və qəhrəmanlıq qayələri ilə boy atmış, tərbiyə olunmuş və bu amalın keşiyində zəka yandırmış, can qoymuşdur. X.R.Ulutürkün arxivi ilə yaxından tanışlıq bizə imkan verir deyək ki, o, ömrünün 15 ildən çoxunu Azərbaycan-Özbəkistan mədəni əlaqələrinə həsr etmişdir. Həm elmi axtarışlar, həm də tərcüməçilik fəaliyyəti Xəlil Rza Ulutürkü Özbəkistanla möhkəm bağla-mışdır. 0, 1969-cu ildən başlayaraq şairin həyat yoldaşı Səkinə xanımla ardıcıl əlaqə saxlamış, Şeyxzadə arxivi ilə yaxından tanış olmuş, özü də özbək dilini mükəmməl öyrənmişdir. Xəlil Rzanın şəxsi arxivindən öyrənirik ki, onun M.Şeyxzadə haqqında elmi-tarixi memuarların (1969-70-ci illər), monoqrafiya və çoxlu ədəbi-tənqidi məqaləsi, habelə, poeziyasının tərcüməsi ilə bağlı hələ çap olunmamış əlyazma qovluqları, çoxsaylı araşdırmaları vardır. Bu baxımdan "Türküstan divanı" poeması, "Cəlaləddin Mənquberdi", "Mirzə Uluğbəy" pyesləri dilimizə çevrilerək, arxivində saxlanılmaqdadır. "Özbəkistan poeziyası" adlı əlyazma qovluğunda M.Şeyxzadənin lirik şeirlərinin tərcüməsinə üstünlük verilmişdir. "Şeyxzadə dəftəri" qovluğu bütünlüklə Azərbaycan dilinə tərcümə olunmuşdur. Xəlil Rza Ulutürk özbək şeiri antologiyasını tərtib etmiş, burada da M.Şeyxzadə əsərlərinə geniş yer vermişdir. Təəssüf ki, tərtib etdiyi həmin toplumları sağlığında çap etdirə bilməmişdi" [83 , s.5].

X.R.Ulutürkün ictimai etirazları konkret və aydın bədii ifadəsini 70-ci illərin əsərlərində göstərir. Doğrudur, şair ictimai etiraz motivlərini əvvəlki əsərlərində də ifadə etmişdir. Onlarda həmin motivlər mətləbdən-mətləbə, sətiraltı, mətnarası olmuşdur. 70-ci illərin əsərlərində ictimai etirazlar mövcud mühit və şəraitə, insanlar arasında hökm sürən mənəvi-psixoloji, ictimai-siyasi haqsızlıqlara, nəhayət, beynəlxalq şovinizmə, istismara, müstəmləkəçiliyə, imperiyaçılığa qarşıdır. Xəlil Rza ona görə etiraz etmişdir ki, "insan yaşadığı cəmiyyətdə hər cür təzyiqdən

azad olmalıdır. Cəmiyyət bərabərlik əsasında qurulmalıdır. Orada bütün insanlar məsud yaşamalıdır. Ancaq azad cəmiyyət özü azad insan problemini həll edə bilər. Cəmiyyətdəki bütün qanunlar insanın ləyaqətini yüksəltməyə həsr olunmalıdır".

X.R.Ulutürkün ictimai etirazları ilk əvvəl özünə münasibətdən başlanğıc götürür ("İlham", "Səməndər quşu kimi"):

*Təmizlik uğrunda vuruşlardayıq,*
*Mətanət gündəlik işdə yoxlanır,*
*Dünyanın hüsnündə bircə ləkəyə*
*Sənətkar dözürsə, sənət oxlanır.*

*("İlham")*

İctimai etirazların ifadəsi özünüetirafdan, özünütəsdiqdən başlayır. Lirik qəhrəmanın dönməzliyi, qətiyyəti, andı-etiqadı, aydın və kəskindir ("And içirəm" (1974), "Qarşıdadır" (1979), "Silkələnmə (1975):

*...Döyüşüm qəbrədək davam edəcək,*
*Sevindirmək üçün yurdu, bəşəri*
*Dəmiri doğrayan polad qayçıtək*
*Mənim hər addımım kəsəcək şəri.*

*("And içirəm")*

X.R.Ulutürkün ictimai etirazlarının psixoloji səbəblərindən biri ictimai etinasızlıq, ətalət və biganəlikdir. "Heç ola bilməz ki..." şeirində şair yazır:

*Heç ola bilməz ki, dəniz qəlbinin*
*Az qala sonuncu damlasını da*
*Verəsən hər kəsə: yaxına, yada,*
*...Ancaq bərk ayaqda, çətin zamanda,*
*Qanadın yananda, qolun yananda*
*Kənardan baxalar tüstünə sənin,*
*Barı bircə gülün şeh payı qədər*
*Su tökən olmaya üstünə sənin.*
*Çırpasan özünü dağa, daşa sən.*
*Yüz minlər içində yalqızlaşasan.*

Şair satira, tənqid yolu ilə gedəndə Sabir ənənələrinə üz tutur. Yəni tənqid obyektini nəticə etibarilə özünün arzu və idealları ilə üzvi surətdə birləşdirir. Ə.Mirəhmədov Sabirin ictimai ideallarından danışanda onun üç cür ifadə üsulunu qeyd etmişdi: "Bir qism əsərlərdə ideal mənfiliklərin ifşa və inkarı yolu ilə, yəni dolayı yolla verilir, şairin satiralarının çoxu buraya daxildir. İkinci qism əsərlərdə isə bilavasitə idealın özü bədii surətlərdə tərənnüm edilir. Buraya cəmisi bir neçə lirik şeir daxildir. Üçüncü qism əsərlərdə tənqidi, satirik ünsürlər müəllifin arzu və idealını ifadə edən lirik ünsürlərlə birləşdirilir" [138, II c, s.670]. Müasir poeziyada üslubca daha çox üçüncü qism şeirlərin ənənələri davam etdirilməkdədir. X.R.Ulutürk poeziyasında da tənqidi, satirik ünsürlər, mənfiliklər şairin arzu və idealları ilə üzvi surətdə əlaqələndirilir. M.Ə.Sabir satirik bədii dili, təhkiyəni, əsasən, birinci, az hallarda ikinci şəxsə müraciətlə bağlayırdı. X.R.Ulutürkdə isə həmin bədii dil və təhkiyə, əsasən, ikinci şəxslə, az hallarda üçüncü şəxslə bağlıdır:

*Çıxart papağını, tax ləçəyini,*
*Ər, qadın yerini bəzən dəyişir.*
*Onsuz da itirib kişiliyini*
*Qadın hesabına yaşayan kişi.*

*("İşsiz kişilər")*

*Qoltuqlara qısıldıqca bilmədi ki, azır, çaşır,*
*Nakişiyə yaxınlaşan kişilərdən uzaqlasır.*
*Güzəşt etdi bir ilana, əfv elədi əfiliyi,*
*Ürəyini basıb yedi qorxaqlığı, əfəlliyi.*

*("Düşüncələr")*

İnsanın rüşvət və stol naminə xislətindən uzaqlaşıb, yaltaq, müti, yalançı, olması şairin (lirik qəhrəmanın) ciddi etirazlarına səbəb olur ("Minsifət" (1979); "Məsləklə yaşayanda", "Sən hansı cəbhədənsən" (1979):

*Həzər, min həzər sənin*
*səhər iş stolunun ardına keçməyindən,*

*Gözlüklü ilanlara*
*yaraşan çeşməyindən.*
*Kim dayanıb dalında,*
*xəbərdaram, xəbərdar:*
*Səni düşünən başa*
*toppuz kimi vuranlar.*
*Kimdir səni yemləyən,*
*xəbərdaram, xəbərdar:*
*Səni düz yolumuzda*
*tələ kimi quranlar.*
*Kimlər fitləyir səni,*
*xəbərdaram, xəbərdar:*
*Səni tüpürcək kimi*
*Təmiz, pak insanların*
*arxasınca atanlar!*
*Sən ey nifrətə belə*
*layiq olmayan xilqət!*
*Sahibinin əlində*
*küt alətsən, küt alət!*

*("Minsifət")*

X.R.Ulutürkün tənqid hədəfinin təfərrüatlı təsvirinə, real və təfsilatlı baxım xüsusiyyətinə "Nökər" (1974), "Düşüncələr" (1978) əsərində daha konkret diqqət yetirilmişdir:

*Şöhrətə mübtəla, sərvətə əsir,*
*Başı qan çanağı, əlləri bıçaq.*
*Özündən kiçiyi həmişə əzir,*
*Özündən böyüyə yalmanan alçaq.*

*("Nökər")*

Şair tənqid obyekti ilə sadəcə üz-üzə durmur, o, həm də etirazlarını bildirə-bildirə ona yol göstərir, mühakimələr edir. Həm göstərmə - əks etdirmə, həm də müdaxilə və münasibət əsasında həyat, ömür, yaşayış haqqında daxili dialoqlara, düşüncələrə dalır ("Düşüncələr", "Gözəl yaşamaq" əsərlərində olduğu kimi):

*Gözəl yaşamağın tapsan yolunu,*
*Birdən duyacaqsan: misilsiz, təksən.*
*Ayağın altında qızıl külçəsi,*
*Yanmda qəhrəman kəşf edəcəksən.*
*("Gözəl yaşamaq")*

*Haqsızlığa göz yumanlar öz gözünü oğurlayır,*
*Zaval görüb lal olanlar öz səsini oğurlayır.*
*Mübarizə meydanından kim sivişib yayınırsa,*
*Yavaş-yavaş bu dünyadan öz sözünü oğurlayır.*
*("Düşüncələr")*

Şairin, lirik qəhrəmanın ictimai etirazları asan başa gəlmir; ictimai etirazlar gücləndikcə ona qarşı müqavimət də artır:

*Namərdlərin qarşısında*
*dağlar kimi durmaq gərək!*
*Bu dünyada ən çətin iş – saf yaşamaq,*
*mərd yaşamaq!*
*Bəzən şərəf bayrağım*
*tək daşımaq!*
*Qara bir əl evimizdən*
*Ağ günləri almaq istər.*
*Bu kainat komamıza*
*qəm kölgəsi salmaq istər.*
*Soruş kimdir?*
*üzü bozlar,*
*Yarımdüşmən, yarımdostlar.*
*İnsanların gör nə qədər*
*növləri var.*
*Ən iyrənci simasızlar...*
*("Mənim polad körpülərim")*

Lirik qəhrəman öyrədir ki, həyat müqavimətləri nə qədər çoxalırsa, insan öz etirazlarında bir o qədər səbrli, qətiyyətli və mübariz olur ("Sarsılma", "Sənin qüdrətin" (1977) şeirlərində olduğu kimi):

*Bəs sən nə bilmisən? Qaymaqmı həyat?*
*Zahıya verilən quymaqmı həyat?*
*Burda ildırım da, sıldırım da var,*
*Həyata yaraşır sarsılmayanlar.*
*Bəs sən nə bilirdin, elə bilirdin,*
*Həyat şərbəl dolu qızıl kuzədir?*
*Xeyr. Bambaşqadır onun düsturu*
*Beşikdən qəbrəcən mübarizədir!*

*("Sarsılma")*

X.R.Ulutürkün ictimai etirazları gah lirik təhkiyədə, gah da lirik-patetik, lirik-publisistik intonasiyada ifadə olunur. Belə müxtəliflik təbii olaraq, lirik qəhrəmanın gah narahat, çılğın, gah da müdrik, sakit təbiətindən irəli gəlir. O, etirazlarında həmcinsinə nifrətlə yanaşmır, ona etiraz etməklə, əslində öz məmnunluğunu, rəğbət və şəfqətini ifadə edir. O, insaniyyətliyi təbliğ və tərbiyə etməklə bəşəri ləyaqəti, məhəbbəti düşünür:

*Üz-üzə durmuşuq. Görək kim kimi?*
*Hədəf bir. Məqsədlər başqadır lakin.*
*Mənim silahımdır sənə məhəbbət,*
*Sənin silahınsa yırtıcı bir kin.*

*("Üz-üzə durmuşuq")*

Lirik qəhrəman haqsızlığa, ədalətsizliyə, ləyaqətsizliyə etiraz edəndə də mənən yetkinləşir, kamala, səbata dolur:

*Nadanı, nakəsi başda görəndə*
*Əsla sustalmasın əlin, ayağın.*
*Bir az da ucalsın dumanda, çəndə*
*Sənin qüdrət dağın, ləyaqət dağın!*

*("Sənin qüdrətin")*

Şairin, lirik qəhrəmanın tənqid hədəfləri kimlərdir: "minsifətli insanlar", "yüzünə yalmanan savadlı nökərlər", "vəzifə başında dahiləşənlər", "bircə üskük şöhrət üçün sinov gedən, yerikləyən, ayaq öpən, vəzifəni gözlərinə təpənlər", "qorxaqlığı, əfəlüyi ürəyini basıb yeyən-

lər", "xəsislər, dargözlər", "başda görünən nakəslər, nadanlar", "kişiliyini itirib qadın hesabına yaşayanlar", orda-burda girlənən "millət mücahidləri" və başqaları. Akad. B.Nəbiyev yazır: "Xalq səadətinə biganələr, simasızlar, böyük ideallardan uzaq düşənlər ... Xəlil Rza poeziyasının başlıca qəzəb və ifşa obyektidir:

*Ziyasız "ziyalı" necə yazıqdı,*
*Sənətsiz "sənətkar" - yazda yağan qar.*
*Axırına çıxdı, evini yıxdı.*
*Aldı sağlığını saxta sağlıqlar.*

*Ürəksiz, beyinsiz qafillər xumar,*
*Hay salan, küy salan necə bifərdi*
*Tərif kölgəsində daldalananlar*
Ön cəbhədən qaçan fərarilərdi. {146, s. 7} Lirik qəhrəman antipodları, obıvatelləri güclü kinayə və sarkazmla, tənqid və ifşa pafosu ilə damğalayır. O, tənqid hədəflərini təkcə öz mövqeyi ilə deyil, başqa subyektlərin vasitəsilə də ifşa edir, ictimai yaramazlıqlar həm də onların öz dili ilə verilir:

*Orda-burda girlənir millət mücahidləri,*
*Əslində sağalmayan illət mücahidləri.*
*Biri deyir: - Daldayıq. Gör nə qədərdi nadan.*
*Biri deyir; - Seçmir el hələ ağı qaradan,*
*Biri deyir: - Çoxdur qurd, azdı quran, yaradan.*
*("Millət mücahidləri")*

X.R.Ulutürk doğma ana dilinə, millətin ərazi-mənəvi birliyinə xor baxanlara, İran, rus şovinizminin "ayır-buyur" siyasətlərinə qarşı kəskin mövqedə dayanır, vətənpərvər şair missiyasını güclü ifadə edir ("Laylam mənim, nərəm mənim (1961-79), "Xiyabani yurdunda" (1975), "Yaxşı ki bu yurdun balasıyam mən" (1978), "Mən -Azərbaycanam" (1979):

*XX əsrdə*
*qovuşurkən insanlıq*
*hər arzuya, mətləbə,*
*Nəsimisi dünyaya*
*sığışmayan millәti*
*Kimlərdi həsrət qoyan*
*barı dördcə sinifli*
*ana dilli məktəbə?!*
*Yad məktəbə verilir*
*umudumun qalası –*
*O qaraqaş, qaragöz*
*Azərbaycan balası...*

*( "Xiyabani yurdunda")*

Lirik qəhrəman yalnız milli həyatın yaramazlıqlarına qarşı deyil, o, ümumən bəşəriyyəti narahat edən mətləblər haqqında düşünür, Afrika, Asiya və Avropanın müstəmləkəçilik həyatından ciddi narahat olur:

*Məngənədə sıxılır*
*neçə yurd, neçə ölkə,*
*Əlli milyonluq bəşər*
*həlolik müstəmləkə.*
*Bu kor, bu kar, bu çopur,*
*eybəcər müstəmləkə*
*Bütün ərz üçün ləkə,*
*bütün əsr üçün ləkə.*
*Qırdı qandallarını*
*qara pələng - Afrika.*
*Fəqət didir bağrını*
*hələ nifaq, təfriqə.*

*("Mən bu gecə oyağam")*

Şair yazır: "İmperializm can verir, dağılır. Son çağlaradək siyasi meydanda izi-tozu da qalmayan kiçik millətlər milli istiqlal qazanır! Ümumbəşəri tarixi hadisələrdə daha qızğın iştirak etməyə başlayırlar. Bu işdə ölkəmizin maddi və mənəvi yardımı başlıca rol oynayır. Digər tə-

rəfdən ölkəmizin içərisində gedən öncül proseslər, onların dərin fəlsəfi mənası sənətimizdə fəlsəfi dərinliyin güclənməsinə, həyata dialektik baxışın artmasına yol açır. Bir sözlə, sənət və həyat problemi mürəkkəb, çalpaşıq, ciddi bədii axtarışlar tələb edir. Dövrün mahiyyətini bədii biçimdə dərk etmək və tərənnüm etmək üçün artıq üzəvari biliklə yetinmək olmaz. Burada güclü analitik təfəkkür ilə bədii ehtiras, fəlsəfi genişlik ilə poetik konkretlik birləşməlidir" (Şairin arxivindən. Xəlil Rza Od. Bakı, 9 noyabr 1971) [290].

X.R.Ulutürkün ictimai etirazları əsərlərindəki lirik-publisistik təhkiyədə, kainat, dünya, ölkə, milli heyat, insanın daxili aləminin psixoloji-mənəvi təhlilində üzə çıxır ("İrəli", "Qorxu", "Tikan", "Səməndər quşu kimi", "Ata borcu", "Hava kimi, su kimi", "And içirəm", "Xiyabani yurdunda" və başqaları).

60-cı iliərin axırları 70-ci illərin əvvəllərindən başlayaraq Xəlil Rza yaradıcılığında fəlsəfi-etik məzmun konkret şəkil almağa başlamış, vaxt keçdikcə güclənmişdir. Fəlsəfi düşüncələr mücərrəd, xəyali deyil, həyati zəminə, realizmə əsaslanmışdır.

Şairə görə ruhun fəlsəfəsi belədir ki, o, insam kamala dolmağa, özünüdərkə çağırır. İnsanın böyüklüyü, ululuğu, imrəliyi də lirik qəhrəmanın fikirlərində, təxəyyülündə yer tutur:

*Burax, bu fəlsəfə səni sıxmasın!*
*Görünür, tükənir cismin növbəsi.*
*Təki bu dünyada əldən çıxmasın*
*Ruhun, təfəkkürün çiçəklənməsi!*

*("İki fəslin ayrıcında")*

Xəlil Rzanın lirik qəhrəmanı islam ehkamlarından, doqmalardan fərqli olaraq, səbrşükranlıqla deyil, mübarizə fəlsəfəsi ilə yaşayır. O özündə Yunus Əmrə ömrü, Mərifət və Həqiqət elmi yaşadır:

*Yazıq qalacaqsan həyatın boyu,*
*Rütbə qoltuğuna qısılan qorxaq!*
*Çün mərifət meyi, dirilik suyu,*
*Cəsurluq kişiyə verilir ancaq.*

*("Sükan dalındayam")*

X.R.Ulutürkün fikir dünyasında mey Xəyyam fəlsəfəsində olduğu kimidir: yəni mey dünyanı, Allahı, ideal başlanğıcı dərk etmək vasitəsidir, rəmzdir, işarədir. Bu, dünyaya aludə olanlar üçün ruhi qida deyil, xıltdır: Dünyanı dördəlli qamarlayanlar Bir gün ayılsa da, gec anlayacaq: Taleyin onlara tulladığı pay Mey deyil, bulaşıq xılt imiş ancaq!

*("Sükan dalındayam")*

İnsan fəlsəfəsində fikir və qəib azadlığı milli azadlığa gedilən yol, mənəvi-ruhi təkandır ("Sükan arxasında", "Ömrüm"):

*Fikir azadlığı, qəlb azadlığı*
*Olmayan anlarmı səadət nədir?*
*Mən içdim günəşi səma camında,*
*Tamarzı qəlblərdən qara qan gedir.*

*("Sükan arxasında")*

Birincilər şeirində Füzuli, Üzeyir milli yaddaşın, mənəviyyatın mənbəyi kimi təqdim olunur: muğamla hikmət, fəlsəfə çulğaşır, İnsanın həyat eşqini artırır:

*Axşam dinləyən zaman muğamat əsrarını,*
*Mən dumanlar içində seyrə daldım onları –*
*Füzuli sətri kimi, Üzeyir xətti kimi*
*Dərinliyə kök atmış ömürlük sütunları.*

*("Birincilər")*

İctimai-fəlsəfi, etik-estetik düşüncələrin ifadəsi baxımından "İgidlər, dahilər" şeiri xarakterikdir. B.Vahabzadə yazmışdır: "Qəhrəmanların və yaradıcı idrak sahiblərinin ölümdən güclü olması ideyası bu şeirdə çox sərrast ifadəsini tapmışdır:

*Dahilər torpağa Ölü kimi yox,*
*Bəlkə basdırılır xəzinə kimi.*

Şeirin hər bəndi bu fikri genişləndirir, dərinləşdirir:

*Qədim Şıx düzündə ayaq saxla, dur,*
*Ölməz sənətkarı yada sal bir an*
*Ölüm elə bil ki, qurd oğlu qurddur.*
*Qorxur dahilərin göz işığından!*

Dahilər dünyaya idrak işığı saçır, bu işıq qurd təbiətliləri qorxudur. Şeirdə həll edilən ikinci məsələ böyük şəxsiyyətlərin Vətən ləyaqətini təmsil etməsidir. Tariximizdə VII əsr Babəkin, XII əsr Xaqani və Nizami, XIV əsr Nəsiminin adı ilə şöhrətlənməyibmi?

*Nəsimi alnında qanlı bir qürur*
*Baxır kainata öz dan yerindən.*
*On dördüncü əsr yıxılır, durur,*
*Tutur o ustadın ətəklərindən.*

Bu, böyük bədii ümumiləşdirmədir, yüksək poeziyadır, əsl şeir örnəyidir" [310, s.4-5].

"İgidlər, dahilər" S.Vurğunun "Unudulmuş tək məzar" şeiri ruhundadır. Xəlil Rza qəbiristanı seyrə dalmışdır. Şairin fəlsəfi-əxlaqi düşüncələri hərəkətə gəlmişdir. Sənətkar ölümsüzlüyün, əbədiyyətin yolları haqqında düşünür:

*Gedən yer üzünə bir daha gəlmir.*
*Həyatdan hamını qoparır ölüm.*
*Yalnız dahilərə toxuna bilmir.*
*Yalnız igidlərə toxuna bilmir!*

Şair varlığı adi olmaqdan qorxur. Çünki adilikdə ölüm var, həyat yoxdur. Şair mənalandırır ki, hər bir vəhdətdə əkslik var, işıq qaranlığa, xeyir şərə, yaxşı pisə qarşı mübarizədədir. Dahilər işığın, cırlar və xəbislər qaranlığın timsalıdır. İşığın güclənməsi qaranlığın yığılması, çəkilməsidir. Buna görə də:

*Olüm elə bil ki, qurd oğlu qurddur,*
*Qorxur dahiiərin göz işığından, - deyir.*

Əsərdə fəlsəfi mənalandırma genişdir: “Daşlar parçalanıb, sınıb, ovulub, Ciyərlər dağlayan hönkürtülərlə. Dodaqla öpülüb, gözlə öpülüb, Ağaclar göyərib həsrət yerinə”. Şairə görə dünyəvilik, daimi yaşantı hər kəsin öz əlindədir. Yalnız öz fəaliyyəti, xidmətləri onu yaşada bilər: “Ölən öz-özünü yaşatmayırsa, onu heç bir qüvvə yaşada bilmir”. Yer, torpaq var ki, dərd, qubar gətirir. Yer də, torpaq da var ki, şöhrətə dönür! Bu şöhrət torpağa düşən məzarlara görədir; məzar var mamır, yosun basır, məzar da var... Nizami, Sabir torpağın qoynunda xəzinə olub! Şairin gəldiyi fəlsəfi qənaət belədir: “Tarix ölməzləri yetirənlərin göstərdiyi yolla gedib... gedəcəkdir”.

“Cahana sığmayan şair” Nəsiminin yubileyi münasibətilə yazılmışdır. Fəlsəfi qənaət budur ki, dünya sədəfdirsə, insan onun gövhəridir. O, insan kimi yaşayanda, kamilləşəndə Tanrıya yaxınlaşır. Dünya yalnız ruh, ağıl və hikməti olanındır. “Sultanlara qalmadı yox, Nəsimiyə qaldı Dünya!”

“Kentavr” kimi şeirlərdə başlıca fəlsəfi qənaət “Cahana sığmayan şair” şeirinin davamıdır: dünyanın cövhərində, fitrətində işıq dayanır. Yalnız ağıl və idrakın işığı insanı kamilləşdirə, Tanrıya yaxınlaşdıra bilər!

“Düzlük” əxlaqi-estetik dəyərlərlə aşılanmış şeirdir. İnsan ömrünün mənəvi-əxlaqi dəyərləri ülviləşdirilir. Həmin ülviyyətin daşıyıcısı lirik qəhrəmandır. O özü ilə dünya arasında bağlar arayır, əzəmət və vüqarını təcəssüm etdirmək üçün tapıntılara cəhd edir:

*Körpə uşağa da bircə soyuq söz,*
*Bircə kəlmə desəm qeyri-səmimi,*
*Elə bil düzlüyün polad əlləri*
*Köksümdən qopardar ciyərlərimi.*

Lirik qəhrəmanda ən qiymətli xəzinə - əxlaqi dəyər təmiz yaşamaqdır, düzlük və ləyaqətdir:

*Görünür, dünyada təmiz yaşamaq*
*Çörəyim, suyumdur, havamdır mənim.*

*Paxır götürməyən düzlük, açıqlıq*
*Sarsılmaz qalamdır, yuvamdır mənim.*

*Sevirəm qasırğa, tufan içində*
*Kişi yerişini əyməyənləri*
*Hətta zirzəmidə gün keçirsə də*
*Saflığı gül kimi iyləyənləri.*

"Silkələnmə" şeirində fəlsəfi-əxlaqi dəyər ifadə olunsa da, fikirlər bədii forma tutumuna, obrazlılığa zəif daxil olduğundan güclü təsir bağışlamır, X.R.Ulutürk yaradıcılığından aşağı səviyyədə görünür.

Poeziyada "od" mövzusu bir silsilə təşkil edir. 50-ci illərdən başlayaraq "daş", "od" obrazları poeziyada intensivləşmişdir. "Poeziyanın "daşlarla" görüşü Əli Kərimin "Daş" şeiri ilə başlamışdır. Sonralar "daş" xüsusən fəlsəfi lirikada yayılmış, ötən poeziya ilinin səciyyəvi bədii detalına çevrilmişdir" [99, s.38]. "Od" və "daş" mövzuları M.Araz, H.Arif, Ə.Kərim, R.Rza, F.Qoca, İ.İsmayılzadə, Ə.Kürçaylı poeziyasında fərdilik tapmışdır (F.Qoca "Tanış səslər", M.Araz "Daş qartal", "Ərim gəldi qayası", "İnsan qayalar", "Ağlayan qayalar", H.Arif "Daş ürək", İ.İsmayılzadə "Od", Ə.Kürçaylı "Daşlar" silsiləsi və s.).

X.R.Ulutürkün "Günəşi içənlərin türküsü", "Sarsılma", "Yanardağ", "Mərdlik məktəbi", "Mən diplomat deyiləm", "Od" kimi əsərlərində "od" poetikləşdirilmiş-dir. Həmin şeirlərdə Od - vətən, şüur, məfkurə, vətəndaş, yanğı, sevgi anlamlarında mənalandırılır; "od" və "daş" mövzuları tarixə, dünyaya, yaradana fəlsəfi, simvolik baxışdır. "Günəşi içənlərin türküsü"ndə N.Hikmətə söykənən şair Şuşada, Daşaltıda müşahidə etdiyi Günəşi, onun tanrısal nurunu poetikləşdirir. "Yanardağ" əsərində hər şeyin təbiətində od dayandığını ifadə edən sənətkar odu çıxış nöqtəsi kimi alaraq, Vətənimizin, tariximizin ilkinliyinə üz tutur, mühakimələr yürüdür. Bizi odumuza-oca-

ğımıza tapındıraraq mənalandırır ki:

*Deyirəm dünyanın özəyi oddur,*
*Bəlkə buna görə tab etmədi buz.*
*Bəlkə buna görə bizə bu qədər*
*Əzizdi, doğmadı Odlar yurdumuz.*

"Yanardağ"ın ideyasında Vətən və onun tarixi keçmişinə "od" misalında fəlsəfi baxış vardırsa, "Mən diplomat deyiləm", "Mərdlik məktəbi" şeirlərinin məzmununda "od" lirik qəhrəmanın varlığı təsirini bağışlayır. Yəni lirik qəhrəmanda təcəssüm olunan "od" qanını dolaşan çınqı, qələmin ucundakı işıq, dəmirçi zindanından qopan qığılcımdır. "Od" lirik qəhrəmanda yanmış ciyərdir, kirpiklə açılan səhərdir, gecədir, tufanlar qoynundakı addımlardır, göz nurudur, oğullara qalan dədə qürurudur, qaraqartımış çaxmaq daşını yaran toxumdur, Babəkin qaldırdığı bayraqdır, Füzuliyə od vuran "Baba-Gurgur"un simvoludur, rəmzdir. Lakin:

Günəşin də işığı yetə bilməz dadına
Kişinin öz varlığı əgər şölə saçmasa.

Od, səmimiyyət insanın fitrətindən gələndə yalana, riyaya yer qalmır. Buna görə də "dahi ozanları yetirən bir xalq diplomat ozanlar yetirməyibdir":

*Gəlin, alqış deyək büllur fitrətə,*
*Mən də bir günəşəm, qaram, yağışam.*
*Bəşər can atırsa, səmimiyyətə,*
*Mən o səadətə çoxdan çatmışam.*

"Od" "Mən diplomat deyiləm", "Mərdlik məktəbi" şeirlərindəki ideyanın davamı, inkişafıdır: Ürəyi, zəkası nur saçanları tufan da, səmum da söndürə bilməz!".

XX əsr Azərbaycan poeziyasında əsasən 60-cı illərdən başlanğıc götürən İnsan mövzusu geniş planda, orijinal poetik təsvirdə, zəngin bədii mündəricədə ifadə olunmuşdur. Bu baxımdan R.Rzanın "Mən insanam" (1957), "Vaxt var ikən" (1961), N.Həsənzadənin "Cavabdehəm", "Ata sərvəti", C.Novruzun "İnsan himnləri", "İnsan, in-

san" (1969), "Tələsin insanlar, gecikin insanlar" (1969), "Sağlığında qiymət verin insanlara", M.Arazın "İnsan monoloqu", H.Arifin "İnsan" "N.Hikmət", Ə.Kərimin "Heykəl və heykəlin qardaşı", B.Vahabzadənin "Dayan, insan" (1970), "İnsan ömrü", F.Qocanın "Adi insan", "Mən torpağam", "İnsan" və başqa səciyyəvidir.

X.R.Ulutürk realizminin romantik uçuş qanadları var. "Romantik keyfiyyət, romantik üsul, romantik manera yalnız romantizmə aid olmayıb, ümumiyyətlə, bədii yaradıcılığa xas olan ümumi estetik keyfiyyətdir" [130, s.99]. M.Müşfiq romantikasından yazanda prof. X.Əlimirzəyev onu qeyd edirdi ki, daxili hərarət, xüsusi vüsət, əlvanlıq, emosionallıq, ideal və qayə həm də romantika üçün səciyyəvi keyfiyyətdir [51, s.90]. Daha lakonik desək, X.R.Ulutürk romantikası da şeirlərinin xüsusiyyəti, qəlibi, ruhu ilə bərabər, mühitin şairə verdiyi əhvali-ruhiyyədən, ictimai-siyasi haqsızlıqlardan da irəli gəlirdi. Bu romantika həm də şairin ictimai idealları, milli taleyi ilə əlaqəli olmuşdur:

*Başımın üstündə ağappaq bulud,*
*Bilmirəm yelkənmi, ya bir cüt qayıq.*
*Deyir: - Xəlil Rza, gəlmisən, sağ ol,*
*Qalx uçaq, biz sənin qanadlarınıq.*

*("İlham qaynağım")*

Xəlil Rza Ulutürk yaradıcılığına əkslik fəlsəfəsi həyatın özündən gəlir. Lirik qəhrəman daxili müvazinətini də onda görür. "Heç bir zaman sarsılmaz öz içindən güc alan":

*Sevsən...*
*biləcəksən nədir bu cahan?*
*Dolanmaq, sürünmək, yaşamaq nədir?*
*Ən gözəl yaşamaq əslinə baxsan*
*Gözəllik uğrunda mübarizədir*
*Gözəllik aləmin genişlənəcək,*
*Almasdan bahalı şeh görəcəksən.*

*Sevincdən dəyərli insan kədəri*
*Qılıncdan kəsərli ah görəcəksən.*

("Hər şeyin yaxşısı")

*Nə cür yalayırsan tüpürdüyünü,*
*Lənət dediyini alqışlayırsan.*
*Dünən bu həyatdan süpürdüyünü*
*Bu gün bəzəyirsən, naxışlayırsan.*
*Lənət dediyini alqışlayırsan.*

("Mərdlər və dərdlər")

Əksliklərin birliyi X.R.Ulutürk poeziyasında mahiyyətdir. Həmin fəlsəfi ikilik (dualizm) şairin poeziyasında güclü çalarlarla bədiiləşdirilmişdir. Tanrının yaratdıqlarında ehtiva olunan ikilik xeyir-şər, yaxşı-pis, axşam-səhər, işıq-qaranlıq, haqq-nahaqq, ölüm-həyat kimi əbədi olanlar X.Rza poeziyasında da ifadə etdirilir. Nizami, Füzuli, Nəsimi, H.Cavid, Sabir, Vurğun, M.Araz, B.Vahabzadə, Ə.Kərim, C.Novruz, N.Həsənzadə kimi Xəlil Rza da "Sarsılma", "Ömür", "İgidlər, dahilər", "Babək", "Nizami", "Sən mənə bir silah verdin" və başqa əsərlərində həmin əksliklərin parlaq nümunələrini yaratmışdır:

*Hansı vaxt asanca doğubdur işıq,*
*Hansı vaxt zülmətlə çarpışmamışıq.*

*("Sarsılma")*

*Bəlkə elə əbədidir bu dünyada Xeyirlə Şər,*
*Təzadları qıra-qıra özünə yol açır bəşər.*

*("Sən mənə bir silah verdin")*

Beləliklə, 80-ci illərin poeziyası X.R.Ulutürkün mənəvi-psixoloji aləmi ilə daha çox bağlı olduğundan onu məqam və məramın poeziyası kimi səciyyələndirmək olar.

Xəlil Rzanın "Taparam səni" [229], "Ömürdən uzun gecələr" [245], "Hara gedir bu dünya" [252], "Daşdan çıxan bulaq" [261], "Məndən başlanır Vətən" [271] kitabları 80-ci illərdə nəşr olunmuşdur.

Həmin illərdə diqqəti cəlb edən poetik özünəməxsus-

luq ilk növbədə mövzuların şairi ciddi narahat edən problemlərlə bağlı mənəvi-psixoloji düşüncələrdən başlanğıc almasıdır. Həmin mənəvi-psixoloji ideyalar mövcud ictimai quruluşun təzadlarından, insanların həyat, yaşayış tərzindən, onların varlıqları ilə bağlı olan mənəvi-psixoloji naqisliklərdən irəli gəlmişdir. 80-ci illərin əsərlərində ictimai etiraz, mövcud haqsızlıqlara, ədalətsizliklərə qarşı dayanmaq, mübarizlik, inqilabçılıq əhvali-ruhiyyəsinin təzahürü sənətkarın lirik qəhrəmanı üçün əsas olmuşdur. Bu əsərləri bir məcrada birləşdirən ümumi bir bədii keyfiyyət poeziyasında məqam və məramın daha ciddi inikas etdirilməsidir. Bunun mənbəyi şairin özüdür, onun şəxsiyyəti, mənəvi bütövlüyüdür.

80-ci illərin əsərlərində vahid bədii üslubun inkişafı aşkar görünür. X.R.Ulutürk 80-ci illərə qədərki əsərlərində, əsasən, lirik-epik üslubda cəmiyyətə, ictimai quruluşa baxış etmişdirsə, 80-ci illərin əsərlərində cəmiyyətə qarşı üsyankar, inkarçı şair mövqeyinə görə onun lirik-epik üslubuna güclü bədii publisistika imkanları və patetik intonasiya çalarları daxil olmuşdur. Xəlil Rza Ulutürkün ictimai etirazları 80-ci illərin poeziyasında bir məqama, bir mərama doğru tuşlanır; əsasən, bəşəri humanizmin ifadəsi, rus sovet və beynəlxalq imperializmin ifşası, milli hərəkatların təsvir və tərənnümü. Bu baxımdan 1980 -1990-cı illərin poetik əsərlərində səciyyəvi üslub, yaradıcılıq xüsusiyyətləri vardır. Ümumən, humanizmin tərənnümü, antihumanizmin ifşası şairin lirikasında zəngin təsvir və intonasiya çalarları doğurmuşdur.

"Ömürdən uzun gecələr" kitabında vətəndaşlıq, milli ləyaqət, bəşəri ideallar və humanist duyğuların tərənnümü ön plana çəkilmişdir. "Mayakovski işığında" başlığı altında toplanan şeirlərdə daha çox satirik ruh hakimdir. Həyatı təsdiq və tərənnümlə yanaşı mənfiliklərə qarşı ciddi etiraz, qəzəb və hiddət pafosu bu əsərlərdə mühüm yer tutur. Başlıcası budur ki, Sabir, Mayakovski, S.Vur-

ğun şeirinin yüksək vətəndaşlıq ruhu, müasir həyata bağlılıq, insanın mənəvi haqqının poetik təsdiqi bu əsərdə özünü aydın göstərir. Şair tənqid hədəfini "vəzifə başında tutuquşulara", "stoluna dördəlli qırsaqqız olanlara", yadlara yalaq, özününkülərə ögey" olan iddialı, dördgöz adamlara çox ustalıqla tuşlaya bilmişdir. Bəzən saxta, yalançı "millət qəhrəmanlarına" şair öz qəzəbini gizlətmə-mişdir".

Humanizm və vətənpərvərlik Xəlil Rza Ulutürk idealının tərkib hissəsidir. Onun "poeziyasının kökü də, mayası da Vətən eşqi, Torpaq və Xalqla bağlıdır. Bu vətənpərvərlik bizim müasirimizə xas olan şüurlu vətənpərvərlikdir. Bu, hər şeydən əvvəl onunla əlaqədardir ki, Xəlil Rza Vətəni, onun qəhrəmanlıqlarla dolu tarixi keçmişini, bugünkü əzəmətini, sabahkı böyük fütuhatını duyur, hiss edir, bir çox hadisələrin canlı iştirakçısıdır" [134, № 11].

X.R.Ulutürkün humanist görüşləri milli məkanla hüdudlaşmır, sərhədləri aşaraq, bəşəri məzmun daşıyır. Onun vətənpərvərliyi də eyni dərəcədə bəşəri sərvətdir. Şair yazmışdır: "Bizim birinci borcumuz Yer kürəsini qorumaqdır. Yer üzündəki sonsuz gözəllikləri, yer üzünün bütün Ermitaj və Luvr xəzinələrini, Titsian Veçellionun fırçasından çıxmış sənət mirvarilərini, Füzulinin və Şekspirin yaratdığı poeziya kəhkəşanlarını, İbn-Sinanı... bütün təfəkkür korifeylərinin ürəyindən, gözlərindən süzülən əbədi işığı qorumaq bizim borcumuzdur... Biz öz qüdrətli əllərimizi sərhədlər, okeanlar, mərzlər üzərindən uzadıb bir-birimizi salamlamalı, öz qəlbimizin qərarını qəti bildirməliyik: - Yaşasın xalqların Azadlıq idealı!" (Şairin arxivindən. "Bütün bəşəriyyəti qucaqlaya biləydim", 1964, s.4) [318]. X.R.Ulutürkün şəxsiyyəti və yaradıcılığında "vətənpərvərlik kamil formasında əqidədir, elmi dünyagörüşün bir sahəsi, tərkib hissəsidir. Lakin o, eyni zamanda hissi həyatla bağlayır, vətənə məhəbbət, sözün geniş mənasında mütərəqqi milli mədəniyyətə mə-

həbbət, ana dilinə məhəbbət və s. kimi nəcib hisslər şəklində təzahür edən mənəvi-əxlaqi keyfiyyətdir. Buna görə də həm hissi, həm də əqli idrakla bağlı olub, şəxsiyyətin hərtərəfli mənəvi zənginliyi, kamilliyidir" [130, s.42].

X.R.Ulutürk 80-ci illərin əsərlərində obrazlı desək, poetik "Proqramını" yazmışdır. Şair 60-70-ci illərdə gizli gətirdiyi ideya, mövqe axtarışlarını üzə çıxarmış, mətləb və məramını aydın göstərmişdir. 80-ci illərin şeirlərindəki humanizm, vətənpərvərliyin ideya daşıyıcılarından biri - şəxsiyyət və tale müəyyənliyidir. X.R.Ulutürk vətəndaş şair və şəxsiyyət kimi 80-ci illərin şeirlərində vüsətləşir. Şair milli İdealını aydın ifadə edir: İstiqlal və onun uğrunda mübarizə!

*İlk allahım, son allahım- mübarizə! Mənə bənzə!*
*Doğransam da xıncım-xıncım, zərrə-zərrə, rizə-rizə,*
*Məramımdır mübarizəl Mənə bənzə!*

*("Mənə bənzə")*

"Xəlil Rza öz poeziyasında köksünü zamanın küləklərinə açmayanları, ehkam çərçivəsində qalanları, süstləri, simasızları, Vətəndə yaşayan vətənsizləri, böyük ictimai idealdan məhrum olanları daim ifşa edir, qamçılayır və onların gec-tez məhvə məhkum olacağına inanır. Bu inam onun poeziyasının qanına, canına hopmuşdur. Bu mənada Xəlil Rza poeziyasını inam və döyüş poeziyası adlandır-maq olar" [147].

Şair hansı məramdan, məqsəddən danışırsa, - Vətən taleyini, milli idealı unutmur. Həmin məqsədi "Səngər azuqəsi" (1980), "Şəhriyarım" (1980), "Çətin yol" (1981), "Mənə bənzə" (1981) şeirlərində də orijinal ifadə etmişdir:

*Sən Bakıya bənzəyirsən, mən Təbrizə,*
*Mənə bənzə! Mənə bənzə!*

("Mənə bənzə")

X.R.Ulutürkün lirik qəhrəmanı ideal və məram yoluna çıxdığına görə, o həm də milli cəbhə mövqeyinə çıxır. Bu

səbəbdən də şairin şeirlərində milli qəhrəman boy göstərməyə başlayır.

80-ci illər şeirlərinin poetik qəhrəmanı lirik qəhrəmandır; tərəddüdsüz, səbatlı, qətiyyətli, mərd lirik qəhrəman. O, milli ideal və xalq taleyinin ifadəsində milli qəhrəman kimi duyumlanır, qalan məqamlarda lirik qəhrəman olaraq qalır; bunların vəhdəti - milli xarakterin reallığı 80-ci illərin ikinci yarısı və 90-cı illərin poeziyasındadır:

*Sən bu döyüşlərin ön səfindəsən,*
*Məşəl ürəklərin tərəfindəsən*
*Elə buna görə mərd olmalısan,*
*Daşdan, ildırımdan, oddan, qılıncdan*
*Kəsərli, sarsılmaz, sərt olmalısan.*
*Haqqın yox ölməyə! Mərd olmalısan.*

*("Mərdləş, ürəyim")*

Lirik qəhrəmanın mübarizə mövqeyi yalnız sovet antipodları ilə qarşıdurmada, antihumanizmlə mübarizədə görünür. Şair humanizmində, vətənpərvərliyində təkcə milliliyə söykənmir, onun köksünün ümmanları "haqqı tapdanan xalqlardır", buna görə də Xəlil Rza Ulutürk humanizmi bəşəri, beynəlmiləl humanizmdir:

*Bir şair köksündə Azərbaycan var!*
*Bir şair qəlbinin şah damarında*
*Bütün asiman var, bütün cahan var!*

*("Mərdləş, ürəyim")*

X.R.Ulutürk antibəşəri hadisə kimi müharibəyə nifrət edir, onu törədənləri lənətlə damğalayır:

*Düymələr hökmündən qurtulsun bəşər,*
*Günəş sönə bilər bir səhv ucundan.*
*Asılsın deyirəm hərb istəyənlər*
*Mənim nifrətimin dar ağacından!*

*("Bir cüt göyərçin kimi")*

Şairin humanist görüşlərində mənəvi-psixoloji olanlar: şəxsiyyət, ləyaqət, mərdlik və kişilik, iradə və inad, cə-

surluq və dəyanət mühüm yer tutur. “Şairliyin özülü” (1980), “Mən uçuram” (1980), “Sükan dalındayam” (1980), “Təbrizli Şəhriyar yazır” (1980), “Dəmirləşən dözüm” (1982), “Qorx, qorxma” (1982), “Min bir dərdin dərmanı” (1982), “Müşfiqdənmi artığam, ya Şandor Petefidən?” (1982), “Mayakovski ilə söhbət” (1982), “Sən inanma məddahlara” (1986) və başqa şeirlərində şair “ömrün hər qırpımında çiyni uca, mərd yaşamağı” tövsiyə edir. Onun nəzərində bütün mənəvi keyfiyyətlərin mənbəyi yenə Vətəndir, vətənpərvərlikdir:

*Kimdir bizə qanad verən? Məgər yalnız bədənimiz?*
*Könül adlı qalamız var. Könül - ilkin Vətənimiz.*

Şair həyatın məkrlərinə, mənəviyyatsızlıqlarına qarşı yalnız işığı gətirir:

*Sənin qoynunda bunca bataqlıq,*
*Bu qədər bataqlıq sakinləri var.*
*Bəs niyə gözümdə işıqsan, işıq*
*Ey dağ bulağı tək saf, büllur diyar?!*

(“Təbrizli Şəhriyar yazır”) Çətin yol götürüb getmək, mənəvi dözüm və dəyanət Xəlil Rza Ulutürk humanizminin, vətənpərvərliyinin mayası, cövhəridir. Bu dözüm və dəyanət şairə - qəhrəmana gənclikdən, dənizlərdən, çinarlardan, Savalandan, Çənlibeldən, təbiətdən gəlir (“Gənclik şəklin və bu günkü özün”, 1982).

Xəlil Rza Ulutürk 60-cı illərin şeirlərində olan ənənəni, real-psixoloji zəmində ifadə olunan poetik ruhu humanist dəyərləri 80-ci illərdə daha dərindən, daha təsirli poetik axtarışlarla, tapıntılarla əks etdirmişdir. Şairin humanist görüşlərinə görə şəxsiyyətlər tarixi-milli yaddaşı mənəvi işıq və miras kimi yaşadırlar (“Kimsə tutub gəlir işığımızı”, 1982). Bu məqamda da X.R.Ulutürk xalq taleyini, milli idealı unutmur:

*Haray! İşıqlarım min kəndə düşsün,*
*Kərkükə, Təbrizə, Dərbəndə düşsün.*

*(Kimsə tutub gəlir işığımızı")*

X.R.Ulutürk humanist görüşlərində əvvəlcə adi həyat faktını, hadisə və əhvalatı götürür, onu əyaniləşdirir, sonra ona münasibət əsasında hökm çıxarır. Əxlaq və didaktika belə əsərlərin ideya-məzmununda dayanır. "Qəflət məsələsi", "Sənə demədimmi?", "Şirvan qoruğunda ceyran" şeirlərində də belədir:

*Kiçik bir zədədən yıxılır palıd,*
*Bir gilə zəhərlə pəhləvan ölür.*
*Bir ovuc qum ilə sönür yanar od,*
*Xırda bir fitnədən bulanır könül.*

*("Sənə demədimmi?")*

X.R.Ulutürkün vətənpərvərliyində xəlqilik təbliği səciyyə daşımır, o, mövcudluq, mahiyyət kimi alınır, dərk olunur; ona xitabən mətləblər, məramlar, diləklər dilə gəlir:

*Dağıtdı dağları zərbəmin yönü,*
*Kəşf etdim xalqımın böyüklüyünü.*
*İndi növbət onun - tapar o günü;*
*Kəşf edər oğlunun böyüklüyünü!*

*("Mənlik")*

*Nə qum zərrəsiyəm, nə şeh qətrəsi,*
*Dibsiz ümmanların tufan səsiyəm.*
*Coğrafi sərhədlər qoy öyünməsin,*
*Təbrizin, Bakının söz süfrəsiyəm.*

Belə olanda şair ölçünü, lirik intonasiyanı aşır, patetik intonasiyaya keçir; lirik qəhrəman içindən böyüməyində, milli xarakterə doğru yol almağında davam edir. Lirik qəhrəmandan milli xarakterə doğru inkişafın kökləri də 80-ci illərin əsərlərində görünür:

*Bir də baxıb görürsən boğazına dolandı,*
*Tutuquşu adamlar gürzədən qorxuludur.*
*Tutuquşu qəndə bənd. Bu, nəfsinin quludur.*

*Gödəninin quludur.*
*Özüboyda, nataraz sitatların quludur.*
*Damarlarında axan kişi qanı deyil, yox,*
*köləlik məhluludur.*
*Əsfələsafilinə layiqlərin quludur*
*Söyləyimmi adını? Adı batsın batmışın!*
*Qıymıram tarix bilsin, hansı baltanın sapı,*
*qolçomağın qoludur.*
*("Tutuquşu")*

X.R.Ulutürk mücərrəd söz demir, həyatın ciddi həqiqətlərindən danışır. Danışır ki, humanizmdən dəm vuran alim, ziyalı ona daim köməkçi olan, yazılarını səliqəyə salan, ona kömək edən kiçik elmi işçilərin belə haqqını vermir, lakin həm də humanizmdən mühazirə deməyə gedir. Danışır ki, qəzetdə məqaləsi çıxan dilçi öz vətənpərvərliyindən məmnundur. Lakin "öz balası həsrətdir Azərbaycan dilinə". Dilçi alim Füzulidən, Vaqifdən, Sabirdən söz açır, lakin "öz balası tanımır Füzulini, Vaqifi". Bələlərinin şöhrətinə toxunsan, səni əqrəb kimi çalar" ("Riyakar", 1980). Şair buqələmunları, obivatelləri - antipodları bəzən lirik təhkiyədə, bəzən isə geniş publisistika imkanları əsasında təqdim edir ("Ehkamçılara qarşı", 1980).

Xəlil Rza Ulutürkün milli özünüdərkində İnsanın fəal həyat mövqeyinə, xüsusi poetik diqqət vardır. Xüsusilə, bu fəallıq mənfiliklərlə üz-üzə gələndə yenini göstərmək meyllərində, özünütəsdiqdə, haqsızlıqla, ədalətsizliklə qarşılaşmada geniş nəzərə çarpır. Xəlil Rza Ulutürkün fəallığı sadəcə fərdi fəallıq yox, ictimai fəallıqdır. Buna görə də onun poeziyası sərtliyi, kəskinliyi ilə seçilmişdir. Belə bədii keyfiyyət özünü yaradıcılığının ilk illərindən hiss etdirsə də, 60-80-ci illərdə poetik kəsər kəsb etmişdir. Şübhəsiz ki, belə ictimai fəallıq yalnız X.R.Ulutürkə xas ideya-bədii keyfiyyət deyildi. Bu, İkinci Dünya müharibəsindən sonra bədii ədəbiyyatda görünən xarakterik

xüsusiyyət idi kı, bu da xalqda milli-məfkurəvi şüurun, azadlığa olan meyllərin güclənməsi ilə əlaqədar olmuşdur. Xəlil Rza dərk edirdi ki, "hamıya "bərabərlik", "xalqın rifahı naminə", "hər kəsdən əməyinə görə, hər kəsə tələbatına görə", şüar və plakatlarıyla pərdələnən "sosializm" cəmiyyətində əslində haqsızlıqlar, ədalətsizliklər, zəifi istismar, mövqedən sui-istifadə, vəzifəpərəstlik, şöhrətpərəstlik xəstəlikləri günbəgün artır, çayır kimi çoxalıb cəmiyyəti bürüyür. Buna görə də şairdə mövcud mühitə qarşı etiraz güclənirdi. "Çaylarımız", "Dördlüklər", "Ürəyindən istə mükafatını", "Dincəliş", "Qorxu", "Məmməd Araza" və başqa əsərlərində naqis cəmiyyətin yaramazlıqlarına qarşı mübariz şair "Mən"i dayanırdı.

Xəlil Rza Ulutürkün milli intibahla ehtiva olunmuş mənlik şüurunda mənəvi dəyərlərin mizan və meyarı kimi İnsanın tərənnümü mühüm yer tutur. Bu, Vətən əxlaqının tərənnümüdür. Bu, elə bir ləyaqətdir ki, bütünlükdə şairin "iç" dünyasına çevrilərək, onu əhatə edən ictimai dəyərsizliklərin inkarı uğrunda mübarizəyə qaldırmışdır. Bu ləyaqət bir fərdin ləyaqəti deyil, bütöv bir millətin, Vətənin boyuna "biçilmiş" şair idealıdır. Bu elə bir ləyaqətdir ki, şairin, mövcud "Mən"in timsalında xalqı istiqlal, müstəqillik məfkurəsinə doğru aparır. Bu ləyaqət istismar dünyasındakı bütün ləyaqətsizliklərin doğurduğu, boy verdiyi ləyaqətdir! Belə bir mənəvi müqəddəslik şairin zəngin bədii yaradıcılığının mayasına, cövhərinə çevrilir. Bu baxımdan "Əyilmə", "Rastlaşma", "Qəhrəmanlıq", "Qorxaqlar, cəsurlar", "Qürur mənim, qəm mənim", "Gözəl yaşamaq", "Həqiqət", "Geri qaldım", "Kor", "Təbrizim mənim", "Qorx, qorxma", "Sağlıq, yaxud vəsiyyət", "Simasız", "Kişilər", "Şəlalə kibi", "Min bir dərdin dərmanı", "Məmməd Araza", "Ləyaqət", "Hər şeyin yaxşısı", "Mərdlər və dərdlər", "Düzlük", "Məsləklə yaşayanda", "Saçlara dən düşür", "Nə qədər ki

macal var” şeirləri səciyyəvidir.

“Əyilmə”, “Rastlaşma”, “Qəhrəmanlıq” əsərlərində insan ləyaqəti kimi mərd yaşamaq; “Qorxaqlar, cəsurlar”, “Min bir dərdin dərmanı” şeirlərində əxlaqi-mənəvi dəyər kimi cəsurluq; “Qürur mənim, qəm mənim”, “Gözəl yaşamaq” şeirlərində qürur, mənlik, gözəl yaşamaq bacarığı, dəyanət; “Həqiqət” şeirində həqiqətin ən böyük yaradan olduğu, yalana nifrət, haqqa, ədalətə qiymət, ona çağırış, “Kor” şeirində Füzuliyə qiymət; “Qorx, qorxma” şeirində millətin, insanların tərbiyəsinə xidmət edən qorxmazlıq, cəsurluq, ucalıq, Azərbaycan çörəyinin dadına, duzuna layiq olmaq amalı, “Sağlıq, yaxud vəsiyyət” şeirində R.Rza, Ə.Kərim sayağı qəbri üstünə Vətənin Arazından götürülmüş bir ovuc su çiləmək vəsiyyəti, rəhmət diləmək isteyi, “Simasız”, “Kişilər” şeirlərində əxlaq və tərbiyənin mənbəyi kimi kişilik, mərdlik, təfəkkür azadlığı, “Şəlalə kibi” şeirində kişilik istedadı olan cəsarət; “Məmməd Araza” şeirində vətənə, cəmiyyətə borcunu ödəmək; “Ləyaqət” şeirində əməyə istinad edərək, vətəndaşlıq, şəxsi-ictimai borc, insan ləyaqəti və qayğılarına, fədakar əməyə, insan taleyinə, milli adət-ənənələrə, əxlaq normalarına qayıdış, “Hər şeyin yaxşısı” şeirində gözəllik uğrunda mübarizə, öyüd-nəsihət; “Mərdlər və dərdlər” şeirində sözübütövlük, alicənablıq; “Düzlük” şeirində həqiqət uğrunda gündəlik, güzəştsiz mübarizə, “Məsləklə yaşayanda” “Saçlara dən düşür” şeirlərində məslək; “Nə qədər ki, macal var” şeirində yaxşılıq kimi fikirlər qaynağı ifadə olunmuşdur. Belə əsərlərdə “içdən” gələn “Mən” yanğısı çoxqatlı mətləbləri, sosial-mənəvi dəyər və naqislikləri özündə birləşdirirdi. Prof. Y.Qarayev demişkən, “bədii təfəkkürün axarı İnsanı, Dünyanı, Zamanı vəhdətdə dəfk etməyə kömək göstərən sosial-fəlsəfi axtarışların məcrasına doğru yönəlirdi” [118, s.43]. X.R.Ulutürkün 80-ci illər əsərlərində də İnsan obrazı davam etdirilmişdir (“İnsanlığı düşünürəm” (1980);

"Borcluyam" (1981). Şair mücərrəd-fəlsəfi olaraq insan və insanlıq haqqında mühakimələr yürüdür. İnsan təzadların, mühitin özündən "doğulur":

*Bir yanda Ovsensim - bəşər tabutu,*
*Bir yanda Fərqanə - bahar qoxulu.*
*İnsan - kainatdan min dəfə ulu,*
*Timsahdan, əqrəbdən qat-qat qorxulu.*

*("İnsanlığı düşünürəm")*

X.R.Ulutürkün İnsanı (bədii obrazı) o insandır ki, ictimai etiraz məqamlarından güc alır, yetişir, yetkinləşir:

*Çoxdan borcum var mənim hər gülə, hər gülzara,*
*İllah ki, məğrur, cəsur, qəlbi nur insanlara!*
*Şanlara, ad-sanlara heç bir məhəl qoymadan*
*Qandallar qıranlara, ehkamlar qıranlara!*

("Borcluyam")

Şairin İnsan obrazı, mənəvi eybəcərliklər, dəyərsizliklər prosesində boy verir, buna görə də o, ictimai haqsızlıqlara çəpər kimi görünür; X.R.Ulutürkün ictimai etirazları açıq-aşkar, birbaşa təzahürünü 80-ci illərin əsərlərində göstərir:

*Hazırın naziri var, hər şeyi də ovcunda,*
*Onlar yaşar həyatla ölümün ayrıcında.*
*Bu mərdlərə borcluyam.*
*Özündən - qat-qat, yekə təpəgözlə döyüşən*
*İgidlərə borcluyam.*
*Mən onlara dəmirdən qanad olmaq istərəm.*
*Şirindirsə uğrunda Fərhad olmaq istərəm*
*Düşsələr dara, bəndə*
*Dünyanın sinəsində fəryad olmaq istərəm.*
*Tunc maneə görsələr, polad olmaq istərəm.*

*("Borcluyam")*

X.R.Ulutürkün İnsanı yalnız müsbət idealın, mərd insanın obrazı deyil: o, insana ümumiləşdirici, təfərrüatlı diqqət yetirir. Oxucu hiss edir ki, bu insan sanki folklordan, xalq qəhrəmanlarından üzü bəri mənəvi-əfsanəvi

dəyərlərdən güc alır, onların sehrini özündə təcəssüm etdirir:

*Borcluyam saniyənin cövhərini sıxana,*
*Ölümün qucağına atılıb sağ çıxana,*
*Yeddi ildırım ikən bir buludda çaxana,*
*Yetmiş iki nəhr ikən bir məcrada axana.*
*Mərd ikən... dara düşən... nə dinən, nə bağıran,*
*Dadına heç kəsi yox, mənliyini çağıran*
*Mətinlərə borcluyam.*

*(“Borcluyam”)*

İnsan mühitə, varlığa bağlı olduğundan tarixi borc və məsuliyyət hissindən qaça bilməz. X.Rzanın humanist görüşlərində bu, əxlaqi keyfiyyətdir:

*Borcumu vermək üçün*
*Dağ qaldıran fəhləyəm... Dərdliyəm, fərəhliyəm,*
*Borc ödəmək uğrunda mən bir can məşəliyəm.*
*Borclu ölsəm, dünyaya təzədən gəlməliyəm.*

*(“Borcluyam”)*

X.R.Ulutürkün vətənpərvərliyində, humanizmində İnsan obrazı əlahiddə olaraq, “Kişi” səciyyəsi ilə də əlamətdardır. Kişi obrazı şairin yaradıcılığında tutumlu ideya və fikir qaynağıdır. “Başıaçıq dayanan kişi” (1980), “Könlümlə söhbət” (1980), “Qorxaqlar, cəsurlar” (1980), “Kişilərə arxalanaq”, “Göylərdən gələn kişi” (1980), “Bəs niyə susdun?”, “Qədir-qiymət” (1983), “Məndən başlanır Vətən” (1983), “Şöhrət” (1984), “Sarsılma, qardaşım” (1984) əsərlərində obrazlaşan kişilik geniş mənada mənəvi-vicdani oyanışdır.

Şair göstərir ki, kişiliyin əsası doğruya, həqiqətə arxalanmaqdır, haqq yolunda bağrı yanmaqdır, dindir, inancdır, Boz qurddur, öygüdür, kişilik sal qaya, ulu dağlardır! (“Kişilərə arxalanaq”).

Səmimiyyət kişiliyin rəhmidir. İnsan həm də öz “içinə” özündən baxmalı, özünü sərəkli bilməlidir. Onda in-

sanın böyük olduğuna şübhə yeri qalmır:

*Hamı gözləyir ki, çıxsın ortaya*
*Yeni bir qəhrəman, müdrik bir dədə.*
*Xeyr! İgidliyi gəzmə uzaqda,*
*Özünsən Koroğlu, Şah Xətayi də*

*("Könlümlə söhbət")*

İnsan obrazı şairin humanist və vətənpərvərlik görüşlərindən sıyrılmış şəkildə deyildir; onlarla vəhdətdə, əlaqə və münasibətdədir, tamda fərd, fərddə tam kimidir. X.R.Ulutürkü müəyyən mənada mənəvi tənhalıq şairi, şeirlərini isə tənhalığın poeziyası da adlandırmaq olar. "Qüvvətli, böyük İnsan ideyası" Y.Qarayev demişkən, onun hər bir ciddi əsərinə aiddir.

X.R.Ulutürkün humanizmində, vətənpərvərliyində rüşvətxorluq, vəzifəpərəstlik, məddahlıq mövzusu güclü tənqid hədəflərindəndir. Şair rübailərindən birində yazır:

*İlbiz işıldayar, nur yaya bilməz,*
*Rütbə düşkünləri parlaya bilməz.*
*Yalnız stolunu qoruyan gəda*
*Xalqın şərəfini qoruya bilməz.*

Müzür ünsürləri, vəzifəpərəstləri tənqid X.R.Ulutürk yaradıcılığında həcv, sarkazm, pamflet ilə daha çox müəyyənləşir. Şairin tənqidi yüngül, güzəştli tənqid deyildir, konkret, ünvanlı olub güclü ümumiləşdirmə keyfiyyəti olan tənqiddir. Bu baxımdan "Sən neçin tutmusan bu vəzifəni" (1980), "Sən inanma məddahlara" (1986), "Türk sözündən qorxan gəda" (1986), "Vəzifə ölüsü" (1987) şeirləri diqqəti cəlb edir. Bu əsərlərdə vəzifəpərəstliyin səciyyəvi xüsusiyyətləri real ifadəsini tapmışdır:

*Demək, hörmət sənin, şan-şöhrət sənin,*
*Təzə süd, təzə bal, təzə ət sənin.*
*Bağ sənin, ağ "Volqa", eyş-işrət sənin,*
*Kafelli, mərmərli səltənət sənin*
*Sifarişlə hürən neçə it sənin,*
*Bərkdən çal zurnanı, qızdır dəfini, -*

*Bununçün tutmusan sən vəzifəni!*

*("Sən neçin tutmusan bu vəzifəni")*

Şairin antihumanizminin əlamətlərindən biri də satqınlıqdır, Şair bunu millət üçün bəla hesab edir, onun səbəblərini saxta şöhrətdə, ad-sanda, vəzifəpərəstlikdə görür ("Satqın", 1980). Şair antihumanizmin xüsusiyyətlərindən olan qorxaqlığı da vətən və vətəndaş əxlaqının mənəvi aşınmalarından hesab edir, nəticə etibarilə o, milli idealı da korşaldır:

*Baxar kor kimidir qorxaq həyatda,*
*Min günəş doğsa da, köməyi olmaz.*
*Gözüqıpıq yurdun, ağciyər elin*
*Yalnız yemi olar, mənliyi olmaz!*

*("Qorxaqlar, cəsurlar")*

Nadanlıq, eybəcərlik, buqeləmunluq və təslimçiliyin ifşası "Palıd gövdəsində" (1980), "Qalan sənətdir ancaq" (1980), "Təslimçilik" (1980), "Buqələmun" (1980) əsərlərində tutarlı tənqid edilmişdir. Şair ikiüzlülüyü, saxtakarlığı, bədxahlığı, etinasızlığı, məddahlığı mənəvi eybəcərliyin, antihumanizmin xüsusiyyətlərindən hesab edir ("Xeyirxah yolunda", /1980/; "Susa-susa" (1980); "Bir dosta açıq məktub" (1980); "Süpürgəçi və şair" (1981); "Şerbaz" (1982); "Mən sənə güvənirdim" (1987).

X.R.Ulutürk mənəvi eybəcərliyə, antihumanizmə qarşı humanist qayə və məramları qoyur. "Göylərdən gələn kişi" (1980) əsərində vətəndaş qayəsini poetikləşdirən sənətkar ictimai naqisliklərdən, davam etməkdə olan zülmkarlıqdan qəzəblənir, milli dəyərlər itəndə tarixi öndərləri xatırlayır. Vətəndaşlıqda milli vicdanı oyadış yüksək mənəvi-əxlaqi ləyaqət və ənənə kimi ideyalanır:

*Fəqət sönməz, qaralmaz xalqın, haqqın vicdanı -*
*Şah İsmayıl Xətai, Xiyabani, Ərani.*

Şərəfsizlik, vicdansızlıq şair nəzərində mənəvi varisliyin kəsilməsi, "zati-qırıqlığın" yaranmasıdır, bu isə mil-

li-mənəvi cılızlıqdır. (“Qafiyəbaz”)

80-ci illərin şeirlərində dəyərlər, humanist keyfiyyətlər sanbalı ilə seçilir. Humanizm müasir şəraitdə azad, müstəqil, demokratik keyfiyyətlər qazanır, mənəvi-tarixi, qan-idrak yaddaşı ifadə edir. Xəlil Rza ruhun əbədiyyətini, həyatını qəbul etməklə, əslində, milli şəxsiyyətlərin yaşarılığını, deməli, milli ənənəni təsdiq edir, lakin həm də milli ənənələri xalqın dərk etməsi və yaşatmasını arzulayır, tarixi şəxsiyyətlər dərk olunmasa “bizimki” ola bilməz, ay-ulduzlardan asılı qalar, milliliyin mənəvi ölümü başlayar:

*Çörək yeyən, su içən, şer oxuyan o adam*
*Enib gəlmişdi yerə ulduzlar arasından.*
*Onu dərk etmədiniz, gömülmədi məzara,*
*Yenə qoşuldu getdi aylara, ulduzlara.*

Eyni düşüncə tərzi “Ocaq” (1983) və “Kor” şeirlərində də davam etdirilir. Bu nümunələrdə şair yurda, ocağa, dilə bağlılıq məqamından danışır: bu məqam milli başlanğıc olsa da, onun kökündə dünyəvilik, insanlıq, ululuq və ucalıq dayanır, ümumiyyətlə, X.R.Ulutürkdə milli mənsubiyyətin məna və əhəmiyyəti geniş ifadə olunur. İctimai haqsızlıqların, imperiyanın tənqidi və milli azadlıq hərəkatı ifadəsi bu iki xətt şairin humanizm və vətənpərvərlik ideyalarının təzahüründə aparıcı olmuşdur.

Azərbaycan poeziyasında 80-ci illər şeirinin səciyyəvi xüsusiyyətlərindən biri gözəllik kateqoriyasının humanizm və xəlqiliyin tərkib hissəsinə üzvi surətdə daxil olması, bədii-estetik və fəlsəfi keyfiyyət kəsb etmişdir.

X.R.Ulutürk poeziyasında gözəllik H.Caviddə olduğu kimi şairin allahıdır, dini, imanıdır. Onun təlqin etdiyi gözəllik seyrçi yox, yaradıcı, qurucu gözəllikdir:

*Gözəllik təşnəsiyəm, -*
*Gözəllik etiqadım, soyadımdır, adımdır.*
*Bu yolda qurban getmək mənim mükafatımdır.*

*(“Mənim mükafatım”)*

Xəlil Rza humanizmində insanlığı bir himn hesab edir. Bu himndə insanı, onun şərəf və ləyaqətini yüksək qiymətləndirir. Şairə görə saxta şöhrətpərəstlik əslində “xalqın şöhrətini çapıb-talamaqdır”:

*Gülüm, ayırd elə tikanı güldən,*
*Tarix əyriləri gec-tez tanıyır.*
*Özünə yalandan şöhrət düzəldən,*
*Xalqın şöhrətini çapıb talayır.*

*(“Şöhrət”)*

Şair didaktik mühakimələr yürüdür. Gəncliyə öyüd-nəsihət verir, belə öyüdlər fəlsəfi-müdrik məzmunla dolur: “Gəl vuraq boynunu şöhrətimizin, təki amalımız şöhrətə çatsın. Bütün şöhrətlərdən üstün dayanır şöhrətə biganə kişi dözümü”, “Tələs mərd yaşayıb gözəl ölməyə, Tələsmə şöhrətə dustaq olmağa”.

Lirik qəhrəman hər cür şöhrət əleyhinə deyil. Təbii, halal şöhrətdən məmnun qalır. Elə bir şöhrət ki, “kişi şöhrəti xalqın şöhrətinə çevrilə bilsin”.

X.R.Ulutürkün humanizm və vətənpərvərliyi Vətən -Xalq - Azərbaycan bütövlüyündən - başlanğıc götürür. “Məndən başlanır Vətən” (1983), “Gözəl yaşamaqdan əl çəkmək olmaz” (1984), “Dözümlü ol, dəli könlüm” (1984) əsərlərində başlıca humanist keyfiyyət insanın öz içinə baxışı, onu dərk edib qiymətləndirməsi, cəsurluq, cəsarət, dəyanət, ləyaqət, məslək, amal, səxavət və qətiyyəti özündə yaşatmasıdır. Bütün bunlar dərk ediləndə insanın mənəvi mübarizəsi doğulur. Mənəvi mübarizə kişilik və qeyrətdir; bütün bunlar şəxsiyyətlə, insanla, vətəndaşla Vətən arasında kəsilməz, qırılmaz bağlardır. Mənəvi mübarizə şairi milli azadlığa, hərəkata doğru aparan başlanğıcdır. Şair bu yolda özünü bütöv Xalq, bütöv Vətən bilir. “Onun nəzərində vətənpərvərlik - məfkurədir, məsləkdir. Vətənsizlik və ya məfkurəsizlik, məsləksizlik eyni şeydir. Vətənpərvərlik - şan, şərəf, namus, qəhrəmanlıqdır. Bu ali hissə biganəlik isə miskinlik, nadanlıq, bədbəxtlikdir” [130, s.48].

danlıq, bədbəxtlikdir" [130, s.48].

Mübarizə Vətəndir, gözəl yaşamağın rəhni, dözüm və dəyanətdir. Mübarizə naqislik və yaramızlıqlara, şöhrət-pərəstlik və rüşvətxorluğa, vəzifəpərəstliyə etirazdır, üsyandır. "Ürəyi üsyankar bir müstəmləkə olan" lirik qəhrəman qürurlanır ki, "Çağdaş Azərbaycanda Xəlil Rza ömrü var". Çağdaş Azərbaycan şair nəzərində lirik qəhrəmanı milli hərəkata, ideal və tale uğrunda mübarizə məqamına yönəldən qüdrət mənbəyidir ("Heç olmasa bircə nəfər" /1986/, "Haçan, hansı yerdə" /1987/), "Azərbaycan" /1988/ və s.).

Sənətkarın 80-ci illər şeirlərində Məqam və Məram -sosial cəmiyyətin ictimai-siyasi eybəcərlikləri və sovet imperiyasının ifşası xüsusi intonasiya və ahəng kəsb edir. Bu illərin şeirlərində satirik ifşa daha kəskin və dərindir. İctimai ümumüəşdirmə keyfiyyəti poetik təsvir obyektində səciyyəvi xüsusiyyət kəsb edir. Təsadüfi deyil ki, X.R.Ulutürk belə şeirləri "Ələkbər Sabir işığında" adı al-tında toplamışdır. Tənqidçi M.C.Cəfərov 20-30-cu illərin ədəbi-tənqidi fikrindən yazanda Azərbaycan şeirinə təsir göstərən beş görkəmli senətkarın adını qeyd etmişdi: Füzuli, Vaqif, Puşkin, Sabir və Mayakovski. Tənqidçi qeyd edir ki, "Sabir şeiri, ümumiyyətlə, mütərəqqi ideyalarla zəngin bir şeir olmuşdu... Sabir şeirə böyük bir satirik kimi davamlı təsir göstərmişdi. Satirik şeir yazanların hamısı üçün Sabir sənəti bir nümunə idi. Demək olar ki, Azərbaycan satirik irsi üçün indi də Sabir sənəti nümunədir və zənnimizcə, nə qədər ki hələ Azərbaycan şeiri Sabir qüvvəsində və vüsətində olan yeni bir satirik şairi yetişdirməmişdir, Sabir təsiri davam edəcəkdir" [34, s.85].

Bu illərin şeirlərində sabiranə realizm, həyat hadisələrinin təfərrüatlarına varmaq, ictimai yaraları göstərmək cəsarəti, xəlqilik, humanizm və vətənpərvərlik keyfiyyətləri çox güclüdür. Belə şeirlərin poetik strukturunda da yeni bədii keyfiyyətlər: patetik-romantik, romantik-

publisistik çalarlar görünür.

"Yaxın buraxmayaq" (1982) şeirində şair böyük mətləbdən, məramdan söz açır. Xırdalar və cılızlar hakimiyyət başına keçəndə daha ziyanlı olur, belələri "hər yerdə xəyanət gürzələrini" bəsləyir. Şair vurğulayır ki, bəzi rəhbərlər Sasunlu Davidlərin yubileyinə, Yerevana dörd gözlü "keçəl həmzələr" göndərir - belələrində respublikanı təmsil etmək qüdrəti, Koroğlu nəfəsi yoxdur.

Xəlil Rza ziyalılıq, elmilik, vətəndaşlıq mövqeyinə üstünlük verir, vətənpərvər şair hər yerə soxulan ictimai yaramazları, eybəcərləri barı elm aləminə buraxmayaq, - deyir ("Yaxın buraxmayaq" /1982/; "Sənin ölümünü gözləyənlər var" /1986/):

*Ölsək də qoymayaq elm aləminə*
*Xəstə adamları, sal adamları.*
*Yanaq... buraxmayaq eşq aləminə*
*Ruhu qısırları, qul adamları.*

Şairə görə elmi olmayanın insafı, ədaləti, imanı da olmaz, çünki onların öz içlərindən Haqqa - Həqiqətə -Allaha yol almaq imanları yoxdur. Əməlsiz alimə məxsus olan antibəşəri keyfiyyətləri şair öz oxucusuna sonetvari intonasiyada, Şekspir "qiyafəsində" təqdim edir; ümumi bədii baxışda ictimai-sosial mühitin təfsilatına varır:

*Girəvə taparsa, məcbur edər ki,*
*Ədəb üzr istəsin ədəbsizlikdən!*
*Qeyrət üzr istəsin qeyrətsizlikdən!*
*Qəhrəman qul olsun cəsarətsizə*
*Ləyaqət yalvarsın ləyaqətsizə.*

*("Lənət")*

İctimai-sosial eybəcərliklər şairi müdrik-fəlsəfi qənaətlərə gətirir: bir şüa güclüdür şər zülmətindən, bütöv qaranlıqlar səltənətindən... Baxma gecə-gündüz silahlanır şər, haqdan güclü silah tanımır bəşər.

X.R.Ulutürk cəmiyyətin ictimai yaramazlıqlarına toxunur, onların təfərrüatlarına varır; vəzifə kürsülə-

rinə qalxmaq yollarının gizli məqamlarına işıq tutur. Bu işıqda vəzifəpərəstin obrazı belə canlanır:

*Sən qalxmısan oğru kimi: enə-enə, sinə-sinə,*
*İşin bəzən tərs gələndə,*
*daş qayaya rast gələndə*
*Qurban olub özünkünə, özgəsinə.*
*Zirvədəsən.*
*Şöhrətsənin. Sərvətsənin*
*Dünən millət balasıydın*
*bu gün millət cibindədir.*
Sanırsan ki, sən zirvədə... hamı quyu dibindədir.

("Zirvəyə qalxmaq yolları")

Sosial cəmiyyətin ictimai yaramazlıqları içərisindən X.R.Ulutürk böhtan və yalanı xüsusi ayırıb, təhlil obyektinə çəkir. X.Rza informasiya xarakterli şeir yazmır, o, təfərrüatlara varır, yaraları, naqislikləri incəliklərinə qədər göstərir - milli mənafe mövqeyinin seçilməsinə, milli idealın boy verməsinə imkan verməyən eybəcərlikləri pisləyir. Böhtanların, yalanların xislətini doğuran bəlanın rüşvət olduğunu göstərən şair həm də onu tülkülər, çaqqallar tərbiyə etdiyini də mənəvi-psixoloji cəhətdən düzgün aşkarlayır. Şair həyat təcrübəsi, idraki düşüncəsi əsasında belə bir qənaətə gəlir ki, "gözəl insanlara çamur atanlar ləkəni özünə vurur". Məddahlar da X.R.Ulutürk poeziyasında tənqid hədəfi, ictimai antipoddur. "Məddah" şeirinin qayəsi budur ki, şöhrətdə, sərvətdə, xəyanətdə olan məddahlıq müəllifinə heç də başucalığı gətirməz, "Hər gün başına dəyən dəmir qapazı, təriflərlə "qazandığı medalları əvvəl-axır zaman çaxır başına". Çünki "səndən daha miskindir səni tərifləyənlər". Həmin üslubi keyfiyyət, təsvir, təqdimat üsulu "Dost söhbəti" (1984), "Başkəsən" (1987), "Haçan, hansı yerdə?", "Süpürgəçilər türküsü" (1988) şeirləri üçün də səciyyəvidir.

Xəlil Rza Ulutürkün ictimai-əxlaqi, didaktik əsərləri lirik intonasiyada, ölçü-biçidə deyil, bunların əksəriyyəti

əlvan intonasiya-ahəngdə patetik-emfatik-publisistik şeir rəngarəngliyində görünür. Belə şeirlərdəki fərdiliklərdən biri mənfiliklər içərisindən müsbət məramın, milli idealın görüntüsüdür:

*Qoy bütün gürzələr çıxsın yuvadan,*
*Vətən gürzələri, milli gürzələr.*
*Üzdə alimfason, əslində nadan,*
*Möhürlü, stollu, qollu gürzələr,*
*Vətən gürzələri, milli gürzələr!*

*( "Minnətdarlıq" )*

"Çılğınlıqdan dözümə keçid" (1984), "Heç bir ehtiyat" (1986) şeirlərində "məsləkini əyninə kostyum kimi geyənlər" şairin tənqid hədəfləridir. X.R.Ulutürk böyük milli məsələlərdən: dil problemi, onu qorumaq və təbliğ etmək, milli etinasızlıqlardan, "yad qatarlara təkər, öz nəfsinə nökər olanlardan" söz açır. Belə şeirlərdə lirik qəhrəmanın xarakteri, xüsusiyyətləri də fərdiləşir; bu qəhrəman həyatın ziddiyyətlərini, eybəcərliklərini gördükdə çılğınlıq halından səbrə yol alır. Lirik qəhrəmanın mövqeyi şairin poetik baxışında əslində mühit və insan, zaman və şəxsiyyət probleminin bədii həllidir. X.R.Ulutürk insan və zaman, zaman və şəxsiyyət problemlərini tez-tez qaldırır, onları zamanın, həyatın realist xüsusiyyətləri baxımından əks etdirir, ictimai-sosial mühiti fərdi-psixoloji düşüncə prizmasından işıqlandırır. X.R.Ulutürkdə ictimai mühitə, sosial həyata baxış birbaşa deyil; o, psixoloji-mənəvi obraz-xarakter münasibətlərindən görünür; əslində mühit və eybəcərliklər insan və şəxsiyyət münasibətlərindən alınıb oxucuya çatdırılır ("Çılğınlıqdan dözümə keçid" (1984), "Verin mənim haqqımı" (1984), "Heç bir ehtiyat" (1986) və başqaları).

80-ci illərin şeirlərində lirik qəhrəman mühitə, eybəcərliyə münasibətində birbaşa tənqid yolu tutur, buna görə o, II şəxsə müraciət formasını əsas götürür. Xəlil Rza lirik qəhrəmanın nifrəti, kin-küdurəti güclü olduğuna gö-

rə böyük ölçülü, güclü intonasiyalı fərmanı işlədir, belə əsərlərdə poetizm az, publisistik-ritorik intonasiya artıqdır. "Bilmirsən, deyim öyrən" (1980), "Verin mənim haqqımı", "Çılğınlıqdan dözümə keçid", "Sənin ölümünü gözləyənlər var" (1986), "Sən inanma məddahlara" (1986), "Türk sözündən qorxan gəda" (1986) və başqa əsərlərində məhz belədir. Ümumiyyətlə, X.R.Ulutürkün "Hər bir əsərində yeni bir intonasiya ahəngini eşidirik. Şeirimiz inkişaf etdikcə, onun yeni-yeni formaları yarandıqca, bədii dilimizin intonasiya vasitələri də inkişaf edir" [7, s.156].

X.R.Ulutürk yalnız ictimai səviyyədə, mahiyyətli məsələlər əsasında düşünür; lirik qəhrəman üsyankar, inkarçı mövqeyi ilə görünür. Çünki o, düzgünlük tərəfdarıdır, haqq onundur:

*Vermə mənim haqqımı!*
*Mən sənət səngərində yaşar Xəlil Rzayam.*
*Qurtuluş versə yurda, ölməyə də razıyam,*
*("Verin mənim haqqımı")*

"Ölüm" anlayışı X.R.Ulutürkdə miqyaslı fəlsəfi mahiyyətdir, X.Rzada ölüm milli ideal və taleyi təqdir və təsdiq deməkdir. "İgidlər, dahilər" şeirində şair həyat, ölüm haqqında fəlsəfi mühakimələr yürüdür. İnsan dünyanı dərk edəndə, ağla, zəkaya söykənəndə yaşarılıq tapır. Bununla da şair ölümdən sonrakı ölümsüzlüyü, ruhun yaşantısını, təsəvvüflüyü qəbul edir. Ölümün mahiyyəti Xəlil Rzada belə açıqlanır:

*"Ölən öz-özünü yaşatmayırsa,*
*Onu heç bir qüvvə yaşada bilmir".*
*"Həyatdan hamını qoparır ölüm*
*Yalnız dahilərə toxuna bilmir".*
*"Ölüm elə bil ki, qurd oğlu qurddur,*
*Qorxur dahilərin göz işığından".*

Ölümün fəlsəfi-məntiqi mahiyyəti X.R.Ulutürkdə belədir: ölüm - düşmənə təslimçilik, döyüşdən qaçmaq, eli-

ni atmaq, dilini satmaq, ilhamsızlıq, məqsədsizlik, yad qapazı altında yaşamaq, ləkə yaxmaq, haqqı yeməkdir, şərə salmaqdır, elin gözündən düşməkdir, şöhrətpərəstlikdir, yad qoynuna girməkdir. Lirik qəhrəman həm ictimai naqislikləri göstərir, onu sarkazma qədər tənqid edir, həm də yol göstərir, istiqamət verir. Onun poetik nəzərindən, mövqeyindən antipodun, eybəcərliyin maddi-mənəvi vəhdəti, təzadı görünür ("Sənin ölümünü gözləyənlər var").

X.R.Ulutürkün 80-ci illər şeirlərində janr kimi fərdilik tapan ictimai pamfletləri (poema-pamflet) vardır: "Bilmirsən, deyim, öyrən" (1980), "Türk sözündən qorxan gəda" (1980), "Bədxaha açıq məktub" (1984), "Sən inanma məddahlara" (1986), "Təslimçi" (1986), "Sən alçaqsan" (1986), "Sağlıq diləρəm sənə" (1987), "Məddah" (1987), "Başkəsən" (1987) və başqaları. Şair 80-ci illərin şeirlərində pamfletin yetkin nümunələrini yaratmışdır. Həcv, ictimai pamflet xüsusiyyətlərini X.R.Ulutürkün əvvəlki illərdəki əsərlərində də hiss etdirirdi ("Qalstuklu canavar", 1967). Lakin 80-ci illərdə Xəlil Rza tənqid obyektini birbaşa ifşa üsulu, kəskin jarqonlardan, metaforalardan, rəmzlərdən, metonimiyalardan istifadə əsasında daha ciddi, kəskin qırmaclayır. Belə mövqe X.R.Ulutürkün tənqid pafosunu daha da coşdurur, bəzən ona ifrat ifşaçı xüsu-siyyəti də gətirir. Belə olanda X.Rza qarşt tərəfə "gor-bagor", "ölücan", "baxar kor", "haramxor", "kişi olmayan pişpişilər", "əqrəb", "soxulcan", "göstəbəklər" damğasını basmaqdan belə çəkinmir, ona görə ki, sərt ifşa üsulunun tərəfdarıdır, ictimai-siyasi məzmun onun əsərlərinin ruhu və canıdır:

*Əl altından yurdü satan alçaqlara inanma sən*
*Üzdə nazir, rektor, katib...*
*içəridən dustaqlara inanma sən.*
*Sən inanma səni boş-boş öyənlərə,*

*Daim hazır yeyənlərə,*
*qaraya ağ deyənlərə.*

X.R.Ulutürkün tənqid, ifşa, satira, həcv pəncərəsindən torpaqsatanları da, mənəvi-cismani əsarətdə yaşayan müxtəlif vəzifə sahiblərini də, dilinə, elinə-yurduna biganə olanları da, saxta elm sahibi olan alimlər, qəzetçilər, redaktorları da, bir medaldan ötrü məslək və amalını satanları da, arxalı gürzələri, dinozavrları da görürük. "X.Rza həcvi kəskindir, ehtiraslıdır, qəzəblidir, başlıcası ictimaidir. Şair dəqiq müşahidə etdiyi sosial xəstəliyi tipikləşdirib verir, boya qatılığı, təşbeh düzümü ilə öldürücü effekt yaradır, ifşa obyektini təkrar-təkrar qamçılamadıqca, qeyri-əxlaqi mahiyyətinə varmadıqca, ondan əl götürmür. Həcv bunu sevir: vəzifəli bürokratlar burada "boynunda qalstuk gəzdirən əfi", "möhürlü-hökmlü cə-nazələr", "maskalı dəyyuslar" və s. şəkildə damğalanırsa, növbənöv mənəviyyatsızlar – "boşqab dibi yalayan", "sürünənlər", "əqrəblər", "güvə", "soxulcan" kimi epitetlərlə, əxlaqca naqis adamlar – "ağciyərlər", miskinlər, cırlar", "bərk ayaqda əfəllər", "pişpişi", "dəngül-düngül adamlar", "Şəngül, Məngüllər" və s. sifətlərlə səciyyələndirilir, ümumiləşmə məqamında həcvçinin özü də qəzəbi, nifrəti, barışmazlığı ilə obraza çevrilir" [59, s.75].

X.R.Ulutürk ictimai-siyasi pamfletlərində də fərdilikdən uzaqdır, o, geniş ictimai məzmunda tənqid hədəfinə yanaşır; şair xalqın yaraları, ictimai-milli naqisliklərin səbəbləri haqqında poetik mühakimələr yürüdür; millətin tərbiyəsini pozan ictimai bəlaları, eybəcərlikləri aşkarlayır:

*Bu cür alçalmasaydın, ya sizlər olmasaydı,*
*Bu qədər müti qullar, kənizlər olmasaydı,*
*Fər önünə səd çəkən fərsizlər olmasaydı*
*Bu qədər gözü aclar, acizlər olmasaydı,*
*Olmasaydı bu qədər ləin, yava, başkəsən,*
*Aləm mənim xalqıma əhsən deyərdi, əhsən.*

*("Açıq konuşma")*

Şair ona qəzəblənir ki, milli şüuru, məfkurəsi, idealı olmayanlar, xalq taleyinə acımayanlar məsul vəzifə icra edir. Şair belelərini təslimçilər ("Təslimçilər") adlandırır. Elə də olur ki, belələrini təkcə tənqid, ifşa yox, həm də onları nə qədər ki, gec deyil ("Nə qədər ki, gec deyil"), əqidə, məslək, milli mübarizə cəbhəsinə dəvət edir. Fəqət hamısınımı? Yoxsa...

*Damarında qalıbsa barı bir damla qanın,*
*Yarım misqal vicdanın.*
*Tamam yox olmayıbsa təmizliyin, imanın*
*Gəl keç bizim cəbhəyə!*

*("Nə qədər ki, gec deyil...")*

Xəlil Rza dildə yadlaşma siyasəti yeridənləri, yabançı düşünənləri, türklüyü-kökü inkar edənləri kəskin ifşa edir. Belələrinə "Sən alçaqsan" deməkdən belə özünü saxlaya bilmir ("Sən alçaqsan", "Sağlıq dilərəm sənə"). Şair bu qədər miqyaslı ictimai rəzalətləri, rəzillikləri gördükcə qəzəblənir ("Qəzəbliyəm"). Qəzəblənir ona görə ki, onlar "Vətəni döndəriblər dərdlər, qəmlər kələfinə".

X.R.Ulutürk milli-psixoloji məqamları, gündəlik vərdişləri, adətləri, reallıqları şeirə gətirir, belə olanda şair insanlarda "kişilik" görmək istəyir:

*Bəlkə çörəksiz də keçinərəm mən,*
*Başqadır tələbi qanın, qeyrətin:*
*Günəşdən, havadan, sudan da vacib*
*Kişilər olmasa, yaşamaq çətin.*

*("Bəs niyə susdun?")*

Şair siyasi mətləblər irəli sürür. 80-ci illər şeirlərində şair xalq, Vətən talebyini tez-tez sözə gətirir. İdeal uğrunda şəhid olmağı isə labüd hesab edir:

*Heç bir mətləbinə çatmayacaq yurd,*
*Əgər biz olmasaq dada yet, Xızır, -*
*Sən mənim uğrumda ölməyə hazır,*

*Mən sənin uğrunda ölməyə hazır!*

*("Bəs niyə susdun?")*

Şair yurdu, milləti həm də suçlu ona görə bilir ki, rütbələrə yalmanan bu "mənəvi cılızlar", "milli dələduzlar", "mənliyi axtalanmış növ-növ saxtakarlara" göz yumur, onları "dartıb dar ağacına" qaldırmır - etinasızlıq, biganəlik göstərib bağışlayır.

Günümüzün, ictimai-siyasi şəraitimizin reallıqlarını daha tutarlı əks etdirən "Silahlan" şeirində Xəlil Rza Ulutürk həm sovet imperiyasının ifşası, həm də milli-azadlıq qurtuluşunun pafosunu əks etdirir. "Azadlığı həyatın mənası, insanlığın bahar çağı kimi götürən şair eyni zamanda həmin ideyanı mücərrəd bir istək, yaxud əlçatmaz arzu kimi deyil, real və aydın bir amal, səadət axtarışları yollarının uğurlu nəticəsi kimi təqdim edir" [3, s.69]. "Silahlan" lirik qəhrəmanın - şəxsiyyətin milli çağırış ruhunu, ictimai-sosial həyatın müxtəlifliyini poetik vüsətlə, ciddi münasibət və müdaxilə çərçivəsində obrazlı, təsirli əks etdirir. Şeirdə şəxsiyyətin - milli qəhrəmanın səviyyəsindən millətə və cəmiyyətə üz tutulduğunun, ifşaçı, bahadır mübarizliyin canlı şahidi oluruq. Bu əsər X.R.Ulutürkün milli azadlıq hərəkatına fəal müdaxiləsinin bariz nümunəsidir. 1988-ci ildən etibarən o, tarixi şəxsiyyət, gerçəklikdə milli xarakter yetkinliyinə daxil olur. X.R.Ulutürk həyatında, şəxsiyyət və yaradıcılığında yeni parlaq səhifələrin açıldığını təcəssüm etdirir. "Silahlan" əsəri ermənilərin Azərbaycana hücumlara başladığı, Topxana meşəsinin qırılıb ermənilərin ehtiyaclarına sərf olunduğu, azərbaycanlıların əllərindən ov tüfənglərinin alındığı günlərdə - aktual, patetik, publisistik, tribun mövzu kimi meydana çıxmışdı və millətin inam, əqidə, barışmazlıq və üsyan qələbəsini ifadə etmişdi. X.R.Ulutürk millətin inamını təkcə onun iç dünyasına, milli qürur və heysiyyətinə görə təcəssüm etdirməmişdi.

O, Azərbaycanın azadlıq və mübarizə tarixini ilk öncə

Gəncə, Bakı dəyənəklə, tüfənglə susmayanda, Sumqayıtın vitrinləri çilik-çilik çiliklənəndə, Şuşa bəndə düşəndə, Ağdam yalın əllərini yumruqlayıb döyüşəndə, Türkiyə kimi qardaş dövlətlə təmasda, qüdrətdə gördü və təcəssüm etdirdi. Təcəssüm etdirdi ki, milli xilas və müstəqillik həm də turançılığın vəhdətində - "köksümüzün türk adlanan sengərindədir" ("Nə yaxşı ki...", 1988).

1988-ci ilin əvvəllərindən başlayan milli azadlıq hərəkatı X.R.Ulutürkü stol səngərindən çıxarıb Vətən səngərinə çəkmişdir. O, elində kitabı, dilində yanar sözü ilə Koroğlu, Dədə Qorqud kimi bütün yurdları, elləri dolaşmışdır. Azərbaycanın bütün bölgələrində, xalq arasında inqilabi iş aparmağa, ictimai xadim və milli şəxsiyyət olmağa başlamışdır. O, imperializmə, rus imperiyasına, erməni separatizminə, şovinizminə, antibəşəriliyinə qarşı ciddi etiraz mövqeyində dayanmışdır - sözün səngəri Vətən səngəri olmuşdur. Mücahid şair "Silahlan" deməklə əslində düşmənlə təkcə sözlə yox, həm də silahla döyüşmək, döyüşməyi bacarmaq əzmində, əzəmətində durmuşdur.

X.R.Ulutürk 1988-1989-cu illərdə siyasi çağırışçı, təbliğatçı olmaqla bərabər, şair kimi "Siz gedəndən sonra", "Sevgilim", "Azərbaycan - türk salamı", "Azadlığım", "Sən məndən ürəklisən" (1988), "Xudu müəllim" (1988), "Kişilərə arxalanaq", "Şair qəhrəmanlığı" (1988), "Sarsılmazdır qüdrətim" (1988), "Sumqayıt dastanı" (1988), "Nə yaxşı ki", "Silahlan", "Tonqallar meydanı", "Azərbaycan", "Ağdam", "Xoş məqam", "Qalx ayağa, Azərbaycan", "Azadlıq meydanı", "Tanklar Bakıya girən gecə", "Şuşam", (1989), "Telefonu kəsdilər" (1989), "Dinlə məni balam Tomris" (1989), "Qəhrəman Süsən xanım" (1989), "Salam, mənim qardaşlarım" (1989), "Mehridən keçəndə" (1989), "Qara tabutlar gəlir" (1989), "Döyüşlərdə gəncləşirəm" (1989), "Yaşasın od yurdu, qardaş Türkiyə" (1989), "Bu meydanda, bu meydanda"

(1989), "Davam edir 37" (1989), "Yaşasın Xalq Cəbhəsi" (1989), "Müstəqillik" (1989), "Qaldırdım cüt yumruğumu" (1990), "Qanlı cəllada" (1990), "Qorxma, mən sarsılmaz dağ qalasıyam" (1990), "Qovacağız" (1990), "Milli satqın" (1980-91) və başqa əsərlərini yazıb çap etdirmişdir. Həmin əsərlərin əksəriyyəti milli demokratik hərəkatın ictimai-siyasi mənzərəsini əks etdirən əsərlərdir. Bir tərəfdən türk dünyasmm birliyi, tərənnümü, digər tərəfdən xalq iradəsi, azadlıq ruhu, qürur türküsü, xalq cəbhəsi, Nəsiminin, Sabirin ... səsi ideya-məfkurə qay-nağı kimi milli-azadlıq hərəkatı nəhrinə dolmuş, digər tərəfdən Xəlil Rza Ulutürk özü inqilab bahadırı, Koroğlu, Dədə Qorqud kimi - Qələm və Qılınc timsalı kimi görünmüşdür! "Azadlığım - dövlət sərhədim" deyən mücahid şair milli Manifestini - Proqramını elan etmişdir. Onun adı Azadlıqdır! Şairi dəmir qəfəslərə, Gülüstam və Türkmənçayı qanla yazan bir məhbəsə aparan Azadlıq! Bu Azadlıq M.Müşfiqin "Mənim azadlığım mənim işimdir, Həyatım, taleyim, yüksəlişimdir" - misalında olan bir Azadlıqdır!

*Təmkinlə hərlənən Yer kürəsiyəm,*
*Mənim Azadlığım, mənim gücümdür.*
*Mənim Azadlığım qan soranların*
*Cındır maskasını yırtmaq üçündür!*

*("Azadlığım")*

Şairin Azadlığı çoxlarının, əksəriyyətin dərk edə bilmədiyi səadətdir! Yerə-göyə sığmayan hakimiyyətdir! Balasını, laləsini, göz odunu, ağız dadını, nəhrini verməyə hazır olan qüdrət sahibi "vermir göylər boyda Azadlığını"! Bu Azadlıq yalnız onundur - dirilik suyu tək qovuşduğu, tapındığı Azərbaycandır! Damarlarına sıxılmış bu güc, bu qüdrət tükənməyən xalq nəhrini, xalq qüdrətini, iradəsini çəkib gətirir. Xəlil Rza Ulutürk "lapdan görür: dağlar gəlir elin boynunda, boynunda!" Buna görə də hədələyir ki, "dar gözünü geniş açsın Qoy üç yüz min

türkazəri, pərən-pərən, darmadağın edən qüvvət...” X.R.Ulutürkün Azadlığı xalq qüdrətindən qaynaqlandığına görə həm də qürur gətirir. “Nəhrlər coşursa kişi qa-nında, çiyni daşıyırsa qüdrət dağını, uça bilməlidi ucalığım”. Ucalıq dahilikdir! X.R.Ulutürkün dahiliyi Nəsimiləri, Füzuliləri, Sabirləri - zirvələri qovuşduran nurdur, zəkadır. Həmin ucalıq ve dahilik şairi “bütün əsrlərin övladı edib, əbədi zamana, ölməzliyə qovuşdurur”. X.R.Ulutürkün keçmişdən gəlib gələcəyə üz tutması xalqı ilə birgədir. Buna görə də 1989-1990-cı illərin şeirləri də xalq idealları, xalq taleyi ilə daha sıx bağlı olan siyasi şeirlərdir. X.R.Ulutürk bu illərdə “Düşmən amansızdır, yoxdur orta yol” deyə ancaq imperializmin qatı düşməni, milli azadlıq bahadırı kimi görünmüşdür. “Qalx ayağa, Azərbaycan”, “Gəlir böyük Azərbaycan”, “Azadlıq meydanı”, “Silahlan” deyən şair və onun qəhrəmam 1988-1990-cı illərin şeirlərində Azərbaycanın milli azadlıq hərəkatının içindən keçir. X.R.Ulutürkün baş vurmadığı yer, diyar, bölgə qalmır, inqilab bahadırının hər yerdən qadir, qüdrətli səsi gəlir, xalqı çağırır, təşkil edir və döyüşür! Torpaq, Vətən, Azadlıq düşmənlərinə qarşı yazır və döyüşür! X.R.Ulutürk poeziyasında milli azadlıq hərəkatının ciddi, işıqlı və müqəddəs kədər səhifələri zəka nuru ilə işıqlanır. Həmin zəka və poeziya nuru azadlığın öz “tonqallarından” gəlirdi. Sənətkar “Tonqallar meydanı”, “Azadlıq meydanı” ilə “səbr eylə”, təvəkkül fəlsəfəsini bir araya sığdıra bilmir, onu geri çəkmək istəyən qüvvələrə qarşı irəlini nişan verirdi. “Tonqallar meydanı” şairə görə, 30 milyonluq azəri türkünün, qarşısını tankların belə ala bilmədiyi ülfət meydanıdır. Bu meydan “Azərbaycanın bu gün özü boyda doğduğu Azərbaycandır”. Bir ucu Təbriz, bir ucu Dərbənddə olan Azərbaycandır. Bu yeni Azərbaycanı doğan, “göyə dayaq, yerə mərkəz olan bahadırlar ölə bilməz”:

*Bu meydanda mən tanıdım hağrı tonqal igidləri,*
*Alnındakı ipək qaytan, qırmızı, al igidləri.*
*Cəbhədaşım, səngərdaşım o ideal igidləri.*
*Bu meydanda anladım ki, adi ocaq pir olarmış.*
*Mələk kimi, quzu kimi qızlar dönüb şir olarmış!*

*("Tonqallar meydam")*

"Azərbaycan - aləmin Azadlıq meydanıdır" - deyən şair Azadlıq, tonqallar meydanında həm də xalqın birliyini, qüdrət və əzəmətini, cəbhəsini görür, əslində görməkdən çox Vətənə nicat verən qüvvə yalnız həm də özü olduğunu dərk edir.

Xalqın cəbhəsi, səfərbərliyi ona görə yaranıb ki, "gözlərimə tuşlanıb bu gün düşmən gülləsi":

*Qarabağ ürəyimdir, Şuşa gözüm giləsi,*
*Gözlərimə tuşlanıb bu gün düşmən gülləsi,*
*Bircə an əl saxlasa min-min Bakı fəhləsi,*
*Bizə kəc baxanların kəsiləcək nəfəsi.*
*Yaşasın Xalq Cəbhəsil*
*Şair amalında, inam və məramında israrlıdır;*
*Azərbaycan - aləmin Azadlıq meydanıdır,*
*Kişi kibi yaşamaq inamıdır, canıdır,*
*Yurdu yalnız ərənlər, qəhrəmanlar tanıdır*
*Ölümündən keçənlər - xalqın zəfər nəğməsi,*
*Darmadağın edəcək düşməni Xalq Cəbhəsi.*

Şair inam və məramında qərarlı olduğu qədər səfərbərdir, yaraqlıdır:

*Haray Sərab, Ərdəbil, haray Dərbənd, Naxçıvan!*
*Al, gözümü verirəm, ey ulduzsuz asiman.*
*Gəlsin, kimdə qalıbsa barı yarım damla qan,*
*Yıxaq, Bayılda çöksün Bastiliya qələsi*
*Yaşasın Xalq Cəbhəsi!*

Planetin dincliyi, bəşəriyyətin bəklədiyi səadət yalnız qüvvələr birliyindədir:

*Sular məni aparsa, mən ona sel deyərəm,*
*Yel palıdı qoparsa, qasırğa, yel deyərəm,*

*Zərbi kərən sındıran bir elə el deyərəm,*
*Yelin, selin, elin də birlikdədir qüvvəsi,*
*Təpiyinlə əzilsin qoy əqrəblər zümrəsi,*
*Planeti qoruyur ayıq arslan pəncəsi,*
*Yaşasın ayıq arslan! Yaşasın Xalq Cəbhəsi!*

Planet, bəşəriyyət qüvvələr birliyini, humanizmi tarixi yaddaşa çevirəndə dincik tapa, yaşaya bilər. Bu ümumi ideyadan - ayrılmalara keçidi - fərdlərdə yaşanan bəşəri yaddaşı şair məşhur "Davam edir 37" şeirində inikas etdirmişdir. Sənətkar düşüncə və məntiqin, həyat fəlsəfəsinin müsbət emosiyasından mənfi olanları ayırır, tarixin qaranlıq səhifələrinə işıq tutmaqla əslində "qan qırmızı geyənləri" qaraldır:

*Yox, unuda bilmərik biz xeyir cildi geyən şəri,*
*Yüz minləri... qanunsuz və məhkəməsiz*
*gülləbaran edənləri.*
*Azərbaycan tanımışdır vaxtsız qapı döyənləri,*
*Qara günlər gətirərkən qan qırmızı geyənləri.*

*("Davam edir 37")*

Sənətkar sadalama intonasiyasında tarixin dərinliklərinə enir, başımıza gəlmiş tarixi həqiqətləri göstərir. Göstərir ki, anla, unutma:

*Rəhbər, xadim sayılırdı baş kəsənlər, göz oyanlar,*
*Haqq bağıran boğazlara qurşun tökdü*
*Markaryanlar, Qriqoryanlar*
*Yanda durdu Topuridze, asta cəllad, usta cəllad.*
*Adı doğma, ürəyi yad*
*Cin Cəfərin əllərilə viran qaldı xanımanlar.*

*("Davam edir 37")*

Repressiya illərində İ.Stalinin göstərişi ilə əlaqədar olaraq, M.Bağırovun əmri əsasında 74 mindən artıq insan taleyi güllə işığına tuş gəlmişdir. X.Rza dünən başımıza gələnlərin etnoqrafik təsvirlərini verir, özümüzü göstərməklə əslində bizi yaddaşımıza çəkir, çeşid-çeşid əməlləri və biəməlləri təqdim edir. Gör, anla, unutma:

*Yox, unuda bilmərik biz iş başında omba duran*
*gürzələri,*
*Naxçıvanda DTK-da çirmək qollu dilavəri.*
*Alnı kərpic, gözləri tum... mirzələri.*
*Əllərində daşdan keçən casusnamə ərzələri,*
*Tribunadan "vətən" deyə, "millət" deyə vəz eləyən*
*hərzələri.*

Bahar Müşfiqlər, nur heykəli Cavidlər, dağ bülluru Yusif Vəzirlər, yalçın qaya Əhməd Cavad, Qoç Koroğlu Sanı oğlu Hacı Kərim, ulduzları salxım kimi dərən Çobanzadə Bəkirlər, bu dərdləri öncə sezib tab gətirməyən Cəfərlərlə "təpərimiz, kəsərimiz, hünərimiz" qurtarıb-tükənmirdi. Çünki onların işığıyla zəka və əməllərinə görk olan nəsillər gəlirdi. X.R.Ulutürk fəlsəfəsinin mahiyyəti də ondadır ki, itməzlikdə, "kəsilməzlikdə", əksliklərin vəhdəti və mübarizəsində həm də xeyirlə şər - əməllə əməlsizlik ikiliyini vəhdətdə götürüb mahiyyəti göstərirdi. Mahiyyət də budurki:

*Elə bilmə o dəhşətli yanğın bitdi, batdı getdi,*
*Hələ durur, davam edir 37.*
*O yaşayır qorxularda, hürkülərdə.*
*" - Bəlkə bir də qaytarıldı"...*
*"bəlkələrdə",*
*Vicdanları basıb yeyən ləkələrdə, kölgələrdə.*

X.R.Ulutürk mahiyyətə varır ki, insanla onun psixoloji-mənəvi məcmusu arasındakı təzadlarda fəsadlar, mənfiliklər davam edir, mənfiliklər böyüyəndə, böyük olanda faciələrə, fəlakətlərə aparıb çıxarır. Ona görə də şair görür ki, hələ də davam etməkdə olan "37"-lərin səbəb və səbəbkarları, başçıları bir milləti yetmiş yerə bölənlərdir, rütbə, şöhrət üçün ölənlərdir, kabineti, vəzifəni gözlərinə təpənlərdir, istedadı addım-addım pusanlardır, xalq dərdinə susanlardır, 300 min türk didərginindən yazmayan mətbuatdır, başçı olan başsız canlardır, millətin mənliyini talayanlardır, əxlaq dərsi verən fərarilər, boş-

qab dibi yalayanlardır. “Demokratiya”, “Aşkarlıq” deyə-deyə boğaz yırtanlardır. Xankəndidə evlər yıxıb, ürək yıxıb cəzasız qalan yırtıcılardır, xalq şairi olub xalqa yad olanlardır, mütləq dahi istedad hesab olunan rütbəlilərdir, harda aş, orda baş olub yalmananlardır. Ona görə də şair çağırışla, diqqətlə xitab edir ki, gör, anla və unutma:

*Nə qədər ki, Bakımıza püskürdülür ölüm tozu,*
*Təyyarələr zəhərləyir o kolxozu, bu sovxozu.*
*Nə qədər ki, cocuq qanı pestisidlə mayalanır,*
*Aşımıza qatır alçaq yüz fitnəni, yüz yalanı.*
*Nə qədər ki, Ovçarenko dəstəkləyir Balayanı,*
*Milli gəda Boroviki, Ağanbekyan min ilanı,*
*Nə qədər ki, canımızda qan sorucu min gənə var,*
*Mənim isti sözlərimə soyuq baxan biganə var*
*O xəyanət sanma bitdi,*
*Davam edir 37.*

Şeiri və özü cinayətlə dava edən X.R.Ulutürk görüb, dərk edib unutmurdu ki, onu aparan ideal və tale yolunun üfüqləri işığa, aydınlığa yox, məhz dumanlığa dirənirdi. “Qorx ki, bir gün Vətən deyə Xəlil balam qurban getdi” -gerçəkliyində dayanan şair inanırdı ki, idrakın və qüdrətin günəşi həmin dumanları dağıdıb odu, işığı gətirəcək, Allahın sirrini - Azadlığı Azərbaycana yetirmək, Günəşi gətirmək üçün istiqlal bahadırının yolu zindandan, Lefortovodan keçəcək.

X.R.Ulutürkün milli idealı - Azərbaycanın azad, müstəqil dövlət müəyyənliyi birbaşa, açıq-aşkar bədii ifadəsini 80-ci illərin şeirlərində alır. Şairin vətənpərvərlik və xəlqiliyində dövlət müstəqilliyi idealı xüsusi yer tutur. Azadlıq və müstəqillik ideyaları X.R.Ulutürkü ön cəbhəyə çıxarır. Onun lirik qəhrəmanına milli xarakter aşılayır, onu azadlıq və demokratiya hərəkatına hazırlayır. Şair ötəri, geniş zövq və qəlb istəyindən uzaqdır. O, ictimai-milli, bəşəri ideallarla nəfəs alır:

*“Varlıq” dərgisindəki ana dilli misralar*
*milyon-milyon ürəkdə*
*qüdrət, cürət olanda,*
*Yer üzündə ən şirin bir xəyala dalanda*
*Böyük, azad, müstəqil...*
*Davalaşan köksünə bu sözlər yazılarsa,*
*Söz həqiqət olarsa,*
*mənə qismət olarsa,*
*onda...*
*dincələrəm mən.*
*Ölsəm belə dünyaya yenidən gələrəm mən.*

*(“Gül yastıq”)*

## 2.2. Poemalarında tarixə baxış və istiqlalçılıq

X.R.Ulutürkün poema janrına münasibəti lirik şeir yaradıcılığı ilə müvazi başlanmışdır. Biz ümumən poemalarını deyil, poemalarındakı millilikə bəşəriliyin ideya məzmununu tədqiqata cəlb edəcəyik. Bunu mövzu və problematikanın qoyuluşu tələb edir.

Sovet poemalarından tədqiqat əsəri yazmış X.R.Ulutürk ümumiləşdirirdi ki, “C.Cabbarlının əfsanə-poemasından sonra (“Qız qalası”) H.Cavidin “Azər”i zamanın geniş lövhələrini çəkən fəlsəfi poema nümunəsi kimi diqqəti cəlb edir. Səməd Vurğun istedadı, mənzum romanları ilə yarışa biləcək epik qüdrətli poemaların sovet dövründə də yarana biləcəyini sübut edir (“Komsomol poeması”, “Aygün”). S.Vurğunun “Bakının dastanı”, “Muğan”, “Zəncinin arzuları”, R.Rzanın “Füzuli”, “Nəsimi”, S.Rüstəmin “On ikinci tüfəng”, M.Dilbazinin “Aliyə”, B.Azəroğlunun “Bakı səfəri”, B.Vahabzadənin “Əbədi heykəl”, “İztirabın sonu”, “Etiraf”, “Şəbi-hicran”, “Qəm içində sevinc”, “Uçun, nəğmələrim”, “Vaxt, sürət, fikir”, H.Hüseynzadənin “Yolda”, “Dilqəm”, Ə.Kərimin “İlk simfoniya”, “Üçüncü atlı”, “Qardaşın heykəli”, Ə.Kür-

çaylının “Durnalar Cənuba uçur”, C.Novruzun “Kəndimizin antik heykəli”, “Qərbi Berlin”, S.Tahirin “Cavab versin tarix mənə”, N.Həsənzadənin “Nəriman”, “Zümrüd quşu”, S.Rüstəmxanlının “Bütövlük”, M.Arazın “Üç oğul anası”, “Atamın kitabı”, F.Qocanın “Təkərlər geri fırlanır”, “Ulduzlu düşüncələr”, R.Zəbioğlunun “Zindan” və başqalarının istər epik, istər lirik, istərsə də epik-lirik poemanın müasir ədəbiyyatımızda çox sürətlə inkişaf etdiyini və janrın yeni xüsusiyyətləri ilə zənginləşdiyini göstərir”. (Şairin arxivindən. “Poemada ənənə və novatorluq” məqaləsi) [317].

X.Rzanın iri həcmli epik əsərləri həmin gələnəyin davamıdır. Şairin “Məhəbbət dastanı”(1957-59) poeması Azərbaycanın qəhrəman oğlu, qvardiya mayoru Əliheydər İbrahimov və onun həyat yoldaşı Asiya Hüseynzadəyə həsr olunmuşdur. Poema süjet ardıcıllığına malik deyil, yarımbaşlıqlardan yığılıb şair məqsədini ehtiva edəcək keyfiyyətdədir.

Əliheydər müharibəyə getmişdir. O, döyüş zonasındadır. Qəzetlər onun şücaətindən yazır. Asiya Hüseynzadə isə neft mədənində çalışır. Ə.İbrahimov Kiyev, Odessa, Sevastopolda müharibə yolu keçmişdir. O, qatarı idarə edəndə düşmən gülləsi qatarın şüşələrini qırıb tokmüş, mayor İbrahimov 40 yaşında gözlərindən xəsarət almışdır.

Poemada qadının ərə sədaqəti, vətən və vətəndaş sevgisi, ananın övladına gözlərini belə bəxş etmək istəyi milli planda olduğu qədər bəşəri məzmundadır. Şərqin Leylisi misalında olan belə məhəbbət misalları Qərb, dünya şairləri üçün örnəkdir; el qəhrəmanları, məhəbbət dastanları əbədidir.

Xəlil Rza bəşəri düşüncələrini S.Vurğun kimi lirik ricətlərdə vermiş, dünyada baş verən hadisələrə ümumiləşdirilmiş nəzər yetirmiş, Çin, Polşa, Almaniya, Afrika, Macarıstan, Misir, Koreya, Cənubi Azərbaycanın inqilab

hərəkatını xatırlamışdır. Şair xalqların taleyi kimi, Xirosima dəhşətlərinə etiraz edir. Lirik qəhrəman bütün dünyanı: koreyalını, misirlini köməyə çağırır, hər bir ailənin davadan çəkmiş bəlalarına qəlbən acıyır, ağrıyır. Müharibənin gətirdiyi fəlakətlər: anaların göz yaşları, gənclərin silaha sarılmaları, ölümlər, itkilər, yatağa düşən ata - bütün bunlar sadalama, məlumat intonasiyasında oxucuya təqdim olunur.

"Atalar – oğullar" poeması da müharibə mövzusundadır. Lirik mühakimə ilə başlayıb təhkiyə intonasiyasında davam edir. Xəlil Rza milli-bəşəri idealları, taleləri sanki ərzi fırladan ata əlləri ilə bağlayır; Romanı titrədən Spartak Əli də, Fransanın Marat bayramı da, bütün üsyanların, inqilabların döyüş bayraqları da ata əlləridir.

Mövzuya münasibət epik təsvir səviyyəsində deyil, atanın keçdiyi döyüş yollarını xatırlatmalardadır; Kiyev, Taqanroq və Praqadakı "zəhmli tankların tırtıllarına dolaşıb az qala bu yer kürəsi" - deyən şair kərpic-kərpic tikilənləri şəhər-şəhər viran qoyanları ittiham edir, həm də inamında qərarlıdır ki, yaxşı ki "yenə qorundu kainat".

"Bayatı-Şiraz" (1964-72) da Xəlil Rzanın lirik poemalarındandır. Əsər torpaqşünas alim Barat Cəfərliyə, Zaqatalanın təbii gözəlliklərinə həsr edilmişdir.

"Muğam dünyasında" bölməsində İnsanın kökünə, ilkinliyinə bağlılığı ifadə olunur:

*Dağlar özü boyda kök atır yerə,*
*İnsan daha dərin kök üstündədir.*
*Bizim ayağımız çəkmələrdə yox,*
*Keçmiş eraların özülündədir.*

Şair İnsan və dünya - bir-birinə qahmar duran vəhdəti həm milli, həm də bəşəri dəyərdə mənalandırır. İdeal dünyanın keşiyində durmaq, onu qorumaqdır:

*Kişiyik. Doğrudan kişiyiksə biz,*
*Bizə can verənə can verməliyik.*

*Təkcə Zaqatala qoruğunu yox,*
*Bütün planeti, bütün dünyanı*
*Bəşər qoruğuna döndərməliyik.*

"Qanadlılar" poemasının mövzusu da təbiətdən, Qızılağac qoruğundan bəhs edir. Şair təbiətin dilini dərindən bilir. Əsərdə əsas ideya bəşərin həm də təbiətdən öyrənməsidir.

*İldırım faş etdi elektriki,*
*Arıdan öyrəndik şan qurmağı da.*
*Lalədən öyrəndik, qızıl lalədən*
*Badəni eşq ilə doldurmağı da.*

*Qoruya bilmosək qanadhları,*
*Özümüz qanadsız qalasıyıq biz.*
*Məgər biz özgəyik? Bu təbiətin*
*Bir azca ağıllı balasıyıq biz.*

Xəlil Rza dünyanı qorumağı, ona diqqətcil olmağı təlqin edir, gizli axarları get-gedə aşkarlayır:

*Əqrəblər, gürzələr qorxulu deyil,*
*Birinci qorxumuz biganəlikdir.*
*Məhəbbət olmasa, ülfət olmasa,*
*Dünya balsız qalan quru pətəkdir.*

"Əfsanəli bir ölkə" (1977) də təbiət mövzusundadır. Əsər X.Rzanın akademik Həsən Əliyevin "Həyəcan təbili" kitabını oxuyarkən aldığı təəssürat əsasında yazılmışdır.

Xəlil Rza yeri gəldikcə təbiət hadisələri əsasında assosiasiyalar, bənzətmələr, paralellər apararaq azərbaycançılıq ideyanı tərənnüm edir; təbiət və insan, təbiət və xalq birliyi, ideal və taleyi canlandırır:

*Sən tarix yoluyla bir az asta get,*
*Gör neçə nəhr axıb bu dəniz yurda.*
*Bülqədər, amazon, xələc, assakot*
*Tayfalar qaynayıb-qarışıb burda.*

*Bulqar, binəvəyan, alan, alban, hun,*
*Avar, ləzgi, qumıq - şöhrətimizdir.*
*Böyük Azı kainatında*
*Birləşən selablar qüdrətimizdir!*

Torpağa məhəbbət, onun verdiyi nemətlər yurdsevərliklə tərənnüm olunur. Xəlil Rza torpağı "bəşərin çörək təknəsi" hesab cdir, onları ana-bala bilir, sonra da deyir:

*Sənin xəyalının üfüqlərində*
*Reyhan bağçaları, tərxun ləkləri.*
*Əl boyda torpaqda dünya cənnəti,*
*Odlar ölkəsinin gözəllikləri.*

Xəlil Rza təbiətin susan, lakin işarələr edən dili ilə həm də lirik təsvir və intonasiyalarda siyasi-ekoloji məsələləri də çözür, hadisələrə diqqət yönəldir. O, O.Sarıvəlli kimi dənizlərin, dağların şikayətlərini, hərbi bazaların etirazlarını oxucuya çatdırır; hadisələrin təqdimatında subyektiv münasibət və müdaxilə müəyyənliyi oxucunu alıb aparır:

*Bulanan çayları bir an seyrə gəl,*
*Daşıyır dərdini ümmanlara da.*
*İki zor qitəni birləşdirən əl -*
*Aralıq dənizi solur arada.*

*Aralıq dənizi tufan qaldırıb*
*Çırpılıb köksünün qayalarına.*
*Dəyişir günbəgün, ərzin iqlimi,*
*Düşünən təfəkkür! Ayıq ol, ayıq!*
*Hərbi bazaları bir xərçəng kimi*
*Dünyanın bağrından qoparmalıyıq.*

Şair narahatdır ki, dünyanın nizamını pozmaqla bəşər həyatını təhlükələr qarşısında qoya bilərik:

*Hərarət çoxalır Yer kürəsində,*
*Don vurmuş Arktida əriyə bilər.*
*Nəhəng buz dağları min-min nəhr olub*
*Bəşərin üstünə yeriyə bilər.*

İnsan təbiətlə münasibətində həm quran, həm də dağıdandır. Şair insanı qurub-yaratmağa çağırır.

"Gələcəksən baharda" (1970) poeması 70-ci illərin əsərlərindəndir. Əsərdə xalq taleyi üçün yanmağın poetik tərənnümü də, xalqda fərdin ömür yaşantılarının əksi də güclüdür:

*Xalq üçün alışan, məşəl bir həyat*
*Ən böyük ömrün də qoynuna sığmaz.*

"Həsrət" (1971) poemasının mövzusu Güneydir. Poemada Təbrizə, onun tarixi keçmişinə lirik münasibət ifadə olunmuşdur. Əsərdə yadelliyin, Təbrizə qənimliyin poetik əksi də ifadəsini tapmışdır. Həyat, yaşamaq lirik qəhrəman üçün şirinləşmişdir:

*Sökdü qara buludları ildırımlar,*
*Qəlbimiz tək göy gurladı.*
*Biz Təbrizdən qovduq yadı,*

Ağzımızda şərbət oldu suyun dadı, duzun dadı.

Lirik qəhrəman Təbrizdə şahidi olduğu yenilikləri gördükcə ömrü də təzələnir:

*Təbrizimin haqq səsinə bütün aləm qulaq asdı,*
*Balalarım ana dilli məktəblərə ayaq basdı...*

Lakin lirik qəhrəmanın müqəddəs kədəri yox olan deyil, nə qədər ki bu cahanda Araz, Təbriz, vətən həsrəti, Cənub-Şimal var:

*Danışır qardaşım... yanqulu, həzin,*
*Çiynində dağların yükü var kimi.*
*Sən demə dünyada həsrət də, dərd də*
*Yaşarmış qayalar, dalgalar kimi.*

Bu dərd, kədər xalqı, quzeyi od kimi, külək kimi Təbrizə atır ki, Ərdəbilin, Tehranın boğazını Londonun caynağından qoparsın - istismardan, müstəmləkədən qurtarsın. Xəlil Rzanın nəzərində nə qədər ki qalmalı, yaşamalı səngərlər var, o qədər də azadlıq eşqi var. Buna görə də həmin səngərlər azadlıq eşqinə dolmalıdır. Nə qədər ki səngərlər var, o qədər alovlu döyüş meydanları, cığırlı-

izli istiqlal yolları var. Buna görə də şairin çağırış, vətən pərvərlik, vətəndaşlıq ruhu təbiidir:

*Siz ey damarlarında yurd sevgisi coşanlar!*
*Bu gün bütün gündoğan sizə dikib gözünü:*
*Buludlardan qoruyaq Təbrizin gündüzünü.*

Poemada Təbrizi özünəqayıdış, özünüdərk çağırışına qoşmaq ideyası əsas olaraq qalır. Həmin qayə "Təbrizli şairin düşüncələri" (1970) poemasında da vardır. Lirik qəhrəman dünyada - azadlıqda, hərəkatda məhbəs küncü gördüyü kimi, inamından soyumadan "Savalan zirvəsi də, Səhənd ucalığı da görür! Şairə görə Savalan, Səhənd zirvəsindən daha uca isə "Azadlıq cəbhəsində məslək səngəridir". Bu məslək insanları müxtəliflikdən çıxarıb öz ətrafına yığandır, onu vətən ətrafında ram edəndir. Vətən bir olduğuna görə də birlik istəyir. "Vətən birlik istəyir, müxtəliflik istəmir". Məslək ölüm də, qan da gətirəndir. Ölümün, qanın özü də səfərbər edəndir; uğura aparandır, çağırışdır, nidadır. Şair yazır:

*Bizim Bağır xanımız, bizim Səttarxanımız:*
*"Axsın" dedilər, axdı dərya-dərya qanımız.*
*Nə verdi bu ölkəyə qanlı burulğanımız?*
*Böyük həyəcanımız, cilovsuz tufanımız?!*
*Bu gün heç olmasa bir ana dilli məktəbə*
*Gəlirmi gümanımız?*
*Dinimiz, imanımız?!*

Şair "sözün gözlərindən işıq ala-ala" Təbrizin dərdlərini yazır, dərdlərini danışır. Ən acı həqiqətləri şeirə gətirir, bizə göstərir; biz burada satqınlar ordusunu da, yalan, riya kürüsünü də, dargözlər, şərəfsizlər sürüsünü də, maskalı dəyyusun təbəssümünü də, rəzalətləri, rüşvətləri, namərdləri, kəmfürsetləri, tüfeyliləri, qurdu ulayan alçaqları, milli simasını itirmişləri də, satqınlar şəbəkəsini də, acgödən, mədəni quldurları da görürük. Şair belələrinin havasında, mühitində mərd yaşamağı böyük qəhrəmanlıq, təmizlik hesab edir. Qədim şəhərin üst qatı harınlıq, alt

qatı qəm, kədərdir! Bu üst qat özü üçün nədirsə, yadelli üçün də odur! Onun üçün yadellinin daşıdığı sərvətin dağılmasının fərqi yoxdur. Əhməd Hüveyda kimi satqınlar türklüyünü danıb zatıqırıqlıq edirsə, "çöldə, ev-eşikdə, matəmdə, toyda" farsca danışırsa, bunun üçün təkcə analar ittiham edilməlidir. Öz laylası, südüylə doğma dil sevgisi içirməmişlərmi onlara?! Şair, lirik qəhrəman bu cəhətdən təkcə anaları ittiham etmir, zamanı, zəmanəni də mühakimə edir; məhz zəmanə bizləri - anaların bir dəfə doğduqlarını "zəmanə min kərə təzədən doğmalıdır!". Buna görə də lirik qəhrəman, şair bütün Azərbaycan balalarını da öz "kişi bətnindən mənən doğmağa" qərarlıdır! Mənəvi doğuş, azadlıq oduna pərvanəlik məhz xalqı ye-nidən doğmalıdır! Xalqın doğuşu Səttar xan, Xiyabani, Siqətül-İslamdan başlanğıc - yol götürməlidir: Təbriz! Səninkidir bu güc, bu qüvvət. Sənin zəncirində həlqələrik biz. Atadan oğula, nəvəyə keçir Dədə sərvətimiz - mübarizəmiz!

Şair inamında soyumaz, fasiləsiz və kəsilməzdir! Bütün yer kürəsini özünəlayiq bilən lirik qəhrəman həm də dan yerindən çıxıb - bu günümüzə, indimizə gəlir, gələcəyimizə yol gedir. Çünki dan yerindən çıxıb gələn həm də Təbrizdir. O, Təbrizi ilə birgə gəlməklə yaşayıb mübarizə edir, tamlaşır!

80-ci illərdə X.R.Ulutürk "Hara gedir bu dünya", "İki qardaşın söhbəti", "Ağ günlərin qaraldımı", "Çinar sınar, əyilməz", "Məni bir dərd yandırır", "Qalx ayağa, Vətənim", "Məktublar gedər-gələr", "O gün gələcək", "Vətən oğlu" və başqa poemalarını yazmışdır.

"Hara gedir bu dünya" poeması dünyanı saran ictimai-siyasi hadisələrə etirazların ifadəsidir. Əsərin mərkəzində İnsan obrazı dayanır. Sənətkar insanın insana qənim olmasını dərk edə bilmir, insanla mühit, tarix və cəmiyyət arasında olan təzadları başa düşməyə çalışır. Şair təzadla-

rın mahiyyətini tarixin qədimliyindən götürüb dəyərləndirir. Ümumi epik zamandan anın bədii əksi:

*Odur Rodos adası...qasırğa çılğın, dəli.*
*Fəqət zülmətdə belə gəmilər məğrur gəlir:*
*Çünki uzaq sahildə*
*Ovcunda tonqal tutub Hemosun heykəli,*
*Tonqal - zəka məşəli!*
*- Bəs tonqalı söndürüb o heykəli yıxanlar?*
*Parfenon məbədini, sənət dürdanəsini*
*Yüz-yüz tonqal atəşilə yandıranlar, yaxanlar?*
*Bəs xalqların qanını zəli kimi soranlar*
*İnsan qafalarından piramida quranlar?*
*Millətlərin ağzından öz dilini qopardıb*
*Boğazlara zor ilə yeni bir dil soxanlar?*

Şair insanın səngərsiz olmasını dərk edə bilmir. Onun antihumanizmə qarşı cəbhəsi olmalıdır, - deyir:

*Döyüş gedir dünyada, döyüş amansız, qəti,*
*Hədələyir adicə qanmaz da, şöhrətbaz da*
*Hər kiçik zərrəsini min ilə qurduğumuz*
*Nəhəng mədəniyyəti.*

*Kimin tərəfindəsən, söylə səngərmi harda?*
*Tapmısanmı yerini sən bu vuruşmalarda?*

Şair insanın ikili cəbhəsini, həm "yerin, göyün varisinin" ağıl qüdrətini, həm də canavarlıq xislətini dünyəvi hadisələrin öz ziddiyyətləri ilə: bəşər qatili SAVAK-ı, Tehranda Amerika səfirliyinin girov götürülməsini, onun Fars körfəzinə, Ərəb dənizinə müdaxiləsi ilə əlaqədar olaraq İranın etirazlarını, Hind okeanından tuşlanan ölüm raketlərini oxucuya təqdim edir.

X.Rza silahlanmanı dayandırmağı, "Avropada atom raketlərinə yer olmadığını" hökmlə bildirir. Bildirir ki, bu dünya "bu qədər təzadları, haqsızlıqları, silahlarıyla" hara gedir? Şair dünya uğrunda hər şeyə hazırdır.

"İki qardaşın söhbəti" poeması da Güney mövzusun-

dadır, lirik əsərdir. Şairin tarixə siyasi müraciətləri xalqın taleyinə vətəndaş yanğısından irəli gəlir. Şair yazır:

*Mənim anam deyilmi Təbriz, Zəncan, Marağa?*
*Rəvamı həsrət qala oğul ana torpağa?*

Emfatik suallardan sonra şeirin mühakiməli intonasiyaları getdikcə güclənir və siyasi etirazların ideya-məzmun siqləti tutarlı ifadə olunur:

*Düşmən görmək istəyir*
*Viran, Azərbaycanı.*
*Düşmən hələ özündən istilah da uydurur*
*"İran Azərbaycanı".*

Şair Güneydə hər hansı bir oyanışdan: anadilli məktəbdən, açılan filarmoniyadan, milli teatrdan, M.F.Axundzadə və C.Cabbarlı əsərlərinin - səhnə təcəssümündən vəcdə gəlir, "azad qələm, azad qəzet-jurnal, iqtisadi-mədəni yüksəlişdən, Təbrizdə universitet açılmasından, xarici radiostansiyaların "yalan qusmalarından" söz açır, Füzuli, Qövsi əlyazmalarının Nyu-Yorka, Londona daşınmasına, ictimai-siyasi, milli ayrı-seçkiliklerə etiraz edir. X.Rzanın bütün danışıqları mənəvi-ideal qardaşı Söhrab Tahirlədir, o taylı bu taylı dərdlərə, sevinclərə tərcümanlıqdır.

"Ağ günlərin qaraldımı?" - rus tanklarının Təbrizdən çıxması münasibətilə yazılmış lirik poemadır. Qoşunlar çıxdıqdan sonra Qəvam-üs Səltənənin Təbriz üstünə kərəzlənmələri, faşizmin Təbrizə girməsi, Amerika teyyarələrinin Təbriz üzərinə şığımaları, Sabirin kitablarının yandırılması, Azərbaycan dilinin yasaq olunması ideya-məzmun müəyyənliyi almışdır. Poema "İki qardaşın söhbəti" kimi ümidlə bitir. Azadlığın yenilməz ideyası tərənnüm olunur!

"Qalx ayağa, Vətənim", "İki qardaşın söhbəti" və "Məni bir dərd yandırır" poemaları xalq şairi Söhrab Tahirə müraciətlə yazılmışdır. "Təbriz alışdı yandı, Bakı baxdı uzaqdan", "Ah, nə üçün mən sənə kömək edə bil-

mədim?” kimi bədii nidalar, suallar, xitablar məcmusu şairin şüur və məfkurəsini dolaşır, azadlıq ruhu, vətən taleyi, milli ideal gələnəyi mətn boyu poemanı izləyir. Əsər S.Tahirin İrandakı fəaliyyətindən başlanğıc götürür. Şair Azərbaycan fədailərinin fəaliyyətini ümumiləşdirir, məslək və əqidə sahibi məhbus Firudin İbrahiminin tərtəmiz ağ paltar geyinib Bəhrəngin avtomatı altında səhərin açılmasını və edamını gözləməsi ideya kimi qabardılır. X.Rzanın lirik qəhrəmanı da ona görə yanıb tökülür ki, üç addımlıqda Vətəninə, fədailərinə kömək edə bilmir. Halbuki, o deyildimi “xilaskar sovet ordusu” ilə Berlini, Varşavanı, Praqanı, Oslonu xilas edən, onları “zülmətdən al bayraqlı səhərə çıxaran”. Şair azadlıq eşqindən yanqu bağlayıb onun təsirindəndir ki, yazır:

*Bircə zərbəm bəs idi salındığım məhbəsə!*
*Ah, nə üçün Arazı*
*Yanan dodaqlarımla içmədim bir nəfəsə?*

Şair “Qalx ayağa, Vətənim” poemasında azadlıq ideallarını daha süslü tərənnüm edir. O, Güneyin milli azadlıq tarixindən yazır. Azad, Səriyyə, Qulam Rza Cavidanlı, Qulu Sübhü, şair Yüzbəndi, general Əzimli, Kəbiri, Ərqavani, Yegani, Tağızadə, İmrani, Qəffari, Qəhrəmani və Söhrab Tahiri görür. Azərbaycanın bütöv xəritəsini də bütöv təsəvvür edib görmək istəyir. O, S.Tahirdən xahiş edir:

*Nə zamanlar qəlbimdə qövr eyləyir bir nisgil!*
*Mən hələ görməmişəm*
*Azərbaycanımızın xəritəsini*
*Bu dərdi bilənlər də çıxarmayır səsini*
*Qardaş, tap gətir mənə*
*Anam Azərbaycanın əsl xəritəsini!*
*Mənim gözüm götürmür*
*Nazik ilan tək iyrənc cizgilərlə cızılmış, -*
*Hər sərhəd ağacının altda qəbri qazılmış*
*Yarımçıq xəritəni.*

*Poema azadlığa çağırış ruhu ilə bitir:*
*Nəfəsimdən, canımdan, iliyimdən, qanımdan*
*Çıxmır Firudinimin ildırımlı sözləri:*
*O sözlər dosta dayaq, düşmənə, yada qənim:*
*"Qalx ayağa, Vətənim!", "Qalx ayağa, Vətənim!"*

Xəlil Rzanm "Məktublar gedər-gələr", "O gün gələcək..." poemaları da Vətənçilik tərənnümü ilə bağlı olan poemalardır. Azərbaycanın bütövlüyü həsrəti poemaların əsas leytmotividir:

*Gəl-gəl, qurbanın olum.*
*On beş ildir boynuna həsrət qalıbdır qolum.*
*Üç addımdır aramız*
*Nolar, aş gəl Arazı, gəl, gəl, qurbanın olum.*
*Oxuyursan... və bizdən*
*Araz boyu uzanmış o bütün əngəlləri,*
*Tikanlı məftilləri*
*Yanan biləklərinə dolamaq istəyirsən.*

Əsərdə ana və bala surətləri ayrılıq rəmzi kimi mənalandırılır. Ana balanı heç olmasa qurban bayramlarında, 21 Azərdə, baharda arzulayır, "hicranın doğma Vətəndə olduğuna" qail ola bilmir. Amma lirik qəhrəman həm də inamlıdır ki, o "gün gələcək". "O gün gələcək" poemasında şair azadlıq, birlik gününün gələcəyinə yazın gəlişi kimi inanır, Mərənddə, Marağada köks dolusu nəfəs alacağına, ürəyinin sevinəcəyinə arxayındır. Şair əsər boyu romantik, lirik, psixoloji və publisistik gəzişmələrdə Vətən birliyi ideyasını təcəssüm etdirir.

"Şuşa səfəri" X.R.Ulutürkün əhəmiyyətli poemalarındandır. Şairin Şuşaya 70-ci illərdəki səfərinin təəssüratları əsasında yazılmış poemada lirik qəhrəmanın Qarabağla həsbi-halı vüsətli, romantiklirik müəyyənlikdə, əlvan poetik məqamlarda tərənnüm olunmuşdur.

Qarabağla, Şuşa ilə bağlı tarixə, tarixi keçmişə epik yox, məntiqi hökm və qənaətlərlə yanaşma üsulu poema üçün səciyyəvidir.

Şuşaya məhəbbət ümumən vətənə məhəbbət kimi dəyərləndirilir. Bu, bütöv Azərbaycan məhəbbətidir:

*Sən mənim bol havam, çörəyim, suyum,*
*Ağzımın dadısan, Azərbaycanım.*
*Atamın ağ saçı, anamın südü,*
*Balamın adısan, Azərbaycanım.*
*Sal qayalar kimi şöhrətin uca,*
*Qoy Cıdır düzünə baxım doyunca,*
*Durum keşiyində ömrüm boyunca*
*Şuşa, Daşaltısan, Azərbaycanım.*

Xəlil Rzanın poetik dərkində vətənin birliyinə bədii baxış, onun ilkinliyindən başlanğıc götürüb gelir:

*Həsrətli, haraylı kamanın, udun*
*Ruhundan süzülüb min bir buludun.*
*Qılınclı, qopuzlu Dədəm Qorqudun*
*Əslisən, zatısan, Azərbaycanım.*

Bu Azərbaycan bol hava, su, çörək, atanın ağ saçı, ananın südü, bala adı, zəncirləri qıran əl, dişlərlə sıxılan möhkəm dil, bəbəklərə dolan nur, cahangirlərin cəngini cıran Cavanşir qılıncı, pələnglərin, şirlərin göz odu, ruhu qalalar olan ordu, sağ çiyni Savalan, sol çiyni Qoşqar, ərənlər yurdudur, gözəllərin, gözəlliyin taxtı, ar-namus, dan yeri olan inam, ləpələnən Muğam, Sabirin həyatı, əsli-zatı olan Dədəm Qorqud - şairin poetik dərkində ucsuz-bucaqsız Vətən, çoxlarını bağrına basan millətdir - Azərbaycan belədir!

"Adımız, soyadımız" (1965) poeması şairin - lirik qəhrəmanın ad və soyadının mənasını aramaqla başlayır (Xəlil Rza Xəlilov – Xəlil ərəbcə dost; Rza razılıq de-məkdir, ov isə rus şəkilçisi! Tofiq - ərəb. Məhəmməd -ərəb, Fərhad, Rüstəm - fars). Sonra türkçülüyün təbliğində Cabbarlının xidməti xatırlanır. Bakıxanov, Axundov "tora ilkin düşən ov" kimi yad olunur. Şıxlinski, Şuşinski, Şəkinski, Ağdamski kimi adlar da şairin bəbəklərində ildırım çaxdırır". Xoşginabi sözündəki "nabi" sonluğuna

faşistlərdən alman şəkilçi kimi etiraz edir.

C.Çabbarlı və S.Vurğun kimi “i”, “zadə”, “pur”lara etiraz edən Xəlil Rza “Dədə Qorqud”, “Alpamış”, “Bilqamıs”, “Koroğlu” dastanlarından üzü bəri işlənmiş adlar cərgəsini sadalayır, - kökə qayıdışı dönə-dönə təbliğ edir, “müvəffəqiyyət” - uğur, “nailiyyət” - çatım, “müasir” -cağdaş, “ittifaq” - birlik, “həmkar” - işdaş, “şəlalə” -uçan su, “çeşmə” - çağlayan, “əlaqədar” - bağlı, “səcdə” - tanınmaq, “hadisə” - olay, “mərtəbə” - qat, “nöqteyi-nəzər” - baxım, “natavan” - tavansız, “dilşünas” - dilçi, şimal-quzey, cənub-güney, şərq-gündoğan, qərb-günbatan adlarını əhəmiyyətli sayır.

X.R.Ulutürk ana dilini ünsiyyət vasitəsi deyil, dövlətçilik, türkçülük mənasında dəyərləndirir. Dövləti, torpağı qorumaq həm də dilə qayğı ilə mümkündür:

*Yallı bəbirlərim, xallı şirlərim,*
*Ulu Babəklərim, Cavanşirlərim.*
*Qəhrəman Tomrisim, canım, ciyərim,*
*İldırımqılınclı Xətayilərim.*
*Bu qədər ucaykən... məni kim aldı*
*Sıxdı caynağında, kiçiltdi belə?*
*Yanır bəbəklərim kinlə, qəzəblə.*

“Sən mənə bir silah verdin” (1986) lirik poeması İ.Hüseynovun “İdeal” romanını oxuyan şairin təəssüratları nəticəsində yazılmışdır, romantik pafoslu əsərdir. Şair romandan gələn obrazlarda: Odər-Azər, Buğda, Bağdayda bir tarix və mənəviyyat görür. Məkan seçimi kimi yüksək bir məmləkət - Odərbağday bəşəriyyətə fəxr, qürur gətirən bir yerdir. 80-ci illərin siyasi, ictimai, iqtisadi yalanları, mənəviyyat aşınmalarını göstərən İ.Hüseynovun idealını X.Rza yüksək qiymətləndirir. Dəyərləndirir ki, tarixçilər yalanlar üzərində qurulmuş tarixi kitabdan-kitaba ötürmüş, Herodot və Kseti meyar bilmişlər.

Xəlil Rza İsa Hüseynovun Bağıstan, Ulubağ, Olam kəlamlarındakı mənaların açımında bir işıq görür. Nuh tufa-

nını xatırlayan şair Dəclə-Fərat arasında yaşamış şumerləri xatırlayır. Yazıçının fikirlərindən çıxış edən X.Rza türkün dünyanı götürdüyünü beləcə rəmzləşdirir: İdol -İtaliya, Fərər 4 Fransa, Birod - Britaniya, Gurərmənlər -Germaniya, Anadolu - Ana Od öl, Baykal - Bəy göl, Çu-kot - çox ot... Tarixlərin amansız olumlarında dünyanı götürmüş türklər zaman-zaman basıldı, doğrandı. İki ideal sənətkar bu fikirdədir ki, dünyadakı əksər sözlər türk mənşəli olub, geniş məna tutumuna malik olmuş, zaman keçdikcə işğallar nəticəsində onlar da "işğal" olunmuş, ilkin mənalarından uzaqlaşdırılmışdır. Onlara görə dillərin və dinlərin kökü bir olmuş, bir mənbədən başlanğıc almışdır. Lakin zaman keçdikcə ayrılmalar yaranmışdır. Şair Qərbi Şərqə qarşı qoyan millətçiləri, nihilistləri pisləyir.

"Dənə gələn toyuqlar" (1983) siyasi cəhətdən yetkin poemadır. Şair toyuq-cücənin, xoruz-beçənin həyətdə gəzib-dolaşması, bir-biri ilə davranışının sanki dünyada paralelini görür, onların dənə gəlməsi, tutularkən pərən-pərən düşməsi həssas müşahidə edilmiş, obrazlaşdırılmışdır. Şair toyuq-cücə "dilini" o qədər təbii verir ki, gözlərimiz qarşısında onların sanki öz hərəkəti, "davranışları" canlanır. Şairin xəyalı dünyaya uçur. O, bənzətmələrlə cahanı gözdən keçirir, - radionun milini azca yana burur:

*ABŞ dən səpir yenə, Tehran ram ola bəlkə,*
*Tehran dən səpir yenə, Təbriz xam ola bəlkə.*

Şair Yer kürəsini nəhəng tora oxşadır, "təyyarələr, qatarlar harasa dən daşıyır". Dünya ölkələrində bəşərin qanı göllənir. Şair simvolik olaraq ümumiləşdirir ki: Dən ye!

*Əgər yeməsən, bil ki, səninlə varam, Dən yeməsən*
*Yurdunu tanklar ilə şumlaram!*
*Toplar ilə şumlaram.*

Poemada dünyəvi əmin-amanlıq, azadəlik ideyası şairin idealı, bəşərin taleyidir.

“Ürəyimdə qalan tikan” (1985), “Yadındamı, Səmirə” (1986) poemaları da 80-ci illərin əsərlərindəndir. Səmirə adlı gəlinin toyu münasibətilə yazılmış ikinci əsərinin mövzusu Azərbaycan dilinə biganəliklə əlaqəlidir. Lirik qəhrəman ana dilinin saflığını qoruyacağına and içir, qəlbin əsrarlı halları şeir boyu səpələnir.

“Çənlibel” (1988) - tentənəli lirik poemadır. Şair vətənsizlərə, idealsızlara meydan oxuyur:

*Fərarilər, ağ ciyərlər yanaşmasın Çənlibelə,*
*Zibil kimi yandırmışam mən onları bilə-bilə.*

Əsərdə “Çənlibel” adlı siyasi dərnəyin, onun fəal iştirakçılarından olmuş Məhəmməd Tantəkin, Əbülfəz Elçibəy, Şamil, Əhməd, Sabir, Vurğun Əyyubun fəaliyyəti poetikləşdirilir. Kök-ilkinlik Xəzər, massaget, hun kimi tayfalarla ifadə olunur:

*Etrus mənəm, Xəzər mənəm, Massaget də,*
*hun da mənəm,*
*At belində uça-uça, beş qitəni kəşf edənəm.*

“Eldənizə cavabım” poemasında sənətkar baş vermiş ictimai-siyasi hadisələrə istinadən mühakimələr irəli sürür, 20 Yanvar faciəsindən, Xanım anaların yanıqlı bayatıları, doğma ana dilinə biganəlik, Şəhriyara, Bəxtiyara tərcüman olmaq ehtiyacı, “Çingiz, Şahmar, Vahabzadə, Xudu, Zeynal ülfəti”, Cavad Heyətin Tehranda Azərbaycan dilində dərgi nəşr etdirməsindən söz açır.

X.R.Ulutürk azadlıq hərəkatına qoşulduqdan sonra, poema janrına az müraciət etmişdir. 90-cı illərin ədəbi məhsulu olan “Məftillə sarınmış yaralar” poeması hipostasalar şəklində yazılmış, yoldaşı Firəngiz xanımın tərtibatında ümumiləşdirilmişdir. Poema inqilab və dövlət xadimi Şeyx Məhəmməd Xiyabaninin sözləri - müdrik bir epiqrafla başlayır. “Əgər keçmişin cövhəri və qanı damarlarında axırsa, sən o parlaq səhərə çatacaqsan, qoy o arzu və məramına çatacağın səhərlər sənə mübarək olsun, Azərbaycan demokrasisi! Bütün zülm, işgəncə, dar ağac-

ları, zəncir və zindanlar sənin istiqamət və mətanətin qarşısında məhv olub gedəcəkdir. Öz müqəddəs vəzifəni yerinə yetirməlisən, ey ölməz Azərbaycan, başını qaldır və yaşa!"

Xəlil Rza Ulutürk Azadlıq hərəkatı ideyasına, milli ideal, xalq taleyinə poetik vüsət verir. Əhməd Cavad kimi "Səsli qız" poeması üslubunda bir yol götürüb, azadlığımızı, istiqlalımızı təcəssüm etdirir. Sara kəcavəylə özünü Araza atır. Xançoban ağır yaralanır, o, qızı xilas etmək istəyir. Arpaçay Araz kimi aşıb-daşır, istəkləri, sevgiləri nakam qoyur. Arpaçay Saranı alıb Araza ötürür. Tarix, zaman rəmzi olaraq, epik zaman olur - həm tarixi-milli faciələrimiz, həm də tarixi şərait eynən davam edir, -Xançobanla Sara bir-birini qucaqlayıb vahid bir can kimi sularda itir, görünməz olurlar...

Şair xalqın taleyinə, 4 iki qurdun pəncəsində bu tale bölünür, -atılan imzanı, qarşıdurmanı təsvir edir. Azərbaycanın xəritəsi stol üstündədir. Sərvəti, xəzinəsi qoynuna sığmır! İran məğlub olub Romanovlara təzminat verməlidir. Onlarla birlikdə ərəblər, Avropa, Amerika Azərbaycanın neftini içir. Şair ötən illərin üstündən aşıb Denstirvil, Zubov, Vişşau kimi İşğalçıları dişləriylə parçalamaq istəyir. Yazılan Gülüstan müqaviləsi "yurdun min gülüstanını pozur". X.Rza obrazlı təsvirlə ifadə edir ki, "bir yanda şahənşah, bir yanda da çar qan ilə sülh qərarı yazıb böyük bir millətin yaralarını tikanlı məftillə sarıyırlar". Poemanın "O sahildə. Bu sahildə" stofası da bu baxımdan qüvvətlidir. Şair milli ideal, vətən taleyini dönə-dönə bəkləyir, B.Vahabzadə ("Gülüstan", 1958) ilə eyni cəbhədə birləşir:

*Nə həsrət, nə hicran olsun,*
*Vahid Azərbaycan olsun.*
*Qoy birləşsin, bir can olsun*
*O sahil də, bu sahil də!*
*Kədərim vüqarlı, dərdim müqəddəs,*

*Qəzəblə gəzirəm sərhəd boyunca.*
*Dağlarda yıldırım, kalbimdə bir səs:*
*Heç zaman, heç yerdə, heç cürə, heç kəs*
*Vahidlik əzmini məhv edə bilməz!*

"Azərbaycan parçalandı" hissəsində X.Rza A.Bakıxanovun "Gülüstan" müqaviləsinə etirazını bildirir. Bakıxanovun bu rus tələsindən xilas olmaq istəyindən danışır, adındakı "ağa", "xan" sözləri ilə "qul" mahiyyəti arasındakı təzada diqqət yetirir. Sonra şair Azərbaycanın bu tarixi taleyini belə mənalandırır ki, "mənim ana dilim parça-parça, övladlarım pərən-pərəndir", "tökülüb Türkü-standan Kərkükə - Bağdadacan". "Fəratın qırağında, beşik başında, ana dodağında bir bayatı ağlayır":

*Əzizim, aman qalar,*
*Gözümdə duman qalar.*
*Yıxılar uca dağlar*
*Tozu bir zaman qalar.*

Şairin qəhrəmanı Azərbaycanın ruslaşdırma siyasətindən qeyzə gəlir. Yelizavetpol, Kirovabad, Qoryagin adlarına nifrətlə etiraz edir. Poemada dekabristlər hərəkatı, Bakıxanov - Puşkin həmrəyliyi, sisyanovların, kulyakovların Qafqazı işğallarından fraqmentlər verilir. Tarixin mabədi Məmməd Araz, Söhrab Tahir, Əkrəm Cəfər, Cabir Novruz, Mirzağa Quluzadə, Rüfət Zəbioğlu, Ramiz Duyğun və Xəlil Rzaların simasında od püskürən kürsülərdə, meydanlarda, səngərlərdə, döyüşlərdə, KQB-lərdə, zindanlarda, Lefortovolarda davam edir. Dəmir dabanlar imperiya səltənətlərini çökdürür. Azadlıq və istiqlal, birlik və tale tarixi ideal kimi şəxsiyyətlərlə nəfəs alır. Ayrılan sərhədlər, parçalanan torpaqlar, talelər Araz sahilində iki bayraq qaldırır. Analar - Saralar anası bu bayraqları görəndə qatillərini yenidən xatırlayır, həmin bayraqlan götürüb cırmaq istəyir, fəqət hey-taqət tapmır, səsi çıxmır. Xudafərinin üstündən isə karvanlar keçir, dəvələr üstündə gəbələr, dövlətlər daşınır... "Dəvələr, karvanlar

ananın göz yaşlarını daşıyır”. Lap uzaqlarda isə bir səs, bir mahnı uyuyur:

*Arpaçayı aşdı-daşdı,*
*Sel Saranı aldı-qaçdı*
*Sürmə gözlü, qələm qaşlı*
*Apardı sellər Saranı*
*Bir ala gözlü balanı.*

“Qanım bayrağımdadır” poeması milli azadlıq, Azərbaycan taleyi, idealı mövzusundadır. Əsər 20 Yanvar şəhidlərinə həsr olunmuşdur, 1991-1994-cü illərdə yazılmış lirik parçalardan ibarətdir. Forması təntənəvi ölçüdə, 16 hecalı, cüt misralı strotalardadır. Şəhidlərin ideal tərənnümündən, İlham və Fərizə məhəbbətindən psixoloji-mənəvi yol götürən milli xarakter sonra həmin yolu Hə-mid nəvəsi İzzət, Söhrab Nəsiboğlu, Mahir Vaqifoğlu, Zahid Bayram Əlisoyda, Pərviz, Elcan, Sabir oğlu Məhəmməd, Ülvi Bünyadzadə, Yusif Sadıqlı, Namiq Kamiloğlu, Mübariz, İlkin Zülqədəroğlu, Tofiq Heydəroğlu, Novruzlu, Azad, Asif, Mircəlal, Rahim, Telman, Əflatun, Svetlana, Vera Lvovna, Müzəffər, Səxavət, Elçin, Mürvət, İsmayıl, Rahib, Ruslan, Rəşid, Əbülfəz, Salman, Şəmsəddin, Vahid, Larisa Fərman qızı, Oqtay, Fazil, Oleq, Ramiz, Allahyar, Xəlqan və başqalarında davam etdirir. X.Rza Horadiz, Qubadlı cəbhəsindəki şəhidləri də xatırlayır, ümumən şəhidliyi 1918-ci il Azadlıq şəhidliyinin davamı kimi dəyərləndirir. Onlar yolları, körpüləri adlayıb azadlığın üfüqlərinə doğru yol gedirlər...

Şair bəşəri suallar qaldırır. Həmin suallarda təsdiq məzmunu, cavab məntiqi vardır. O, bədii suallarını davam etdirə-etdirə hökmə, qənaətə gəlir:

*Əsarətdən görünməz burda bir nişan, bir iz,*
*Azadlıq səma boyda, Azadlıq dəniz-dəniz.*
*Haçan harda gəzirəm... bu yeri dürüst tanı*
*Dağüstü park - aləmin Azadlıq gülüstanı.*

Şair - milli xarakter Şəhidlər xiyabanını - Azadlıq gü-

lüstanını gəzə-gəzə, türkün zəfər dastanını dinləyir, buna görə də nikbindir, qürurludur, sənətkar əzəməti bədbin olmaqdan uzaqdır qürurludur. Milli xarakter Azadlıq yolunda verdiyi qanları düşünür: “Verdiyi qan yanında bircə damladır Xəzər”. Bu qədər qanlar tökən ürəyi, dili yad Kremldən qoşun, vəd alanın hakimiyyətdə hələ də qalmasından hiddətlənir. O, xalq elçilərinin yerdəki nökərlə-rini qəbul edə bilmir, qeyzlənir. “Seçkilərin çilovu əlində” olan bu alçaqlar baş qaldırıb şair gözünə baxa bilmir”. “Olmasaydı bu qədər yava, başkəsən, qəddar, Aləm mənim xalqıma səcdə qılardı aşkar” - deyir.

Poemada yadellilərin, azadlıq qəsbkarlarının təsviri də təsirli və realdır. Onlar Milli Məclisi qoruyurlar, “yüksəkdə xalqın çiynində oturub, xalqı, yurdu ram edirlər”. “Bakı şumlanmışdır tanklar silsiləsilə”. Onlar “avtomatlı, kaskalı, hərbi mundirli, sərvaxt, dəyənəyi əlində, yolda, rizdədirlər hər vaxt”. “Əllərində dəyənək, yanlarında top-tüfəng gündə dörd dəfə yeyib-içirlər”. “Gilyotinli, bıçaqlı qəssablarıyla maşın-maşın adamı bıçaq altına gətirirlər”. Onların yedikləri donuz əti idisə, indi qanla birgə quzu əti, ağ balıq, kürüdür:

*Qurtum-qurtum içdiyi ətirli çayını, yoxsa,*
*Tarıyelin, Şahinin, Rövşənin qızıl qanı?*

Azadlığın məhbəsdə olduğunu poetik əks etdirmək üçün şair “səfərbər” epiforasından da yerində istifadə etmişdir:

*Xayır, başqa əhd üçün generallar səfərbər!*
*Xəzəri murdarlayan admirallar səfərbər,*
*Dişlərindən silahlı esmineslər səfərbər,*
*Donanmalar, gəmilər, kreyserlər səfərbər.*

Xəlil Rza - onun xarakteri poemada Səttarxan zavodundakı mitinqi, oradakı tələbləri, sözdə “demokratiya” deyən hakimiyyəti ittiham edənləri dinləyir. Yer altında yatanların – “Azərbaycan altında ölməz Azərbaycan olanların” intiqam çağırışlarını poetikləşdirir.

Poemada siyasi-ideoloji məsələlərə də işıq tutulur. Şair parlamentin xalqa hökm etdiyini, deputatların yaltaqlığını təsvirdən yayındırmır, "Demblok"un özünəməxsus surətini canlandırır; "Hacı Əbdülün sərgüzəştləri, Milli Məclis qarşısında çadırları", Qorbaçovun murdar xisləti ifadə olunur: "Qorbaç - qozbel deməkdir. Qozbel üçün nə fərqi, Al qanına bələsin türkü, islamı, şərqi". DTK canavarları, Qorbaçovun Maltada ermənilərə verdiyi vədlər, Yazova yazılan Fərman, Rostov, Donüstü ermənilərin Bakıya çağırışı, bütün bunlar təsvir obyektindən keçir. Sonra biz poemada milli gəncliyin, öz qanlarını verməyə hazır olan ATİ tələbələri səfərbərliyinin şahidi oluruq. Şair daha ciddi mətləbləri, Leninin bəşər qatili, ən böyük iblis olduğunu, Turanı parçalamaq, Zəngəzuru erməniyə vermək siyasətini, telestudiyanın partladılması, Mirzə Xəzərin səsimizi bütün dünyaya yaymasını diqqətimizə çatdırır.

Poemada dövlət xadimi H.Ə.Əliyev haqqında işıqlı, təntənəli fikirlər vardır. Şair xalqın nicat yolunu Heydər Əliyevdə görür, onun səngərdə, məslək, qeyrət vuruşunda olan əzəmətini tərənnüm edir. Bu fonda şair ciddi mətləblərə toxunur. Türkiyədəki siyasi vəziyyətin çətinliyi, Mitteran və Rəfsəncaninin Ermənistana havadarlığı, Ermənistanın Rusiya əlində zəncirli köpək olduğundan danışır.

Ali Sovet (Milli Məclis) önündə gedən mitinqlərə diqqət kəsilən şairin milli xarakteri türkçülüyün mahiyyətinə siyasi don geydirən imperiyanı Mirzəcan Mədotov, murdar Qaraxanov kimi türk dilli erməniləri, Sergey Kirov, Levon Mirzəyan və onların davamçılarını kəskin ifşa və ittiham edir. Xalq təmizlik sevən dənizin üzə çıxmasını istəyir. Sənətkar yeri gəldikcə Xocalı, Şuşa dəhşətlərini xatırladır. Məsul vəzifəli şəxsləri mənəvi məhkəməyə çəkir, faciələrdən irəli gələn istefaları irəli sürür. Getdikcə tündləşən təsvir boyaları, artan drammatik gərginlik və poetik intonasiya həm də Leytmotivi, işıqlı rəngi özün-

dən keçirir:

Türkü burunlayanlar həm dönük, həm sönükdür,
Ərzin yarısı türkdür, türk dünyadan böyükdür!

Poemada türkün tarixi yaddaşı, gələnəyi olan "Dədə Qorqud", "Alpamış", "Manas", "Qutadqu bilik"... Mənəvi şəxsiyyətlər olan Nizami, Nəsimi, Füzuli, İmrə, Nəvai, Məhtimqulu, Fitrət, Cavid, Çolpan, Müşfiq fərdilikdə tərənnüm olunur. Şair mənəvi öyüdlərindən güc aldığı Hüseyn Cavidi lirik ricətlərdə xatırlayır. Xatırlayır ki, insanın vətəni yerliçilik yox, Yer kürəsidir. O, saxta şöh-rətpərəstlikdən, telegüzgü və mətbuatda süni görüntülərdən uzaq olmalıdır. "Qoyma varlığını kin, qəzəb, qərəz şırımlaya, qoyma yaltaqları həndəvərinə" deyən şair Hüseyn Cavidlə eyniləşir, mənən Cavid zəmanəmizə, çağdaşlığımıza gəlir və dövlət başında olan saxtakarları, mənəvi aşınmaları görür.

Poemanın "Doqquzuncu nida"sı yekun, nəticədir. Belə nəticələrdən biri imperiyaların "tək fərdi yox, bütöv xalqları səliqə ilə dəfn edə bilməsidir". Zeynal Hüseynoğlu kimi ziyalılar öldürüləndən sonra Ağdam fəth edildi. "Zəka, qeyrət öldürüləndən sonra xalq inamı öldürülür". Şair bildirir ki, "əvvəl zəka öldürülür, sonra Şuşa, Ağdam". Qubadlı, Füzuli, Cəbrayıl və Zəngəzurun şaqqalanması yaddaşımızın korşalmasındandır. İnsan mahiyyətcə həm Hegel əzəməti, həm də Hitler cinayəti deməkdir. Rus, erməni yırtıcıları özgə torpaqların qəsbkarıdır. Rusiya Alyaska, Kamçatka, Saxalini tutan qəsbkardır. Uzaq, Yaxın, Orta Sibir deyib tatarları, başqırdları, qazaxları basıb yeyəndir. Tatarıstan, Başqırdıstan, Qazaxıstan, Özbəkistan, Türkmənistan və Qırğızıstan "mənim" deyən işğalçıdır, "Türk" sözünü ilim-ilim itirmək üçün Türküstanı yox edəndir, Ukrayna, Baltikyanı elləri qamçılayandır, Ərzuruma əl atandır, Serbistana cida atan, Belorus, Moldova və Qafqazı təslim edən, ilkin olaraq Cavad xanı, Şeyx Şamili qurban verəndir.

X.R.Ulutürk imperiyaçılıq əleyhdarıdır. O, poemada qədim türk imperiyalarının da adlarını çəkir, qəhrəman Atilla bütün keyfiyyətlərinə baxmayaraq, Şərqdən Qərbə doğru işğalçı kimi göstərilir. Qoca Romanın Avropanı tutması da, İspaniya və Fransanı silkələməsi də, Əmir Teymurun Qızıl Ordanı, Rusun İsfahanı, Ankaranı, İldırım Bəyazidi məğlub etməsi .də "imperiyaçılıq siyasətidir". Halbuki "varlığında haqqın ümman qüdrəti" olan insanın hər hansı nizamı pozmağa haqqı yoxdur.

X.Rza ağır cinayətləri bəyan edir. O, dünyanın tibb bazarlarında ürəklər, böyrəklərin satılmasına, Kəlbəcər İstisuyunun Təl Əviv, Beyrut və Parisə satılmasına dözmür, mis, molibden, kobalt, gümüş yataqlarının iştah doğurmalarından qeyzlənir. Türkün Alyaskadan Alpa qədər dünyaları tutması, türk adalarının öz kökündən qoparılması - bütün bunlar poemaya yekun kimi səslənir. Sənətkar Adəm-Həvva başlanğıcına istinad edərək, dünya dillərinin bir kökdən, yol götürdüyünü poetikləşdirir: "türkün zəka günəşindən işıq almış bütün bəşər". Taymır - Teymur, Ural - Vural, İrtış - Yırtış, Sibir - Su bir, Şumer - Şum ər, Tayqa - Toyğa, Çelyabinsk - Çələbi xan, Simbirsk - Sən bir, Saratov - San dağ, Krım - Qırım, El-brus - Yel buran, Kazbek - Qazı bəy, Nalçik - Nalcıq, Kazak Qazak, Həştərxan - Hacı Tərxan sözlərindən olub, əksər dünya sözlərinin özülündə türk mənşəli sözün dayandığı inamını ifadə edən şair planetə kök atan, fasiləsiz qılınc çalan bir millətin əbədi olacağı ideyasını bir daha davam etdirir. Kaşqarlı Mahmudu, Balasaqunlu Yusifi, Tomrisi, Qorqudu, Hamidi, Fərabisi, Yəsəvisi, Yəhya Kamalı, Koroğlusu olan bir millət ölməzdir.

"Onuncu və sonuncu öyüdüm" bölməsində "yeraz" sözündən qəhərlənən şair qəzəblənir ki, "Naxçıvan – Yeraz" parçalanması nə üçündür? "Yerliçilik bir azar ki, haqqı alıb oda salır. Xırpalayır, xırdalayır ən möhtəşəm ordunu da". Yerliçilik olan yerdə Vətən, Millət ola bil-

məz!

Xəlil Rza neçə-neçə epik poemanın müəllifidir. Lakin diqqət yetirilməmişdir ki, X.R.Ulutürkün “münaqişə alovlu”, “dramatik özəkli” neçə-neçə poeması: lirik poema, poema-monoloq, poema-pamfiletləri vardır. X.Rza poemanın janr müəyyənliyinə bir sıra meyarla baxmışdır. Şair tövsiyə edirdi ki, poema üçün həyatdakı ideal olanlar seçilməli, onun bədii təhkiyəsi üçün daha çox emosiya, mənəvi gərginlik tələb edən məqamlar qələmə alınmalıdır. Sənətkarın lirika, monoloq, pamflet ruhlu poemaları səciyyəvidir və bu cəhətdən qruplaşma aparmağa əsas vardır. R.X.Ulutürkün seçilmiş əsərlərinin ikicildliyi ha-zırlanarkən, II cildə həmin poemaların əsasları daxil edilmişdir.

X.R.Ulutürkün poeziyası milli ideal və xalq taleyi ilə möhkəm bağlı olan poeziyadır. Bu baxımdan XX əsr Azərbaycan ədəbiyyatı mövzu-ideya və poetik cəhətdən xeyli zənginləşmişdir.

## 2.3. Tarixi gerçəklik və şairin milli xarakteri

Milli xarakterin elmi təfsirini AMEA müxbir üzvü, prof.N.Cəfərov “Azərbaycanşünaslığa giriş” əsərində göstərmişdir [37, s. 16]. Alimə görə Azərbaycanın milli xarakteri milli mədəniyyət, milli təfəkkür və milli mövc-udluqla müəyyən olunur. Əslində milli xarakterə malik olan şəxsiyyətlər geniş mənada təfəkkür, idrak və fəaliyyət etibarilə yuxarıda deyilənlərin məcmusuna malikdirlər. Xəlil Rza Ulutürkün xarakteri də sözün müstəqim mənasında milli xarakterdir. O, milli mövcudluğumuzda zəngin mədəniyyət və mental təfəkkürün daşıyıcısıdır.

Xəlil Rza Ulutürkün milli azadlıq hərəkatı öncüllərindən biri olmasını yalnız Azərbaycana məxsus olan hadisə kimi xarakterizə etmək düzgün olmazdı. X.R.Ulutürkün mübarizəsi dünya azadlıq hərəkatının tərkib hissəsi, inqi-

lab bahadırlarına məxsus olan mübarizə yolunun tarixi davamı - gələnəyidir. Təsadüfi deyil ki, şair özü yazmışdı:

*Geri qalmadım əsla nə Məhəmməd Hadidən,*
*Nə dili boğazından çıxarılan qardaşım*
*Böyük Fərrux Yəzdidən...*
*Keçdim kirpiklərimi qarsalayan alovdan,*
*Geri qalmadım əsla*
*Nə mərd Soljenitsindən,*
*Nə Sergey Korolyovdan...*

Dünya inqilab hərəkatının tarixinə nəzər yetirəndə milli-azadlıq mübarizəsinin tarixi göz önünə gəlir. Tarixin hərəkətverici qüvvələri, şəxsiyyətlər, inqilabçılar nəsli, gözlərimiz qarşısında canlanır... Böyük Nazim Hikmətin adı gələndə Türkiyənin kommunist hərəkatı, tatar şairi Musa Cəlilin adı gələndə xalqının antifaşist mübarizəsi, Fərruxi Yəzdinin adı gələndə İran irticası, Nelson Mandela dedikdə Afrika xalqlarının azadlıq hərəkatı, Qarsiya Lorka dedikdə ispan xalqının görkəmli şair və dramaturqu yada düşür! Beloyannis dedikdə yunan vətənpərvəri, Xosrov Ruzbeh dedikdə İranın inqilabçı oğlu, Pablo Neruda dedikdə Çili sənətkarı, K.Vandış dedikdə Avstriya mübarizi, M.Hüseynzadə dedikdə alman faşizminə qarşı mübarizədə qəhrəmanlıqla həlak olmuş eloğlu - yüzlərlə xalq qəhrəmanı yada düşür!

Xəlil Rza Ulutürkün adı gələndə Azərbaycan xalqının Rusiya imperiyasına, beynəlxalq imperializmə qarşı istiqlal mübarizəsinin şərəfli tarixi gözlərimiz önündə canlanır:

*Kordu gözü, qoy Təpəgöz*
*Güvənməsin gövdəsinə.*
*Baş əymədik gülləsinə,*
*Qandalına, kündəsinə.*
*Dinlə, nitqi nəyə bənzər*
*Top səsinə, tank səsinə.*

*El tüpürür Avropada*
*O kabusun kölgəsinə*
*Asiya da, Afrika da*
*Bu lənətə atır imza,*
*Bu döyüşün bayrağıdır,*
*Azərbaycan - Xəlil Rza!*

*("Azərbaycan")*

X.R.Ulutürk Azərbaycan xalqının azadlığı, milli İdealı naminə ayağa qalxmışdır. Tarixə bələdlik, xalqın taleyi, nəslin keçib gəldiyi repressiyalar yolu onu inqilaba səsləmişdir. Sənətkar bilirdi ki, Rusiya imperiyası onun xalqının, müstəqil dövlətçiliyinin, türkçülüyün və azərbaycançılığın, Azov, Xəzər, Qara dəniz, Cənubdan Türkiyə və İranla əhatə olunmuş yüzlərlə xalqın – qafqazlının düşmənidir.

IX əsrdən başlayaraq (rusların Azərbaycana yürüşləri 880, 909-910, 913-914, 1030, 1032-ci illərdə olmuşdur) Qafqazın ruslar tərəfindən istilası imperiya siyasətində mühüm yer tutmuşdur. Rus dövlətinin başlıca vəzifəsi Qafqazı, Anadolu və Azərbaycanı ələ keçirmək idi. Qafqazın istilası hökmdar I Pyotrun işğalçılıq planları ilə əlaqədar olmuşdu. Bu plan onun gizli "Vəsiyyətnamə"sində şərh edilmişdi.

1722-1723-cü illərdə Bakı, Quba, Şamaxı, Dərbənd rus ordusu tərəfindən tutulmuş, sonralar Kabarda, Şimali Osetiya və Şərqi Gürcüstan da Rusiya tərkibinə qatılmışdı.

1768-1774-cü illərdə Rusiya-Türkiyə müharibəsi nəticəsində ruslar Qafqazın içərilərinə doğru yerimiş, 1785-ci ildə orada canişinlik yaratmışdı. XIX əsrin əvvəllərində Rusiya-İran müharibələri nəticəsində Şimali Azərbaycan Rusiya tərəfindən işğal olunmuşdu. "Gəncə, İrəvan və Naxçıvanda şiddətli döyüşlər getmişdi. Bakı və Quba xanları rus qoşunlarını geri çəkilməyə məcbur etmiş, Sisyanov Bakını ala bilməmiş, Bakı xanı Hüseynqulu

xan tərəfindən öldürülmüşdü. Rus istilalarına qarşı xalq üsyanları baş verib genişlənmişdi...” [145, s.6]

X.R.Ulutürkün ideoloji mübarizəsi əslində milli azadlıq ideologiyası, məfkurəsinin poeziyada gerçəkləşməsi, poetikləşdirilməsidir. O, milli ideologiyadan bəhrələndiyi kimi, poeziya və şəxsiyyəti ilə onun möhkəmlənməsinə təsir göstərmişdir.

Xəlil Rza poeziyasının milli xarakter müəyyənliyi kesb etməsində sosial-tarixi gerçəkliyi nəzərdən qaçırmaq olmaz. İnqilabçı şairin yetişməsində sosial mühitin səciyyəvi xüsusiyyətlərinə diqqət yetirmek lazımdır.

Sosializm şəraitində siniflər, mənafelər arasında ziddiyyətlər qalmaqda davam edirdi. Xəlil Rza Ulutürk isə İnsan, Haqq, Ədalət, Azadlıq və Müstəqillik axtarışlarını davam etdirməkdə, obrazlaşdırmaqda idi. O, İnsanı Allah simalı, tanrısal görmək istəyir, insan isə haqqın yolundan çox, əsarət yolunu tutub getməyində idi.

Azərbaycanda da üstqurum xalq menafeyinə xidmət etməmişdir. Mütəfəkkir ziyalılar vəziyyəti görüb dərk etmiş və buna etirazlarını bildirmişlər. Xəlil Rza da cəmiyyətin eybəcərlikləri ilə barışmamış, onlara ictimai etirazlarını bildirmişdir. Buna görə də Mərkəzi Komitə, Dövlət Təhlükəsizlik Komitəsi səviyyəsində olan təzyiq və təqiblər şairi rahat buraxmamışdır. Sənətkar tutduğu mövqeyindən çəkinməmiş, daha qətiyyətli olmuşdur.

X.R.Ulutürkün mövcud rejimə, ictimai-siyasi haqsızlıqlara qarşı etirazları onu mənən yetişdirmişdir. Şair sosial-siyasi ziddiyyətləri dərk etdikcə onun azadfikirlilik ideyaları da güclənmişdir. Alim APİ-də müəllim işləyəndə, Akademiyada elmi işçi olanda gənclərin siyasi tərbiyəsi, onların azadfikirlik ruhunun formalaşması üçün gizli təbliğatlar aparmış, siyasi dərnəklər təşkil etmişdir. O, Çənlibel siyasi dərnəyinin təşkilatçılarından olanda da gəncliyi sosial haqsızlıqlara, imperiyaya qarşı mübarizəyə hazırlamışdır.

X.R.Ulutürk özünü siyasətçi, siyasi xadim kimi tanıtmaq istəyindən uzaq olsa da, tarixi gerçəkliyin özü onu bu yola çəkib gətirmiş, o, özündə "tarix və şəxsiyyət", "xalq və ziyalı", "siyasətçi və ziyalı", "xalq və şəxsiyyət vəhdətini" təcəssüm etdirmişdir. Xəlil Rzanın milli azadlıq hərəkatı öndərlərindən biri kimi fəaliyyətinin tarixi səbəbləri, müqəddəm şərtləri vardır.

Ulutürkün milli azadlıq hərəkatı liderlərindən olmaq missiyasının təkamül xəttini belə izləmək olar.

1. Mədəni-ideoloji cəbhədən mövcud sosial gerçəkliyə inkari münasibət. Bu vaxt Xəlil Rzanın etirazları dil, vətənçilik, sosial ədalət, rüşvətxorluq, xalqa etinasızlıq kimi məsələlərlə bağlı olmuşdur.

2. Sosial gerçəkliyin özünə qarşı milli xarakter bütövlüyündən inkarçı baxış. Bu vaxt X.R.Ulutürkün inkarçı, ifşaçı mövqeyi təkcə poetik məramın mövqeyi deyil, həm də özünün birbaşa, açıq-aşkar inkarçılıq mövqeyidir.

3. Siyasi reallıqlara ciddi, güzəştsiz münasibət. Özünün də dediyi kimi "Düşmən amansızdır, yoxdur orta yol" məramından müxalif siyasi qurumlara, təsisatlara olan meyl.

4. Sosial gerçəkliyə qarşı milli xarakter müəyyənliyi qəhrəmanlıq və bahadırlığın təcəssümü.

Tarixi sənədlərə əsasən deyə bilərik ki, Topxana meşəsinin qırılması - təbiətə qəsd Azərbaycanda mütəşəkkil xalq hərəkatı, siyasi təfəkkür fəallığının başlanğıcı olmuşdur. Topxana harayı xalqın milli harayı, özünüdərk harayı idi. Sənədlərdə göstərilirdi: SSRİ Əlvan Metallurgiya Nazirliyinin Ermənistanda yerləşən Kanaker alüminium zavodunun (KANAZ) direktoru R.N.Enqonyan DQMV Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri S.A.Babayana xalq təsərrüfatı məhsulları istehsal edən kooperativ yaratmağı ösgəran rayonu Engels sovxozu ərazisində 10 hektar yer ayrılması üçün 31 avqust

1988-ci il 006-3186 nömrəli məktubla müraciət etmişdir (Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin aqrar-sənaye kompleksində istehsal sahələrinin inkişafı haqqında 22 noyabr 1987-ci ildə verdiyi 1310 nömrəli qərarı). Sentyabrın 3-də Semyon Babayan həmin məktubun üzərində həyasız bir dərkənar qoymuşdur: "V.Ovsepyana. Xahiş edirəm, məcburi surətdə yer ayırın. Məsələ razılaşdırılıb. V.T.Ovsepyan isə 16.09.88-ci ildə 01-66 nömrəli məktubla Əsgəran rayon XDS İK-nın sədrini əvəz edən V.Köçəryana müraciət etmişdir. Qərarı isə (31/212 nöm-rəli, 28.10.88, protokol № 10) sədr A.Ağababyan və katib A.Əsryan imzalamışdır. Əvvəlki sənədlərdə kolxozun adı çəkilirdisə, son qərarda Topxana "Xaçentap" kimi göstərilirdi və tikintinin orada aparılacağı bildirilirdi.

Topxananı "Xaçentap"a çevirmək üçün Ermənistan KP MK-nın orqanı olan "Kommunist" qəzeti 4 dekabr 1988-ci ildə "Topxana, ili Xaçentap" adlı məqalə də dərc etmişdir. Amma yadlarına Azərbaycan Respublikasında yerləşən Xaçınçay, Xaçbulaq, Qaraxaç, Zümrüxaç əraziləri düşən kimi fikirlərini dəyişib Topxananı "Tsaxkasar" etmişlər.

A.Ağababyan işi sürətləndirmək üçün 03-37r sərəncamı ilə xüsusi komissiya yaratmışdır. Vilayət İcraiyyə Komitəsinin sədr müavini Ş.M.Petrosyan və katib R.V.Xaçinyan isə 1 oktyabr 1988-ci il tarixli 4 bəndlik qərar imzalamışlar (Protokol № 20, 8/238 nömrəli qərar). Qərara əsasən ərazinin adı dəyişdirilib Şuşakənd - Şoşa çevrilmişdir. Hətta Cıdır düzünün ələ keçirilməsi planı tərtib olunmuşdur. Baş planda qəsəbə üçün ictimai mərkəz, magistal yol nəzərdə tutulur, tikinti bilavasitə Cıdır düzündən yaxşı görünən 3, 4 və 5 sahələrdə başlayıb, qə-səbənin genişlənməsi Stepanakertə doğru deyil, Şuşa tərəfə istiqamətlənirdi.

Həmin tarixi hadisələrə ilk etirazı Azərbaycan Dövlət Təbiəti Mühafizə Komitəsi etmişdir. Sədri B.Adıgözəlov

16 noyabr 1988-ci il tarixdə SSRİ Təbiəti Mühafizə Komitəsinin sədri F.Q.Morquna və Ermənistan SSR Təbiəti Mühafizə Komitəsinin sədri R.V.Tarcumanyana teleqram göndərmişdir.

17 noyabr 1988-ci il tarixdə xalq respublika hökumətindən 2 gün ərzində qanuni cavab verməyi tələb etmişdir. Azərbaycan SSR Nazirlər Coveti isə ehtirasları sakitləşdirmək əvəzinə gözləmə mövqeyi tutmuş, 466 №-li qərarı noyabrın 24-də imzalamışdır (sədr H.Seyidov, işlər müdiri M.Nəzərov) [25, № 9-10 (21-22)].

Noyabr-dekabr 1988-ci il tarixlərdə 18 gün davam etmiş nümayiş, mitinq dalğası xalqı meydana - ali ideala doğru çəkmişdir. Topxanada qeyri-qanuni tikililərin aparılmasına olan etiraz xalqı mütəşəkkil etirazlara, ümumən, azadlıq, müstəqillik, mübarizəsinə qaldırmışdır.

Ermənistanın Dağlıq Qarabağda Topxana ərazisində torpaq "zəbt etmələri" Ermənistan-Azərbaycan müharibəsinin başlanğıcı olmuşdur. Onlar Ermənistan-Azərbaycan münaqişəsinin yaranmasını iqtisadi səbəblərə bağlayır, guya Dağlıq Qarabağa Azərbaycan hökumətinin sosial qayğısının aşağı olduğunu qeyd edirdilər.

Azərbaycan-Ermənistan münaqişəsi açıq müharibəyə, Azərbaycanın işğalına doğru yönəlir, tarix təkrar olunurdu. Rusiya imperiyası həmişə olduğu kimi işğal siyasətinin hərəkətverici qüvvəsinə çevrilirdi. "Fevralın 20-də millətlərarası münasibətlər praktikasında ölkəmiz üçün görünməmiş bir əhvalat baş vermişdir. Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayəti Sovetinin deputatları səs çoxluğu ilə müraciət qəbul edib Azərbaycan SSR-in və ermənistan SSR-in Ali Sovetlərindən DQMV-ni Azərbaycanın tərkibindən Ermənistanın tərkibinə verməyi, SSRİ Ali Sovetindən isə bu məsələyə baxmağı xahiş edirdilər" [152]. Elə buradaca qeyd edək ki, bu siyasi tələb 1923-24-cü illərdə baş qaldırmış Qarabağa muxtariyyət probleminin yeni şəraitdə davamı idi, S.M.Kirov

bu məsələni kütlənin öz iradəsinin tələbi kimi qeyd etmişdi. O, Azərbaycan KP-nin VI qurultayındakı məruzəsində (5 may 1924-cü il) bildirmişdi: "AK(b)P MK-da Qarabağ Vilayət Partiya Komitəsinin hesabatından 6-cı bənd, vilayətin siyasi vəziyyəti, muxtariyyət tədbiri kəndlilər tərəfindən tam yekdilliklə qarşılanmışdır... Kəndlilər, öz kütləvi qətnamələrində muxtariyyəti və sovet hökumətini alqışlamışlar" [25].

Hadisələrə milli məsələ kimi münasibət ilk dəfə 22 fevral 1988-ci il tarixdə DQMV partiya fəallarının yığıncağında bildirilmiş və tarixi qətnamə qəbul edilmişdir. Qətnamədə deyilir: "DQMV-nin mövcud milli-ərazi quruluşunu dəyişdirmək məqsədini güdən hərəkətlər və tələblər Azərbaycan SSR və Ermənistan SSR zəhmətkeşlərinin mənafelərinə ziddir, millətlərarası münasibətlərə zərər vurur və indi məsul tədbirlər görülməsə, bəlli olmayan və ya hətta çətin düzəldilə bilən nəticələr verə bilər" [112].

24 fevral 1988-ci il tarixdə Azərbaycan partiya fəalları Dağlıq Qarabağ hadisələrinə dair yığıncaq keçirmiş, DQMV-nin Ermənistan SSR tərkibinə qatılması tələbinə qarşı çıxmış, Dağlıq Qarabağ iqtisadiyyatının respublika göstəricilərindən yüksəkdə olması barədə faktlarla çıxış etmişdir. Yığıncaqda qeyd olunmuşdur ki, "milli ərazi quruluşunun dəyişdirilməsi ilə bağlı tələb Azərbaycan və Ermənistan zəhmətkeşlərinin mənafeyinə ziddir" [112, 25 fevral 1988].

O zaman elm, mədəniyyət və ədəbiyyat xadimləri də partiyanın "izi" ilə getmiş, tarixi həqiqətləri demək əvəzinə, siyasi pərdələmələrlə məşğul olmuşlar. "Kommunist" qəzetində 1 mart 1988-ci il tarixli "SSRİ-də milli münasibətlərin inkişafı" məqaləsində akad. F.Köçərli Dağlıq Qarabağ hadisələri ilə əlaqədar olaraq yazmışdır: "Son günlərdə Dağlıq Qarabağ Muxtar Vilayətində baş verən hadisələr göstərir ki, burada da yığılıb qalan nöqsanlar və çətinliklər az deyildir. Beynəlmiləl tərbiyə işi-

nin zəif aparılması və başqa səbəblər bəzi adamlarda millətçilik qalıqlarının canlanmasına şərait yaratmışdır. Ölkənin millət və xalqları arasında keçmişdən qalan faktik bərabərsizlik aradan götürülsə də, ayrı-ayrı respublikalarda sosial strukturda, eləcə də demoqrafik vəziyyət, əhalinin məşğuliyyəti və s. sahələrdə müəyyən fərqlər vardır. Ölkədə eyni tipli sosial struktur yaradılmasına baxmaya-raq, bütün respublikaların sosial strukturu tam eyni deyildir. [112, 1 mart 1988].

Ə.Əfqan "Şayiə düşmən silahıdır", Ə.Zərgərov "Ehtirasları qızışdıran kimlərdir?" məqalələrində Sumqayıt faciələrini antisovet hadisəsi deyil, bir qrup xuliqanın törətdiyi iş olduğunu yazırdılar [112, 29 fevral 1988]. H.Arif "Sarsılmaz birlik" məqaləsində erməni və azərbaycanlıları dostluğa çağırırdı [95, 13 mart 1988].

SSRİ dövləti Azərbaycan dövlətinə vəd və təkliflər verməklə kifayətlənmişdir. Sov.İKP MK-nın baş katibi M.S.Qorbaçov Azərbaycan zəhmətkeşlərinə müraciət edərək demişdir: "Mən sizi vətəndaş yetkinliyi və təmkinliyi göstərməyə, normal həyata və işə qayıtmağa, ictimai asayişi gözləməyə çağırıram. Ağıl və kamalla hə-rəkət etmək məqamıdır" [112, 25 fevral 1988].

Sov.İKP MK-nın 10 mart 1988-ci il tarixli müşavirələrində Azərbaycan Respublikasının I katibi K.M.Bağırov və Ermənistan Respublikasının I katibi K.S.Dəmirçyan vəziyyət barəsində qəribə məlumat vermişlər. Müşavirədə qeyd olunmuşdur ki, "vəziyyət normal məcraya düşür. Qorbaçovun müraciəti qızğın bəyənilmişdir, vaxtında verilmiş bəyanat kimi qiymətləndirilməlidir" [112, 27 fevral 1988].

Fevralın 27-28-də Sumqayıtda faciəli hadisələr baş verir. "Öncə Dağlıq Qarabağı, sonra Naxçıvanı və Gəncəbasarı məngirləyib qəsb etmək daşnak yırtıcıların çoxdankı qara niyyətidir. Ermənilərin ağlı başında olan qismi də yaxşı bilir ki, bu sərsəm sayıqlamalar heç vaxt gerçək-

ləşməyəcək. Daşnaklar bu zülmət qəsdlərini 1988-ci ilin 28-29 fevralında həyata keçirməyi planlaşdırdılar... Sumqayıt faciəsinin daşnak fitnəkarlığı nəticəsi olduğu aşağıdakılardan bilinir:

1. Hadisə ərəfəsində Sumqayıtdakı ermənilər əmanət kassalarından pullarını dərhal çıxarmışdılar.

2. Faciə zamanı şəhərdə zədəli evlərin hamısı çoxdan sığorta edilmiş erməni evləridir. İçərisinin müxəlləfatını daşımış, qapıları, pəncərələri sındırmışlar ki, sığorta haqqını Azərbaycan Dövlət Bankından almaq mümkün olsun. Alıblar da!

3. Hadisə yerinə yeşik-yeşik spirtli içkilər, qəlyanaltı və daş-kəsək gətirilmişdir ki, xuliqanları, başıpozuqları qətlə cəlb edə bilsinlər.

4. Daşnaklar hadisə yerinə kinokamera gətirməyi də unutmamış, faciəni dərhal filmləşdirmişlər. Hadisəni öncə planlaşdırmasaydılar, məhz 28 fevralda Sumqayıta erməni kinokamerası gətirmək kimin ağlma gələ bilərdi?

5. Ermənilərin Xankənddə dərhal soyqırımı abidəsi yapmaları da xəyanətin məkrli planla öncə hazırlandığını göstərir [318].

X.R.Ulutürk 17 iyun 1988-ci il tarixdə "Sumqayıt dastanı" poemasını yazaraq rus-daşnak imperiyasını kəskin ifşa edir, hadisələrin siyasi səbəbləri məqsəd və mahiyyətini göstərirdi. Şair tarixin 1813-cü ildən bəri hadisələrinə nəzər salır. Sumqayıt "havasızlığa, nəfəssizliyə yanıq kirpikləriylə domna sobalarından hər gün od götürməyə, Astara, Culfa, Naxçıvan, Biləsuvara getmək üçün öz vətənindən icazə istəməyə dözdü. Zəngəzur, Göyçə, Borçalı və Dərbəndin alınmasına dözməyən Sumqayıt Xankəndi veriləndə səbr etmədi, silkələndi. BT - Rostov markalı zirehli tanklar görünəndə şair "sür üstümə tankını" deyə hayqırır, özünü bütün sınırlarıyla dünyaya kök atan "dağ, sal qaya", "saçları raketlərlə daranmış planet" bilir və imperiyanı amansızlıqla, nifrətlə ifşa edir:

*Min zəhrimar qarışıb*
*Alovuma, tüstümə,*
*- Xilaskarınam, - deyib*
*Bir vaxt gəldin üstümə.*
*Başında şiş dəbilqə*
*Əynində yırtıq şinel.*
*Əlində sünbə, süngü*
*Qarşında bir oba, el...*
*Onda açdın... " Duz" deyə,*
*Çörək deyə gəlmisən*
*İndi odu, zirehi*
*Geyə-geyə gəlmisən*

Şair amansız nifrət və qəzəb içindən özünün əbədi məmləkət olduğunu sərrast təqdim edir:

*Sür üstümə tankını,*
*Əsrin yürüşüyəm mən.*
*Dövrün döyüşüyəm mən.*
*Sür üstümə tankını,*
*Yerəm, göyəm, tanrıyam*
*Dörd ümmana sığışmaz*
*İdrak dalğalarıyam.*
*Sür üstümə tankını*
*Sanma boş bir qəlibəm.*
*Doğram-doğram doğrayıb,*
*Xıncım-xıncım etsən də*
*Müzəffərəm, qalibəm!*

X.R.Ulutürk kin-küdurət, amansızlıq zirvəsində durduğu halda, hakim dairələr Sumqayıt hadisələrini belə dəyərləndirirdi:

"1988-ci il tarixdə Azərbaycan KP MK Sumqayıt Şəhər Partiya Komitəsinin bürosunun əhali arasında təşkilatçılıq işində böyük nöqsanları, siyasi naşılığı və şəhərdə faciəli hadisələrin qarşısını almaqda fəaliyyətsizliyi haqqında məsələ müzakirə etdi. Müzakirələrdə baş vermiş hadisələr belə səciyyələndirilirdi: "Bu il fevralın axırla-

rında Sumqayıtda xuliqanlıq edən ünsürlərin bir qrupu iğtişaş törətmişdi. Fitnəkar şayiələrin, təhrikçi söz-söhbətlərin təsiri altına düşmüş səbatsız, yetkin olmayan adamlar hüquqa zidd hərəkətlərə cəlb edilmişdilər. Cinayətkar ünsürlər emosiyaların coşması şəraitindən istifadə edib bandit hərəkətləri törətmişlər. Bununla əlaqədar insan tələfatı olmuşdur. Bu adamlar müxtəlif millətlərin nümayəndələri idilər. Bu faciəli hadisələr qeyri-sağlam şayiələrə səbəb olmuş, Azərbaycan və erməni xalqlarının çoxəsrlik dostluğuna çox böyük zərər vurmuşdur" [112, 19 mart 1988].

25 mart 1988-ci il tarixdə Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətində "Dağlıq Qarabağda Azərbaycan SSR-də və Ermənistan SSR-də hadisələr barəsində müttəfiq respublikaların müraciətləri ilə əlaqədar tədbirlər haqqında" SSRİ Ali Coveti Rəyasət Heyətinin qərarını yerinə yetirmək sahəsində vəzifələr haqqında məsələ müzakirə edilmişdir, qərar qəbul olunmuşdur [112, 25 mart 1988].

24 mart 1988-ci tarixli qərara əsasən 1988-1995-ci illərdə Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafını sürətləndirmək tədbirləri haqqında Sov.İKP MK və SSRİ Nazirlər Soveti qərar qəbul edir. [112, 29 mart 1988].

Dağlıq Qarabağ faciələri haqqında xarici radiostansiyalar obyektiv məlumat verəndə belə, həm yerli, həm də moskvalı müxbirlər onları milli ədavət qızışdıranlar kimi qələmə vermiş və tənqid etmişlər. 4 aprel 1988-ci il tarixli "Pravda" qəzetində "Təhrikçilər" məqaləsinin müəllifləri A.Vasilkov və K.Ovçarenko "Azadlıq", "Bi-bi-si", "Amerikanın səsi", "Alman dalğası" radiostansiyalarını şayiə yayanlar, təhrikçilər kimi tənqid etmişlər [131, 4 aprel 1988].

SSRİ dövləti və müttəfiq respublikalar səviyyəsində Ermənistan - Azərbaycan məsələsi oktyabr ayına qədər

səngimiş, rəsmi dairələrdə müvafiq işlər getməmişdir. Lakin xalq kütləvi nümayiş və mitinqlərdə iştirak etməyində davam etmişdir, Azərbaycan KP MK-nın birinci katibi Ə.X.Vəzirov və Ermənistan KP MK-nın birinci katibi S.Q.Arutyunyan hakimiyyətə gəldikdən sonra Dağlıq Qarabağ məsələsi Azərbaycan KP MK-da yenidən müzakirə olunmuşdur. Azərbaycan KP MK bürosu oktyabrın 13-də keçirilən iclasında MK-nın birinci katibi Ə.X.Vəzirovun DQMV-yə səfərinin yekunlarını müzakirə etmişdir. Birinci katib S.Q.Arutyunyan ilə oktyabrın 11-də Xankəndidə keçirilən növbəti görüşdə "respublikaların rəhbərləri işlərin vəziyyəti barədə yenidənqurma gedişində Azərbaycan və Ermənistan partiya təşkilatlarının, zəhmətkeşlərinin iqtisadiyyatda, sosial sahədə durğunluq hallarının aradan qaldırmaq və ideya-mənəvi şəraiti sağlamlaşdırmaq, tədbirləri əlaqələndirmək sahəsində görülmüş işlər barədə bir-birinə məlumat vermişlər" [112, 14 oktyabr 1988].

O zaman Ə.Vəzirov Moskvanın, MK-nın göstərişi ilə vəziyyətdən çıxış yolu kimi Qarabağda xüsusi təşkilat forması yaratmaq qərarına gəlmişdir. 23 yanvar 1989-cu il tarixdə DQMV-nin xüsusi idarə komitəsi yaradılmışdır. Komitəyə Sov.İKP MK-nın şöbə müdiri A.Volski rəhbərlik etmişdir. Guya bu komitə ermənilərlə azərbaycanlılar arasında münasibətləri nizama salacaq, münaqişəyə son qoyacaqdı. 26 yanvar 1989-cu ildə Ə.Vəzirovun A.Volski ilə görüşü olmuş, "DQMV-də vəziyyəti normal hala salmaq, muxtar vilayətin sosial-iqtisadi inkişafı, kəndlərin və rayon mərkəzlərinin abadlaşdırılması sahəsində Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin qərarını yerinə yetirmək məsələləri müzakirə olunmuşdur" [112, 27yanvar 1989]. -

Sov.İKP MK-ya, M.S.Qorbaçova çoxsaylı fəhlə, zəhmətkeş, ziyalı məktubları göndərilmiş, teleqramlar vurulmuş, həmin müraciətlərdə hadisələrin inkişafı gözlənil-

məz nəticələr verə bilər, - deyə xəbərdarlıqlar edilmişdir [112, 14may 1989].

Həmin vaxtlarda həm rus, həm də Azərbaycan mətbuatında baş verən ictimai-siyasi hadisələr təhlil olunmuş, onlara münasibət bildirilmiş, subyektiv və obyektiv qiymət verilmişdir. A.Proxanovun "Stepanakertə getmişdim..." məqaləsində, V.Andriyanovun "Sosialistiçeskaya industriya" qəzetindəki publisistik yazılarında onların səmimiyyəti, faciələr, hadisələrlə yaşamaq, ağrınmaq əhvali-ruhiyyələri görünürdü [126, 10 avqust 1988; 127, 27 yanvar 1989].

Prof.Yaşar Qarayev meydan hərəkatına, milli azadlıq hərəkatının tutumuna analitik təhlil vermiş, obyektiv araşdırmalar aparmışdır [112, 4 fevral 1989]. Cahid Quliyev "Azadlıq və şəxsiyyət" [112, 22 yanvar] məqaləsində də Azadlıq meydanında xalqı düşündürən problemlərin inikas səviyyəsindən danışırdı, mənfi və müsbət vəziyyətlərə münasibət bildirmişdir. Aydın Məmmədov "Mövqe aydınlığı naminə" məqaləsində siyasi-milli şüurun dəyişməsini mövcud həyat - yaşayış vərdişlərində görmüş, inkişafın mənbəyini də bununla izah etmişdir [112, 8 aprel 1989]. Bu dövrdə Tofiq Köçərli "Qonşuluq zərurəti, həm də müqəddəs borc" məqaləsində [112, 31 avqust 1989] Ermənistanla Azərbaycanı dostluğa çağırmış, K.Qluşkovun "Aşkarlıq qıtlığıdır, yoxsa obyektivlik qıtlığı" yazısında [25, 9 avqust 1989] Qarabağ hadisələrinin obyektiv açıqlanmadığı bildirmişlər. Eyni dərəcədə respublika ictimaiyyəti, fəhlə və qulluqçu, ziyalıların ardı-arası kəsilməyən məktubları davam etmiş, onlar vəziyyətin ağırlığını dönə-dönə bildirmişlər [112, 19 avqust 1989].

Müraciətlərdə loyal münasibət, təklif və çağırış motivləri də ifadə olunmuşdur. Belə müraciətlər daha çox dövlət səviyyəsində, rəsmi xarakterli məktublarda görünmüş, dostluq, birlik ideya-məzmunu kəsb etmişdir. Azərbaycan

SSR Dağlıq Qarabağ Muxtar Vilayətində yaşayan qadın və analara respublika qadın və analarının müraciətində deyilirdi: “Əziz azərbaycanlı bacılar və erməni analar, biz sizi Sov.İKP MK-nın Baş katibi, SSRİ Ali Sovetinin sədri M.S.Qorbaçovun müraciətinə qulaq asmağa çağırırıq. Bu müraciətdə o, indiki və gələcək zaman qarşısında çox böyük məsuliyyət göstərməyə, millətlərarası münasibətləri kəskinləşdirməyin təhlükəli olduğunu və bunun cəmiyyət üçün, hər ailə üçün, hər kəs üçün verə biləcəyi nəticələri başa düşməyə çağırmışdır” (Qərar Respublika Qadın Şurası Rəyasət Heyətinin iclasında qəbul olunmuşdur) [112, 15 iyul 1989],

Azərbaycan ziyalılarının müraciəti aktuallığı, siyasi xarakteri etibarilə tarixi əhəmiyyət daşıyırdı. “Qarabağ, biz sizinləyik” həmrəylik çağırışlarında Azərbaycanın elm və mədəniyyət xadimlərindən İ.Şıxlı, Anar, Elçin, C.Quliyev, S.Rüstəmxanlı, F.Məmmədova, C.Allahverdiyev və başqaları Dağlıq Qarabağda yaşayan azərbaycanlılarla həmrəylikdən, Qarabağa Yardım Komitəsi yaratma-qdan, dövlət səviyyəsində Dağlıq Qarabağ hadisələrinə qiymət vermək üçün Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin növbədənkənar sessiyası çağırılmasının zərurətindən danışmışlar [112, 16 avqust 1989].

Bu, elə bir tarixi şərait idi ki, artıq bu zaman Baltikyanı ölkələrində mövcud sovet-alman müqavilələri ləğv edilir, müstəqillik uğrunda etiraz aksiyaları keçirilirdi. M.S.Qorbaçov isə bu sahədə qəbul olunmuş qərarların antikonstitusion xarakterindən danışmış və bəyanatlar vermişdir [112, 22 avqust 1989].

X.Rza usanmaz mücahid şair kimi daim xalq içində olmuş, onunla birlikdə mübarizə aparmış və çıxışlar etmişdir. KP-nin beynəlxalq şovinizmi, imperiyanı ifşa edən şeirlər yazmış, çıxışlar etmişdir. Onun 25 sentyabr 1989-cu il tarixli ərizəsi də tarixi cəhətdən əhəmiyyətlidir. Həmin ərizəni Arxivindən götürüb təqdim edirik:

***Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat İnstitutunun Partiya təşkilatına Xəlil Rza tərəfindən Diləkçə***

Sıralarında olduğum müddətdə Kommunist Partiyasından həmişə xəyanət görmüşəm. DTK-nın göstərişi əsasında 1969-cu il yanvarın 3-də işdən azad edilmişəm, on il dərs dediyim V.İ.Lenin adına APİ-dən çıxarılmışam. Uzun müddət işsiz qalmışam. 20 il sonra mənim üçün daha ağır hadisə baş vermişdir: "Yazıçı" nəşriyyatı tərəfindən 30 mitirajla buraxılmış "Məndən başlanır Vətən" adlı şeir kitabım Azərbaycan KP MK katibi Ə.X.Vəzirovun iradəsilə dustaq edilmişdir. Keçən il respublika "Bilik" cəmiyyəti xətti ilə Yevlax, Bərdə, Mirbəşir, Ağdam, Şuşa, Əsgəran rayonlarında oxuduğum mühazirələrin yol-luqlan (putyovka) Azərbaycan xalqının qəddar düşməni Volskinin göstərişi və bizim Mərkəzi Komitənin ona təslimçiliyi ucbatından cəmiyyətin sədri Qeysər Xəlilov tərəfindən həbsə alınmışdır.

Mən Zori Balayan, Ə.X.Vəzirov, Ağanbekyan, Henrix Borovik, Əfrand Daşdemirov kimi kommunistlər ilə və keçən il az qala yarım milyon türkazəri Ermənistandan, daha doğrusu, klassik Azərbaycandan rus qoşunlarının himayəsi altında çıxaran, vəhşicəsinə qovan, öldürən, diyar-diyar səpələyən, evsiz-eşiksiz qoyan və heç bir cəza almayan yırtıcılarla, onların qarşısında heç bir önduruş (müqavimət) göstərməyən üzdəniraq siyasət xadimləri ilə eyni partiyada qalmaq istəmirəm.

Xəlil Rza

25 senyabr 1989, Bakı [318]

Partiya sıralarından kütləvi surətdə imtinalar şəraitində M.S.Qorbaçov millətlərarası münasibətlərin məcraya düşməsinə çalışmaq əvəzinə, partiya işini yenidən qurmaq zərurətindən danışmışdır. O, 18 iyul 1989-cu ildə Sov.İKP MK-da müttəfiq respublikaların kommunist partiyaları MK-larının, diyar, vilayət partiya komitələrinin

birinci katiblərinin müşavirəsini keçirmiş, “Partiyanın işinin yeniden qurulması günün ən vacib, ümdə vəzifəsidir” [112, 20 avqust 1989] mövzusunda məruzələr etmişdir.

Yerli şəraitdə Ə.X.Vəzirov siyasi çağırışları ilə işini bitmiş hesab etmiş, əməli tədbir görə bilməmişdir. Baltikyanı ölkələr etiraz aksiyalarına başladıqları halda, milli dövlət və hökumət müstəqilliyə, azadlığa doğru addım atmaq cəhdində olmamışdır.

Xalq Qarabağı, oranın sakinlərinin həyat, yaşayış şəraitini unutmamış, onlara yardımlırını davam etdirmişlər. Bununla əlaqədar olaraq, 29 avqust 1989-cu ildə “Qarabağa Yardım Komitəsi”nin [112, 31 avqust 1989] təsis konfransı çağırılmış, təşkilat yaradılmışdır. Təşkilata xalq yazıçısı Bayram Bayramov başçılıq etmişdir. Az sonra təşkilat orqanı kimi “Azərbaycan” qəzeti nəşrə başlamışdır [112, 31 avqust 1989] (“Qarabağ: ümidin gecəsi və gündüzləri”). Qəzet fəaliyyət göstərdiyi müddətdə Azərbaycanın ictimai-siyasi və mədəni həyatını cəsarətlə, hünərlə işıqlandırmış, təqiblərə sinə gərmişdir. Bu dövrdə ən ciddi problemlər, tarixin qaranlıq səhifələri həmin qəzetdə açıqlanmışdır. Bu, həqiqi mənada qəzetin baş redaktoru S.Rüstəmxanlının hünəri idi. Sözün doğrusunu demək və yazmaq hünəri! Qəzet Bakıda bölgələrdə gedən mitinq, nümayiş və tətilləri vaxtında və obyektiv olaraq işıqlandırmışdır.

Sentyabrın əvvəllərində V.İ.Lenin adına Yeni Bakı Neftayırma zavodu, Azərneftkimya İstehsaİ Birliyi, Sov.İKP XXII qurultayı adına Bakı Neftayırma zavodu, Keşlə maşınqayırma zavodu, Vorovski adına dəmir yolu, Biləcəri yük stansiyası və ayrı-ayrı yerlərdə artan tətillər Azərbaycan xalqının azadlıq və müstəqilliyə olan inamını gücləndirmişdir.

17 sentyabr 1987-ci ildə XI çağırış Azərbaycan SSR Ali Soveti sessiyasını gedişi şəraitinde xalq konkret tələblər irəli sürmüş, şüarlar qaldırmışdır: “Deputatlar, xalqın

səsinə səs verin", "DQMV-də xüsusi idarə komitəsi ləğv edilsin", Azərbaycan xalqı öz sərvətinin tam sahibi olmalıdır", "Volski Dağlıq Qarabağdan getməlidir", "Ermənistandan gəlmiş qaçqınların qayğısı bütün azərbaycanlıların qayğısıdır" və s. Sessiyada "Azərbaycan SSR-in DQMV-də vəziyyət haqqında" qərarı qəbul olunmuşdur. Həmin qərara əsasən DQMV-nin xüsusi idarə komitəsi ləğv edilmişdir [112, 19 sentyabr 1989]. 23 sentyabr 1989-cu ildə isə Azərbaycan Sovet Sosialist Respublikasının suverenliyi haqqında Azərbaycan SSR-in Konstitusiya Qanunu tesdiq olunmuşdur [112, 5 oktyabr 1989].

Xalqın artan tələbləri nəticədə Sov.İKP, Ali Sovet müvafiq tədbirlər görməyə məcbur olmuşdur. 28 noyabr 1989-cu ildə M.S.Qorbaçov "DQMV-də vəziyyəti normal hala salmaq tədbirləri haqqında" qərar qəbul edilmişdir. Qərara əsasən xüsusi idarə komitəsi ləğv edilmiş, müvafiq təşkilat komitəsi yaratmaq tövsiyə olunmuşdur. Lakin qərarda hakimiyyət dairələrinin Ermənistana "qayğısı" aşkar duyulurdu. Qərarda deyilirdi: "Azərbaycan SSR Ali Sovetinə tövsiyə olunsun ki, ən qısa müddətdə real muxtariyyət statusunun yüksəldilməsini, DQMV-nin erməni əhalisinə təsirli təminat verilməsini, qanunçuluğa əməi olunmasını, vətəndaşların həyat və təhlükəsizliyinin müdafiə edilməsini, qarşıya çıxan bütün problemlərin Konstitusiya əsasında həllini təmin edən qanunvericilik tədbirləri görsün" [95, 28 noyabr 1989].

Həmin qərara əsasən Azərbaycanda müvafiq tədbirlər həyata keçirilmişdir. 6 dekabr 1989-cu ildə DQMV üzrə respublika təşkilat komitəsi yaradılmışdır. 1 dekabr 1989-cu il tarixdə Ermənistan SSR Ali Soveti DQMV-nin qondarma milli şurası ilə birlikdə qəbul etdiyi "Ermənistan SSR-in Dağlıq Qarabağı birləşdirmək haqqında" antikon-stitusion qərarına etiraz məqsədilə müvafiq qərar qəbul etmişdir. Qərarda deyilirdi: "Ermənistan SSR və Dağlıq

Qarabağı birləşdirmək haqqında" Ermənistan SSR Ali Sovetinin 1989-cu il 1 dekabr tarixli qərarı suveren Azərbaycan SSR-in işlərinə yolverilməz müdaxilə, onun ərazi bütövlüyünə qəsd, regionda vəziyyətin sabitləşməsinə, normal münasibətlərin bərpasına kömək etməyən tədbir hesab edilsin [95, 16 dekabr 1989].

Müvafiq olaraq SSRİ Ali Soveti Ermənistan SSR Ali Sovetinin 1 dekabr 1989, 9 yanvar 1990-cı il tarixlərdə qəbul etdiyi qərarları, SSRİ Konstitusiyasının 2, 78, 86, 87 və 145 nömrəli maddələrinə zidd olduğu qeyd edilmiş, Azərbaycan SSR-in suveren hüquqlarını pozmaq kimi qiymətləndirilmişdir. Lakin erməni daşnakları "titneyi-iblisi-məlun"un qərarına, beynəlxalq hüquq normalarına əhəmiyyət vermir, rus şovinistləri, separatistləri ilə Azərbaycanı "parçala və hökm sür", "ayır, buyur" siyasətini davam etdirirdilər. Onu demək kifayətdir ki, 1988-1990-cı illərdə Ermənistan SSR-dən 200 mindən artıq azəri türkü yurdundan qovulmuş, Azərbaycan ərazisinin 20%-i işğal olunmuşdu [17, s.130 - 151].

Rusiya ermənilərin əməllərini ört-basdır etmək üçün Sumqayıtda (28-29 fevral 1990), Bakıda (15-16 yanvar 1990) faciəli hadisələr törətdirmiş, səbəbləri isə azərbaycanlıların üstünə atmışlar. Xalqın rus imperiyasına, erməni şovinizminə qarşı mübarizəsi səngiməmiş, hakim dairələri lərzəyə salmışdır. Bununla əlaqədar olaraq, SSRİ Ali Soveti Rəyasət Heyəti 15 yanvar 1990-cı il tarixdə "Dağlıq Qarabağ Muxtar Vilayəti və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan edilməsi haqqında" fərman vermişdir [112, 17 yanvar 1990].

19-20 yanvar (1990) gecəsində isə sovet ordusu Azərbaycanda qanlı faciə törətmişdir. O Pribaltika və Gürcüstanda, Özbəkistan və Qazaxıstanda milli azadlıq hərəkatlarının qarşısını almağa zor etmiş, lakin müvəffəq ola bilməmişdi.

20 Yanvar Azərbaycan xalqının azadlıq və demokra-

tiya hərəkatının zirvəsidir. Həmin hərəkatın ictimai-siyasi və mədəniyyət xadimləri sırasında Xəlil Rza Ulutürk daha ardıcıl və prinsipial olmuşdur. O, 1988-ci ildən erməni şovinizmi və rus imperializminə qarşı səbatlı mübarizəyə başlamış, Azərbaycanın bütün bölgələrində siyasi çıxışlar etmiş, xalqı mütəşəkkil səfərbərliyə çağırmışdr. Onun çıxışlarının məğzində Azərbaycanın siyasi müstəqilliyi və demokratiya yolu ilə inkişafı ideyası dayanmışdır. Belə siyasi mövqe nəticə etibarilə X.R.Ulutürkü "qara siyahı"ya saldırmış, imperiyanın zindanlarına gətirib çıxarmışdır. Şair ehtimal edir ki, "vur-tut 2 həftə (12 yanvar 1990-cı il - Ə.Ə.) bundan əvvəl DTK ətrafında yapdıqları əzəmətli piketə, rəis müavini İlhüseyn Hüseynova irəli sürülən tələblərə görə onun "zindan həyatı" başlanmışdır. Şair dediklərini xatırlayır: "70 ildir ki, daşnaklar yuva salıb, üstəlik daşnak südü əmənlər, qırmızılar. Təmizləyin DTK-nı murdarlardan. Təmizləyin Azərbaycanı! Bəlkə də adım qara siyahıya həmin gün düşüb..."[19, № 2, s.13].

Xəlil Rza 26 yanvar 1990-cı ildə Akademiyada keçirilən matəm mitinqindən çıxıb bütün Bakının ayağa qalxdığı, qərənfil yağışına qərq olduğu Şəhidlər Xiyabanına gələndə, şəhəri gülləbaran edən bəşər cəlladları Qorbaçov, Yazov, Kryuçkov, Girenko, Barannikov kimi qırmızı imperiya xadimləri, onların yerli nökərlərinə qarşı xalq nifrətini, qəzəbini ifadə edəndə "Gülüstan" (1813), "Türkmənçay" (1828) bağlaşmalarından üzü bəri gələn tarixi həqiqətləri, ağ və qırmızı imperiyanın törətdiyi cinayətləri göstərib şeir dili ilə söyləyəndə tuthatut başlanmış və o, "Gənclik" metrosu yaxınlığında M.Mirzənin 73 77 AQ nömrəli "Jiquli" maşınında tutulmuşdur. O günləri şairin qardaşı Məhəmməd Rza Xəlilbəyli belə xatırlayırdı: "Şəhidlərin 7-də Xiyabanda Xəlil Rzanın çıxışını yadıma salanda indi də sarsılıram. "Qanlı qəsbkara" (Qanlı cəllad M.S.Qorbaçova - red. Ə.Ə.) şeirinin hədəfi

qırğınların baş dirijoru M.Qorbaçova tuşlansa da, onun yerdəki törtöküntüləri bu qəzəb vulkanının içində əriyirdi. Həmin gün yanvarın 26-da istiqlal mücahidi, azadlıq carçısı həbs edildi. Əvvəlcə Xiyabana yaxın Lefortovonun Azərbaycandakı filialı DTK-ya, sonra isə xüsusi təyyarə ilə imperiyanın məşhur zindanına atıldı" [102, 8 mart 1997].

Xəlil Rza Ulutürk Azərbaycan SSR Prosessual Cinayət Məcəlləsinin 67-ci maddəsi ilə milli ədavəti qızışdırmağa görə SSRİ Baş Prokurorluğunun müavini İ.Abramovun əmrinə əsasən həbs olunmuş, 3 aydan 10 ilədək iş gözlənilmişdir, "qanadları bükülməyən bir qüdrət şairi alıb layiq olduğu təmiz, ülvi mövqeyə qaldırmış", "al qanuna bələnmiş dünya yerində qalmışdır".

27 ocaq 1990-cı ildə Xəlil Rza Moskvanın, SSRİ DTK-nm Lefortovo zindanına gətirilmişdir. Burada şairin ünvanı belə olmuşdur: Moskva, Energetika küçəsi, 3A, SSRİ DTK-nm təhqiqat şöbəsi, 29-cu oda. Həmin zindanda Azərbaycan Xalq Cəbhəsindən E.Məmmədov, Milli Qurtuluş Partiyası lideri Seyid Tahir Abbas Qarabağı, Məhəmməd Hatəmi Tantəkin, Məmməd Əlizadə və Rəhim Qazıyev də saxlanılmışdır.

X.R.Ulutürk qaldığı kameranı, ümumən, zindana məxsus olan xüsusiyyətləri xırdalıqlarına qədər gündəliklərində təsvir etmiş, şeirlərində poetikləşdirmişdir [290]. Biz də yeri gəldikcə şairin arxiv materiallarına, gündəliklərinə istinad edəcəyik.

X.Rzanın saxlandığı yer - kameranın uzunluğu beş, eni üç arşın, əlçatmaz tavanı, qoşa lampası, dəmir qapısı üstündə gözlüyü, qəbul qapağı, zəngi və işıq, barmaqlıq dalında pəncərəsi, iki masası, kamera boyda gəzinti guşəsi, qırmızı kərpicdən-hörülmüş divarlar, dəmir-beton suvaq, üç dəmir çarpayısı, divar qutusu, baş üstündən asılmış davranış qaydaları lövhəsinə qədər təsvir olunmuşdur. Həmin dustaq evi (zindan) dördqatlıdır. "K" şəkilli-

dir. 1776-cı ildə çar Yekaterina zamanında, onun tərəfindən zabitlər üçün tikilmişdir. Divarı Kreml divarı ilə eyni kərpicdəndir. Vaxtilə yazıçı Soljenitsın, kosmik gəmilər kəşfiyyatçısı Sergey Korolyov, səhnə xadimi görkəmli Georgi Djonov burada saxlanmışdır. Zindan 1937-ci ilin dəhşətlərini yola salmışdır. 29 yanvar 1990-cı ildə hərbçi fotoqraf Xəlil Rzanın barmaqlarının, əllərinin əksini ayrı-ayrı sənədlərə köçürmüş, ailənin, yaxınlarının adlarını, soyadlarını sənədləşdirmişdir, şairin üzdən, profildən şəklini çəkmişdir. Şəkəri olduğuna görə X.Rzaya 2 kq hisə verilmiş kolbasa, 1 kq soğan, sarımsaq, 0,5 kq qoz ləpəsi, 0,5 kq limon, 0,5 kq kişmiş, 0,5 kq qaysı qurusu qəbul etməyə icazə verilmişdir. İlk baxışda bu qayğı təsiri bağışlayır. Bu zahirən belə olmuşdur. O, Etibar Məmmədovun "Lefortovo gündəliyi" kitabındakı "Əjdaha mağarasında mübarizə" başlıqlı ön sözündə yazmışdır: "Lefortovo zindanında vaxtında hamamlanma, təmizlik, tibbi xidmət və istintaq zamanı zahiri nəzakət gözlənilir. Lakin bu zahiri nəzakətin və səliqə-səhmanın arxasında dəhşətli bir qəsd dayanır: siyasi dustağın iradəsini qırmaq, onu öz xalqından, öz mübarizəsindən təcrid etmək yolu ilə təkləmək, uzun müddətli zindan həyatına alışdırmaqla, öyrəşdirməklə elan olunmuş cinayəti onun boynuna qoymaq, diz çökdürmək" [1Ş| s.6]. Budur, şairin arxivindən əldə etdiyimiz ittihamnamə, digər tarixi sənədlər də bunu sübut edir. X.R.Ulutürkün ilk mühakiməsi 30 yanvar 1990-cı ildə olmuşdur.

Təsdiq edirəm
SSRİ Baş prokuroru müavini
1-ci dərəcəli Dövlət müşaviri
İ.P.Abramov
30 iyul 1990-cı il

***İttihamnamə***

108 №-li cinayət üzrə
Xəlilov Xəlil Rza oğlu
Hatəmi Məhəmməd Fərzulla oğlu,
Abbasov Tahir Yunis oğlu,
Azərbaycan CM-nin 67-ci maddəsinin
3-cü hissəsində göstərilən cinayəti
törətdikləri ittiham barədə

13 yanvar 1990-cı iidə Bakı Şəhər Prokurorluğu tərəfindən kütləvi iğtişaşla əlaqədar cinayət işi qaldırılmışdır.

18 yanvarda bu iş SSRİ Prokurorluğu tərəfindən SSRİ DTK-nın istintaq orqanına həvalə edilmişdir.

c. 1 i.v. 4-5,7-9

26 yanvarda 49 №-li iş üzrə AEA Nizami adına Ədəbiyyat Muzeyinin baş elmi işçiləri Xəlilov X.R. və Hatəmi M.F. həbs olunmuşdur.

c. 1 i.v. 36-41, 222-227

İstintaqda məlum olmuşdur:

İttiham olunan Xəlilov, Hatəmi, Abbasov Azərbaycan SSR-in sakinləri olmaqla noyabr-dekabr 1989-cu ildən yanvar 1990-cı ilə qədər ayrıca və birlikdə, həmçinin başqa şəxslərə, yeni qrup şəklində olan şəxslərin tərkibində, Bakı şəhərində öz hərəkətlərinin və rus millətindən olan vətəndaşlara qarşı milli ədavətin və düşmənçiliyin qızışdırılmasına yönəldərək və onların şərəf və ləyaqətini alçaltmaqla və millətindən asılı olaraq konstitusiya hüquqlarını məhdudlaşdırmağa yönəldərək, nəticədə bu insanların həlak olmasına və başqa ağır nəticələrə gətirib çıxarmışdır. Bununla belə qanunsuz çoxminli mitinqlərdə çıxış edərək, Azərbaycanın mərkəzi meydanında, həmçinin qanunla qeyd olunmamış “Qurtuluş” təşkilatı tərəfindən, onun rəhbəri Hatəmidir, mitinqlərdə işdə ittiham olanlar Azərbaycan xalqını erməni millətindən olanlara qarşı zor göstərməyə çağırmışlar.

Xəlilovun, Hatəminin və Abbasovun etdiyi cinayət əməlləri bunlardan ibarətdir:

17 noyabr 1989-cu ildə respublikada xalq hərəkatının ildönümü münasibətilə Azərbaycan Xalq Cəbhəsi tərəfindən təşkil edilmiş mitinqdə təqsirkar Hatəmi israr etməyə çalışırdı ki, guya Azərbaycan - rus imperialistləri tərəfindən işğal olunub. Həmin mitinqdə mitinq iştirakçılarını erməniləri Azərbaycandan qovmağa çağırmış və demişdir: Azərbaycan xalqı əl-ələ verib... ermənilərin Azərbaycandan qovulmasına nail olmalıdırlar.

Müttəhim Xəlilov bu mitinqdə çıxışında demişdir ki, Azərbaycan ərazisindən bütün ermənilər qovulmalıdır.

Bu qeyri-qanuni hərəkətlər öz təsdiqini tapmışdır: -təqsirkar, Hatəminin ifadəsiylə göstərir ki, 17 noyabr 1989-cu ildə o həqiqətən çoxminli mitinqdə çıxış etmiş və yuxarıda göstərilənləri tələb etmişdir.

c. 1 i.v. 267-270, 304 308

- Xəlilovun V.İ.Lenin adına meydanda olan mitinqdə iştirak etməsi və öz çıxışında bütün ermənilərin Azərbaycandan qovulmaq haqqında ifadəsi. O həmçinin Hatəminin mitinqdə çıxış etməsini təsdiq etdi.

c. 1 i.v. 179-201

26 yanvar, 28 fevral 1990-cı il maqnitofon kasetlərinə köçürülmüş baxış protokollarından görünür ki,... təqsirkar Xəlilov mitinq iştirakçılarına müraciət edərək demişdir ki, erməniləri silah gücünə yox, qəzəbimizlə Azərbaycandan qovacağıq. Onlar Basarkeçərdən, Zəngəzurdan, Kafandan çıxmayınca biz sakitləşməyəcəyik.

c, 4 i.v. 213, 228 4 229, 241 - 245, 275,276, 295 - 305.

№ 84(87) - 43-90-li 29 may 1990-cı il tarixli fonoqrama ekspertizasının rəyindən görünür ki, 828 № li kasetdə 17.XI.89-cu il mitinqi yazılmış və həmin kasetdəki çıxış Xəlilova məxsusdur.

c. 12 i.v. 1 -98....*

---

* Hər yerdə ixtisarlar X.R.Ulutürkə aid deyildir. Onlar adları yuxarıda qeyd olunan digər müttəhimlərə aiddir (- Ə.Ə.).

Maddi sübutlarla maqnitofon kompakt kasetləri 2.XII.1989-cu il tarixli mitinqdə çıxış edənlərin səs yazıları.

c. 1 i.v 102 - 107 (kasetlə ayrıca koropka)

Həmin işin 4 dekabrında Bakı mərkəzi meydanında keçən mitinqdə Xəlilov yuxarıda göstərilən məqsədlə çağırış etmişdir: " - Ən birinci vəzifə ondan ibarətdir ki, hər saat, hər dəqiqə Azərbaycan torpağından erməni kafirlərini qovmaq". Bununla da erməni millətinin milli şərəfini və ləyaqətini alçaltmışdır və təhqiredici formada demişdir ki, "...biz onları tüpürcəklə qovacağız".

...Xəlilovun iradəsi ilə - 4 dekabrda olan mitinqdə həqiqətən o, ermənilərin şərəfini və ləyaqətini təhqir etmişdir, onların qovulmasını tələb etmişdir və mitinq iştirakçılarına israr etmişdir ki, Azərbaycanlıların birinci vəzifəsi erməni kafirlərini Azərbaycandan qovmaqdır.

…

- Fonoqrama ekspertizasının 29.05. 1990-cı il tarixli rəyindən görünür ki, 266 və 544 nömrəli kompakt kasetlərdən çıxış Xəlilova, 317 №li kasetdə isə Abbasova

məxsusdur.

c. 12 i.v. 1 -98

4 yanvar 1990-cı ildə Bakı şəhərində çoxminli mitinqdə milli ayrı-seçkiliyi və düşmənçiliyi qızışdıraraq bildirmişdir ki, bu gün erməniləri qovmaq ən layiqli işdir, respublikada ermənilərlə bir yerdə işləyənləri və yaşayanları rüsvay etməyə çağırmışdır. Xəlilov ifadəsində 4.01 tarixli mitinqdə yuxarıda göstərilən məqsədlə Bakını ermənilərdən təmizləməyə çağırması yuxanda göstərilən sözləri deməsini göstərmişdir.

c. 1 i.v. 174 - 179. 184 - 187, 217 - 221

Xəlilovun mitinq iştirakçılarına erməniləri Azərbaycandan qovmaq, hərbçilərə basqın edib avtomatlarını almağa çağırışla müraciət etdiyini göstərmişdir.

- Fonoqrafiya ekspertizasının rəyilə təsdiq olunmuşdur

ki, 014 və 804 nömrəli kompakt kasetlərdəki və 129 nömrəli videokasetdəki çıxışlar Xəlilov tərəfindən edilmişdir. c. 12i.v. 1-98
1 yanvar 1990-cı ildə Bakıda mitinqdə Xəlilov öz çıxışında silahlanaraq Bakını ermənilərdən təmizləməyə çağırmış və bildirmişdir ki, bir binada da erməni qalmamalıdır, onları əqrəb kimi əzmək lazımdr.

- Xəlilov ayın 8 yanvarında mitinqdə iştirakçıları ermənilərə qarşı zorakılığı gücləndirməyə çağırmışdır...

c. 1 i.v. 188 - 90, 217 - 221 (red. - Ə.Ə. mtinqi X.Rza aparmışdır)

- Fonoqrama kompakt-kasetaya baxış protokolları 8.01.90-cı il tarixli mitinqdə Xəlilov mitinq iştirakçılarını silahlanmağa və Bakını ermənilərdən təmizləməyə çağırmışdır, onlar əqrəbdir insanların ayağı altında, o əqrəbləri tapdalamaq gərəkdir.

c.4 i.v. 201 - 202; c. 8. İ.v. 1 - 27

Fonoqrafiya ekspertizasının 29.05.1990-cı il tarixii rəyi ilə təsdiq olunmuşdur ki, 544 və 570-li kompakt kasetlərdəki çıxış Xəlilov tərəfindən edilmişdir.

13 yanvarda Bakıda kütləvi iğtişaşlar başlamazdan qabaq hansı ki, erməni millətindən olan vətəndaşlar öldürülmüş, onların mənzillri talan olmuş və digər cinayətlər cdilmişdir, təqsirkar basqın etməyə, əsir tutmağa, onları girov saxlamağa çağırmış, "Biz erməniləri tutub girov saxlamalıyıq", - demişdir. Bununla yanaşı erməniləri qovmaq haqqında Öz şeirlərini oxumuşdur.

...İlkin istintaqdakı ifadəsində

13 yanvar 1990-cı il tarixli mitinqdə, Bakı Lenin adına Mərkəzi Meydanda minlərlə adamı idarələrə, müəssisələrə, zavodlara basqın etməyə, erməniləri girov saxlamağa çağırdığını və milli ayrı-seçkiliyə və düşmənçiliyə yönəlmiş çıxışını öz taleyi ilə daha da gücləndirmişdir.

c. 1 i.v. 169-173, 190-192, 217 - 221

13 yanvar 1990-cı il tarixli mitinqin audio və video ya-

zılarından görünür ki, çoxminli mitinqdə təqsirkar Xəlilov idarələrə, zavodlara, müəssisələrə basqınlar etməyə, əsir tutmağa və onları girov saxlamağa çağırmışdır, ermənilərin Azərbaycandan qovulmasını tələb etmişdir.

c. 4 i.v. 200; c. 8 i.v. 87 - 91, 130; c. 9 i.v. 209 - 210

fonoqrafiya ekspertizasının rəyi ilə 371 və 551 audio-kasetlərdəki və 137-li videokasetdəki 13.01.90-cı il tarixli mitinqdə olan çıxışlar Xəlilov tərəfindən edilmişdir.

c. 12i.v. 1-98

...Təqsirkar Xəlilov öz ifadəsində noyabr 1989 - yanvar 1990-cı il ərzində başqa şəxsləri Azərbaycan SSR Prokurorluğunda piketlərin qoyulmasında dəfələrlə iştirak etdiyini, erməni millətindən və onlarla qohum olan başqa millətlərdən olan əməkdaşların işdən çıxarılmasını, erməni mənzillərində talançılıqda iştirak edənlərin azad olunmalarını tələb etdiyini göstərmişdir.

c. 1 i.v. 217-221

22 dekabr 1989-cu ildə Bakı şəhərində Xəlilov başda olmaqla bir qrup adam Azərittifaqa gəlib ultimatum şəklində tələb edib ki, erməni millətindən olan əməkdaşlar işdən çıxarılmalıdır, əks təqdirdə "Azərittifaqı" blokadada saxlamaqla hədələmişdir.

c. 1 i.v. 58 - 66, 124 - 128, 217 - 221

11 yanvar 1990-cı ildə Bakı şəhərində Xəlilov və Abbasov başda olmaqla bir dəstə adam Azərbaycan DİN yanında mühafizə idarəsinin qarşısına gələrək, binanı talan etməklə hədələyərək, bu təşkilatın rəhbərliyini erməni millətindən olan əməkdaşların işdən çıxarılması haqqında əmr verməsinə məcbur etmişdir.

...11 yanvarda Xəlilov Azorbaycan DİN yanğından mühafizə idarəsinə getməsini, orannda erməni millətindən olan əməkdaşların işdən çıxarılmasını tələb etməsini göstərmişdir.

c. l i.v. 58 - 66, 106 - 109, 217 - 221; c. 2 i.v. 62 - 69, 73 - 75,- 121 - 123; c.3 i.v. 77 - 87, 83 - 100, 121 - 138,

177-188, 209-228, 251 -267

İlkin istintaq zamanı BDİŞ-dən məlumat alınmışdır ki, həqiqətən 17 noyabr, 2, 4, 24, 29, 30, 31 dekabr 1989-cu ildə, 4, 8, 13 yanvar 1990-cı ildə Bakıda icazəsiz mitinq keçirilmişdir.

c.13.v. 57-59

s.24-də (cinayət işinin - Ə.Ə.) Abbasov və Xəlilov onlara Azərbaycan SSR Cinayət Məcəlləsinin 67-ci maddəsinin 3-cü bəndi ilə verilən ittihamda özlərini tamamilə günahkar bildilər, etdiklərindən peşmançılıq çəkirlər, bu da yüngülləşdirici haldır. İlkin istintaq zamanı Xəlilov və Abbasov düzgün ifadələr vermiş, cinayətin açılmasında fəal köməklik göstərirdilər, bu da onların məsuliyyətini yüngülləşdirici haldır.

Göstərilənlərə əsasən təqsirkardırlar:

Xəlilov Xəlil Rza oğlu - 1933-cü ildə Salyanda anadan olmuş, SSRİ vətəndaşı, azərbaycanlı, ali təhsilli, evli, AEA Nizami adına Ədəbiyyat İnstitutunda baş elmi işçi işləyən, Sov.İKP üzvü, əvvəllər məhkum olmamış, həbs olunana qədər Bakı - 14 Perevalıy ev 11/15, mənzil 87-də yaşamış ondan ötəri ki, 1989-cu ilin noyabr - 1990-cı ilin yanvar aylarında Bakı şəhərində şəxsən və bir dəstə adamla çoxminli mitinqlərdə şəhərin mərkəzi meydanında qəsdən millətlərarası düşmənçiliyə, ayrı-seçkiliyə, erməni millətinin şəxsiyyətini və ləyaqətini alçaldan və onların millətindən asılı olaraq Konstitusiya hüquqlarını məhdudlaşdıran hərəkətlər etmişdir.

Belə ki, 17 noyabr 1989-cu ildə Bakıdakı mitinqdə Xəlilov bildirmişdir ki, bütün ermənilər Azərbaycandan getməlidir!

Həmin ilin 4 dekabrında Bakıda mitinqdə çağırışlar etmişdir ki, "ən vacib vəzifə ondan ibarətdir ki, hər saat, hər dəqiqə Azərbaycan torpaqlarından erməni natəmizləri qovulmalıdır".

Buna görə də o, erməni millətindən olanların milli şə-

rəf və ləyaqətini alçaldaraq təhqirə keçmiş ve demişdir ki, “biz onları tüpürcəklə qovacağıq”.

24 dekabr 1989-cu ildə Bakı şəhərində mərkəzi meydanda “Milli Qurtuluş” təşkilatı tərəfindən təşkil olunmuş mitinqdə Xəlilov yenə ermənilərin milli şərəfini və ləyaqətini alçaltmış, onları “kərtənkələ” və “əqrəb” adlandırmışdır. İsrar etmişdir ki, milli “Novruz” bayramına kimi Bakı ermənisiz olacaqdır. Biz onların hamısını Bakıdan çıxardacağıq”.

4 yanvar 1990-cı ildə Bakı meydanında çoxminli mitinqdə millətlərarası düşmənçiliyi və ayrı-seçkiliyi qızışdıraraq demişdir: “Bu gün ermənini qovmaq ən şərəfli işdir”. Ermənilərlə bir yerdə yaşayanları və işləyənləri ləkələməyə çağırmışdır.

8 yanvar 1990-cı ildə Bakı şehərində mitinqdə çıxış edərək mitinq iştirakçılarını silahlanmağa və Bakını ermənilərdən təmizləməyə çağırmışdır və bildirmişdir ki, “ən təcavüzkar ermənilər Bakıda yaşayırlar və onları əqrəb kimi əzib, zibil kimi tullamaq lazımdır”.

13 yanvar 1990-cı ildə kütləvi iğtişaşlar başlanmamışdan əvvəl erməni millətindən olan vətəndaşların evləri talan edilərək və ölüm hadisələri ilə nəticələndiyi bir vaxtda o, çoxminli mitinqdə mitinq iştirakçılarını “idarə, müəssisə, zavodlara basqın etməyə... əsir tutun, onları girov saxlayın... biz erməniləri tutub girov saxlamalıyıq” çağırışını etmiş, ermənilərin qovulması haqqında öz şeirini oxumuşdur.

Bundan başqa Xəlilov ermənilərə qarşı milli düşmənçiliyi qızışdıraraq, onları millətindən asılı olaraq, vətəndaşların hüquqlarını məhdudlaşdırmağa yönəldilmiş hərəkətləri edərək, 1989-cu il noyabr - 1990-cı ilin yanvar aylarında Bakı şəhərində dövlət idarələrinə və ictimai təşkilatlara bir dəstə adam gedərək, erməni və başqa millətdən olan əməkdaşların işdən çıxarılması tələbini irəli sürmüşdür.

Belə ki, 1989-cu ilin noyabr və 1990-cı ilin yanvar ayları ərzində Abbasov və başqaları ilə birlikdə Azərbaycan Prokurorluğunun binası qarşısında piketlərin qoyulmasında, həmin hüquq orqanlarında işləyən erməni və ermənilərlə qohum olan başqa millətlərdən olan əməkdaşların işdən çıxarılması haqda irəli sürülən tələblər qoyulmasında fəal iştirak etmiş, həmin vaxt ermənilərin Bakıda mən-zillərinin talan edilməsində tutulanların azad olunmasını tələb etməsi əks halda Prokurorluğun binasının talan olması ilə hədələmişdir.

11 noyabr 1990-cı ildə Abbasovla birlikdə dəstənin başında Azərbaycan DİN-in yanında mühafizə idarəsinə gələrək, binanı talan etməklə hədələyərək, rəhbərliyi erməni millətindən olan əməkdaşları işdən azad etmək haqqında əmr verməsinə məcbur etmişlər.

Xəlilovun və başqalarının qanunsuz hərəkətləri erməni-azərbaycanlı münasibətlərini ağır bir şəraitdə, respublikada vəziyyətin daha da ağırlaşmasına səbəb olmuşdur, bu da yanvar 1990-cı il hadisələrinə gətirib çıxarmışdır, - çoxlu erməni millətli adamların ölümünə, başqa ağır cinayətlərə və mənzillərin talan olunmasına, bu da öz növbəsində Azərbaycandan ermənilərin, rusların və başqa millətlərin kütləvi qaçqınçılığına səbəb olmuşdur. Yəni Azərbaycan İRCM 63 - 3 hissəsində göstərilən cinayəti etmişdir.

RSFSR-in CPM-in 207-ci bəndinə uyğun olaraq hazırkı cinayət işi SSRİ Prokurorluğuna göstərilmişdir.

İttihamnamə 6 iyul 1990-cı ildə Moskva şəhərində tərtib olunmuşdur.

SSRİ DTK-nın istintaq şöbəsinin
baş köməkçisi, ədliyyə polkovniki

İmza: F.Q.Poxil

SSRİ DTK-nın istintaq şöbəsinin rəisi,

ədliyyə general-mayoru

İmza: V.N.Rostorquyev

O vaxt X.Rzanı DTK rəisinin baş yardımçısı və şöbə müdiri, hüquq polkovniki, müstəntiq Fyodor Gerasimoviç Poxil dindirmişdir. Dialoqdan bəlli olur ki, Poxil Xəlil Rzanın ad-sanına, şöhrətinə bələd olmuş, "müttəhim"ə ədalətli, obyektiv yanaşmaq istəmişdir. Bu əsasda o, 12-14 yanvar hadisələrini fakt-dəlil gətirərək, qeyd etmişdir ki, belə hallarda ermənilərin işdən qovulması, işdən azad edilməsinə, onlara olan hücumlara azəri türkləri tehrik edildiyinə görə sənətkar "günahlandırılır". X.Rza 318 min azeri türkünün Ermənistan və Qarabağ ərazilərindən qovulmasını təşkil etdiyinə görə "Karabak" və "Krunk" təşkilatlarını, təxribatçı daşnak birləşmələrini günahlandırırdı. O, guya eyni motivlə 24 dekabr 1989-cu il "Azadlıq" meydanında, 4 yanvar, 13 yanvar 1990-cı il tarixlərində... çıxışlar etmişdir. Onlar: "Biz Türküstan elləriyiz, qeyrət, qüdrət selləriyiz, ermənini qovan bizik, Dargözləri ovan bizik, Yeter meydan suladılar, Yurdumuzu taladılar, Bakımızı əziziəyək, Daşnaklardan təmizləyək. Şölə versin bu ləl, mərcan, Ermənisiz Azərbaycan!" - misralarını Ulutürkə irad tutub, sübut-dəlil gətirir, video-lentlər nümayiş etdirirdilər. X.R.Ulutürk "Mən murdar ermənini zərərsizləşdirmək, təmiz ermənini xilas etmək naminə bu cür davranmışam. Rus və erməni işğalçıları tərəfindən mənim xalqının qanı töküldüyü, başı kəsildiyi çağlarda başqa cür danışmaq mümkün deyildi. Qanlı qasırğa içərisinə düşdüyün məqamda ermənini növbələşdirməyə macalın, imkanın vardımı? Yoxdur! Buna görə də bu halda ən yaxşı üsul onları işdən azad etməkdir. Qalmaları -qan tökülməsi, ölüm, qırğın deməkdir. Buna görə də öz çağırışlarımda mən haqlıyam" [290] - deyə iki velikorus şovinisti Abramov və Boytsovun ittihamlarını, 67-ci maddəni rədd etmişdir. (Arxiv materialları Firəngiz xanım Ulutürkdədir - Ə.Ə.)

X.R.Ulutürk 13-14 yanvar hadisələrinin baş verməsində Ermənistandan qovulub gələn türk azərilərinin qızışdırıcı çıxışlarından çox, MK-nı, hakimiyyət strukturlarını, günahkar saymışdır: “MK katibi Vəzirovu yıxıb yerinə keçmək olar? Yalnız qan tökməklə! Bu qəsdi həyata keçirənlər olub. 1990-cı il 13-14 ocaq günlərində iğtişaş qopanda DİN susub, DTK öz fəaliyyətini dayandırıb, hüquq orqanları ölgünləşib. Yalnız və yalnız Xalq Cəbhəsi sinəsini qabağa verib, erməniləri ölümün caynağından qoparıb atıb gəmiyə, qatara, vertolyota, təyyarəyə” [19, № 1-2, 1993].

Sənətkar qeyd edirdi ki, “millət erməni-rus vəhşiliklərinə dözə bilməzdi; o, milli-siyasi şüura sahib olmuş, cəlladlarını tanıya bilmişdir. I Pyotrdan Lenin, Stalin, Xruşşov, Brejnev, Qorbaçova qədər olan dövrdə ermənini dəstəkləyən rus dövləti Azərbaycanın başına hansı oyunları gətirməyib? Yalnız torpaqlarını parça-parça mənimsəməklə kifayətlənməyib, həm də beynini şumlayıb, bütün maddi, mənəvi sərvətlərini daşıyıb aparıb: Şaumyan, Mirzəyan, Kirov, Orconikidze, Serebrovski, Beriya, Qalustyan, markaryan, Qriqoryan, Volski...” (30 ocaq 1990-cı il, Moskva). “Velikorus dövlət siyasətinin “fəsadları” -Sov.İKP-yə, Kremlə, AKP-yə, Vəzirova yol alan məktublar, tələbnamələr, tcleqramlar qaçılmaz fakt, dəlil kimi Xəlil Rzanın qarşısına qoyulurdu. “Çənlibel”, “Milli Qurtuluş”, “Qeyrət”, “Birlik” təşkilatları haqqında sorğular edilir, onların təşkilatçıları haqqında məlumatlar alınırdı. 31 ocaq 1990-cı il tarixdə işində cinayət tərkibi olmadığını nəzərə alıb, Xəlil Rzanı “Müraciətnamə”, “Etirafnamə” yazmağa, Mərkəzi televiziya ilə söyləməyə (2 şubat /fevral/ 1990-cı il, saat 21.35) təhrik etmişlər. Əslində bunun daha çox həyati zəmini Azərbaycanla bağlı olmuşdur. Çünki Xəlil Rzanı Müdafiə Komitəsi yaradılmışdı. Başda xalq yazıçısı İ.Şıxlı olmaqla Azərbaycanın ictimai xadimləri, şair və ədibləri, mədəniyyət və elm adamları,

bütün ictimaiyyət “Xəlil Rzaya azadlıq!” - deyə hayqırırdılar. Əslində onun həbs edilməsi dünya miqyaslı qlobal cinayətin - 20 yanvarın maskalanması üçün idi. Guya 12-13 yanvar faciələrinin törədilməsi milli ədavəti qızışdırmaq, müsəlmanları ermənilərə qarşı qırğınlara qaldırmaq səciyyəsi daşıyırdı. Halbuki həqiqət belə deyildi. Həqiqət türk dünyasını, islam birliyini sarsıtmaq, pantürkizmi, panislamizmi qabartmaqla xristian dünyasına qisasçılıq siyasəti üçün imkan yaratmaq olmuşdur.

6 fevral 1990-cı ildə Xəlil Rza Ulutürkün müstəntiqi dəyişdirilmiş, iş SSRİ DTK xüsusi şöbə rəisinin köməkçisi Aleksandr Qubinskiyə tapşırılmışdır. O, 6 fevral 1990-cı il tarixli “Sovetskaya Rossiya” qəzetində M.S.Qorbaçovun məruzəsi ilə əlaqədar Xəlil Rzaya müraciət etmiş, bildirmişdir ki, baş katibə görə hərbi hissə Bakıya yeridilməsəydi, fövqəladə vəziyyət elan edilməsəydi, guya şəhərdə daha çox itki, qan töküləbilərdi. Xəlil Rzanın Qubinskiyə verdiyi cavab ibrətlidir: “Cəfəngiyatdır!” - deyirəm. Qanla suvarılmış cinayəti sözlə maskalamaq cəhdidir. İkiüzlüdür Qorbaçov. Bir yandan “Azərbaycanın ərazi bütövlüyü” ifadəsini işlədir və sanki bununla yaramıza məlhəm qoyur, bir yandan qan daman dişlərinədək silahlandırdığı ermənilər qarşısında Azərbaycanın quş tüfəngini, qəssab bıçağını da əlindən alır. Aqambekyan, Şahnazarov, Danilyans, Brutyens, Qaragözyan, Əlixanyan, Ambarsumov, Balayan və başqa “yanlar” yenidənqırma liderinin qafasını erməni qafası ilə əvəz etmişlər. Bu ülfət əslində Qriboyedov ilə Yaqub Markaryan, Lenin ilə Şaumyan, Stalin ilə Mikoyan, Beriya ilə Sarkisyan əməkdaşlığının, dünyada ən iyrənc, murdar iş birliyinin davamıdır” (Bax: 6 şubat 1990-cı il) [318]. Xəlil Rzanın Qubinskiyə verdiyi cavablar əhatəli, qəti və cəsarətlidir. Onların dialoqunda Sergey Arutunyanın SSRİ MK plenumunda Dağlıq Qarabağın RSFSR-in ixtiyarına verilməsi təklifindən, guya Ermənistanın Azər-

baycan tərəfindən iqtisadi blokadasından, Bakıda Yanğından Mühafizə İdarəsinin əməkdaşı Yusifzadənin şairə qarşı ittihamlarından, "Çənlibel" təşkilatındakı çıxışlardan, şairin "xotyat li russkie voynı" türküsünü lağa qoymasından, velikorus şovinizminin, zabit və generalların 1956-ci ildə Macarıstanda, 1968-ci ildə Çexoslovakiyada, 1979-88-ci illərdə Əfqanıstanda törətdiyi qanlı hadisələr-dən, 1986-cı ildə Alma-Atada tökdüyü qanlardan, 1989-cu ildə Tiflisi qurşunlamasmdan, 1990-cı il 20 Yanvarda Bakıda qırmızı cəhənnəm yaratmasından, 9 aprel 1990-cı ildə Pribaltikada tökdüyü qanlardan, BDU-da "Gülüstan" bağlaşması ilə əlaqədar tədbirdən, Naxçıvandan Astarayadək olan sərhədlərin qırılıb atılmasından faktlar kimi danışıldıqdan sonra, Xəlil Rza Ulutürkün yanğından mühafizə idarəsində, Fəvvarələr bağında, Azərnəşrdə keçirdiyi mitinqdən, ziyalıları birliyə çağırmaq əzmindən, Almaniyanın Şərqindən Qərbinə insan axınından söz açılır. 19 oktyabr 1990-cı il tarixdə "Ədəbiyyat və incəsənət" qəzetində xalq yazıçıları və millət vəkilləri İ.Şıxlı və B.Bayramov ciddi bir məsələ, Müdafiə Komitəsi yaradılması təşəbbüsü ilə çıxış edirlər. Müəlliflər yazırdılar: "Bizə elə gəlir ki, Xəlil Rzanı mühakimə edənlər formal cinayət məcəllələrini yox, tarixin, ictimai fikir axarının istiqamətini əsas götürməlidirlər və yadda saxlamalıdırlar ki, şair səsini, azadlıq səsini boğanlar həmişə tarix qarşı-sında cavab verməli olurlar. Biz istəməzdik ki, Xəlil Rzanı mühakimə edənlər sonradan öz xalqı və tarix qarşısında xəcalət çəksinlər. Şair səsini boğmaq olmaz, onlara azadlıq verilməlidir" [47, 19 oktyabr 1990].

20 aprel 1990-cı ildə xalqın, ziyalıların tələbi ilə Yazıçılar İttifaqı "Xəlil Rzaya Azadlıq Komitəsi" yaratmaq qərarına gəlmişdir. "Azadlıq" radiostansiyası, şəxsən Mirzə Xəzər X.Rzanın "Davam edir 37" şeirini dünyaya yaymış, Dilarə xanım Orucova "Azadlıq" radiostansiyası ilə "Xəlil Rzaya azadlıq", - deyə haray çəkmişdir.

O zaman “Xəlil Rzanı müdafiə komitəsi” adından xalq yazıçısı İ.Şıxlı və hüquqşünas H.Süleymanlının respublika rəhbərliyinə ünvanladığı rəsmi müraciəti də tarixi cəhətdən ibrətlidir. Sənədi olduğu kimi təqdim edirik.

***Azərbaycan SSR prezidenti A.Mütəllibov yoldaşa***

Hörmətli prezident! Bu il yanvarın 20-də Azərbaycan xalqına qarşı törədilmiş dəhşətli cinayət bir neçə gün sonra filologiya elmləri doktoru, əməkdar incəsənət xadimi, SSRİ Yazıçılar İttifaqının üzvü, xalqımızın sevimli şairi Xəlil Rzaya küçədə getdiyi yerdə quldurcasına basqın edilmiş, əli-qolu bağlanıb maşına atılmış və naməlum istiqamətə aparılmışdır.

Yaxmlarının bir ay axtarışından sonra onun SSRİ DTK Lefortovo zindanına salındığı xəbəri alınmışdır.

Avqustun əvvəlində ailə üzvləri görüş ala bilmiş və məlum olmuşdur ki, onun haqqında Azərbaycan SSR CM-in 67 maddəsi ilə cinayət işinin istintaqı qurtarmış və ittihamnamə təsdiq olunub məhkəməyə verilmək üçün iş SSRİ Baş Prokurorluğuna göndərilmişdir. Həbsdə onun səhhəti pozulmuş, “şəkərli diabet” xəstəliyi kəskinləşmişdir, həyatı təhlükədədir...

Nəhayət, 80-ci illərin axırlarında Ermənistan SSR-in ərazisindən, Xankəndidən türklər axırıncı nəfərinədək döyülüb, söyülüb, qismən ermənicəsinə öldürülüb, qovulandan sonra daşnak tör-töküntüləri Qarabağ, Gəncə, Qazax, Gədəbəy, Naxçıvan torpaqlarına doğru hücuma keçəndə Xəlil Rza və onun həmfikiri olan qeyrətli vətən oğulları bu ağrılara dözməmiş, yeni fəlakətlərin, milli qırğının qarşısını almaq, nəhayət, Azərbaycanda azərbaycanlı kimi, vətəndə vətəndaş kimi yaşamaq üçün ayağa durmuşdular. Başqa cür də ola bilməzdi. Bütün ömrünü böyük amallara həsr etmiş, gecəli-gündüzlü 40 illik yaradıcı şair, alim, ziyalı ömrünü doğma vətənimizin saflığına, Azərbaycan torpağının bəhrələnməsinə, ərazi bütövlüyünə, suverenliyinə həsr etmiş Xəlil Rza Vətənin

belə ağır, qanlı-qadalı günlərində başqa cür hərəkət edə bilməzdi. Unutmayaq ki, Xəlil Rza bu təpəri ilə hər bir namuslu azərbaycanlının ruhunda əbədiyyət şamı yandırmışdır.

Xəlil Rza milli qeyrətli vətəndaşdır. Belələrimizin sayı isə Azərbaycanımızda çox deyil. Milli qeyrətli kadr olmadan heç bir xalqın özü də mövcud ola, yaşaya bilməz.

Gəlin Allahdan, xalqın qəzəbindən qorxaq. Axı, Xəlil Rzanın zindanda qalmasına yalnız dözdüyümüzə görə, tarix bizi ittiham edər, xalq, gələcək nəsillər müttəhim kürsüsündə otuzdurar. Niyə biz öz-özümüzə düşmən kəsilməli, zülm etməli, xalqımızın Xəlil Rza kimi görən gözünü çıxarmalı, vuran əlini kəsməliyik?

Siz təsəvvür edin: S.Xandzanyan, V.Hambarsumyan, G.Emin, K.Dəmirçiyan, Z.Balayan ve s. kimi rəzil, alçaq, ad oğrusu, musiqi oğrusu, adət-ənənə oğrusu Azərbaycan xalqının ləyaqətsiz düşmənləri, milli qırğınların səbəbkarları milli qəhrəmana, Ermənistan və SSRİ xalq deputatlarına çevrilir. SSRİ ərazisində yaşayan 21 millətin, o cümlədən ermənilərin 110 şairinin və dünyanın 29 millə-tinin 71 şairinin əsərlərini ana dilinə çevirib "Qardaşlıq çələngi" (1982), "Dünyaya pəncərə" (1984) adlı kitab buraxdıran, M.Cəlilin "Moabit dəftəri"ni, İ.Selvinskinin "Çiynində qartal gəzdirən" ("Babək") pyesini, R.Rojdestvenskinin "30-cu yüz illərə məktub" poemalarını orijinaldan ana dilinə çevirib ayrıca kitab kimi çap etdirən sadəlövh Xəlil Rza isə milli və irqi ayrı-seçkilik salmaq ittihamı ilə həbs olunur.

Hörmətli prezident, nəzərinizə çatdırmağı özümüzə borc bilirik ki, irəli sürülən ittihamın nə dərəcədə sübut olunacağından asılı olmayaraq, subyektivizmə son qoymaq, hüquqi dövlət yaratmaq iddiasında olduğumuz bir dövrdə Xəlil Rza həbs olunarkən, ona ittiham irəli sürülərkən, onun barəsində qəti imkan tədbiri həbs seçilərkən

Azərbaycan SSR Konstitusiyası, Azərbaycan SSR-in suverenliyi barəsində qanunun tələbləri ümumən konkret olaraq, Azərbaycan SSR Cinayət-Prosessual Məcəlləsinin tələbləri pozulmuşdur. Bu müraciətdə həmin tələbləri xırdalamaq zərurəti yoxdur. Lakin onu deyək ki, CPM-in ziddinə olaraq, Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsi, Azərbaycan SSR Prokurorluğu ola-ola Xəlil Rzanı Azərbaycan SSR CM-in 67-ci maddəsi ilə həbs edib Moskvaya aparmağa, ona ittiham vermədən üç, zəruri hallarda 10 gündən artıq həbsdə saxlamağa, ittihamı vəkilin iştirakı olmadan verməyə qanuni əsas yox idi. Cinayət Prosessual qanunun tələbinə görə cinayət harda törədilibsə, sübut vasitələri hardadırsa, istintaq da orada aparılmalıdır. Belə olan tərzdə qanunun tələbini pozub Moskvada istintaq aparmaq 4 dövlət aparmaq SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinə və Baş Prokurorluğa kim icazə vermişdir?

SSRİ mövcud qanununun tələbinə görə, cinayət işinin istintaqı bitdikdən sonra prokuror müstəntiqdən cinayət işini alıb beş sutkadan artıq olmayan müddət ərzində işlə tanış olmalı və ona lazımi istiqamət verməlidir.

Bəs necə olur ki, qanunun keşiyində durmalı olan bir orqan özbaşına hərəkət edib qanunu aşkar pozur və bu beş günü bir çinovnikin istədiyi qədər uzadır?

Hörmətli prezident, Azərbaycan SSR vətəndaşlarının hüquq və qanun mənafeyinin ali keşikçisi kimi yuxarıda son dərəcə qısa söylədiklərimizi əsas tutub xəstəliyi zindanda şiddətlənən, hava almağı çətinləşən şair Xəlil Rzanın barəsində qəti imkan tədbirinin dəyişdirilib həbsdən azad olması haqqında sərəncam verməyinizi xahiş edirik.

Xəlil Rzanı Müdafiə Komitəsinin müştərək sədri:
İsmayıl Şıxlı - yazıçı
Hümmət Süleymanlı - hüquqşünas

Baki, 4 sentyabr 1990-cı il. [318]

29 aralıq 1989-cu ildən mitinqlərdə "Vəzirova istefa"

tələbi qoyulmuşdu. X.R.Ulutürkün yeni müstəntiq A.Yanalovla Azərbaycan Xalq Cəbhəsinin Ali Sovet qarşısında keçirdiyi 28, 29, 30 aralıq 1989-cu il tarixli mitinqləri, H.Əliyevlə bağlı "Pravda" qəzetində 13 nisan (aprel) 1990-cı il tarixli neqativ yazı ilə bağlı mühakimələrdən sonra A.Yanalovun 12-13 yanvar hadisələrində ermənilərə divan tutulmasının səbəbləri ilə əlaqəli olan sorğularından və cavablardan danışılır. "Cavablandırmışdır ki, rus ordusunun Bakıya soxulmağına əmr verənlər, onları qarşılayanlar, qanlı qətli öncə təşkil edənlərdir. Mən həbs olunmağım ərəfəsində 6 günün içində öyrənə bildim ki, bəşəriyyət tarixinin ən iyrənc, xeyanətkar, qanlı səhifələrindəndir 20 Ocaq 1990-cı il. Bakıdan qovulmuş ermənilərin hayıfını çıxmaq üçün bu qəsd, bu qətl, bu amansız ölüm mexanizmi çoxdan düşünülmüş şəkildə qurulmuşdur" [Bax: 16 nisan (aprel) 1990] [318].

X.R.Ulutürk 8 ocaq (yanvar) 1990-cı ildə Bakının Azadlıq meydanındakı mitinqdə irəli sürdüyü tələblərə görə də ittiham olunmuşdur. Şairin idarə etdiyi həmin mitinqdə irəli sürdüyü tələblər siyasi məzmunu və tarixi əhəmiyyətinə görə fərqlənmişdir. Tələbnamədə göstərilirdi (ixtisarla verilir):

1. Vəzirov da, Qərib İsgəndərov da, Manuçaryan və Zori Balayan qədər təhlükəli yırtıcıdır...

3. Bəşəriyyətin bütün mütərəqqi qüvvələri - rusların "Pamyat" təşkilatı, Soljenitsın dahiliyi, "Arxipelaq Qulaq" bizim də mənəvi sərvətimizdir, öyrənməyə, mənimsəməyə layiqdir.

4. Arvadı Yelena Bonner Əlixanyan tərəfindən yoldan çıxarılan Saxarovu dahi saymaq olarmı?

5. Ən böyük idealımız - vahid Azərbaycandır! Bu vahidliyə nail olmanın bütün vasitələrini kəşf etməliyiz.

6. "Heç bir vəch ilə hakimiyyəti Türkə verməməli" xətti, Rəfsəncani-Brejnev bağlaşması hələ də gücdən düşməyib.

8. Teleradioşirkətin, Akademiyanın, Universitet və institutların, yaradıcı təşkilatların, mətbuatın suverenliyinə nail olmalıyız.

9. Elbrus, Kazbek, Kuban, Yessentuki, Krım, İtil (Volqa), Oder (Odər), Ural, Karpat, Altunsu (Krasno-vodsk), Baykal, Altay, Sibir, İrtış, Yenisey, Çukot, Taymır, Kamçatka... türk toponimləridir.

13. Andranik, Amazasp, Mirzoyan, Mikoyan, Markaryan, Qalustyan cinayətlərini necə unutmaq olar? Bu həmin Qalustyandır ki, 1938-ci ilin fevralında M.Müşfiq kimi gənc dahini vur-tut 25 dəqiqə mühakimə etmiş, haqqında ölüm hökmü çıxarmış, "troyka"nın sədri olmuşdur...

16. "Silahları" şeirini oxuyuram [Bax: 27 hazıran (iyun) 1990] [318].

Bu çıxışların motivində də erməni faktoru dayanmış, guya ermənilərə qarşı ittihamlar irəli sürüldüyü qeyd olunmuşdur. 12-13 ocaq hadisələrində də X.R.Ulutürkə erməni məsələsinə - erməniləri Azərbaycandan qovmaq çağırışlarına görə ittihamlar irəli sürülmüş, şair siyasi çıxışlarına görə mühakimə edilmişdir.

X.R.Ulutürk 26 yanvar 1990-cı il tarixdən 9 oktyabr 1990-cı ilədək, 8 ay 13 gün Lefortovo zindanının izolyatorunda saxlanılmışdır. O, zindanda 2000 səhifədən artıq əsər yaratmışdır ki, bunun 197 şeirini azadlığa buraxıldıqdan sonra çap etdirmişdir. Şair həmin şeirləri "Qıfılı o üzdən olan qapılar" adı altında ümumiləşdirmişdir. Həmin şeirlər başdan-başa nikbinlik, qəhrəmanlıq nümunələridir.

Xəlil Rzanın zindan şeirləri çoxəsrlik Azərbaycan ədəbiyyatında "Həbsiyyə" adı altında tanınmış Xaqani, Fələki şeir ənənələrinin XX əsrə gələnəyidir.

"Xüsusi təyyarədə" (28 ocaq), "Dəmir qəfəs" (2 şubat), "Soruş, peşmanammı" (2 şubat) şeirlərində şairin taleyi avtobioqrafikləşdirilir. TU SSSR Vnukovo hava meydanına gətirilən mücahid "dəmir kibi gəlib, polad ki-

bi çıxacağını” yoldaşı Firəngiz xanıma inamla söyləyir, şair qadını olduğuna görə adını Ülu saxlamağı, vüqarlı gəzməyi tapşırır. “Dəmir qəfəs” şeirində assosiasiya -metaforalarla düşünən şair dəmiri maddi obyektlərdən tutmuş, psixoloji əhvali-ruhiyyəyə qədər mənalandırır. Protokollarda, qərarlarda olan “dəmir effektdən” belə usanmır, paslı daş-dəmirdə nur “görür”. Bu qədər “filizi” dizlərilə qıra biləcəyi barəsində düşünən şair qətiyyətləşir. Dəmirlərə qarşı almaz olan şair, özünə hökm çıxarır: “Nəinki zindan, cəza, hətta heç ölüm də mənim azadlığımı əlimdən ala bilməz!”.

Lefortovo şeirlərinin iri həcmli nümunələrindən biri “Əlvida, Azərbaycan”dır. Əsərdə şair “qırmızı” metafora assosiasiyasının emosional-siyasi rənglərini mənalandırır, onu qırmızı imperiyanın, Kremlin vədləri, “Aşkarlıq və demokratiya” uydurmaları ilə ifadə edir və respublikanı yenidən xatırlayır. Kameraya sığmayan şair xatırlayır ki, “yəqin qar yağır indi Bakıya, qırmızı qar”. Və “qan” sözünə siyasi rəng verir. Bu, Bakı qırğınlarına, ölüm və qanlara, 20 Yanvara işarədir. Şair “qan” assosiasiyasından ciddi siyasi mətləblərə keçir. 20 Yanvar gecəsində əzilmiş maşınları canlandırır, qərara gəlir ki:

*Toxunmayın, ağalar, bu gün dinc durun barı,*
*Dünya sərgilərinə qoyalım maşınları.*
*Sizin “xalqlar dostluğu” adlı muzeyiniz var.*
*Saxlansın qoy ordaca bu yaralı maşınlar.*

Sonra şair baş vermiş faciələri sadalama intonasiyasında davam etdirir, yalnız sovet tanklarının tırtılları altında qalmamış qollardan, çəkmələrdən danışır:

*Qanla dolu çəkmələr... çəkmələr gör nə gündə*
*Çiynindən qoparılmış qollar gözüm önündə...*
*Qan çəkməli ayaqlar qalxıb addımlayacaq!*
*Çiynindən qoparılmış qollar yaralı bayraq,*
*Bakı qanh bir məzar, özü boyda laləzar,*
*Selin, suyun altında pərən-pərən bir gülzar.*

Milli xarakter fəci reallıqların təfsilatına varir, konkret poetik təsvirlər verir:

*Əlinidə təpcəkli bel... qazıram yaş torpağı,*
*Gözlərimin sürməsi bu qaya, daş torpağı.*

Yanıqlı bayatılarla gücləndirilən təfsilat milli xarakterin - şairin emosional duyğularında təbiətlə cəmiyyət arasında qəribə bənzəyiş duyur, göydə olan kəhkəşanların yerdə qurulduğuna heyrətlənir:

*Hanı yüz milyard ulduz? Hanı gümüş kəhkəşan?*
*Kim yıxdı kəhkəşanı ərşin ucalığından?*

*Neçə milyon ülkəri gətirdi kim doldurdu*
*Bir avtomat diskinə, min avtomat diskinə?*
*Bizi pis günə qoyan özü qalsın pis günə...*

*Bakı matəm sərgisi... baxın qanlı əyninə,*
*Şəfqət bacısı dünya aldı onu çiyninə.*

X.R.Ulutürk faciənin təfərrüatlarına varır, gördüyü, yaşadığı hadisələri diqqətdən yayındırmır, təsvirdə od-alov səpə-səpə şaqqıldayan pulemyotlar, daş asfaltı yandıran ləpə-ləpə qan seli, güllə yağmuruna tutulan ayparalı maşın da, qurşunlanan həkim də, yüksəliş sevdasına güllə dəyən qartal da, yenicə qız əli tutmuş bir cavanın eşqi də canlanır və oxucu qəlbini dağlayır.

X.R.Ulutürk təsvir-təhkiyənin yönünü epik təsvirə, dialoqlara doğru yönəldir, həyatda mövcud olanları - epik hadisələri təbii verməkdən ötrü ağappaq, tərtəmiz divara qanla yazılmış sətirləri daha önəmli diqqət mövqeyinə çəkir: - “Azərbaycan, əlvida!”, - “Alın qisasımızı”, -“Öldük, amma qaçmadıq” nidaları - Bakının Salyan kazarması yanındakı avtobus parkında ağır maşınların kapotuna və divarlara insan qanı ilə yazılmış cümlələr gözümüzü dalayır. Sonra şair təhkiyəni yenidən lirik intonasiyalara doğru yönəldir - poetik ləngəri bayatıların 14-lüklərlə əvəzlənməsi, növbələnməsi doğurur. Tənqidin kəsə-

ri ondadır ki, 20 Yanvarı törədən Qorbaçov, birbaşa ifşa olunur, şərəfsiz əllərdən Nobel mükafatı alan qızıl ilan cildinə girib aşkarlıqdan söz açır.

Şeirdə X.R.Ulutürk həbs olunmasını nikbin poetik dillə oxucu diqqətinə çatdırır, "diz altına salıb sanki şairi azca tumarlayan" əlləri tapançalılar: - "Silahın varmı" - deyə sorurlar:

*Əlləşdirib qoynumu, ciblərimi, əynimi*
*Sordu: - Varmı silahın? - yoğun boynu tir adam.*
*Dedim: - Gəzmə əynimi, axtar qaynar beynimi,*
*Məgər görmürsən ki, özüm canlı silaham.*

Şair metaforalarla, assosiasiyalarla faciəli hadisələrin təsvirini verir və ömür-gün yoldaşı Firəngiz xanımdan nigaran qaldığını bildirir:

*Mənim zərif çiçəyim, qorxacığım, ürkəyim,*
*Bəs sən dözəcəkmisən, bənövşədən kövrəyim?*

*Mənim dərdim damladır dərd dənizi içində,*
*Mən adi bir nərgizəm, qızıl qana bələnmiş*
*min nərgizin içində.*

*Qərənfillər düzülər səkilərə, yollara*
*Qərənfil alovundan yanğın düşür süd qara.*
*Sənətkar qərənfillərin yaratdığı əfsanəyə də xüsusi diqqət bəsləyir:*
*Qərənfil saçılmada dağa, daşa qərənfil*
*Sumqayıtın rizləri başdan-başa qərənfil.*

*Biləcəri, Mərdəkan, Binə yolu qərənfil*
*Addımbaşı deyir ki, yatma, oyan ey qafil!*
*Salyan kazarması qan, dörd tərəfi qərənfil,*
*Əriyərsən bu dərddən. Sən birfil olsan da, fil!*

*Bəşəriyyət görübmü böylə birfaciə, yas?*
*Bu boyda məzar olmaz, bu boyda gülzar olmaz!*

X.R.Ulutürk Azərbaycan torpaqları və tarixi şəxsiyyətlərinin itirilməsini yada salıb onları bu günün fəci mənzərəsi ilə birlikdə lirik planda təqdim edir. Poetik panoramdan Xankəndi, Ağdərə, Zəngəzur, Altunkənd, Basarkeçər, Kəlbəcər kimi bölgələr maddi sərvətləri ilə göz önündə canlanır. Lirik ahəng və intonasiyada Mikayıl Müşfiq, Əhməd Cavad, Yusif Vəzir, Seyid Hüseyn kimi repressiya qurbanları 90-cı illərdə, 20 Yanvar günlərində yenidən canlanır. "Demokratik" hökumət xalqı güllələyir, Borovik, Süva, Qdlyan, "Pravda Vostoka", "Pravda", "Litqa-zeta", "İzvestiya", "Moskovski novosti" - zəhərli millətçilik təbliğatı xərçəng, traxoma kimi xalqları parçalayır, məsxəti türkünü özbəyə qarşı qoyur. Amerika dünyası İran körfəzinə qoşun, təyyarə, tank, mərmi daşıyan esmi-neslər, donanmalar, raketlər məmləkəti kimi ittiham olunur, dünyanın dərdi şairin dərdi kimi qavranılır. Rus imperiyası "Xotyat li russkie voynı" mahnısını oxuya-oxuya 1956-cı ildə Macanstana, 1968-ci ildə Çexoslavakiyaya, 1978-ci ildə Əfqanıstana soxulur. Şair bu əsasda dünya həmrəyliyini Berlin, Paris, Tokio, Bolqarıstan, Ukrayna, Beloras və başqalarının Bakıya yardımını da unutmur. O, milli ayrı-seçkilik aparmadan 20 Yanvar günlərinin şəhidlərinə: rusa, ləzgiyə, tatara, azəriyə qan qardaşı kimi ağlayır, qardaşlıq məzarında rahat yatmalarını Allahdan diləyir. Şair imperiya dünyasını, "Pravda"nı ittiham edir:

*Vətənim qan içində... baxır, susur "Pravda",*
*Borovikin dililə yalan qusur "Pravda".*

*Qəzetlə maskalanan İqor Belyayevə bax,*
*Ərzə yalan püskürür neçə-neçə qurumsaq.*
*Balayanı qorxudur türkün hədsiz artımı,*
*Bir fayda verməyəcək Buşun ona yardımı...*

"Azərbaycan, əlvida" şeirində yanıqlı bayatılar, "Qazırıq bellə, külünglə... açılır öndə məzar" misralı qəzəl də verilmişdir. Qədim Çəmbərəkənddə, dağ yüksəkliyin-

də 1918-ci ildə dəfn olunmuş şəhidlərin qafaları üzə çıxır - 1918-ci il 1990-cı ildə yenidən təkrar olunur - işğal davam edir. Şair iştirakçısı olduğu bu günləri unutmayacağına, “cahanda son fatehin axırına çıxmayınca” bu aləmdən getməyəcəyinə and içir.

“Gülüm, aç pəncərəni”, “Dustaq”, “Zindanda səadət”, “Gəzinti guşəsi”, “Yox, mən qala bilməzdim”, “Limon qabığı”, “Razılıq, narazılıq”, “Təmiz havanın dadı”, “Can verməræm özümə”, “Nigaranam” psixoloji məqamlarla əlaqəli olan şeirlərdir. “Yox, mən qala bilmərəm” şeirində elegiya janr müəyyənliyidir.

Xəlil Rzanın fikri assosiasiyalarla ifadə etməyi “Təmiz havanın dadı” şeiri üçün də xarakterikdir. Şair “Pravda”nın yaydığı zəhərli ideyalarla həmin qəzetin kağızından istifadə edib eşdiyi tütün arasında bənzətmə görür və mənalandırır ki, “Apaydın bilinərdi təmiz havanın dadı, bu “Pravda” tüstülü zəhrimar olmasaydı”.

X.R.Ulutürkün Lefortovo şeirlərinin bir qismində milli xarakterin psixoloji-fərdi məqamları təsvir edilirsə, digər bir qismində obyektin idraki-psixoloji cəhətdən dərk olunması önə çəkilir. “Otuz milyon”, “Qanların şəlaləsi”, “Təbrik, Nelson Mandela”, “Salam, Boris Pasternak” belə əsərlərdəndir.

Şair “Təbrik, Nelson Mandela” əsərində özü ilə səngərdaş bildiyi Nelson Mandelaya ritorik-emfatik nidalarla müraciət edir. N.Mandela zənci xalqının qəhrəman övladı olub 30 illik həbs cəzasına məhkum edilmiş, “Viktor Ferster” zindanında saxlanılmışdır. O, həbsdən əvvəl Afrikanın azadlıq meydanlarında, Keyptaun meydanında mitinqlər, marşlar, nümayişlər keçirmişdir. Lakin dəmir-beton divarlar onun ruhunu susdura bilməmişdir. Azadlıq aşiqinə güllələnmə kəsilsə də, ehtiyatlanıb ölümü 30 illik həbs cəzası ilə əvəz etmişdilər. O, 13 fevral 1990-cı ildə 30 illik həbsdən azad olmuşdur. Şair özü ilə Mandela arasında oxşar tale görür və onun azadlığından sevinərək

“sağ əlin başıma”, - deyir. Milli xarakter azadlığı yalnız “alım” dəyərində düşünür, buna görə də o, “yarmaq gərək zindanı dırnaq ilən, diş ilən” qənaətindədir (“Qoyma şir pişikləşə”, “Salam, Boris Pasternak”).

“Salam, Boris Pastemak” əsərində B.Pasternaka “Doktor Jivaqo” romanına görə olan hücumlar əleyhinə toplanan imzaları xatırlayan şair YUNESKO-nun 18 fevral 1990-cı ildə keçirdiyi bayramda ola bilmədiyinə təəssüf edir.

Xelil Rza Ulutürkün milli xarakteri təbiət saflığından dinclik tapır və şairi şirin xatiratlar qoynuna çəkib aparır. “Qar” şeirində şairə “nəvaziş göstərən, başına sığal çəkən, çiyninə, kirpiyinə, qaşına qonan” qar həm də onun xəyalını tarixi keçmişə, həyatının Peredelkino illərinə uçurur - N.Həsənzadəli, Sara xanımlı, Firəngizli günlərinə qaytarır, şairdə xoş, ümidli ovqat oyadır, bu ovqatda xəfif sıxıntı və xiffət də vardır, - ona görə ki, şair qismətinə düşən qar indi “torun dəmir gözündən keçir”, “bir qəfəsin şöləsi” qar şöləsi qədərincə olur. Adi təbiət düşüncəsindən, xoş ovqatdan qəfləti ayrılan şair varlığı birdən də sərtləşir, təzadlı, ciddi görkəm alır. Belə olanda milli xarakter filosoflaşır, müdrikləşir, dünyanın mövcudluğundan, insanın mənşəyindən, müasirlikdən söz açır. İnsandan olmazın əzab-əziyyətlər görəndə onu kor meymuna müncər edir, “yenidən yaxınlaşır insan meymun həddinə, planetin göz yetir mirimin kor sərhəddinə” düşüncələrinə qayıdır (“Təcrübə stansiyası”). Qayıclır ki, “diktatorlar bilsin ki, cəngəllik qanunuyla yaşaya bilməz bəşər, diktatorlar hökmündə xeyiri üstələr şər”. Həmin ümumi hökmdən fərdini ayıran şair milli zəmindən yaddaşı, oyanışı vurğulayır. Vurğulayır ki, milli idealı, milli taleyi qorumaq üçün:

*Bir milyon səkkiz yüz min türk azəri, insanı*
*Öz yurdundan qoparan kor qüvvəti, gör, tanı!*

Dünyanı təzadlarıyla qavrayan Ulutürk hərlənən yer

kürəsinin mərkəzində kürə üçün gor qazanları görür. Onların siyasətidir ki, ağla qara, müsəlmanla xaçpərəst, alimlə nadan bir-biri ilə toqquşan siyasətlər, dövlətlər uyuşa bilmir. Şair sinəsində zindanlarıyla hərlənən yer kürəsində - rus imperiyasının üç yüz ili haqlayan ikibaşlı qartalını əsla unutmur, xoşbəxt vaxtlarında belə "yer altında al boyaq" olan qızıl güllər ildırıma dönüb təbərrük torpaqdan baş qaldıranda, universitet illərində "addımlayan baharın ağ örpəyi sürüşəndə də, "qolu bağlı, köksü dağlı məmləkətini" düşünmüş, pərt olmuşdur". Üçrəngli bayrağı ay-ulduzla görüşəndə sənətkar ölüm-dirim qovğasına düşmüşdür. O, əbədiliyini onda görür ki, Vətən "bütün səltənətlərdə döyüşmüş X.Rzanı bəxtinə düşmüş qüdrətli sənətkar" bilir! ("Mənim bəxtimə düşdü")

X.R.Ulutürk Lefortovo şeirlərində xəyalın, xatiratın nurlu pəncərəsindən də baxmalı olub. Belə məqamlarında o, Firəngizinə dönə-dönə üz tutub - Mandelanın xanımı Vindi kimi "Nigaranam", "Mənim həbs xəbərim", "Qəm içrə bayram yarat") mətin olmağın, dözümün əlacını ona öyrədib. Söyləyib ki, "günəş qədər pakizə süfrəni özü bəzəsin", - ailə üzvləri Sevinc, Türkay, Təbriz gəlsin, üçrəngli bayrağını başının üstündən assın, uvertura çaldırsın". Sonra da deyir:

*Bizim həyətimizdə qocaman bir palıd var,*
*Ağzı geniş, dibi dar.*
*Zərli piyalələri çırpın həmin palıda,*
*Planetdən, qanımdan atəş əmən palıda.*
*Durun, qəmi tapdayın düşmən bayrağı təki,*
*Bizim evdən nur alıb çıraqban olsun Bakı.*

Milli xarakter özü ilə Firəngizi arasında olan vəhdətdə ümmanları, dalğalanan, "əllərində şüar olan plakatları –"Ulutürkə Azadlığ"ı görür, həmin inamdan da "dağıdacaq zindanı həm xalq, həm Xəlil Rza" hökmü boy verir!

Sənətkar xalqına özünün vəhdəti misalında baxır, Azərbaycanın gələcək baharını da yeni görür. Bu bahar

“şəhidlərin qanını götürüb, al-qırmızı ağaclar qan qırmızı olub: “Lalələr çöllərə düzüm-düzüm od tökür” - şair dünyanı, Azərbaycanı qırmızı assosiasiyasında təsəvvür edir (“Tamam başqa bir bahar”).

Zindan heyatı Xəlil Rzanın özünüdərkinə baxışdır. Şair belə həyatdan sarsılmamış, bədbin olmamışdır. Zindana gəldiyi yola nəzər salan şair “yox, mən susa bilməzdim” deməyindən məmnun qalır, özünü haqlı görür.

X.R.Ulutürk Lefortovo həyatını təfərrüatlarına qədər izləyir. “Bakıdan gələn bağlama”, “Günü gözəl keçirmək”, “Dustaq geyimi” şeirlərindən aydın olur ki, şairə göndərilmiş bağlamanın qayda üzrə çəkisi beş kq-dan çox olmamalıdır. Şair ağ şam, limon, soğan, ağ kişmişə poetik nəzərlə baxmış, 34 il əvvəli - toy gecəsindəki bağlamanı xatırlamışdır:

*Balaca bir bağlama nələri saldı yada,*
*Nə məhəbbət öləndi, nə səadət dünyada.*

Şair keçmişi ilə bu günü arasında bağı belə poetikləşdirmişdir:

Nələr deyir ağ kişmiş, hər giləsi müqəddəs, Mənim ulduzlarımı zindan söndürə bilməz! “Günü gözəl keçirmək” şeirində adiliklər mənalandılır. Şair özünü zindanda gözəllik keşikçisi hesab edir. O, “zər külçəli döşəməni silir”, 3 çarpayını, 4 divarı par-par parıldadır, döşəkağı, balışı qızıl gül çələngi” kimi dəyərləndirir, “su lüləyini qızıldan” bilir - özünü “Lefortovo qəsrinə memar görür, cüt qaşığı, boşqabı, çaydanı gövhər, dürr, kağızları ağ çiçək”, çayı bu zindana səpilən Lənkəran ətri” hesab edir və “Zolotoe runo” sunu ləzzətlə nuş edərək, “günəşi cahan məşəli”, “qarı başına yağan ağ ulduz” görüb deyir: “Başım səadət tacı, mən - Azadlıq Allahı, Bu cür qarşılayıram zindanda hər sabahı”. Zindanda belə günü gözəl keçirmək şair nəzərində “kişi ləyaqətini, Vətən ləyaqətini canından və günəşdən uca tutmaqdır!” “Dustaq geyimi” şeirindən bilirik ki, şairi “ştamplanan

şalvarı, düyməsiz pencəyi, qapqara çəkmələri" ilə kamera dustağı etsələr də, "söndürə bilmirlər təbəssümünü". Zindanda şairin şəraiti əzik döşək, çarpayı, yumruq boyda balınc, gödək adyaldan ibarət olmuşdur. O sanki "qayalar qəmbərində narahat bir dəniz", yaxud "şimalın qarlı buzunu əridən səməndər quşudur" ("Səadət ulduzuyam"). Sənətkarın qəlbi, əlləri dustaq olsa da, yarıcanı Azadlıq meydanındadır, "əllərdə çiçəkləyən bayraqların yanındadır", sənətkar ölməyən ruhlarladır, şəhidlər məkanında İsmayıl, Ülvi, Vəfadarladır. Şair sakit kamerada 6 milyardlıq bəşerin davamıdır. Zindanda sənətkara bir qetrə azadlıq yoxdur. Bir neçə dəfə bərkdən danışdığına, davranış qaydalarını pozduğuna görə əyninə 24 saatlıq rezindən cəza köynəyi geydirmişlər. O, cəza köynəyini özü üçün Səməndər köynəyi bilir, soyuq rezin şair varlığından od-atəş alıb alışır, yanır. Hiddətlənir ki, beton məhbəs, hərbə-zorba azmış kimi üstəlik ona sorğu-sual, cəza köynəyi bəxş edir. Milli xarakter özü ilə kainat arasında bənzətmələr arayır, vulkanları, odları planetin cəza köynəyi bilir, eşitməməkçün cəza köynəyi qulaqlarını sıxır, yazmamaqçün barmaqlarını sıxır, sözlü dodaqlarına "sus" möhürü vurur, getməməkçün ayaqlarını bağlayır -sıxır əynini, kürəyini. Fəqət şair idrakım, təfəkkürünü bağlaya bilirmi? Sənətkar şeirdən lirik ricətlərə çıxaraq Polşa, Rumıniya, Çeçen-İnquşetiyanı seyr edir: "Qırır qandalı Polşa. Parçalayır Varşava öz cəza köynəyini". "Buxarestdə Ağ qəsri dağıdır Rumıniya, Paslı darvazaların sındırır biləngini". "Qalxır çeçen-inquşlar, osetinlər ayağa. Dönür cəza köynəyi qana batmış bayrağa".

Şair millilikdən bəşəriliyə, bəşərilikdən milliliyə yol alır: "Həmnəfəs olur bəşərlə, aləm qalxır ayağa". Şairin burnundan açılan qan da obraza çevrilir; həkimlər qanı kəsə bilmirlər, çünki bu qan Bakı meydanlarından gəlir:

*Zəhmət çəkmə, can həkim!*
*Kəsə bilməzsən qanı. Get dinc əyləş yerində.*

*Qanın bir ucu burda, bir ucusa ordadır.*
*Bakı küçələrində.*

Əsərdə şairin "həbs xəbəri" ilə bağlı fərdi detallar da verilmişdir. Sənətkarın həbsi onun nəsli üçün həm fiziki ağrı, həm də səfərbərlikdir. Bu, xalqa doğru aparan səfərbərlikdir; İ.Şıxlı, H.Süleymanlı Yazıçılar Birliyində Müdafiə Komitəsi yaratdı, Qabil, Hidayət, Qulu Kəngərli, Zeynal Vəfa şeirlə Xəlil Rza böyüklüyünü təcəssüm etdirdi. Sərvinaz kimi kişi qeyrətli qadınlar neçə yüz şag-irdi belə tətillərə çəkdi. Səttarxan zavodunda fəhlələr əl saxladı, plakatlar qaldırdı. Bakıda yüz milyonluq meydan coşdu, xəbər Münhenə çatdı, Mirzə Xəzər efirə səs saldı. Mikayıl Mirzə bütün Türkiyəyə ün saldı, "dünya gəmiyə, Xəlil Rza mayağa döndü", Oruc qızı Dilarə xanım əlində şəkil, sərkərdə Ulutürk ilk cərgədə irəlilədi, Məhəmmədin, Rəhbər Bəşiroğlunun gur səsləri dalğa-dalğa yayıldı, Azadlıq eşqi ilə sərhədlər dağıldı, eyni məkanda "xalqın azadlığına şair həbsi təkan oldu".

O vaxt inqilab bahadırının qardaşı Məhəmməd Rza Xəlilbəylinin ilk güman, ümid yeri xalq şairi, millət vəkili Bəxtiyar Vahabzadə olmuşdu. Ona Xəlil Rzanın həbs edildiyini bildirir... "Döymədiyimiz qapı-pəncərə qalmadı. Respublika rəhbərliyinə, hüquq-mühafizə orqanlarına müraciətlər, teleqramlar, haraylar, fəryadlar sükutla qarşılandı. Dəfələrlə Moskvaya - qan çanağına getdim. Ustadla görüşə icazə verilmədiyi üçün imperiyanın kahası Kreml qarşısında aclıq aksiyası keçirdiyim, intiharla hədələdiyim ünvanlar da oldu. Aprelin 1-də venamı kəsib ölümcül halda şəfaxanaya düşdükdən sonra məşhur dustaqla görüş almağımın nə qədər ağır olduğunu düşünəndə indi üşənirəm. 68 gün üzünü görmədiyim ustadla bu tarixi görüşümüz nə qədər ağır olsa da, indiki əbədi ayrılıqla tutuşdurduqda bu o qədər xoş ovqat yaradır. O vaxt Kremlin qurultaylar sarayı qarşısında Ali Sovetin deputatı "Aziya"-nın yazarı, ustadın bağ evində qonaqlıqdan ta-

nıdığım böyük qazax şairi Oljas Süleymenovla, “Əsrə bərabər günü”ün müəllifi, deputat Ç.Aytmatovla, ustadın azadlığı ilə bağlı müxtəlif ünvanlara yazılmış məktublar, əsrə bərabər bir ömür xatirələri kimi beynimdə çözələnir. Nəhayət, avqustun 22-də Azərbaycan Yazıçılar Birliyində vətənpərvər hüquqşünas Hümmət Süleymanlı və xalq yazıçısı İsmayıl Şıxlının müştərək sədrliyi ilə rəsmi qaydada “Xəlil Rzanı Müdafiə Komitəsi” yaratmağa nail olduq” [102]. M.R.Xəlilbəyli nəyə gücü çatırsa, satıb tərtib elədiyi “Xəlil hey...” kitabını fövqəladə vəziyyət şəraitində 200 min tirajla çap etdirib yayır.

X.R.Ulutürkün azadlığına doğru yol getməyi adi bir Pərvanənin (kəpənəyin) azadlığından başlayır (“Pərvanəyə azadlıq”). “Bayırdan gələn səslər” şeirində səs motiv - obraz müəyyənliyi kəsb edir. Xəlil Rza səsi gah qüdrət kimi qavrayır, gah da avtomat, raket kimi dəyərləndirir. Şair qəlbi Səsə bir az da yaxından diqqət kəsilir. Hətta, “diqqət kəsilirəm mən süd köpüklü qara da, təzə qara sanlınmış altun şüalara da”. Adi qarğa səsində isə traktorla dalğa-dalğa sökülən yeri, torpağı xatırlayır. Şair “çöldən gələn səsləri acgözlüklə udur”. Sonra Səs şair nəzərində siyasi mənaya qədər böyüyür, güclənir: Uzaq Almaniyada zindanlar dağılır, Berlin, Vyetnam, Drezdendə zəncirlər qırılır. Bakı qan içində çimizdirilsə də, bəşərin yürüşləri kəsilən deyil. Gecənin qoynunda səs-səda eşidiləndə sanki “yatmış dəniz baş qoyub şair köksündə mürgüləyir”. Heç bir zindan, qadağa şairə gələn səslərin yolunu kəsə bilmir.

X.R.Ulutürk zindan şeirlərini siyasi motivlər, ideyalar üzərində qurmuşdur. Lefortovonu ən həssas duyğularına, ovqatına, sevinc və kədərinə qədər yaşamaq istəmişdir, buna görə də 23 şubat günü onun nəzərində tarixə dönür: qız nəvəsinin dünyaya gəlişi onun bayramı, sevinci olur. Lakin şair bu tarixi, 23 fevralı həm də qızıl orduya yas günü kimi anır. Düşünür ki, məhbəs sevinci “bayram

sayılan yasın isti qan ləkəsini Abşerondan, bu aləmdən siləcək!” Lefortovo mövzusunun psixoloji-fərdi məqamlarından biri də dustaq mələikələrinin - qızların şeirə gətirilməsi, mövzuya çevrilməsidir (“Dustaq mələikələr”).

“Keşikçilərim” şeirində şair məhbəs qayda-qanunlarından danışır, danışır ki, hər gün dörd növbə dəyişilməli, 2 dəqiqədən bir keşikçi göz yerindən baxmalıdır. “Yuxu” şeirində X.Rza “Türkanda dərdlərini gizlədib şad oxuyan bir gəlini” dinləyir. Əruzla yazılmış “Bizim ellər yerin-dəmi” şeiri psixoloji-mənəvi ağrıları dilləndirir. “Gözlük seçən göz həkimi”ndə şair - milli xarakter “görmə” asso-siasiyasını mənalandırır, gözlüyü, linzanı uzaqgörənlik, lakin yaxşı insanı gözsüz də, - İdrakın gözü ilə görmək mənasında dəyərləndirir. “Tüstülər” şeirində milli xarakter - məhbəs həyatını heç olmasa məcazi olaraq, tüstü, siqarla dağıtmaq istəyir. Lakin özünü kiçik zindanda bilirsə, xalqını da böyük zindanda görür. Vətəni özündən betər hesab edir. “Kibrit alovu” şeirində şair kibrit alovunu mənalandırır, günəşdə belə əbədi yanan kibritini - payını görür. “Nəfəslik”də kiçik bir nəfəslik onun nəzərində havanı aldığı borcdur. Əvəzi isə verdiyi qələmidir.

“Sənətkara azadlıq” siyasi şeiri bir milyon iki yüz mindən artıq məktub, ərizə, teleqram, şikayət, tələbnamə göndərmiş xalqın - milli azadlıq hərəkatı dalğası, xalqın qüdrət selinin ifadəsi kimi yazılmış, şairə azadlıq tələb etmişdir. “Yıxın, sökün, dağıdın” və “Türk” şeirləri şairin türkçülük məfkurəsindən doğulur, böyük turançılıq fikirlərindən güc alır, sərhədlər - məftillər əleyhinə turançılığa çağırır. “Mağara” şeiri qaçqının mağaraya sığınıb əqrəblərlə, ilanlarla yaşadığını əzabla xatırladır, tarixi keçmişə qayıdışı, “mənliksizliyi” əks etdirir. “Prometey” şeirində milli xarakter özünü “Prometey” hesab edir. “Sənin eşdiyin tütün” şeirində “Astra”sı qurtaran şair tütünü “Pravda”nın kağızına büküb eşir və “Pravda”nı ifşa edir. “Ağ və qırmızı telefonlar”da hər şeyin “dustaq” olduğun-

olduğundan, qadını Firəngizlə əlaqə saxlaya bilmədiyindən danışılır.

X.R.Ulutürk "İşıqlan, ey gözüm, könlüm", "Aman, tanrım bu səadət", "Getdin qəlbə qüssə doldu", "Bu gün eyni şəhərdəyiz", "Zindan türküsü", "Vaysınıram", "O yerlər", "Neçin yata bilmirəm", "Kəfənini geymiş kişi", "Qaranquşlar qayıdanda", "Mən özümçün darıxmıram", "Birinci düşmənim", "Gözüm qaldı", "Dözməlisən", "Azca huşa gedə bilsəm" şeirlərində başlıca ideya "sənətkara azadlıq"dır. Milli xarakter Müşfiq, Hadi, Cavid, A.İldırım, Ə.Cavad, Yusif Vəziri - repressiya qurbanlarını xatırlayır. Lakin razılaşmır ki, indi 1937-ci il deyil, əsrin axırlarıdır, imperiya Azərbaycandan əlini çəkməlidir. "İlham üstündə" şeirində fikir təşbehler silsiləsilə daha çox əyanilik tapır:

*Kameram - qızıl saray, barmaqlığım - bağça, lək,*
*Əyləşdim şah taxtımda şerin hökmdarı tək.*
*Ərzin hökmdarı tək!*
*Qarşımda ağ vərəqlər... büllur bahar səhəri,*
*Qələmimdə sıyrılmış Misri qılınc kəsəri.*
*Mürəkkəbim - Göygölüm bir cüt mavi damlası,*
*İlhamım - əzəmətli bir Xəzər qasırğası.*
*Köksüm - alov kürəsi, üzüm-gözüm dan yeri,*
*Barmaqlarım - günəşin şüa-şüa telləri.*

*Addımlarım - toprakdan bir azca hündür, uca*
*Hazıram varıb keçim xəttüstüva boyunca.*

*Gülüm qaima nigaran obadayam, eldəyəm,*
*Rövşənəm, zindanda yox, doğma Çənlibeldəyəm.*

Şair "Gültac balam" şeirində Bakı qan ağlayanda, qışın qarlı çağında dünyaya gələn Gültacını əzizləyir. "Əllərimin əksi" şeirində milli xarakterin əvvəlcə bütöv, sonra isə əllərinin şəklini çəkib qolubağlı zindana atırlar. O öz əlləri ilə qəsbkar əllərini müqayisə edir. Düşmən əli

ordular yeridib müqəddəs ölkələrə girib. "Firəngizin məktubu", "Bu gələn yara bənzər" - əruzla yazılmış bu lirik şeirlərdə Firəngizlə şair görüşü poetikləşdirilir.

"Qanım" əsərində qanı kəsilməyən Vətənin dərdləri çözələnir. "Ağ pambıqda bir damla qan" şeirində Vətənin taleyi, idealı xatırlanır, "qan" metaforası Azərbaycanın verdiyi qan kimi mənalandırılır. "Çıxaraq bahara Azərbaycanı!" - məhəbbət, həyat sevgisi ilə dolu olan şeirdir. "Madlen Riffo" - fransız qızına, Fransa Milli Müqavimət Hərəkatının fəal iştirakçısı, görkəmli şair, jurnalist və xadminə həsr olunmuşdur.

"Qaçsan güllələyəcəyəm" şeirində milli xarakter nigarandır ki, onu hara göndərirlər göndərsinlər, təki Şəhidlər Xiyabanından, Azərbaycandan, Müşfiqdən, Caviddən ayrı düşməsin; onlar da bu sürgün, həbs yolunu seçiblər. "Siyasi dustağın yeriş qaydası" şeirində siyasi dustaq özü ilə gözətçi arasında müqayisə aparır, onların qismətləri eynidir - birinin qolu bağlıdır (siyasi dustağın), o birinin idrakı, beyni. Fəqət gözətçi qul, dustaq azaddır. "Zəncirlənib əllərim" şeirində şair mücərrəd səyahətlərə çıxır, əllə görülən hər cür işə poetik-metaforik məna verir! Əllərini təsvir və tərənnüm edir.

X.R.Ulutürkün zindan şeirlərində mübaliğə, təşbeh güclüdür, işləkdir. Şeirlərdə təsvir əlvandır, təfərrüatlara çox varılır. "İttiham" şeirinin siyasi kəsər və ifşa pafosu güclüdür - hüquq polkovnikinin şairlə dartışmasını əks etdirir. "Qorxu girmədi qəlbə" şeirində milli xarakterin dözümü, "Həsrət" şeirində Türkanına həsrəti ifadə olunur. "Ulu tanrım – poeziya" şeirində poeziyaya məbəd, ulu tanrı, qılıncdan kəsərli, şir ürəkli millətin cürət və qüdrəti kimi baxır. "İmkan məhdudlaşanda" şeirində milli xarakter qandallı ayağı, zəncirli əlləri ilə də özünü xalqınmın silahı, azadlıq Allahı bilir, imkan məhdudlaşanda sanki "can yenidən doğulur". "Bayram axşamı" şeirində Yaz günü Novruzun bütün adətlərini, vərdişlərini xatırladan

şair kənd məzarıstanında öz doğmalarını yad edir.

Xəlil Rzada özünüifadə güclüdür. “Xəlil” şeirində əruzla yazılmış şeiri tərənnüm pafosu süsləyir: “Üç zaman vahidinin sahibidir, fikir eləməz. Öz qızıl qiymətini almasa dövründə Xəlil”. “Zəncilərin azadlıq türküsü” şeiri azadlığa odadır. “Firəngiz görəydi kaş” şeirində həbs şairi qorxutmur, əksinə, o, həbsə düşəndən bəri bir az cavanlaşdığım deyir. “Mükafatım” şeirində milli xarakter təmənnasız ömür yaşayır, axırda isə mükafatı “bu barmaqlıqların arası” olur. “Bursadan bir xatirə”də şair kommunistlərin əleyhinə qaldırılan badəni xatırlayır.

“İldırımdır qələmim” - Puşkinsayağı yazılmış, əruzda olan bu şeirdə qələmin qüdrəti tərənnüm olunur. “Pas qoxulu damcılar”da milli özünüdərk yenidən canlanır, millətlərin öz hüquqlarını, müstəqilliklərini əldə etmələri ifadə olunur:

*Qorxma, Xəlil Rza, döz, yaxınlaşır təlatüm,*
*Kişinyovdan, Tallindən məğrur sodalar gəlir.*
*Moskvada, Tiflisdə aşıb-daşır təlatüm*
*SSRİ qəfəsi millələrə dar gəlir.*

Bu sıradan şair saxta deputat seçkilərinə və deputatlara etiraz edir, zindanları sökən bütöv bir cavan “gəldiyindən” ruhlanır. “İradəni itilə” - psixoloji-mənəvi şeirdir. İradəni iti saxlamaq, inqilabın kişilik olduğu psixoloji incəliklə ifadə olunur. “Vyetnam qızı Xanoy bala”, “Vyetnam”, “Silah növləri” - Vyetnamdakı vətənpərvərliyi, şəhidliyi, torpaq məhəbbətini tərənnüm edir.

“Haqqın iradəsiyəm” şeirində milli xarakterin müsəlmanlığı, Allaha etiqadı ruhani qüdrəti ifadə olunur:

*Bismillahla açıram hər qızıl sabahımı,*
*Allah məni səsləyir, mən də ki Allahımı.*

“Bir cüt göyərçin” şeiri 13 yaşlı İlqarın tank atəşi altında öldürülməsinə elegiyadır. “Calaq vurun”, “Haqqın iradəsiyəm”, “İldırımdır qələmim”, “Xəlil”, “İmkan məhdudlaşanda”, “Vüqar türküsü”, “Ulu tanrım poeziya”,

“Azərbaycan”, “Odlar məmləkətiyəm”, “Uman yerdən küsərlər”, “Xəlil, dustaq deyilsən”, “Vətənimi düşünürəm”, “Zindan mənim ömrümü bir az uzatsın gərək”, “Təki kağız-qələm verin”, “Zindanda gəncləşirəm” şeirləri - fəxriyyədir, özünü tərənnümdür.

X.R.Ulutürkün hissiyyatlı, ehtizazlı hallarını “Tamarzı Xəlil”, “Mən özümçün darıxmıram” şeirləri ifadə edir. Münhendəki “Azadlıq” radiostansiyasının əməkdaşı Mirzə Xəzərə ithaf olunan “Hələ durur cahanda...” şeirində milli xarakter çörəksiz yaşaya bilir, lakin həqiqətsiz yaşaya bilmir:

*Hələ durur cahanda*
*sərhəd-sərhəd ləkələr*
*Müstəqillik maskası*
*taxan müstəmləkələr...*
*Hələ durur cahanda*
*azadlığın dilini*
*boğazından çıxarıb*
*qollarını buranlar,*
*Qızılayaq taxtını*
*Tank üstündə quranlar,*
*top üstündə quranlar.*
*“Perestroyka” sözü*
*haça dilin əzbəri*
*Üstündə şərbəti var,*
*altındasa zəhəri.*

“Nə cür baxacaqsan gözlərimə sən” lirik-epik planda işlənmiş siyasi şeirdir. Şair sərt, acı həqiqətləri israrla gözümüzə, qulaqlarımıza ötürür ki, tarixi keçmişimizi, Azərbaycan dərdini, xalq taleyini unutmayaq:

*Sənin göylər boyda məmləkətini*
*Bölüb, bölüşdürüb gətirdilər də.*
*Sorub zaman-zaman sümürdülər də.*
*Arslan millətini, şir millətini*
*Bir əl quzusuna döndərmək üçün,*

*İnsan kəlməsinin ucalığından*
*Bir qul mövqeyinə endirmək üçün*
*Bakını qanına bələdi düşmən -*
*Şəhdini çəkdiyi dərdli Bakının*
*Üstünə zirehli tanklar yeritdi,*
*Fəqət unutmadı altındakını,*

Cınqırın çıxdımı barı bircə yol? Tarixi, həyati həqiqətlər milli xarakterin varlığını, mənəvi-psixoloji vəziyyətini müəyyənləşdirir ("Qardaşların"). X.R.Ulutürkün Lefortovo şeirlərində mübarizə, qəhrəmanın fərdi aləmi, psixologiya və mənəviyyatı şeirləşir - xalq taleyi qəhrəmanlıq, şəxsiyyət, xarakter mənasında bir fərdin üzərində cəmləşir. Milli ideal da həmin fərdin xarakterində müəyyənləşir. Fərdiləşmə bu baxımdan ümumiləşə, ictimailəşə bilmir ("Yuxu", "Ehtiyat"). Şair - milli xarakter dostlarından, Əşrəf Şəfidən aldığı şeirdən ("Sağ ol, qardaşım Əşrəf"), həyat yoldaşı Firəngiz xanım Ulutürkün ilahi məhəbbətindən, onun mənəvi böyüklüyündən, mənliyindən güc alır, Firəngizini dustaq qadını yox, Azadlığın gəlini kimi dəyərləndirir ("Sənsiz nasıl dönüm evə", "Qorxma, mən sarsılmaz dağ qalasıyam", "Vüsal, hicran yollarında", "Elə günüm olubmu ki...", "Neçin gəlmədin", "Qurban olduğum", "Sənin xəttin", "Mehin dəydi", "Sən mənim bəxtimə göylərdən enmiş", "Bu gün xoşbəxt oyanmışam", "Bircə qismət paxlava", "Zindanda Novruz bayramı", "Mənim şah qızıl gülüm", "Hələ dünən", "Mehin dəydi", "Döyüş yolu uzundur", "Səadətim" və b.). Şair zindanda Novruzu xanımı sədaqətli Firəngizlə qarşılayır. O, bu anında nəşənin, həzzin həyatını duyduğu kimi, fiziki-ruhi iztirablarını da eyni dərəcədə yaşayır. Mücahid Moskvaya azadlığın həbsxanası kimi baxır, quşlarla, baharla özü arasında təzadlar yaşayır və ağrınır:

*Kamera daş. Kamera nəm,*
*bir az tutqun, bir az soyuq*

*Burda mənim bir quşca da*
*hüququm yox.*
*Uğuldayır su kəməri. Qaz kəməri,*
*işıq xətti,*
*Göylər boyda səadətim*
*hara getdi, hara itdi?*
*Orda sellər, sular azad...*
*Dağlar azad, çöllər azad*
*Burda mənim zəncirlərim*
*azadlığa yalnız təzad.*
*("Barmaqlığın pası qədər")*

İnam, şübhə, qətiyyət, iftixar, ağrı poeziyası fakt-təhkiyə-hərəkət (psixoloji-məntiqi-emosional) müəyyənliyindən başlanğıc alır ("Nənəm güllər", "Sənin göz yaşların", "Əyil gülüm, əyil, keç", "Bəxtiyarlıq"). Xalqın tərənnümü, idealı, taleyi birbaşa "Xalq" obrazı ilə canlanmır, o, ən müxtəlif obrazlarla, çalarlarla fərdiləşir.

X.R.Ulutürkün Lefortovoya baxışı eyni zamanda Azərbaycanın milli azadlıq hərəkatına qayıdışıdır. Müstəntiqlər onu dindirəndə sübut-dəlil kimi lenti, kameranı fırladırlar. Azadxahı danışdırır, faktları öyrənirlər. O isə "ekranda" xalqın sonsuz dalğasını görüb yenidən qürurlanır, ağır-ağır nəfəs alır ("Ağır tanklar dayanıb ürəyimin üstündə", "Tanklar").

X.R.Ulutürk Azərbaycanı türkçülüyün, turançılığın, azərbaycançılığın azadxahı kimi yenidən dəyərləndirir, E.Məmmədov, Tantəkin, Mənsur Əlisoy, Məmməd Əlizadə, Seyid Tahirin milli hərəkatdakı qiymətini verir ("Bizi ayrı saldılar", "Ağ çələngli Azərbaycan", "Mən yenə dönəcəm Azərbaycana", "Vətən, sənin sipərinəm", "Vətənimi düşünürəm", "Aman dostlar"):

*Sizi gördüm aman dostlar,*
*qoy hayqırım diyar-diyar,*
*Beş dənizin arasında,*
*ürəyimin yarasında*

*Planetin iftixarı,*
*azadlığın bayraqdarı*
*Azərbaycan türkləri var.*

*("Amal dostları")*

Türkçülüyü tərənnüm edən X.R.Ulutürk dini etiqadı ilə də poetikləşir ("Səadət sorağında", "Vətənimi düşünürəm", "Şer yazmazdan öncə", "Turan balama layla", "Yazıq deməyin mənə"):

*Mənə cürət, mənə qüdrət, mədəd, hümmət, ey yara-dan,*
*Eraların, ümmanların, dünyaların o tayından!*

*("Səadət sorağında")*

*Bu qurdları mən ovcumun içi kibi tanıyıram,*
*Döyüşdəyəm, özün mənim dayağım ol, ulu Tanrım!*

*("Vətənimi düşünürəm")*

*Keçmişin də, bu günün də, sabahın da qüdrətini*
*Cürətini bəxş et mənə, bəxş et, ulu pərvərdigar!*

*("Vətənimi düşünürəm")*

*Şer yazmazdan öncə*
*dəstəmaz alıram mən,*
*Dupduru bulaq üstə*
*ayağımı, əlimi,*
*qollarımı yuyuram.*

*("Şer yazmazdan öncə")*

Azadlığın emosional həsrəti qoşma formasında olan şeirlərdə də ifadə olunmuşdur. Milli xarakter azadlıq günəşinə, milli bayrağın hüsnünə, sevgilisinin üzünə, balasının gözlərinə, Xəzərə, Milə, Muğana, saza, sözə həsrətdir, lakin nikbindir ("Azadlıq həsrəti", "Yolum", "Bir stəkan çay"). Sənətkar zindan şeirlərində hər şeyə məftunluqla, sevgi ilə, ehtirasla yanaşır, həsrət-həsrət baxır - bu duyğu Lefortovo şeirlərində güclüdür, - bu, onun emosional təbiətindən, sürgün həyatından irəli gəlir ("Bir stəkan çay").

Xəlil Rza zindan şeirlərində milli dil məsələsindən də danışmışdır. "Azərbaycan türkcəsi" yüksək intonasiyalı tərənnüm şeiridir, burada həm də türkçülük ideyaları tərənnüm olunmuşdur.

Həbsiyyə şeirlərində duyğu, arzu, istək, dilək, həsrət, hicfan, vüsal motivləri fərdiləşdirilmiş, obrazlaşdırılmış, sözün gücü ilə milli xarakterin mənəvi-psixoloji varlığı dəyərləndirilmişdir ("Səadət paytaxtıyam", "Möcüzə sorağında", "Son səadətim", "Zindanda görüş", "Qardaş məhəbbəti", "Ah, siz a zəncir, a zəncirlərim", "Günaydın, mənim bacım", "Bu görüş bir möcüzəydi", "Sən görüşə izn verdin", "Gəlib çatdı doqquz iyun", "Mən yenə gələcəm Azərbaycana", "Günəş həsrəti", "Zindanda gülüstan").

Zindan şeirlərində azərbaycançılıq şüuru, məfkurəsi önəmlidir. Şair doğmalarına yazdığı şeirlərində də Azərbaycan idealını bəkləyir ("Mən əvvəlki balanızam", "Toprağından öp", "Silahım", "Təlqin", "İkinci təlqin", "Günəş həsrəti").

*Üç rəngli bayrağım - xalqımın canı*
*Oxşa şüa-şüa, saçağından öp!*
*Mənim qollarımla Azərbaycanı*
*Qucaqla, yaralı torpağından öp!*

*Hey! Hey! Davam edir hələ vuruşlar,*
*Mən kiməm? Ər oğlu, mübariz dədə.*
*Özüm kamerada, yarı canımsa*
*Bəşərin uğrunda mübarizədə.*

Milli ideal nəticə etibarilə bəşər azadlığı uğrunda mübarizə ideyası ilə birləşir.

X.R.Ulutürk bəzən sürreal səpkili şeirlər də yazmışdır. Belə olanda o, dərdin və ölümün rənglərini, növlərini verir, ölümlərdə belə ölümsüzlüyünü dönə-dönə tərənnüm edir, fəxriyyələrə dalır ("Ölümlərin növləri").

Xəlil Rzanın Lefortovo şeirlərində lirik-epik mətn az-

lıq təşkil edir (“Mamır”, “Ağçələngli Azərbaycan”, “Nə cür baxacaqsan gözlərimə sən”, “Yuxu”, “Zindanda gülüstan”).

Lefortovo əsərlərinin bir qismi məhəbbət şeirləridir. X.R.Ulutürk Lefortovo şeirlərində siyasi pamflet və həcvlərdən də yararlanmışdır (“İttiham”, “Sənətkar məğrurluğu” və başqaları):

*Bakımı qanına bələyənləri*
*Görməyə gözüm yox... gözüm güllədir*
*Marşal mundirinə təpilən şəri*
*Salamlayan ancaq murdar kölədir.*
*Görməyə gözüm yox... gözüm güllədir.*

(“Sənətkar məğrurluğu” ) X.R.Ulutürk - məhkəmə həyatından “fraqmentləri” şeirə gətirmiş, yaddaşa köçürmüş, tarixləşdirmişdir (“Qalx ayağa, şair gəlir”, “Qanadlı günlərim”, “Səadət paytaxtıyam”, “Sizi gördüm”, “İttiham”, “Zəncirlənib əllərim”, “Siyasi dustağın yeriş qaydası”, “Qaçsan gülləyəcəyəm”, “Əllərimin əksi”, “Zindan türküsü”, “Yıxın, sökün, dağıdın”).

Xəlil Rzanın zindan həyatı son günlərinə qədər poetikləşdirilmişdir. Şairin azadlığa doğru gəlişinin ifadəsi “Bakı hava alanına qayıdarkən...”, “Əlvida, Lefortovo”, “Dostlarım”, “Aldım yenə sovqatını”, “Gözün aydın, Almaniya”, “Bakıya doğru”, “Bu aləm nə qədər gözəlmiş, Allah”, “Poeziya hökmdarı”, “Şəhriyar üslubunda” şeirləridir. Bunlar şairin Lefortovo həyatının siyasi yekunudur. Şair Bakı hava alanından Azərbaycanı salamlayır:

*Mübarək uçuşun istiqaməti*
*Birbaş Bakımıza, Azərbaycana!*
*Ruhumda yer gücü, göylər vüsəti*
*Buludlar bənzəyir lələ, mərcana.*
*Salam Bakımıza, Azərbaycana!*

Şair - milli xarakter yenə mübarizə hökmündə qal-

dığını bəyan edir. Bu əslində poetik bəyanatdır:

*Qalxsın milyon-milyon göyərçin göyə,*
*Yenidən qızışır mübarizəmiz.*
*Üç rəngli bayrağım enməsin deyə*
*Yurd boyda yumruğa dönməliyik biz!*
*Yenidən qızışır mübarizəmiz!*

Xəlil Rza Ulutürk Lefortovoya nifrətlə, qəzəblə əlvida söyləyir:

*Əlvida, ey göz deşən baş yeyən, sarı quzğun*
*Stalinin, Yejovun, Jdanovun, Kirovun*
*Brejnevin, Suslovun, Çernenkonun tilovu!*
*Əlvida, zülmət qala, ey namərdlik alovu!*
*Lefortovo, ey dibsiz sovet zülmətxanası,*
*Kainatın ən iyrənc, murdar, mənfur binası!*
*Yıxaq bircə səni yox, altun imperiyanı!*

Qanun cildinə girmiş məlun imperiyanı! X.R.Ulutürk "Xəlil daş qoyan yerə baş qoyan fədailərin" minlər, milyonlar olduğundan - öz kişi bətnindən doğulanlardan, azadlıq aşiqlərindən qürurlanır, "günəşi göydə yox, həm də bağrında tapanları" kəsilməz, usanmaz mübarizələrə səsləyir!

Biz Xəlli Rza Ulutürkün Lefortovo əsərlərinə mövzu və ideya-məzmun mündəricəsinə görə münasibət bildirdik. Münasibət bildirdik ki, həmin əsərlərə Ulutürkün pərən-pərən olmuş taleyi, həyatı kimi təbii baxaq.

X.Rza 1990-cı ilin qanlı hadisələri, 20 Yanvar faciəsi, bütöv Azərbaycan taleyinin tərcümanlığı olan əlvan motivli ideya-məzmunlu əsərlər yazmışdır. Bunlardan çoxu arxivindən ilk dəfə götürülüb "Türkün dastanı",

"Bağışla, ey vətən" kitablarına daxil edilmişdir "Ağı", "Bacım Arifənin oxşamaları", "Azərbaycanın Milli Qəhrəmanı" kimi şeirləri şairin qəhrəman oğlu Təbriz Xəlilbəylinin, bütün şəhidlərin xatirəsinə ithafdır, elegiyadır. Şair Qardaşxan Təbrizə gedəndə ulu Şəhriyarın qəbri üstündən bir ovuc torpaq gətirmiş və Təbrizin məzarı

üstünə çiləmişdir. Ata bundan sinirlənmiş və təsirli bədii əsər yazmışdır. "Ağı" lirik-psixoloji, çoxçalarlı motivlərlə aşılanmış şeirdir. Şair oğul məhəbbəti, həsrətini, yurd sevgisini, vətəndaş birliyini, insan qəlbinin dəruni, əsrarlı hallarını poetikləşdirmiş, yüksək sənət nümunəsi yaratmışdır. Şeir 8 hecada, aaa b, vvv b qafiyə quruluşundadır. Sənətkar şeirə bütün dərdini-kədərini için-için, udum-udum yedirmişdir.

Təbriz - ölümündən irəli olan mübarək döyüşdür, mübarizədir:

*Neçin sənə qıydı fələk?*
*Çiyninəmi qondu mələk?*
*Salam, döyüşün mübarək,*
*Salam, Təbrizim, Təbrizim.*

Təbriz - ölümündən irəli olan millət balası, düşməndən öc alan, Təbrizə, Bakıya Ərk qalası, şairə qaladır:

*Düşmənlərdən öc alası,*
*Millətimin ər balası!*
*Təbrizimin Ərk qalası*
*Qalam, Təbrizim, Təbrizim!*

Təbriz - ölümündən sonra olan tabut altında göynəyən ata əlləridir:

*De hardasan? Şah taxtında,*
*Ərşin ən yüksək qatında*
*Göynər tabutun altında*
*Əlim, Təbrizim, Təbrizim!*

Təbriz - ölümündən sonra gül məzarların ağırlığı altında qalan dərddir, yanan Azərbaycandır:

*Gömkəkində qan ərqəvan,*
*Gül məzarlar əlvan-əlvan*
*Yanır odda Azərbaycan,*
*Elim, Təbrizim, Təbrizim.*

Təbriz - ölümündən irəli, ölümündən sonra olan şair mübarizəsi, parça-parça olan ürəkdir:

*Ömrün-günün mübarizə,*
*Sənsiz nə cür baxım ərzə?*
*Parça-parça, rizə-rizə*
*Könlüm, Təbrizim, Təbrizim!*

Təbriz - ölümündən sonra olan, məbədinə səcdə qılan aləmdir:

*Mən atanam, söylə mənə:*
*Ötəri nə, əbədi nə?*
*Səcdə qılsın məbədinə*
*Aləm, Təbrizim, Təbrizim.*

Təbriz - ölümündən sonra əbədi olan həyatdır, cahanda həmişəlik qalandır:

*Sevincin, başda tacın var,*
*Türkayın var, Gültacın var.*
*Milyon qardaşın, bacın var*
*Mən qoymaram, solmaz bahar*
*Solan Təbrizim, Təbrizim!*
*Qanlı köksü dəlik-deşik,*
*Xocalıda bir qəsr tik.*
*Ey cahanda həmişəlik*
*Qalan Təbrizim, Təbrizim!*

Təbriz - ölümündən irəli və sonra olan doğulmaqdır, yenidən yaşamaq və yaşatmaqdır, millətə və gəncliyə salamdır:

*Ey bəxtəvər, ey üzü ağ,*
*Balam Təbrizim, Təbrizim.*
*Sən yenidən doğulursan*
*Salam, Təbrizim, Təbrizim!*

"Bacım Arifənin oxşamaları" (1992) qədim bayatılarımızın axarı, dərdli-kədərli ağbirçəklərin çağırdığı ağıların davamıdır:

*Dağdan bir lalə dərdi,*
*Dağ basdı lalə, dərdi.*
*Hər dərdi çəkmək olar*
*Çəkilməz bala dərdi.*

“Azərbaycanın Milli Qəhrəmanı” (1992) şeiri Təbriz Xəlilbəyliyə odadır:

*Aç başından qara şalı, mərd anası, sən ağlama!*
*O, məqbərə yerdi - göydü... başdaşını qucaqlama.*
*Mərmərində dürrə dönür, yağış göydən dama-dama*
*Üstündəki ehtişama matdı Təbriz, can Firəngiz!*

*Yurdum-yuvam od tutanda gizlədərdi pərtliyini,*
*Güllə-qurşun tükənəndə silah etdi mərdliyini.*
*Yalnız qarı düşmən bilir zirehdən də sərtliyini*
*Sal qayadan bir az məğrur, coddu Təbriz,*
oddu Təbriz.

“Nəslimizin çələngi” (1992) şeiri şairin Türkiyədə müalicə olunduğu çağlarda yazılmışdır:

*Atasıyam Təbrizin! Bu sadə həqiqəti*
*Uzaq şəfa elində, İstanbulda bildilər.*
*Bildilərmi, yığışıb Dalğa-dalğa gəldilər.*

Ata Təbriz adından qürurludur, buna görə də vüqarından xəstəliyini gizlədir:

*Turqut Ozal göndərən*
*Bahar nəfəsli çələng. Hər gülündə yeni rəng*
*Atasıyam Təbrizin. Bu sözdən işıq gəlir,*
*Saqqalıma, rəngimə bir nur, yaraşıq gəlir.*

“Mən cəbhəyə gedirəm” şeirinin yazılma tarixçəsi vardır. Şeir 1993-cü il 29 dekabrda Füzuli rayonunun Kürdmahmudlu kəndi yaxınlığında işgəncəli surətdə həlak olmuş Pərviz Sovet oğlu Şükürlüyə ithaf olunmuşdur. Qəhrəmanın anası Yazıçılar Birliyinə, Anar müəllimə yazırdı: “Hörmətli qardaşım Anar! Salam! Mən böyük şairimiz Xəlil Rzanın ünvanını bilmədiyim üçün bu yaralı məktubumu Sizə göndərdim. Çox xahiş edirəm, zəhmət olmasa, bu məktubu sahibinə çatdırın. Bəlkə məktubum Sizə də çatmaz, onda çox-çox xahiş edirəm, kim olsa Xəlilə çatdırsın. Hörmətlə şəhid anası Rəhilə Şükürlü. Sum-

qayıt şəhəri, Komsomol küçəsi, 16-25, mənzil 7”.

R.Şükürlü məktubunda həm də xahiş edir ki, şair oğlu haqqında şeir yazsın. Şair də anaya məktub yazmış, onunla görüşəcəyini, oğluna şeir yazacağını vəd etmişdir. Beləliklə, “Mən cəbhəyə gedirəm” əsəri yaranmışdır.

Şeir 3 noyabr 1993-cü ildə, 60-80 yaşlıların səfərbərliyindən gəncliyə öyüd kimi yazılmışdır. “Avtomatı bəri ver, mən könüllü gedirəm bu gün cəbhəyə” - deyən şair, əslində çağırışlarıyla gəncliyə üz tutur, onları birliyə dəvət edir. “Torpaq, daş yanırsa, doğma ana, sevgili bacıya əl uzanırsa” – sinirlənən şair cəbhəyə səfərbər olduğunu bildirir. Bu gün söz nifrəti yüz-yüz dəliqanlının nifrətindən, qeyzindən böyükdür - çünki Vətən çağırır! Çünki Vətən rütbə, vəzifə, stol, sərvət, şöhrət düşkünlərindən heç nə ummur. Ərzin gözü Azərbaycanı: Şuşanı, Qaragölü, Çalbayır, Şirdağı, Lülpər, Sarıyer, Uzunyol, Muğanlı, Turşsu, Meşəli, Umudlu, Armudlu, Şırlan, Xəlfəli, Qar-qar, Nərdivan, Mıxtökən, Gendərə, Gəlinqaya, Çəmənli, Zarıslı, Sultan-Heydəri... qorumaq üçün şair cəbhəyə gedir - Vətən bizi çağırır. Metenin, Atillanın qəbirləri uyuduğu bu torpaq düşmənin yad çəkmələri altında tab gətirə bilməz. Buna görə də üçüncü yol yoxdur – “bu müqəddəs ölümə, bu müqəddəs həyata, ey Vətənim hazır ol” çağırı-şı, qeyrət və məsləkə dolmalar təbrizləri, pərvizləri, milyonlarla Vətən oğullarını ayağa qaldırıb könüllü cəbhələrə, səngərlərə yolladır.

“Hələ durur” (1992) şeirində milli ideallarımızın əleyhdarları kəskin ifşa olunur, belə şeirlər siyasi pamfiet təsiri bağışlayır.

“Qanlı cəllada” (Qanlı cəllad Mixail Sergeyeviç Qorbaçova) şeiri 20 ocaq 1990-cı il qatillərinə, M.S.Qorbaçova qarşı ifşaçı əsərdir. Şeirdə faciələrimizin dəhşətləri, qırğınların - qanların baş verdiyi yerlər, şüurumuzda doğurduğu mənəvi əzab və işgəncələr, M.S.Qorbaçovun murdar siması inikas olunur. Şair qanlı cəlladlara Azər-

baycandan: Təbrizimizdən, Bakımızdan, Qarabağımızdan əl çəkməyi hökm edir! “Xalqıma qəddar yağı, alçaqların alçağı!” Şair inamında qərarlıdır ki, “bütün qan soranları odlayacaq bu torpaq”.

“Nifrət yarat” (1993) satirik pamfletdir. Şeirdə erməni xislətinə, ASALA-ya şair nifreti ifadə olunur. “Erməni türkün düşmənidir” - düşüncəsi iliyə-qana keçməlidir. Bunun üçün “erməni şərdir söyləməklə kar aşmaz”, hər cür silahları öyrənmək, səngər seçməyi bacarmaq lazımdır. “Yer üzünün Əhriməni erməni, insanlığın düşmənidir, düşməni” - bu Sədi kəlamı milli şüura yeridilməli, nifrət məktəbinə çerilməlidir, səfərbər olmaq, silahlanmaq məktəbi keçmək lazımdır, - nifrət məktəbi yaratmaq “elə qabiliyyət, şərafət, ləyaqət məktəbi yaratmaq” de-məkdir.

“Əynimdə sənin kömləkin” (1994) şeiri X.R.Ulutürkün Rəfiq Zəka və başqa dostlarıyla Horadiz, Füzuli, Cəbrayıl cəbhələrinə getdiyi çağlarda yazılmış, yun köynəyini soyuqdan qorumaq məqsədilə çıxarıb Xəlil Rzaya geydirmiş Əhməd Elbrusa həsr olunmuş lirik şeirdir.

“Yaşasın həyat” (1992) Sumqayıtdakı azadlıq hərəkatını, tətil və mitinqlər dövrünü əks etdirir. Şair fiziki cəhətdən ağır şəraitdə, qan təzyiqi və ürəyi infarkt olduğu halda, Sumqayıt izdihamına daxil olur və alovlu nitq söyləyir.

“Gerbimiz - qəlbimiz” (1993) Ə.Cavadın, C.Cabbarlının cümhuriyyət şeirlərinin gələcəyini xatırladan, milli gerbimiz, üçrəngli bayrağımız tərənnüm olunan şeirdir. Əsərdə yaşıl rəng müsəlmanlıq, göy rəng türkçülük, qırmızı rəng isə çağdaşlıq mənasında qiymətləndirilir:

*Yaşıl rəngim -yaşıl bahar, müsəlmanlıq timsalıdır,*
*Göy rəngimdə türklük yaşar, - millətimin amalıdır.*
*Qırmızılıq simvoludur, çağdaşlığın, yüksəlişin*
*Vətənimə can verməli mənim əzmim, mənim işim.*
*Səkkiz guşə ulduzumda səkkiz cənnət qapısı var,*

*Yalnız oğul qeyrətilə açılacaq bu qapılar.*
*Qızıl sünbül soraq verir xırman-xırman bərəkətdən,*
*Ərzə bəhrə-bar gedəcək bu müqəddəs məmləkətdən.*

"Tumurcuq, çiçək, nübar" (1993), "Yaralı baharın" (1994) şeirləri təbiət mövzusunda yazılsa da, əslində təbiət milli xarakteri səciyyələndirmək və tarixi gerçəkliyi göstərmək üçün vasitədir. X.R.Ulutürk təbiəti qarşılaya-qarşılaya içindən keçirdiyi hadisələri, anaların vüqarını, şəhidləri, insan xarakterinin əsrarlı hallarını tərənnüm edir:

*Elcanın, Pərvizin, Bünyadzadənin,*
*Təbrizin qanıdır, bu dağ ayları*
*Min-min adı Ülvi, özü sadənin*
*Bu torpaq uğrunda qurban gedənin*
*Bürüsün aləmi hay-harayları*
*Təbrizin qanıdır bu dağ çayları.*
*Analar dərdin heykəli kimi təcəssüm olunurlar:*
*Basaq bağrımıza mərd anaları,*
*Vüqar heykəli tək dayanmış onlar.*
*Sıxsa da ovcunda dərd anaları,*
*Kədərdən sıyrılıb oyanmış onlar,*
*Vüqar heykəli tək dayanmış onlar.*

X.R.Ulutürkün son şeirlərindən olan, "Günay" qəzetində dərc edilmiş "Ləkə" şeirini de qeyd etmək lazımdır. Bu əsər rus qoşunlarının Azərbaycana girə biləcəyi ilə bağlı narahat günlərdə etiraz təriqilə yazılmışdır. Çap olunmamış bir neçə şeiri isə əlyazması halında şairin arxivində, Firəngiz xanım Ulutürkdə saxlanılır.

X.R.Ulutürkün xarakteri milli gerçəkliyin üzvi hissəsi olub, özündə milli idealları, türkçülüyü, vətənçiliyi və azərbaycançılığı ehtiva edən tarixi şəxsiyyət xarakteridir.

## III FƏSIL

# XƏLİL RZA ULUTÜRKÜN ƏDƏBİ-TƏNQİD, BƏDİİ TƏRCÜMƏ, PUBLİSİSTİKA VƏ ELMİ-TARİXİ MEMUARLARINDA MİLLİLİK - BƏŞƏRİLİK XÜSUSİYYƏTLƏRİ

## 3.1. Milli ideal və xalq taleyi məsələləri ədəbi-nəzəri təfəkkürdə

X.R.Ulutürk filologiya elmləri doktoru, ədəbiyyatşünas-alim kimi Azərbaycan ədəbiyyatının həm nəzəri, həm də tənqidi məsələləri ilə məşğul olmuşdur.

Sənətkarın bədii görüşlərinə diqqət yetirəndə onun ədəbiyyatımızın tarix, nəzəriyyə və tənqidlə bağlı çoxsahəli fəaliyyəti ilə qarşılaşırıq. Məqalə və monoqrafiyalarda alimin xalq yaradıcılığı, klassik və müasir irs, habelə, Pribaltika, Slavyan və Qərb ölkələri ədəbiyyatının örnəkləri ilə bağlı fikir mövqeyi göz önündə canlanır.

Ulutürk milliliklə bağlı olanlardan yazanda bəşəri, bəşəri olanlardan yazanda isə milli keyfiyyətləri önə çəkmiş, ədəbi əlaqələr məsələsinə günün tələbi kimi baxmışdır. Təbii ki, sənətkar qələmini milli cəbhədən daha çox işlətmiş, müasirliyə daha geniş diqqət yetirmişdir.

Hələlik X.Rzanın ədəbi-tənqidi irsinə aid iki kitab çap etdirilmişdir: “Mənə bənzə” (B., Mütərcim, 1999) və “Ədəbi tənqid” kitabları (B., Mütərcim, 2003).

İkinci kitabda ədəbiyyatşünasın klassik və müasir ədəbi irslə bağlı qiymətli məqalələri toplanmışdır. Üçüncü kitabda X.Rzanın türk, slavyan, Pribaltika və Avropa xalqlarına aid elmi məqalələri veriləcəkdir.

Ümummilli liderimiz H.Ə.Əliyevin 14 noyabr 2002-ci il tarixli sərəncamına əsasən şairin 5 cildlik əsərlərinin ədəbi-tənqidi məqalələrindən ibarət olan üçüncü cildi çap

edilmək üçün akademiyanın "Elm" nəşriyyatına təqdim edilmişdir.

"Qüdrətli sənətkar", "Fikir və məna şairi" (1962), "Dəli Kür" romanı - Azərbaycan nəsrinin nailiyyəti kimi" (1962), "Səssiz güllələr" (1965), "Vətəndaş poeziyası uğrunda" (1967) və başqa məqalələri 60-cı illərin ədəbi nümunələridir.

Bütöv Azərbaycan xarakteri, təfəkkür və milli koloriti – "Dəli Kür" romanı - Azərbaycan nəsrinin nailiyyəti kimi" məqaləsindən keçən qırmızı xətdir. "Mən hər hansı yazıçını oxuyanda, birinci növbədə buna fikir verirəm ki, görüm hansı sənətkar öz doğulduğu torpağı tanıyırmı, öz xalqının adət-ənənələrini bilirmi?.. Mən başqa xalqları da sevirəm. Ancaq bu torpaq və bu torpağın surətini yaradan yazıçı mənim üçün hər şeydən yüksəkdir, ucadır. İsmayıl Şıxlı ona görə mənim üçün bu qədər əzizdir ki, o, bu xalqın ürəyindən qopmuş sənətkardır. O öz xalqını tanıyır. İsmayıl Şıxlının romanı çox dərin həyat qüvvəsinə, milli koloritə malik bir əsərdir. İsmayıl Şıxlı nəinki ictimai həyat mövqelərinin təsvirində, həmçinin adi həyat təsvirlərinin özündə belə sanki həmişə bu fikirlərini qabarıq şəkildə nəzərə çapdırmaq istəyir ki, bu torpaq müqəddəsdir, sevimlidir. Bu torpaq üstündə nəcib, vüqarlı bir xalq yaşayır" (1963-cü il qovluğu) [318].

B.Vahabzadə poeziyasındakı fəlsəfi zənginlik və humanizm duyğularından geniş bəhs edən X.Rza "Səyahət dəftəri" şeirlər silsiləsindəki Avropa və Asiyaya həsr olunmuş nümunələri, onların azadlıq ideyasını məxsusi ayırır, imperializmə, müstəmləkəçiliyə nifrətini, oyanmış Şərqə olan münasibətini analiz edir [163].

Əlağa Kürçaylının "Durnalar Cənuba uçur" şeir kitabının nəşri münasibəti ilə yazılmış məqalə isə "Vətəndaş poeziyası uğrunda" [194] adlanır. Məqalədə şairin Vətənə olan məhəbbəti, vətəndaş mövqeyi, Vətən və xalq taleyi, Azərbaycanı parçalayan qəsbkarlara nifrətindən söz açılır.

X.Rza şairin poemalarını yüksək qiymətləndirir: "Bu poemalar xalqımızın inkişafı tarixində bir sıra mərhələlər haqqında aydın təsəvvür yaradır, dünənki və bugünkü hadisələrin ictimai, siyasi, bədii icmalını verir. Kürçaylının tarixi poemalarında tarixi həqiqət, dövrün ictimai-siyasi mənzərəsi, milli kolorit öz ifadəsini tapdığı kimi, müasir poemalarında yeni həyatın geniş mənzərələri aydın rəsm edilmişdir" [194]. 1970-ci ildə X.R.Ulutürkün iki məqaləsi – "Şairin ikinci həyatı", "Üç milyard səs üçün kantata"sı dərc olunmuşdur. Birinci məqalə Əli Kərim poeziy-asına həsr edilmiş, müasir ədəbiyyatın ənənə və novatorluq, realizm və xəlqilik, lirik xarakter və bədii sənətkarlıq məsələlərinə Əli Kərim yaradıcılığının nümunələri əsasında münasibət bildirilmişdir.

"Vətəndaşlığın səmimi tərənnümü" [177] ədəbi məqaləsi Hidayət haqqındadır. Məqalə "Bir az gözləyin məni" kitabının nəşri münasibətilə yazılmışdır. Müəllifə görə "Ümumən dünyanın bütün xalqlarının faşizmə, istismara, köləliyə qarşı əlbir, dilbir, canbir mübarizəsi, sülhü, istiqlalı qorumaq əzmi Hidayətin diqqət mərkəzindədir" [177]. "Onun şeirlərinin oxucuya aşıladığı birinci fikir budur ki, xalqların və millətlərin ardıcıl, möhkəm dostluğu, qardaşlığı olmadan bugünkü böyük bəşər mədəniyyəti yarana bilməzdi. Şairin ən böyük xidmətlərindən biri - bu dostluğun tarixi və mənəvi köklərini aramaq, tapmaq, bədii həqiqət kimi kəşf etmək, ürəklərdən keçən isti, qaynar, pak duyğuların axarını bugünkü oxucuya göstərməkdir" [177].

Adı ilə publisistika xüsusiyyətlərini xatırladan "Üç milyard səs üçün cantata" əslində ciddi ədəbi məqalədir. "1967-ci ildə aprel çevrilişindən sonra qara polkovniklərin yenidən hakimiyyət başına gəlməsi, Yunanıstanın qabaqcıl sənətkarları qarşısında faşizmə və imperializmə qarşı mübarizəni daha kəskin şəkildə qoymuşdu" [171]. Elə bu münasibətlə X.Rza göstərilən məqaləni qələmə

almış, Yunanıstanda azadlıq vətənpərvərləri, Yunan müqavimət hərəkatı üzvlərinin irtica ilə üzləşməsini qələmə almışdı. 1949-1950-ci illərdə dustaq edilmiş Y.Ritsos, M.Ludemis, T.Livaditis, T.Patrikios, K.Kulufakos, M.Furtunis, V.Teodor kimi demokrat yunan şairlərinin yaradıcılığına həm ideya, həm də bədii forma baxımından diqqət yetirilmiş, onların humanizmi və döyüş ruhu təqdir olunmuşdur.

70-ci illərin "Vətəndaşlıq poeziyası" məqaləsi (1973) "Hava haqqında" (1972) və "Dünən, bu gün, sabah" (1973) kitablarının nəşri münasibətilə yazılmışdır.

R.Rzanın qeyd olunan kitabları haqqında məqalə Xəlil Rza Ulutürkün tənqidçi mövqeyini göstərir. Məqalənin əsasında R.Rzanın vətəndaş mövqeyi, poeziyasının vətəndaşlıq məziyyətləri dayanır. Mahiyyət belə götürülüb: fərd və şəxsiyyət, fərd və cəmiyyət, fərd və bəşər, fərd və dünya. Və bütün bunların mahiyyətində yenə də bir məqam dayanır: müstəmləkə sisteminin dağılması, imperializmə qarşı mübarizənin intensiv şəkil alması, azadlıq, müstəqillik ve idrakın təntənəsi, xalqlarıb apardığı milli azadlıq mübarizəsinin dərinləşməsi və genişlənməsi. Xə-lil Rza göstərir ki, R.Rzanın bu iki kitabında bütün bu məsələlər köklü qaldırılır. Bu cəhətdən tənqidçi "Hələ bu harasıdı" poemasını təhlil sferasına alır və Laabu adlı bir zənci balasının obrazına xüsusi diqqət yetirir. Laabu monoloq və epik təsvir təhkiyəsinin ifadəçisi kimi Afrika xalqlarının imperializmə qarşı azadlıq əzmini özündə təcəssüm etdirir, güclü bədii effekt doğurur.

Xəlil Rza Rəsul Rzanın bədii üslub sistemi sırasından dil komponentlərini xüsusi ayırır, milli gələnəklərimizlə təmaslı surətdə təqdim edir. Nəticə çıxarır ki, "dil gözəlliyi, bədii ölçü hissinin qorunması, yığcamlıq, obrazların seçilməsi emosional keyfiyyət və başqa bu kimi amillər baxımından yanaşdıqda Rəsul Rza şeiri Azərbaycan poeziyasının ən yaxşı ənənələri ilə səsləşir" [180].

X.Rzanın tənqidçi təfəkküründə R.Rza poeziyasının vətəndaşlıq, mərdlik pafosu da seçilən keyfiyyətdir. Bunu onun xarakter və şəxsiyyətindən deyil, həm də bütün bu keyfiyyətlərin sirayət etdiyi poeziyasından da seçib ayırır, oxucusuna xüsusilikdə təqdim edir, - üslub fərdiyyətini qıçalayır. R.Rzanın öz sözüdür ki, "Biz ömrümüzü yumşaq, yaşıl yosun kimi ağac kölgəsində keçirmədik. Hansı göz var ki, ona açıq və dik baxa bilmədik".

Vətəndaşlıq, müasirlik axtarışları "Vətəndaşlıq və müasirlik" məqaləsində də davam etdirilir. Xalq şairi B.Vahabzadənin ikicildlik seçilmiş əsərlərinin nəşri münasibətlə yazılmış bu məqalədə sənətkar müasir Azərbaycan poeziyasında seçilib sayılan şairlərdən biri kimi təqdim olunur. Şairin arxivi əsasında Firəngiz Ulutürk "Ustadı Bəxtiyar Vahabzadə haqqında" kitabını tərtib edib geniş oxucu kütləsinə yayımlatmışdır [100].

Xəlil Rza nəzəri suallar qaldırır: Lirik qəhrəman necə yaranır? Cavablandırır ki, lirik qəhrəman "şair şəxsiyyətinin estetik ideall qovuşması yolu ilə" yaranır, "lirik qəhrəman da məhz estetik ideal ilə qovuşanda təmizlənir, ucalır". "Lirik qəhrəman şair şəxsiyyətinin ifadəçisi kimi səciyyəvi xüsusiyyətləri ilə oxucuya özünü nişan verir. Bu halda lirik qəhrəmanın mənəvi keyfiyyətləri aydındır ki, şair şəxsiyyətinin zənginliyindən, sənətkarın yetkinliyindən və estetik idealın xüsusiyyətlərindən asılıdır. Lirik qəhrəman əsrin qabaqcıl ideallarını daşıdıqda, bu idealları yüksək bəşəriliklə əks etdirdikdə xalq mənəviyyatının aynasına çevrilə bilir" [185].

Sonra Xəlil Rza B.Vahabzadənin lirik qəhrəmanının mənəvi keyfiyyətlərini sıralayır. Birinci sıranı vətəndaşlıq narahatlığına verir. Kitabın "Dünyanın sərhədi", "İnsan-zaman", "Səyahət" bölmələri vətəndaşlıq və humanizm keyfiyyətlərinin tutumunu əks etdirir. Şairin lirik qəhrəmanı beynəlxalq imperializmin maskasını yırtan fikir qəhrəmanı kimi canlanır, "Lirik qəhrəmanın səsindəki ötkəm-

lik, kəsər, mənəvi qüvvə şərə qarşı mübarizədə zəngin təcrübəyə və böyük nüfuza malik Azərbaycan poeziyasının dərin qatlarından su içir” [185].

Düşüncə, idrak zənginliyi X.Rzanın təqdimatında ikinci sırada gəlir. Bu keyfiyyət – “B.Vahabzadənin şair şəxsiyyəti ilə sıx bağlıdır. Onun lirik qəhrəmanı həm hissi-emosional, həm də əqli-intellektual baxımdan kamil və yüksək səviyyəli adamdır” [177]. “Təklik” şeirində humanizm - insanpərvərlik fəlsəfi idrakla qovuşmuşdur. “Özündən başqası olmayan yerdə insan olduğunu unudar insan”, “Min dərd hücum etsə, könül, sıxılma, bir nəfər dərd bilən qardaşın olsa”, “Meşələr sultanı, meşələr şahı aslanın özü də yalqız olmasın, “Bağa tək qınına çəkilənlərə ürək nə gərəkdir, dil nə gərəkdir?!” - bütün bunları fakt kimi oxucuya Xəlil Rza təqdim edir.

“Ömrün gəldi-gedər olması ilə fəaliyyət və idrak eşqinin sonsuzluğu arasındakı təzad lirik qəhrəmanın mənəvi dünyasında daha aydın əks-səda verir. O, burada zaman və məkan ölçülərinə, sərhədlərə, qəlblərə meydan oxuyan və heç bir çərçivəyə sığmayan fikir bahadırı təsiri bağışlayır” deyən X.Rza şairin “Uçuş” şeirindən örnək verir, elə bir örnək ki, lirik qəhrəmanın dünyaya sığmayan azadəliyini tutumlu, orijinal əks etdirir. Fəqət dünya, insan təzadını dərk etdiyindəndir ki, şair belə də deyib: “Axşamları olmayan gündüzlər istəyirəm”.

Tənqidçi B.Vahabzadənin poetik düşüncələrini xalq idealları səviyyəsindən qeydə alır. Xalqın mənəvi qüdrətini həmin yöndən əks etdirir və düzgün qənaətdə olur.

X.Rza B.Vahabzadəyə “Əbədi axtarış” (1976) məqaləsini də həsr etmişdir. Bu məqalədə B.Vahabzadə məslək və mübarizə şairi kimi qiymətləndirilir. “Muğam” böyük yaradıcılıq iradəsindən, poetik qüdrətdən, fikir və hissiyyatlardan doğan lirik poema kimi qiymətləndirilir. Şair “Muğamın köklərini: layla və bayatıları, oxşama və holavarı, ağı, sayaçı sözləri, qoşma və bu kimi xalq şeiri

örnəklərini, el havalarını ön plana çəkmişdir” [174].

X.Rza 70-ci illərdə ədəbi prosesi izləməklə bərabər, slavyan poeziyasının qüdrətli sənətkarlarına biganə qalmamış, yeri gəldikcə onlar haqqında da ədəbi fikir söyləmişdir. Bu sıradan K.Simonov qeyd edilməlidir. X.Rza “Çoxşaxəli yaradıcılıq” məqaləsini rus şairinin anadan olmasının 60 illiyi, yaradıcılığının 40 illiyi münasibətilə yazmışdır.

Xəlil Rzanın təqdimatında K.Simonov təsəvvürümüzdə həm tərcümeyi-halı, həm də poeziyası ilə canlanır, -belə olanda ədəbi faktlar publisistika görüntülərindən də ayrılmır. Müharibə vaxtı və davadan sonra gah qəzet müxbiri, gah da müxtəlif nümayəndə heyətinin üzvü kimi dönə-dönə xaricdə olan, Yaponiya, ABŞ, Kanada, Fransa, İngiltərə, İtaliya, Almaniya, Çin və başqa ölkələri gəzib dolaşan K.Simonov bu səyahətlər nəticəsində “Rus məsələsi” pyesini, siyasi lirikadan ibarət “Dostlar və düşmənlər” kitabını, habelə saysız-hesabsız pamfletlərini yaratmışdır” [186].

Məqalə müəllifi K.Simonovun Azərbaycan mədəniyyəti ilə əlaqələrini də səhifələyir, V.Luqovskoyun redaktorluğu ilə hazırladığı “Azərbaycan poeziya antologiyası” kitabını xatırladır. Simonov və Səməd Vurğun ədəbi əlaqələrinə diqqət yetirir, Nesimidən Səməd Vurğuna qədər tərcümələrini yada salır, xüsusilə S.Vurğunun “Şair, nə tez qocaldın sən”, “Gödəkçə”, “Mən tələsmirəm” şeirlərinin rus dilinə tərcüməsini xüsusi vurğulayır. K.Simonovun “Dostum Səməd Vurğunun London ziyafətindəki nitqi” şeirinin Tələt Əyyubovun şəxsində Azərbaycan dilinə tərcüməsindən danışır.

Sənətkar slavyan xalqlarının görkəmli nümayəndələrindən olan T.Q.Şevçenkodan da yazmış, onun azadlıq ruhunu təqdir etmişdir. O, 1979-cu ildə “Ukrayna mədəniyyətinin günəşi” məqaləsini dərc etdirmişdir.

Məqalədə Şevçenkonun azadlığa çağırış ideyaları təb-

liğ olunur. “Şevçenko nəinki keşişləri, çinovnikləri, çar Nikolayı, hətta I Pyotru da damğalamış, onu imperiyanın banisi kimi ifşa etmişdir” [218]. O, xalqı azadlığa doğru səsləmişdir: “Çarlığı yıxmaq üçün bütün xalqlar, bütün imperiya zülmkarları ayağa qalxmalıdır” [218].

X.R.Ulutürk demək olmaz ki, Azərbaycan-rus ədəbi əlaqələrinə mühüm əhəmiyyət vermişdir. Onu dünya mədəniyyəti geniş surətdə düşündürmüş, böyük ədəbi örnəklərə üz tutmuşdur. Tatar xalqı və ədəbiyyatının Sabiri kimi qiymətləndirilən, XX əsrin nadir şəxsiyyəti, vətəndaş şairi Abdulla Tukay belə sənətkar olmuşdur. Onun mənəvi təyinatı və şəxsiyyəti “yalnız şair deyil, həm də amansız publisist, yorulmaz folklorçu, uşaq ədəbiyyatının fəal xadimi, ədəbiyyatşünas, nasir və tənqidçi kimi qələm çalmağı tələb etmişdir” [206].

Ata-anasını erkən itirmiş, mədrəsə təhsili almış, Puşkin, Lermontov, Tolstoy, Nekrasov və başqalarının oxumuş A.Tukay “Fikir” qəzetinin, “Əlqəsrül Cədid” (“Yeni əsr”) ədəbi-ictimai jurnalının, “Oxlar” satirik məcmuəsinin naşiri olmuşdur. “Bu orqanlarda pamflet və məqalələr, şeir və satiralarla çıxış edən A.Tukay zamanın ictimai-siyasi təhlilini verir, doğma xalqının mübarizə yolunu müəyyənləşdirirdi” [206].

A.Tukayı “Qiyamət günü”, “Bizim millət ölübmü, yoxsa hələ yuxulayır?”, “Qraf” Lev Tolstoy cənabları yazır”, “Çar - Qolod, yaxud aclıq padşahı”, “Şəhərimizin zor mövqeli mollalarına bir-iki söz”, “Milli hissiyyat”, “Almağın leylacıyıq”, “Tərcüman” qəzetinin tatarlar ilə nə əlaqəsi”, “Xeyriyyə cəmiyyəti”, “Kazanda nikah məclisi”, “Haqqı görə-görə inkar edənlər” və başqa odlu məqalələr A.Tukayı tatar xalqının inqilabi duyğularının ifadəçisi, inqilabçı şair kimi tanıdırdı. “Kəndlinin yuxusu”, “Parazitlərə”, “Dostlara sözüm”, “Azadlıq haqqında”, “Dövlət duması”, “Öz xalqıma”, “Getməyəcəyik” kinıi şeirləri, “Yeni kəsik baş” poeması isə A.Tukayı tatar

ədəbiyyatının görkəmli nümayəndəsinə çevirdi. Bu qəbildən olan əsərləri ilə Abdulla Tukay tatar poeziyasına dərin inqilabi məzmun, böyük vətəndaş qüruru və məsuliyyəti, döyüşən, sarsılmaz ruh və misilsiz bədii forma yenilikləri gətirdi" [206].

A.Tukay rus şovinizmi əleyhinə olmuş, çar istibdadını ifşa etmiş, öz xalqını, ziyalılarını milli təəssübkeşliyə çağırmışdır. O, "Getməyəcəyik" şeirini öz yurdunu atıb Türkiyəyə və başqa yerlərə qaçanlar əleyhinə yazmış, "çar istibdadına qarşı rus xalqı ilə çiyin-çiyinə mübarizə aparan tatar xalqının ən dərin, sağlam və vətənpərvərlik duyğularını" ifadə etmişdir. Bu səbəbdən də çar məmur-ları onun məhkəməyə verilməsini tələb etmişlər.

X.Rza tatar xalqı ədəbiyyatından Musa Cəlil yaradıcılığı ilə yaxından maraqlanmış, "Moabit dəftəri" kitabını dilimizə çevirmişdir [39]. Şair M.Cəlil poeziyası və şəxsiyyətindən öyrənə-öyrənə, həm də onu xalqımıza tanıtmışdır.

Xəlil Rzaya görə Hüseyn Arif poeziyasının məziyyətlərindən biri onun milli şair olmasıdır. Bu millilik eyni zamanda geniş bəşəri məzmuna malikdir. H.Hüseynzadənin (red. - H.Arif) yaradıcılığında biz millətlər qardaşlığı ideyalarını açıq şüar, ritorik bəyanat səviyyəsində deyil, məhz bədii söz səviyyəsində görürük" [196, № 11, s.34].

T.Bayramın Vətən və bəşər taleyinə qızğın marağı, vətəndaşlıq harahatlığı, ictimai həyat hadisələrinə qaynayıb-qarışmaq təşnəliyi və özünəqarşı tələbkarlığı, sənətkar məsuliyyəti onun fitri şairlik ilhamına uçuş qanadları gətirmişdir" [204, №12, s.198].

Xəlil Rzanın tənqidi fikrində B.Vahabzadə beynəlxalq mövzulara milli münasibət yönündən seçilir, tarixi mövzulan müasir poetik fikrin işığında mənalandırır, "fikir və məna poeziyası uğrunda filosof təfəkkürü ilə mübarizə aparır". İctimai-əxlaqi problemlərin qaldırılması B.Vahabzadə poeziyasında fərdi bədii keyfiyyətlərdəndir. Epik

poemaya xas olan başlıca keyfiyyətlər: konfükt, insan səciyyələri, psixologizm, geniş lövhələr diqqəti cəlb edir” [202]. X.Rzaya görə “Muğam” isə şairin yeni bədii axtarışlarının nəticəsi olan lirik poemadır. Müəllif xalq muğamlarının mənasına dalmış, onlardan hər birinin fərdi, özünə xas cəhətlərini poetikləşdirməyi bacarmışdır” [202]. Poemada Muğamın kökləri düzgün olaraq xalq mənəviyyatında, xalq şeiri örnəklərində, el havalarında axtarılır.

X.R.Ulutürk XX əsr Azərbaycan ədəbiyyatında poema janrının tədqiqatçılarındandır, bu mövzuda namizədlik dissertasiyası [211] yazıb müdafiə etmişdi. 70-ci illər ədəbi tənqidində də bu janra müxtəlif cür münasibət olmuş, diskussiyalar təşkil edilmişdir.

Janra münasibətdə birinci problem ədəbiyyatın xalq həyatına son dərəcə yaxınlaşdırılması və novator-xəlqi keyfiyyətlərin müəyyənləşdirilməsi, vətəndaşlıq və humanizm keyfiyyətləridir. X.Rzaya görə novatorluq ədəbiyyatın ictimai tərəqqi uğrunda mübarizə əzmindən doğmalı, bu əsasda da mövcud ənənələr yaşadılmalıdır. Ədəbiyyatşünas bu fikirlərində mövcud poetik təcrübəni əsas götürür. Bu baxımdan o, M.Müşfiqin “Qaya”, “Səhər”, “Sındırılan saz”, “Azadlıq dastanı”, “Mingəçevir həsrəti”, “Tərtərhes nəğmələri” poemalarını 30-cu illər poeziyamız üçün novator keyfiyyətlər hesab edir.

Xəlil Rza 30 illik yaradıcılığa malik olan A.Babayevi antihumanizmlə humanizm xüsusiyyətlərinin qarşılaşdırılması və bəşəri keyfiyyətlərin dəyərləndirilməsi yönündən səciyyələndirir. Onun vətəndaş mövqeyindən, döyü-şkənlik və mübarizliyindən söz açır. Bu cəhətdən N.Hikmətə həsr olunmuş “Ümidsiz deyiləm” əsəri, “Neruda dəfn olunur”, “Kosmik düşüncələr” silsiləsi təhlil edilir. “Vətənpərvərlik və xəlqilik B.Adil yaradıcılığında özünəməxsus biçimdə, fərdi poetik keyfiyyətləri ilə birlikdə meydana çıxır” - deyə davam edən şair diqqətimizə

şairin tarixi keçmişimiz və müasir heyatımızla bağlı olan əsərləri təqdir edir, onun poetik məziyyətlərindən, vətənimizin mədəni həyatından, xaricdən gəlmiş səyahətçilərin Azərbaycan mədəniyyətinin böyüklüyündən heyrətə gəldiklərindən poetik söz açır.

X.R.Ulutürkün poeziya, ədəbi-tənqidi görüş və şəxsiyyətinə Orta Asiya xalqlarının ədəbiyyatı da yaxın olmuşdur. Təkcə onu xatırlatmaq kifayətdir ki, şair uzun müddət (1969-1985-ci illər) özbək xalqının böyük oğlu Məqsud Şeyxzadənin həyat və yaradıcılığını əks etdirən doktorluq dissertasiyasını yazıb [189] nəşr etdirmişdir.

X.R.Ulutürk Orta Asiya xalqları poeziyasını proses kimi izləməkdə də maraqlı olmuşdur. Görünür, bu, şairin özbək ədəbiyyatına daha yaxından bələdliyi ilə əlaqəlidir, burada təbii ki, bir qanunauyğunluq da vardır. Çünki o, uzun müddət Azərbaycan - özbək ədəbi əlaqələrinin araşdırılması ilə məşğul olmuşdur.

X.R.Ulutürkü M.Şeyxzadənin həyatı və yaradıcılığı da dərindən maraqlandırmış, ömrünün on ildən artığını Şeyxzadəyə həsr etmişdir. Nəticədə Azərbaycan - özbək ədəbi əlaqələri mövzusunda sanballı tədqiqat əsəri ərsəyə gəlmişdir. O, M.Şeyxzadəyə xüsusi məqalələr də yazıb mətbu orqanlarda dərc etdirmişdir. ("Qardaş xalqın mənəvi sərvəti" [219], "Sənətkar şöhrətinin sirri" [217], "Mədəniyyət iftixarı" [302], "Poeziya xalqın nəfəsidir" [212], "İki xalqın oğlu" [277] və başqaları.

X.Rza özbək şifahi ədəbiyyatının nəğmələr, laylalar, nağıllar, bayatılar, dastanlar kimi janrlarını, "dombra və qopuz ilə həmahəng yaranmış "Alpamış", "Şirin və Şəkər", "Arzu – Gül", "Güldoğmuş", "Yadigar", "Reyhan Ərəb" dastanlarını xatırladır. "Divani-lüğət-it-türk" Mahmud Kaşğarlının kitab sözlüyünün adını çəkir. Sonra diqqəti lirik poeziya ənənələrinə, türk xalqlarının ortaq ədəbi ənənələrinə, fərdilikdə Azərbaycan - özbək əlaqələrinə doğru yönəldir. "Bu iki xalqın ədəbiyyatı eyni tipli

ədəbiyyat olaraq, qaldırılmış və ortaq zəmin üstündə öz inkişafını davam etdirmişdir. Bunun səbəbi təkcə etnik qohumluqda, dil yaxınlığında deyil, həm də iki xalqın əsasən eyni ictimai-siyasi quruluşda yaşamasında, təxminən eyni tarixi-mədəni inkişaf mərhələləri keçirməsində və əsrlər boyu oxşar ədəbi ənənələrə malik olmasındadır” [219].

Şair tarixi qardaşlığın və əməkdaşlığın köklərinə vararaq Əbu Əli ibn Sina, Əbu Reyhan Biruni və Mahmud Kaşğarlının adlarını çəkir, Azərbaycan - Özbək ədəbi əlaqələrinin yüksəldilməsində, habelə, bəşər mədəni fikrinin inkişafında xidmətlərini yada salır.

“Böyük mütəfəkkir Nizami Gəncəvi” məqaləsində Nizamiyə baxış yalnız Azərbaycan mədəniyyəti səviyyəsindəndir. Şair yazır ki, Nizami farsdilli Azərbaycan mədəniyyətinin görkəmli nümayəndəsidir. Buna görə də o, təbii olaraq, yaradıcılığında “fars poeziyasının hüdudlarını genişləndirmiş, bu poeziyaya tamamilə yeni ruh, yeni bir bədii iqlim, yeni bədii meyar gətirmişdir” [222].

Nizami poeziyasının yeniliyi hər şeydən əvvəl saray-mədhiyyə şeirinin hüdudlarını qırmaq, poeziyanı xalq ədəbiyyatına doğru istiqamətləndirmək və onu xalqın xidmətinə verməklə əlaqəli idi. Həmin məsələyə toxunan Xəlil Rza qeyd edir ki, Nizami “anlayırdı və anladırdı ki, böyük və xəlqi poeziya heç vaxt sarayda, yaxud saray mühitinin təsiri altında yarana bilməz və yaranmamışdır” [222].

“Səadət və döyüş” poeziyası” (1981) xalq şairi Süleyman Rüstəm haqqında iri həcmü məqalədir. Ədəbi-tənqidi, ədəbi-publisistik məcra məqaləni mətn boyu iz-ləyir. Onu da qeyd edək ki, X.R.Ulutürkün ədəbi məqalələri xüsusi bir nikbinliklə, yüksək intonasiya ilə yazılır və bizim ruhumuzu öz sakit təmkinindən, ovqatından götürür, tarixi dövrün ab-havasına daxil edir, düşündürür. “Səadət və döyüş poeziyası”nda nikbin pafos məqalənin

ilk sətirlərindən duyulur. “S.Rüstəmin sənətkar xoşbəxtliyi bundadır ki, poeziyasının dərin qatları sağlamdır, bu qatlar xalq amalı, həqiqət, ictimai tərəqqi adlanan anlayışların dirilik suyu ilə yoğrulub” [236].

X.Rza S.Rüstəmin Cənub şeirləri üzərində xüsusi dayanır, yaradıcılığının bu istiqamətinə obyektiv qiymət verməyə çalışır. Qeyd edir ki, “İkinci Dünya müharibəsi çağlarında ordu sıralarında Arazın o tayında olarkən yazdığı əsərlərini Cənubi Azərbaycan və ümumən İran həyatının bədii ensiklopediyası adlandırmaq olar. 35-40 yaşh şairin qələmindən çıxmış qəzəl, qoşma, poema və başqa şeir janrları sanki mürəkkəblə yox, göz yaşı, ürək qanı, nifrət və eşq alovu ilə yazılıb” [236].

X.Rza düzgün qeyd edir ki, S.Rüstəm müharibə mövzusunda yazanda təkcə sovet anlayışı, düşüncəsi çərçivəsində hüdudlanmır, hadisələri məhz bu yöndən dəyərləndirmir, onun fikir aləmində deyək ki, təkcə Stalinqrad döyüşü deyil, “həmçinin özünü Təbrizin, Zəncanın, Sərabın fikir səngərində hiss edən, faşizmin, müstəmləkəçiliyin, qəsbkarlığın bütün gizli və açıq dayaqlarına qarşı döyüşən müasir azərbaycanlı” canlanır [236]. Və ya S.Rüstəm təhsil, dil və mədəniyyət məsələlərindən yazanda milliliyi nə qədər ehtiva etdiyinin parlaq şahidi oluruq. “Bir məmləkətin qapısında” şeirində dəftər-kitabı göz yaşı ilə islanan bir şagirdin portreti canlanır. Bu şagird azərbaycanlı olduğu halda, farsca oxuyur, ana dilli bir məktəbdən məhrumdur”. “Bəs suçu nədir ki, onu döyüb ağladırlar? Sən demə ana dilində danışdığı üçün məktəbdən qovulub” [236].

“Dəymə” şeiri S.Rüstəmin milli azadlıq, istiqlal düşüncələrinin ifadəsi kimi yazılıb, - Xəlil Rza da bu fikirdədir. O yazır: “Yalnız Arazın o tayında deyil, ümu-mən yer üzündə dil və milli istiqlal problemləri həll edildikdən sonra da bu tipli əsərlər öz gücünü saxlayacaq, çünki tarixin müəyyən kəsimində bütün xalqı bürümüş

dəruni yanğının və qüdrətli şair nəfəsinin məhsuludur” [236]..

S.Rüstəm Azərbaycanın milli-mənəvi və ərazi bütövlüyünü düşünmüş, Arazın o tayına həsrətlə boylanmışdır. Hicran motivi onun şeirlərinin ideya leytmotivinə çevrilmişdir. “Azərbaycanın milli və mənəvi bütövlüyü uğrun-da mübarizə, xalqımızm başqa xalqlara məhəbbəti və ictimai tərəqqi uğrunda əlbir döyüş əzmi S.Rüstəm poeziyasının kəhkəşanında ulduzlar yoludur”. “Həsrət çəkirəm”, “Verməərəm” şeirləri həm də əruz vəzninin geniş imkanları seviyyəsində yazıldığı üçün dəyərlidir. “Getmə”, “Qalacaq”, “Yasin əvəzinə”, “Duman bilməz”, “Ürəyimi verərəm” və başqalarının ahəng və intonasiyası həm də bəhri, təfilələri ilə səciyyəvi olub, Güney həsrətini ehtizazlı əks etdirir. Həsrət və nisgil S.Rüstəm poeziyasında qırx illik bir tarixi olan motivdir, ideya-mündəricə məziyyətidir, dəruni bir ehtiras və yaşantıdır. “Sevindiricidir ki, Təbrizdə yaşayıb-yaradan böyük Azərbaycan şairi Şəhriyar və mərhum sənətkarımız Səhənd ilə ən güclü poetik deyişmələr də S.Rüstəmin qələmindən çıxmışdır” [236].

Fikrət Sadıq poeziyasında məhəbbət və nikbinlik çoxdur. X.Rza buna görə də məqaləsini “Ümid və məhəbbət poeziyası” adlandırmışdır [234]. “Vətənin əl boyda daşı” poeması ona görə təqdir olunur ki, xalq rəvayəti əsasında yazılmış bu poemada Mete haqqında əfsanədən, göyqılınc, göydəmir atdan danışılır, - türk sözünə tarixdə olduğu kimi alp-ərən misalında, öz inanc və sevgisi ilə qayıdılır. İdeya da belədir ki, xalq qüdrətinə arxalananda sarsılmaz oluruq.

F.Sadıq yalnız tarixi keçmişimizə üz tutmur, eyni zamanda yaradıcı əməklə məşğul olan müasirlərimizin həyatını, mənəviyyatını, psixoloji aləmini şeirə gətirir. “Uzümçünün yarağı”, “İşıq şerləri”, “Min bir buta”, “Ucadan danışan” şeiriərində nəcib, fədakar insanlar təs-

vir olunur.

F.Sadıq Özbəkistan, Belorusiya, Litva və Macarıstan mövzusunda şeirlər də yazaraq, poeziya xəritəsini genişləndirmişdir.

"İki qüdrət əl-ələ" məqaləsi mövzu və problematikasına görə ciddi məqalələrdəndir. Məqalə dahi H.Cavid dramaturgiyası və onun səhnə təcəssümündən bəhs edir.

X.Rza mövzunun yazılma səbəbi üzərində dayanır; pyesi birinci Dünya müharibəsindən doğan şair qəzəbinin məhsulu kimi alır: "Yarəb, bu cinayət, bu səfalət, bulunmazını nəhayət?!"

Əslində, pyesdə müharibə bir fondur, mühit və insan həmin "fon"da necə görünür? - H.Cavidi də düşündürən budur. Dramaturq anlatmaq istəyir ki, necə mühit olursa-olsun, insan mənliyində, məsuliyyətində qalmalıdır. O, İblisi həmin mühit üçün səbəbkar hesab etməli deyil, onu içindən kənara qovmağı bacarmalıdır. "Pyesdə filosof kimi verilən və içərisində xeyirlə şərin döyüşdüyünü az-çox özü də hiss edən Arif bunu bacarmır, şərin öhdəsindən gələ bilmir?" [253] Cavid məramına görə İblis insanın ikinci mənliyidir. Onun ittihamları yalnız Arifə, yalançı, saxtakar keşişlərə, başqa din xadimlərinə qarşı deyil, bütün bəşəriyyətə qarşıdır!

X.Rza tamaşada pyesin dil probleminə də toxunur. Qeyd edir ki, rejissor Mehdi Məmmədov tamaşa boyu anlaşılmayan bir sıra sözləri sinonimləri ilə əvəz etməyə çalışsa da, bu təşəbbüs bütün hallarda uğurlu alınmamışdır. "Cavidin dilində bugünkü ədəbi dilimizdə işlənməyən "həp", "pək" kimi sözlər belə ciddi estetik funksiyaya malikdir. Baziçə (oyuncaq), budala (səfeh, qanmaz, yel-beyin), qülbə (koma), yen (geyimin qol ağzı), ikindi (günorta ilə qürubu iki bərabər hissəyə bölən çağın adı), irmək (yetmək), yosma (qəşəng), gəbə (boylu), lokante (aşxana), nasıl (necə), nəhy (yasaq), saçma (boş söz), şaqa (zarafat), soqak (küçə) kimi sözlər tarixi-milli kolorit

yaratdığı və yerində işləndiyi üçün toxunulmazdır” [253].

Xəlil Rza iki qüdrət deyəndə Cavid dühası ilə Mehdi Məmmədov sənətkarlığını nəzərdə tuturdu. “Məhz bu iki qüdrət teatrın yaradıcı kollektivi ilə birlikdə İblisi insanın varlığından qoparıb bəşəriyyətə nişan verir” [253].

X.R.Ulutürkün “Əvvəl evin içi” (1985) ədəbi məqaləsi də teatr və sənət məsələlərinə həsr olunmuşdur. Məqalədə Kərim Kərimovun “Çahargah fantaziyası” əsərinin Akademik Dram Teatrında səhnə təfsirindən bəhs edilir. X.Rza peşəkar teatrşünas və ya teatr tənqidçisi olmasa da, o, daha çox mütəəssir olduğu, ideya-məfkurə istiqaməti şair duyğularını, idrakını daha çox hərəkətə gətirən əsərlərdən yazır. “Çahargah fantaziyası” həm rəsmi, məsul şəxsləri, həm də ailə-məişətdə, müxtəlif insan xarakterlərini əks etdirən əsərdir. Qeyd edək ki, məsul, vəzifəli şəxslərə münasibət təbii yox, mühitin, mövcud ideologiyanın səviyyəsindən müsbət planda dəyərləndirilir. RİK sədri işləyən Teymur da belədir. X.Rza qeyd edir ki, bu obraz məsul vəzifə daşıdığına görə mənzil almaq imkanından imtina edir, bu isə ailədə ziddiyyətlər yaradır və onu dəyişdirir. Teymurun yoldaşı Nazilə əri ilə hesablaşmır. Həmin ziddiyyətlərdən atalığı Mustafa, əlaltısı Ağası yarınmaq istəyir. Onlar Teymura müxtəlif vasitələrlə təsir göstərmək istəsələr də, müvəffəq ola bilmirlər. X.Rza təhlil prosesində Teymurun “mənəvi saflıq, prinsipiallıq keyfiyyətlərini, xalqa xidmət keyfiyyətlərini” açır və qiymətləndirir.

“Yaddaşa inam”, “Sanki bir dağ yıxıldı”, “Poeziya cəsurluqdur, bir də...”, “Həyata məhəbbətlə”, “Vaxtdan uca dayanmağı bacaranlar”, “Musiqidən keçən ömür” -1988-ci ilin ədəbi, publisistik məhsullarıdır.

“Poeziya cəsurluqdur, bir də...” məqaləsi Zeynal Vəfanın “Ömrün beşinci fəsli” (Yazıçı, 1987) kitabının nəşri münasibətilə yazılmışdır.

Şair kitabı hər şeydən əvvəl dünyanın mənəvi müvazi-

nəti, tarazlığının pozulmasına qarşı ittiham aktı kimi qiymətləndirir çünki kitabda irəli sürülən ideyalar ictimai-siyasi dəyər və siqləti ilə bunu təlqin edir.

X.Rza Z.Vəfanı ruhuna yaxın bilir, döyüşkən şair hesab edir, "onun əsərlərinin ən yaxşı örnəkləri dramatik özəyə malikdir, bədii konflikt enerjisi ilə doludur" - deyir. "Yalnız bir ölkə daxilində deyil, bütün dünyadakı kəskin ictimai münaqişələri, sosial təzadları iti, ayıq, şair gözləri ilə görür və göstərir. Buna görə də onun nitqi alovlu, yanğılıdır, nəfəsi təndir kimi istidir, sualları bədii sual, nidaları bədii nidalardır" [267].

X.Rzaya görə Z.Vəfa məslək şairidir, ilk hədəfi imperializmdir, şər və eybəcərlikdir, milli satqınlar və nökərlərdir. Bəs milli hadisələr bu poeziyada necə əks olunur? "Lovğa bir rəisin yanına girmək Berlinə girməkdən çətin olubdur", "Adam var tək qalır yeddi otaqda, ailə var bir daxma həsrətindədir", "Yüz altmış addımlıq ana Təbrizə yüz altmış ildir ki, çata bilmirik", "Pulu təlis-təlis aparan qalır, İnsan həbs cdirik qəpiklər üstə" ("Gücölçən")..." [267].

Z.Vəfanın vətəndaşlıq yanğısını dönə-dönə qeyd edən müəllif Azərbaycanın "Dədə Qorqud və Koroğlular -qürur və qüdrət qaynağına, bugünkü Azərbaycanın əxlaqi sərvətinin itirilmək təhlükəsinə - lirik qəhrəmanı narahat edən bu missiyaya münasibətini əks etdirir. X.Rza onun "Ayrılıq olmayaydı" bölməsindəki qüdrətli şeirlərindən də, sevgi əsərlərindən də informativ əsasda söz açır.

"Yaddaşa inam" da ədəbi-tənqidi məqalələrdəndir. O, "Qan yaddaşı" kitabının nəşri münasibətilə qələmə alınmışdır. Məqalə müəllifi öz obyektinin - S.Rüstəmxanlı poeziyasının ideya xəttini müəyyənləşdirməyə çalışır, Azərbaycanın tarixi taleyi, iki yerə parçalanmasının siyasi-sosial köklərini araşdırır. O, şairə olan poetik nəzəri həm də onun "Bütövlük" poeması ilə ifadə edir. "Şimali və Cənubi Vyetnamın birləşib bütövləşməsinə, imperia-

lizm və daxili irtica üzərində tarixi qələbəsinə həsr olunmuş bu poema əslində, həm də Azərbaycanın birliyi ideyasını əks etdirirdi" [265]. X.Rza müəyyənləşdirir ki, S.Rüstəmxanlı poeziyasını daim kəskin ictimai konfliktlər izləməkdədir, "ən gərgin konflikt isə lirik qəhrəmanın mənəvi ucalığı ilə dünyanın mövcud vəziyyəti arasındakı uyğunsuzluqdan irəli gəlir", müəyyənləşdirir ki, poeziyasındakı mühüm keyfiyyət xalq və vətən anlayışları olub, onun poetik nitqində səmimiyyət, ötkəmlik və təsir gücü, məsuliyyətə çağırış ruhu birləşir. Sabir Rüstəmxanlının şeir və poemaları hər şeydən öncə xalqın, ulusun öz mənliyini, böyük və əzəmətli keçmişini layiqincə dərk etmək uğrunda mübarizənin bədii əksidir. "Söndürülmüş ocağın ağısı" poemasında "söhbət qat-qat güclü düşmən ilə təkbaşına döyüşən Kamçatkadan Qara dənizə, Mancuriya hüdudlarından Fin körfəzinədək qanad germiş bir imperiyaya təslim olmaq istəməyən, öz müstəqilliyi və azadlığı uğrunda tək çarpışan bir xan - sərkərdədən gedir...". "Adı çəkilməsə də həssas oxucu onun tarixi şəxsiyyət kimi tanıdığımız Uğurlu xan olduğunu bilir". Məqalənin mənəvi siqləti bir də bundadır ki, X.Rza S.Rüstəmxanlı şeirlerində həm xalqının, həm də ümumən bəşəriyyətin bugünkü vəziyyətini dürüst görür və göstərir.

X.R.Ulutürkün ədəbiyyatımızın folklor, klassik və müasir bədii irsinə, metod və ədəbi cərəyanlar, lirik, epik və dramatik növün janrları, üslub və forma, habelə teatr, tənqid məsələlərinə aid çoxsaylı məqalələri vardır. Bizim məqsədimiz sənətkarın ümumən ədəbi-tənqidi görüşlərini araşdırmaq olmadığından bütün bunlar üzərində dayanmadıq, yalnız ədəbi-tənqidi fikirlərində olan millilik və bə-şərilik xüsusiyyətlərini aydınlaşdırmağa çalışdıq. X.R.Ulutürkün ədəbi-tənqidi görüşlərinin araşdırılması isə ciddi tədqiqatların predmetidir.

## 3.2. Poetik tərcümələrində mental təfəkkür

Xəlil Rza Ulutürk tərcüməçilik sənətinin həm bədii əsasları, həm də nəzəri məsələləri ilə ardıcıl məşğul olmuşdur. Təsadüfi deyil ki, şair həm klassik poeziyanın, həm də bəşər bədii fikrinin ən görkəmli nümayəndələrini dilimizə çevirmişdir. Tərcümədən yüksək bədii keyfiyyət tələbi Xəlil Rzanın sənət missiyası idi. O, başqa xalqların ədəbiyyat nümayəndələrindən yazanda da, həmişə onların milli dildə və kim tərəfindən səsləndirilməsinə xüsusi diqqət yetirmişdir.

X.R.Ulutürk bədii tərcümə məktəbinin tanınmış nümayəndəsidir. Onun tərcüməçilik fəaliyyətini geniş filoloji aspektdə deyil, milli ideal və xalq taleyi probleminin işığında ümumiləşdirməklə kifayətlənirik.

X.R.Ulutürkün arxivi ilə tanış olarkən 1955-1965-ci illərə aid olan seçilmiş tərcümələrdən ibarət olan qovluğa rast gəldik. Güman etmək olar ki, o, tərcüməçilik fəaliyyətinə 1955-ci ildən başlamış və ömrünün sonunadək davam etdirmişdir. İlk tərcüməsi Laptevin "Balacalar" əsərinin tərcüməsi olmuşdur.

Tərcümələrə diqqət edəndə görmək çətin deyii ki, X.R.Ulutürk əsasən azadlıq, istiqlal, millilik, bəşərilik, xalq taleyi məsələləri ilə dolu olan əsərləri dilimizə çevirməyə xüsusi səy etmiş, bu da onun azadlıq, millilik və bəşərilik ruhundan irəli gəlmişdir. Xüsusilə, o, tərcümə etdiyi əsərlərdə özünün zəngin mental təfəkkürünü diqqətdə saxlamışdır.

Özbəkistan KP MK katibi Osman Yusifov II Dünya müharibəsi vaxtı döyüşçülərin, əhvalını ruhlandırmaq, onların vətənpərvərlik eşqini alovlandırmaq üçün özbəklərin milli qəhrəmanı Cəlaləddin Mənquberdi haqqında əsər yazdırmaq fikrinə düşmüşdür. Ona bildirmişlər ki, belə tarixi əsəri Məqsud Şeyxzadə yaza bilər (Xelil Rzanın 9 ocaq 1970-ci il tarixli gündəliyindən) [318].

M.Şeyxzadə Vadil şəhərində iki ay müddətində Cəlaləddin Menquberdi (1944) əsərini yazıb qurtarmış və MK-ya təqdim etmişdir (Pyes 21 may 1961-ci ildə tamaşaya qoyulmuşdur). O.Yusifov əsərin tamaşası üçün sərəncam vermişdir. X.R.Ulutürk memuarlarında qeyd edir ki, əsəri Bakıda da tamaşaya qoymaq istəyirmişlər. Lakin Beriyaya məktublar yazaraq tamaşasına icazə verməmişlər. Guya vaxtilə Mənquberdi gürcülərə "sataşmışdır". Hətta, pyes Stalin mükafatına da təqdim edilmişdi. Lakin az sonra əsər yığışdırılmış, Məqsud Şeyxzadə tutulmuş və 1955-ci ildə bəraət almışdır.

Milli olanın önə çıxarılması zərurəti II Dünya müharibəsinin tələbindən irəli gəlmişdi. Bu baxımdan milli qəhrəmanlar önəm kəsb edirdi. "Çünki düşmən ilə mübarizədə hər xalqın tarixinə, qəhrəmanlıq ənənələrinə, əzm, vüqar səhifələrinə əsaslanmaq gərəkli idi. Çünki bütün xalqların ümumi düşmənə qarşı mübarizəsi həm də hər xalqın öz mübarizəsi idi. Qəhrəmanlar tarixin dərinliyindən, əfsanə, nağıl və əsatir dumanlarından çıxıb bu günə gəlirdilər. Onlar bizə yaxınlaşmaqla biz də onlara yaxınlaşırıq".

"Fərhad və Şirin" (S.Vurğun), "Babək" faciəsi (İ.Selvinski), "Nəvai" (Aybək), "Əlişir" (Q.Qulam), "Cavanşir" (M.Hüseyn), "Əlişir Nəvai" (İ.Sultan və Uyğu) və M.Şeyxzadənin "Cəlaləddin Mənquberdi" əsərləri həmin tarixi-ədəbi zərurətdən yaranmışdı".

Sonuncu əsərdə də qəhrəmanlığın ideallaşdırılması ənənəsi davam etdirilmişdir. Həmin qəhrəmanlar Vətən, xalq səadəti, azadəliyindən kənarda fərdi arzu və istək düşünmürlər. Necə ki, Mənquberdi vətən azad olmayınca şəxsi toy etmək barəsində belə düşünmürdü!

Pyesdə Xəlil Rzanın diqqətini çəkən əsas ideya xalqın obrazlaşdırılması, əsas qohrəmana çevrilməsi olmuşdur. Arxiv materiallarında oxuyuruq: "Burada insanlaşdırma obyekti olaraq xalq həyatı, xalq mübarizəsi və xalq əxlaqı

seçilib. Pyesdə tez-tez səslənən xorlar, Səmərqəndin və Ürgəncin obrazı, Amudərya (Ceyhun), Sırdərya (Seyhun) çaylarının qüdsləşdirilməsi, ney səsinə inam, göyərçinin qutluq (müqəddəs) sayılması əslində xalq obrazının hərtərəfli, dolğun inikasına xidmət edir... Şeyxzadənin təsvirində özbək həyatı ən böyük xoşbəxtlik, ülviyyət və səadət qaynağıdır. Burada manti, ərdab kimi ali xörəklər belə maddi nemətdən daha çox mənəvi nemət kimi dəyərləndirilir” (Arxiv materialları, 9 ocaq 1970) [318].

X.Rza təhlil edir ki, “xalq obrazının açılması və ideallaşdırılmasında xalqı təmsil edən xarakterlər daha böyük yer tuta bilər. Şahzadə Cəlaləddin Mənquberdi, onun bacısı Suitanbəyim, Xocənd hakimi Teyraur Məlik, tarixçi Məhəmməd Həsəvi, el qəhrəmanı çoban Elbars, ruhani İmam Şəhabəddin Xivəli, Ana, divanə, qoca, döyüşçülər, saray və bazar əhli, kütləvi səhnə qaqnaşçıları bütünlüklə xalqı təmsil edirlər (9 ocaq 1970) [318].

X.Rzanın tərcüməsində də xalq obrazı, xalq taleyi ideallaşdırılır. Əsərdə onun əsas daşıyıcıları Cəlaləddin və Teymur Məlikdir. “Mənquberdi qəhrəmandır: həm cismani, həm də zəka qəhrəmanıdır. M.Şeyxzadənin fikrincə, zəka qəhrəmanlığı cismani qəhrəmanlığın yoluna işıq salan bir günəşdir. Cəlaləddin yalnız cismani qəhrəmanlıq göstərən bir kişi olsaydı, bunca təsirli çıxmazdı. Ancaq o, başqalarının görmədiyini görməyə qadirdir, öz düşüncə tərzinə görə filosofdur. Cəlaləddinin zəka qəhrəmanlığı xalqa güvənməsindən doğur. O, köləliyə döz-məyəcək xalqın mənəviyyat okeanlarında tufan qopa biləcəyinə və tufan qoparmağın zəruriliyinə böyük inam bəsləyir. Əslində bu inam onun ruhunda və qanındadır (9 ocaq 1970) [318].

“Mirzə Uluqbəy” pyesinin mövzusu M.Şeyxzadə tərəfindən 1940-cı ildən işlənməyə başlamış, 1959-cu ildə tamamlanmışdır. Uluqbəy (Məhəmməd Torağay (1394 -1449) məşhur hökmdar Əmir Teymurun nəvəsidir. Bu

əsər faciədir. Mirzə Uluqbəy həm tarixdə, həm də bu əsərdə faciə qəhrəmanıdır. Qəhrəman kimi Hamlet, Oqtay Eloğlu, Aydının biridir. O öz mövqeyində bəşəri humanizmin təcəssümüdür. Bu humanizm hökmranlığa iddia edə bilmir. Ədalətli Uluq bəy ədalətsiz quruluşda fəaliyyət göstərə bilmir. Bu daxili münaqişə, dramatizm Uluqbəyin fəci xarakteridir. Bu cəhətdən o natamamdır. Əsərdə onu tamamlayan obraz Zindan piridir ki, o, inqilabçıdır. Uluqbəy isə islahatçıdır. Onu məğlubiyyətə aparan da onun idrak eşqinin böyüklüyüdür. Bu mental təfəkkür keyfiyyəti ona dövlətçilik missiyasını yerinə yetirməyə imkan vermir. Alim, hökmdar və aşiq substansiyaları onun xarakter bütövlüyündə ayrılmalar yaradır. "Elmi diləkləri onu rəsədxanaya çəkdiyi halda, dövlət diləkləri onu taxt-taca doğru çəkir. Fitrətində elmi ehtiraslarının daha böyük qüdrətlə alovlanması Uluqbəyin taxtını laxladır" [172, 47]. Biz Uluq bəyin xarakterini əsasən elmi ilə dini irticanın hökm sürdüyü bir dramatizmdə, özbək dövlətinin əzəmətli fonunda görürük. Bu əzəmət Çin, Hind, Misir, Firəng və rus dövləti elçilərinin qəbulu zamanı daha qabarıq təcəssüm olunur.

Biz əsəri təhlil etmək və ya onun tərcümə keyfiyyətindən danışmaq fikrində deyilik. Məqsəd əsərə ümumi münasibət bildirməklə X.R.Ulutürkün həmin mövzuya müraciətinin səbəblərini və məhz mental keyfiyyətdə olanlara xitabının məna və mahiyyətini nəzərə çatdırmaqdır.

X.Rza "Qardaşlıq çələngi" kitabında 111 şairin əsərini dilimizə çevirib çap etdirmişdir (1982). Bu əsərlər tərcüməçinin 30 illik yaradıcılıq səylərinin nəticəsi kimi ərsəyə gəlmişdir. Dilimizə çevrilmiş həmin əsərlərin ideyası, motivləri milli, bəşəri ideallarla, xalq mənəviyyatı məsələləri ilə bağlıdır. Milli və bəşəri tərəqqi uğrunda mübarizə, vətənpərvərlik humanizm və müstəmləkəçiliyə qarşı istiqlal əzmi həmin əsərlərin başlıca leytmoti-

vidir.

X.Rza 1980-ci illərdə qardaşlıq məramının coğrafiyasını genişləndirmiş və onu dünya meridianları ilə qovuşdurmuşdur. 1984-cü ildə çap etdirdiyi "Dünyaya pəncərə" kitabında o, sülh, azadlıq, demokratiya, istiqlaliyyət, vətənpərvərlik və humanizm ideyalarını əks etdirən əsərləri dilimizə çevirmişdir. Şair bu kitabına yunan, macar, bol-qar, çex, slovak, yuqoslav, alman, fransız, italyan, ingilis, iran, türk, əfqan, hind, Pakistan, Yapon, Koreya, Vyetam, Filippin, Mozambik, Zair, Əlcəzair, Kamerun, Anqola, Seneqal, Madaqaskar, Kuba, Çili ədəbiyyatından nümunələr daxil etmişdir. Şərq bədii təfəkkürü, milli spesifik xüsusiyyətlərdəki müxtəlifliyin birliyi, Qərbi Şərqə bağlayan tarixi amillər X.R.Ulutürkün etnik düşüncə və xalq təfəkkürünün işığında milliləşdirilib Azərbaycan oxucusuna təqdim olunmuşdur. "Manfred"də böyük bədii qüvvətlə meydana çıxan antropomorfizm, insanın təbiətlə vəhdəti Bayronun Şərq mədəniyyətlərini mənimsəmək uğrunda ardıcıl mübarizəsi ilə bağlı deyilmi? Sevgini bəşər cəmiyyətinin başlıca qayəsi kimi qiymətləndirən, bu baxımdan Nizaminin, Füzulinin davamçısı kimi meydana çıxan Şekspir poeziyası da əslində Qərb ilə Şərqi birləşdirmək ehtiraslarından qidalanır. "Xəlil Rza tərcümə etdiyi sənətkarlara yaxından bələd olduğu üçün bu incə cəhətləri həm nəzəri, həm də intuisiya, sezmə qüvvəsi ilə duymuş, qavraya bilmiş, buna görə orijinalla yarışa biləcək poeziya nümayiş etdirmişdir" [213, 6-7].

X.Rzanın "Turan çələngi" (1992; 2005) kitabında isə bütün turan dünyası, onun mənəviyyat qaynaqları bir məcrada birləşdirilmişdir. Kitabda özbək, qazax, qırğız, Krım türkləri, tatar, türk və Azərbaycanın dünya şöhrətli sənətkarlarından örnəklər dilimizə çevrilmişdir. X.R.Ulutürk bütün bu əsərləri, poeziya örnəklərini ən böyük milli sərvət hesab edir. Türkçülüyü, turançılığı isə milli-bəşəri ideallarına, xalqçılıq istiqlalına görə dünya

kimi dəyərləndirir. Ziya Göyalp "Vətən nə Türkiyədir türklərə, nə Türküstan. Vətən böyük və müəbbəd bir ölkədir: Turan", H.Cavid "Turana qılıncdan daha kəskin, ulu qüvvət - yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət" söylədiyi halda, X.R.Ulutürk "Biz türklərik... Vətənimiz - başdan-başa Yer kürəsi, Bayrağımız al günəşdir, çadırımız göy qübbəsi" demişdir.

X.Rza 53 türk sənətkarından: Yusif xas Hacibin "Qutadqubiliy"indən, Səkkakinin "Uluqbəyin mədhi" əsərindən, Ə.Nəvai, Babarəhim Məşrəb, Həmzə Həkimzadə Niyazi, Çolpan, Osman Nasir, Qafur Qulam, Aybək, Həmid Alımcan, Zülfiyyə, Mirmöhsün, Həmid Qulam, Əsqəd Muxtar, Şükrulla, Cüməniyaz Cabarlı, Erkin Vahid, Abdulla Arif, Yusif Şahmənsur, Həlimə Xudayberdi, Gülçöhrə Curayeva, Abdulla Şir, Rəzzaq Əbdürrəşid, Feyzi Şahismayıl, Hadirə Abdulla qızı, Rəhim Bəyniyaz, Xıdır Murad, Məqsud Şeyxzadə, Cəmal Kəmal, Tahir Qəhhar, Dilək Cürə, Əbdülkərim Əhməd, Oljas Süleyman, Ramiz Riskul, Aşıq Ömər, Bəkir Çobanzadə, Abdulla Tukay, Musa Cəlil, Həsən Tufan, Yəhya Kəmal Bəyatlı Arif Nihat Asya, Faruq Nafiz Camlıbel, Məhməd Akif Ərsoy, Dəvdək, Qətran Təbrizi, Nizami, Xaqani, Nəsirəddin Tusi, Saib Təbrizi, M.Ş.Vazeh, Şəhriyar, Q.Bəydili, Rudəkidən qəzəllər, qəsidələr, rübailər, qitələr, müxtəlif formalı şeirlər, radiopyes, faciə və s. vermişdir. Bunlar həm klassik, həm də çağdaş poeziyadan seçmələr olub, özünə bəşər irsinin, turan mədəniyyətinin etnik, xəlqi qaynaqlarını birləşdirmişdi. X.R.Ulutürk bunları ortaq dil, ortaq məkan təfəkkürü və ideya-nəzəri qaynaqlar faktı kimi dəyərləndirmişdir. Bunlar: "eyni tipli ədəbiyyat olaraq qalmış və ortaq zəmin üstündə öz inkişafını davam etdirmişdir. Bunun səbəbi təkcə etnik qohumluqda, dil yaxınlığında deyil... təxminən eyni tarixi-mədəni inkişaf mərhələləri keçirməsində və əsrlər boyu oxşar ədəbi-ənənələrə malik olmasındadır" Həmin poetik

əsərlərə, prinsipcə qiymət verəndə onları müasir dünya hadisələrini qızğın ehtirasla qavrayan, vətəndaş sənətkar mövqeyindən əks etdirən, həmişə realizmə arxalandığı halda, həm də inqilabi romantikaya meydan verən, xalqların xoşbəxt gələcəyi haqqında gözəl xəyallar, böyük arzular bəsləyən, bəşər, xalq taleyi üçün daim narahat olan mütəfəkkir bir yaradıcı" şəxsiyyətin maraq dairəsi ətrafında birləşdirmək olar.

X.Rza şəxsiyyətlərdən, onların fərdi-bəşəri azadlıq keyfiyyətlərindən öyrənmiş, hətta, belə xüsusiyyətlər onun yaradıcılığında da iz buraxmışdır. İlya Selvinskinin keçdiyi həyat yolu və "Babək" pyesinin ideya keyfiyyətləri onu dərindən düşündürmüşdür. Məlumdur ki, Rudəki, Firdovsi, Sədi, Xəyyam, Cami, Cavid və Rəsul Rzanın Selvinski tərəfindən rus dilinə tərcüməçi, həm də ona Şərq həyatı və ədəbiyyatını yaxından öyrənməyə imkan vermişdi. "30-cu illərdən bəri Azərbaycan mədəniyyəti və tarixi ilə ciddi maraqlanan və burada öz bədii ehtiras-larına uyğun gözəllik, qəhrəmanlıq səhifələri tapan Selvinski" nəticədə 1940-cı ildə "Babək" ("Çiynində qartal gəzdirən") faciəsini yazmış və 1946-cı ildə "Sovetski pisatel" nəşriyyatında ayrıca kitabça şəklində çap etdirmişdir. Əsərin azadlıq ideyası, yüksək romantikası, xarakter mükəmməlliyi və əruzda səsləndirilməsi X.Rzanın xüsusi marağına səbəb olmuş və 1970-ci ildə bu əsəri demək olar ki əruzla ana dilinə çevirmişdir. Kitab 1975-ci ildə "Gənclik"də çapdan çıxmışdır. Onun Robert Rojdestvenskidən etdiyi tərcümələrdə azadlıq ideyasına və romantik keyfiyyətinə görə Xəlil Rza marağına səbəb olmuşdur. 1984-cü ildə çap olunmuş "Otuzuncu əsrə məktub" kitabı da X.Rza və Rojdestvenskinin oxşar ruhunun poetik nailiyyəti kimi meydana gəlmişdir. "Məslək", "Yaddaş", "Otuzuncu əsrə məktub" əsərləri prinsipial vətəndaş mövqeyinin təcəssümü, bəşər səadəti uğrunda candan keçən insanları mənən sağ görmək və onlar haqqında saba-

hın, gələcəyin adamlarına danışmaq arzuları baxımından qiymətlidir [156, 5]. Bu əsərlərdə hər şeydən əvvəl X.Rza və R.Rojdestvenskinin “açıq təbliğatçılıq ilə sər-hədlənən coşğun pafosu, patetik ifadə tərzi, ən başlıcası fəal vətəndaş mövqeyi onları doğmalaşdıran cəhətlərdir” [156,6].

X.Rza Ulutürk tərcüməçilik fəaliyyətində orijinaldan çevirməyə üstünlük vermişdir. Onun “Moabit dəftəri” adlı şeirlər silsiləsinin dilimizə tərcüməsi də birbaşa tatarcadandır. Ələkbər Ziyatay və Böyükağa Qasımzadə tərcüməsindən 20 il sonra (1977) X.R.Ulutürk M.Cəlil əsərlərinin 1975, 1976-cı illər dördcildliyinin I və II cildlərindən istifadə edərək, dilimizə çevirmişdir. X.Rza M.Cəlil vətənpərvərliyindən və onun azadlıq eşqindən ruhlanaraq əsərin tərcüməsinə girişmiş və məqsədinə nail olmuşdur. “Bağışla, ey Vətən”, “Azadlıq”, “Quşcuğaz”, “Yalnız, yalnız azadlıq”, “Son nəğmə”, “Ölüm ərəfəsində”, “Sevgilimə”, “Mənim nəğmələrim”, “İgidlik haqqında”, “Azadlıq marşı” şeirlərində, xüsusilə, X.R.Ulutürkün azadlığa, vətənpərvərliyə olan sevgisi aydın hiss olunur. X.Rza çalışmışdır ki, orijinalda ifadə olunmuş ideya-məzmunu: ölüm qarşısında təbəssümünü itirməyən bu iradəli, mətanətli adamın sərt həqiqətiərindən, lirik eti-raflarından doğan ali hisslərin nəğmələrini lazımi səviyyədə qoruyub saxlasın. Tatar xalqının azadlıq ruhunu, əsarət kimi, Almaniyanın bir millət kimi işıqlı gələcəyinə inamı M.Cəlil ifadə etməyə nail olduğu qədər, X.R.Ulutürk də ifadə etməyə çalışmışdır. Bu tərcümələr M.Cəlilin azadlıq, vətənpərvərlik və beynəlmiləlçilik ruhuna daxil olmağa xeyli dərəcədə kömək edir.

X.R.Ulutürkün uğurlu tərcümələrindən olan Y.Balasaqunlunun “Qutadqu bilik” poeması türkdilli xalqların ortaq sərvətidir. Həmin poema birlik və dövlətçilik baxımından əhəmiyyətlidir. Poemanın həm siyasi, həm də ideoloji fikir məzmunu Ulutürkün diqqətini cəlb etmişdir.

Əsərin ana xətti - dövlət quruluşu, dövlət başçısı necə olmalıdır, başçı və rəiyyət, cəmiyyət ilə fərd arasında münasibətlər necə qurulmalıdır, “ayrı-ayrı sinif, təbəqə və zümrələrin əxlaqı, dünyagörüşü, borcu, məsuliyyət dərəcəsi, imtiyazları, Allah və bəndə qarşısında kimin başlıca vəzifəsi nədən ibarətdir? - sualları, ideoloji əsasda dövlət və rəiyyət birliyi, türk dövlətinin düşmən qarşısında sebatı, milli istiqlalını, ərazi bütövlüyünü qoruyub saxlaya bilməsi, ayrı-ayrı tayfalar, xanlar, dərəbəylər arasındakı didişmələrə son qoyulması, vahid cəbhədə birlik ideyaları Ulutürkü düşündürmüş, buna görə poemanı nəzmə çəkmək marağını gücləndirmişdir.

Əsərin bəşəri ideyası ideal cəmiyyət və insanın tərənnümü ilə əlaqəlidir. X.R.Ulutürk həyatda yeganə təsəllini elmi, həyatı, müxtəlif bilik, idrak sahələrini öyrənib mənimsəməkdə, Allahı dərk və Allah eşqində, elmin ibadətində, səadət gətirən elmdə görür. Deməli insan həyatına yalnız elm, idrak gücü “səadət gətirə bilər”. X.R.Ulutürk hesab edir ki, “olduqca qədim tarixə və zəngin ədəbi gələnəklərə malik türk ədəbiyyatı böyük, universal bəşər mədəniyyətinin üzvü bir hissəsidir. Bu səbəbdən də “Qutadqu-bilik”i çağdaş Azərbaycan türkcəsinə uyğunlaşdırmağı lazım bilmiş və tərcüməni 28 mayıs 1994-cü ildə tamamlamışdır. Poema şairin həyat yoldaşı Firəngiz xanım Ulutürk tərəfindən 1998 və 2003-cü illərdə nəşrə hazırlanmış və “Gənclik”də çap edilmişdir. Kitabda şairin “İlk möhtəşəm abidəmiz” adlı ön sözü də vermişdir.

X.R.Ulutürk Azərbaycan klassiklərindən Əfzələddin Xaqani, Qətran Təbrizi, Nizami Gəncəvi, Məhəmməd Nəsirəddin Tusi, Saib Təbrizi, Mirzə Şəfi Vazehi dilimizə çevirmişdir. O, Nizaminin “Sirlər xəzinəsi”, “Yeddi gözəl” və “İsgəndərnamə” əsərlərinin tərcüməsinə də can yanğısı, ilham alovu sərf etmişdir. X.Rza Ulutürkün bədii istedadının nəticəsidir ki, Nizami kimi əzəmətli

mütəfəkkirin dilimizə tərcüməsinə girişmiş və müvəffəqiyyət qazanmışdır.

Şairin arxivində "Sirlər xəzinəsi"nin tərcüməsi ilə bağlı iki rəyə rast gəlmişdik. Onlardan biri Əkrəm Cəfərin, digəri Əbülfəz Hüseynlinindir. Əkrəm Cəfərin rəyinin sonunda 31.XII.1979-cu il tarixi yazılmışdır. Məlum olur ki, Xəlil Rza artıq 70-ci illərdə poemanı dilimizə çevirib qurtarmışdır. Hər iki rəyçi əsərin tərcüməsini yüksək qiymətləndirmiş, iradlarını da bildirərək, çapını lazım bil-mişdir. Əsərin çapı 1988-ci ildə mümkün olmuş və X.Rza kitaba qiymətli ön söz – "Bədii sözün tanrısı" adlı elmi təhlilli məqalə də yazmışdır.

Ə.Hüseynlinin yazdığı rəydən məlum olur ki, qədim nüsxələrdə "Sirlər xəzinəsi"nin həcmi 2250 beyt göstərilmişdir (bunu X.Rza özü 4492 misra göstərir). Dünya kitabxanalarında "Sirlər xəzinəsi"nin saysız-hesabsız əlyazmaları vardır. Bunlardan ən qədim nüsxə Əfqanıstan Dövlət Kitabxanasındadır. Əsər ilk dəfə 1844-cü ildə ingilis şərqşünası Natan Bland tərəfindən Londonda nəşr edilmişdir. 50 dəfə Hindistanın müxtəlif şəhərlərində, Azərbaycan, Orta Asiya, Türkiyə, İran, Əfqanıstan və başqa ölkələrdə dönə-dönə nəşr olunmuşdur.

Poema XIX əsrdə Orta Asiyada və Tatarıstanda qismən tərcümə edilmişdir. Türk dilinə sətri tərcüməsini məşhur türk alimi M.Nuri Gencosman 1964-cü ildə həyata keçirmiş, ona ön söz yazmışdır. Bu, "Sirlər xəzinəsi"nin Ankarada olan üçüncü nəşridir. X.Rza Ulutürk bu tərcüməyə girişərkən yalnız öz istedad və bacarığına güvənməklə yetinməmiş, birinci növbədə elmi-filoloji əməyə arxalanmışdır. O, Nizaminin yalnız bu əsərini deyil, onun ümumən bütün yaradıcılığını, ruhunu, dünyagörüşünü, fikir sistemini öyrənmək, mənimsəmək uğrunda mübarizə aparmış və buna müəyyən dərəcədə nail olmuşdur". Əlyazma şairin arxivində saxlanılır [318].

Xəlil Rza Ulutürk "Sirlər xəzinəsi" poemasını oriji-

naldan, farscadan tərcümə etmişdir, bununla belə M.Nuri Gencosmanın "Sirlər xəzinəsi"nin türkcə sətri tərcüməsindən də faydalanmışdır. "Həm orijinalı, həm də türkcəyə sətri tərcüməni dərindən öyrənməsi, mənimsəməsi Xəlil Rzaya "Sirlər xəzinəsi"ni dərindən qavramağa, Azərbaycan dilinin sehrkar gözəlliklərini nümayiş etdirməyə, qüdrətli və kamil bir tərcümə əsəri yaratmağa imkan vermişdir" [318].

X.Rza heca vəzninin on dördlük bölgüsünü seçsə də, "onun misralarında artıq söz yoxdur, əksinə Nizamini açmaq, onun mahiyyətini aşkara çıxarmaq, XII əsrə məxsus mətləbləri XX əsrin oxucularına yetirmək bacarığı vardır. Yeni bədii tərcümənin mühüm üstünlüklərindən biri budur ki, Xəlil Rza hərfi tərcümənin əsiri olmamış, yaradıcı sənətkar tərcüməçi yolunu tutmuş, tərcüməyə çətin yatan qəliz ifadə və tərkiblərin azərbaycancasını kəşf edə bilmişdir" [318].

X.R.Ulutürk ensiklopedik zəka sahibi N.Gəncəvi irsi ilə dərindən bağlı olmuşdur. Nizami dühasının bəşəriliyi və humanizmi X.Rzanı dahi şairə yaxınlaşdırmış, nəticədə onun lirik əsərlərini, habelə, "Xəmsə"sini dilimizə çevirmişdir. Nizami irsi ilə dərindən maraqlanan ədəbi simalardan biri XVIII əsrin məşhur təzkirəçisi Lütfəli bəy Azərdir. Bu maraq sonralar A.Bakıxanov, M.F.Axundzadə, Məhəmmədəli Tərbiyət tərəfindən davam etdirilmişdir. Ədəbi ictimai maraq isə 1937 - 1938-ci illərə aiddir. Xüsusilə, Nizami əsərlərinin Azərbaycan dilinə tərcüməsi, bu sahədə A.Şaiq, Ə.Əlibəyli, Ə.Vahid, M.Rzaquluzadə, M.Mübariz və H.Araslının tarixi xidmətləri kütləvi-elmi marağı gücləndirmişdir.

M.Rəfilinin "Nizami" kitabında verdiyi bölmələrdən biri "İsgəndərnamə" adlanırdı. Ədəbiyyatşünas yazırdı ki, Qafqaz, Yaxın Şərq və Qərbi Avropa xalqlarının ədəbiyyatı uzun əsrlər boyu dahi şairin təsiri altında qalmışdır. Nizami sənəti bu gün belə dünya ədəbiyyatında misilsiz

bir nümunə sayıla bilər.

XX əsr Azərbaycan nizamişünaslığı H.Araslı, M.İbrahimov, M.Rəfili, M.Quluzadə, Ə.Ağayev, M.Əlizadə, M.Arif, Ə.Səidzadənin timsalında Nizami irsinin öyrənilməsi, tərcüməsi və təbliği sahəsində xeyli iş görmüşdür.

1941-1951-ci illərdə M.Ə.Rəsulzadə "Azərbaycan şairi Nizami" kitabında "Xəmsə" əsərlərindən, o cümlədən "İsgəndərnamə"dən bəhs etmişdir.

Keçən əsrin 80-ci illərində "Xəmsə"nin, xüsusən "İsgəndərnamə"nin Azərbaycan və rus dilinə filoloji tərcüməsi, habele, dünya xalqları dillərinə tərcüməsi, monoqrafiya, elmi-kütləvi kitabların nəşri, tanınmış nizamişünaslar Q.Əliyev, R.Əliyev, M.Cəfər, A.Rüstəmova, X.Yusifov, A.Hacıyevin tarixi xidmətləri Nizami irsinə marağı sürətləndirmişdir.

D.Əliyeva, V.Arzumanlı, S.Turabov, H.Araslı, R.İsmayılov, M.Kazımov, A.Kazımova, Ə.Sərkaroğlu, F.Quliyev və başqaları Nizami və dünya xalqları ədəbiyyatı əlaqələrini araşdırmışdır.

Xəlil Rza Ulutürk də Nizami irsinə məhəbbətlə yanaşmış, Nizami haqqında bir sıra qiymətli məqalələr yazmaqla bərabər, "Sirlər xəzinəsi", "Yeddi gözəl" və "İsgəndərnamə"ni dilimizə çevirmişdir.

Sənətkar 80-ci illərdən başlayaraq "İsgəndərnamə"nin tərcüməsi ilə məşğul olmuş, 20 min misradan artıq olan poemanı dilimizdə səsləndirmişdir. Tərcüməçi bu nəhəng əsərə müraciət etməsinin əsaslarını göstərəndə dahi Nizaminin belə bir poema yazmasının səbəblərini də izah edir və dahi sənətkarın türk, ərəb, fars, yəhudi, nəsrani, pəhləvi, yunan, erməni, gürcü mənbələrinə baş vurduğunu qeyd edir. Sənətkar Azərbaycan ədəbi-tənqidi fikri ilə bərabər, Nizamişünaslığın görkəmli nümayəndələri Y.B.Bertelsin, A.Y.Krımskinin tədqiqlərinə hörmətlə ya-naşmış, makedoniyalı İsgəndərin mənşəyi, "teokratik nəzəriyyənin" əsasları ilə bağlı mənbələri diqqətlə öyrən-

miş və izahlar vermişdir. Nizaminin İsgəndərə əlahiddə yanaşması, onu xilaskar, filosof və peyğəmbər kimi ideallaşdırıb təqdim etməsi, dövrünün və zamanın hökmdarlarına ibrət dərsləri verməsi, mahiyyətin real, empirik deyil, utopik, ideal surətdə dərkinin ifadəsi "İsgəndərnamə"dən gətirilən nümunələr əsasında şərhini tapmışdır.

Xəlil Rza bütün hadisələrdə İskəndərin ağlına, hikmətlərinə diqqət yetirmişdir. Misir, Abxaziya, İsfahan, Babilistan, Çin, Hindistan və başqa yerlərə yürüşlərini tərcümə edəndə də bir ideyanı - dövlətlərarası münasibətlərdə müharibənin fəci, şərəfsiz bir iş olduğunu - Nizaminin ədalətsiz müharibələrə etiraz və nifrətini qabartmışdır.

Nizaminin türkçülüyü İsgəndər və türk xaqanı, vətənpərvərliyi İsgəndər və Nüşabə xətlərində də qabarıq təzahür etdirilmişdir. Bütün bunları məhəbbətlə tərcümə edən şair yazırdı: "Nizami Gəncəvinin vətənpərvərliyi Bərdə hökmdarı Nüşabənin təsvirində, əslində Azərbaycana ayağı dəyməmiş Makedoniya şahının Nüşabə hüzuruna gətirilməsində və 20 min 400 misralıq əzəmətli dastanın ümumtürk stixiyasında xüsusi bir qüvvətlə aşkarlanır" [318].

A.Şaiqin tərcüməsində İsgəndər və Nüşabə qarşılığını, İsgəndərin ideal hökmdar səciyyəsi, onun hərbi yürüşlərdən çox, kainatın sirləri, həyat və ölümün mahiyyəti haqqında düşüncə və mülahizələri Ərəstu, Fales, Bəlinas, Sokrat, Fərfiriyus, Hörmüz və Əflatunun kainat, səyyarələr və yer üzündə həyatın əmələ gəlməsi barəsindəki fəlsəfi fikirləri əslində Nizamini mütəfəkkir kimi tanımağı nişan verirdi və Xəlil Rza da çalışmışdır ki, Nizami mütəfəkkirliyi İsgəndərin timsalında daha çox ehtiva olunsun...

Tədqiqatda biz X.R.Ulutürkün poetik tərcümələrinin mental xüsusiyyətləri ilə bağlı olanlara diqqət yetirdik. X.R.Ulutürkün tərcüməçilik fəaliyyətinin öyrənilməsi xüsusi tədqiqatın mövzusudur.

### 3.3. Publisistikasında milli-mənəvi dəyərlər

X.R.Ulutürk publisistik fəaliyyətə 50-ci illərdə başlamışdır. O, çoxsaylı publisistik məqalənin müəllifi olub, əsasən qarışıq mündəricəli, ədəbi-elmi-bədii səpkili yazıların nümunələrini yaratmışdır.

Respublikanın keçmiş prezidenti, ümummilli lider H.Ə.Əliyevin sərəncamına əsasən (14 noyabr 2002-ci il), şairin publisistik irsinin seçmə nümunələri bir cilddə (V cild) toplanıb redaksiya heyəti tərəfindən çapa təqdim edilmişdir.

Biz tədqiqatımızda X.R.Ulutürkün bədii publisistikasının təhlilini ümumən nəzərdə tutmamışıq. Gələcək tədqiqatlarımızda bu, bir məqsəd olaraq həyata keçiriləcəkdir. Hələlik mövzu-problemin tələbindən irəli gələn vəzifəni - publisistikasında mövzu ilə yaxından səsləşən məsələlərə münasibət bildirməyi və ümumiləşdirmə aparmağı əsas götürmüşük.

Şair 60-cı illərdə "Ən böyük səadət", "Qeyrət vaxtı"dır", "Qızıl gül kimi", "Fərhad kimi oğullar", "Muzey bizə nələr deyir", "Öz nəslinə layiq" məqalələrini qələmə almışdır. Biz həmin məqalələri arxivindən götürüb ilk dəfə şərh edirik. Məqsədimiz onun publisistikasındakı millilik və bəşərilik xüsusiyyətlərini üzə çıxarmaqdır.

X.Rza publisistikasında da özü üçün dərkolunmuş həqiqətlərdən danışmışdır. Xalq müəllimi Yunis Zərgərli və rayon müəllimləri haqqında yazdığı "Ən böyük səadət" məqaləsini köklə, özünüdərklə bağlı olaraq yazmışdır: "Həyatda ən böyük səadət nədir? Ən böyük səadət öz yerini tapmaqdır, yəni elə bir yeri tapmaq ki, orada sənin insanlara, xalqa ən çox xeyrin dəymiş olsun, səni kamala yetirmiş Vətənin borcundan çıxa biləsən. Ömrün qürub çağına alnı açıq, üzü ağ gələ biləsən" (Şairin arxivindən, 1964-cü il) [318].

İlkinliyin, kökün yaddaşı X.Rza publisistikasında ata

ocağından, məktəb məbədindən başlanğıc götürür: "Hər dəfə ata yurduma baş çəkəndə müəllimlərimlə görüşməyi özümə borc bilirəm. Bütün varlığı coşğun enerji ilə qaynayan Ağaməd Mirzəyev ilə, artıq saçları gümüş rənginə çalan, üzündən nur yağan Səfurə müəllimə, od baxışlı, od yerişli Nüsrət müəllim, şax qamətli, açıq alınlı Lütfəli müəllim, gənc olmasına baxmayaraq, rayonda hamının rəğbətini qazanmış Cəfər Mehdiyev, pəhləvan cüssəli, ağ saçlı, ordenli Sahib müəllim ilə məktəbdə, küçədə, yolda, üç-dörd dəqiqəlik söhbətdən belə xüsusi zövq alıram. Axırıncı dəfə Salyana gedəndə onlardan heç birini şəhərdə tapa bilmədim. Hamısı istirahət günü öz şagirdləri ilə birlikdə pambığa getmişdilər. Bakıda A.Şaiq adına nümunə məktəbində oxuduğunuz illəri siz ömrünüzün ən bəxtiyar çağı hesab edirsiniz. Bu, sovet dövründə açılmış birinci Azərbaycan orta məktəbi idi. Elm-ürfan məşəli qaldırmış bu məktəbdə Azərbaycanın ən yaxşı ziyalıları dərs deyirdilər. Həmişə təmkinlə, fəqət duzlu dərs deyən Abdulla Şaiqi, odlu-odlu danışan ədəbiyyat müəllimi, yazıçı Hüseyn Sadiqi, tarix müəllimi yazıçı Qantemiri (Qafur Əfendiyevi), uşaqlar üçün hesab kitabı yazmış Kərim Tağızadəni Siz nə qədər böyük ehtiramla xatırlayırsınız. Hansı bir sənətkarınsa yubiley gecəsində iştirak etməyə gəlmiş, nəfəsini dərə-dərə pillələri güclə qalxan, alnında üzündə tər gilənənən Nəriman Nərimanbəyi, məktəbin birinci məzunlarını bahar qaranquşları adlandıran o müdrik insanın hər bir cümləsi də eynilə yadınızdadır" (Şairin arxivindən, 1964-cü il) [318].

X.Rzanın publisistikasına şairanəlik, güclü bədiiyat, yurd, insan sevgisinin ifadəsi xasdır. "İllər gəlib keçir ömürdən, illər. Biləkdən güc, gözdən işıq aparan illər. Saçlara ağlıq, ömrə şan-şərəf, qocalmış cüssəyə müdriklik gətirən illər nə gözəldir. Bu illəri məna ilə başa vurmaq! Sizin kimi yaşa dolmaq! İndi mən özüm də müəllimən. Ən böyük arzum isə sizin kimi müəllim olmaq, yəni həy-

atda öz yerini tapmaq, yüzlərcə, minlərcə gəncin səadət zirvələrinə dırmandığı yollarda bayraqdar, məşəldar olmaq, öz səadətini, xalqın səadətində tapmaq...həyatda bundan böyük səadət təsəvvür etmirəm" (Şairin arxivindən, 1964-cü il) [318].

X.Rza 60-cı illərin qaynar əmək həyatını romantik, şairanə bir dillə təsvir etmişdir. Onun "Qeyrət vaxtıdır", "Qızıl gül kimi" məqalələri əmək mövzusundadır. "Qeyrət vaxtıdır" (oktyabr 1965) məqaləsi Salyan rayonunun kolxoz həyatı, emək qəhrəmanlığının salnaməsidir. Vətən eşqinin, zəhmətə vurğunluğun poetik ifadəsi olan bu məqalədə X.Rza əmək adamlarının rəşadətindən danışmışdır. "Qızıl gül kimi" (23 may 1965-ci il) məqaləsində Ordubad konserv zavodunun əmək həyatı, insanların zəhmətkeşliyi, sadə, təmiz məhəbbəti ifadə olunmuşdur. "Fərhad kimi oğullar" (17 may 1965-ci il) oçerkində Naxçıvanın duz mədəni işçilərinin ağır zəhmət həyatı, onların işgüzarğılı əksini tapmışdır. Xəlil Rza təkcə əməyin ritmini, ahəngini göstərməmiş, təbiəti, insanlar arasında olan ünsiyyəti, hətta yeri gəldikcə tarixlə (duz mədəni, duzu qırmaq üçün daş baltalanın işlək dövrü və s.) bağlı məqamları canlandırılmışdır. Məqalədə oxuyuruq: "Deyirlər ki, Makedoniyalı İsgəndər şəhərə yürüş edərkən, öz ordusunu məhz bu duz ilə təmin etmişdir. Naxçıvan duz dağından yola düşən dəvə karvanlarının qafiləsi bir tərəfdən Hindistana, Çinə, digər tərəfdən Macarıstana qədər uzanmışdır. Naxçıvan! Sənin şöhrətin yalnız Azərbaycan deyil, bütün "Şərqin duz mədənindən ibarət olsa idi, mən bəlkə də adını çəkəndə bu qədər qürur hissi duymazdım" (Şairin arxivindən, 17 may 1965-ci il) [318].

X.Rza yurd, təbiət sevgisinin ifadəsi olan bu oçerkdə insanlarla onun gözəlliklərini artıran təbiət arasındakı ahəngi, ritmi obrazlı bir dillə ifadə etmişdir. "Avtobusumuz mərkəzi şosse yolundan burulub duz dağa aparan yola sarı dönəndə mən ətrafa göz qoyuram. Başdan-başa

şoran təpələr, nə bir çiçək, nə bir ot görünür, nə bulaq, nə bir quş səsi... Hələ dünən Batabat yaylağını gəzmiş, "Zor bulaq"ın ətrafında göz güldürən gülüstanların seyrinə dalmış, sal qayaların arasından keçə-keçə irəliləyən iti sürətli Naxçıvan çayının sahillərində insan ürəyini sonsuz gözəllik eşqi ilə qanadlandıran mənzərələrin hüsnündən aldığı zövqü hələ də ürəyində yaşadan bir insan üçün bu çılpaq təpələr ilk baxışda cansıxıcı görünə bilər. Bəli, yalnız ilk baxışda. Bir anlıq. Əslində isə Naxçıvan təbiətinə bələd olan, bu təbiətin əlvanlığı və zənginliyi ilə fəxr edən bir insan üçün bu şor təpələr də əzizdir. Elə əslində Naxçıvanın birinci gözəlliyi onun təbiətinin bu cür əlvanlığında və sonsuz bərəkətindədir" (Şairin arxivindən, 17may 1965) [318].

X.R.Ulutürkün bədii publisistikasında milli-mənəvi dəyərlərin qiymətləndirilməsi, yaşadılması duyğusu çox güclüdür. Bu baxımdan onun arxivində saxlanılan "Muzey bizə nələr deyir" (may 1965) məqaləsi səciyyəvidir. Şair xalq rəssamı Bəhruz Kəngərlinin adını daşıyan Naxçıvan Dövlət tarix ölkəşünaslıq muzeyindən bəhs edir: "Bu muzeydə Azərbaycanın ən qədim guşələrindən biri olan Naxçıvanın tarixinə, mədəniyyətinə, etnoqrafiyasına, flora və faunasına, incəsənətinə, ədəbiyyat və memarlığına dair çoxlu eksponatlar, şəkillər, yazılı sənədlər, asari-ətiqə nümunələri vardır". Filologiya elmlər doktoru Yavuz Axundovun dediklərindən: Əlli altıncı ilə kimi bu muzey kiçik bir otaqda yerləşirdi. Onda muzeydəki eksponatların heç bir elmi təsviri yox idi. Bu muzeyin direktoru olan Əbülqasım Sultanov universitetin filologiya fakultəsinin sənətşünaslıq şöbəsini bitirəndən sonra təyinatını elə bura almışdır. Bu muzey demək olar ki, onun çox böyük fədakarlığı, zəhməti sayəsində yaradılmışdır" (Şairin arxivindən, may 1965-ci il) [318].

X.Rza Naxçıvan səfəri zamanı şəhərin muzeyində olarkən onu dərindən öyrənmiş, məqalədə milli-mənəvi

dəyərlərimizi təfərrüatlı canlandırmışdır. Azərbaycanın fauna və florasına aid nümunə: "Naxçıvanın bitki və heyvanlar aləmi salonda geniş nümayiş etdirilir. Ağzı qara şirdən tutmuş qamışlıq içində qabana, Naxçıvanın əbədi zinəti olan göyərçinlərə, kəkliklərə, qırğılara, ördəklərə qədər burada müxtəlif heyvanların və quşların müqəvvaları vardır" (Şairin arxivindən, may 1965-ci il) [318].

Məqalədə təsvir olunan panoram hər məqamda tarixlə bağlantılıdır. Etnoqrafiya, arxeologiya öz xüsusiyyətləri ilə tarixə yoldaşlıq edir. Oxuyuruq: "İnsanın mənşəyinə dair elmi fikir yürüdən böyük fikir korifeylərinə dair verilmiş məlumatlar muzeyə gələnlərdə geniş təsəvvür yaradır. İnsan bədəninin quruluşuna dair dini təsəvvürləri təkzib etdiyi üçün inkivizasiya yolu ilə məhv edilən məşhur XVI əsr anatomu Andreas Bezaliy, həmçinin 1553-cü ildə İsveçrədə protestant ruhaniliyi tərəfindən tonqalda yandırılmış böyük təbiətşünas ispan təbibi Muqel Servet əsrlər dalından bizə baxır" (Şairin arxivindən, may 1965-ci il)[318].

Təbii maddi sərvətlərin muzeydə yer tutan növləri Naxçıvanın müəyyən abidələrinin zənginliyindən xəbər verir: "Vulkan ağzından maye halda çıxıb sonra kristallaşmış mavi rəngli şüşə, daş duz üzərində qızıl rəngli kürəciklər parlayan mis külçəsi, molibdən, mərmər, kvarts, qravit nümunələri bu torpaqdakı sərvətlərin hamısını əhatə etmir. Ağ buğda, Qara sünbül, Qırmızı buğda, barama, tütün muzeyə gələnlərin gözü qabağındadır" (Şairin arxivindən, may 1965-ci il) [318]. Fakt və tarix məqalə boyu davam etmişdir: "Bax bu şüşə vulkan ağzında gəlib, Sirab dağlarından tapılmışdır. Bu isə Sirab mərməridir. Bu mərməri Moskva, Leninqrad zərgərlik emalatxanaları Naxçıvandan sifariş yolu ilə aparırlar. Bundan ən gözəl muncuqlar, zərif qələmdanlar, mürəkkəb qablar hazırlanır. Mis külçəsi bizdə Vayxır dağlarının ətəklərindədir. Molibden Parağaçay mədəninin əsas sərvətidir. Duzu özün görmü-

sən. Batabat torfunun bizdə xüsusi yataqları var. XVIII əsrin geoloji xəritəsini mən Moskvada Dövlət Tarix Muzeyinin xəritələr şöbəsində görmüşəm. Orada Yuxarı Əylis kəndinin daş kömür yatağı xüsusilə qeyd olunmuşdur. Bu kömür parçası həmin yataqdandır. Hələ demək olar ki, öyrənilməmişdir" (Şairin arxivindən, may 1965-ci il) [318].

Xəlil Rza etnoqrafik nümunələri xatırlada-xatırlada sanki yaddaşımızı, özümlüyümüzü dərinləşdirir: "Naxçıvan təbii sərvətlərinin müxtəlifliyi cəhətdən Azərbaycanın Uralı adlana bilər. Bax, bu qoz ağacının bir parçasıdır. Naxçıvanın dağ rayonları və xüsusilə, Ordubad qoz ağacları ilə zəngindir. Naxçıvanın taxta sənətkarları çox qədimlərdən məşhur olublar. Cahanşümul şöhrət qazanmışlar. Naxçıvanda meşə olmadığından bu sənətkarlar taxtaya həmişə qənaət etmişlər. Zərif naxışlar ilə üzərində işlədikləri qoz ağaclarından onlar şəbəkələr, qəndab qaşıqlar, beşiklər hazırlayıblar. Naxçıvanın təbii sərvətlərini öyrənən alimlərimizdən ən məşhuru akad. Əzizbəyov, Mirəli Qaşqay, prof. Əsgərov olmuşdur" (Şairin arxivindən, may 1965-ci il) [318].

İnformasiya-məlumat məqalə boyu tarixi keçmişin faktlarıyla yüklənir. Kültəpə, Şortəpə, Qızılvəng, Şahtaxtı maddi-mədəniyyət nümunələri ilə bağlı qeyd olunur: "1926-cı ildə akad. Meşşaninovun başçılığı ilə Azərbaycanı öyrənmə cəmiyyəti işə başlayarkən, qədim monastr ətrafında tunc dövrünə aid bir neçə məzar açılmış, bu qəbirlərdən qaytanabənzər gil qablar, üzəri həndəsi naxışlarla örtülmüş su qabları, parçlar, çölməklər tapılmışdır. 1927-ci ildə prof.Miller həmin qazıntı zamanı müəyyən etmişdir ki, Qızılvəng məzarları tunc dövrünü Zaqafqaziyada əks etdirən ən görkəmli abidələrdəndir. 1936-cı ildə Azərbaycanı tədqiq edən Ələsgər Ələkbərov Naxçıvan MSSR ərazisində dərin tədqiqat işi apararaq, Naxçıvanı rəngli qablar istehsalının vətəni adlandırmışdır.

Onun Şah taxtında tapdığı müxtəlif rəsmlərlə müəyyən qablar dünya incəsənət tarixi kitabında ayrıca yer tutur. Onun İliç rayonunun İbadulla kəndində Şortəpə adlanan yerdə kəşfiyyat zamanı tapdığı müxtəlif rəngli qablar müxtəlif həndəsi naxışlarla örtülüdür. Ələkbərovun tapıntılarından biri küpün ağzında insan başı heykəlini təsvir edir. Ələkbərovun iri buynuzlu mal-qara başının heykəli hesab etdiyi eksponat əslində sarayın bir tərəfidir. Bunu arxeoloq Osman Həbibullayev 1960-cı ildə öyrənmişdir. 1952-ci ildən Naxçıvanda aparılan tədqiqatlar göstərir ki, bütün Zaqafqaziyada elmi mahiyyətə görə Naxçıvandan 8 km aralı olan Kültəpə maddi-mədəniyyət abidəsi ən əhəmiyyətlisidir. Bu otağın özü, "Dəvəgözü" adlanan şüşədən hazırlanmış bıçaqlar, taxıl döymək üçün dən daşı, heyvan başı fiquru, küpə ağzı və sair şeylər Kültəpədən gətirilmişdir. Kültəpə bir xəzinədər. Bu xəzinə nəinki Naxçıvanı-Azərbaycanı, həmçinin Qafqazı öyrənmək üçün açardır" (Şairin arxivindən, may 1965-ci il) [318].

Tarix və milli məsələlər: Prof. Mehdi Nəcəf oğlu Sultanov X.Rza, Y.Axundov və M.Sultanovla söhbətlərində ermənilərə, ruslara olan münasibətində guya "solçuluq" hərəkətlərinə yol verdiyinə etiraz əlaməti olaraq deyir: "Mən necə ifrata varmaya bilərəm ki, onlar bizim atalarımızın kürəyinə qaynanmış samovar bağlayıblar, - deyə Mehdi cavab verir. - Andronikin əsərlərindən ikisi bulaq başına gedən hamilə bir qadını görəndə mübahisə ediblər ki, görəsən ana bətnindəki oğlandır, yoxsa qız? Qatı şovinizm ilə zəhərlənmiş əsgərlərdən biri qılıncı çəkib ananın bətnini yarır: - Görürsənmi, - deyir, - bu, gələcək türk əsgəridir, oğlan uşağıdır. Vəhşiləşmiş əsgərlər qəh-qəh çəkib gülürlər. Hələ mən öldürülmüş anasının döşünü axtarın cocuğun südlü dodaqlarına keçirilən daşnaq süngüsünü demirəm" (Şairin arxivindən, may 1965-ci il [318].

Tarix arxioloji təsvirlərdə: Əbdülqasım Sultanov: "Bu

vaxtacan gördüklərimiz Millerin tapıntıları idi. Bundan belə isə öz tapdıqlarımızdır. 1959-cu ildə İliç rayonunun Daşarx kəndindən mənə belə bir məlumat gəldi ki, qazmtı vaxtı orada küpə çıxır. Getdim. Yeri qazdıq. Ağzı qapaqlı yeddi küpə çıxdı. Qapaqları tərsinə çevirəndə qənddana oxşayır. Bunlar eramızdan əvvələ aiddir. Onda insan öləndə yandırıb külünü bu küplərlə basdırırlarmış. Hər küpənin üstə üç deşik var. Külpəni deşib, sonra bişiriblər. Mərhumun ruhu bu deşiklərdən çıxıb azad olmalı imiş. Bu süngünü Qarabağlar kəndindən tapmışam. Bürünc ilə misin qarışığından yaranıb. Tunc-mis dövrünə aiddir. İçərisi insan sümüyü ilə dolu bu küpəni isə Naxçıvanda kanalizasiya tikintisi zamanı 3 metr dərinlikdən çıxarmışıq. Belə çıxır ki; meyidi xaş kimi bişirib sümüyünü bu küpəyə doldurmuşlar" (Şairin arxivindən, may 1965-ci il) [318].

Memarlıq mədəniyyəti tarixindən: Məqalədə milli-mənəvi dəyərlərimizlə bağlı fikirlər də qiymətlidir. Deyirlər: "Memarlıq abidələrini seyr edirik. Xalq ustaları, memarları yetişdirən Naxçıvan memarlıq məktəbi memarlıq tarixində çox parlaq bir hadisədir, - deyən B.B.Denike qəlbimizdə iftixar oyadır. Əliheydər əlavə edir ki, dünya realist memarlıq məktəbi Naxçıvandan başlanmış, onun dahi ustadı, atası isə Əbubəkr oğlu Əcəmi Naxçivani olmuşdur. XII əsrdə yaranmış və öz şöləsilə bütün Şərqi incəsənət nuruna boyamış, insanlığı ilk dəfə olaraq, nik-bin duyğularla qanadlandırmış Naxçıvan memarlıq məktəbinin tələbələri bu şöhrəti diyar-diyar yaymışlar. XIII əsrdə Səmərqənddə, XIV əsrdə Hindistanda, XVI əsrdə isə Misirdə yaradılmış memarlıq abidələrində Naxçıvanın memarlıq möhürü vardır" (Şairin arxivindən, may 1965-ci il) [318].

Məqalədə Möminə xatun türbəsi ilə bağlı fikirlər də qiymətlidir: Deyilir: "Sən bir fikir ver Möminə xatun məqbərəsinə. Bu möhtəşəm abidəyə baxanda sənətkarlıq-

la vurulmuş naxışlar insan ürəyində vahimə, bədbinlik, qorxu deyil, işıqlı duyğular oyanır. Bu abidə insana yüngünlük gətirir. Lirikadır. Poeziyadır. Abidə gülür. Abidə insanı yaşayıb, yaratmağa çağırır. Bu kaşıların kimyəvi tərkibi hələ müəyyən edilməyib. Hindlilər apardılar. Beş ildən sonra xəbər verdilər ki, tapa bilmədik. Təəccüblü budur ki, səkkiz əsrin tufanında yağışa, qara, günəşə, zamanın keşməkeşlərinə məruz qalan bu kaşıların hələ rəngi solmayıb. Bu, mina rəngidir. Əcəmi gör nə boyda sənətkar olub ki, nəinki astronomiyanı, poeziyanı, coğrafiyanı, yer kürəsinin quruluşunu, xəttatlığı, dini elmləri, həmçinin kimyanı, həndəsəni, nücumu gözəl bilib. Mömünə xatun məqbərəsinin xüsusi özülü vaza tiplidir. Nəinki kaşının, həmçinin minanın da tərkibini hələ aydınlaşdıra bilməyiblər...

-Fikrət müəllim, deyirlər ki, Naxçıvana kaşı kənardan gətirilib, siz buna necə baxırsınız?

-Bir müddət bu məsələ mənim üçün də qaranlıq olub. Amma sonra zay olmuş kaşı külçələri tapanda bildik ki, burada böyük kaşı kürələri olmuşdur. "Biz gedirik, bəşər gedir, bu qalır". Əcəmi Mömində xatun məqbərəsi üzərində bu sözlərlə yazmışdır" (Şairin arxivindən, may 1965-ci il) [318].

X.R.Ulutürk 60-cı illərdən başlayaraq Azərbaycanın milli-mənəvi dəyərlərini daha çox təbliğ etmişdir. "Sumqayıtın günəşi" (15 fevral 1963), "Rüstəmin dilindən" (17 sentyabr 1963), "Nəğmə kimi ötən günlər"(12 dekabr 1963) və başqa məqalələri Azərbaycanın təbiəti, Tovuz, Astara, Qazax, Sumqayıt rayonlarının əmək həyatı ilə batlıdır. Qazax, Tovuz, Ağstafanın məktəb, muzey, rabitə, ədəbi dernək həyatı ilə tanış olmuş sənətkar publisistik təfərrüatlara varır, həmin bölgələrin təsərrüfat, mədəniyyət sahələrinə onların insanları ilə birlikdə nəzər salır və fəal jurnalist mövqeyi ilə seçilir.

X.Rzanın "Nəğmə kimi keçən günlər", "Gözəlliyin

keşiyində", "Bahar-bahar" məqalələri Sumqayıt, Lənkəran, Astara bölgələri ilə bağlıdır. Lənkəran-Lerik boyunca olan talış meşələrinin gözəlliyindən vəcdə gələn sənətkar bu yerlərin təbii koloritindən, etnoqrafiyasından, sərvətlərindən təfərrüatlı bəhs edir, oranın əmək adamlarından danışır. "Bahar-bahar" (aprel 1964) məqaləsində oxuyuruq: "Lənkəran zonasının meşələrində əksəriyyəti fısdıq və vələs təşkil edir. Lakin buradakı iqlim geoloji eranın üçüncü dövrünə aid bir sıra ağac cinslərinin indiyə kimi qalmasına imkan vermişdir. Bizdə elə ağaclar var ki, nəinki Zaqafqaziyada, hətta dünyanın heç bir yerində onlara təsadüf edilmir: dəmirağac, şahpolad, yarpaqpalıd, gülətrişim, Xəzərşeytanı ağacı, iriyarpaqlı mürdəşər təbiətdə nadir tapılan ağaclardır. Hələ sənin bu yerlərə payızda yolun düşə, görəsən ki, bu meşələr meşələrdir, ya rənglər dənizi. Dəmirağac elə bir görkəm alır ki, deyirsən al şəfəqlər içində alışıb yanır... Qırmızı, sarı, çəhrayı rənglərin qarışığından yaranmış bir məşəl kimi şölə çəkir" (Şairin arxivindən, aprel 1964-cü il) [318]. X.Rza palıdların, meşələrin qırılmasına qarşı çıxır, sonra həmin yerlərin kənd koloriti, idilliyasından bədii "dekorlar" verir. Onun təsvirlərində Kərgələn, Şahlakre, Qurumba, Narbağı, Ruvo, Mollakənd, Şövu kəndləri özünəməxsus təbiəti və sərvətləri ilə canlanır. "Həmişə gənclik içində" (1965) məqaləsinin mövzusu gənclikdən: Mirzə Cavad və Rəfiqə xanımın məhəbbəti, işə münasibəti vətəndaş mövqeyindən, "Qızıl gül kimi" (23 may 1965-ci il) məqaləsi Ordubad bölgəsinin təbiəti, təsərrüfat və mədəniyyət həyatından, "Bütün bəşəriyyəti qucaqlaya biləydim" (1965) məqaləsi vətəndaşlıq borcundan, bütün Yer kürəsini qorumaq məsuliyyətindən söz açır. Axırıncı məqalə milli-mənəvi dəyərlərin təbliği baxımından daha güclü təsir bağışlayır. Şair yazır: "Yer üzündəki sonsuz gözəllikləri, yer üzündəki bütün Ermitaj və Luvr xəzinələrini, Titsian Veçelmonun fırçasından çıxmış sənət mirvariləri-

ni, Füzulinin və Şekspirin yaratdığı poeziya kəhkəşanlarını, İbn Sinadan tutmuş üzü bəri bütün təfəkkür korifeylərinin ürəyindən, gözlərindən süzülən əbədi işığı qorumaq bizim borcumuzdur" (Şairin arxivindən, 1965-ci il) [318].

X.Rza bu məqalədə xalqların, millətlərin azadlıq amalından danışaraq yer üzündə mövcud olan terrorizmi, genosidi pisləyir və buna qarşı dünya xalqlarının birliyi, məhəbbəti ideyasını qoyur. Müəllif davam edir: "Vaxtilə cuhudları, lehləri, rusları qırmaq uğrunda dəridən-qabıqdan çıxan Hitler genosidlərinin ardınca indi təzə genosidlər dəstəsi yaranmışdır. Amerika Birləşmiş Ştatlarının yerli əhalisi, köklü-köməcli vətəndaşları olan hindliləri qıran, yaxud ən azı qırmaq uğrunda mübarizə aparan, onları məhsuldar torpaqlardan sıxışdırıb ən yoxsul həyat məskənlərinə doğru çəkən, vaxtilə 600-dən çox olan hind qəbilələrinin sayını indi 200-ə endirən, yalnız Vyetnamda deyil, həmçinin bütün Cənub-Şərqi Asiyada dalğa-dalğa yüksələn azadlıq hərəkatını qan dənizində od və qurşun gücünə boğmaq istəyən, Amerikada qara rəngli insanların sayını düşünülmüş plan əsasında 13 milyon "ixtisar etmək" uğrunda canfəşanlıq edən, Cənubi Amerika respublikasında son bir ildə dörd yüz mindən artıq vətənpərvəri "dama basan", azadlıqdan məhrum edən Anqolada Salazar rejiminə, Portuqaliya müstəmləkəçilərinə qarşı üsyan qaldıran vətənpərvəri cilovlamaq bəhanəsilə bütöv şəhərləri yer üzündən silən, 200 mindən artıq anqolalını qıran genosidlər... bəşəriyyət sizi lənətləyir, sizin qanlı qara əllərinizi nifrət divarına mıxlayır" (Şairin arxivindən, 1965-ci il, yanvar-iyul qovluğu) [318]. Bu meqalə 1 may 1965-ci ildə "Azərbaycan gəncləri" qəzetində "Salam yer kürəsinə" adı ilə çap olunmuşdur.

X.Rzanın 60-cı illər məqalələrinin mövzusu müxtəlif səpkilidir. Şair həm insan mənəviyyatından yazır, konkret insanları portretləşdirir, ona bədii oçerk səciyyəsi verir, gah təbiətdən, gah da konkret tarixi şəxsiyyətlərdən söz

açır. “Göygöl kimi saf, gözəl” məqaləsi həkim Zəhra Salayevanın M.Müşfiq barəsində dedikləri, “Kəklik çolpaları”, “Bir salxım üzüm” məqaləsi oğulun təbiətə aludəliyi, “Qoşqarçay axan yerdə” məqaləsi Daşkənd şəhərinə heyranlıq, “Oğurlanmış dahi” məqaləsi M.Ş.Vazeh, “Qayalar kimi qüdrətli” məqaləsi Qobustan qayaları və onun tədqiqatçısı İsaq Cəfərzadə haqqındadır.

X.Rza publisistik məqalələrinə geniş şərh, izah səciyyəsi vermir, daha çox qarşı tərəfi danışdırır, informasiyanı özündən və qarşı tərəfdən ötürür, obyektivliyi, elmiliyi və tarixiliyi gözləyir. “Qayalar kimi qüdrətli” məqaləsi bu baxımdan səciyyəvidir.

Məqalədə tədqiqatçı İ.Cəfərzadə qayaları dilə gətirir, onları danışdırır. Hər bir elmi məntiq Azərbaycan mədəniyyətinin qədimliyindən soraq verir: “İbtidai insan keçinin belini xətt ilə kəsib, başqa sözlə desək özünün cadusu edib ki, qalib gəlsin. Maraqlı profil çəkib, buynuzlarını isə fas verib. Rəssamlıq tarixində fas ilə profilin bu cür ahəngdar vəhdəti qədim hadisədir və burada daha çox qədimlik Azərbaycana, Qobustana məxsusdur. Müasir ehramları, sarayları önündə qoyulmuş heykəllərdə də belə bir xüsusiyyət var: bədən, baş profildən verilir, döş isə fas. O zamankı rəssamlığın əsas cizgilərindən biri belədir. Maraqlıdır ki, bu cür xüsusiyyətlərin hansı, ölkələrdən hansına keçmişdir? Misirdən Azərbaycana, yoxsa bizdən Misirə? Əlbəttə, ikincisi. Qobustan qayalarındakı rəsmlər Misir muzeyi nümunələrindən daha qədimdir” (Şairin arxivindən, 5 may 1966-cı il) [318].

X.Rza ilə İ.Cəfərzadə arasında maral və qaraquşla bağlı davam edən dialoq sonra “günəş gəmisinə” doğru yönəlir. İ.Cəfərzadə deyir: “Belə gəmilər Misirdə çoxdur, - misirlilər bunu günəş gəmisi adlandırırlar. Guya bu günəş ruhları o dünyaya aparır. Əlbəttə, bunlar islamiyyətdən çox-çox qabaqkı dövrə aiddir. Qobustan qayalarının Misir abidələri ilə səsləşməsi maraqlı hadisədir, bu

müqayisələr elmi nəticələrə aparıb çıxara bilir. Misirə bu mədəniyyətin Liviyadan, Liviyaya isə Saxaradan keçməsi haqqında fikirlər var. Bu barədə ətraflı məlumat almaq üçün Q.Linde və E.Bretşneyderin “Do prixoda beloqo çeloveka” kitabını oxumaq olar. Skandinaviyada Buquslen qayalarında da günəş gəmisi fəsilləri vardır. Orada 15-20, bizdə isə 30 günəş gəmisi var. Bizimkilər daha qədimdir. Bunu ondan bilmək olur ki, burada adamlar sadə xətt ilə çəkilmişlər, həm də silahsız. Lena çayı boyunda, Şişkin çaylarında da belə gəmilər az deyil, amma günəşsiz. İslandiyada, Fransada, Alp dağında, bütün Sibirdə bu cür gəmilərə rast gəlmək olur. Ancaq heyf ki, günəş gəmiləri lazımınca tədqiq olunmamışdır, mənası tam açılmamışdır” (Şairin arxivindən, 1976,-VII-VIII-IX cild) [318].

Məqalədə Qaraquşla bağlı rəsmlər də mənəvi dəyərlərimizin qədimliyindən, totemizm dövündən xəbər verir. Ən qədim etiqadlarımız barəsində ilkin məlumatları da Qobustan qayaları deyir. Məqalədə oxuyuruq: “Qaranquş vasitəsilə totem olmuşdur. Onun ziyarətinə getmişlər. Qaradağın üstündə haçadağ var. Ruslar ona “Bakinskie uşi” deyirlər. Azərbaycanlılar isə onun bir haçasını Kərkəs, o biri haçasını Şonqar adlandırırlar. Başında tükü olmadığı üçün bizdə Kərkəsə həmişə keçəl Kərkəs deyirlər. Şonqar kimi o da müqəddəs quş sayılır. İndi fakir vermək lazımdır ki, o dağın başında ziyarətgah varmı? Ehtimal üzrə belə ziyarətgahlar olmalıdır. Qəribədir ki, Misir kosmosunun təsvirində də baş-başa yaşayan qaraquş şəkilləri, dənizdə üzən balıqların əksi vardır...

Bizdə Cingirdağ, Yazılı təpə, Kiçikdaş dağı müqəddəs sayılır. Cingirbabaya uzun müddət ziyarətə gəliblər. Baba sözünün mənası “pir” deməkdir. Cingir baba - yəni Cingirpir. Cingirdağda Sarıbaba, Sofihəmid pirləri də vardır. İlanvuranları sağaltmaq üçün Sofihəmid pirlərinə aparırlar. Orada bir daşın üstündə bu cümlə həkk olunmuşdur. Umad Şaki dua qoftrət (“Umad Şaki dua edib getdi”) (Şai-

rin arxivindən. 1967, VII-VIII-IX cild) [318].

Məqalə ciddi həqiqətlərin qaya yaddaşını oyadan faktlarla zəncindir. Məqalədə daha sonra oxuyuruq: "Daşlardan birinin üstündə bu sözlər yazılmışdır: İmperator Domitiano Sezar Avqust. Germonik. İyulius. Maksimum Legion XII. Fulminat. - Domitian Roma imperatoru olmuşdur. Senat ilə hesablaşmayan böyük hökmdar hakimi mütləqmiş. Arvadının əli ilə öldürüldükdən sonra Domitianın adı ilə bağlı olan bütün izlər, nişanələr imperiya hüdudları daxilində məhv edilmişdir. Əgər Azərbaycanda Domitiananın adı ilə bağlı bu daş salamat qalıbsa, bu o deməkdir ki, Azərbaycan o zaman Roma imperiyasından asılı olmamışdır. Roma sərkərdəsi bura öz ordusunu göstərmiş, ancaq uzun müddət duruş gətirə bilməmişdir. Yalnız yadigarını qoyub getməyə macal tapmışdır. Belə bir daş başqa bir qüdrətli millətin, tutaq ki, gürcülərin əlinə düşsə, onu göz bəbəyi kimi mühafizə edərlər... Görəsən romalılar nə üçün məhz Qobustandan gəlib keçmiş-lər? Bəlkə o zaman məşhur olan Şamaxıya doğru gedirlərmiş. Bəlkə bulaqları olduğuna görə burada düşərgə salmışlar (Şairin arxivindən. 1967, VII-VIII-IX cildlər) [318].

X.R.Ulutürk 6 noyabr 1968-ci ildə "Niyazi düz deyir" adlı məqalə yazmış və həmin məqaləyə görə çox incidilmişdir. O, bu məqaləsində "xanım", "bəy" sözlərinə mənəvi dəyər verir və işlədilməsini təklif edirdi. Bütün başqa soyad şəkilçilərimizə qarşı "lı, li, lu, lü" şəkilçilərini qoyurdu. Məqalədə deyilirdi: "Cəfər Cabbarlı, Firudin bəy Köçərli, Ənvər Əlibəyli, Əfrasiyab Bədəlbəyli, Şəm-si Bədəlbəyli, Fərhad Belədbəyli, Fəridə Əliyarbəyli, Mikayıl Rəfili, Nigar Rəfibəyli, Novruz Gəncəli, İslam Səfərli, Əliağa Kürçaylı kimi ad və sayadlardakı gözəlliyə, biçim səliqəsinə fikir verin. "Li" şəkilçisi fonetik maneəyə rast gələndə (Məs. Əlili demək yaxşı səslənmir), "bəyli" şəklini işlətmək xalq zövqünə və xalq dilinə

tam uyğundur” (Şairin arxivindən. Xəlil Rza Xəlilbəyli. 6 noyabr 1968-ci il) [318].

60-cı illərin ikinci yarısında yazılmış ədəbi-publisistik məqalələr böyük insanlar və tarixi şəxsiyyətlərlə bağlıdır. “Pofessor Əkrəm Cəfər danışır” (5 dekabr 1969-cu il) məqaləsi Əkrəm Cəfər, “Qızıl gül düşür yada” (8 dekabr 1969-cu il) məqaləsi prof. Abbas Zamanov, “Yusif Ziya Şirvanlı” (20 dekabr 1969-cu il) məqaləsi Y.Z.Şirvanlı, “Səidə-xoşbəxt deməkdir” (4 dekabr 1969-cu il) məqaləsi M.Şeyxzadənin bacısı Səidə xanım Şeyxzadə, “Saz və tüfəng ilə” (1967) məqaləsi Laçınlı şair Səyyah Məhəmməd, “Səngərdə doğulmuş sətirlər” (1 may 1967-ci il) məqaləsi müharibə veteranı, Qafqaz, Ukrayna, Belarusiya və Polşada döyüşən Əhməd Əhmədov, “Öləndən sonra da yaşayır insan” (5 fevral 1969-cu il) məqaləsi şair İlyas İbrahim, “Unudulmaz saatlar” (noyabr 1968-ci il) məqaləsi Hökumə Bülluri, Söhrab Tahir, “Əyyub Şirinzadə” (24 dekabr 1969-cu il) məqaləsi Ə.Şirinzadənin M.Şeyxzadə ilə dostluğu, “Şairin sevgilisi” (30 dekabr 1969-cu il) məqaləsi M.Şeyxzadənin həyat yoldaşı Səkinə xanım Şeyxzadə, “Ənənə qol-budaq atır” (1968) məqaləsi M.İbrahitmov, “Vaqif sənətinə yaraşan fırça” (18 oktyabr 1968-ci il) məqaləsi Əli Mina Təbrizli haqqındadır. Azərbaycan minüatür məktəbinin istedadlı nümayəndəsi olan Ə.M.Təbrizli sənətinə yüksək qiymət verən X.Rza milli rəssamlığımızın ulu keyfiyyətlərini bədii-publisistik axarda canlandırmışdır. Rəssamın milli fəxrimiz Babəkə, məşhur filosof-şair Cəlaləddin Rumiyə, dahi Xəyyama, Hafizə və Cami kimi poetik nəhənglərə, qələmi qılıncından daha kəsərli Ş.İ.Xətaiyə, həmçinin Səttarxan və Xiyabani kimi qəhrəman şəxiyyətlərə həsr etdiyi tablolar öz realist qüvvəsi, xəlqçiliyi və bədii yetkinliyi və istedad işığı ilə unudulmaz təsir bağışlayır” (Şairin arxivindən.18 oktyabr 1968-ci il; XXI cild, oktyabr 1968 ci il, 13 yanvar 1969-cu il) [318].

Arxiv sənədləri göstərir ki, X.R.Ulutürk 70-ci illərdə də bədii publisistika sahəsində ciddi çalışmışdır. Bəzən elə olur kl, belə publisistik yazılar memuar xüsusiyyətləri ilə cilalanır, spesifik forma müəyyənliyi kəsb edir. Xəlil Rza Azərbaycanın müxtəlif bölgələrinə səfərləri zamanı təkcə gündəlik (elmi-tarixi memuar) yazmaqla kifayətlənməmiş, konkret başlıqlar, tarixlər altında publisistik məqalələr də hazırlamışdır. Görünür, bunları o, daha çox çap materialları kimi nəzərdə tutmuş, lakin demək olar ki, bəlli səbəblər üzündən çapına nail olmamışdır ("Millilik sənətkarın şüurlu fəaliyyətindən doğmalıdır" (1971), "Milli özəlliklər" (1971) və başqaları).

70-ci illərin publisistik yazıları da tarixi fakt, milli-bəşəri dəyərlərlə yüklüdür. Həmin illərin ədəbi-publisistik yazılarından "Böyük Axuminin sorağında" (21 fevral 1973-cü il), "Əziz, sevimli Suyimə xanım!" (8 fev-ral 1975-ci il), "Qardaşım Əli Mahmud" (23 iyun 1971-ci il), "Türkana doğru" (26 iyun 1971-ci il), "Alimin qayğıları" (18 fevral 1973-cü il tarixli) məqalələri qeyd oluna bilər.

Bir neçə xarakterik nümunə ilə kifayətlənəcəyik. "Qardaşım Əli Mahmud" (23 iyun 1971-ci il) məqaləsində "İnsanın mənəvi ucalığa çağırışı ideyası bədii qüvvətlə verilib. Asif Gündoğanın (Ata – Ə.Ə.) dediklərindən: "Norveç dramaturqu Henrix İbsenin "Brant" əsərinin eyni adlı qəhrəmanı insanları ucalığa, paklığa səsləyir. Ancaq aciz, balaca, bəsit adamlar ardınca getmək istəmirdər. Onu daşa basırlar. Daşa basılan, qana bulaşan Brantın öz amalından dönməməsi, nadanlığın yerində mismarlanıb durması, onun polad iradəsi insanlarda elə güclü heyrət doğurur ki, onlar Brantın dalınca gəlirlər. O, əqidəsində müstəsna dərəcədə yetkin olduğundan fanatikcəsinə, məcnuncasına idealına bağlandığından insanları heyrətləndirir və insanlar onun ardınca irəliləyirlər. Demək, qeyri-adilik hətta, ən adi adamlara belə təsir göstərməyə

bilməz. Ən alçaq adamın ürəyində belə heyrət qığılcımı yox deyil, Heyrətsiz insan yaşaya bilməz. Ancaq bu qığılcımı alova döndərmək üçün müstəsna oğullar gərəkdir. Buna görə də daim dahilərə təşnədir cəmiyyət, toplum. İnsanlar adətən özünə bənzəyənlərə hörmət edir. Ancaq insanlar yalnız özündən yüksəklərin ardınca gedir. Buna görə öncə insanlardan çox yüksəkdə duran bir şəxsiyyət olmaq gərəkdir. Mənəvi zirvədə durmalısan. Bu zirvədən enib insanları həmin ucalığa aparmalısan" (Şairin arxivindən, 23 iyun 1971-ci il) [318].

Dostluğun mahiyyəti də X.R.Ulutürkdə mənəvi yetkinlik nümunəsidir. "Türkana doğru" (26 iyun 1971-ci il) məqaləsində oxuyuruq: "Dostluğu bilməyib yetişdirmək her şeydən öncə içəridən işıqlanmaq, boy atmaq deməkdir, yəni şəxsi yetkinlikdir. Biz özümüz bir insan kimi nə qədər mərd, bilikli, əməksevər oluruqsa, dostluğumuz da bir o qədər zənginləşir. Mən cılız adamların dostluğunu saymıram. Yaşasın böyük təbiətlərin, böyük zəkaların dostluğu! Dostluq həm də bizim çiynimizdə yeni vəzifələr qoyur. Bunu yerinə yetirmədikdə dostluğun bir qütbü ölür" (26 iyun 1971-ci il) [318].

"Zaqatala muzeyində" (4 iyun 1972-ci il) məqaləsi filologiya elmləri doktoru Q.Beqdelinin eyni adlı məqaləsi əsasında hazırlanmış və arxivdə "X.R." imzası ilə saxlanılmışdır. Zaqatala qala tarix ölkəşünaslıq muzeyinin bir illiyi münasibətilə yazılmış məqalədə metal pulların tarixindən söz açılır. Oxuyuruq: "Muzeydə müəyyən miqdarda sikkə saxlanır. Bunlar Sasani dövründən tutmuş Səfəvilərin sonuna qədərki çağlara aiddir. Əməvilər, Abbasilər, Səfəvilər hökmdarlarına dair metal pullar xüsusilə çoxdur. Sasani dövrünə mənsub gənc bir hökmdarın sikkədəki şəkli onun Xosrov Pərviz olması ehtimalını doğurur (26 iyun l971-ci il)[318].

"Alimin qayğıları" (18 fevral 1973-cü il) təbiətə edilən qəsdlərə etiraz təriqilə yazılmış məqalədir. Şair təbi-

ətdə quşların azaldılması, meşələrin qırılması səbəbləri ilə bağlı torpaqşünas, Lənkəran torpaqlarını öyrənmiş Bəqrəddin Həsənovu danışdırır: "Vaxtilə tərifi dünyanı bürümüş Qızılağac qoruğuna qanadlılar düşərgəsi demək olardı. İndi burada qızıl qazın, qırqovulun, turacın, gözəl kəkliyin, nəhəng qanadlı qu quşlarının sayı azalır. Niyə?" "Təbiəti qorumaq yalnız alimin, təsərrüfatçının işi deyil, hamının borcudur. Bir də görürsən ki, yaylağa gəlmiş bir adam kabab çəkmək üçün odun axtarır, tapmayanda balta götürüb üz qoyur meşəyə. Məgər bu insani hərəkətdir? Bəzi nadanlar ağacın qabığım soyurlar ki, gövdəsi gələn iləcən qurusun..." (Şairin arxivindən 18 fevral 1973-cü il) [318]. Şairin niyənələri, həyəcanları bu gün də aktual səslənir.

X.Rza publisistikasında diqqəti cəlb edən bir xüsusiyyət də müsahibə janrı ilə bağlıdır. 70-ci illərdə Xəlil Rza ilə bir neçə dəfə müsahibə aparılmışdır. Həmin müsahibələrin ideya məzmunu da mənəvi dəyərləri təbliğ baxımından qiymətlidir. "Sevimli şairimiz, ustad Bəndəroğlu həzrətlərinin sorğularına cavabım" (5 fevral 1976-cı il), "Əməkdaşımızın şair Xəlil Rza ilə müsahibəsini dinləyin" (1977-ci il), "Telegüzgü əməkdaşları Nazim bəy və Tarıyel bəyin sorğularına cavab" (8 aprel 1980-ci il) müşahidələrində sorğular və cavablar milli-mənəvi keyfiyyətlərlə bağlıdır. Birinci müsahibədə xalqlar arasında mədəni əlaqə və vəzifələr, ikinci müsahibə də ana dilinin təmizliyi, M.Ş.Vazeh, Əcəmi Naxçıvani, Nəsirəddin Tusi, M.Füzuli, A.Ələsgər, Ə.Vahid , klassik irs gəncliyə, milli geyimlərə münasibət, üçüncü müsahibədə isə valideyn və övlad borcu, poeziyanın sirri, "Sirlər xəzinəsi" nin tərcüməsi, azərbaycanlıların soy tərkibi, "Krasnodon qartalları"nın yazılması, tatar dilinin necə öyrənilməsi, "Babək"in səhnəmizdə niyə göstərilməməsi, tərcüməyə geniş yer verilməməsinin səbəblərindən danışılır.

80-ci illərin publisistikası ədəbi portretlər - oçerklər

baxımından seçiləndir. “Qardaşlıq görüşü” (30 iyul 1980-ci il) Abbas Abdulla, “Misilsiz milli xəzinə” (16 dekabr 1984-cü il) Firudin Şuşalı, “Zeynalımızla ilk görüş” (10 ocaq 1985-ci il) Zeynal Məmmədov, “Yeganə təsəllimiz” (12 mart 1985-ci il) Əlfi Qasımov, “Kürlə Xəzər qovuşamda” (21 nisan 1986-cı il) Zabil Pərviz, “Qardaşım, qardaşım Azər İmam” (12 may 1985-ci il) Azər Turan, “Zindanda poeziya günəşi” (14 fevral 1986-cı il) Musa Cəlil, “Möcüzələr diyarında” (5 oktyabr 1986-cı il) Məstan Günər, “Poeziyaya çevrilmiş dostluq” (4 aralıq 1987-ci il) rus şairi Viadislav Şoşin, “Günəş heç bir kəsdən mükafat ummaz” (23 dekabr 1987-ci il) Firudin Şuşalı haqqındadır. Həmin məqalələrdə tanınmış elm, mədəniyyət adamları, onların tarixi xidmətlərindən bəhs edilir. “Zeynalımızla ilk görüş” məqaləsində X.Rzanın B.Vahabzadə və Nurəddin Rzayevlə birlikdə Ağdamda Zeynal Hüseynoğlu Məmmədovla görüşü təsvir olunur. Həmin görüşlərin təsvirində elmi söhbətlərə, elmi təhlillərə geniş yer verilir, ədəbi nümunələr zəminində milli-bəşəri dəyərlərimiz qiymətləndirilir. X.Rzanın Zeynal Məmmədli ilə söhbətləri zamanı alimin Füzuli haqqında təhlilləri ciddi maraq doğurur. Məqalədə oxuyuruq: “Arifliyə, mənəvi qəhrəmanlığa dair Füzulinin ayrıca düsturu var:

Hikməti-dünyavü mafiha bilən arif deyil, Arifoldur bilməyə dünyavü mafiha nədir? “Dünyavü-mafiha” - dünya və onun içində olanlar deməkdir. Bu halda Füzuli beytini bu cür açıqlamalıyıq: Dünya hikmətini və dünyanın içində olanların hikmətini, mənasını bilənlər arif deyil. Arif o kəsdir ki, nə dünyanın nə olduğunu bilə, nə də dünyanın içindəkilərdən xəbər tuta.

Dünyanı dərk etməkdə xariqələr yaradan Füzuli nə üçün belə deyir? Nə üçün insanı idrak həvəsindən saqmdırır? Çünki dünya sonsuzdur və dünyada min-min işin,

hadisənin ardınca qoşmaq mümkün deyil. Min-min iş içindən birini, ən vacibini seçib yalnız onun ardınca getməli, yalnız böyük bir idealın ardınca qaçmalısan! Bu yeganə və dəhşətli iş isə insandan fövqalədə iradə gücü, dözüm tələb edir. Bu yükü boynuna götürübsənsə də, gərək hər qətrə əziyyətə dözəsən, sənə sağ ol deyən tapılmasa belə, gərək haray-həşir salmayasan, qovğa qoparmayasan" (Şairin arxivindən. 10 ocaq 1985-ci il) [318].

Milli musiqimizin dəyərləri təbliğ olunan "Misilsiz milli xəzinə" məqaləsi də qiymətlidir. Orada deyilir: "İfaçılıq sənətinə dair 17 noyabr 1984-cü il tarixli verilişin mavi ekranda səslənməsindən xeyli müddət keçməsinə baxmayaraq, mən hələ də o musiqi axşamının təsiri altındayam. Hələ də misilsiz tarzən Hacı Məmmədovun ifasında dinlədiyim orta mahur, dahi xanəndə Cabbar Qaryağdı oğlunun, şəlalə qüdrətli müğənninin harayları, maraq zəngulələri yaddaşımda yenidən səslənir, qanımı coşdurur. Hələ də ürəyimə sığışmayan iftixarla xatırlayıram ki, Azərbaycan milli mədəniyyətinin beşiyi başında dayanan Səfiyəddin Urməvidən, Əbdül Qədir Marağalıdan tutmuş dahi Üzeyirə, Qara Qarayevə, Fikrət Əmirova və onların ardıcıllarına qədər keçdiyimiz yolda Şərqin ən böyük incəsənət və elm məktəbindən ilham alan və öz növbəsində onun inkişafına təkan vermiş Hacı Hüsü Səttar, Əbdülhəsən xan, İqbal, Əbdülbağі Zülalov, Keçəçioğlu Məhəmməd, Şəkili Ələsgər, Zabul Qasım, Segah İslam, Məşədi Məmməd Fərzəliyev, Seyid Şuşinski, Zülfü Adıgözəlov, Bülbül, Xan Şuşinski kimi xanəndələrimizin tar kaman, ud, ərğənun, balaban, tütək, skripka, nağara kimi alətlərə yeni nəfəs və can gətirən sənətkarın adı və yaradıcılığı bizim milli sərvətlər xəzinəsini nə qədər zənginləşdirmişdir, bu gün onların araşdırılmasına, düzgün qiymətləndirilməsinə və geniş dinləyici kütləsinə çatdırılmasına, musiqi tərbiyəmizin, zövqümüzün yeni və yüksək mərhələyə qaldırılmasına nə qədər böyük ehti-

yac var...” (Şairin arxivindən. 16 dekabr 1984-cü il) [318]..

X.Rza “QaIib gələcəkdir cahanda kamal” məqaləsində, ümumən, insanın “azad və kamil cəmiyyət qurmaq uğrunda düşüncələrindən, mübarizəsindən, silahsız, qırğınsız, zülmsüz, istismarsız cahan yaratmaq üçün beyinlərini və ürəklərini yanar məşələ döndərmək” istəklərindən, “Türkan dəftəri” məqaləsində Türkanın nabatat aləmindən, onun maddi nemətlərindən, “Günəş heç bir kəsdən mükafat ummaz” məqaləsində isə Fürudin Şuşalının musiqi mədəniyyətimizə olan himayəsindən bəhs olunur.

80-ci illərin publisistik məqalələri içərisində “Tofiq Bayram səadəti” (27 aralıq 1985-ci il) məqaləsi istedadlı şair, tərcüməçi T.Bayramın Akademiyanın Nizami adına Ədəbiyyat İnstitutunda keçirilmiş yığıncağından, R.Həmzətovdan etdiyi tərcümələrdən, “Böyük poeziya vətəndaşlıqdan başlanır” (12 dekabr 1986-cı il) məqaləsində teleradio əməkdaşı Eldar Baxışla şairin vətəndaşlıq, çağdaş ədəbi dilin yabançı kəlmələrdən təmizlənməsi məsələlərindən söz açır.

X.Rzanın bədii publisistikasının nəzəri problemləri ilə bağlı məqalələri də arxivdə saxlanılmaqdadır. Bu baxımdan “Bədii publisistika və yenidənqurma” (10 aralıq 1987-ci il), “Getdikcə fəallaşan janr” (10 dekabr 1987-ci il) məqalələri səciyyəvidir. Həmin məqalələr publisistika janrı ilə əlaqədar olaraq keçirilmiş müşavirələr, dəyirmi stollarla, yığıncaqlarla bağlıdır. X.Rzanın “Şəxsiyyət yet-kinliyi və mənəvi güc” (17 şubat 1986-cı il) məqaləsində isə xalq artisti Mikayıl Mirzənin ədəbiyyat və incəsənətlə bağlı sorğuları cavablandırılır.

X.Rzanın “Poeziyanın hücumçu rolu” (17 aralıq 1987-ci il) məqaləsi milli nihilizm, fövqəlbeynəlmiləlçilik fikirlərinin pislənməsi, “Xalqın məhəbbəti” (may 1988-ci il) məqaləsi Məqsud Şeyxzadə, “Poeziya meydanı yalnız

qəhrəmanlarındır" (31 avqust 1987-ci il) məqaləsi şairin "Dramaturgiyada ədəbi əlaqələr", "Məndən başlanır Vətən" kitabları və Rəsul Rzanın həyat və yaradıcılığı ilə bağlıdır.

X.R.Ulutürkün keçən əsrin 80-ci illərinin sonlarından başlayaraq yazdığı publisistik məqalələri əsasən siyasi mövzudadır. Siyasi publisistika onun yaradıcılığında xüsusi kəsər və bədii silqət kəsb edir. Bü, onun məqalələrinin adlarından belə ehtiva olunur. "Nümayişdə tələblərimiz" (16 mayıs 1988-ci il), "Alqışlar, lənətlər" (8 ocaq 1994-cü il), "Savalan ucalığına yüksələk" (1991-ci il) və başqaları. Onu da qeyd edək ki, Xəlil Rza bu dövrdə az siyasi məqalə yazmış, bütün gücünü siyasi hadisələrin qələmə alınmasına, tarixləşməsi, xronologiyalaşmasına doğru yönəltmişdir. Azərbaycanın milli azadlıq hərəkatı-nın tarixi həmin cildlərdə ürək kimi döyünür, yaşayır.

### 3.4. Elmi-tarixi memuarlarında millilik və xalqçılıq məsələləri

X.R.Ulutürk elmi-tarixi memuar yaradıcılığına 60-cı illərdən başlamışdır. O, 1962-63-cü il tarixli gündəliyində bu barədə məlumat vermişdir. "Gündəlik - ürəyimin tərcümeyi-halıdır. Buna görə də hər kəsin, xüsusilə də işi peşəsi xalqın taleyi ilə bağlı olan adamların gündəlik yazması, zənnimcə bir işdir. Amma düz yazasan. Düz də yazmaq həmişə olmur. Hər halda buna mümkün qədər səy etmək lazımdır. Çoxdan gündəlik yazmaq fikrindəydim. Ətalət imkan vermirdi. Axır vaxtlar deyirdim: qoy dissertasiyanı bitirim, sonra başlaram, bu vədimə əməl edirəm". Şairin şəxsi arxivindən (14 noyabr 1962-ci il, Bakı) [318].

Şairin arxivində işləyərkən gördük ki, o, 1962-ci ildən ömrünün sonunadək gündəlik (elmi-tarixi memuar) yazmaq vərdişini cidd-cəhdlə davam etdirmiş, zəngin irs ya-

ratmışdır. Hətta, şairin arxivində bir ilə aid olan 2-3 qovluğunun şahidi olduq. Dediyimiz budur ki, X.R.Ulutürkün gündəlikləri çox geniş və əhatəlidir. Burada 60-90-cı illərin həm tarixi sosial şəraiti, həm də mənəvi psixoloji və elmi-nəzəri səviyyəsi aydın görünür. Professor Əkrəm Cəfər yazmışdır: "Xəlil Rza 300 cilddən artıq gündəliyin müəllifidir. Hərəsi bir dissertasiya həcmində olan bu üç yüz cild, heç şübhəsiz, elmi-tarixi memuarlar kimi qiyətləndiriləcək və ən yüksək mükafata layiq görüləcəkdir" [143, s.260].

Şair isə peşə aludəliyini belə ifadə edir: "Otuz ildən çoxdur ki, gündəlik yazmaqla məşğulam, vaxtım nə qədər az olsa da, bu şakərimdən özümü saxlaya bilmirəm. Hərəsi bir doktorluq dissertasiyası həcmində olan cildlənmiş gündəliklərin sayı üç yüzü keçib. Şeirlərimlə yanaşı gündəliklərim avtoportretlərimdir, burada ədəbi mühitimiz və onu təmsil edən insanların fikir və düşüncələri, ədəbi qurultaylarda, televiziyada, iclaslarda, yubiley mərasimlərində, gündəlik görüşlərimizdə söhbətləri, çıxışları mühüm yer tutur. Səyahətlərə çıxdığım, öyrənməyə çalışdığım Leninqrad, Moskva, Daşkənd, Kazan, Naxçıvan, Ankara, İstanbul kimi şəhərlərdə əlini sıxdığım insanlar, gördüklərim, eşitdiklərim, Mixail Şoloxov, Konstantin Simonov, yubiley karvanı Bakıdan, Bor-çalıdan, Gəncəbasardan tutmuş Leninqradadək uzanıb gedən Səməd Vurğun... haqqında düşüncələr bu gündəliyin ayrı-ayrı yarpaqlarıdır" (Şairin arxivindən. 31 avqust 1987-ci il) [318].

Respublikanın ümummilli lideri, cənab H.Ə.Əliyevin 14 noyabr 2002-ci il tarixli sərəncamına əsasən şairin publisistik irsinin (və ya sənədli nəsrinin) seçmə nümunələri bir cilddə (V cild) toplanıb çapa təqdim edilmişdir. X.Rzanın ümumən publisistik irsinin (o sıradan elmi-tarixi memuarlarının) çapa hazırlanması şairin həyat yoldaşı Firəngiz xanım Ulutürk və bu sətirlərin müəllifi tərəfindən

başlanmışdır. Firəngiz xanım 1998-ci ildə "Lefertovo zindanında" 2004-cü ildə isə "Gəl, ey səhər", 2005-ci ildə "Ustadım Əkrəm Cəfər", 2006-cı ildə isə "Lefertovo zindanında" adları altında X.RUlutürkün elmi-tarixi memuarlarının cüzi bir qismini çap etdirmişdir.

X.Rza yaradıcılığında mental təfəkkür milli və məfkurəvi şüur, milli ideologiya və onun daşıyıcıları ilə möhkəm bağlıdır. O, güclü, vətənpərvər, millətçi və beynəlmiləlçi mütəfəkkir olmuşdur. Millilik məsələləri onun yaradıcılığından tarixi dövr boyu qırmızı xətlə keçmişdir. Bu barədə araşdırmalarımızda yazmışdır: [65; 73; 68]. Burada isə Xəlil Rzanın millətçiliyində qabarıq görünən dil prqbleminə daha yaxından diqqət yetirəcəyik. O, ana dilinin işləkliyi, təbliği, qorunması və təmizliyi uğrunda ardıcıl mübarizə aparmışdır. X.Rzanın əcnəbi (rus) sözləri işlədən şəxsləri 5 qəpik cərimə etməsi faktı əhali arasında geniş yayılmışdı. O, dilə münasibəti fərdi qaydada Azərbaycan dili kimi yox, türkçülük siyasəti, ideoloji-mədəni münasibətin üzvi hissəsi kimi ifadə etmişdir. Hətta, şair bu məsələdə Sabirlə M.Cəlil mövqeyini siyasi müstəvidə təhlilə cəlb etmişdir.

X.Rza qeyd edirdi ki, türk dilləri bir-birinin hesabına daha çox qüvvətlənə, türk elləri bir-birinə daha çox yaxınlaşa, vahid ulus kimi biçimlənə bilərdi. Bunun qarşısını kəsənlərdən biri Stalin oldu. 1928-ci ildə latın əlifbasına keçdiyimizi görən Atatürk həmin yolu tutdu ki, türk xalqları bir-birini oxuya bilsin. Stalin erməni, gürcü əlifbalarına toxunmadığı halda, türk xalqları əlifbasının yenidən dəyişdirilməsi üçün göstəriş verdi. Əlifba siyasəti elə aparıldı ki, azərbaycanlı özbəyi oxuya bilməsin, uyğur türkmənin nə yazğından baş açmasın, tatar qırğızın yazdığına həsrət qalsın. Stalin 1939-cu ildə beynəlxalq vəziyyətin gərgin çağlarında türk xalqlarının Türkiyə ilə əlaqəsini kəsdirdi, Krım türklərinə divan tutdu! Güney Azərbaycanında inqilabı qanda boğmaq üçün şəfait yarat-

dı. Əgər bu millət bu vaxtacan ayaq üstə dura bilibsə, igiddir. Bir azca nəfəs dərmək imkanı olan kimi görün kimləri yetirib? Sabiri, Cavidi, Hadini. Sənətkar kimi hərəsi bir kainatdır. Sabir bədii təsvirdə, göstərməkdə, rəssamlıqda misilsizdir. Hadi monoloqda, lirik "Mən"in zənginliyini aşkara çıxarmaqda. Cavid dramatizmdə, zidd obrazları toqquşdurub təmkinlə kənardan baxmaqda.

- Bəs Füzuli?! Bəlkə türklükdə birinci olan Füzulidir?

Sabir Şərqi bu sualımı təsdiqləyir.

- Əlbəttə, - deyir. - Füzuli özünü türk adlandırırdı, türk sayırdı...

Sabirlə Mirzə Cəlilin fərqi də tarixən türkə münasibət məsələsində üzə çıxmışdır. Sabir bizi türk sayır, Mirzə Cəlil azərbaycanlı. Ancaq hiss olunur ki, Mirzə Cəlilin türkə münasibəti üzəvaridir, şəraitə və senzuraya ilişməmək gərəkliyi ilə bağlıdır. Əks haida Sabirin türk çıxışlarına jurnalında meydan verməzdi. Mirzə Cəlii dahidir. Buna görə Sabirin ikiqat dahiliyinə mane olnıur. İstanbul - Qara dəniz - Batumi - Tbilisi yolu ilə gəlmiş ədəbiyyatı tərcümə etmək məsələsini irəli atan Əli Nəzmiyə Sabir necə divan tutmuşdur!

*Osmanlıcadan tərcümə türkə? Bunu bilməm*
*Gerçəkmi yazır Gəncəli, yainki hənəkdir.*
*Mümkün iki dil bir-birinə tərcümə, əmma*
*Osmanlıcadan tərcümə türkə nə deməkdir?*

Mirzə Cəlilin ciddi etirazı olsaydı, dərgisində Sabirin bu kimi şeirlərinə yol verməzdi. Türkiyə türkcəsilə Azəri türkcəsi arasındakı fərqi aradan qaldırmaq üçün Sabir tərcümə anlayışı yox, "təhvili-ibarət" söz birləşməsini irəli sürürdü" (Şairin arxivindən, 21 aprel 1980-ci il) [318].

Xəlil Rza türkçülüyə düşmən mövqedə dayananlara qarşı amansız olmuşdur. O, kürd, tat, talış, ləzgi və başqalarının türkə qarşı gizli, məxfi fəaliyyət və xəyanətlərini bağışlaya bilmir, bütün bunları tribunalardan, uca səslə

söyləyib onları ifşa etməyi vacib sayırdı (21, 26 noyabr 1986-cı il tarixli gündəliyi) [290]. Lakin X.Rza türkçülükdə azərbaycançılığın qatı təbliğatçısı idi. O, azərbaycançılıq ideyasını ardıcıl surətdə irəli sürür və təbliğ edirdi. Milli azlıqları, etnik qrupları Azerbaycan ətrafında sıx birliyə çağırırdı. "Bizim səhvimiz bunda oldu ki, təxminən 15-20 il bundan irəli milli şüurun yeni oyanışı çağlarında türkçülüyümüzü car çəkdik və bu halda bütün etnik qrupların hədəfinə çevrildik" (26 noyabr 1986-cı il tarixli gündəliyindən) [318]. "Biz türk olduğumuzu bilirik. Lakin içərimizdəki səkkiz etnik tərkibin birliyini qorumaq üçün "Azərbaycanlı anlayışından möhkəm yapışmalıyıq, onu əldən verməməliyiz. Quran da silahımızdır, islam bayrağı da!" (28 aralıq 1989-cu il tarixli gündəliyindən) [318].

X.Rza azərbaycançılıqda daxili, türkçülükdə isə azərbaycançılığa istinadən xarici etnik keyfiyyəti əsas götürmüş, ümumtürk xalqlarına, mədəniyyətinə və ədəbiyyatına üstünlük vermişdir. "Azərbaycanın mənəviyyat mtarixini saxtalıqdan, yalandan, çirkabdan təmizləməliyik. Bunsuz irəli bircə addım da atmaq olmaz. Muğamat və Füzuli səviyyəsində mədəni keçmişi olmayan qazax türkləri bizdən irəlidir. Qırğızlar da eləcə. Bu ulusların böyüklüyü bundadır ki, müstəqillik duyğusuna, bağımsızlıq amalına layiq oğullar yetirə bilirlər. Oljas Süleymenin, Çingiz Aytmatın səsi yalnız qırğızların, qazaxların deyil, ümumən bütün türklərin səsi kimi yüksəlir. Bizdə bu cür şəffaf və qüdrətli səs deyəsən yox kimidir. Nədir bunun səbəbi? Görünür, biz etnik qeyrətimizi itirmişik, yaxud itirmək təhlükəsi qarşısındayıq. XX əsrdə türk xalqları üçün türkçülük ideologiyasından böyük amal olmayıb. İşə bax ki, çarlıq mövqeyində duranlar və onların yerli nökərləri bu böyük amalı da ləkələməyə çalışıblar. Biz redaktoru Əlibəy Hüseynzadə olan "Füyuzat"ın hər nörarəsini qızıla tutub qorumalıyıq, faksimilesini çıxarıb yenidən neşr etməliyik. "Əkinçi"nin, "Molla Nəsrəddin"in daha yüksək

mərhələsi kimi dəyərləndirməliyik. Çünki, “Füyuzat” yalnız çar istibdadına qarşı deyil, həm də eyni qeyrətlə sultan Türkiyəsi istibdadına qarşı çarpışmışdır... Hazırda Azərbaycan “komprador ziyalıların”, əslində ziyasızların böyük bir dəstəsi iş başındadır. Komprador ziyalıların ayağı burda başı ordadır, başı özgələrin qoltuğundadır. Komprador ziyalı xalqın dilini də, mənliyini də, adət və gələnəklərini də hər gün satır” (sentyabr 1985-ci il gündəliyindən) [318].

X.Rza çar siyasətinin mahiyyətini - türk birliyini parçalayan xüsusiyyətləri aşkarlamaqla səhvlərimizə işıq tutmuşdur. “Ayır, buyur” siyasətini əldə tutalqaya çevirmiş çarlıq elan edib ki, yakut xalqı sən qəhrəmansan! Türkmən xalqı sən igidsən! Qırğız xalqı sən bahadırsan! Hərəsinə bir əlifba veriblər, hərəsinin fərdi cəhətlərini şişirdib göylərə qaldırıblar. Nəsimini az qala türkmənlərin əlindən alıblar. Yaxud, “Qisseyi-Yusif” yaradıcısı Əli yalnız tatar sərvəti elan olunub ki, Azərbaycan türkləri bu qaynağa əl atanda tatar ilə toqquşsun və qardaş türk ulus-ları arasında ixtilaf qızışsın. Əslində biz ümumi qaynaqlarımız, ümumi abidələrimiz ilə daha çox fəxr etməliyik. Orxon-Yenisey yadigarları, Balasaqunlu Yusif qələmindən çıxmış “Qutadqu bilik”, Əli ilhamının vergisi “Qisseyi-Yusif”, “Koroğlu”, “Dədə Qorqud”, “Alpamış”, “Yunis İmrə” əslində birləşdirici sərvətdir, parçalanmış türk mədəniyyətini birləşdirməyə çağıran qüvvənin özəy-idir. Mən fəxr edirəm ki, Xəzər dənizinin bu tayında Vaqif, o tayında eyni qüvvəli, bəlkə filosofluğunda daha yüksək mərtəbəli Məhdimqulu yetişmişdir. Mən fəxr edirəm ki, eyni dil həm Nəvaini yetirib, həm Füzulini!.. M.Ə.Rəsulzadə və Əlibəy Hüseynzadə bu amal yolunda sümüklərini də qurban veriblər, şöhrətlərini də... (Sentyabr 1985-ci il tarixli gündəliyindən) [318].

X.Rza türk birliyi ideyasını üzdən, təbliği əsasda qavramamışdır. O, kökdən, əcdaddan gələn və onda yaşayan

birliyi elmi, bədii və publisistik vəhdətdə təcəssüm etdirmişdir. Bu baxımdan şairin tarixi, elmi-tarixi memuarlarında ibrətli məqamlarla üzləşirik. Onlardan bəzilərinə diqqət yetirməyi əhəmiyyətli hesab edirik.

"Ənkə", yaxud "anka" - böyük, ulu deməkdir. Hecalara ayırmalıyıq. "an-ka" birinci heca göy, ikinci heca yer deməkdir. "Yer" – "ata". Deməli, "ənkə" ata-ana birliyidir, ulu və əcdaddır, kişinin yeddi arxa dönənidir.

...Sibirin ən böyük çaylarından biri olan "Ankara" da ənkə//anka anlayışı ilə ilgilidir. Həmin çaya bu adı Sibir türkləri verib. Qara//kara sözünün türkcə ikinci mənası böyük, ulu deməkdir. Ankara ulu, böyük çaydır... "Ana" sözü də anka anlayışından törəmişdir. Çünki "ana" sözü də göyün, yerin gücünü birləşdirir, atanın da qüvvəsini qəbul edir, bətninə köçürür. Türk anlayışına görə həyatda hər şey cütdür, hər xilqətin əkiz tayı vardır: göy - yer, ata - ana, gecə - gündüz, Ay - günəş, su - od, şər -xeyir, Qaraqoyunlu - Ağqoyunlu, Kür - Araz, uçuran - quran..." (4 avqust 1984-cü il tarixli gündəliyindən) [318].

X.Rza gündəliyində davam etdirir ki, Kür ilə Araz birliyində türk təfəkkürü, türk düşüncəsi qərarlıdır. "Türk təfəkkürünə görə Kür ilə Araz iki qardaşdır. Birincisi dağıdan, yığan, quran qüvvədir, buna görə də ona Dəli Kür deyilir. İkincisi ağıllı qardaşdır. Araz adlı bu qardaş quran, ucaldan, yaradan qüvvənin timsalıdır. "Su" pozur, işıq qurur, yaradır. Su ilkindir, işıq ikincidir. Araz işıq, nur timsalıdır. Su dağıdan qüvvə olduğuna görə enir, hopur yerə, işıq isə quran qüvvə olduğuna görə qalxır ucalığa, göyə. Həyat bunların ikisinin vəhdətidir, göylə yerin, işıqla suyun birliyi! Buna görə də qədim türklər həm suyu müqəddəs sayıblar, həm də odu, işığı. Firdövsinin "Şahnamə"sinə Əfrasiyab adı ilə düşmüş Alp Ər Tonqa əslində "su" tanrısıdır (4 avqust 1984-cü il tarixli gündəliyindən) [318].

X.Rzanın "başının ağrıdığı" çağlar daha çox ana dili məsələləri ilə bağlı olmuşdur. Təkcə "Ana dili" şeirinə görə şair 8 aydan artıq "dindirilmiş", MK səviyyəsində gedən müzakirə və mübahisələrə çəkilmişdir. Bu barədə yuxarıda ətraflı bəhs etdiyimizdən təfsilat vermirik (Bax: dissertasiya, s.163-168.)

Xəlil Rza vicdanlı ağılla doğma dilinin keşiyini çəkmiş, dilin qüruru, təmizliyi, varlığı harada yaşayırsa, oraya yeni nəfəs ötürmüşdür. O, Şəhriyarın "Heydərbabaya salam" poemasının yazılma səbəbləri və milli məziyyətlərini Ana dilinə münasibət baxımından dəyərləndirmişdir. Şəhriyar xəstə olanda anası ona baş çəkməyə gəlmiş, farsca yazılarından heç nə başa düşülmədiyini söyləmiş və doğma kənd, təbiət və insanlarla bağlı xatiratlar danışmışdır. Bunlar Şəhriyarın ürəyində gizli-gizli qaynayan vətən çeşmələrinin gözünü açmış və belə bir misilsiz səmimiyyət nümunəsi olan bir əsərin yaranmasına gətirib çıxarmışdır (1964-cü il tarixli gündəliyindən) [318].

X.R.Ulutürk ardıcıl olaraq milli ideallarla, xalq taleyi problemləri ilə yaşamışdır. Yaradıcılığının bütün istiqamətlərində bunu təzahür etdirmişdir. X.Rza dil və mədəniyyət birliyi kimi, coğrafi-ərazi birliyinin yorulmaz təbliğatçısı olmuşdur. Cənubi Azərbaycan məsələsi onun bütün yaradıcılığından qırmızı xətlə keçmişdir. Sənətkarın çoxsaylı şərqşünas və türkoloqların iştirak etdiyi məclisdə Yusif Ziya Şirvanlı demişdir: "Bu qədəhi içirəm vahid Azərbaycanın sağlığına! Mən inanıram ki, bütün dünyada demokratiyanın, xalq səadətinin dayağı sayılan Sovetlər birliyi bizim Arazın o tayındakı Vətən torpağına nicat verəcək. Ancaq anlamıram ki, Qərbi Ukraynam, Qərbi Belorusiyanı xilas edən əllər niyə qısaldı?... Mən inanıram ki, Azərbaycan xalqının günahsız tökülən qanı yerdə qalmayacaq. 137 ildən bəri davam edən tarixi ədalətsizlik aradan qaldırılacaq, dili, qanı, ürfam bir olan xalq milli birliyə

qovuşacaqdır!” (20 dekabr 1969-cu il tarixli gündəliyindən)[318].

Həmin sağlıq üstündə Y.Z.Şirvanlı həbs edilmişdir. Onu “panazərbaycanizm” üstündə ittiham etmişlər. Y.Z.Şirvanlı. “Dedim ki, Ukraynanın birləşməsini diləy-ən adamı panukraynaçı sayırsınızsa, onda mən də bu damğanı üstümə götürürəm: mən panazərəm! Əlbəttə, sonralar bu ittiham ləğv edildi” (20 dekabr 1969-cu il tarixli gündəliyindən) [318]. Göründüyü kimi, X.R.Ulutürk 60-cı illərdən başlayaraq, poeziya, publisistika və tənqiddə də xalq taleyini, Azərbaycan bütövlüyünü inikas etdirmişdir.

X.R.Ulutürk “Millilik - sənətkarın şüurlu fəaliyyətindən doğmalıdır” (1971), “Milli özəlliklər” (1971) məqalələrində Azərbaycan birliyi ideyasına geniş yer vermiş, B.Azəroğlu, H.Bülluri, S.Tahir, Ə.Tudə, M.Gülgün və başqaları ilə bağlı elmi-tarixi memuarlarında Güney və Quzey Azərbaycanın birliyi ideyası olmaq etibarilə Şəhriyar, Q.Beqdeli, onların tarixi, iqtisadi və sosial-siyasi fikirlərini ümumiləşdirmişdir. 90-cı illərə aid olan memuarlarında Güney mövzusu xüsusi yer tutmuşdur.

Milli özünüdərk, milli şüur və məfkurə, humanizm və vətənpərvərlik, azadlıq, sülh, müstəqillik məsələlərini əhatə edən mental fikir və düşüncələr S.Vurğun, M.Müşfiq, R.Rza, Şəhriyar. Ə.Cəfər, İ.Şıxlı, B.Vahabzadə, S.Tahir, Qabil, H.Arif, C.Novruz, M.Araz, Ə.Kürçaylı, S.Rüstəmxanlı, Mirzə Cavad və başqaları ilə bağlı gündəliklərdə (memuarlarda) konkret ifadə olunmuşdur. Ermənistan-Azərbaycan münaqişəsi, Qarabağ problemi, azadlıq, müstəqillik idealları ilə bağlı olan ideya qaynaqları 80-ci illərin ikinci yarısı və 90-cı illərin memuar yazıları üçün səciyyəvidir.

1988-ci ilin qovluğunda “Tələblərim” başlıqlı gündəlikdə deyilirdi:

1. Müsəlmanların ermənilərin əcdadlarına tarixi düşmən olduğunu unutmamaq üçün gələcək nəsillərə yazılıb

əmanət qoyulmuş kitabı (erməni şairi tərəfindən) erməni ailələri hazırda öz qızlarına cehiz verirlər. Bu nə deməkdir? Bunu yazanlarla, buraxanlarla və əzizləyib saxlayanlarla dövlət orqanları nə üçün məşğul olmurlar?

2. 1918-ci ildə türklərin ermənilərə vurduğu tələfatı 1988-ci ilin fevral ayında lentə köçürüb Yerevanda nümayiş etdirməkdə məqsədin nədən ibarət olduğunu dövlət orqanları nə üçün soruşmurlar? Bu, ədavət qaldırmaq deyilmi? Millət qırğınına səbəb olmazmı?

3. 1949-50-ci illərdə Ermənistandan Azərbaycana köçüb gələn neçə minlərlə müsəlman ailəsi nə səbəbə köçürüldülər? Həmin zamanda Azerbaycandan Ermənistana heç erməni ailəsi köçürüldümü, köçüb getdimi? Köçməyin və ya köçməməyin səbəblərini bilirsinizmi?

80-ci illərdə X.Rzaya müraciət olunan və onun da yuxarı orqanlara çatdırdığı tələblərin mahiyyəti daha dərin və kəsərlidir. 1988-ci ilin 16 və 18 mayıs tarixli gündəliklərində deyilirdi: "Azərbaycan xalqının milli və mənəvi birliyini təmin etmək üçün Cənubi Azərbaycan Komitəsi yaradılsın", "Azərbaycan dövlət dilinin hüquqları yerinə yetirilsin!", "Bakıda yaşayan ruslar və başqa millətlər Qarabağ məsələsi ilə əlaqədar konkret fikirlərini söyləsinlər", "Qarabağdakı abidələrdə tariximizin yaddaşı yatır. Onun bərpasında işləyən erməni ustaları rədd olsun!", "Erməni dilində Azərbaycan televiziyası və radiosunda gedən verilişlər ləğv edilsin", "Naxçıvanla Təbriz arasında əlaqə yaradılsın", "Rədd olsun televiziyanın erməni dilində proqramı", "Xudafərin körpüsünə toxunulmasın! Onlar bizim cənublu qardaşlarımızla birləşməyə olan ümidimizdir! [318].

1988-ci il qovluğunun 129-130-cu səhifələrində X.Rza Z.Balayanın "Ocaq" və "İstoriya armyanskoqo naroda" kitablarından sitatlar gətirərək, onların azərbaycanlılara olan mənfi münasibətini göstərir. "Ocaq" kitabında İrəvan xanlığı və onun tarixi, Azərbaycan, o cümlədən, sovet

Azərbaycanının indiki ərazisi Şərqi Ermənistan, başqa sözlə, “Böyük Ermənistan” kimi təqdim edilir. X.Rza tələb edir ki, erməni müəlliflərinin kitablarındakı tarixin saxtalaşdırılması faktlarını öyrənən xüsusi komissiya yaradılsın. Həmin komissiyanın topladığı materiallar şərhləri ilə birlikdə Azərbaycan, erməni və rus dillərində nəşr edilsin. Qarabağın tarixinə aid olan ədəbiyyat yenidən çap olunsun. Qarabağın tarixi ləngidilmədən öyrənilsin. Və tarixi materiallar geniş xalq kütlələrinə çatdırılsın.

X.Rza Qarabağ hadisələri törəyəndə bir ideoloq, mücahid və azadxah kimi fəaliyyətə başlamışdır. Onun siyasi-ideoloji fəaliyyətinin əsasları 1998-ci ildə Firəngiz xanım Ulutürkün tərtibatı, İmran Xəlilovun redaktorluğu ilə çap olunuş “XəliI Rza Ulutürk Lefortovo zindanında” elmi-tarixi memuarında ifadə edilmişdir. Kitab X.R.Ulutürkün 1988-93-cü illər həyatının tarixi əksidir. Xəlil Rza mitinqlərə çıxanda irəlicədən çıxışlarının baş cizgilərini müəyyənləşdirmiş, elmi və siyasi səbatla əzəmətli nitqlər etmişdir. İndiyədək çap edilməmiş həmin tezislərin bir neçəsini təqdim edirik.

1. Azərbaycan hüquqçularının cəmiyyəti təşkil olunsun. Bu cəmiyyət SSR-nin ədliyyə orqanlarına, BMT-yə, İnsan hüquqlarını qoruyan təşkilata, beynəlxalq məhkəməyə üz tutsun. Ermənistandan öz dədə-baba torpaqlarından qoparılmış 300 min türk azərin tapdanmış hüquqları barədə məsələ və cinayət işi qaldırılsın. Daşnaklərin türkazər millətinə qarşı əsrin əvvəllərindən başlamış soyqırımları ifşa olunsun.

2. Qafan rayon mərkəzini və kəndlərini, Basarkeçər mahalını, Zəngibasar elatını, Göyçə mahalını, Arpaçay vadisini, Dilican dərəsini və Dilican rayonunu, Ararat ovdanını, İrəvan xanlığı torpaqlarını və klassik Azərbaycanın digər ərazilərini Azərbaycandan qoparmış velikorus şovinizmi, çar hökuməti və onun sovet dövründəki varisləri ifşa edilsin. Həmin torpaqların Azərbaycana qaytarıl-

ması tələbi Azərbaycan SSR Ali Sovetinin diqqət mərkəzində dayansın!

3. Doğma Qarabağı və yuxarıda adlarını çəkdiyim Türkazər torpaqlarını erməni daşnaklarından tamamilə təmizləmək üçün bütün bəşəriyyətə, Sovet İttifaqı xalqlarına, Qərbə və Şərqə, islam türk dünyasına və bu sırada İrana, Güney Azərbaycanına xitab ediriz, onlardan maddi və mənəvi yardım istəyiriz! Cənubi Azərbaycan xalqı öz klassik xəritəsini, dədə-baba torpaqlarını silahı və qanı ilə qorumağa borcludur. Qardaşlarımızı, həmvətənlərimizi öz müqəddəs borclarını yerinə yetirmeyə çağırırız.

4. Bir nömrəli düşmənimiz biganəlikdir, daşnak təbliğatına uyanlardır.

5. DTK sisteminə soxulmuş 12 erməni zərərsizləşdirilsin.

6. DİN sisteminə soxulmuş velikorus şovinistləri ifşa olunsun.

X.R.Ulutürk 24 sentyabr 1989-cu il tarixli mitinqdəki nitqinin baş cizgiləri Azərbaycan türklərinin dini, əxlaqi, ideoloji, cismani soyqırımı əlifba siyasəti, "yenlənən" ziyalı məsələləri ilə bağlı olmuşdur.

23 oktyabr 1989-cu il tarixli mitinqdə çıxışının baş cizgiləri daha ciddi məramları işıqlandırmışdır. Proqramda deyilirdi:

1. Aşkarlama və demokratikləşdirmə yalnız görkəmli şəxsiyyətlərin işi deyil, tarixin hərəkətidir. Qaragüruhun, irqçiliyin, milli ədavət salanların bütün cəhdlərinə baxmayaraq, bəşəri tərəqqinin qarşısını almaq mümkün deyil. Sivilizasiya irəliləyir, bizim milli mübarizəmiz bəşəriyyətin azadlığı, səadəti uğrunda gedən mübarizənin tərkib hissəsidir. Buna görə biz sionizm, velikorus şovinizmi, erməni daşnakçılığı ilə vuruşa-vuruşa bəşəriyyətin vicdanına üz tuturuq, ruslan, ingilisləri, almanları, yaponları, çinliləri, farsları, ümumən, bütün millətləri, öz xalqını təmsil etməyə qadir olanları bu mübarizəyə qovuşmağa

çağırırız.

2. Qara qüvvələr çox çalışır ki, türk və islam birliyini parçalasın. Azərbaycanı içəridən darmadağın etsin, lahıc, talış, tat, ləzgi, kürd kimi etnik qrupları Azərbaycan türklərinin üstünə yeritsinlər. Buna nail olmayacaqlar. Yenidənqurma, demokratikləşdirmə milli ədavət ilə bir araya sığmaz.

3. Mənim atam Rza kişi Xəlil oğlu 1943-cü ildə müharibədən 17 yara ilə qayıtdı, 47 yaşında bu yaralardan vəfat etdi. Təbriz uğrunda gedən döyüşlərdə ölmədi. ADR uğrunda çarpışmalarda ölmədi. Səttarxan, Xiyabani, Doktor Tağı Ərani, Seyid Cəfər Pişəvəri kimi böyük tarixi şəxsiyyətlərimizin idealları ilə bağlı vuruşmalarda ölmədi. Bu cür ölüm bəlkə mənə qismət oldu. Atamdan on yaş böyüyəm. Mən, 57 yaşlı Xəlil Rza belə bir şanlı ölüm axtarıram.

X.R.Ulutürk 17 noyabr 1989-cu il tarixli mitinqdə Azərbaycan KP MK katibi Ə.Vəzirovdan tələblərinin əsas cizgiləri belə olmuşdur:

1. Bakıda və ümumən Azərbaycanda bütün qara heykəllər uçurulsun: S.Şaumyan, S.M.Kirov, S.Orconikidze qaragüruhuna son qoyulsun. Mirzə Davud Hüseynov, Əliheydər Qarayev kimi milli satqınlar ifşa olunsun.

2. 318 min didərginə, Fərqanədən qovulan türklərə yardım üçün SSRİ büdcəsindən ayrıca fond ayrılsın, bu məsələyə dair Moskva qarşısında vəsatət qaldırılsın.

3. Azərbaycan və özbək xalqları arasında böyük mədəniyyət körpüsü sayılan Məqsud Şeyxzadəyə dair doktorluq əsərimin Daşkənddə rusca və özbəkcə basılması təmin edilsin. Özbəkistan KP MK qarşısında buna dair vəsatət qaldırılsın.

4. Planetin 300-dən çox şairindən etdiyim çevirmələr və öz orijinal əsərlərim on cild həcmində Azərnəşrin planına daxil edilsin. Nəsr əsərlərim, gündəliklərim basılsın.

X.R.Ulutürk Azərbaycan SSR Ali Soveti binası önündə

31 oktyabr 1989-cu II, 17 noyabr 1989-cu il tarixli mitinqlərdə çıxış edərkən, velikorus şovinizmini, Kirovu, MK katibi Ə.Vəzirovun yeni xəyanətlərini ifşa etmişdir. Onun 16 noyabr, 22 noyabr 1989, 8, 9 ocaq, 14 ocaq, 15 ocaq, 19 ocaq, 23 ocaq, 26 ocaq, 27 ocaq, 28 ocaq, 29 ocaq, 30 ocaq 1990-cı il tarixli gündəliklərində ömrünün tarixi məqamları ifadə olunmuş və "Lefortovo zindanı" kitabında çap etdirilmişdir. Şairin zindan həyatının "günləri" tarixi ardıcıllıqla həmin elmi-tarixi memuarlarında özünə yer tutur.

Xəlil Rza Ulutürk zindandan azad edildikdən sonra da ictimai-siyasi fəaliyyətini davam etdirmiş, S.Lazo adına 18 nömrəli Kirov seçki dairəsindən deputatlığa namizədliyi irəli sürmüş, 3318 səs toplayaraq, birinci yerə çıxmış, lakin seçkinin nəticələri saxtalaşdırıldığından o, xalq deputatı ola bilməmişdir. Bununla əlaqədar olaraq onun vəkilləri, müdafiəçiləri müvafiq orqanlar qarşısında məsələ qaldırsa da, faydasız olmuşdur (Şairin arxivindən. "Lefortovo məhkəmə sənədləri" qovluğu. 15 noyabr 1990; Azərbaycan Respublikası prezidenti Ayaz Mütəllibov yoldaşa. Azərbaycan Respublikası Xalq Deputatlığına seçkilər üzrə Mərkəzi Seçki Komissiyasına müraciəti. Bakı, 17 dekabr 1990-cı il) [318].

Azərbaycan-Türkiyə, İran-Naxçıvan dövlət əlaqələrində yaxın iştirak etmiş X.R.Ulutürkün 1990-1994-cü illər həyatının mühüm səhifələri Türkiyə, Almaniya və Fransa ilə bağlı olmuşdur.

Xəlil Rza Ulutürk Azərbaycanın haqq işinə, onun gələcəyinə həmişə inamlı olmuşdur. 18 mayıs 1988-ci il tarixli mitinqdə demişdir:

- Ey əlli milyonluq Azərbaycan! Ey 200 milyonluq türk dünyasının, bir milyardlıq İslam aləminin şah budağı! Ey dünyanın mədəniyyət və qəhrəmanlıq tarixinə Atilla, Dədə Qorqud, Koroğlu, Uzun Həsən, Nəsimi, Çingiz xan, Cəlaləddin, Cavad xan, Dəli Alı kimi ölməzlər, Füzuli,

Saib Təbrizi, Səttarxan, Xiyabani, doktor Tağı Ərani, Şəhriyar, Cavid və Üzeyir bəy kimi qılınc, qələm bahadırları vermiş məmləkətim! Bir-birinə toxunmadan dayanmış bu 700 minlik izdihama, millətə, bu millətin nümayiş mədəniyyətinə, intizam və səliqəsinə baxanda fikirləşirəm ki, sən bütün əngəl və maneələri qıra biləcəksən, bütün arzularına çatacaqsan! (18 mayıs 1988-ci il tarixli gündəliyindən) [318].

Biz X.R.Ulutürkün elmi-tarixi memuarlarında millilik və xalqçılıq məsələləri ilə bağlı olanlara diqqət yetirdik. [84]. Onun memuarlarının geniş surətdə araşdırılması isə xüsusi tədqiqatın mövzusudur.

Xəlil Rza Ulutürkün qüdrətli ictimai-siyasi poeziyası, ədəbi-tənqidi görüşləri, bədii tərcümə və publisistikası, elmi-tarixi memuarları ədəbiyyatımızda, ictimai fikir tariximizdə orijinal ədəbi hadisə olub, milli-bəşəri idealları və xalq taleyi problemlərini daha yüksək səviyyədə təcəssüm etdirmiş, görkəmli şair, filosof, mütəfəkkir şəxsiyyət, ictimai-siyasi xadim və azadlıq hərəkatının mücəssəmi olan sənətkarı Milli İdeal mücahidi kimi fərdiləşdirmişdir.

# NƏTİCƏ

Xəlil Rza Ulutürk görkəmli xalq şairi, filosof, mütəfəkkir şəxsiyyət, ədəbiyyatşünas-alim, tərcüməçi-publisist, milli-azadlıq hərəkatı mücahidi və ictimai-siyasi xadim olduğundan onunla bağlı olan milli ideal və xalq taleyi problemi milli ədəbiyyat kontekstində şairin yaradıcılığı əsasında qabardılmış, diqqət - tədqiqat mərkəzinə çəkilmişdir.

Ötən əsrin 20-30-cu illərində X.Rzanın babalarının əllərindən torpaqlarının alınması və həbs edilib öldürülməsi, şairin ali təhsil illəri, Moskvanın ədəbi-ictimai mühiti və görkəmli adamlarının azadfikirliyi, 60-cı illərdə Asiya, Afrika, Avropa xalqlarının milli azadlıq hərəkatının ədəbiyyata gətirdiyi yeni mündəricə, ideoloji fikir və məfkurələrin mənimsənilməsi - bütün bunlar X.R.Ulutürklə bağlı olan milli şüurun, milli özünüdərkin hərəkətverici qüvvələrindən olmuşdur.

Millilik X.R.Ulutürk yaradıcılığının səciyyəvi xüsusiyyəti olmuşdur. “Ata borcu”, “Ehkamçıya”, “Səttar Bəhlulzadəyə”, “Vətən”, “Xiyabani yurdunda”, “Yurdum sənin sağlığına”, “Laylam mənim, nərəm mənim”, “Qoca arxeoloq”, “Mən nəyəm ki, ey Vətən”, “Yetkinləş Xəlil”, “Ayağa qalx, Azərbaycan”, “Bahar kibi”, “Xalqımın səsi”, “Ürəyimdə qalan tikan”, “Yalnız pasportunda”, “Bozqurda öygü”, “Beşik türküsü”, “Apardı sellər Saranı”, “Gedər”, “Sən mənim vüqarımsan”, “Saz”, “Mən günəş ürəkli Xəlil Rzayam”, “Mən Azərbaycanam” və başqa əsərlərində ana dili, vətənpərvərlik, humanizm, xalqı mübarizəyə çağırış ruhu, ilkinliyə, soy-kökə bağlılıq, vətənçilik, azərbaycançılıq, türkçülük, milli şüur və milli vicdanı oyadış ideyaları güclü inikas etdirilmiş, mürəkkəb tarixi şərait, sosial mühit təzadlı cəhətləri ilə bədii əksini tapmaqla yanaşı, xalq psixologiyası, mənəviyyatı, milli dil və ənənə xüsusiyyətləri qabarıq ifadə

olunmuşdur.

Vətənçilik və azərbaycançılıq şüuru X.R.Ulutürk poeziyasında böyük ümumtürk mənəviyyatından, dilindən və dinindən nəşət almışdır. Ümumtürk vəhdətində mövcud milli "Mən" özünü dərk etdikcə türkçülük, islamçılıq, ürfançılıq, baxışları da dərinləşmişdir. X.R.Ulutürk türkçü, azərbaycançı, xalqçı, vətənçi, istiqlalçı şair olmuşdur. Həmin məsələlərə xüsusi yanaşılmış, Xəlil Rzanı türkçülüklə, azərbaycançılıqla, xalqçılıqla bağlayan məfkurə xüsusi başlıqlar altında tədqiqata cəlb olunmuş, həmin baxışların, ictimai-siyasi və bədii keyfiyyətləri izahını tapmışdır.

X.R.Ulutürkün milli özünüdərkində İnsanın fəal heyat mövqeyinə xüsusi poetik nəzər vardır. Həmin fəallıq mənfiliklərlə üz-üzə gələndə yenini göstərmək meyllərində, özünütəsdiqdə və ictimai ədalətsizliklərlə qarşılaşanda barışmazlıq mövqeyində müəyyənlik tapmışdır. Xəlil Rzanın fərdi fəallığı sadəcə şair fəallığı olmamış, bu, milli-bəşəri səciyyə daşımışdır. Şair mövcud mühitə öz içindən baxmış, onlara ictimai-siyasi və milli "Mən"ini aşılatmaq istəmişdir. Buna görə də X.Rza poeziyası polifonik cəhətləri ilə poetik üslublar sistemindən ayrılıb fərdiləşmişdir.

Daxili fəallıq, narahatlıq X.R.Ulutürk poeziyası və şəxsiyyətinin ruhu olmuşdur. Güclü ictimai fəallıq şeirlərini adilikdən çıxarmış, onlara zəngin hiss və emosiya aşılamış, müdriklik, etik-estetik və ictimai-fəlsəfi məzmun gətirmişdir.

X.R.Ulutürkün milli özünüdərkinin bədii məzmunu 60-cı illər yaradıcılığında əksini tapmış, vaxt keçdikcə güclənmişdir. Xalqın bədii dünyagörüşünün ifadəsi daha qabarıq olan əsərlərdə fəlsəfi düşüncələr mücərrəd, romantik xarakter daşımamış, güclü həyati zəminə, realizmə əsaslanmışdır.

XIX əsrin 50-ci illərindən rüşeymlərini göstərən, 70-

80-ci illərdə mənəvi inkişafı sürətləndirən milli şüur həm də özündə milli məfkurə və idealı yetişdirmişdir. X.R.Ulutürkün yaradıcılığında milli məfkurə 60-cı illərin poetik nümunələrindən əksini tapmışdır. Həmin şeirlərin leytmotivində əsasən Azərbaycanın ərazi bütövlüyü, onun imperiya istismarından xilası, dövlət müstəqilliyinin təmin olunması kimi ideyalar durmuşdur. Milli idealın, xalq taleyinin mərkəzində isə mövcud milli "Mən" – Xəlil Rza Ulutürk ömrü dayanmışdır.

1980-ci ildə və ondan sonra çap olunmuş kitablar: "Məndən başlanır Vətən", "Uzun sürən gənclik", "Davam edir 37" və başqaları Xəlil Rza Ulutürkün istiqlalçılıq məfkurəsinin poetik təcəssümüdür. 60-cı illərin şeirlərində sənətkar erməni daşnakları, rus və fars şovinizminin siyasi düşmən olduğunu dərk etmiş və bütün bunlara mətnarası etirazını bildirmişdir. Milli məfkurə şairin tarixi özünüdərkindən, fərdi poetik "Mən"indən başlamış, getdikcə vüsət alaraq dünyaya, bəşəri dərkə mənəvi keçid olmuşdur.

Milli "Mən" ilk əvvəl şair varlığı, özünüifadəsi ilə obrazlaşmış və xalqı, Vətəni dərklə doğulmuşdur. Mövcud bədii "Mən" özünün böyüməsini, inkişafını, çəkişib-bərkiməsini Vətənə mənən yaxınlaşmasında görmüşdür.

X.R.Ulutürkün məslək və əqidə yaşantıları 60-cı illərin şeirlərindən başlamışdır. Şairə görə məsləkə, məfkurəyə yetməklə Vətənin doğuşu, milli özünüdərki başlanır. Bu məqamda o, Z.Göyalp, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.F.Köprülüzadə, İ.Qasprinski, C.Əfqani, ədəbi olaraq H.Cavid, M.Hadim, A.Şaiq, A.Səhhət, M.Ə.Sabir, Ə.Cəfər, M.Yurdaqul, Y.Qədri, O.Seyfi, X.Ədib, Y.V.Çəmənzəminlini öyrənmiş və başqalarının türkçülük məfkurəsinə yiyələnmişdir.

Milli "Mən" yalnız Vətəni özünüdərklə hüdudlanmış, özünə geniş mənada "Mən Şərqəm" fəlsəfi bütövlüyündə yanaşmışdır; Qərbi də özündə birləşdirməklə dünyanı

dərkə can atmışdır. Şairin məfkurəsində gözəlliyi dərk etmək idraka doğru gedilən yol deməkdir. Şairə görə gözəllik idealını dəyərləndirmək yalnız sevinc emosiyasına görə deyildir, həm də müqəddəs Vətən, millət kədərinə yiyələnmək, Vətən ruhunda tərbiyə olunmaqdır. Şairin məsləkinin doğuşu da insanın azadlıq qüdrətindən, məfkurəsindən vüsət almışdır.

X.Rzanın azadlıq haqqında fikirləri yalnız çağdaşlıq, müasirlikdən müəyyənlik tapmamış, qədim, mifik, tarixi, əfsanəvi hadisələrdən belə başlanğıc götürmüşdür. Spartak, Babək, Koroğlu cəngisi, Nəbi nərəsi, Misri qılınc Xəlil Rza idealının hərəkətverici qüvvəsi olmuşdur. "Məşəl silahlar", "Babək", "Gedər", "Əbədi məşəl" və başqa şeirlərdə azadlıq ideyası tarixi motivlər əsasında simvol-laşdırılmışdır. Həmin şeirlərdə milli şüuru, məfkurəni oyadan rəmzlər Cavanşir, Babək, Misri qılınc, Nəsimi, Sabir, Od, Dağ, Təbriz xalısı, Dədə Qorquddur.

Şair müstəmləkə, əsarətdən qurtuluş düşüncələrini 70-ci illərin şeirlərində milli məhdudluqla ifadə etməmişdir; o, beynəlxalq mövzuda yazdığı şeirlərində belə özünün milli ruhunu əks etdirmişdir; bəşəridə milli, millidə bəşəri ideal axtarmışdır.

60-70-ci illərin şeirlərində milli məfkurə ilə bağlı düşüncələr, ideyalar sızmalar şəklində özünü göstərmişdirsə, 70-ci illərin axırları, 80-ci illərin əvvəllərində böyüyərək etirafa, elana çevrilmişdir. Şair "Mən"i milli məramından söz açmış, onun miqyası fərd, sonra məmləkət və millət hüdudlarına qədər genişlənmişdir.

Ulutürkün dünyabaxışında dil əxlaqda, ruhda, mənəviyyatda özüldür. Milli dilə verilən qiymət yalnız milli düşüncənin səciyyəsini əks etdirmir, o, həm də məfkurə, millət aydınlığı, əzəli və əbədi bir varlıqdır.

Milli məfkurənin tərkib hissəsi kimi Vətənin vəhdəti, xalqçılığın ərazi-mənəvi bütövlüyü Xəlil Rza yaradıcılığında önəmli problem olmuşdur. 60-cı illər şeirlərində

həm bilavasitə, həm də sətiraltı anlamlarda görünən Güney mövzusu, “Araz”, “Təbriz” obrazları ümummilli ədəbiyyatda olduğu kimi “Qatar gedər”, “Gedər” şeirlərində də şair kədərinin, şair məqsədinin ideya daşıyıcıları olmuşdur.

İstiqlal məfkurəsi, ideologiyası X.R.Ulutürkün özünüdərkində fəlsəfi-estetik baxışdır (“Nifrətim var”, “Meyar”, “Böyük sənətkar” və başqaları). Mayası, cövhəri folklorda olan mənəvi azadlıq ideyasının rişələri 60-cı illərin şeirlərindən gəlirdi. Vətənçilik ideyası da 60-cı illərin poetik nümunələrindən başlamışdır.

80-ci illərin əsərlərində X.Rza bir ideoloq, azadlıq mücahidi, istiqlal məfkurəsinin əzabkeşi, Vətənçi, xalqçı kimi görünmüşdür. 60-70-ci illərin əsərlərində milli şüur və məfkurənin təzahürü sətiraltı fikir qatlarında təcəssüm olunmuşdursa, 80 - 90-cı illərin yaradıcılığında bu, aşkar ideya keyfiyyətinə çevrilmişdir. Həmin ideya-məfkurənin canlı təcəssümü, əsasən, imperiyanın kəskin ifşası, Azərbaycan xalqının milli müstəqilliyi, suverenliyi, dövlət yeni istiqlalçılıq ideologiyası ilə bağlıdır.

80-ci illərin şeirləri milli məfkurənin qüdrətli çağırış ruhu ilə seçilmişdir. Bu mübarizə şairin proqramına, həyat idealına çevrilmişdir. Şairi mübarizəyə qaldıran mənəvi-daxili təkan geniş mənada müqəddəs milli kədərdir. 80-ci illərin əsərlərində şair “Mən”i mənəvi-psixoloji məqamlarını ilk əvvəl mövcud mühitə tənqidi, ifşaçı baxışdan almışdırsa, 80-ci illərin axırlarına doğru Azərbaycanın milli həyatında mürəkkəb tarixi-siyasi hadisələrin baş verməsi ilə həmin milli “Mən” bilavasitə azərbaycançı, istiqlalçı, sovet imperiyasına qarşı işfaçı və azadlıq bahadırı kimi konkret xüsusiyyətlər kəsb etmişdir. Bu illərin həyatında və poeziyasında mövcud milli “Mən” təlatümlü, qaynar lirik polifoniyadan çıxaraq, onunla birlikdə üsyankar, patetik-publisistik səciyyəli üslubu da aşkarlamışdır.

Şairin milli-estetik idealı Azərbaycanın taleyi ilə möhkəm bağlıdır. Vətənin, xalqın idealları ilə bağlı problemlərin poetik ifadəsi tarixlə, cəmiyyətin mürəkkəb, təzadlı həyatı ilə müvazi inikas etdirilmişdir. 60-70-ci illərin poeziyasında lirik-romantik polifoniya, ideya-bədii mündəricə daha da zənginləşmişdir. Həmin tarixi-estetik anlayışlar 80-ci illərin poetik nümunələrində vüsətli siqləti ilə seçilmişdir. Dövrün axırlarından başlayaraq, lirik-estetik "Mən" milli "Mən"ə doğru istiqamətlənmiş, 80-90-cı illərin əsərlərində isə milli xarakter, tarixi-bədii şəxsiyyət müəyyənliyi kəsb etmişdir.

60-cı illərin əsərlərində (1960-1964) xalq, vətən müəyyənliyi yalnız dünya gerçəkliyi ilə paralellərdə, müqayisələrdə, lirik-romantik təsvir və tərənnümdə təzahür olunmuşdur. Həmin şeirlərdə xalqın aydın, müəyyən, birbaşa bədii doğuşu, həyat və mənəviyyat aləmi, estetik idealı demək olar ki, görünməmişdir. Estetik ideal, xalq və vətən məfhumları bir çox şeirlərdə motiv, ideya və ya simvollar şəklində təzahür etmişdir.

X.R.Ulutürk yaradıcılığında azərbaycançılıq: vətən və xalq taleyi eyni zamanda milli ideologiyanın daxili keyfiyyəti kimi özünü göstərmişdir. Azərbaycançılıq (vətənçilik) Xəlil Rza dünyabaxışında ardıcıl bədii sistem olub, milli ideal və xalq taleyi deməkdir.

Şairin xalqçılığından danışmaq XIX əsrin rus inqilabçı xalqçılığından və ya Avropada mövcud olmuş xalqçılıq tipindən danışmaq demək deyildir. Ulutürkün xalqçılığı əslində azərbaycançılığın, vətənçiliyin tərkib hissəsi olmuşdur. Yəni Azərbaycan yalnız azərbaycanlıların yox, həm də onlarla birgə qeyri-azərbaycanlılarının: lezgilərin, talışların və başqalarının vətənidir. Şair bu səbəbdən də sadvalçılıq, talışçılıq (Ləzgistan, Talış-Muğan) kimi niyamçı siyasi təmayülləri ciddi surətdə pisləmişdir. Ulutürk separatizm, şovinizm və nihilizmin düşməni olmuşdur. Böyük sənətkar əsərlərində etnik qruplara, milli azlıqlara,

millətlərarası iqtisadi-mədəni birliyə, münasibətlərə, bəşəriliyə əsaslanan xalqçılığı, azərbaycançılıq və vətənçiliyi təbliğ etmişdir.

X.R.Ulutürk yaradıcılığında vətənçilik, türkçülük və xalqçılıq-məfkurəsi önəmli bədii-ideoloji keyfiyyətdir. Vətənin bütövlüyü, onun taleyi X.R.Ulutürkün şəxsiyyət və yaradıcılığında ciddiyyəti ilə görünən problemlərdəndir. Güney Azərbaycanı mövzusu Ulutürk yaradıcılığında aparıcı mövzularda n biri olmuşdur. “Sağlıq, yaxud vəsiyyət” (1962) şeiri Vətənin bütövlüyünə birbaşa münasibət əsasında yazılmışdır. “Oğlum Təbrizə” (1964), “Təbrizim mənim” (1965 - 75), “Anam layla çalır” (1966), “Gözün aydın, Azərbaycan” (1969), “Xiyabani yurdunda” (1975), “Qatar gedər”, “Səsin gəlsin, Təbrizim” (1980), “Xudafərin körpüsü” (1980) şeirlərində epik təsvirə meydan yoxdur; lirik mühakimə, məntiqi məna ilə aşılanmış təhkiyə və intonasiya xasdır. Güney şeirləri milli ideallarla, Vətən taleyi ilə aşılanmış siqlətli poetik nümunələrdir. Həmin əsərlərin qanı, vicdanı, oyadış ruhu çox güclüdür.

X.R.Ulutürkün poeziyasında xalqın həyat və məişəti, psixologiya və mənəviyyatı epik təsvir və təhkiyə əsasında deyil, psixoloji-mənəvi məqamların (hərçənd ki, bunlar da lirik “nüvədən” sərf-nəzər deyil) bədii ifadəsində daha çox aydınlıq və konkretlik tapmışdır.

60-cı illərin əsərlərində milli varlığa baxış üslub xüsusiyyəti kimi başlıca olaraq psixoloji-mənəvi məqamlarda: bədii təsdiq məzmununda, nəqli poetik sintaksisdə, adi intonasiya və lirik-romantik mühakimələrdə qabarıq duyulmuşdur. Həmin onilliyin axırlarına doğru yazılmış əsərlərdə intonasiya, ahəng dəyişir, həyatın, cəmiyyətin təzadları, demokratiya, azadlıq və sərbəstlik meylləri güc-ləndikcə lirik intonasiya, lirik-romantik publisistika, müraciət, münasibət, etiraz, inkar yönündə dinamikliyini artırır; sənətkar mövqeyi, ideal və məram, köhnənin inkarı, yeninin təsdiqi pafosunda üzə çıxır.

70-ci illərin axırları və 80-ci illərdə qələmə alınmış əsərlərdə prototipə qarşı tənqid münasibəti, ifşa pafosu istiqamətlənmişdir. Belə əsərlərin ideya mərkəzində xalq obrazı, məfhumu, leytmotivi dayanır.

80-ci illərin şeirlərində Xəlil Rza Ulutürk ifşaçı, cəmiyyətə müxalif şair mövqeyi ilə daha çox fərdiləşməklə bərabər, milli ideoloq, məfkurə carçısı kimi canlanır. Belə əsərlərin məfkurəsində "Xalqın, Haqqın vicdanı" olan milli "Mən" - İdeal durur.

X.R.Ulutürkün poetik əsərləri təzadlar üzərində qurulmuşdur. Buna görə də həmin bədii keyfiyyət əsas götürülərək, 60-cı illər poeziyası, poetizmin sonrakı davamı da olmaqla təzadların poeziyası kimi xarakterizə edilmişdir. Həmin poetik təzadlar belə qruplaşdırılmışdır:

a) Obyektiv gerçəklikdə baş verən və bunun poetik inikası olan təzadlar;

b) Obyektlə subyektin münasibəti və bunlar arasında asılılıq əsasında yaranan təzadlar;

c) Milli tarixi gerçəkliyin subyektin daxili-mənəvi aləmində doğurduğu psixoloji təzadlar.

60-cı illər X.K.Ulutürkün milli idealının mənbələrini aydınlaşdırmış, türkçülük, vətənçilik, istiqlalçılıq ideyaları, xalq, torpaq taleyi barədə fikirlər ifadə olunmağa başlamışdır. "Afrikanın səsi" isə Ulutürk poeziyası, onun azadlıq idealı üçün epiqraf olmuşdır. Həmin illərin poeziyasında başlıca mövzular siyasi, siyasi-ictimai, ictimai-psixoloji, fərdi-psixoloji, təbiət, məhəbbət, Vətən və vətəndaşlıq, Cənubi Azərbaycan və müharibəyə aid olanlardır.

X.R.Ulutürkün mövcud "Mən"i lirik qəhrəmana keçidlərini 60-cı illərin əsərlərindən, "Mənim şerim", "Əbədi məşəl", "Ən böyük səadət" və başqalarından almışdır. Bu dövrdən başlayaraq, şairin yaradıcılığında lirik-epik üslub lirik-romantik, əxlaqi-romantik müəyyənləşmiş və yetkinləşmişdir.

Ulutürkün milli ideala, xalq taleyinə, milli azadlıq hərəkatına mənəvi gəlişi birbaşa olmamışdır. O, bəhanələr, vasitələr, priyomlar, üsullar araya-araya, mətnarxası, sətirlərarası məqamlardan istifadə edərək, milli ideala doğru yol gəlmişdir. Cənubi Azərbaycan mövzusunda yazdığı əsərlərində ("Oğlum Təbrizə", "Anam layla çalır"...) xalq taleyi və xalqın birliyi ideyasının rişələri də 60-cı illərin əsərlərində olmuşdur.

70-ci illərdə şair 60-cı illərin mövzu və bədii mündəricəsini davam etdirsə də, həmin illərdə onun yaradıcılığında fəlsəfə və didaktika (fəlsəfi-romantik, didaktik-romantik), ictimai reallığın müşahidə və bədii dərkindən irəli gələn zəngin həyat təcrübəsi artmışdır. Bu baxımdan 70-ci illər poeziyası bədii dərk və idrak poeziyası kimi təhlil edilmişdir. 70-ci illərin əsərləri ideya-poetik tutumu ilə daha geniş və müdrik əsərlərdir. 60-cı illərin əsərlərində həyatın müxtəlifliyini obyektiv inikas (hərçənd bu da substansiyasız deyildi) əsas idisə, 70-ci illərin əsərlərində obyektiv hadisələri, subyektiv cəhətdən mənalandırma, onlara bədii qiymət və dəyər vermək xassəsi obyektə fəlsəfi, idraki və didaktik baxış və milli idealları önə çıxarmaq meylləri güclü olmuşdur.

Ulutürkün ictimai etirazları konkret, dərin və aydın bədii dərkini 70-ci illərin əsərlərində göstərmişdir. Həmin illərin nümunələrində ictimai etirazların ifadəsi mövcud mühit və şəraitə, cəmiyyətdə hökm sürən mənəvi-psixoloji, ictimai-siyasi haqsızlıqlara, beynəlxalq şovinizmə, istismara, müstəmləkəçiliyə, imperiyaçılığa qarşı ciddi etirazdır.

Ulutürkün ictimai etirazları ilk əvvəl özünə münasibətdən, etirafdan başlanğıc götürmüşdür. Həmin etirafda lirik qəhrəmanın dönməzliyi, qətiyyəti, mübarizliyi, andı-etiqadı, elanı aydın, kəskin ifadə olunmuşdur. Şairin ictimai etirazlarının psixoloji mənbələrindən biri ictimai etinasızlıq, ətalət və biganəliklə əlaqəlidir.

Şair ictimai etirazlarında həm də həyat adamına yol göstərmiş, nəticələrə gəlmiş, mühakimələr etmişdir. Həm göstərmə-əks etdirmə, həm də müdaxilə və münasibət üsulu ilə həyat, ömür, yaşayış haqqında fikir və mühakimə yürütmüşdür. Ulutürkün ictimai etirazları gah lirik-romantik təhkiyə, gah lirik-patetik, gah da lirik-publisistik ifadə tərzinə əsaslanmışdır.

Sənətkarın 70-ci illərdəki əsərlərində seçilən ideya - mövzu istiqamətlərindən biri də üslubu üçün xarakterik olan mənəvi-psixoloji məqamların obrazlara çevrilməsidir. O, həmin məqamları əxlaqi-fəlsəfi və etik-estetik məzmuna kökləmişdir.

X.R.Ulutürk milli azadlıq idealını nəinki həyatın təzadlarında görmüş, habelə, onu mənəvi-psixoloji dərkdə, fəlsəfi idrakda qavrayıb dəyərləndirmiş və gələcəyə doğru aparmışdır; şair hər məqamda öz idealını, azadlığını bəkləmiş, onun böyüyüb vüsət almasına şərait və məqam axtarmışdır. Buna görə də 80-ci illər poeziyası bilavasitə mənəvi-psixoloji olanın inikası ilə bağlı olduğundan onu məqam və məramın poeziyası kimi səciyyələndirmişik.

Xəlil Rza poeziyasının dövrləri arasına sədd qoymaq, onları ayrı-ayrı istiqamətlərdə xarakterizə etmək fikrindən uzağıq. Həmin dövrlər arasında ideya-bədii vəhdət, əlaqə və münasibət, ideya-mövzu və məzmun bağları möhkəmdir. Lakin biz dövrlərə məxsus olan, qabarıq təzahür edən bədii xüsusiyyətləri nəzərə alıb həmin onillikləri məxsusi başlıqlarla fərdiləşdirmək cəhdində bulunmuşuq.

80-ci illərin əsərlərində vahid bədii üslubun inkişafı aşkar görünür. Yəni X.R.Ulutürk 80-ci illərə qədərki əsərlərində, əsasən, lirik-epik üslub yönündən cəmiyyətə müdaxilə etmişdirsə, 80-ci illərin əsərlərində şairin cəmiyyətə qarşı etirazları onu üsyankar, inkarçı şair mövqeyinə çıxardığına görə tonuslu bədii publisistika və patetika imkanları da poeziyasına güclü surətdə daxil olmuş-

dur. Şairin ictimai etirazları 80-ci illərin poeziyasında bir məqama, bir mərama tuşlanmışdır: bəşəri humanizmin ifadəsi, beynəlxalq imperializmin, rus sovet imperiyasının ifşası, bəşəriyyətin, millətin azadlıq uğrunda mübarizəsi, milli hərəkatların təsviri və tərənnümü.

Humanizm və vətənpərvərlik X.R.Ulutürk idealının tərkib hissəsi club xəlqi-bəşəri məzmundadır. 80-ci illərin şeirlərindəki humanizm, vətənpərvərlik və vətəndaşlığın ideya daşıyıcılarından biri - şəxsiyyət və tale müəyyənliyidir.

80-ci illər poeziyasının bədii keyfiyyətlərindən biri başlıca olaraq iki cür ideya xəttinin davam və inkişaf etdirilməsidir: ictimai-siyasi haqsızlıqların, imperiyanın tənqidi və milli azadlıq hərəkatının yetişməsi. Bu iki xətt sənətkarın humanizm və vətənpərvərliyində daha qabarıq təzahürünü tapmışdır. X.Rza Vətən - Xalq - Azərbaycan bütövlüyünü bütün bədii məqamlarda gözləmişdir. Şairin humanizminin mənbə və axarları bu ülvi qüdrətdən başlanğıc götürmüşdür.

1988-ci ildən X.R.Ulutürk tarixi şəxsiyyət, gerçəklikdə milli xarakter müəyyənliyinə daxil olmuşdur. Həmin tarixdən başlayan milli azadlıq hərəkatı şairi Vətən səngərinə çəkmişdir.

X.R.Ulutürkün milli idealı: Azərbaycanın müstəqil dövlət müəyyənliyi və turançılıq ideyası birbaşa, açıq-aşkar ifadəsini 80-90-cı illərin poeziyasında göstərmişdir.

X.R.Ulutürk 70-ə qədər poemanın müəllifidir. Şairin poemalarına baxış onun yaradıcılığını bütövlükdə tədqiq etmək və milli ideallarını həm də bu janrda izləməkdən irəli gəlmişdir. Bu bölmədə həm də X.R.Ulutürkün lirik, lirik-epik poema, poema-pamflet, poema-monoloqlarından danışılmışdır. “Gələcəksən baharda” (1970), “Təbrizli şairin düşüncələri” (1970), “Həsrət” (1971) əsərlərində azadlıq, mübarizə “Dədə sərvəti” kimi qiymətləndirilir. 80-ci illərin “Hara gedir bu dünya”, “İki qardaşın söhbə-

ti”, “Ağ günlərin qaraldımı”, “Çinar sınar, əyilməz”, “Məni bir dərd yandırır”, “Qalx ayağa, Vətənim”, “Məktublar gedər-gələr”, “O gün gələcək”, “Vətən oğlu” poemalarında lirik təhkiyədə İnsan obrazı psixoloji-hissi məntiqdə, analitik-didaktik, patetik-publisistik təsvirlərdə təqdim edilmişdir. Bu, insanın tarixə siyasi etirazları, xalqın taleyinə vətəndaş yanğısının ifadəsi üçün əsas olmuşdur.

“Ağ günlərin qaraldımı”, “Məktublar gedər-gələr”, “O gün gələcək”, “Qalx ayağa, Vətənim”, “İki qardaşın söhbəti”, “Vətən oğlu”, “Məni bir dərd yandırır” poemalarında azadlıq mübarizəsi Təbrizin, Güneyin obrazı canlandırılmışdır. Bunlar vətənçilik məfkurəsi ilə sıx bağlıdır.

“Şuşa səfəri poemasında Qarabağla, Şuşa ilə əlaqədar olaraq tarixə, tarixi keçmişə epik təsvir görümü vermək yox, məntiqi hökm və qənaətlərdə yanaşmaq ustalığı diqqəti cəlb edir. “Adımız, soyadımız” (1965), “Yadındamı, Səmirə” (1986) poemalarında dil dövlətçilik, türkçülük səviyyəsində dəyərləndirilmişdir.

“Məftillə sarınmış yaralar” və “Qanım bayrağındadır” poemaları 90-cı illərdə yazılmış, Azadlıq hərəkatı ideyasını, milli ideal, xalq taleyi ilə bağlı poetik məramı canlı əks etdirmişdir. “Qanım bayrağımdadır” (1991 - 1994) poeması 20 yanvar şəhidlərinə həsr olunmuş, turançılıq tarixi ideya kimi bütöv qavranılıb dəyərləndirilmişdir. X.R.Ulutürkün istiqlal mübarizəsi yalnız milli hadisə ol-mayıb dünya azadlıq hərəkatının tərkib hissəsidir. X.R.Ulutürkün adı gələndə Azərbaycanın şərəfli mübarizə tarixi göz önündə canlanır. Xəlil Rzanın milli azadlıq hərəkatının öndərlərindən olmaq missiyasının müqəddəm şərtləri vardır. O, özünü siyasətçi, siyasi xadim kimi tanıtmaq istəyindən uzaq olsa da, tarixi gerçəklik özü onu bu yola çəkib gətirmiş, Xəlil Rza varlığında “tarix və şəxsiyyət”, “xalq və ziyalı”, “siyasətçi və ziyalı”, “xalq

və şəxsiyyət” birliyini təcəssüm etdirmişdir.

X.R.Ulutürk Azərbaycan SSR Cinayət Prosessual Məcəlləsinin 67-ci maddəsi ilə milli ədavəti qızışdırmağa görə 6 yanvar 1990-cı ildə həbs edilmişdir. SSRİ DTK-nm Lefortovo zindanına salınmışdır. O, 26 yanvar 1990-cı il tarixdən 9 oktyabr 1990-cı ilədək, 8 ay 13 gün Lefortovo zindanının izolyatorunda saxlanılmışdır. Şair zindanda 2000 səhifədən artıq cildlər yaratmışdır ki, bunun 196 şeirini azadlığa buraxıldıqdan sonra çap etdirmişdir. Həmin şeirləri “Qıfılı o üzdən olan qapılar” adı altında ümumiləşdirmişdir.

Zindan həyatı azadxalının özünüdərkinə bir daha baxışdır. Azadlıq bahadırı belə həyatdan əsla darılmamış, sarsılmamış, bədbin olmamışdır. X.Rzanın əsərləri müqəddəs kədərin ifadəsi olan nikbin, ehtiraslı poeziyanın nümunələridir.

Ulutürk zindan şeirlərini yalnız siyasi motivlər, ideyalar üzərində qurmuşdur. Zindan şeirlərində mübaliğə, təşbeh güclü, romantik təsvir-təfərrüat artıqdır.

Tarixi həqiqətlər milli xarakterin varlığını, mənəvi-psixoloji vəziyyətini müəyyənləşdirmişdir. X.R.Ulutürkün Lefortovo şeirlərində mübarizə, qəhrəmanın fərdi aləmi, psixologiya və mənəviyyatı şeirləşmişdir - xalq taleyi qəhrəmanlıq, şəxsiyyət, xarakter mənasında bir fərdin üzərində müəyyənlik tapmışdır. Milli ideal da həmin fərdin xarakterindən doğulmuşdur. Şair - milli xarakter mənliyindən, dostlarından, Əşrəf Şəfidən aldığı şeirdən, həyat yoldaşı Firəngiz xanım Ulutürkün ilahi məhəbbətindən, məhəbbətin qadir gücündən qüvvət almışdır. Şair Firəngiz xanımı dustaq qadını yox, Azadlığın gəlini kimi dəyərləndirmişdir. Firəngiz məhəbbəti möhnətkeşlik və əzabkeşlik nümunəsidir!

Xəlil Rzanın Lefortovo şeirləri, əsasən lirik-ictimai, patetik, lirik-poetik - etiraf, lirik - tonik, lirik - siyasi, lirik, lirik - epik şeirlərdir. X.R.Ulutürk mürəkkəb tarixi

reallıqdan yazanda janr kimi siyasi pamflet və həcvlərdən də yararlanmışdır.

X.R.Ulutürkün milli xarakteri sosial gerçəkliyin üzvi hissəsi olub, ondan nəşət alan, xalqın inam ve taleyində ümumiləşib özündə türkçülüyü, vətənçiliyi, azərbaycançılıq və Azərbaycan istiqlalını təzahür etdirən tarixi şəxsiyyət xarakteridir.

Xəlil Rza filologiya elmləri doktoru, ədəbiyyatşünas və ədəbi-tənqidçi kimi milli ədəbiyyatın ciddi problemlərinə həm ədəbi-nəzəri, həm də poetik səviyyədə münasibət bildirmişdir. Alimin klassik və müasir poetik irs, habelə, Türk, Qafqaz, Pribaltika, Slavyan, Avropa ölkələri ədəbiyyatının örnəkləri ilə bağlı ciddi fikir mövqeyi olmuşdur. Onun H.Cavid, Ə.Cəfər, Şəhriyar, M.Cəlil, R.Rza, S.Rüstəm, B.Vahabzadə, M.Araz, Qabil, S.Tahir, N.Həsənzadə, Əli Kərim, H.Arif, C.Novruz, Ə.Kürçaylı, N.Xəzri, T.Bayram, Anar, A.Abdulla, S.Rüstəmxanlı, F.Sadıq, F.Mehdi, Z.Vəfa, Hidayət, M.Əliyev, A.Babayev, Z.Yaqub, R.Duyğun, H.Razi, M.Gülgün, N.Rəfibəyli, A.Aslanov, Ş.Əkbərzadə, D.Gədəbəyli, Şövkət xanım, R.Hüseynov, F.Məmmədli, R.İsmayıllı, İ.Kəbirli, F.Kərimli, Rübail və başqalarına olan ədəbi-tənqidi münasibəti onların əsərlərinin millilik və bəşərilik keyfiyyətlərindən irəli gəlmişdir.

Ədəbiyyatşünas-alim geniş mənada ədəbiyyatımızın ənənə, novatorluq, realizm, müasirlik, milli xarakter və bədii forma məsələlərindən danışmışdır. Bunu eyni zamanda bədii nəsrlə: İ.Şıxlı, M.Hüseyn, Ə.Cəfərzadə, İ.Hüseynov, Anar, Y.Səmədoğlu ilə bağlı ədəbi-tənqidi məqalələrinə də aid edirik.

Xəlil Rza əlyazmalarının böyük bir qismi ümumtürk mədəniyyəti ilə əlaqəlidir. Həmin yazılar əsasən qarşılıqlı münasibət zəminində olub, böyük və qüdrətli türk sənətkarlarından bəhs edir. Tofiq Fikrət, Rza Tofiq, Əbdülhaqq Hamid, Namiq Kamal, Nazim Hikmət, Məqsud

Şeyxzadə, Abdulla Arif, Cəlal Kəmal, Abay Kunanbayev, Muxtar Auezov, Sədrəddin Ayni, Abdulla Tukay, Məhdimqulu, Qaysın Quliyev, Aybək, Qafur Qulama müraciət edəndə də məhz bir cəhət - türkçülük və turançılıq Xəlil Rza Ulutürk yaradıcılığında bir ideya, bir məfkurə olmuşdur. T.Fikrətin 100 illiyi ərəfəsində "Türk xalqının vicdanı", M.Şeyxzadəyə həsr olunmuş "Sənət və istedadın qələbəsi", "Sənətkar şöhrətinin sirri", "Böyük sənət xəzinəsi", Abdulla Arif haqqında "Dostluq nədən başlanır"s Abaydan bəhs edən "Abay poeziyası Azərbaycan dilində", Muxtar Auezovdan danışan "Bədii söz nəhəngi", Sədrəddin Aynidən danışan "Ədəbi-elmi qəhrəmanlıq", Abdulla Tukay haqqında "Məşələ çevrilmiş həyat", Məhdimquludan bəhs edən "Türkmənlərin poeziya günəşi", Qaysın Quliyevdən söz açan "Poeziyaya tapşırılmış ürək" və başqa məqalələrində mövcud gerçəklik türk düşüncə və təfəkküründə ifadə olunmşdur.

X.R.Ulutürkün məqalələrinin geniş hissəsi mədəni əlaqələrdən bəhs edir. Mədəniyyətlərin yaxınlaşmasında Aleksandr Blokun həyat və yaradıcılığından bəhs edən "Milli rus şairi", Konstantin Simonovdan söz açan "Çoxşaxəli yaradıcılıq, Taras Şevçenkolan bəhs edən "Ukrayna mədəniyyətinin günəşi", Yevgeni Yevtuşenkodan danışan "Yevtuşenko poeziyası", A.Voznesenskidən bəhs edən "Rus şairi Andrey Voznesenski", V.Luqovskoydan danışan "Vladimir Luqovskoyun sənət qəhrəmanlığı" məqalələri Slavyan - Azərbaycan xalqları mədəniyyət əlaqələrinin inkişafında mənəvi rol oynamışdır. Habelə, Pribaltika xalqları mədəniyyətindən bəhs edən məqalələri Azərbaycanla Baltikyanı ölkələr arasında ədəbi əlaqələrin ifadəsi güclü olmuşdur. Alim rus, tatar, latış, eston, litva, türk, fars, ərəb, özbək, qazax, qırğız, türkmən, Dağıstan xalqları ədəbiyyatı haqqında da qiymətli məqalələr yazmışdır.

X.Rza tərcümə ədəbiyyatının görkəmli nümayəndəsi-

dir. O, tərcüməçilik sənətinin bədii-nəzəri məsələləri ilə ardıcıl məşğul olmuşdur. Tərcüməçi həm Azərbaycan klassik poeziyasının, həm də bəşər bədii fikrinin ən görkəmli nümayəndələrini dilimizə çevirmişdir. Tərcümədən yüksək bədii keyfiyyət tələbi Xəlil Rzanın sənət missiyası olmuşdur.

X.R.Ulutürk publisistik fəaliyyətində XX əsrin 50-ci illərində başlamışdır. O, ədəbi-elmi-bədii mündəricəli yazıların nümunələrini yaratmışdır. Xəlil Rzanın publisistikasına güclü milli-mənəvi dəyərlər xasdır. Şairanəlik, güclü, bədiiyyat, yurd, insan sevgisinin tərənnümü onun bədii məziyyətləridir.

X.R.UIutürkün 80-ci illərin sonlarından başlayaraq, yazdığı məqalələri siyasi mövzudadır. Siyasi publisistika onun yaradıcılığında xüsusi kəsər və bədii siqlət gətirmişdir.

Elmi-tarixi memuar yaradıcılığı Xəlil Rza Ulutürkün adı ilə bağlıdır. O, bu sahədə ədəbi fəaliyyətə 1962-ci ildən başlamış və ömrünün axırınadək davam etdirmişdir. Şairin elmi-tarixi memuarlarında da millilik və xalqçılıq məsələləri güclü olmuşdur.

Xəlil Rza Azərbaycanın, bütün türk dünyasının qüdrətli sənətkarı, ulu türküdür. Türkçülük, azərbaycançılıq, vətənçilik, xalqçılıq, istiqlalçılıq məfkurəsi onun çoxcəhətli fəaliyyətinin əsasıdır. Buna görə də istiqlalçılığın, turançılığın tanrısalı olan X.R.Ulutürkü müdrik və nurani Dədə Qorqud misalında dərk edirik. Dərk edirik ki, sanki milyon illər yaşı olan X.R.Ulutürk müasir zəmanəmizdə türk ellərinin dədəsi, ulusu və piranisidir. O da əlində qopuzu, dilində yanar sözü ilə türk yurdlarını, türk ellərini qarış-qarış gəzməyində, nəfəslərinə nəfəs verməyindədir. “X.Rza bu günün və gələcək dövrlərin şairidir. Çünki onun təravətli poeziyası doğma xalqın ürəyinə həkk olunmuşdur. Nəsillər ötdükcə, öz mübariz ruhu ilə insanları sərvaxt olmağa, Vətən torpağını, azadlıq və istiqlaliyyəti

göz bəbəyi kimi qorumağa səsləyən şeirləri ilə Xəlil Rza hər dəfə “dünyaya təzədən gələcək”, daim yaşayacaqdır” (63, s.5)

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. Abdullayev C. Lirik şeirin müasir problemləri. - Lirika və zaman. - B., Yazıçı, 1982, 180 s.

2. Abdullayeva A. Məmməd Araz poeziyasında bədii təsvir vasitələri. Azərbaycan sovet poeziyasında poetika məsələləri. - Bakı Universiteti nəşriyyatı, 1991, 69 s.

3. Abbasov A. Poetik sözün kəsəri. Azərbaycan sovet poeziyasında poetika məsələləri. - Bakı Universiteti nəşriyyatı, 1991, 69 s.

4. Ağayev Ə. Əsrin tərənnümü. - B., Yazıçı, 1980, 231 s.

5. Ağayev İ. XX əsrin əvvəllərində Azərbaycan şeri. -B., Elm, 2002. 123 s.

6. Axundlu Y. İstiqlal şairləri. -B., Elm, 1998, s.52-92.

7. Axundov A. Vurğu və intonasiya. Şer sənəti və dil. -B., Gənclik 1982, 159 s.

8. Axundov A. Şair və dil. Dilin estetikası. - B., Yazıçı, 1985, 224 s.

9. Alışanov Ş. Sözün estetik yaddaşı. - B., Elm, 1980, 228 s.

10. Anar. Azərbaycançılıq haqqında düşüncələr. “Ədəbiyyat” qəzeti, 10 dekabr 1999, № 48 (3173)

11. Arif M. Yeni nəsil. Ədəbi-tənqidi məqalələr. - B., Azərnəşr, 1958, 446 s.

12. Arif M. Poeziyamız haqqında. - Sənətkar qocalmır. -B., Yazıçı, 1980, 368 s.

13. Arif M. Azərbaycan sovet şeri. - Seçilmiş əsərləri, I cild.- B.,Elm, 1967, 620 s..

14. Arif M. Poeziya və keyfiyyət. - Seçilmiş əsərləri, I cild. B., Elm, 1967,620 s.

15. Arif H. Sarsılmaz birlik. – “Kommunist” qəz., 13 mart 1988.

16. Arif H. Bir şair tanıyıram. Ömürdən uzun gecələr. -B., Gənclik, 1982. 152 s.

17. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. De-

portasiya, soyqırım, qaçqınlıq. -B., Qartal, 1998.
18. Asif A. Türklüyümüz - özümlüyümüz. - “Mənlik” qəz., 14 oktyabr 1994. Ns 10
19. “Azərbaycan” juranalı - 26 ocaq (yanvar) 1990-cı il. Bakı. Lefortovo həbsxanasında. - № 1, 2, 3, 4, 1993.
20. “Azərbaycan” qəzeti. - 7 aprel 1989, № 9-10.
21. Azərbaycan ədəbiyyatının tarixi poetikası. I kitab. -B., Elm, 1989. 235 s.
22. Azərbaycan sovet ədəbiyyatı. Müharibədən sonrakı dinc quruculuq illərində ədəbiyyat (1946 - 1985). - B., Maarif, 1988.
23. Azərbaycan sovet poeziyasında poetika məsələləri. Bakı Universiteti nəşriyyatı, 1991, 69 s.
24. Azərbaycan sovet yazıçıları. Xəlil Rza. - B., Nurlan, 2005.
25. “Bakinskiy raboçiy” qəzeti, 7 may 1924; 9 avqust 1989.
26. Balasaqunlu Y. Qudatqu bilik (Tərcümə edəni X.R.Ulutürk). - B., Gənclik, 1998. 336 s.; B., Gənclik, 2003, 404 s.
27. Baykara H. Azərbaycanın istiqlal mübarizəsi tarixi. -B., Azərnəşr, 1992, 276 s.
28. Bayramzadə S.Z. İran hakim dairələrinin Cənubi Azərbaycan maarifi və mədəniyyəti sahəsindəki siyasəti (1974 - 1978-ci illər). Cənubi Azərbaycan tarixi məsələləri. -B.,Elm, 1989, 221 s.
29. Becanoğlu F. Xəlil Rza Ulutürkə sözardı və ya “Fəryad”a ön söz. Fəryad. - B., Qorqud, 1997, 94 s.
30. Beşirova E. A. Milli azadlıq mübarizəsi. İldırım irsində türk xalqlarının azadlığı və türkçülük ideyaları. - B., Qartal, 1999.
31. Belinski V. Q. Ədəbiyyatın inkişaf məsələləri. Seçilmiş məqalələri. - B., Gənclik, 1979, 225 s.
32. Binnətova A. Poeziyada milli azadlıq duyğuları (1985-1992). -B., Ağrıdağ, 1997, 114 s.

33. Cəfərov M. Şerimiz son beş ildə. Sənət yollarında. -B., Gənclik, 1975, 367 s.
34. Cəfərov M. Əsrimizin yaradıcılıq metodu. Sənət yollarında. - B., Gənclik, 1975, 367 s.
35. Cəfərov M. Klassik romantizm məsələlərinə münasibətimiz. Sənət yollarında. - B, Gənclik, 1975, 367 s.
36. Cəfərov N. Janr münasibətlərinin inkişafı. Azərbaycan ədəbiyyatının tarixi poetikası. I kitab. - B., Elm, 1989, 236 s.
37. Cəfərov N. Müasir ədəbi proses, yaxud "fövqəladə vəziyyətdə düşüncələr". Genezisdən tipologiyaya. - B., Bakı Universiteti nəşriyyatı, 1999, 160 s.
38. Cəfərov N. Azərbaycan: tarixi-kulturoloji mülahizələr. - Azərbaycanşünaslığa giriş. B., AzAtaM., 2002. 599 s.
39. Cəlil M. Moabit dəftəri (Tatarcadan tərcümə edəni Xəlil Rza). - B., Yazıçı, 1979, 278 s.
40. Cənubi Azərbaycan tarixi məsələləri. - B., Elm, 1989, 221 s.
41. Çeşmazər M.M. S.C.Pişəvərinin Azərbaycan Demokrat Partiyasının və Azərbaycan Milli Hökumətinin yaranması uğrunda mübarizədə rolu haqqında. Cənubi Azərbaycan tarixi məsələləri. - B., Elm, 1989, 221 s.
42. Çəmənzəminli Y.V. Müstəqilliyimizi istəyiriksə. - B., Gənclik, 1994.
43. Dəmirçizadə Ə. Azərbaycan dili anlayışı. Azərbaycan ədəbi dilinin tarixi. I hissə - Maarif, 1979.
44. Денисова И.В.Традиции Маякогского в современной поэзии- М.,Значение, 1968, с.6-17
45. Dəmirli M. Xəlil Rza Ulutürk poeziyası. - B., Sabah, 1996, 134 s.
46. Dünyaya pəncərə. -B., Maarif, 1984, 304 s.
47. "Ədəbiyyat və incəsənət", 19 oktyabr 1990.
48. Əfqan Ə. Şayiə düşmən silahıdır; Zərgərov Ə. Ehtiraları qızışdıranlar kimlərdir? – "Kommunist" qəz., 29 fevral 1988.
49. Ələkbərli N. Üç budaq. B., Gənclik, 1999,192 s.

50. Əliqızı A. S.Tahir lirikasının poetik xüsusiyyətləri. Azərbaycan sovet poeziyasında poetika məsələləri. - Bakı Universiteti nəşriyyatı, 1991, 69 s.

51. Əlimirzəyev X. Mikayıl Müşfiq lirikasında romantika. Bədii həqiqət uğrunda. - B., Yazıçı, 1984.

52. Əliyev A. Mübariz poeziya. – "Ədəbiyyat və incəsənət" qəz., 21 sentyabr 1990.

53. Əliyev H. Mədəniyyətimizin keşiyində. I kitab. - B., 2001.

54. Əliyev H. Yeni Azərbaycan Partiyası yaradılmasının altıncı ildönümünə həsr olunmuş təntənəli yığıncaqda nitqi. -I "Respublika" qəzeti, 24 noyabr 1998, № 229.

55. Əliyev H. Dünya azərbaycanlılarının birinci qurultayındakı çıxışı. "Azərbaycan" qəzeti, 10 noyabr 2001.

56. Əliyev K. Demokratik Respublika dövründə inqilabi-realist və romantik bədii fikir. - ADR, Azərnəşr, 1992.

57. Əliyev M. – "Bakı" qəz., 30 dekabr 1985.

58. Əlioğlu M. Şəxsiyyət və zaman. - Hüseyn Cavidin romantizmi. - B., Azərnəşr, 1975, 214 s.

59. Əlişanoğlu T. Məqamın poeziyası. – "Ədəbi-tənqid" jurn., 1992, № 1 s.89-92.

60. Əliyev S. Füzulinin poetikası. -B., Yazıçı, 1986, 221 s.

61. Əliyeva A. Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük. Bakı, Elm, 2002, 332 s.

62. Əliyeva İ. Bəxtiyar Vahabzadə lirikasının bədii xüsusiyyətləri. Azərbaycan sovet poeziyasında poetika məsələləri. - Bakı Universiteti nəşriyyatı, 1991, 69 s.

63. Əhmədov T. Xəlil Rza Ulutürk. - B., Azərbaycan Milli Ensiklopediyası NPB, 2002, 204 s.

64. Əsgərli Ə. Böyük ideallar şairi. Mənə bənzə. - B., Gənclik, 2000, 708 s.

65. Əsgərli Ə. Milli şüur yanğısı və Xəlil Rza Ulutürk. Türkün dastanı. - B., Gənclik, 2000, 800 s.

66. Əsgərli Ə. Xəlil Rza poeziyasında Vətənçilik təfəkkürü. – "Çıraq" jurnalı, 1999, № 6, s.56-61; "Dil və ədə-

biyyat" jurn., 2002, 2 (34), s.68-72.
67. Əsgərli Ə. Döyüş amansızdır, yoxdur orta yol. İlk Allahım, son Allahım mübarizə. B., Gənclik, 1999, s.266-277.
68. Əsgərli Ə. Türkçülük məfkurəsi və Xəlil Rza Ulutürk. Türkün dastanı. - B., Gənclik, 2000, 800 s.
69. Əsgərli Ə. XX əsr Azərbaycan poeziyasında mental təfəkkür və onun fərdi müəyyənlik xüsusiyyətləri / XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. B., Elm, 2006
70. Ə.Əsgərli. "X.R.Ulutürkün fəlsəfi-etik görüşlərinə bir nəzər". Sosial-siyasi problemlər. B., Təbib, 2000, s.42-46.
71. Ə.Əsgərli. X.R.Ulutürkün ictimai-siyasi lirikasının təkamülü və fərdi müəyyənlik xüsusiyyətləri (1950-90-cı illər). X.R.Ulutürk. Seçilmiş əsərləri. B., Gənclik, 2001, s.3-34.
72. Ə.Əsgərli. "İskəndərnamə" yeni poetik nəfəsdə". - N.Gəncəvi. iskəndərnamə (tərcümə edəni X.R.Ulutürk). - B., Gənclik, 2002, s. 19-28.
73. Ə.Əsgərli. Milli və bəşəri sənətkar - X.R.Ulutürk. Mən onsuz da əbədiyəm. - B., Gənclik, 2003, s.3-16.
74. Ə.Əsgərli. Məramımdır mübarizə. – "Yeni Azərbaycan" qəz., 19, 26 yanvar 2003, № 15 (1495); KQ 16 (1496).
75. Ə.Əsgərli. Xəlil Rza Ulutürk yaradıcılığında xalqçılıq təfəkkürü və xalq obrazı. - Azərbaycan MEA Xəbərləri, humanitar elmlər seriyası, 2004, № l, s.80-90.
76. Ə.Əsgərli. Ədəbiyyatşünas-alim. X.R.Ulutürk. Ədəbi tənqid. B., Mütərcim, 2003, s.3-7.
77. Ə.Əsgərli. Ön söz. "Müasirləri Xəlil Rza Ulutürk haqqında" kitabında. - B., Çinar-Çap, 2004, s.3-8.
78. Ə.Əsgərli. Xəlil Rza Ulutürkün poemalarında Güney mövzusu. Müasirləri Xəlil Rza Ulutürk haqqında. - B., Çinar-Çap, 2004, s.445-451.
79. Ə.Əsgərli. X.R.Ulutürkün humanizm və vətənpərvərlik baxışlarına bir nəzər. Müasirləri Xəlil Rza Ulutürk haqqında. B., Çinar-Çap, 2004, s.452-459.
80. Ə.Əsgərli. X.R.Ulutürkün poeziyasında insan obrazı. -B., BAPQS-nin Elmi xəbərləri, Nurlan, 2004, s.55-57.

81. Ə.Əsgərli. X.R.Ulutürkün tərcürnələrində mentol təfəkkür. “Turan çələngi” kitabında. - B., Çinar-Çapp. 2004, s.3-14.
82. Ə.Əsgərli. Xəlil Rza Ulutürk və Əkrəm Cəfər. Ustadım Əkrəm Cəfər. - B., Mütərcim, 2005, s.3-9.
83. Əsgərli Ə. Sırdəryada gülən şair taleyi. – “Azərbaycan” qəz., 9 noyabr 2003, № 260 (3573).
84. Əsgərli Ə. Gündəliyim - Ürəyimin tərcümeyi-halıdır. Xəlil Rza Ulutürkün elmi-tarixi memuarlarında millilik və xalqçılıq məsələləri, - Ədəbiyyat qəzeti, 7 oktyabr, 2005, MQ40 (3479), s. 1-3.
85. Fəlsəfə. B., Azərnəşr, 1997, 376 s.
86. Gəncəvi N. Sirlər xəzinəsi (Tərcümə edəni X.R.Ulutürk). B., Azərnəşr, 1992.
87. Gəncəvi N. Yeddi gözəl (Tərcümə edəni X.R.Ulutürk).B., Gənclik, 2000, 416 s.
88. Gəncəvi N. İsgəndərnamə (Tərcümə edəni X.R.Ulutürk). B., Gənclik, 2002, 866 s.
89. “Günay” qəzeti, 18 may 1997.
90. Göyalp Z. Türkçülüyün əsasları. - B., Maarif, 1991.
91. Hacıyev A. Yazıçı şəxsiyyəti və bədii qanunauyğunluq. - B., Yazıçı, 1986.
92. Hacıyev T. Şairin dil poetikasına dair. Azərbaycan sovet tənqidinin problemləri. - B., ADU nəşri, 1983.
93. Hacıyev T. Azərbaycan ədəbi dili tarixi, II hissə. - B., 1987, 291 s.
94. Həsənli A. Xəlil Rza nəfəsi. “Azərbaycan” jur., 1991, № 10, s.183-187.
95. Həsənov C. Azərbaycanda milliyyətçilik sağlam islamçılıq deməkdir. “Zaman”, 6 şubat, 1993. № 10 (157); 10 şubat 1993, № 11 (158); 13 şubat 1993, № 12 (159).
96. Hidayət. Xəlil Rza zindanda. X.R.Ulutürk. Davam edir 37.-B.,Gənclik, 1992, 528 s.
97. Hüseynov A. Müxtəlifliyin birliyi. - B., Yazıçı, 1983.
98. Hüsenzadə Ə. Siyasəti-fürusət. B., Elm, 1994, 236 s.

99. Xəlil Rza Ulutürk Rəfiq Zəka haqqında. - B., Mütərcim, 1999. 138 s.
100. Xəlil Rza Ulutürk ustadı Bəxtiyar Vahabzadə haqqında. - B., Azərnəşr, 1999, 128 s.
101. Xəlilbəyli M.R. Ulutürk bayramı. - B., Kitab cəmiyyəti, 1992, 86 s.
102. Xəlilbəyli M.R. Əyilməzlik Ulutürkün əslindədi, soyundadı. – "Yeni Azərbaycan" qəz., 8 mart 1997, № 19.
103. Xəlilov Ə. Saf duyğuların tərənnümü. – "Ədəbiyyat və incəsənət" qəz., 16 iyul 1987.
104. Xəlilov P. Qəhrəman şair. Moabit dəftəri. - B., Yazıçı, 1979, 278 s.
105. Xəlilov S. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. - B., 2002.
106. Xəlilova S. Vətənə dönənim. - B., Çaşıoğlu, 2002, 312 s.
107. İbrahimov M. Sənətkarlığın zirvələrinə. Ədəbi qeydlər. - B., Azərnəşr, 1970, 297 s.
108. İbrahimov M. Cənubdan səslər. Əsərləri, 10 cilddə. VII cild. - B., Yazıçı, 1981.
109. İbrahimovM. 1945 - 1946-cı illərdə Cənubi Azərbaycanda milli demokratik hərəkat haqqında. Əsərləri, 10 cilddə. VII cild. - B., Yazıçı, 1981.
110. İlk Allahım, son Allahım Mübarizə. - B., Gənclik, 1999, 320 s.
111. Ивлев Д.Д. Ритмика Моякогского традиции русского классического стиха М., 1973
112. "Kommunıst" qəz., 1988, 1989, 1990.
113. Kazımov Q. Azərbaycan dilinin tarixi (Ən qədim dövrdən XIII əsrə qədər). B., Təhsil nəşriyyatı, 2003, 584 s.
114. Qarayev Y. Milli "Mən" şüuru və etnik yaddaş Min ilin sonu. - B., Elm, 118 s.
115. Qarayev Y. Mərdlik alovu. İlk Allahım, son Allahım mübarizə. - B., Gənclik, 1999, 320 s.

116. Qarayev Y. Sənətin ilkin və əbədi mövzusu. - İnsan problemi. Ədəbiyyatda insan konsepsiyası. - B., Günəş, 1999, 360 s.
117. Qarayev Y. Tənqid və ədəbi proses; Ədəbi tənqid. -B., Yazıçı, 1984, s.
118. Qarayev Y. Zamanın və şerin nəbzi. - Ədəbi üfüqlər. - B.,Gənclik, 1985, 288 s.
119. Qarayev Y. Meyar şəxsiyyətdir. - B., Yazıçı, 1988. 456 s.
120. Qardaşlıq çələngi. - B., Maarif, 1982. 326 s.
121. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. - B.,Maarif, 1974, 360 s.
122. Qasımzadə Q. Ədəbiyyatda mililik və beynəlmiləllik. -B., Elm, 1982, 274 s.
123. Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən. - B., Azərnəşr, 1994, 248 s.
124. Qəhrəmanlı N. Milli ədəbiyyat tarixçiliyi: genezis, inkişaf, dövrləşdirmə problemləri. - B., Qartal, 1997, 116 s.
125. Гончаров В.Р. Поэтика Моякогского. Изд-во Наука, 1983.
126. “Literaturnaya qazeta”, 10 avqust 1988.
127. “Sosialistiçeskaya industriya” qəz., 27 yanvar 1989.
128. Mahmud T. Şerə məhəbbətlə. – “Ədəbiyyat və incəsənət” qəz., 23 oktyabr 1981.
129. Məmməd Cəfər. Seçilmiş əsərləri, 2 clddə. II cild. -B., Azərnəşr, 1974, 341 s.
130. Məmməd Cəfər. Həmişə bizimlə. - B., Yazıçı, 1980, 360 s.
131. Məmmədov E. Lefortovo gündəliyi. Bakı,1992, 72 s.
132. Məmmədov X. Azərbaycan xalqının milli istiqlal mübarizəsi (XIX yüzilliyin sonları - XX yüzilliyin əvvəlləri). - B., Elm, 2005, 249 s.
133. Mərkəz Q. Düyünlənmiş yumruq. - B., Ulduz, 2004, 100 s.
134. Mehdi F. “Azərbaycan” jurnalı, 1983, № 11.

135. Mehdi F. Bədii publisistika. - B.,Maarif, 1982, 394 s.
136. Mehdiyev R. Azərbaycanda siyasət: dünən, bu gün, sabah. – “Respublika” qəz., 11 yanvar 2002.
137. Mehdiyev R. XXI əsrdə Azərbaycanda milli dövlətçilik. B., Yeni nəşrlər evi, 2003.
138. Mirəhmədov Ə. M.Ə.Sabir. Azərbaycan ədəbiyyatı tarixi, 3 cilddə, II cild. -B., Maarif, 1960, 670 s.
139. Mustafa Ə. Sözünün arxasında duran sənətkar. – “Azərbaycan” qəzeti, 28 oktyabr 1992.
140. Mustafayev İ. Bulaq kimi. - B., Yazıçı, 1982.
141. Mustafayev İ., Murtuzayev S. İmam Şamil. - B., Vətən, 1993.
142. Mustafayev V.K. Cənubi azərbaycanlıların milli şüur haqqında bəzi qeydlər. Cənubi Azərbaycan tarixi məsələləri. - B.,Elm, 1989, 221 s.
143. Müasirləri Xəlil Rza Ulutürk haqqında. - B., Çinar-Çap, 2004, 625 s.
144. Namazov Q., Əbdülhəsənov T. Qəhrəmanlıq poeziyası. – “Azərbaycan müəllimi” qəz., 14 aprel 1982.
145. Nağıyeva C. Azərbaycanda Nəvai. - B., Tural-Ə, 2001, 262 s.
146. Nəbiyev B. İstiqlal şairi. - B., Elm, 2001, 348 s.
147. Nəbiyev B. Şair mövqeyi. Taparam səni. - B., Yazıçı, 1980, 267 s.
148. Nəbiyev B. Həyat və bədii həqiqət. Təzə izlər sorağında. - B., Yazıçı, 1979.
149. Nəbiyev B. İstiqlal şairi. Mənə bənzə. - B., Gənclik, 2000, 708 s.
150. Nəsibova H. Müasir Azərbaycan poeziyasında milli azadlıq hərəkatı (1985-1995). - B., 2001, 100 s.
151. Nərimanoğlu K.V. Azərbaycan ədəbiyyatı tarixi: dünən, bu gün, sabah... N.Qəhrəmanlı. Milli ədəbiyyat tarixçiliyi: genezis, inkişaf, dövrləşdirmə problemi. - B., Qartal, 1997, 116 s.
152. “Pravda” qəzeti, 21 mart 1988, 4 aprel 1988.

153. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. - B., Elm, 1990..
154. Rəsulzadə M.Ə. Panturanizm haqqında. – "Azərbaycan" jurn., №6, 1991, № 6, s. 97-126.
155. Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. - B., Gənclik, 1991, 112 s.
156. Rojdestvenski R. Otuzuncu əsrə məktub (Tərcümə edəni X.R.Ulutürk). -B., Gənclik, 1984, 140 s.
157. Rza X. Qüdrətli sənətkar. Mənə bənzə. - B., Gənclik 2000, 708 s.
158. Rza X. Bahar gelir. - B., Uşaqgəncnəşr, 1957, 63 s.
159. Rza X. Bəhrəli gün. - M., Molodaya qvardiya, 1959, 72 s.
160. Rza X. Sevən gözlər. - B., Azərnəşr, 1959, 83 s.
161. Rza X. Məhəbbət dastanı. - B., Uşaqgəncnəşr, 1961, 61 s.
162. Rza X. Poema o lyubvi. - M., Sovetskiy pisatel, 1961, 61 s.
163. Rza X. Fikir və məna şairi. – "Azərbaycan gəncləri" qəz., 6 may 1962
164. Rza X. "Dəli Kür" romanı Azərbaycan nəsrinin nailiyyəti kimi. Xəlil Rza Ulutürk. Mənə bənzə. - B., Gənclik, 2000, 708 s.
165. Rza X. Mənim günəşim. - B., Azərnəşr, 1963,42 s.
166. Rza X. Hüseyn Arif işığında. – "Bakı" qəzeti, 11 fevral 1963.
167. Rza X. Qollarım geniş aç. -B., Azərnəşr, 1965,111 s.
168. Rza X. Səssiz güllələr. – "Bakı" qəzeti, 25 - 26 yanvar 1965.
169. Rza X. Krasnodon qartalları. - B., Gənclik, 1967, 137 s.
170. Rza X. Şairin ikinci həyatı. – "Ədəbiyyat və incəsənət" qəz., 14 fevral 1970.
171. Rza X. Üç milyard səs üçün kantata. – "Azərbaycan"

jurnalı, 1970, №2, s.180 - 183.
172. Rza X. Məqsud Şeyxzadə. - B., "Bilik" cəmiyyəti, 1978, №4, 42 s.
173. Rza X. Bədii idrakın genişliyi uğrunda. Xəlil Rza Ulutürk. Mənə bənzə. - B., Gənclik, 2000, 708 s.
174. Rza X. Tarixi-romantik poema. – "Ədəbiyyat və incəsənət" qəz., 29 iyul 1972.
175. Rza X. Dostluq tərənnümçüsü. - "Azərbaycan gəncləri" qəz., 26 sentyabr 1972.
176. Rza X. Nəzəri fikir və ədəbi həyat. – "Azərbaycan gəncləri" qəz., 10 aprel 1972.
177. Rza X.Vətəndaşlığın səmimi tərənnümü. Xəlil Rza Ulutürk. Mənə bənzə. B., Gənclik, 2000, 708 s.
178. Rza X. Milli ruhun dərin qatları. Xəlil Rza Ulutürk. Mənə bənzə. - B., Gənclik, 2000, 708 s.
179. Rza X. Səmimiyyət, mərdlik, zəka. Xəlil Rza Ulutürk. Mənə bənzə. - B., Gənclik, 2000, 708 s.
180. Rza X. Vətəndaşlıq poeziyası. – "Ədəbiyyat və incəsənət" qəz., 6 oktyabr 1973.
181. Rza X. Ucalıq. -B., Gənclik, 1973, 167 s.
182. Rza X. Poeziya ilə alışan ürək. Xəlil Rza Ulutürk. Mənə bənzə. - B., Gənclik, 2000, 708 s.
183. Rza X. Addımlar, addımlar. – "Ədəbiyyat və incəsənət" qəz., 19 oktyabr 1974.
184. Rza X. Məmməd Aslanın "Səsimə səs ver" toplusu. Xəlil Rza Ulurürk. Mənə bənzə. - B., Gənclik, 2000, 708 s.
185. Rza X. Vətəndaşlıq və müasirlik. – "Ədəbiyyat və incəsənət" qəz., 19 aprel 1975.
186. Rza X. Çoxşaxəli yaradıcılıq. – "Ədəbiyyat və incəsənət" qəz., 29 noyabr 1975.
187. Rza X. Azər Abdullanın şerləri. Xəlil Rza Ulutürk. Mənə bənzə. -B., Gənclik, 2000, 708 s.
188. Rza X. Dəmir Gədəbəylinin "Gənclik" nəşriyyatına təqdim etdiyi "Haçadağ bəzəmələri" şer toplusuna dair rəy. Xəlil Rza Ulutürk. Mənə bənzə. - B., Gənclik, 2000, 708 s.

189. Rza X. Ədəbi axtarış. – "Bakı" qəzeti, 9 aprel 1976.
190. Rza X. Xəlqiliyin böyük poetik idrak ilə birləşməsi uğrunda. Xəlil Rza Ulutürk. Mənə bənzə. - B., Gənclik, 2000, 708 s.
191. Rza X. Doğmalıq. -B., Azərnəşr, 1977, 183 s.
192. Rza X. Anan şair doğub səni. – "Azərbaycan müəllimi" qəz., 20 oktyabr 1978.
193. Rza X. Maraqlı və zəngin tədqiqat. Xəlil Rza Ulutürk. Mənə bənzə. - B., Gənclik, 2000, 708 s.
194. Rza X. Vətəndaş poeziyası uğrunda. – "Ədəbiyyat və incəsənət" qəz., 23 iyun 1967.
195. Rza X. Dostluq nədən başlanır. Xəlil Rza Ulutürk. Mənə bənzə. - B., Gonclik, 2000, 708 s.
196. Rza X. Şairliyin mahiyyəti. - Ulduz, 1976, №11, s.30-34.
197. Rza X. Ürəyə damanlar. Xəlil Rza Ulutürk. Mənə bənzə. - B., Gənclik, 2000, 708 s.
198. Rza X. Ürəkdən-ürəyə. – "Ədəbiyyat və incəsənət" qəz., 8 may 1976.
199. Rza X. Böyük vətəndaş, qüdrətli şair. Xəlil Rza Ulutürk. Mənə bənzə. - B., Gənclik, 2000, 708 s.
200. Rza X. Məndən başlanır Vətən. - B., Yazıçı, 1988, 400 s.
201. Rza X. Səmimiyyət, orijinallıq. – "Ulduz" jurn., 1976, №10,s.97-99.
202. Rza X. Qəhrəmanlıq poeziyası. – "Ədəbiyyat və incəsənət" qəz., 18 oktyabr 1976.
203. Rza X. Məqsud Şeyxzadənin bədii yaradıcılığı və Azəbaycan - özbək ədəbi əlaqələrinin aktual problemləri (Dissertasiya Azərbaycan MEA Nizami adına Ədəbiyyat İnstitutunun kitabxanasında saxlanılır).
204. Rza X. Şairlik və bədii tərcümə. – "Azərbaycan" jurn., 1976, №12, s. 198-201.
205. Rza X. Şeriyyət və qəhrəmanlıq mücəssəməsi. –"Bakı" qəz., 14 fevral 1976.

206. Rza X. Məşələ çevrilmiş həyat. – "Azərbaycan" jurn., 1976, №4, s.151-156.
207. Rza X. Poema: axtarışlar, perspektivlər. – "Ədəbiyyat və incəsənət" qəz., 29 oktyabr 1977.
208. Rza X. Bədii söz nəhəngi. – "Kommunist" qəz., 28 sentyabr 1977.
209. Rza X. Bədii fikrin genişliyi uğrunda. – "Ədəbiyyat və incəsənət" qəz., 26 noyabr 1977.
210. Rza X. Rəhilə İsmayılqızının şerleri. Xəlil Rza Ulutürk. Mənə bənzə. - B., Gənclik, 2000, 708 s.
211. Rza X. Müharibədən sonrakı Azərbaycan sovet ədəbiyyatında poema janrı (1945 - 1950). Namizədlik dissertasiyası.
212. Rza X. Poeziya xalqın nəfəsidir. – "Azərbaycan müəllimi" qəz., 1 dekabr 1978.
213. Rza X. Dünyaya pəncərə. - B., Maarif, 1984, 304 s.
214. Rza X. Ədəbi, elmi qəhrəmanlıq. Xəlil Rza Ulutürk. Mənə bənzə. - B., Gənclik, 2000, 708 s.
215. Rza X. Sənətkar igidliyi. – "Qobustan" jurn., 1978, №2.
216. Rza X. Anan şair doğub səni. – "Azərbaycan müəllimi" qəz., 20 oktyabr 1978.
217. Rza X. Sənətkar şöhrətinin sirri. – "Azərbaycan gəncləri" qəz., 7 dekabr 1978.
218. Rza X. Ukrayna mədəniyyətinin günəşi. – "Azərbaycan müəllimi" qəz., 21 sentyabr 1979.
219. Rza X. Qardaş xalqın mənəvi sərvəti. – "Təbliğatçı" jurnalı, 1979, №8, s.14-19.
220. Rza X. Ukrayna poeziyası və bədii tərcümənin aktual problemləri. Mənə bənzə. - B., Gənclik, 2000, 708 s.
221. Rza X. Misralara çevrilmiş göz nuru, ürək odu. – "Azərbaycan müəllimi" qəz., 3 mart 1982.
222. Rza X. Böyük mütəfəkkir Nizami Gəncəvi. – "Azərbaycan müəllimi" qəz., 23 mart 1979.
223. Rza X. Sənət yarışı. – "Sovet kəndi" qəz., 20 oktyabr

1979.
224. Rza X. Gənclik özü şerdir. – “Azərbaycan gəncləri” qəz., dekabr l979.
225. Rza X. Möhtəşəm sənətin hünər bayramı. – “Bakı” qəzeti, 24 oktyabr 1979.
226. Rza X. İntizarla gözləyirik. – “Sovet kəndi” qəz., 31 may 1979.
227. Rza X. Göy yerə yaxın idi. – “Azərbaycan” jurn., 1979, №2,s.87-91.
228. Rza X. Dost sözləri. – “Ədəbiyyat və incəsənət” qəz., 18 mart 1980.
229. Rza X. Taparam səni. - B., Yazıçı, 1980, 267 s.
230. RzaX. Əlvida, sevimli şairimiz. – “Ədəbiyyat və incəsənət” qəz., 15 fevral 1980.
231. Rza X. Şahmar Əkbərzadəyə açıq məktub. Xəlil Rza Ulutürk. Mənə bənzə. - B., Gənclik, 2000, 708 s.
232. Rza X. Milli rus şairi. Xəlil Rza Ulutürk. Mənə bənzə. - B., Gənclik, 2000, 708 s.
233. Rza X. Qüdrətli sənətkar. – “Ədəbiyyat və incəsənət” qəz., 23 may 1980.
234. Rza X. Yerdən göyə ümid (Ümdə məhəbbət poeziyası). Xəlil Rza Ulutürk. Mənə bənzə. - B., Gənclik, 2000, 708 s.
235. Rza X. Rus şairi A.Voznesenski. Xəlil Rza Ulutürk. Mənə bənzə. - B., Genclik, 2000, 708 s.
236. Rza X. Səadət və döyüş poeziyası. – “Azərbaycan müəllimi” qəz., 25 mart 1981.
237. Rza X. Bu dünyadan Rəsul keçdi. – “Azərbaycan müəllimi” qəz., 8 aprel 1981.
238. Rza X. Zəfər dastanı. – “Azərbaycan gəncləri” qəz., 5 noyabr l981.
239. Rza X. Şair qəhrəmanlığı. – “Ədəbiyyat və incəsənət” qəz., 13 mart 1981.
240. Rza X. Marallar da duz yeyərmiş. - B., Gənclik, 1981, 151 s.

241.Rza X. Poeziyaya həsr olunmuş həyat. Xəlil Rza Ulutürk. Mənə bənzə. - B., Gənclik, 2000, 708 s.
242. Rza X. Rəsul Rza həsrəti. - B., Elm, 2000, 220 s.
243. Rza X. Yeni zirvələrə. - B., Azərnəşr, 1971, 178 s.
244. Rza X. Dramaturgiyada ədəbi əlaqələr. - B., Elm, 1987, 280 s.
245. Rza X. Ömürdən uzun gecələr. - B., Gənclik, 1982, 152 s.
246. Rza X. Poeziya hünər meydanıdır. Xəlil Rza Ulutürk. Mənə bənzə. - B., Gənclik, 2000, 708 s.
247. Rza X. Poeziya ruhun qüdrətidir. Hara gedir bu dünya. - B., Yazıçı, 1983, 280 s.
248. Rza X. Bir az möhlət istəyirəm ömürdən. – "Sovet kəndi" qəz., 20 yanvar 1983.
249. Rza X. Kibrit işığında. – "Ulduz" jurnalı, 1983, №11.
250. Rza X. Şair hünəri. Xəlil Rza Ulutürk. Mənə bənzə. - B., Gənclik, 2000, 708 s.
251. Rza X. Sovet mədəniyyətinin fəxri. – "Azərbaycan müəllimi" qəz., 10 iyun 1983.
252. Rza X. Hara gedir bu dünya. B.,Yazıçı, 1983, 280 s.
253. Rza X. İki qüdrət əl-ələ. – "Azərbaycan müəllimi" qəz., 30 mart 1983.
254. Rza X. Düşündürən poema. – "Ədəbiyyat və incəsənət" qəz., 10 aprel 1983.
255. Rza X. Şair Ramiz Duyğun. Xəlil Rza Ulutürk. Menə bənzə. - B., Gənclik, 2000, 708 s.
256. Rza X. Böyük məhəbbəti ləkələyənlər. – "Azərbaycan müəllimi" qəz., 24 dekabr 1985.
257. Rza X. Ədəbi hadisə səviyyəsində roman. Xəlil Rza Ulutürk. Mənə bonzə. - B., Gənclik, 2000, 708 s.
258. Rza X. Əvvəl elin idi. – "Azərbaycan müəllimi" qəz., 6 mart 1985.
259. Rza X. Qalib gələcəkdir cahanda kamal. – "Kommunist" qəz., 12 sentyabr 1986.

260. Rza X. Ürəklərə yol açan poeziya. Xəlil Rza Ulutürk. Mənə bənzə. - B., Gənclik, 2000, 708 s.
261. Rza X. Daşdan çıxan bulaq.-B., Gənclik,1986, 196 s.
262. Rza X. Mayakovskiyə layiq. – “Azərbaycan” jurn., 1987, №2.
263. Rza X. Vaxtdan uca dayanmağı bacaranlar. – “U1duz” jurn., 1988, № 7, s.69-74.
264. Rza X. Ədəbi tərcümə: dəyirmi stol ətrafında söhbət. – “Ədəbiyyat və incəsənət” qəz., 7 oktyabr 1988.
265. Rza X. Yaddaşa inam. 4 “Azərbaycan” jurnalı, 1988, № 6,s.l l2-115.
266. Rza X. Sanki bir dağ yıxıldı. – “Azərbaycan müəllimi” qəz., 23 sentyabr 1988.
267. Rza X. Poeziya cəsurluqdur, bir də... – “Ədəbiyyat və incəsənət” qəz., 12 fevral 1988.
268. Rza X. Həyata məhəbbətlə. – “Ədəbiyyat və incəsənət” qəz., 1 yanvar 1988.
269. Rza X. Musiqidən keçən ömür. – “Ədəbiyyat və incəsənət” qəz., 2 sentyabr 1988.
270. Rza X. Bir şairin iki yeni kitabı. – “Ulduz” jurnalı, 1989, № 7, s.64-70.
271. Rza X. Məndən başlanır Vətən. - B., Yazıçı. 1988, 400 s.
272. Rza X. Bütün cəbhələrin ilk səfərbəri. – “Açıq söz” qəzeti, 5 yanvar 1991.
273. Rza X. Mən atamın, babamın məzarını qoruyuram. – “Aydınlıq” qəzeti, 10 iyul 1992.
274. Rza X. Lefortovo həbsxanasında. – “Azərbaycan” jurnalı, 1993, №1-2.
275. Rza X. Haray dünya. – “Ədəbiyyat qəzeti”, 7 may 1993.
276. Rza X. Qəlbin son nidası. – “Əədəbiyyat qəzeti”, 20 iyul 1994.
277. Rza X. İki xalqın oğlu. – “Ədəbiyyat qəzeti”, 22 yanvar 1994.

278. Rza X. Seçilmiş əsərləri. 2 cilddə, I-II cild, - B., Qərb-Qərb, 2005.

279. Salmanov Ş. Poeziya və tənqid. - B., Yazıçı, 1987.

280. Sosialistiçeskaya industriya. - 27 yanvar 1989.

281. Selvinski İ. Babək (Tərcümə edəni X.R.Ulutürk). -B., Gənclik, 1975.

282. Seyidov M. Əski köklər. Azərbaycan xalqının soy-kökünü düşünərkən. B., Yazıçı, 1989.

283. Şəmsizadə N. Azərbaycan ədəbiyyatşünaslığı. 4 B., Ozan, 1997, 228 s.

284. Şəmsizadə N. Azərbaycan ideologiyası. - B., Ozan, 1998, 223 s.

285. Şıxlı İ. Zindandan keçən azadlıq yolu. Ayla Günəş arasında. -B., Yazıçı, 1992, 560 s. (s.3-10).

286. Talıbzadə K. A hüriyyət, a münfərid əməlim. Sənətkarın şəxsiyyəti. -B., Yazıçı, 1978, 378 s.

287. Talıbzadə K. Ədəbi dil problemi. Azərbaycan ədəbi tənqidinin tarixi.- B., Maarif, 1984, 338 s.

288. Turan A. Cavid əfəndi. Bakı, Azər, 2004, 310 s.

289. Turan A. İrfan çobanı. Bakı, Azər, 2003, 350 s.

290. Ulutürk F. Dünyanın Ulutürkü. X.R.Ulutürk. Türkün dastanı. - B., Gənclik, 2000, 800 s.

291. Ulutürk F. Xəlil Rza kədərimlə qol-boyun. - B., Gənclik, 2003, 252 s

292. Ulutürk X.R. Poeziya - ən böyük milli sərvət. - Turan çələngi. - B., Elm, 1992, 792 s.

293. Ulutürk X.R. Davam edir 37. - B., Gənclik, 1992, 528 s.

294. Ulutürk X.R. İstiqlal nəğməkarı. - B., Təfəkkür, 2000, 108 s.

295. Ulutürk X.R. Addımlayan ensiklopediyamız. - B.. Qorqud, 1994, 36 s.

296. Ulutürk X.R. Ayla Günəş arasında. - B.. Yazıçı, 1992, 560 s.

297. Ulutürk X.R. Uzun sürən gənclik. - B., Azərnəşr,

1994, 437 s.
298. Ulutürk X.R. Mən Şərqəm. - B., Elm,
1994, 768 s.
299. Ulutürk X.R. Bağışla, ey Vətən. - B., Azərbaycan nəşriyyatı, 1995,145 s.
300. Ulutürk X.R. Lefortovo zindanında. - B., Azərbaycan nəşriyyatı, 1998, 240 s; Çinar-Çap nəşr. 2006, 498s.
301. Ulutürk X.R. Azadlıq. - Ankara, 1998, 400 s.
302. Ulutürk X.R. Mənə bənzə - B., Gənclik, 2000, 708 s.
303. Ulutürk X.R. Türkün dastanı. - B., Gənclik, 2000, 800 s.
304. Ulutürk X.R. Seçilmiş əsərləri. - B., Gənclik, 2001, 621 s.
305. Ulutürk X.R. Mən onsuz da əbədiyəm. - B., Gənclik, 2003, 1056 s.
306. Ulutürk X.R. Ədəbi tənqid. - B., Mütərcim, 2003, 876 s.
307. Ulutürk X.R. Turan çələngi. - B., Qapp-Poliqraf, 2005, 873 s.
308. Ulutürk X.R. Ustadım Əkrəm Cəfər. - B., Mütərcim, 2005, 332 s.
309. Ulutürk X.R. Gəl, ey səhər. - B., Nağıl evi, 2004.
310. Vahabzadə B. Poeziya alovu. Xəlil Rza. Doğmalıq. -B., Azərnəşr, 1977, s.3-9.
311. Vahabzadə B. Dərin qatlara işıq. -B., Yazıçı, 1986, 320 s.
312. Vəfalı A. Füzuli öyrədir. - B., Gənclik, 1977, 148 s.
313. Vəliyev İ. Ədəbiyyatda İnsan konsepsiyası. Tarixi təşəkkülü, inkişaf mərhələləri. - B., Günəş, 1999, 360 s.
314. Vəliyev Ş. Füyuzat ədəbi məktəbi. - B., Elm, 1999, 388 s.
315. Великанова Ф. Русскоязычная проза Азербайджана. – Б., Элм, 1999, 197 с.
316. Yağmur Z. İlahilik eşqi. İnsan axtarışında. - B., Günəş, 1988.
317. Yusifli V. Ürəyimi sərdim günəşə. - B., Təbriz,

1997.
318. Xəlil Rza Ulutürkün şəxsi arxivi. 1962 - 1994-cü illər.

## Mündəricat

İstiqlal şairi və onun haqqında yeni tədqiqat əsəri…......…………5
Giriş……………………………………………………………34
**I Fəsil.** Xəlil Rza Ulutürkün yaradıcılığında milli özünüdərkin mənbə və qaynaqları…………...................................……….46
1.1.Şairin milli mənlik şüur və məfkurəsi………......…………..46
1.2.Milli idelda azərbaycançılıq………………….…………......127
**II Fəsil.** Şairin poeziyasında milli azadlıq hərəkatının əksi…………………………..………………………147
2.1.İctimai-siyasi lirikasının təkamülü və fərdi müəyyənlik xüsusiyyətləri………………………………………………..147
2.2.Poemalarında tarixə baxış və istiqlalçılıq…………………..226
2.3.Tarixi gerçəklik və şairin milli xarakteri……….…………..249
**III Fəsil**. Xəlil Rza Ulutürkün ədəbi-tənqid, bədii tərcümə, publisistika və elmi-tarixi memuarlarında millilik-bəşərilik xüsusiyyətləri…………………………...………………316
3.1.Milli ideal və xalq taleyi məsələləri ədəbi-nəzəri təfəkkürdə……………………………………………………..316
3.2.Poetik tərcümələrində mental təfəkkür……………………..334
3.3.Publisistikasında milli-mənəvi dəyərlər………..…………..347
3.4.Elmi-tarixi memuarlarında millilik və xalqçılıq məsələləri……………………………………………………368
Nəticə.......................................................................................383
İstifadə edilmiş ədəbiyyat………………………………….400

Yığılmağa verilmiş 05.10.2005
Çapa imzalanmış 26.12.2005
Kağız formatı 60x84. Çap vərəqi 26.25
Sifariş 36. Sayı 500.

Kitab "BQU"-nun mətbəəsində ofset üsulu ilə çap olunmuşdur. M.Sənani küç.14.